A N A R

Əsərlər

VI

ssenarilər, tərcümələr

Bu kitabın çapı

Ekson Azərbaycan Əməliyyat Şirkəti,
MMM EksonMobilin törəmə şirkəti

tərəfindən maliyyələşdirilmişdir

Bakı — 2006

Redaktor:
Arif Əmrahoğlu

Rəssam:
Azər

ANAR. Əsərlər. VI cild,
Nurlan, Bakı, 2006, 626 səh.

**Müəllif bu cildlərin nəşrinə vəsait ayırmış
Ekson Azərbaycan Əməliyyat Şirkətinə,
MMM EksonMobilin törəmə şirkətinə
dərin minnətdarlığını bildirir**

TORPAQ, DƏNİZ, OD, SƏMA
(kinopoema)

Qayalar əcaib heykəllərdir. Vaxtın yonduğu, küləyin döydüyü, dənizin gəmirdiyi heykəllər.

Bu qaya "Sfinks" heykəlinə oxşayır. Bu qaya "yumruğa" bənzər. Lay-lay "Qatdama" qayalar. Sütun qaya. Bütöv qaya. Parçalanmış qaya. Çopur qaya. Hamar qaya. Şahə qalxmış qaya. Yatmış qaya.

Bu məşhur Qobustan qayalarıdır. Ekranda səmanın və torpağın fonunda gah ayrı-ayrı qayaları, gah da bu qayaların üstündə çəkilmiş rəsmləri görürük, biçinçi, ov səhnələri, şah-budaq buynuzlu maral, nizəli atlılar, qədim qurban bayramı, yallı rəqsi, qayıqda avar çəkənlər və s. Bu rəsmlər bütün ekranı tutur. Torpaq, səma, qayaların konturlarını görmürük.

Məlum olduğu kimi, Qobustan qayalığında "Oxuyan daş" vardır. Yuxarıda təsvir olunan kadrların musiqi müşayiəti də yalnız bu "Oxuyan daşın" səsi olmalıdır.

Bu kadrlar filmin proloqudur. Odur ki, onların ruhu, ahəngi, ritmi, səs müşayiəti, bir sözlə hər şeyi filmin əsas ideyasını-insan əməyinin, mübarizəsinin, gözəlliyinin və ölməzliyinin tərənnümü ideyasını təyin etməlidir.

Kamera yavaş-yavaş panorama edərək bizi Qobustan qayalarından bir qədər aralı yerləşən kiçik bir kəndə aparır. Torpaq fonunda ekranda yazı görünür.

Torpaq boyu[1]

Susayıb yanan Abşeron torpağı. Abşeron kəndi. Baxdıqca bax, dörd həndəvərdə ağac, kölgəlik adına bir şey tapmazsan. Alçaq üzüm

---

[1] *"Boy" sözü burada "Dədə Qorqud dastanındakı mənada qol, hissə, fəil mənasında işlənmişdir.*

meynələri elə bil qızmar günəşdən çəkinə-çəkinə torpağa qısılıblar. Meynələrin yarpaqlarıda bozumtul kül rəngindədir.

Bir mərtəbəli evlər, kələ-kötür nahamvar daşlardan quraşdırılmış alçaq hasarlar.

Hasarların ensiz kölgəsində "küçənin" hər iki tərəfində daşlara söykənib oturmuş adamlar. Bardaş qurmuş, çömbəlib oturmuş, yarı uzanmış kişilər papaqlarını lap gözlərinin üstünə basıblar. Hərəkətsizdirlər. Danışmırlar. Bilinmir, oyaqdırlar, ya mürgü vururlar.

Hər şey, hər yan, hamı — yol da, hasarlar da, evlər də, meyvələr də, adamların geyimi də, torpaq da və hətta səma da vahid rəng qammasındadır — əhəng rəngli və bozumtul kül rəngli papaqları olan rəng qammasında. Bu qammaya kontrast təşkil edərək, dal planda qara çarşablara bürünmüş iki qadın keçir.

Ekran tam bir sükuta, səssizliyə qərq olub. Bu səssizlikdə kamera ağır-ağır kəndi seyr edir (panorama) — küçələr, adamların üzləri hərəkətsiz, bürkülü, yarımyuxulu bir aləm.

Sonra uzaqdan gələn bir səsi eşitməyə başlayırıq. Bu səs araba cırıltısıdır. Səs get-gedə artır və nəhayət, kənd yolunun lap başlanğıcında, uzaq dal planda, kadra araba daxil olur.

Araba yaxınlaşır. İndi biz arabanı da görmürük. Bu qoca kişinin üzü qırış-qırışdır, ağ saqqalı, qara papağı var. Vaxtaşırı tatarını qaldırıb eşşəyi vurur.

—He… he… hoşşa, hoşşa.

Arabanın içində on dənə nazik, körpə alma günəşibi (qələməsi) var. Arabanın təkərləri toz-palçıq içindədir. Qoca yorğun və əzgindir, eşşək də lap əldən düşüb, arabanı güclə çəkir. Belə görünür ki, uzaq səfərdən gəlirlər.

Araba kəndə daxil olur, kəndin əsas küçəsilə keçir. Divar kölgələrində mürgü vuran qocalar, kişilər tənbəl-tənbəl başlarını qaldırır, biganə nəzərlərlə qocaya baxır, onu tanıdıqda laqeyd salamlaşırlar.

Araba yanlarından keçəndən sonra kişilər yenə papaqlarını gözlərinin üstünə basıb əvvəlki vəziyyətlərini alırlar.

Tin başında iki kişi. Biri daşın üstünə çömbəlib, təsbeh çevirir. İkincisi qəlyan çəkir. Təsbehli kişi arabadakı qocaya müraciətlə:

—Xoş gördük, Kərim. Deyəsən səfərin uzaq olub?

Kərim baba ona baxır, sonra yavaş-yavaş başını çevirir və üfüqə

tərəf baxır.

—Bəli. Uzaqdan gəlirəm. Günəşibləri göstərir.

Qəlyanlı kişi arabanın ardınca baxır.

—Kişi qoca yaşında yamanca xərifləyib. Dünyanın o başına gedib ki, nə var alma gətirib əkəcək. Ay pir olmuş, denən bu qərib susuz torpaqda ağac bitər?

Təsbehli kişi.

—Eh, torpaq torpaq olsaydı, ata-babalarımız əkmişdilər də… Bizdən axmaq olmayıblar ki…

Qəlyanlı kişi uzaqlaşan arabanın ardınca baxıb başını bulayır.

...Quyu başında. Müxtəlif biçimli, müxtəlif tutumlu bom-boş, qupquru vedrələr, qablar sıraya düzülüb. Qadınlar və uşaqlar da quyu başında növbəyə durublar.

Gülsüm: 24-25 yaşlarında sifahi bir qadındır. Vedrəni quyuya sallayıb, kəndiri tərpədərək vedrəni suyla doldurur. Quyu üstündəki hərləngəci fırlatmağa başlayır. Gülsümün balaca oğlu Kamil də yanındadır.

—Ana, ver mən çəkim, — deyə Kamil hərləngəcin qulpundan yapışır.

Var gücünü topalyıb birtəhər hərləngəci fırladır. Növbədəkilər arasında etiraz səsləri ucalır. Dolu vedrə quyunun üstünə çıxır. Gülsüm əlini uzadıb vedrəni götürmək istəyir, birdən…

Kamil sanki ilan çalan kimi atılır, hərləngəcin qulpunu buraxır.

—Babam gəlib, babam, — deyə yerindən qopub qaçır.

Hərləngəc iti sürətlə geri hərlənməyə başlayır, vedrə quyunun daş divarlarına toxuna-toxuna taqqataraq dibə gedir.

Kamil bağların arasıyla qaçır.

Kərim baba ala qapını taybatay açıb, arabanı həyətə çəkir.

Kərim baba qaraqabaq, azdanışan adamdır. Hərəkətində, davranışında zəhimlidir, ağırdır, hisslərini biruzə verən deyil. Bax indi də neçə günlük ayrılıqdan sonra nəvəsi özünü ona tərəf atarkən, halını dəyişmir, azacıq gülümsünən kimi olur, əlini Kamilin başına çəkir və dərhal ondan aralanıb arabanı boşaltmağa başlayır.

(Qocanın səciyyəvi bir hərəkəti var. Bu hərəkət diqqətimizi çəkməlidir. Çünki sonralar biz həmin hərəkəti Kərim babanın oğlunda, nəvəsində və nəticəsində görəcəyik).

Gülsüm onlara yanaşır. Kərim babanı görüb vedrəni yerə qoyur, kəlağayısını düzəldir.

—Xoş gəlmisən, — deyir, — ürəyimə dammışdı ki, bu gün gələcəksən. Yuxum çin çıxdı…

…Kamil dar tozlu küçələrlə qaçır. Sahilə çatmır. Qarşıdan gələn balıqçıları görüb dayanır. Balıqçılar görünür dənizdən yenicə çıxmışlar. Əllərində balıqla dolu zənbillər var. İki cavanın çiyinlərində tor var. Balıqçılardan biri Kamilin atası Əlidir.

Kamil ona tərəf atılır.

—Babam gəlib.

Əli və Kamil evə tərəf gedirlər.

Kamil:

—Ağac gətirib?

—Hə. Neyləyəcək onları?

—Torpağa basdıracaq.

—Niyə?

—Necə niyə? Böyüyüb qol-budaq atacaq, almasını yeyəcəyik, kölgəsində oturacağıq.

—Bəs haçan böyüyəcəklər?

—Yenə sorğu-sual başlandı… Sən böyüyəndə onlar da böyüyəcək.

Əliylə Kamil ala qapıdan içəri girirlər, nə görsələr yaxşıdır. Divarın dibində üç alma günəşibi ucalır. İndicə basdırılıbdır. Kərim baba isə yer qazıb dördüncüsünü basdırmağa hazırlaşır.

Əli:

—Xoş gəlmisən dədə.

Kərim baba işindən qalmadan başını tərpədir. Gah onun beldən möhkəm yapışmış kobud əllərini görürük, gah da bellə atılan yumşaq, təzə, tünd torpağı.

Əli:

—Əşi, yoldan gəlmisən, bir dincini alaydın. Axşam tərəfi köməkləşib bir yerdə basdırardıq.

Kərim baba cavab vermədən işinə davam edir.

***

Qoca işini dayandırır, nəfəsini dərir, tərini silir. Diqqətlə ona baxan Kamilə nəzər salır. Beli bir kənara qoyur. Ağacı götürüb səliqə ilə çuxura salır. (Kamilə)

—Saxla bunu, ancaq düz tut.

Kamil tam bir məsuliyyətlə ağacı möhkəm və düz tutur.

Kərim baba çuxura torpaq tökür.

Kərim:

—Yaxşı. Burax.

Eyvanda Gülsüm, Əli gətirən zənbilin örtüyünü qaldırır. Təəccüblə:

—Dədəm vay, gör nə boyda balıqdır. Kamil, ədə gəl buna bax.

Əli:

—Kişi özünə iş tapıbdı. Əşi bu şoqərib torpaqda şey bitər? Ondansa meynələrə yaxşı qulluq eləyəydi.

Gülsüm:

—(Qışqırır) — Kamil, ay Kamil, gəl bir gör dədən nə boyda balıq gətirib.

Kamil:

—*(Ağacı tutub)* İstəmirəm.

Gülsümlə Əli bir-birinə baxırlar.

Kərim vedrəni götürüb quyuya tərəf gedir.

Əli:

—Dədə, bir səbrin olsun da. Bu saat çörəyimi yeyim, su gətirirəm.

Kərim cavab vermir.

Əli:

—Ay tələsir ha.

Kərim birinci ağaca su tökür. Kamil diqqətlə baxır, sonra soruşur:

—Baba, niyə su tökürsən?

Kərim cavab vermir. İkinci vedrəni götürüb ikinci ağaca yaxınlaşır.

Kərim:

—Sən yeyirsən, içirsən? Ağac da belə…

Azər:

—Ağac da su içir? Bəs ağac nə yeyir?

Kərim:

—Bax bu torpağı yeyir ağac. Kökləri torpağın şirəsini çəkir canına. Bildin?

—Hə, mən də böyüyəndə ağac əkəcəm.

Əli:

—*(Onlara yanaşır)* — Ə, nə hərdəmxəyalsan. Bəs deyirdin balıqçı olacağam. Kişinin sözü bir olar.

Kərim:

—Yoxsa sənin sözün yaman bir oldu. Sən də əvvəl çox şey deyirdin. Bağa baxmaq istəyirdin. Sonra dəniz səni elə çəkib apardı ki, heç özün də bilmədin.

Əli:

—Naşükür olma, dədə. Bizi saxlayan dənizdir. Bu quru torpaqdan dolanmaq olar? Qurban olum dənizə. Çörəyi mənə o verir.

Kərim:

—Verir, verir, bəli. Amma sən dənizin namərdliyini hələ görməmisən. Bütün verdiklərini bir gün adamın burnundan elə tökür ki… Yox, pis-yaxşı nə varsa, bax, bu torpaqdadır.

Qazır.

***

Kərim baba eyvanda həsir üstündə uzanıb.

O biri tərəfdən evə nərdivan dirənib. Evin damında görünür nə isə tikiləcək. Daşlar sıra ilə düzülüb. Aşağıda Əli palçıq hazırlayıb. Kamil indi buradadır. Atasının işinə baxır.

Əli torpağı təpə kimi yığıb ortadakı çuxura vedrədən su tökür, bellə qarışdırır.

Kamil:

—Sən neynirsən?

—Palçıq düzəldirəm.

—Niyə?

—Bura bax, gəl şərt kəsək… Neçə sual verəcəksən?

Kamil:

—*(Barmaqlarını bir-bir yumur)*. Bir… iki… üç.. yüz.

—Yaxşı birini verdin. Qaldı qalanı. Mən palçıq düzəldirəm. Damda eyvan tikirəm.

—Niyə?

—Niyə? Yenə niyə? Onun üçün ki, oturaq orda… Ora əntiqə sərin olacaq… Yel vurub yengələr oynayacaq. Ordan dəniz görünəcək… Dənizə baxacağıq.

—Niyə dənizə baxacağıq?

—Əşi, necə yəni niyə? — Kamili götürüb başı üzərinə qaldırır. — Bax, o yana bax. Dənizi görürsən. Uzağa bax e… Lap uzağa. Gördün?

—He, he… Odey…

Dənizin müsiqi teması.

—Hə, görürsən nə gözəldir. İndi düş görüm. *(Kamili yerə qoyur)*.

Bax, sən dənizi gördün. Amma burdan görünmür. Eyvan olanda hamımız qalxacağıq ora… Dənizi görəcəyik.

Gülsüm:

—Kamil, bala get bu çayniki doldur. *(Əliyə)* Bir dincini alaydın, dənizdən təzə gəlmisən. Yorğunsan. Sən də lap atan kimisən, vallah.

Əli:

—Yox, yorulmamışam.

…Kamil quyu başında. Bir qədər kənarda Ağca xalanın eyvanı görünür. Ağca xala eyvanda oturub yuxa bişirir. Kamil maraqla ona baxır. Ağca xalanın qabağındakı taxtaların üstündə un var. Un təpəciyinin ortasındakı çuxura su tökür. Qarışdırır. Xəmir düzəldir. Kamil bu işin atasının gördüyü işlə oxşarlığına mat-məəttəl qalır.

—Ağca nənə, nədi bu belə.

—Xəmirdir, ay bala. Yuxa bişirəcəyəm. Bir azdan gəl yeyərsən.

Kamil dolu çayniki anasına gətirir.

Əli torpaqdan yeni təpəcik düzəldir.

Kamil:

—Dədə, bəs bundan yuxa bişirmək olar?

Əli:

—Başın xarab olub. Torpaqdan yuxa bişirmək olar?

—Bəs Ağca nənə bişirir. Dedi ki, xəmirdir. İndi yuxa bişirəcəyəm. Gəl sənə də verim.

—Xəmiri undan düzəldirlər. Bu, torpaqdır.

Kamil:

—Hə… bəs unu nədən düzəldirlər?

—Unu? Buğdadan.

—Bəs buğdanı?

—Buğdanı? Buğda torpaqda bitir.

—Torpaqda. Görürsən, bəs sən deyirsən torpaqdan olmaz.

—Yaxşı, bəsdir, qurtar.

Kamil atasının işini müşahidə edir.

Kərim baba yuxuya gedib. Gülsüm pəncərələri yuyur. Əski ilə sol tərəfdəki pəncərəni silir. Pəncərənin şüşəsi tərtəmiz hamardır. Gülsüm həvəslə, cəldliklə işləyir.

Bu dinamik kadrlarda kontrast təşkil eləyərək ekrana gecə çökür. Sakit, ulduzlu gecə.

Hər yan yuxuya qərq olub. Sükut. Səssizliyi yalnız ilbizlərin səsi və dənizin çox uzaq uğultusu pozur.

Meynələr yatır, torpaq yatır.

Quyu yatıb, hərləngəc fırlanmır.

Yüngül meh onu bir balaca cırıldadır.

Əlinin tikdiyi yuxarı eyvanın daşları yatıb. Divarlar, hasarlar, ev yatıb. Ulduzları əks edən pəncərələr yatıb, qapılar yatıb. Şümal alma tinlikləri yüngül mehdə zərif-zərif titrəyir.

Otaqda Gülsüm yatıb. Eyvanda həsir üstündə Kərim baba, Əli, Kamil yatıb. Meynə yarpaqları yüngülcə tərpənir. Ayın gümüşü işığında narın qumlar sanki ürpərir.

Qəfil şiddətli külək zərblə sol tərəfdəki pəncərəni taybatay açır, pəncərəni divara çırpır. Şüşə çingilti ilə çilik-çilik sınıb yerə tökülür.

Külək qumları göyə sovurur. Meynələri silkələyir. Külək alma ağaclarını da tərpədir.

Qum yeri, göyü tutur. Dənizin uğultusu küləyin səsinə qarışır. Quyu üstündəki hərləngəc sürətlə fırlanır. Alma ağacı get-gedə daha çox əsir.

…Sakit, aydın bir səhər. Göy üzü açıqdır, təmizdir. Küləkdən əsər-əlamət yoxdur.

Səma fonunda Kamilin, Əlinin, Kərimin sifətləri. Fikirli, qayğılıdırlar. Tam bir sükut, səssizlik.

Kamera onların donmuş baxışlarının istiqamətini götürür və biz küləyin sındırıb yerə atdığı alma ağacını görürük.

Hər üçü elə bil meyid yanında durublar.

…Kərim baba bir söz belə demədən vedrəni götürüb, su dalınca gedir…

Sükut içində ağacları sulayır… Qarğıları bir-birinə çatıb dayaq düzəldir. Dayaqları ağacların yanında basdırır. Ağaclarla dayaqları bərk-bərk bir-birinə bağlayır… Daha küləklər onlara bir şey edə bilməz.

Kərim baba ağacların dibini belləyir. Peyin tökür.

Bir-birini haqlayan kadrlarda Kamillə birlikdə biz də Kərim babanın ağır, çətin mübarizəsini — bu ağaclar uğrunda mübarizəsini müşahidə edirik.

Ağacların düşmənləri güclüdür, çoxdur — quraqlıq, bürkü, isti, külək, soyuq. Bu mübarizədə Kərim baba məğlubiyyətlərə düçar olur. Ağaclar quruyub əldən gedir. Kərim baba quruyub zay olmuş iki ağacı dərin kədər içində torpaqdan çıxarıb atır.

Bürkü bir gün. Qızmar günəş.

Kamil səmaya baxır. Uca açıq səmada bir bulud belə yoxdur. Kamilin yanında dayanmış Kərim baba da göylərə baxaraq:

—Ay qurban olduğum. Yəni bir damcı yağışın yoxdur, bu yazıqlar quruyub əldən getdilər axı.

Kərim babanın sifətinin qırışıqları cadar-cadar olmuş susuz torpağı andırır. Göylərdən ümidini üzmüş Kərim baba əbədi işini davam etdirir: quyudan su çəkir, vedrələri daşıyır… ağacları sulayır.

Sulanmış torpaq ancaq qısa bir müddət nəm qalır. Qumlar dərhal suyu canına çəkir. Kərim baba yeni vedrəni gətirəndə, torpaq sanki heç sulanmayıbmış.

Kərim babanın lap heyi kəsilib. Nəfəsini dərir və son qüvvəsinini toplayıb ağacı sulamaq üçün iki vedrə də gətirir. Onun ardınca gələn Kamilin də əlində su dolu iki kiçik sərnic var.

Kərim baba son ağacı sulayır. Tərini silir. Dodaqları susuzluqdan çatdaq-çatdaqdır. Kamilin balaca sərnicini götürüb dodaqlarına yaxınlışdırır. Ancaq birdən dayanır, sərnici təzədən Kamilə uzadır ki, al sən iç. Kamil başını yelləyir. Kərim baba azacıq dodaqlarını isladıb sərnicin suyunu ağacın dibinə əndərir.

Birdən-birə hava dəyişir. Hardansa peyda olmuş buludlar göyün üzünü tutur. İldırım çaxır və… leysan yağış yağmağa başlayır.

Kərim baba göyə baxır. Bu baxışda nə yoxdur: belə zarafatlar edən allaha, ya təbiətə qəzəb, gərgin və nahaq zəhmətin mənasız yorğunluğu və eyni zamanda sevinc. Uzun intizardan sonra nəhayət yağışla fərəhlənən insanın sevinci.

Kərim baba əyilib ağacların üstündə yağış damcılarını yalayır. Onu təqlid edən Kamil də bu hərəkəti təkrarlayır. Baba-nəvə bir-birinə baxır və sevinclə gülümsünürlər. Bu bəlkə filmdə Kərim babanın ilk təbəssümüdür.

Yağış yağır. Quyu başında boş vedrələrə səs-küylə yağış yağır. Arvadlar vedrələrini, qab-qacaqlarını qapıb evlərinə qaçırlar.

Yağış yağır. Evlərə, hasarlara, küçələrə yağış yağır. Küçələrdəki adamlar tələsik qaçışırlar, islanmaq istəmirlər.

Bircə Kərim baba məftun olmuş kimi yağışın altında dayanıb, deyəsən heç tərpənmək fikrində deyil. Onun yanında Kamil sevinclə atdanıb-düşür.

Göy get-gedə qaralır, tündləşir. İldırım çaxır. Göydə od qırbancları. Sanki torpaq, su, od və göy bir-birinə qarışıb.

Gülsüm tələş içində otaqdan çıxır. Həyəcanla:

—Əli… dənizdədir, — deyir.

Kərim babanın üzündən nə isə bir kölgə keçir.

Gülsüm *(çadrasını başına ataraq)***:** — Mən getdim dəniz qırağına.

Kərim:

—Dayan *(Açılan ala qapını göstərir)*. Deyəsən gəldi.

Qapı açılır. Boylu-buxunlu bir kişi daxil olur. Bu, Muraddır, Gülsümün qardaşı. Muradın balaca qızı Solmaz da yanındadır. Murad pencəyilə Solmazı yağışdan qoruyur. Gülə-gülə onlara yanaşır.

Gülsüm:

—Ay aman, allah haqqı Muraddır. Kamil bir bax, day-day gəlib.

Kamil:

—Day-day.

Murad:

—Ay sizi xoş görmüşük.

Gülsüm:

—Vallah, heç inanmağım gəlmir. Ayağınızın altına nə səpək? Nə əcəb belə, gün hayandan çıxıb? Ay allah, Solmaz balama qurban olum.

Murad:

—Axır ki, yığışıb gəldik. Əşi həkimlər dedi bu qıza kömək etsə, qum eləyəcək. Mən də dedim gətirim görək nə çıxar.

Kərim:

—Xoş gəlmisiz.

Murad:

—Kərim dayı, deyəsən burda meşə salırsan. A kişi, bu susuz yerdə bunların axırı nə olacaq?

Kərim:

—Görək də. Maşallah, ayağın yüngüldür. Yağış gətirmisən.

Murad:

—Bəli, bəli. Bu yağışı şəxsən sənin üçün sifariş vermişəm. *(Kamilə)* — Nədi inanmırsan? Hələ sənin day-dayından xəbərin yoxdur. *(Uzaqda şimşək çaxır)*. İstəyirsən bu saat belə eləyim göy guruldasın.

Əlini qaldırır və dərhal göy gurultusu eşidilir.

Kamil lap mat-məəttəl qalıb.

Murad Kamili qaldırır, atıb-tutur, yerə qoyur.

…Aydın günəşli bir gündür. Solmazla Kamil qumluqdadırlar. Solmaz xəstə görkəmli bir uşaqdır.

Kamil:

—Sən niyə ayaqlarını quma basdırırsan?

Solmaz:

—Mənim ayaqlarım əyridir. Atam deyir ki, quma qoysan düzələr.

Kamil:

—Gəl quyu qazaq.

Solmaz:

—Qazaq.

Kamil və Solmaz quyu qazırlar. Murad onlara yaxınlaşır.

Kamil:

—Sən böyüyəndə kim olacaqsan?

Solmaz:

—Bilmirəm.

Kamil:

—Mən bağban olacağam.

Murad:

(onlara yaxınlaşır). Baban kimi, hə? Bəs balıqçı olmaq istəmirsən, atan kimi?

Kamil:

—Balıqçı da olacam, bağban da.

Murad

—Yox, qoçaq, sən ondansa neftçi ol. Çünki sən böyüyənə qədər burda nə bağ qalacaq, nə bağban.

Kamil:

—Niyə?

Murad:

—Niyə? Çünki biz bu saat hər yerdə neft tapırıq. Bütün bu bağlar da gedəcək gurupbultuyla. Hər yan neft olacaq, neft.

Kamil:

—Neft nədir?

—Eh, bilmirsən neft nədir? Neft… bax, bu torpağı görürsən, bunun altı dolu neftdir.

Murad çöməlib onların yanında oturur və gülümsünərək tez-tez torpağı qazmağa başlayır.

—Bax, bu saat buranı qazacam, neft çıxacaq.

Kamilin gözləri bərələ qalıb. Gah Murada, gah onun əllərinə, gah

qazılıb dərinləşən "quyuya" baxır. Kamilin üzündə təəccüb ifadəsi tələşla, nigarançılıqla əvəz olunur. "Quyu" get-gedə dərinləşir. Kənara atılan topraq təpəciyi böyüyür. Murad indi üzüqoyulu uzanıb qalır.

Birdən Kamil hönkürüb yerindən sıçrayır, ağlaya-ağlaya evə tərəf qaçır.

—Ana, ay ana. — Gülsümün üstünə atılır.

İstəmirəm… mən istəmirəm… neft… mən qorxuram.

Murad bu gözlənilməz hərəkətdən özünü itirən kimi olur. Pərt-pərt gülümsəyərək onlara yaxınlaşır. Kamil anasına sığınır.

Murad:

—Ay axmaq, nədən qorxursan? Neftin nəyindən qorxursan? Bax.

Cibindən kiçik alışqan çıxarır, yandırır. Kamil hələ də ağlaya-ağlaya eyni zamanda maraqlanır.

Murad:

Görürsən? *(Söndürür, yandırır)* Bilirsən bu niyə yanır? Çünki burda benzin var. Benzini də neftdən düzəldirlər. Başa düşdün, hə, daha onda ağlama.

Kamil Muradın əlindəki alışqanın alovuna baxır. Odun musiqi teması səslənir.

Murad odu söndürüb alışqanı Kamilə uzadır:

—Al, ancaq itirmə… Al, al, yoxsa bax, vermərəm.

***

Kamil qayalıqlara tərəf gedir. Qaya rəsmləri: ov səhnələri, yallı, avarçılar. Kamilin əlində səbət var. Kamil qayaların arasıyla gedir, diqqətlə qayaların altına baxır, nə isə axtarır. Birdən qayanın ardından gələn Muradla Solmazı görür.

Murad:

—*(Təəccüblə)* Neylirsən burda?

—Anam məni yumurta almağa göndərib bazara.

Murad:

—Bazar ki, o tərəfdədir.

Kamil:

—Bazarda yoxdur yumurta. Amma burda mən özüm o gün görmüşdüm. Qayanın altında. İndi tapa bilmirəm… *(Axtarır və birdən sevincək)* hə, budey!

Murad:

—*(Onun əlini tutur)* Dayan görüm. Ədə, bu göyərçin

yumurtasıdır. Dəymə bunlara. Bunlardan göyərçinlər çıxacaq, uçacaqlar göyə. Yavaş, bastalama. Ay səni, görmürsən göyərçin yumurtalarıdır.

Solmaz pıqqıldayıb gülür.

Kamil:

—Onda bir dənəsini götürürəm.

Murad:

—Dedim ki, olmaz. Sən indi bir yumurtanı götürüb sındırsan, sonra göydə göyərçinlərin biri az olacaq. Bildin?

Solmaz:

—Ata, bu yumurtalardan quşlar çıxacaq?

Murad:

—Hə, qızım. Yumurtaları sındırıb çıxacaqlar, sonra da uçub gedəcəklər, ey… bax, ora. Eşitməmisən, deyirlər ki, çox yerdə yatan yumurtalar göydə uçan quş olub. Yaxşı, gedək evə.

***

Kərim baba ağacları sulayır.

Murad:

—Kərim kişi, deyirsən yəni bunlardan bir şey çıxacaq?

Kərim:

—*(çiynini çəkir)* nə deyim, vallah, hər şey allahın ixtiyarındadır.

—Yaxşı, neçə ildən sonra məhsul verər?

—Nə deyim, on ildən — on beş ildən.

Murad:

—*(sükutdan sonra)* Neçə yaşın var Kərim kişi.

—Yetmişi keçmişəm *(dik Muradın gözlərinin içinə baxır)*. Eşitmisən: əkiblər yemişik, əkək yesinlər.

***

Murad, Kamil və Solmaz qayalığa tərəf gedir və… sınmış yumurtaları görürlər.

Murad:

—Baxın.

Yumurtadan təzə çıxmış balaca göyərçinlər güc-bəlayla hərəkət edirlər. Bu zaman qayanın dibindən ana göyərçin və başqa göyərçinlər havaya uçurlar. Onlar get-gedə yuxarı uçurlar. Göyün açıq fonunda görünürlər. Səmanın musiqi teması səslənir.

İnsanlar — Kamil, Solmaz, Murad həsədlə göyərçinlərə baxırlar.

Kamil:

—*(Balaca göyərçinləri göstərir)* bunlar da uçacaqlar, hə?

Murad:

—Lap yəqin. Bir vaxt gələcək siz də uçacaqsız.

Kamil:

—Biz?

Murad:

—Hə, siz. Belə maşınlar düzəldiblər, təyyarə deyirlər onlara. Adamlar onlara minib qalxırlar göyə. Hələ onlar azdır, tək-tük. Get-gedə çoxalacaq, onda hamı uçacaq.

—Bəs onlar haçan çoxalacaq?

—Benzin çox olanda.

—Benzin?

—Bəli, benzin. Onlar benzinlə uçur. Benzini də neftdən düzəldirlər. Mən dedim də sənə, dünyada hər şeyin əsli, bax, bu torpağın altındakı neftdir. Onu ordan, torpağın altından çıxartsaq, onda biz də bax ora, göyün üzünə qalxacayıq.

Hər üçü başların qaldırıb səmaya, pərvaz edən göyərçinlərə baxırlar.

…Ayrılıq günü. Muradgil yola düşürlər.

Murad:

—Di salamat qalın. Gələn yay yenə gələcəyik.

Gülsüm

(Birdən) vay, vay, başıma xeyir, lap yadımdan çıxmışdı. Sən allah, bir ayaq saxlayın. Kamil qurban olum, qaç bir su gətir.

Murad:

—Əşi, yaxşı sən də.

Gülsüm:

—Yox, yox, dünyasında qoymaram.

Quyu başında.

Arvadlar növbədə dayanıb. Ağca xala yuxa bişirir. Kamil sərniclə qaçaraq gəlir.

Ağca:

—Ay sənin qadanı alım, yenə vaxtında gəlməmisən. Yuxam hazır deyil. Bir azdan gəl, sənə təptəzə yuxa verim. Gözlərinin qadasını alım, niyə belə töyşüyürsən?

Kamil:

—Dayım gedir. Anam dalınca su atmaq istəyir. Növbədəki qadın: Gətir bura qabını *(vedrəsindən su tökür)*.

Gülsüm qonaqların dalınca su atır. Muradgil gedir. Darvaza bağlanır. Adi həyat davam edir.

Gülsüm:

—Kamil, al bu çayniki, su gətir.

Kamil çayniki götürüb quyu başına gəlir.

Ağca nənə yuxa bişirir, qızı ona kömək edir.

Ağca:

—Hə, indi əsl vaxtında gəlmisən. Al bu yuxanı. İsti-isti vur bədənə.

—Yox istəmirəm.

Əşi, götür deyirəm sənə. Mən özgəsi deyiləm ki. Nəvazişlə Kamilin başını sığallayır. Kamil dolu çayniklə evə qayıdır. Gülsüm çayniki odun üstünə qoyur.

Gülsüm:

—Nədi o elə əlindəki?

—Yuxadır. Ağca nənə verdi… Mən istəmirdim… — Güclə verdi.

—Nə olar, Ağca xala özgə deyil ki? Bəs niyə yemirsən?

—İstidir.

Gülsüm:

—*(əlini vurur)* A, doğrudan lap istidir.

Kamil yuxanın bir tərəfindən dişləyib çeynəməyə başlayır. Qışqırıq səsi gəlir.

—Gülsüm bacı, ay Gülsüm bacı!

Ağca nənənin qızı qaça-qaça gəlir. Rəngi qaçıb, dili-dodağı əsir.

—Anamın halı xarab oldu.

Gülsüm, Ağca xalanın qızı, onların dalınca Əli və Kərim baba Ağca xalanın evinə tərəf qaçırlar. Kamil yuxanı əlində bərk-bərk tutub, ağzındakı tikəni çeynəyə-çeynəyə onların dalınca qaçır.

Ağca xalanın eyvanına tərəf arvadlar axışıb gəlir. Eyvanda rəngi ağappaq olan Ağca xala, daha doğrusu onun meyiti.

Arvadlardan biri Ağca xalanın qızını görüb bərkdən qışqırır.

—Gəl ay yazıq, gəl anasız qalan yazıq, getdi anan ey, yetim qalan canına qurban olum sənin, ey… Ağca getdi əlimizdən, ey…

Vay-şivən qalxır. Arvadlar ağı deyib ağlayır.

Arvadlardan biri yalın ayağını bilmədən qızmar sacın üstünə basır, ayağını yandırıb: — Uf-uf — deyə qışqıraraq kənara sıçrayır.

Kamil bir kənarda mat-məətəl donub qalmışdır. Əlində yuxanı

bərk-bərk sıxır. Özü belə hiss etmədən mexaniki olaraq yuxanı dişləyib çeynəyir.

Kərim:

—Eh, ölüm gözlə qaş arasındadır.

Vay-şüvən güclənir.

(Bu epizod çox mühümdür. Əgər əvvəlki epizodlarda Kamil dünya haqqında, həyat haqqında müxtəlif şeylər öyrənir, mənimsəyirdisə, bu epizodda o ilk dəfə ölümlə üz-üzə gəlir. Uşağın ölümlə ilk dəfə rastlaşması həmişə sarsıdıcı olur. Bu gözlənilməz qəfil ölüm, "göz ilə qaş arasında olan ani ölüm Kamili xüsusilə sarsıtmışdır. Axı beşcə dəqiqə bundan qabaq o, Ağca xalanı sağ və salamat görmüşdü. Axı o Ağca xalanın indicə verdiyi hələ soyumamış yuxanı çeynəyir. Ağca xala isə artıq yoxdur. Ağca xalanın indicə üstündə yuxa bişirdiyi sac hələ qızmardır, hələ yalın ayağı yandıra bilir. Ağca xala isə artıq yoxdur).

Kamil öz evlərinin eyvanında oturub, düşüncəyə dalıb, hələ sona qədər anlaya bilmədiyi hadisənin təsiri altındadır. Hava qaranlıqlaşır. Arvadların ağlayıb-zarıdıqları uzaqdan eşidilir. Kamil durub gəzişir, bağa düşür, bağdan çıxıb qayalığa tərəf gedir. Ancaq bu səslərdən, ağılardan, oxşamalardan qaça bilmir. Bu səslər, bu sözlər onun qulaqlarını, qəlbini, içini doldurmuşdur. Qaya rəsmləri, yas mərasimlərinin rəsmi, əllərini göyə qaldırmış qadın rəsmləri fonunda ucadan ağı deyən qadın səsi:

Mən ölsəm sənə qurban,
Sən ölmə yazığam mən.

…Səhərdir. Ağca xalanın meyidi qara kəcavə üstündə. Kəcavə kişilərin çiynində. Dəfn mərasimi. Qabaqda ağır addımlarla qara geyimli, qara qapalı kişilər gedir. Başlarını aşağı sallamışlar. Kişi molla avazla oxuyur. Kişilər onun səsinə səs verirlər. Arxadan qara çadralı arvadlar gəlir.

(Həyatın gündəlik axınına daxil olmuş rəng kontrastlarıyla da verilməlidir… Bozumtul, əhəng-kül rəngli kəndin küçələri, divarları, evləri fonunda zil qara dəfn mərasimi — qara kəcavə, qara geymiş adamlar).

Kənd qəbiristanlığı. Əyri-üyrü, müxtəlif biçimli, müxtəlif rəngli, müxtəlif "yaşlı" baş daşları. Yenicə qazılmış qəbrin müdhiş çuxuru. Qəbrin yanında təzə topaq təpəciyi.

Kamil diqqət və maraqla bütün bu şeylərə baxır… küçələrə,

adamlara, qazılmış qəbrə, torpaq təpəciyinə.

Meyidi qəbrə salırlar. Arvadların vay-şivəni güclənir.

Ağca xalanın qızı özünü qəbrin üstünə atır:

—Yox, yox, yox, yox… qoymaram… Məni də onunla basdırın, məni də…

Arvadlar bir təhərlə onu kənara çəkirlər.

Kişilər bel götürüb qəbrə torpaq tökürlər.

Kərim baba *(Kamili görüb)***:** sən burda neyləyirsən? Çıx get evə. Bura uşaq yeri deyil. Gəl bura, yaxşı, mən də gedirəm.

Kamilin əlindən tutub qəbristanın içiylə gedirlər.

Qəbirlərin birinin yanında Kərim baba dayanır. Fikirli-fikirli qəbrə baxır, sonra Kamilə müraciət edir:

—Nənən rəhmətliyin qəbiridir. Nənən yadına gəlir, Kamil?

Kamil cavab verməmiş özü cavab verir: — Amma hardan yadına gələcək. O vaxt iki yaşın olardı *(köksünü ötürür)* Eh, deyir, "daş olsaydım, əriyərdim, torpaq idim dayandım". Gedək bala.

Adətən az danışan Kərim baba bu gün nədənsə söhbətcil olub. Ağca nənənin ölümü ona görünür, çox ağır təsir edib və indi Kamillə danışarkən o sanki müsahibinə müraciət etməkdən artıq özü-özünə danışır, qayğılarını, dərdi-qəmini öz-özünə danışır.

Kərim:

—Hamımızın axırı bax, bu qara torpaqdadır. Hamımız ölüb bura gələcəyik.

Pauza.

Kamil:

—Baba, hamı öləcək?

—Hamı, bala, hamı. Yer üzündə nə qədər məxluq var hamısı.

—Bəs niyə?

—Onu bir yaradan bilir, bala *(Pauza).*

—Baba, mən də öləcəm?

Kərim baba sanki fikirlərindən ayrılır, müsahibinin kim olduğunu xatırlayır və dərhal ayrı tərzdə deyir:

—Yox, sən ölməyəcəksən.

—Niyə?

—Sən böyüyənəcən elə bir şey tapılacaq ki, adamlar ölməsin. (*Pauza)*

—Baba, bəs sən öləcəksən?

—Mən öləcəm, bala, öləcəm.

—Bəs deyirsən elə şey tapılacaq ki, adamlar ölməyəcək.

—Ona mənim yaşım çatmaz, bala. Onu tapanacan mən ölərəm. Amma sən hələ balacasan. Bütün ömrün irəlidədir. Sən böyüyənə bir şey tapılar. Mənim ömrümə az qalıb. Lap az…

Onlar gedirlər. Qəfildən Kamil qəbir daşlarının birinin üstündə şəkil görür *(məlum olduğu kimi Qobustan kəndlərinin birinin qəbiristanlığında qəbir daşlarının üstündə şəkillər çəkilmişdir. Samovar şəkli, at şəkli, tikiş maşınının şəkli və s.).*

Kamil bu şəkillərə böyük maraqla baxır.

—Baba, bəs bunlar nədir?

Kərim:

—Bunlar şəkillərdir. Bizim kənddə belə adət var. Qəbir daşının üstündə şəkil çəkirlər.

—Bəs bu nədir?

—Özün görmürsən? Atdır. Bu, Zülfüqar kişinin qəbiridir. Rəhmətlik mehtər idi.

—Bəs bu nədir?

—Bu, çayçı Məmmədin qəbiridir. Görürsən, samovar çəkiblər.

—Bəs bu?

Bu, tikiş maşınıdır. Bir zinger Sadıq vardı. Dərziydi. Paltar tikərdi. Onun qəbridir.

Söhbət əsasında biz qəbir daşları üstündəki bu deyilən və başqa şəkilləri görürük.

Ağca xalanın qəbri tərəfindən ağlaşma səsi güclənir. Qəbir torpaqla doldurulub. Adamlar dağılışır.

Kamil:

—Baba, bəs Ağca nənənin qəbrində nə çəkəcəklər?

—Nə bilim, ay balam. Bəlkə çörək çəkdilər. Axı o çörək bişirirdi. Torpağı sanı yaşasın, yaxşı arvad idi.

Kamillə Kərim baba qəbirlərin arasıyla gedirlər.

Kamil:

—*(Şəkilsiz qəbir daşını göstərir)* baba, bəs burda niyə heç nə çəkilməyib?

Şəkilsiz qəbir daşları… Biri, ikisi, üçü, dördü…

Kərim:

—Yəqin bu elə adamların qəbiridir ki, onlar belə bir iş görməyib. Onların heç bir işi heç kəsin yadında qalmayıb. Yaşayıblar, ölüblər, vəssəlam, heç kəs də yadına sala bilməyib ki, axı bunlar neyləyib.

Ölüb gediblər, vəssəlam… Ona görə də bilməyiblər ki, nə çəksinlər… Qoyublar elə belə qalsın.

Pauza

Kamil:

—Baba bəs sənin qəbrində nə çəkəcəklər?

Kərim baba bir müddət susur, sonra çətinliklə deyir: heç nə…

—Niyə?

—Nə bilim… Belə də… Axı mən neyləmişəm ki… Axı mən kiməm? Hə, kiməm… bağban? Nə olsun. Meynələr hələ babamdan qalıb, mən də elə onlara qulluq eləmişəm. Vaxtında yerini işləmişəm, kəsmişəm… Amma nə olsun ki…

Susaraq addımlayırlar. Sonra Kərim baba yenə sözə başlayır.

—Bax, o alma ağaclarını gətirmişəm ha, allah eləsin onlar tutsun. Böyüsün, çiçək açsın, sonra vallah ölümdən də qorxum yoxdur. *(Pauza)* Allah rəva bilsə, almalar böyük ağac olsalar, onda qəbrimdə onların şəklini çəkərlər.

***

İlin fəsilləri dəyişir.

Payızın sarı yarpaqları tökülür. Meyvələr çılpaqlaşır.

Qışdır. Qar yağır. Ətraf ağa bürünür.

Sonra qarlar əriyir. Hələ yaz deyil, amma yazın ərəfəsidir.

Kərim baba alma ağacının yanında dayanıb, əlində iri qayçı var, ağacların artıq budaqlarını kəsir.

Kamil:

—Baba, bunları niyə kəsirsən?

Kərim:

—Bu bəhərsiz budaqlardır, bala. Bunları kəsib atmaq lazımdır ki, ağac yüngülləşsin, yaxşı böyüsün. Bax, bunu kəsmək lazımdır, *(kəsir)*. Bir də bax, bunu. *(Qayçını Kamilə uzadır)*. Al, bunu sən kəs, öyrən yavaş-yavaş.

Kamil qayçını götürüb kəsmək istəyir.

Kərim:

—Yox, yox, belə yox. Yavaş ki, tumurcuğu kəsərsən, bax hə, tumurcuğu kəsmə. Tumurcuğu kəssən ağac quruyar. Görürsən bu tumurcuğu, bu ağacın canıdır. Qoy yaz gəlsin, allah qoysa bunlar hamısı açılacaq. *(Qürurla ağaclara baxır)*. Deyəsən tutdular.

… Kərim baba çarpayıda uzanıb. Xəstədir.

Həkim onu müayinə edir. Əli də burdadır. Kamil qapının dalından

baxır.

Həkim Əlinin qolundan tutub həyətə düşür. Kamil onların dalınca gəlib söhbətlərini dinləyir.

Həkim:

—Halı ağırdır, səndən nə gizlədim. Yaza çətin çıxa. Mən dərmanzad verərəm, nə lazımdır eləyəcəm. Amma… *(başını bulayır, köksünü ötürür)* yazıq kişi əməyinin bəhrəsini görə bilmədi. Ağaclara bu qədər qulluq elədi, üzdü özünü. İndi bu tumurcuqlar açanda ölüb gedəcək… Eh dünya, dünya.

Kamil son cümlələrə diqqət yetirir. Nə barədə isə gərgin düşünür. Sonra babası yatan otağa gedir. Çarpayıya yanaşır. Kərim baba çətinliklə əlini qaldırıb Kamilin başını sığallayır. Kamil pəncərəyə yanaşır, nə isə götürür, həyətə düşür, alma ağaclarına yanaşır. O yan bu yana baxır. Sonra əlindəki qayçı ilə alma ağacının tumurcuqlarını kəsməyə başlayır.

Arxadan Əlinin yanaşdığını hiss etmir.

Əli:

—*(təəccüblə)* Neylirsən, Kamil?

Kamil diksinib sıçrayır, atasına tərəf çevrilir: — Tumurcuqları kəsirəm.

—Niyə?

—Ki… babam ölməsin *(əlinin anlamadığını görüb izah edir)* həkim əmi dedi ki, tumurcuqlar açanda babam öləcək, mən onları kəsəcəm ki, açılmasınlar, babam ölməsin. Mən istəyirəm ki, babam ölməsin.

Əli Kamilin başını sığallayır. Qayçını ehtiyatla ondan alır.

—Yox, ay bala, sən düz başa düşmədin.

Bax, sən bu tumurcuqları kəssən, onda baban ölər, amma kəsməsən ölməz. Sən həkimə inanma, baban ölməyəcək. Amma, sən də bunları kəsmə. Qoy açılsınlar. Qoy ağaclar çiçəkləsinlər. Onda baban heç vaxt, heç, heç vaxt ölməz. Başa düşdün?

—Hə.

—Ay sağ ol. Gəl gedək eyvana qalxaq.

Kamili qucağına alır, öpür. Nərdivanla ikinci mərtəbədəki yeni eyvana qalxırlar. Əli dənizi göstərir.

—Ora bax, dənizi görürsən?

Kamil və Əli dənizə tərəf baxırlar.

Uzaq üfüqdən dəniz get-gedə yaxınlaşır, bütün ekranı tutur.

Dənizin fonunda ekran da yazı görünür.

Dəniz boyu

Açıq dənizin hududsuzluğu.

Yay günü. "Torpaq boyuUndakı hadisələrdən bir il keçib.

Açıq dənizdə böyük balıqçı qayığı. Qayıqda torlar, duz torbası, balıqlarla dolu qutular.

Qayıqda dörd balıqçı var. Onlardan biri Əlidir. Əli tordan böyük ağ balıq çıxarır. Üç cüt avar suları yarır.

Çılpaq adamsız sahil. Qumlar. Böyük qayalar. Sahildə kiçik bir fiqur. Bu, Kamildir. Kamil üfüqə tərəf baxır. Qayığı gözləyir.

Qayıq sahilə yaxınlaşır.

Kamil *(sahildən qışqırır)*: Dədə, ay dədə. Murad dayımgil gəlib.

Qayıq sahilə yan alır. Balıqçılar sahilə çıxırlar, qayığı dartıb quruya çəkirlər, boşaltmağa başlayırlar.

Əliylə Kamil evə tərəf addımlayır. Əlinin çiynində balıqla dolu qutu var.

Balıq böyük tavanın içində. Gülsüm balıq qızardır.

—Gəlin yeməyə — deyə çağırır.

Hamı masanın ətrafında əyləşib. Masanın üstündə tavanın içində qızardılmış balıq.

Murad:

—Əli, deyirəm vallah, dünyada başqa belə dəniz tapılmaz ki, bu cür balığı olsun. Can dərmanıdır. Mən ölüm, elə deyil?

Əli:

—Elə olmağına elədir. Amma heyf ki, (balığı göstərir) bunun da axırına az qalıb.

Murad:

(Təəccüblə) Niyə?

Əli:

—Özün demirdin ki, Moskvanın, Bakının böyük-böyük alimləri dənizin dibində neft axtarırlar.

Murad:

—Hə, hə. Nə olar ki?

Əli:

—Neftlə balığınkı tutmaz. Neft çıxan kimi balıq tələf olub

gedəcək.

Murad:

—Əşi nə danışırsan? Dənizdən neft çıxarmağın fəndini tapmayacaqlar?

Əli:

—Nə bilim? Mən bir təhər başımı girrəyib, ailəmi dolandıracam. Amma bax, buna hayıfım gəlir *(qutudan nərə balığı çıxarır)*. Dünya gözəldi e… İnişil Moskvadan bir adam gəlmişdi. Balıqlardan kitab yazıb. Deyir, bilirsiz bu nədir. Dünyada ən qədim balıqdır, deyir. Belə balığı tutanda adamın ürəyi dağ boyda olur.

Murad:

—Yadındadır, keçən yay söz vermişdin ki, məni də özünlə dənizə aparacaqsan.

Əli:

—İstəyirsən lap sabah çıxaq…

Kamil:

—Mən də, mən də…

Gülsüm:

—Otur yerində, sən hələ balacasan…

Murad:

—Niyə? Daha yekə kişidir, maşallah…

Kamil:

—Hə.

Əli:

—Bu saat bilərik. Bura gəl görüm *(qutudan iri bir balıq çıxarıb Kamilə uzadır)*. Qaldır bunu başının üstünə.

Kamil bir qədər çətinliklə də olsa, balığı başından yuxarı qaldırır.

Əli:

—Bir də.

Bu dəfə daha böyük çətinliklə qaldırır.

—Bir də.

Kamil hiss edir ki, bu son sınaqdır, var gücünü toplayıb, balığı lap yuxarı qaldırır, bir müddət bu vəziyyətdə donub qalır.

Əli:

—Hə, oldu. İndi səni dənizə çıxarmaq olar.

Kamil Solmazın yanında qürrələnir.

Səhərin erkən çağı. Əli, Murad, Kamil başqa balıqçılarla birlikdə iri qayıqda açıq dənizə çıxırlar. Sahildən iki başqa qayıq da aralanır.

Murad:

—*(Əliylə)* Deməli, sən də balıqçı olacaqsan.

Kamil:

—Hə.

Əli gülür.

Qayıq açıq dənizdədir. Avarlar aram-aram suyu yarır. Göz işlədikcə işləyən açıq dəniz, əngin səma. Açıqlıq, sakitlik, genişlik… Kamil ovcundakı alışqanı gizlincə Murada göstərir.

Murad: *(Təəccüblə)* hələ itirməmisən? Ay sağ ol. Özünlə dənizə də götürmüsən.

Əli (Ayağa durur): Yaxşı vaxtdır. Toru sağdan atın.

Balıq ovu başlayır. Əsas işləyən Əli və iki başqa kişidir. Murad onlara kömək edir. Kamil maraqla tamaşa edir.

Balıqçılar toru çəkirlər, balıqları iri qutuya boşaldırlar.

Taxta qutuda saysız-hesabsız xırda balıqların sayrışan gümüşü pulcuqları. Onlar hələ çabalayırlar, gümüşləri günəşin şüaları altında bərq vurur. Balıqçılardan biri duz torbasının ağzını açır. İki əliylə duz götürüb ovuc-ovuc qutuya səpir. Və dərhal da qutunun içində çırpınan, çabalayan həyat əbədi bir hərəkətsizliyə, yoxluğa qərq olur, yatır…

Sahil: Gülsüm evdədir.

Qəflətən külək qopur. Gülsüm eyvana çıxır. Külək şiddətlənir. Gülsümün gözlərində həyəcan artır, güclənir.

Dəniz: Şahə qalxmış dalğalar qayığı adicə bir taxta parçası kimi ora-bura atır.

Balıqçılar mətanət və təmkinlə avar çəkir, sahilə çatmağa cəhd edirlər.

Kamilin halı lap xarabdır. Murad bir əliylə onu sinəsinə sıxıb, o biri əliylə avar çəkir.

Külək get-gedə şiddətlənərək əməlli-başlı fırtınaya çevrilir.

Qadınlar, uşaqlar, qocalar, dənizdəkilərin ailələri axışıb sahilə tərəf gəlirlər. Gülsüm də sahilə tərəf tələsir.

Qayıqda balıqçılar nəhəng dalğaları yarıb keçməyə çalışırlar.

Çılpaq sahil. Güclü dalğalar zərblə qayalara çırpılır, çiling-çiling olub dağılırlar. Qaya üstündəki rəsm aydın görünür: avarçılar qayıqda. Qumlar havaya sovrulub.

Sahildə adamlar həyəcanla dənizə tərəf baxırlar. Külək qadınların çadralarını dartıb aparmaq istəyir, saçlarını qarışdırır.

Dəniz: Dalğalar az qala qayığı çevirəcək. Dəniz dalbadal iki qayığı sahilə vıyıldadıb atır. Adamlar qayıqlara tərəf cumurlar, balıqçılara sahilə çıxmağa kömək edirlər.

İndi dənizdə ikicə qayıq qalıb. Gülsüm dəhşətlə sahilə atılan taxtalara baxır — bu qayığın qırıqları və avar parçalarıdır.

Qadınlardan biri dəhşətlə qışqırır:

—Bu mənim ərimin qayığıdır. Mən tanıyıram. Ərimin qayığıdır.

Onun qışqırığına başqalarının səsi də qarışır. Arvadların ağlaması dənizin nərəsinə qarışıb itir.

Gülsüm ağlayır. Sahildə o yan bu yana qaçır.

İri bir dalğa Əligilin qayığını amansızcasına sahilə tərəf aparır. Biz nəhəng müdhiş bir qayanın qayığa yaxınlaşdığını görürük. Bizə elə gəlir ki, qayıq qayanın deyil, qaya özü qayığın üstünə gəlir. Sanki qaya bütün ağırlığı və zəhmiylə qayığın üstünə yıxılır. Dəhşətli bir zərbə. Qayıqdan yalnız taxta-tuxta parçaları qalır. Sahildəki adamlar dənizə girib balıqçıları xilas etməyə çalışırlar. Budur, balıqçılardan birini çıxarırlar.

Gülsüm: Oğlum ordadır. Kamil, — deyə dəli kimi çığırır. Yalvarıram, ayağınızın altında ölüm, qurbanınız olum, qurtarın. Onları, Kamili… Əlini… Muradı…

Əlini sahilə çıxarırlar. O, huşunu itirmişdir. Başqa bir balıqçı çətinliklə sahilə çıxır. Ətrafına boylanır və yoldaşlarına kömək etmək üçün təzədən dənizə atılır.

Onu qayalara çırpmaq istəyən dalğalarla çarpışaraq Muradı və Kamili axtarır.

Murad bir əliylə qayanın ucundan sallanıb qalıb. O biri əliylə Kamili sallayıb. Hiss olunur ki, son qüvvəsi tükənməkdədir. Balıqçı onlara tərəf atılır.

Murad son gücünü yığıb Kamili balıqçıya tərəf uzadır və həmin anda qayadan dənizin girdabına yıxılır, dalğaların altında qalıb görünməz olur, itir.

Balıqçı çətinliklə üzə-üzə Kamil sahilə çatdırır. Sahildəki adamlar onun köməyinə çatırlar.

—Kamil, qurbanım olum, bala, — deyə Gülsüm oğluna tərəf atılır. Qurban olum sənə — deyə balıqçıya tərəf dönür.

Balıqçı: — Onu Murad saxlamışdı. Murad orda qaldı, deyə dənizi göstərir və yenidən dənizə atılır.

Gülsüm Kamili qucaqlayır, bağrına basır, öpür. Kamilin bərk-

bərk sıxılmış yumruğunun içində alışqan…

Balıqçılar qayaların ətrafında Muradı axtarırlar.

…Bəlkə bir saat keçib. Bəlkə daha artıq. Adamlar əvvəlki kimi sahildə dayanıblar. Arvadlar, bərkdən ağlayır. Əli də başqa kişilərlə birlikdə dənizdə Muradı axtarırlar.

Gülsüm Kamili bərk-bərk bağrına basıb dənizdən qoruyur.

Dənizdən kişilər çıxırlar. Onlar ağır-ağır başlarını yelləyirlər. Daha heç bir ümid yoxdur.

Gülsüm: Yox, yox… Xaraba qalsın bu dəniz… Görüm onun suyu qurusun. Dünya dağılsa da qoymaram bir də səni bu dənizə…

Sahil. Donub qalmış adamların kədərli görkəmləri — balıqçılar, arvadlar, Əli, Gülsümlə Kamil.

Hamıdan bir qədər kənarda kiçik bir fiqur — donub qalmış Solmaz…

…Aydın günəşli bir gün. Sakit dəniz. 16 il keçib. Dəniz xeyli çəkilib, vaxtilə qayığın toxunub parçalandığı o dəhşətli qaya indi quruda ləpədöyəndən çox uzaqda bir məsafədə sakit-sakit dayanıb.

Sahildə 23 yaşında şümal boylu qız dayanıb. Bu Solmazdır. O, həyacanla dənizə baxır.

Kamera onun baxışlarının istiqamətində baxır… və biz dənizin uzağında gah görünən, gah itən kiçik bir nöqtəni görürük. Kamera bizi bu "nöqtəyə" yaxınlaşdırır və biz dənizdə çimən gənci indi yaxından görürük. Bu, 23 yaşlı Kamildir.

O, üzüb çox uzağa getmişdir. Buradan sahildə dayanmış Solmazı görmək olmur. İndi Solmaz da Kamili itirir və həyəcanla qışqırır.

—Kamil, ay Kamil, Kamil hey!…

Bəlkə Kamil bu səsi eşitdi. Bəlkə də yox, hər halda indi o sahilə tərəf üzür.

Sahilə çıxır, təəccüblə Solmaza baxır.

—Sən burda neylirsən?

—Niyə belə uzağa gedirsən? Elə qorxurdum ki..

Kamil *(bədənini dəsmalla silərək)*: Sakit havadır, nə olub ki… Dalğa-zad yoxdur.

Solmaz *(yavaşdan)*: Bu həmin o yerdir.

Kamil: Yox əşi, gör dəniz nə yaman çəkilib e.

Solmaz: Qayıq bax bu qayayla toqquşmuşdu. Mən lap yəqin bilirəm.

Kamil başını qaldırıb qayaya baxır. Qayanın üstündəki rəsm:

avarçılar qayıqda: Və birdən sahildəki bu dinc qaya gərgin musiqi akkordlarının sədası altında yenidən nə isə dəhşətli və müdhiş görünür. Sanki o indicə Kamilgilin başına uçub onları xurd-xəşil edəcək, əzəcəkdir.

Kamil *(yavaşdan)***:** Hə, yadımdadır. Deyəsən bax, bu yerdən yapışmışdı.

Kamil başını qaldırır və birdən qayanın təpəsində oturub şəkil çəkən qızıl görür.

Kamil təəccüblə qıza baxır.

Solmaz: Hər il bu gün bu qayanın yanına gəlirəm. Başqa adamlar qəbiristanlığa gedən kimi.

Solmaz birdən diqqət edir ki, Kamil onu dinləmir.

Kamil: Kimdir bu?

Kim? Hə, o qızı deyirsən… Rəssamdır. Yayı bura gəlib işləməyə. Dənizi çəkir. Gedək evə.

—Gedək.

Əlinin evi.

Gülsüm eyvandadır. Əli gəlir. O yorğun və qəmlidir. Əlindəki zəmbil bom-boşdur.

Əli: Yenə bir şey çıxmadı. Bilmirəm mən qocalmışam, ya balıq yoxa çıxıb.

Gülsüm: Yox, bu il hamı sənin günündədir. Qonşunun arvadı deyir ki, əri…

Əli: Balıqçün indi gərək uzağa gedək. Mənim bu köhnə qayığımla hara çıxacağam.

Solmazla Kamil kənd küçələriylə evə sarı gedirlər.

Solmaz: Axı sən niyə razılıq verdin?

Kamil: Ay hay, razılıq verdim? Əşi, mən özüm yalvarıb-yaxarırdım. Dənizdə quyu qazmaq heç bilirsən nə deməkdir? İnstituta girəndən istəyim-arzum elə bu idi də..

Kamil həmin alışqanı çıxarır, papirosunu odlayır.

Solmaz *(Baxışlarını alışqandan ayırmadan, yavaşdan)***:** Rəhmətlik atam da dəniz neftçisi olmaq istədi.

Kamil: Hə, yazıq…

Solmaz *(köksünü ötürür)***:** İki-üç günə mən də gedirəm. *(Pauza)* Bilirsən təklif eləyirlər ki, qalıb buradakı xəstəxanada işləyim.

Kamil papirosunu sümürür.

Solmaz: Mən bilmirdim ki, sən də işləməyə bura gələcəksən

(Pauza). Mən nə isə Bakıya alışmışam. Ancaq həkim burda da lazımdır da… *(Pauza)* Necə bilirsən, bəlkə mən razı olum, qalım burada işləyim.

Kamil: Nə deyim, vallah… hər halda özün necə istəyirsən elə et.. Əlbəttə, bura Bakı deyil, amma…

Açıq dənizdə kəşfiyyat buruğu. Dənizi buruğun metal haçaları arasından görürük.

Kamil və dörd fəhlə buruqdadırlar.

Kater buruğa yaxınlaşır. Katerdə ikinci növbənin işçiləri gəlir.

İkinci mühəndis *(katerdən)*: Bir şey var?

Kamil yorğun-yorğun başını bulayır.

Növbə dəyişir, Kamil katerə atılır. Kater sahilə tərəf üzür.

Əlinin evi, Kamil çarpayıda uzanıb papiros çəkir.

Gülsüm: Uşaq lap üzülüb.

Əli dinmir.

Gülsüm: Əli, dilim-ağzım qurusun, elə bil uşağa cadu eləyiblər. Elə bil bu buruq zəhrimardan başqa heç nə görmür, heç nə eşitmir.

Əli: Babasına çəkib. Babası rəhmətlik yadında deyil.

İşə uyanda dünyayi-aləm gözündə olmazdı.

Gülsüm: Solmazı da ki, deyəsən heç görmür.

Əli: Min kərə demişəm sənə, o məsələni birdəfəlik başından çıxar. Tutan iş deyil. Uşaqlıqdan bacı-qardaş kimi böyüyüblər. Ona bacı gözüynən baxıb. İndi onu ala bilər?

Gülsüm: Bəs axı qız yazıq necə olsun? Görmürsən şama dönüb.

Kamil otaqdan çıxır, Gülsüm dərhal susur.

…Axşamdır. Kamil, Solmaz, Əli və Gülsüm eyvandadırlar.

Gülsüm: Axır ki, hamımız bir yerə yığıldıq…

Kamil *(yorğun)***:** Dədə, sənin işlərin necədir? Dənizdə bir şey tapırsan?

Əli: Dəniz daha mənim deyil ay bala. İndi sizindi o. Buruqları düzmüsüz yan-yana, balıq hardan qalacaq? Hamısı başını götürüb qaçıb uzağa. *(Pauza)* Əjdər kişiynən danışmışam, qayığımı satıram.

Gülsüm: Yəni lap axır sözündür?

Əli: Bəli. Daha neynirəm o qayığı? Goruma aparmayacağam ki? Dənizdən də bir şey çıxmır *(Kamilə tərəf işarə edir)*. İndi də neftin dövranıdır. Çöl-biyaban bəs eləmədi. Deyir indi dənizin dibindən də gərək nöyüt çıxardaq.

Kamil: Bəli tapacayıq da, çıxardacağıq da. *(Əliylə ətrafı*

göstərir). Buranın altı qızıldır. Hər yerdən neft çıxardacağıq.

Gülsüm: Ay bala, avazın yaxşı gəlir, meynələr, ağaclar nə olacaq? Neft çıxsa bunlar zay olub gedəcək axı.

Kamil: Olur-olsun. Neft bilirsən nə deməkdir? Qızıldır neft, qızıla bərabərdir. Meynə-zad nədir onun yanında?

Əli: Belə çıxır ki, bunlar bu əbavü-əcdadımızın əməyi puç imiş, bütün bunlar nahaq yerə əkib yetirilib.

Kamil: Əbavü-əcdad! Ə kişi, heç əbavü-əcdadın yeridir? Nə gün görüb sənin əcdadın ki, hələ bir danışırsan da… Bu daxmamızdan başqa nə görüblər? Eh kaş geoloqların sözü düz çıxaydı. Neft çıxsın, gör bura necə dəyişir? Yollar, evlər, əsil şəhər… Tamam başqa aləm olacaq.

Gülsüm: Görürəm sənin aləmini. Odey arvadlar danışır ki, Qumluyurdda neft tapılıb, indi mazut əlindən dənizdə paltar yumaq da olmur.

Kamil: Neft çıxan yerdə mazut da olacaq, məlum məsələdir.

Solmaz: Demək burda da neft çıxsa dənizdə çimmək olmayacaq. Lap yaxşı olar. Lap əntiqə.

Əli: Bəli… bəli… Əntiqə günlərimiz hələ qabaqdadır.

Füsunkar Abşeron axşamı. Sakitlik, səssizlik, dinclik. Astadan, tələsmədən söhbət edirlər.

Birdən bərkdən it hürür.

Əli təəccüblə qaranlığa baxır.

Kamil: Gedim görüm nə olub? *(İti çağırır)* Toplan.

Kamil qaranlığa gedir. Dayanır. Boylanır. Dinləyir. İt irəli cummaq istəyir. Qız səsi eşidilir.

—Oy! — Görünür o əməlli-başlı qorxub. Kamil tez itin xaltasını çəkir.

—Kimsən?

Qız səsi: Deyəsən mən azmışam. Ağcanın evinə tərəf getməliyəm.

Kamil: Dayanın bu saat.

O səs gələn tərəfə gedir. Alışqanını yandırır. Onun işığında qızın sifətini görürük. Bu bayaq qayanın tərkində oturub şəkil çəkən qızdır *(onun adı Sevdadır)*.

Kamil: Sizsiz?

Sevda: Siz məni tanıyırsınız ki?

Kamil: Dünən görmüşdüm sizi. Qayanın üstündə oturub şəkil çəkirdiniz.

Sevda: Hə… Mən də indi tanıdım sizi. Siz dənizdə çimirdiniz, uzağa getmişdiniz. Bir qız elə hey qışqırırdı, Kamil, Kamil…

Kamil: Hə.

Sevda: Mən bu gün də işləyirdim, heç bilmədim qaranlıq haçan düşdü. İndi də deyəsən azmışam.

Kamil: Bu saat mən ötürürəm sizi.

Meynəliklərin sırasıyla gedirlər.

Sevda: Bu gün dənizin qırağında qəribə bir şey tapmışam. Budey, bax, bu balıqqulağını. Alın bir qulağınıza qoyun.

Kamil qəribə bir hərəkətlə *(biz bu hərəkəti vaxtilə Kərim babada, sonra Əlidə görmüşük)* sağ əliylə balıqqulaqlarını götürüb sol qulağına qoyur. Kamillə birlikdə biz də balıqqulağının içindən dənizin səsini eşidirik.

Kamil: Dəniz səsi…

Sevda: Nə qəribədir. Belə niyə götürürsüz. Bu biri əlinizlə götürün də. Axı belə narahatdır.

Kamil: Mənə belə rahatdır.

Sevda *(Balıqqulağını alıb öz qulağına tutur)***:** Siz Bakıdansınız?

Kamil: Yox buralıyam. Bakıda oxumuşam. İndi yenə burda işləyirəm. Neftçiyəm. Adım da Kamildir. Tanış olaq da.

Sevda: Olaq. Mənim adım Sevdadır.

Kamil: Gəlib çıxdıq. Bu da Ağca nənənin evi. Gecən xeyrə qalsın.

Sevda: Xeyrə qarşı.

Kamil öz evlərinə tərəf qayıdır. Ağcagilin evindən isə Sevdanın səsi eşidilir. Sözləri ayırmaq olmur, ancaq səsi, gülüşü eşidilir.

Kamil eyvanda uzanıb, ancaq hələ yatmayıb. Gözləri açıqdır. Başı üstündəki ulduzlu səmaya baxır.

Solmaz *(pıçıltıyla)*: Yatmısan?

—Yox.

—Kim idi? Kimlə danışırdın?

—Əşi, həmin o rəssam qız idi. Azmışdı.

Kamil papirosunu odlayır. Sükut.

Solmaz: Nə fikirləşirsən?

—Heç, elə belə…

—Denən də, nə olar, nə barədə fikirləşirsən axı?

—Nə barədə? Deyirəm bax, bu cənub tərəfdə neft tapıblar. Şimalda da. Demək neft kəməri mütləq burdan keçir. Burda olmaya

bilməz.

Solmaz *(sevinc içində sözünü kəsir)***:** Doğrudan da bu barədə fikirləşirdin?

—Hə, nədir ki?

Solmaz: Ancaq bu barədə?

Kamil: Hə də… axı nədir ki?

Solmaz: Heç, heç, elə-belə. Yat, dincəl, bu barədə sabah fikirləşərsən. Gecən xeyrə qalsın.

Kamil: Xeyrə qarşı.

Sevdanın uzaq səsi. Uzaq gülüşü. Dənizin uzaq pıçıltısı. Kamil üzünü saqqal basmış, yorğun görkəmli, fikirli halda sahildə gedir. Axşam çağıdır.

—Salam.

Bu Kamili fikirlərindən ayırır. O, başını qaldırır və qayanın başında Sevdanı görür.

Sevda *(gülümsünərək)***:** Nəyin fikrini çəkirsiniz belə?

Kamil *(sağ əliylə sol qulağını qaşıyaraq)***:** Heç.

Sevda: Çimməyə gəlmisiz?

Kamil başıyla təsdiq edir və soyunub dənizə cumur.

…Kamil dənizdən çıxır və qum üstündə karikuturanı görür. Saqqallı, qaş-qabaqlı bir gənc sağ əliylə sol qulağını qaşıyır. Bu Kamilin karikaturasıdır. Kamil Sevdanın gülüşünü eşidib başını qaldırır, ona baxır. Sonra ayağıyla şəkli silmək istəyir.

—Nə edirsiz? — deyə Sevda qışqırır. — Axı bu sənət əsəridir.

Kamil bir an dayanır. Dənizdən gələn ləpə şəkli yuyub aparır.

Kamil: Bu sənət əsərini dəniz də bəyənmir, görürsüz. Yaxşı, yorulmadınız?

—Nədən?

—Elə hey dənizi çəkirsiniz. Eyni şeyi nə qədər çəkmək olar?

Sevda: Eyni şeyi? Siz nə danışırsız? Dünən dəniz tamam başqa idi. Bir bura qalxın. Görürsüz?

—Nəyi? *(Onu yamsılayır)* Nəyi, nəyi? Dənizi. Qəribə adamsız. Dünyada bu dənizdən gözəl nə var? Gözünüz qabağındadır. Siz də baxıb elə bil görmürsüz. Nəyi, nəyi?

Kamil: Siz bura təzə gəlmisiniz. Deyəsən heç ömrünüzdə dəniz-zad görməmisiniz. Odur ki, o sizin gözünüzə ayrı cür görünür. Mən isə gözümü açandan bu dənizi görmüşəm. Bax bu boyda vaxtından. Hər üzünü görmüşəm bu dənizin. İndi də işləyirəm bu dənizdə.

Gözəlliyi-zadı özünə qalsın. Bircə o neft zəhrimarı tapıb çıxartsaq dibindən, daha dərdim qalmaz.

Sevda: Demək siz bu dənizdə neftdən başqa heç nə görmürsüz. Onda yazıq sizin halınıza.

Kamil: Yaxşı, bəs siz nə görürsüz bu dənizdə.

Sevda: Mən… çox şey… gözəllik, genişlik, açıqlıq, böyüklük, əzəmət, əbədilik, hüzn, həsrət.

Kamil: Pah atonnan!

Sevda: Bəli, bəli. İstəyirsiz mən sizə bir sirr açım. Mən böyük bir şəkil çəkmək istəyirəm. Adı da dəniz. Böyük, böyük, divar boyda. Bunlar isə hamısı ona hazırlıqdır.

Kamillə Sevda sahil boyu gedirlər.

Kamil: Baxın.

…Dəniz üfüqü tərəfdən təyyarələr görünür. Onlar sırayla uçur. Çox hündürdən uçurlar. Sevdayla Kamil məftun baxışlarla təyyarələrə baxırlar. Lap dənizin üstündə təyyarələrdən nə isə ayrılır. Az sonra havada böyük ağ paraşütlər açılır. Paraşütlər uça-uça dənizə düşürlər. Sanki dəniz çiçəkləyir. Katerlər "çiçəklərə" doğru üzür, paraşütçüləri götürürlər.

Sevda: Nə gözəldir. Elə bil ağ çiçəklərdir.

Kamil: Hərbi dərslərdir.

Sevda: Siz heç uçmusunuz?

Kamil: Hələ ki yox. Bəs siz necə?

Sevda: Mən də yox. Amma bu mənim arzumdur. Görəsən göydən yer necə görünür?

Kamil: Dəniz sizə bəs eləmədi, indi də yeri çəkmək istəyirsiz. Dəniz və torpaq, hə?

Sevda: Nə olar? Lap yaxşı fikirdir. Torpaq və dəniz. İki divarlıq freska. Bəs bunlar dənizə niyə düşürlər?

Kamil: Dedim də hərbi dərsdir?

Sevda *(təlaşla)***:** Müharibə olacaq?

Kamil: Nə bilim, bəlkə.

Onlar sahillə gedirlər. Sakit, fikirli. Göydə təyyarələr uğuldayır, paraşütlər açılır. Ancaq indi bütün bunlarda nə isə nigaranlıq və həyəcan var.

Kamil və Sevda Ağca xalanın evi qarşısında. Uzaqdan onları Solmaz görür.

Sevda: Gəldik çatdıq. Di sağ olun. Bəlkə daha görüşmədik. Mən

sabah gedirəm.

Bir müddət susurlar. Kamil nə isə demək istəyir. Amma demir. Sonra birdən.

—Sağ olun, —deyə çevrilib gedir.

Kədərli Solmaz ağır addımlarla evə tərəf addımlayır.

Dənizdə buruq. Kamil işə rəhbərlik edir. Fəhlələr quyunu qazır, elektrokorotajın diaqramını yazır, üzə çıxan maddəni qutulara yerləşdirirlər. Fəhlələrdən biri yenicə üzə çıxmış maddəni Kamilə uzadır.

—Usta, bir bura bax, gözümə birtəhər dəyir e…

Kamil bir ovuc nəm yumşaq torpağı əlinə alır, diqqətlə nəzərdən keçirir, üzündə sevincək bir ifadə əmələ gəlir.

Kamil *(var gücü ilə bağırır)***:** Neft! Neft! Axır ki.

Kamil sahillə evlərinə tərəf addımlayır. O tələsik addımlarla gedir. Evlərinə çata-çatda Solmazla rastlaşır.

Solmaz dinməzcə əlindəki kağızı Kamilə uzadır. Kamil cəld kağızı oxuyur. Sevinclə Solmaza baxır. Qucaqlayıb onu havaya qaldırır. Öpüb yerə qoyur, sonra tələsik çevrilib qaçır. Solmaz bir gözüylə gülüb, bir gözüylə ağlaya-ağlaya onun ardınca baxır.

Kamil qaça-qaça gəlib həmin qayaya çatır, onun təkinə dırmaşır, o yan, bu yana boylanır və birdən təəccüblə donub qalır. Qayanın üzərində karikatura çəkilmişdir. Kamilin karikaturası. Kamil hirslə əlindəki kağızı əzib atır, cəld papiros çıxarıb yandırır, dərin qullab vurur və birdən şux bir gülüş səsindən diksinir. Çevrilib baxır. Gülən Sevdadır.

Bir-birlərinə baxırlar, susurlar.

Sevda: Daha bunu dəniz yuyub silə bilməyəcək.

Səhərin erkən çağı. Adamsız çılpaq sahillə iki nəfər gedir. Zəif meh Sevdanın saçlarını oxşayır, narın qumları ürpədir.

Şəffaf ləpələr Kamilin yalın ayaqlarını yalayır.

İki nəfər balıqçı torları qayığa yağır, dənizə çıxmağa hazırlaşırlar.

Cavan balıqçı *(qoca balıqçıya)*: Görürsən sübh o başdan duran tək biz deyilik.

Sevda: Sabahınız xeyir, əmi.

Qoca balıqçı *(təəccüblə)*: Aqibətin xeyir qızım.

Sevda: İşiniz avand olsun.

Cavan balıqçı *(qayığı dənizə itələyərək)***:** Çox sağ ol.

…İndi kamera həmin qayıqda yerləşdirilib. Sahil ləngər vura-vura

get-gedə uzaqlaşır. Sahil, qayalar, qumlar, ləpələr bir-birinə və təbiətə, qumlara, dənizlərə, qayalara, səmaya qovuşan iki insan fiquru Kamil və Sevda da get-gedə uzaqlaşır, görünməz olur. Qayığa çırpılan dənizin səsindən başqa ayrı səs eşidilmir.

İndi artıq sahil özü də görünmür. Dörd tərəfdə dəniz, dəniz, dəniz…

Avqust səhərində ayrıldığımız qəhrəmanlarımızla bir ay sonra sentyabr gecəsində yenidən görüşürük. Üçüncü boy da məhz bu gecə başlayır. Və bizim gördüyümüz ilk od toy şamlarının alovudur. Bu alovun işığında ekrandakı yazını oxuyuruq.

Od boyu

M—1 markalı minik maşınında Kamil və Sevdayla birlikdə kəndə onların toyuna gedirik.

…Gəlinin qarşısında güzgü, şamlar tutublar. Şamların şölələri güzgülərdə, maşının üstündə, hətta lak çəkmələrdə əks olunub çoxalır, bərq vurur, bir-birinə qarışır.

Kəndə, Əligilin evinə çatırlar. Darvaza qarşısında onları Əliylə Gülsüm, qonum-qonşu qarşılayır. Bəzilərinin əlində şamlar və məşəllər var.

Gülsüm gəlini öpərək.

—Xoş gəlmisən, — deyir. —Qədəmin mübarək olsun.

Qapının kəndarına boşqab qoyulub. Sevda boşqabı bastalayıb sındırır və içəri keçir.

Gülsüm (Kamilə pıçıltıyla): Ayağını bastala.

Kamil *(anlamır)***:** Nə?

Gülsüm *(tez)***:** Gəlinin ayağını bastala deyirəm sənə.

Kamil: Boy, niyə?

Kamil bu müşkül məsələni anlamağa çalışdığı vaxtda Sevda dərhal mətləbi başa düşür və gülə-gülə onun ayağını bastalayır.

Kamil *(Sevdaya)***:** Onu da deyim ki, mənim ayağımın üstündə durmusan.

Sevda: Elə iş də ondadır da, key Balaxanım. Mən birinci bastaladım sənin ayağını. İndi evdə əsas mən olacam. Gərək, sən mənə itaət göstərəsən.

Kamil: Belə de! Kefimiz varmış ki… Bizdə belə-belə adətlərin əsas mütəxəssisi anamdır. İndi deməli ikinci "mütəxəssis" də təşrif

buyurdu.

Sevda *(Onu dinləmir, məftunluqla odlara, şamlara baxır)***:** Gör nə gözəldir.

Biz də odları-işıqları görürük, onlar çoxdur, müxtəlifdir. Məşəllər adamların başları üzərində hündürə qaldırılıb. İrili-xırdalı şamların alovu. Ocağın közərən odu. Ocaqda kabab bişirirlər. Tonqalın gur alovu. Tonqalın üstündə iri qazanlar asılıb. Bağın qaranlığında işıq nöqtələri — kişilərin közərən papirosları. Uzaqlardan isə kənd evlərinin zəif, tək-tük işığı görünür.

Sevda: İşıqlar, odlar… hərəsi də bir cür. Heç biri başqasına oxşamır… Götürüb bunların hamısın çəkəsən.

Kamil: Əsil şəkil çəkmə məqamıdır.

Toy havası çalmağa başlayırlar. Zurna balabanda, qarmonda çalırlar. Toy başlanır.

Rəqs səhnələri. Gah hay-küylü becid ritmli, gah sakit, nazlı-işvəli Azərbaycan rəqsləri bir-birini əvəz edir. Gəlinlə bəy oynayır. Xanəndə muğam oxuyur.

Qonaqlar dağılışır. Şamlar, lampalar söndürülür. Kamil və Sevda səliqəylə bəzənmiş gəlin otağına keçirlər.

Evin ümumi görünüşü. Ev qaranlığa qərq olub. Yalnız bir otaqdan zəif lampa işığı gəlir. O işıq da sönür.

…Axşamdır. Yeni xəstəxana binası. Bir neçə pəncərədən zəif lampa işığı gəlir.

Dəhliz. Masanın üstündə kiçik neft lampası. Dəhlizdə gəzişən Kamilin papirosu gah közərir, gah sönür. O əsəbi və intizarlıdır. Səbirsizliklə var-gəl edir. Pəncərəyə yaxınlaşır. Pəncərədən görürük. Qarşıdakı dirəyin üstündə meşin sapoqlu montyor dirəkdən xəstəxana binasına elektrik xətti-məftil çəkir.

İndi biz gah yarıqaranlıq dəhlizdə papiros çəkən Kamili, gah da dirəkdəki montyoru görürük.

Biz xəstəxananın dəhlizində və palatalardakı elektrik lampoçkalarını görürük. Tavandan asılmış təp-təzə, təmiz lampoçkalar hələ yanmır. Bütün bu kadrlarda istər işıqsız lampoçkaları, istər montyorun işini, istərsə də Kamilin səbirsizliyini göstərən kadrlarda — hər şeydə, hər yerdə bir işıq intizarı, işıq həsrəti duyuruq. Son dəqiqələrini yaşayan qaranlığa qalib gələcək, xəstəxananın küçələri, evləri bütün kəndi işıq dənizinə qərq edəcək bir anın intizarını, həsrətini.

Dəhlizdəki neft lampası son borcunu verərək zəif-zəif şölələnir, divarlarda əcaib kölgələr salır. Qaranlıq qatılaşdıqca Kamilin fiquru da itib əriyir, yalnız onun közərən papirosunun odlu nöqtəsini görürük.

Dirəkdəki montyorun da artıq fiquru deyil, silueti görünür. Bu siluet sanki havada əcaib bir rəqs ifa edir. Qaranlığın bu son dəqiqələri lap cansıxıcı və uzun görünür. İşini qurtarmış montyor qıvraq bir hərəkətlə dirək boyu sürüşüb yerə düşür.

Dəhlizin o başından addım səsləri eşidilir. Kimsə işıq düyməciyinə yanaşır. Düyməciyi burur. Dəhliz dərhal gur elektrik işığına qərq olur. Düyməciyin yanında ağ xalatlı Solmazı görürük.

Solmaz *(Kamili görüb ona tərəf atılır)***:** Oğlandı… Gözün aydın, Kamil, oğlun oldu.. Təbrik edirəm.

…İndi biz xəstəxananın elektriklə işıqlanmış pəncərələrini görürük.

Bütün kənd boyu işıqlar yandırılır: evlərdə işıqlar yanır. Dənizdəki buruqlarda işıqlar yanır.

…Əligilin evi. Otağın alçaq tavanından elektrik lampoçkası asılmışdır. Gülsüm indicə yanmış lampoçkanı nəvazişlə sığıllayır, oxşayır. Əli gəlir, o da əlini uzadıb lampoçkaya toxunmaq istəyir, ancaq lampoçka artıq qızmışdır. Əli dərhal əlini geri çəkir.

…Əli taxtadan beşik düzəldir.

…Gülsüm yorğan sırıyır.

Beşik otaqdan asılmışdır. Beşikdə balaca Murad — Kamillə Sevdanın oğlu. Muradın üstünə Gülsüm xalanın sarıdığı yorğan salınıb. Gülsüm xala beşiyə yanaşır, uşağın beşiyinə göz muncuğu bağlayır.

…Sevda Muradı çimizdirir. İndi Muradın iki yaşı olar.

Kamil *(tələsik gəlir)***:** Sevda, ay Sevda, muştuluğumuzu ver, dörd gündən sonra uçuruq Moskvaya.

Sevda: Ört qapını görüm, uşağı soyuğa verərsən. Nə danışırsan a kişi, kim uçur, hara uçur?

Kamil: Biz uçuruq. Sən, bir də mən. Özü də Moskvaya uçuruq. İki saat bundan qabaq Bakıdan mənə zəng eləmişdilər. Deyirlər səni neftçilərin nümayəndə heyətinə salmışıq. Hazırlaş.

Sevda *(Muradı göstərir)***:** Bəs bu?

Kamil: Əşi daha yekə kişidir. Nənəsiynən, babasıynan qalar. Elə deyil ədə *(uşağı qucağına götürür, atıb-tutur)*.

Sevda yola hazırlaşır, çamadanları yığışdırır. Kamil kağız-kuğazını səliqəyə salır.

Sevda: Heç inana bilmirəm. Yəni doğrudan iki gündən sonra Moskvanı görəcəyik. İnana bilmirəm ki, Moskvaya gedirik, özü də təyyarəylə.

Kamil: Qatara bilet götürmüşdülər. Qaytardım, dedim xeyr, arvadım da, mən də hələ ömrümüzdə təyyarəyə minməmişik. İndi fürsət düşüb fövtə vermək olmaz.

Kamil pencəyini çıxarıb Sevdaya uzadır. Sevda pencəyi səliqəylə büküb çamadana qoyanda alışqan pencəyin cibindən yerə düşür.

Sevda *(alışqanı götürür)***:** Götürürsən özünlə?

Kamil: Hə.

Sevda: Neyləyirsən, sən ki, papirosu atmısan.

Kamil: Bunun papirosa dəxli yoxdur. Mən heç vaxt bu alışqanı gözümdən iraq qoya bilmərəm. Ondan ayrı düşsəm özümü birtəhər hiss edərəm. *(Çamadana yanaşır, ikinci boyda Sevdanın tapdğı balıqqulağını götürür, dinləyir, yenə yerinə qoyur)* Sən bundan ayrı dura bilmədiyin kimi, mən də onsuz dura bilmirəm.

Gülsüm *(otağa boylanır)***:** Sevda, bala, bir bəri gəl.

Sevda eyvana çıxır.

Gülsüm *(pıçıltıyla)***:** Sevda, bala, sözümü yerə salma, qurbanın olum.

Sevda: Nədir ki, Gülsüm xala?

Gülsüm: Amma Kamil bilməsin, hirsi tutar. Mən bilirəm, siz belə şeyə inanmırsız, amma mənim xətrim üçün, qurban olum sözümü yerə salma.

Sevda: Gülsüm xala, nədir ki, e.

Gülsüm: Gör hara çıxacaqsız, qurban olum, göyün yeddi qatına, dünən gedib dua yazdırmışam. Sənə etibar edirəm, al bunu bir yerdə gizlət, özünüzlə aparın, sizi xatadan-bəladan saxlar. Mənim də ürəyim sakit olar. Yaxşı, bala? Qurbanım olum sən Kamilin, Muradın canı…

Sevda *(gülərək)***:** Yaxşı, yaxşı, ay arvad, daha and niyə verirsən. Götürərəm, lap yəqin götürərəm.

Gülsüm: Ay sənin başına dönüm.

Kamil çamadanların ağzını bağlayır.

Kamil: Vəssalam. Biz hazır. Deməli belə. Sevda xanım.

Üç gündən sonra, yəni ki, 1941-ci ilin 24 iyununda Kamil Kərimli

və onun həyat yoldaşı Sevda xanım Kərimli ömürlərində ilk dəfə təyyarəyə minib göyün yeddi qatına qalxacaqlar.

…Gecədir. Kəndin işıqları. Dəniz mədənlərinin işıqları. Sakit, dinc şən uşaqlar.

Gecənin səssizliyi qəfil müdhiş təhlükə siqnallarıyla parçalanır. Bu uzun, dəhşətli səs kəndin, sahilin, dənizin üstünə axır və işıqlar dəstə-dəstə sönməyə başlayır. Kəndin bir hissəsi, sonra başqa bir hissəsi qaranlığa qərq olur…

…Gecədir. Kəndin işıqları. Dəniz mədənlərinin işıqları. Sakit, dinc, şən uşaqlar.

Gecənin səssizliyi qəfil mühdiş təhlükə siqnallarıyla parçalanır. Bu uzun, dəhşətli səs kəndin, sahilin, dənizin üstünə axır və işıqlar dəstə-dəstə sönməyə başlayır. Kəndin bir hissəsi, sonra başqa bir hissəsi qaranlığa qərq olur… Küçə lampaları sönür. Dəniz mədəninin işıqları sönür, yalnız ən uzaq bir dəniz buruğunda işıq, son işıq nöqtəsi… Siqnal get-gedə daha dəhşətlə səslənir və bu son işıq da sönür. İndi siqnal ekranın tam qaranlığında səslənir. Sonra susur. Ekrana çökmüş sükutda yalnız kənd itlərinin hürüşməsi eşidilir.

Kamilgilin otağı. Yarımqaranlıqda biz yola hazırlanmış çamadanların açılıb boşaldıqlarını görürük.

Ekran yenə də qaranlığa qərq olmuşdur. Birdən bu qaranlıq ekranın bir bucağında işıq yandırılır. Bu cib fənərinin işığıdır. Bu cansız, ölü bir işıqdır, o yalnız məhdud bir dairəni işıqlandırır. Ekranın o biri bucağında da belə bir işıq yandırılır. Ekranın bir neçə yerində cib fənərləri işıqlanır. İndi biz bu fənərləri tutan əlləri də görürük. Sonra adam fiqurlarını da görürük. Adamlar ölü, cansız işıqlarıyla yollarını işıqlandıraraq irəliləyirlər. Kamilgilin kəndindən min kilometrlərlə uzaqda olan bir çöl. Almanlar bu çöllə irəliləyirlər.

Bu epizodun səssizliyi cib fənərlərinin ölü, cansız işıqları indiyə qədər gördüyümüz kadrlarla kontrast təşkil etməlidir. Düşmənlər zülmət elçiləri, qaranlıq nümayəndələri, yarasalardır. Onların işıqları da yalnız öz fiqurlarını, sifətlərini eybəcər bir şəkildə işıqlandıran cib fənərləridir.

…Sovet blindajı. Zəif şam işığı, hərbi paltar geymiş Kamil komandirin qarşısında farağat dayanmışdır.

Komandir: Po dannım razvedki seqodnya veçerom po jeleznoy doroqe vraq perevozit 20 sistern s neftyu. Sostav proydyet po mostu nad rekoy Beloy, v 04.35. Postavlena zadaça-vzorvat most v tot

moment, koqda tam budet proxodit sostav. Vam yasna zadaça?

Kamil: Tak toçno.

Komandir: İtak… *(xəritənin üzərinə əyilir).*

Kamil körpünün yaxınlığında pusqudadır. Əliylə şnurun ucunu tutub. Ancaq biz hələ bunların heç birini görmürük, çünki ekran qaranlığa qərq olub. *(Od boyunda qaranlıq və zülmət kadrların çox olması bizi təəccübləndirməməlidir. Çünki odun, alovun, işığın əyani, görümlü, ekran obrazını yalnız qaranlığın kontrastında, fonunda vermək mümkündür. İşıqlı kadrlarda od, alov, işıq obrazı lazımı effetki verməz).*

Ekrandakı sükutun içindən qatarın uzaq səsi eşidilir. Səs get-gedə artır, yaxınlaşır. Qatar körpüyə tərəf gəlir. Kamil şunurun ucunu yandırır.

…Ekranın qara fonunda yalnız yanan nazik bir xətti-ilan kimi qıvrılan şnurun odlu yolunu görürük.

Qatarın səsi lap yaxından gəlir. Qatar artıq körpünün üstüylə gedir. Partlayış. Körpü uçub dağılır. Yanan sisternlər çaya tökülür.

Bu yanğının şöləsində Kamilin gərgin sifətini görürük.

Yenə də odun şölələrində gah Kamilin gözlərini, gah da Qobustan qayalarının rəsmlərini görürük. Gecəyə qərq olmuş qayaların rəsmləri alovların işığında bir an qaranlıq içindən çıxır və biz atlıları, nizələri, oxları görürük. Müasir müharibənin alovları qədim müharibə səhnələrinin əksini işıqlandırır. Alov ərşə qalxır. Hər şey bir-birinə qarışır. Uçmuş körpü, yanan sisternlər, Kamilin sifəti, qədim rəsmlər, oxlar, atlar, Qobustan qayaları.

Kamilgilin kəndi. Qış səhəri.

Əlinin evi. Sırıqlı pencək geymiş Solmaz otağa daxil olur. Bir qucaq odun gətirib.

Sevda: Çox sağ ol, Solmaz. Hələ bir az odunumuz qalıb. Kənd sovetindən göndəriblər. Öz evinə aparaydın.

Solmaz: Sizə məndən çox gərəkdir. Özün bilirsən ki, uşağa necə lazımdır.

Odunlar ocaqda alışıb şirin-şirin yanırlar.

Sevda *(oda baxaraq)***:** Gör nə qəşəng yanır, hə… *(köksünü ötürür)*. Bir vaxt mən alov-od şəkli çəkmək istəyirdim. Ancaq müharibə alovlarını yox.

Gülsüm balaca Muradı yatızdırır, qəmli səslə layla çalır.

Laylay beşiyim, laylay,

Evim-eşiyim laylay,
Sən get şirin yuxuya,
Çəkim keşiyin laylay.

Solmaz xısın-xısın ağlayır.

Cəbhə. Gecənin rəngi alov rəngidir. Torpaq yanır, çay yanır.

Mərkəzində Kamil olan od dairəsi get-gedə daralır.

Kamil həyəcanla o yan bu yana baxır, od-alov mühasirəsindən qurtarmaq üçün çıxış yolu axtarır. Ancaq dörd ətrafda oddan alovdan başqa heç nə görünmür.

Amansız bir dəhşətlə və son ümidlə Kamil başını qaldırıb səmaya baxır. Açılmaqda olan səhər çağı belə yüksək, uzaq və apaydın SƏMAYA.

Göyün lap yüksəkliyində təyyarə görünür. Kamil oddan-alovdan uzaq olan bu təyyarəyə həsədlə, həsrətlə baxır.

Amma budur, yerdən zenit topları dilləndilər. Təyyarə alışıb kəlləmayallaq yerə doğru düşür. Başqa təyyarələr görünür. Bir-birinə atəş açırlar. Səma döyüşü başlanır.

İndi nə səhər var, nə səma. Yer üzündə küküləkləşən od-alov səmanı da çuğlamışdır. Aləm alov içində.

Təmiz, aydın, açıq, dinc səma. Təyyarəsiz, buludsuz səma. Səma fonunda yazı.

Səma boyu

Əligilin evi. Eyvanda Gülsüm əllərini hündür açıq səmaya qaldırıb allaha yalvarır.

—İlahi pənahım bir sənədir, bircə oğlumu qaytar, gözümün yaşına yazığın gəlsin. Qaytar oğlumu, Qaytar Kamili, Əlini qaytar evinə, eşiyinə, bircə balamı qaytar. Hitler köpək oğlunun başına daş tök, görüm onun ciyərinə güllə dəysin, görüm onu qan qussun, qaytar bütün gedən əsgərləri, bizimkiləri də onların içində, analarını oğulsuz, arvadları dul, uşaqları yetim qoyma, ilahi. Qaytar bircə balamı, bircə Kamilimi, əhd eləyirəm, ilahi, məscidə gedib nəzirimi verməyincə balamın üzünə də baxmaram…

Gülsüm duasını qurtarıb ayağa durur, gözlərinin yaşını silir, otağa keçir. Çarpayıda yatan Murad gözlərini açıb təəccüblə nənəsinə baxır.

Gülsüm: Oyanmısan, qurbanım olum, nə çox yatırsan, tənbəl.

Tənbəl, tənbəl, a tənbəl, yatsan olar iş əngəl. Ay allah, mən bunun boyuna qurban olum .

Dağda darılar
Sünbül sarılar
Qoca qarılar
Bu balama qurban.

Murad: Nənə, sən yenə allaha dua eləyirdin.

Gülsüm: Hə, qurban olum, allaha yalvarırdım ki, dədəni, babanı tez qaytarsın.

Murad: Nənə, bəs Solmaz xala deyir ki, allah yoxdur.

Gülsüm *(qorxuyla)*: Kəs, a qırışmal. Belə, belə sözləri ağzına alma. Allah bizə qənim olar.

Murad *(səmaya baxır)*: Nənə, allah orda oturub?

Gülsüm: Hə.

Murad: Bəs niyə biz onu görmürük?

Gülsüm: O çox hündürdədir, bala, onu görmək olmaz.

Murad: Lyotçiklər də onu görmür?

Gülsüm: Elə demə qurbanım olum. Allaha ağır gedər. Heç kəs allahı görməyib, amma allah bizim hamımızı görür. Səni də, məni də, hamımızı. Hər sözümüzə, hər işimizə göz qoyur.

Murad: Anamı da görür?

Gülsüm təsdiq işarəsi edir.

Murad: Dədəmi də?

Gülsüm: Görür, görür, bala, hamını görür. Dədəni də, babanı da, allah onlara kömək olsun! Di dur geyin, gecdir.

Murad *(ağlamsınır)***:** Nənə, bəs anam haçan gələcək? *(Ağlayır)*.

Gülsüm: Ə kiri, yekə kişisən, heç sənə ağlamaq yaraşar? Anan şəhərə işə gedib də. Axşama qayıdacaq. Gedək çay içək.

Axşamdır. Sevda elektrik qatarından düşüb evlərinə tərəf addımlayır. Onun yorğun, əzgin görkəmi var. Əlindəki torlu torbacıqda kartof və çörək vardır.

Gülsüm: Niyə belə gec gəldin?

Sevda *(kartofa işarə ilə)***:** Bununçun dayanmışdım.

Gülsüm kartofu su ilə dolu qazanın içinə atır. Odun üstünə qoyur. Çörəyi doğrayıb masaya düzür.

…Qaranlıqdır. Gülsümlə Murad otaqda yorğanın altına girirlər.

Murad: Ana, bəs sən?

Sevda: Siz yatın, mən hələ işləməliyəm.
Gülsüm: Sən də yıxılıb yataydın, yorulmusan.
Sevda: Siz yatın, mən hələ işləməliyəm.
Gülsüm: Sən də yıxılıb yataydın, yorulmusan.
Sevda: Yox, sabaha bunu verməliyəm. Siz yatın.
Murad: Nənə, nağıl de.
Gülsüm: Biri vardı, biri yoxdu…

…Sevda çırağın zəif işığında işləyir. Plakat çəkir, səma və alışıb yanan faşist təyyarəsi. Yerdən təyyarəyə atəş açan zenit topları. Topçulardan biri sifətcə Kamilə oxşayır.

Gülsüm *(nağılını pıçıltı ilə danışıb qurtarır)***:** Göydən üç alma düşdü, biri mənim, biri Gülsümün, biri də nağıl deyənin. Sevda işini davam etdirir.

Gecənin zülməti. Yatmış kənd. Səssizlik təhlükə siqnalıyla pozulur. Gülsüm dərhal gözlərini açır. Sevda cəld çırağı söndürüb. Muradın yanına gəlir.

Gülsüm *(pıçıltıyla)***:** Sevda, bala, bəs deyirdin Hitler köpək oğlunu öz yerinə qovublar.

Sevda: Yavaş, Murad ayılmasın. Yoxsa yenə bağrı yarılacaq. Yəqin hərbi məşqdir.

Pəncərədən səmanı qayçılayan projektor şüaları görünür. X hərfi şəklində haçalaşırlar. Siqnal şiddətlənəndə Murad diksinib oyanır. Anasına sığınıb ağlayır.

Sevda *(Onu sakit etmək üçün gülümsünür)***:** Yat, yat, heç utanmırsan? Nə olub ki? Axı sən evimizin kişisisən. Ağlama görüm, biabır olduq. Göyə bax. Görürsən projektorlar nə qəşəng işıq salır.

Murad *(hıçqıra-hıçqıra)***:** Ana, faşistlər indi bomba atacaq. Nənə, de də allaha ki, faşistləri öldürsün…

Sevda *(gülərək)***:** Nə danışırsan ədə faşistlər-zadlar nə gəzir. Bunlar faşistləri çoxdan qırıb öldürüblər.

Murad: Kim öldürüb?

Sevda: Kim? Bizim əsgərlər. Sənin atan, baban, başqa əsgərlər, əmilər. Bunu elə-belə öyrənmək üçün edirlər. Görürsən hər şey qurtardı. Təhlükə siqnalı kəsilir. Murad hələ də göyü qayçılayan projektor şüalarına baxır.

…Payız axşamı. Kərim babanın basdırdığı böyümüş alma ağaclarının sarı yarpaqları tökülür. Külək bu yarpaqları havada oynadır.

—Anam gəldi — deyə Murad şəhərdən qayıdan Sevdaya tərəf atılır.

Sevda torbasından çörək çıxarır.

Sevda *(Gülsümə)***:** Kartof üçün dayanmışdım, çatmadı mənə.

Müharibə illərinin kasıb süfrəsi. Sevda, Gülsüm, Murad nahar edirlər.

…Dəniz sahili. Hər yana payız çöküb, çuğunlaşmış dəniz, tutqun, alçaq səma, boş sahil. Sahilin geniş boşluğunda yalnız iki insan fiquru görünür. Sevdayla Murad qayaların altında qumluqda oturublar. Göydə qatar-qatar quşlar görünür. Sevda həzin-həzin şer oxuyur.

Qatar-qatar olub qalxıb havaya
Nə çıxıbsız, asimana durnalar,
Qərib-qərib, qəmgin-qəmgin ötərsiz
Üz tutubsuz nə məkana durnalar.

Ərz eləyim bu sözümün sağıdır,
Yollarınız haramıdır, yağıdır.
Şahin-şunqar səfinizi dağıdar,
Boyanarsız qızıl qana durnalar!

Bir baş çəkin dərdməndin halına,
Ərzə yazsın, qələm alsın əlinə,
Vidadi xəstədən Bağdad elinə
Siz yetirin bir nişanə durnalar.

Quşlar üfüqə tərəf uçub gözdən itirlər.

Murad: Ana, quşlar hara uçurlar?

Sevda: İsti yerlərə uçub gedirlər. Yayda yenə qayıdacaqlar.

Göydə yeni quş qatarı görünür. Bu quşlar xeyli alçaqdan uçur.

Muradla Sevda quşların uçuşunu izləyirlər.

Qəfildən güllə açılır. Yenə iki dəfə atəş açılır. Qatar pozulur. Bir neçə quş daş kimi yerə düşür.

Sevda: Ay yazıqlar, kimdi bunlara qıyan. Gedək evə bala.

Murad təəccüblə baxır.

Qayalaran arasıyla evlərinə tərəf gedirlər. Taygöz ovçunu görürlər.

Taygöz ovçu *(Sevdaya müraciətlə)***:** Bacı qızı, bax sən özün de bahadır yox, gör sizə necə quş verirəm e.

Gülsüm: Hələ adını qonşu qoymusan. Sənin insafın hardaydı ki, belə od qiymətinə satırsan.

Ovçu: O getdiyim Xorasan mənə qənim olsun, bu tək gözüm də kor olsun, yalan deyirəmsə, bazara çıxartsam bunun qiyməti bilirsən neçədir… İndicə vurmuşam, əti təptəzə, yağlı, ləzzətli, iki-üç gün yeyərsiz, uşağa da bir şey olar. Al bala *(quşun rəngbərəng lələklərindən qopardıb Murada verir)*. Gör bir nə qəşəngdir.

Sevda, Gülsüm, Murad nahar edirlər. Nahar Murada ləzzət verir.

…Bahardır. Kərim babanın alma ağacları yaşıl yarpaqlar içindədir.

Sahil. Sevdayla Murad qayaların altında qumluqda oturublar. Üfüqün o tayından durna qatarı görünür. Köçəri quşlar qayıdırlar.

Murad: Ana, bax.

Sevda: Qayıdırlar da oğlum. Yadındadır sənə deyirdim ki, yazda qayıdacaqlar.

Murad: Ana, bax.

Murad *(ləzzətlə barmaqlarını yalayır)*: Ana, gedim ovçu əmini çağırım?

Sevda əvvəl onun sözlərinin mənasını başa düşmür, sonra anlayaraq kədərlə oğlunun başını sinəsinə sıxır.

—Yazıq bala, deyir, — tifil balam.

…Göydə bir dəstə quş görünür. Batan günəşin şüalarında quşların lələkləri rəng verib, rəng alır.

Birdən qayanın dalından Taygöz ovçu çıxır. Onun əlində tüfəng var. Tüfəngi qaldırıb qundağını çiyninə basır, təkcə gözünü də qıyaraq quşları nişan alır. Güllə açılır və qatardan bir quş daş kimi yerə düşür.

Elə həmin andaca başqa bir qayaların dalından başqa Taygöz ovçular çıxır. Onlar hamısı bir-birinə oxşayır, daha doğrusu, bir-birinin eynidir. Quşları nişan alır, atırlar. Quşlar bir-bir düşür. Qayalar güllə səslərini əks edir. Taygöz ovçular çoxalır, quş qatarları pərən-pərən olur, quşlar bir-bir düşürlər, elə bil göydən yerə daş yağır.

Ovçular isə hey atır, atır. Bütün yer ölü quş cəmdəklərilə dolub.

…Murad, ay Murad, — deyə Gülsüm onu yuxudan oydır. Yuxuda nə görürdün ki, belə qışqırırdın, bala?

Murad gözlərini geniş açıb nənəsinə baxır.

—Nənə bəs haradadırlar?

—Kim, bala?

—Ovçular.

—Nə ovçu bala, heç kəs yoxdur. Dur geyin.

İşıqlı may səhəri. Murad və Gülsüm eyvanda çay içirlər. Solmaz qaça-qaça gəlir.

Solmaz *(tövşüyərək)***:** Gülsüm xala, gözün aydın, muştuluğumu ver, dava qurtardı.

…Gülsüm, Murad və Solmaz kəndin kənarında, yollar ayrıcında.

Gülsüm: Siz bu yana baxın, dəmir yoluna, mən də bu yola, bəlkə gəldilər.

Elektrik qatarı gəlir. Sərnişinlər düşüb, kəndə tərəf gəlirlər, ancaq aralarında nə Kamil var, nə Sevda.

Gülsüm şosse yoluna baxır. Maşınlar yel kimi ötüb keçir.

Budur, bir maşın da böyük sürətlə onları ötdü. Yox, ötmədi. Qəfildən dayandı.

Maşının içindən Sevda və Kamil yerə atıldılar. Kamil hərbi geyimdədir.

Birinci onları Murad gördü. Murad "Ana" — deyə qışqıraraq onlara tərəf qaçır.

Kamil Muradı qucaqlayır, öpür, havaya qaldırıb atıb-tutur, sonra Solmazla görüşür.

Kamil onlardan ayrılıb bayaqkı yerində heykəl kimi donub qalmış anasına tərəf qaçır. Gülsümü qucaqlamaq istəyir.

—Dəymə mənə, dəymə, — deyə Gülsüm onu itələyir. Gülsüm tir-tir əsir, ağlayır və iki əliylə üzünü örtür.

Kamil anasının bu hərəkətinə mat-məətəl qalır.

Gözlərini açmadan Gülsüm əlini uzadır, Kamilin üzünə, alnına, gözünə, burnuna, ağzına, qulağına, çənəsinə, boynuna çəkir, əllərinə, ayaqlarına toxunur, — oğlum sağ-salamatdır.

Kamil *(təəccüblə)*: Bu nədi ay ana!

Solmaz: Əhd eləyib ki, sən gələndə məscidə getməmiş sənin üzünə baxmayacaq, görüşməyəcək sənlə.

—Əşi, boşla görək, — deyə Murad qəti bir hərəkətlə anasını qucaylayıb öpmək istəyir.

—Yox, yox, yox, — deyə Gülsüm çılğınlığıyla qışqırır, — and verirəm Muradın canına, dəymə mənə. Əhdimi pozma, qurbanım olum. Allaha xoş getməz. *(Pıçıltıyla əlavə edir)*. Dədən hələ gəlməyib, qorxuram allah-tala qəzəbini ondan çıxar.

Anasının üzünün ifadəsi, əhvalı, sözləri Kamili sarsıdır, o, əllərini geri çəkir.

Gülsüm çevrilir və tələsik addımlarla onlardan aralanır, məscidə tərəf gedir. İlk dəfə olaraq açıq səmanın fonunda biz kəndin məscidini görürük. İki hündür minarə göylərə ucalır.

…Kamilgilin evi. Kamil və Gülsüm söhbət edirlər. Kamil papiros çəkir.

Gülsüm: Altı aydır məktubu kəsilib. Qonşunun arvadı məktub alıb. Əvvəllər Əliylə bir yerdə idilər, məktubları bir gələrdi. Amma indi Əlidən bir kəlmə olsun yazmayır. Dilim, ağzım qurusun, Kamil, deyirəm bir şey olsaydı, iraq olsun, heç olmasa xəbər verərdilər də, qara kağız…

Kamil: Ay ana, elə şeyi heç ürəyinə gətirmə. Davadır da, davada min şey olur, görürsən aylarla vaxt tapıb bir əlcə kağız yaza bilmirsən. Adamın öz adı yadından çıxır, o ki, qaldı kağız yazmaq olsun. Bir az da səbr elə, dava qurtardı, bu yaxında xəbər çıxar.

Gülsüm: Allah ağzından eşitsin, oğlum. Mən də gümanımı itirmirəm. Odey o yandakı qonşular qara kağızını da almışdılar. Əməlli-başlı yasını tutdular, on gün bundan qabaq sağ-salamat gəlib çıxıb.

Murad onlara yaxınlaşır. O özünü pərt və gərgin hiss edir. Bilmir ki, ilk dəfə gördüyü bu kişiylə necə rəftar etsin. Axı bu kişi həm "yad əmi", həm də onun doğma atasıdır. Hətta ona necə müraciət etməyi də bilmir. Murad yan böyürü Kamilə yaxınlaşır və onun qolundan dartır.

Murad *(tutula-tutula)*: Anam dedi ki… siz otağa gəlin.

Kamil: Hə? Adə, köpək oğlu, "siz" kimdir? Adam atasına siz deyər. Gəl bura görüm.

Muradı götürüb havaya atıb-tutur. Murad aydın, açıq səmanın fonunda.

Bir-birini əvəz edən epizodlarda biz Muradla Kamilin yeni bir hisslə atalıq-oğulluq hissilə qovuşduqlarını, isinişib-mehribanlaşdıqlarını görürük. Bu epizodların hamısında səma obrazları var — dinc, sakit, açıq, aydın may səması. Muradla Kamil ağaca çıxırlar.

Ağacın təpəsi səmanın içindədir. Kamil ağacdan yelləncək sallayır. Muradı yellədir. Biz açıq səmanı görürük və yelləncək hərəkət etdikcə Murad bu fonda görünür və qeyb olur.

Kamillə Murad çərpələng uçurdurlar. Çərpələng get-gedə ucalaraq səmanın ənginliklərinə doğru uçur. Kəndin başqa həyətlərindən də çərpələnglər uçurdurlar. Sanki sakit dinc səmada çərpələng rəsm keçidi düzəldilib.

…Axşamdır. Hava qaranlıqlaşır. Göydə ay.

Kamil *(Sevdaya)***:** Aya bax. Gəlsənə sahil tərəfə gedək.

Murad: Mən də, mən də.

Sevda: Sənin yatmaq vaxtındır, gecdir.

Murad *(ağlamsınır)***:** Yox, yox.

Kamil: Yaxşı gedək. Keçib daha, bu gün bir az gec yatar.

…Kamil və Sevda dəniz sahilində. Murad Kamilin çiynindədir. Aylı gecə. Ay işığında gümüşü qumlar, gümüşü sular. Kamilin, Sevdanın, Muradın uzun kölgələri.

Kamil: Yaxşı, sənin işin necədir? Freska?

Sevda: Əşi nə freska… Mən əsasən plakat çəkərdim, bəzən də karikaturalar.

Kamil: İndi daha dava qurtarıb. Yenə başlayarsan freskanı çəkməyə. "Torpaq. Dəniz. Od".

Sevda: Bir də "Səma". TTorpaqU. Dəniz. Od. Səma". Yaman səmanı çəkmək istəyirəm. Bilirsən bütün bu illər səmanı nə isə belə xüsusi cür duyurdum. Təyyarələr, bombalar, projektorlar. Bir yandan səmadan qorxurduq. Bəzən də səma bizi dolandırırdı. Burda bir taygöz ovçu var. Hərdən görürsən quş vurub gətirirdi. Ağzımız bir dada gəlirdi. Amma bilirsən, bütün bu təyyarələrə, bombalara baxmaqdan, mən elə bil bu illər səmanı təzədən gördüm, elə bil bütün bunları indiyəcən görməmişdim — buludları, quşları, ulduzları, ayı. Bir aya bax.

Kamil: Hə. Bilirsən, orda cəbhədə hər şey tamam başqa cürdür. Torpağın iyi də başqadır… Dəniz də, çaylar da, daşlar da, hamısı başqadır. Bircə ay elə həmin aydır, adama qəribə gəlir.

Sevda: Bilirsən mən də bu barədə fikirləşirdim. Bəzən elə gecələrdə oturub aya baxıb düşünürdüm: bəlkə indi sən də aya baxırsan. Mənə qəribə gəlirdi, mən hardayam, sən harda, aramızda bu qədər yol var, çöllər, çaylar, şəhərlər, dağlar, müharibə, amma bax bu dəqiqə biz ikimiz də eyni şeyə baxırıq, eyni şeyi görürük.

Kamil: Hə.

Dənizə addımlayırlar.

…İşıqlı gün. Neft mədəni. Kamil başqa bir mühəndislə sahəni

gəzir.

Mühəndis: Bu hamısı təzə buruqlardır, sən görməmisən. Bu, rayonun ən dərin quyularıdır.

Kamil: Buruqlar da təzədir, adamlar da. Heç birini tanımıram.

Mühəndis: Bəli köhnə işçilərdən kimisi cəbhədən qayıtmadı, kimisi keçdi başqa yerə. Mən elə bildim sən də şəhərdə qalacaqsan.

Kamil: Təklif elədilər. Amma özüm buranı xahiş elədim. Axı necə olsa bütün cavanlığım burda keçib. Həm də ki, necə olsa, baba yurdumdur.

Mühəndis: Əlbəttə, həm də bura çox perspektivli rayondur. Bizim geoloqlara hətta balaca bir təyyarə də veriblər. Seysmik şəkillər çəkmək üçün. İstəsən bütün bunlara göydən də baxa bilərsən.

Kamil: Pis olmaz. Bilirsən, desəm inanmarsan, mən ömrümdə hələ təyyarəyə minməmişəm.

Mühəndis: Ola bilməz.

Kamil: Öz canımçün.

Mühəndis: Odur e, uçur. Bu saat düşəcək yerə. Bir azdan səni qaldırar.

Kamil: Çox yaxşı.

Kamil diqqətlə təyyarəni izləyir. Bu U-2 tipli iki yerlik təyyarədir. Kamil ona baxır və birdən diksinir, onun gözləri dəhşətlə böyüyür.

Qürubun qızılı fonunda təyyarə sanki yanır. Eynilə "Od boyunun" finalında yanan təyyarə kimi.

Ancaq bir an sonra Kamil başa düşür ki, təyyarə salamatdır. Yalnız qürubun işığında onun gözünə belə görünür.

Təyyarə yerə enir.

Mühəndis: Kamil, nə olub sənə, rəngin qaçır.

Kamil: Heç… Mənə belə gəldi ki… yox, bir az başım gicəllənən kimi oldu… Bilirsən, indi mən uçmaq istəmirəm. Qalsın gələn səfərə.

…Bahar yağışı. Leysan. Yaş torpaq, təmiz yuyulmuş yarpaqlar. Yağış qəfil başladığı kimi, qəfil də kəsir. Buludlar çəkilir, göyün üzü açılır. Ancaq üfüq tərəfdə böyük Tnənə qurşağıU görünür.

Sevda eyvanda göy qurşağının şəklini çəkir.

Kamil işdən qayıdır. Harasa tələsən Muradı görür, arxadan çağırır.

—Murad, ay Murad, hara belə?

Murad diksinib dayanır, pərt olur.

—Elə belə… mən…

Kamil: O tərəfə hara gedirsən? Gəl bura görüm. Düzünü de görüm hara gedirdin?

Murad: Mən… Odey onun altından keçmək istəyirdim.

Kamil: Nəyin onun? Hə, nənə qurşağının? A… belə də… Neynirsən ki, nənə qurşağının altından keçməyi.

Murad: Nənəm deyir ki, onun altından keçən nə istəsə olar.

Kamil: Belə de. Yaxşı, sən nə istəyirsən axı?

Murad: Təyyarə sürmək istəyirəm.

Kamil: Təyyarə sürmək üçün böyümək lazımdır. Böyüyərsən, onda olarsan təyyarəçi.

Murad: Ee… o gecdir.

Kamil: Bəs elə bilirsən nənə qurşağı tezdir. Bilirsən o hardadır? Ora gedib çatana yüz dəfə böyüyəcəksən. Gəl belə danışaq. Sən əvvəl böyü, təyyarəçi ol, sonra təyyarəylə uçarsan nənə qurşağının altından. Oldu? Yaxşı, gedək evə…

…Murad alma ağacına çıxır. Lap ağağın təpəsinə dırmaşır və ordan dənizə tərəf baxır. Nəhayət dəniz tərəfdən uçan təyyarələr görünür. Təyyarələr sırayla və çox hündürdən uçurlar. Dəniz üzərinə paraşütçülər buraxırlar, böyük ağ paraşütlər bir-bir açılır.

Murad *(paraşütləri sayır)***:** Bir, iki, üç, dörd, beş, altı…

Birdən sürüşüb ağacdan yıxılır. Ağac, səma, budaqlar dəli bir ritmlə yerindən oynayır və Murad tappıltıyla yerə dəyir. Sevdanın qışqırığı eşidilir.

Murad çarpayıda uzanıb. Sol ayağı bintlə sarınıb.

O həsrətlə pəncərəyə baxır. Pəncərədən bir parça səma, səmada isə tənbəl ağ buludlar görünür. Murad əyilib pəncərədən dən tökür. Göyərçinlər pəncərəyə qonur, dəni dinləyir, yenə də uçub gedirlər.

Gecədir. Pəncərədən ulduzlu göy görünür. Kamil Muradın çarpayısının yanında oturub.

Murad: Ata, bəs gündüz niyə ulduzlar olmur?

Kamil: Gündüz də olurlar, amma biz görmürük. Bax, əgər gün işığı düşməyən bir yerdən baxsan, onda ulduzları gündüz də görmək olar. Bax, məsələn, dərin quyunun dibindən baxsan.

Murad: Ata, bəs mən haçan duracağam.

Kamil: Beş gündən sonra *(barmaqlarını yumur)*. Bir, iki, üç, dörd, beş deyəndə…

…Muradın çarpayısı boşdur.

—Murad, ay Murad, — deyə Gülsüm xala həyətdə vurnuxur. Sevda tələş içində gəlir. — Gəzmədiyim yer qalmayıb. Heç yerdə yoxdur.

Gülsüm: Adam göndərdim Kamili çağırsınlar.

Sevda *(çağırır)***:** Murad, Murad!

Kamil tələsik gəlir. — Nə oldu tapdınız?

Sevda: heç yerdə yoxdur. Elə bil gədə göyə çıxdı *(ağlayır)*.

Kamil: Əşi, sən də dayan görək *(boylanır)*. Bəlkə quyuya düşüb.

Gülsüm: Ə, əstəğfürullah de…

Kamil *(quyuya yaxınlaşır, əyilib diqqətlə baxır):* Murad.

Muradın zəif səsi gəlir: — burdayam.

Murad quyunun dibindədir. O burdan ulduzlara baxır. Ulduzlar gündüz nə qədər işıqsız görünsələr də, hər halda burdan görünmürlər. Lakin uşaq onları seçmir. Quyunun ağzından görünən səma birdən-birə Kamilin qəzəbli sifətilə örtülür.

Kamil: Otur görüm vedrəyə. Bərk yapış.

Murad vedrəyə oturur. Kamil onu yuxarı çəkir.

Gülsüm, Sevda, qonşu qadınlar quyunun başına toplaşıb intizarla gözləyirlər.

Nəhayət Muradın başı görünür. O bu qədər adamı, ağlayan anasını və nənəsini, hirsli atasını görüb özünü lap itirir.

—Niyə mənə düz deməmisən?! Bir dənə də ulduz görmədim — deyə kəkələyir.

—Ulduzlar, ulduzlar — deyə Kamil zəhmlə ona baxır. Bu saat mən sənə ulduzları göstərərəm.

Muradı qıçları arasına alıb əməlli-başlı şapalaqlayır.

Gülsüm *(güclə uşağı onun əlindən alaraq)***:** Yaxşı, bəsdir, öldürmə uşağı.

…Ulduzlu gecə. Kamil, Sevda, Gülsüm, və Murad açıq havada, evin damında yatıblar. Muradın gözləri açıqdır. O, ulduzlu göyə baxır.

Kamil də yatmayıb. O yan bu yana çevrilir. Nəhayət Murada müraciət edir.

—Niyə yatmırsan Murad?

—Yatıram, — deyə Murad yavaş səslə cavab verir.

Kamil: Yaxşı, gəl bura mənim yanıma.

Murad onun yanına girir.

Kamil: Bir də belə oyunlar çıxartmayacaqsan ki? Ananı, nənəni qorxuzmayacaqsan ki?

Murad *(titrək səslə)***:** Yox.

Kamil: Di yaxşı, gəl barışaq. Əliylə onun başını sığallayır.

Murad xısın-xısın ağlamağa başlayır.

Kamil: Vay, vay, vay. Ədə, utanmırsan. Sən boyda kişi ağlayır? Yavaş, indi ananı, nənəni oyadarsan. Sus. Heç olmazsa ulduzlardan utan, sənə baxıb gülürlər.

Murad yavaş-yavaş sakitləşir.

Ata-oğul ulduzlu göyə baxırlar…

EPILOQ

Murad nənəsini öpür, qaçıb gedir.

Gülsüm o yan bu yana baxır. Həyətdəki su kranını görür. Ovcuna su yığır, Muradın dalınca atır.

Sanki bu su yerlə gedən təyyarənin dalınca atılır. Təyyarə yerlə yüyürüb havaya qalxır, get-gedə yüksəlir və biz aşağı baxıb:

Torpağı görürük. Tünd mixəyi zəmiləri, yaşıl çölləri, sarı qumları…

Dənizi görürük. Mavi dənizi, yelkən gəmilərini, balıqçı torlarını, dəniz buruqlarını.

Odu görürük. Zavod bacalarından çıxan yanan metanı. 26-lar qəbri üzərindəki əbədi məşəli, pioner tonqalını.

Səmanı görürük. Ucsuz-bucaqsız səmanı.

Muradın təyyarəsi baba yurdunun üstündən, kəndin qayaların üstündən uçur. Bir an əbədi və əzəli qaya rəsmləri bütün ekranı tutur. Rəsmlərdə təsvir olunmuş qədim insanlar başlarını qaldırıb göyə baxırlar. Onların duruşunda insanın əbədi səma həsrəti duyulur.

Muradın təyyarəsi isə getdikcə daha yüksəyə qalxır. Bu təyyarə vaxtilə Kərim babanın arabayla alma ağacları gətirdiyi yolun üstündə üçür və bəlkə elə bu an Murad çantasından torpağın lövhəsini — qırmızı almanı çıxarıb ləzzətlə dişləyir.

Təyyarə daha da yüksəyə qalxır.

…Torpaq

…Dəniz

…Od

Yox olur.
Ətrafda ancaq səma qalır. Uzaqda isə Günəş görünür.

1963-1966
Moskva-Bakı

Köksü yaşıl ulu dağlar belə vuruş görməmişdi.

Dibi dərin dar dərələr belə döyüş bilməmişdi. Savaş nə savaş idi, meydan dolu baş idi. Şahbaz-şahbaz atlar keçirdi, nalı qalırdı. Qara polad üz qılınclar çalınırdı, oxvarı ovxalanırdı.

Üç yeləkli qayım oxlar atılırdı, dəmrəni duşürdü. O gün Oğuz ellərinin ağır günüydü. Oğuz oğulları bir-birinə qarşı qalxmışdı. Dost-dostla, qohum-qohumla cəng edirdi, qardaş qardaşdan, ata oğuldan ayrılmışdı.

Bu qanlı qada Oğuz elinin başına hardan gəlmişdi?

Deməklə qurtarmaq olmaz.

Qoy el ağsaqqalı, yurdun mudrik bilicisi Dədə Qorqud gəlsin, qopuzunu əlinə alsın, ötənlərdən söz açsın, soz söyləsin, boy boylasın, igid ərənlərin başına gələnlərdən danışsın.

...Dədə Qorqud bu dəm nə söz qoşurdu, nə qopuz çalırdı. Altı pərli gürzlər, yalın qılınclar, dəmir uclu oxlar danışırdı, atlar kişnəyir, bahadır nərələri ərşə qalxırdı. Sözü, qopuzu eşidən kim ola, dinləyən kim ola? Dədə Qorqud fəryad edib Oğuz igidlərinə üz tutur, bu qanlı qardaş qırğınını saxlamağa çağırırdı, amma ona məhəl qoyan, qulaq asan yox idi, heç vaxt Dədə Qorqudun bir sözünü iki eləməyən igidlərin bu gün gözləri qızmış, ağılları çaşmışdı.

İki igid atlarını dördnala çapa-çapa üz-üzə gəldilər. Atlar şahə qalxdı. Bir igid o birini yerə çırpdı. Zəbun olmuş igid havadan yerə elə yavaş-yavaş, elə ağır-ağır düşdü ki, deyəsən üsulluca iplə salladılar. Amma elə həmin dəqiqə onu atdan salanın da əcəli yetdi. Vıy-vıy vıyıldayıb gələn bir ox bu igidin bağrına sancıldı. O da qolunu uzatdı, atının boynunu qucaqladı, sürüşdü at belindən torpağa düşdü. Bir ötgün ox da ata dəydi, at da igidlərin yanına sərələndi.

Aram-aram, ağır-ağır yıxıldılar, yavaş-yavaş, asta-asta hərəkətsizləşib qaldılar.

Başqa döyüşçülər də bir-birlərini qırırdılar. Bir-birini qılınclayan kim, atla yel yetməz yel kimi keçib çomağı düşmənin təpəsinə endirən kim, yayı çəkib oxu tuşlayan kim, kəmənd atıb çaparı yəhərindən dəbərdən kim...

Döyüş meydanının qəribə mənzərəsi vardı.

İgidlər, atlar bir-bir həlak olduqca donub qalırdılar, daşa dönürdülər. Səslər, nərələr, at kişnərtiləri də get-gedə azalırdı. Axırda heç kəs qalmadı. İndi bütün meydan leş idi, cəsəd idi — daş leş, daş cəsəd. Döyüş sona yetdi; indi bu meydan daş heykəllər düzülmüş bir çöl idi. İnsan və at heykəlləri müxtəlif vəziyyətlərdə, müxtəlif biçimlərdə donub qalmışdı — öldüyü an hansı halda idisə o halda.

Bu daş heykəllərin arasından ağır-ağır, dərdli-dərdli bir qoca keçib gedirdi, ağ saçı ağ saqqalına qarışmış bir pir.

Qoca Dədə Qorqud yedəyində təpəl qaşqa ayğırı meydandan keçib təpə başına çıxdı, qanrılıb geriyə baxdı. Meydanın mənzərəsi bir az da dəyişmişdi, daş heykəllər ümumi görünüşlərini saxlasalar da, dəqiq biçimlərini dəyişdirmişdilər, indi bu artıq insan, at heykəlləri deyil, onları təxmini xatırladan qəribə qayalar, əcaib daşlar, qaba daş qalaqları idi. Daşlar, daşlar, daşlar yığımı — qanlı döyüşdən qalan bir bu idi! Oğuz ərlərindən qalan bir bu idi! Daşlar, daşlar, qayalar... Nə bir səs, nə bir kəs... Dədə Qorqud köksün ötürdü, acı-acı ağladı, yanıq ciyərini dağladı, ayğırının cilovunu çəkib yola düzəldi, dağ aşdı, dərə keçdi, bir meşənin qırağına çıxdı. Meşə, nə meşə... Fısdıq meşəsi imiş bu meşə, amma həm də qəbiristanlıq idi. Elə bil fısdıq ağacları qəbirlərin içindən çıxırdı.

Qəbirlərin üstündə də daş qoyun heykəlləri qoyulmuşdu. Elə bil bu meşədə tamam bir sürü daşa dönmüşdü! Dədə Qorqud meşəyə baxdı, daş qoyunlara baxdı, qəbirlərə baxdı, birdən bir səs eşitdi. Döndü, gördü qara mahud şalvarlı cavan bir oğlan məzar qazır.

—Oğlan, — deyə Dədə Qorqud onu səslədi, — nə qazırsan belə?

Oğlan gözucu Dədə Qorquda baxdı. Onun üzündə, gözlərində məşum bir ifadə vardı. Oğlan laqeyd-laqeyd:

—Gor qazıram, Dədə, — dedi.

—Kiminçün qazırsan bu goru?

Oğlan eyni biganəliklə;

—Səninçün Dədə, — dedi.

Dədə Qorqud diksindi. Oğlan ona etina etmədən öz işinə davam edirdi.

Torpaq kənara atıldıqca, məzar kənarındakı təpəcik boyüdükcə, qəbir dərinləşdikcə Dədə Qorqudu dəhşət basırdı.

O, müc olub qalmışdı, matı-qutu qurumuşdu. Səs eşidib başını qaldırdı. Ağac başında civildəşən quşlar xırdaca daşlar kimi

budaqlardan yerə tökülüb qaldılar — onları ovlayan-eləyən olmamışdı — birdən-birə özləri düşdülər, səpələnib qaldılar. Ağac özü da birdən-birə qurudu, yaşıl yarpaqları saralıb-soldu, qopdu, küləyə qoşulub uçub getdilər. Ağacın çiçəkləri vağam olub sovuldular, budaqlar yalın qaldı.

Çəmənlikdə bitər otlar, yaşarırkən bitməz oldu.
Bulaqlardan axan sular, çağlayırkən axmaz oldu.
Qanad çalıb uçan quşlar birdən-birə uçmaz oldu.
Budaqlar da yalın qaldı, çiçəklər də açmaz oldu.
Dədə Qorqud hayana baxdı ölüm gördü, əcəl gördü.

Fısıllıqdan fışıldayıb çıxan ala ilan Dədə Qorqudun ayağına yanaşdı, başını qaldırıb onu çalmaq istədi. Dədə Qorqud onu görüb sərmərdi, kənara sıçradı, qıvraq tərpənib təpəl qaşqa ayğırının belinə qalxdı. At da ilandan hürküb fınxırdı, yel kimi yerindən qopdu, üzünü dağlara tutdu. Dədə Qorqudu meşədən, məzardan, əcəldən uzaqlaşdırdı.

Amma gor qazan oğlan da işini dayandırmadı, gözdən itən çaparın ardınca uzun-uzadı baxdı, qımışdı, qəbri qazdı ki, qazdı. Dədə Qorqud çapıb alçaqdan uca yerlərə qalxdı, qışda-yazda qarı, buzu əriməyən Qazılıq dağını aşdı, çaylar aşdı, daşqın-daşqın sulardan addadı, düzlərdən, dərələrdən keçdi, başqa bir iqlimə gəlib çıxdı.

Bura ucu-bucağı görünməz bir dəryanın sahili idi. Dəniz gömgöy idi, ləpələri ağ, narın. Sahil bomboş idi, bir ins-cins gözə dəymirdi. Dədə Qorqud atdan endi. Ovuclayıb dəniz suyunu üzünə vurdu, günəşə baxdı, gülümsədi, eyni açıldı. Birdən səs eşidib qulaq verdi. Dönüb baxdı, sahilin uzağında bir qaraltı gördü, ona sarı getdi.

Yanaşıb gördü ki, yaşıl məxmər şalvarlı bir kişi yer qazır. Dədə Qorqud salam verdi, əleyk almadı.

—Nə qazırsan, a kişi? — deyə soruşdu.

Kişi:

—Sənə gor qazıram, Dədə, — deyə çevrilib ona baxdı. Kişinin qiyafəsi başqa idi, sinni də, sifəti də başqa idi, amma gözlər həmin o gözlər idi — həmin o oğlanın məşum gözləri. Dədə Qorqud geri çəkildi, əyilib məzara baxdı, qəbir bayaqkindən bir az dərin idi, kənarındakı təpəcik bir az da yekə idi.

Dədə Qorqud ayğırın belinə sıçradı, qamçı çəkdi. Atı onu bu

yerdən də uzaqlaşdırdı. Qamışlıqdan, atlı batıb çıxammaz palçıqdan, meşədən keçdilər, iti axan göy sulardan keçdilər. Yağışa düşdülər, qara düşdülər. Ağappaq bir diyara gəlib çıxdılar. Dörd bir tərəf buz, qar, qar. Nə bir insan səsi, nə bir insan nəfəsi. At da yorulmuşdu. Dədə Qorqud da. Dədə Qorqud ayğırından endi, sağa baxdı, sola baxdı, birdən bir səs eşitdi. Ağappaq qarlı-buzlu çölün bir yerindən qaraltı görünürdü. Hənirti gəlirdi. Altdan-üstdən bərk geyinmiş qara xəz kürklü, sinli kişi baltayla buz qırırdı.

Dədə Qorqud ona yanaşdı. Kişi çönub Dədəyə baxdı. — Az qalıb, Dədə, — dedi, — bilirsən ki, kişilər üçün qəbir çuxuru dizəcən olmalıdır. Dizinə çatmağa nə qalıb ki...

Dədə Qorqud lap qorxdu. — Gözlər həmin gözlər idi, buz altında qazılan qəbir də lap dərinləşmişdi, dizəcən olmasına nə qalmışdı ki?

Dədə ayğırına mindi, atı mahmızladı.

At da yorğun idi, atlı da.

Çapdılar, yortdular, bu iqlimdən də uzaqlaşıb qaçdılar. Bəyaz çöllər bitib tükəndi, yaşıl düzəngahlar bitdi tükəndi, sarı bir səhra başlandı.

Qumlar, qumlar, narın qumlar, sarı qumlar.

Bu bir səhradır, nə sonu var, nə kənarı. Dədənin dili-dodağı qurumuşdu. Təpəl qaşqa ayğırın ağzı köpüklənmişdi. Qum təpəciklərində at büdrədi, sürüşdü. Dədə Qorqudu yerə çaldı. Dədə Qorqud nəfəsini dərdi, yavaş-yavaş yeridi, təpəciyin başına çıxdı, gördü ki, təpəciyin o biri tərəfi qazılı qəbirdir. Qəbri qazıb qurtarhaqurtarda olan adam yarımçılpaq bir qoca idi. Başını qaldırıb Dədə Qorquda baxdı. Yaşı ötmüş, saçı tökülmüş, amma gözlər elə həmin o gözlər idi.

Dədə Qorqud quş kimi atının belinə qondu, yortdu. Yayda-qışda qarı, buzu əriməz Qazılıq dağının yüksəyindən enişinə düşdülər, bir də gördü ki, gəlib haman o yerə çıxıb. Həmin o fısdıq meşəsi, həmin o daş qoyunlar, həmin məzarlıq.

Həmin oğlan — yox, nə oğlan, oğlan hanı, o indi bükülüb yumaq olmuş bir qocadır — qəbri qazıb qurtarmışdır. Dizəcən qəbrin içində idi. Dədə Qorqudu görüb, qəbirdən çıxdı. — Hə, Dədə, — dedi, — gəlib çıxmısan? Gördün ki, əcəldən qaçmaq olmaz? Gor da hazırdır. Di gəl gir!

Qəbir qazan qoca meşənin içinə girib, ağacların arasında qeyb oldu. Dədə Qorqud atdan düşmüşdü, daha ölümdən qaçmağa heyi

qalmamışdı. Dədə qəbrinin yanındakı təpəciyin üstündə əyləşdi. Fısdıqlıqdan fışıldayıb ala ilan çıxdı, qıvrıla-qıvrıla Dədəyə tərəf süründü, Dədə onu gördü, amma heç qımıldamadı, tərpənmədi. Dinməz-söyləməz oturub gözlədi. Ölü quşlar torpağa səpələnmişdi. Otlar, çiçəklər yanıb solmuşdu. Budaqlar yarpaqsız, yalın qalmışdı. Elə bil bütün dünya ölümə təslim olmuşdu. Dövran əcəl dövranı, meydan əzrayıl meydanıydı.

Dədə Qorqud dərdli-dərdli o yan-bu yana baxdı, başını tutub hərəkətsiz dayanmış təpəl qaşqa ayğırına baxdı. Ayağa durdu, qopuzu köynəyindən çıxardı, sinəsinə basdı, bir müddət çalmadı. Ötüb keçənlər gözünün qabağından keçdi. İgidlər, döyüşlər, daş heykəllər, sonra da qalaq-qalaq qayalar, yönsüz-yöndəmsiz daş yığımları. İlan sürünüb Dədə Qorquda lap yaxınlaşmışdı, bu an olmasa o biri an çalacaqdı. Birdən Dədə Qorqud barmaqlarını qopuzun simlərinə çəkdi, telləri dilləndirdi, çalğısının sədaları altında sözünü dedi:

—Hanı dediyim bəy ərənlər? Dünya mənim deyənlər?

Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı!

Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya!

Qoca Qorqud ölür oldun, onu bil! Karvan getdi, sən gecikdin, onu bil? Əl-aqibət uzun yaşın ucu ölüm, axırı ayrılıqdır.

Dədə Qorqud qopuz çalırdı. Onu vurmaq istəyən ala ilan birdən dayandı, qopuzun sədaları altında qıvrılıb geri çəkildi, sürünüb getdi.

Dədə Qorqud qopuz çalırdı. Yerdən bir dəstə quş pırlayıb budaqlara qondu, çividəşdilər. Dədə Qorqud qopuz çalırdı. Ağaclar çiçək açır, yalın budaqlar yarpaqlanır, yamaclarda otlar, çiçəklər baş qaldırırdı, qurumuş çeşmələrin gözü soyuq-soyuq sularla dolurdu. Məzar kənarında təpəciyin torpağı da axıb qəbri doldururdu. Dədə Qorqud qopuz çalırdı — həyat yenidən oyanırdı. Dədə Qorqud özü öz məzarını da, ölümü də unutmuşdu.

O indi qopuzun tellərindən doğan gözəl bir dünyada yaşayırdı, ötüb keçənlərin, igidlərin, çomərdlərin dünyasında. Dədə Qorqud çalır və qopuzun sədaları altında igidlərin başlarına gələnlərdən söz söyləyirdi, görək nə söyləyirdi?

—Bir gün xanlar xanı Bayandır xan yerindən ertə durmuşdu. Buyruq vermişdi ki, Uca dağın başında tonqal qalasınlar.

Uca dağın zirvəsində bir tonqal alovlanır. Uzaq-uzaq dağların başında da bir-birinin ardınca tonqallar alışır.

—Oğuz elinin adəti vardı. Oğuz igidlərini, xatunlarını şənliyə, toya çağıranda uca dağın başında bir tonqal qalanardı. Başqa dağlardan bu alovu görüb orda da tonqal qalayardılar, bütün el-oba bilərdi, geyinib, bəzənib şənliyə gələrdilər. İki tonqal qalayanda bilərdilər ki, elin başında qəza var, təhlükə var, düşmən basqını gözlənir, onda da igidlər yaraqlanıb, yasaqlanıb yığılardı.

Yamyaşıl bir düzəngahda al-əlvan çadırlar, alaçıqlar, köşklər, çətirlər qurulmuşdu. Yaşıl çəmənliyə rəngarəng ipək xalçalar döşənmişdi. Dörd nəfər girdə, hamar çaylaq daşlarıyla Qobustandakı "Qaval daşı" döyəcləyir, ahəngdar sədalar ucalırdı. Başqa bir tərəfdə gumbur-gumbur nağaralar döyülür, borular calınır, zurnanın səsi ərşə bələnd olurdu. Yeddi yerdə çatılmış ocaqların tüstüsü göylərə uçub gedirdi. Yetmiş yeddi yerdə sərin sulu, al şərablı ala-bəzək bardaqlar qoyulub, gün işığında bərq vuran mis qablar, qazanlar düzülmüşdü. Qənarələrdən şaqqa-şaqqa ətlər asılmışdı.

Bayandır xan Şami günlüyünü yer üzünə tikdirmişdi, ala çadırını göy üzünə aşırtmışdı, min yerdə ipək xalçalar döşətmişdi. Təpə kimi qoç qırdırmışdı, kol kimi şərab gətirtmişdi. İldə bir kərə Bayandır xan şənlik edib Oğuz igidlərini qonağlardı.

İgidlər bir-bir gəlib atdan düşdülər, sivri uclu, böyük bir çadırın ağzına gəlib, taxta əyləşmiş Bayandır xana salam verdilər. Bayandır xanın yanında onun vəziri, at ağızlı Alp Aruz dayanmışdı. Alp Aruz da başqa Oğuz bahadırları kimi azmandır, iridir. Doxsan dəridən kürk topuğuna çatmaz, doxsan dəridən papaq qulağını örtməz. Alp Aruz gələn qonağları müxtəlif çadırlara ötürürdü.

Çadırlar üç rəngdədir: ağ, qırmızı, qara. Oğuz igidlərindən Bəybura və Bəybecan məclisə qoşa gəldilər. Atlarından duşdulər. Bayandır xana salam verdilər. Aruz qabaqlarına çıxdı.

—Bəybecan bura keç, — dedi, Bəybecanı ağ çadıra ötürdü.

Bəybura da ağ çadıra keçmək istəyəndə Aruz onun yolunu kəsdi.

—Bəybura, — dedi — sənin yerin qara çadırdadır.

Qara çadıra keçə doşənmişdi.

Burada hər şey zilqara idi. — Süfrə də, qab-qacaq da, xidmətçilər də qara libasda idilər. (Ağ çadırda hər şey ağ, qızılı çadırda hər şey qızılı olan kimi).

Bəybura tutuldu:

—Məni niyə bura gətirdin? — dedi.

Aruz dedi: — Bayandır xandan buyruq belədir.

Bəybura daha da pərt oldu: — Bayandır xan mənim nə əskigliyimi gördü? — dedi. — Qılıncımdanmı gördü, süfrəmdənmi gördü? Məndən alçaq kişiləri ağ çadıra, qızılı çadıra otürdu, mənim günahım nə oldu ki, qara çadıra göndərdi.

Aruz dedi:

—Bayandır xandan buyruq belədir ki, oğlu olanı ağ çadıra, qızı olanı qızılı çadıra ötürün. Kimin ki, oğlu, qızı yoxdur, onu qara çadıra aparın, qara keçə altına döşəyin, qara qoyun qovurmasından önünə gətirin, yeyərsə yesin, yeməzsə dursun getsin. Oğlu, qızı olmayanı tanrı qarğıyıbdır. Biz də qarğıyaq. Bəybura yerindən sıçrayıb durdu, üzunü öz adamlarına tutdu, dedi:

—Qalxın, igidlərim, biz burdan gedəsi olduq! Bu qara eyib mənə ya məndəndir, ya xatundandır. Bəybura və başının dəstəsi qara çadırdan çıxdılar, o biri çadırlarda yeyib-içənlər boylanıb onlara baxırdı. Bəybura isə heç kəsə baxmırdı, heç kəslə danışmırdı. Heç kəslə vidalaşmadı, atının belinə sıçrayıb üzünu Aruza tutdu:

—Aruz, — dedi, — mən bu hayıfı səndə qoymaram.

Bəybura qamçısını havada oynadıb ata çəkdi, at yerindən götürüldü. Adamları onun ardınca çapdılar, at ayaqlarının qaldırdığı toz içində gözdən itib üzaqlaşdılar.

***

Bəyburanın obası Bayat səfalı bir yerdədir. Bir yanı sıldırım dağlar, bir yanı çay, bir yanı çöl-çəmən, bir yanı meşə. Çadırlar, dəyələr, alaçıqlar rəng verib rəng alırdı. Ocaqlardan qalxan tüstü mavi səmada əriyib itirdi. Çay qırağında yeddi-səkkiz yaşlı uşaqlar aşıq-aşıq, gizlənpac, turna doydu oynayırdılar, Dəyələrdən birinin qabaqında Boğazca Fatma dayanmışdı. Onun yanında beş-altı korpə var, özü də yenə yüklüdür. Fatma əlini belinə qoyub cır səslə çağırırdı:

—Ay qız, Züleyxa! Zübeydə! Üridə! Ölməyə, itməyə getmişdim? Yatacaq yerim yenə bu xaraba olasıydı dana. Nolaydı mənim evimə də bir baxaydınız. Oğru köpək gəlib evi bir-birinə qatıb, toyuq hininə, qara-mal damına döndərib...

Başqa bir alaçıqdan bir arvad çıxıb ona cavab verir, nə isə qışqırırdı.

Nal səsləri eşidildi. Bəybura və başının dəstəsi obaya daxil oldular. Bəybura çadırına çatıb atdan düşdü, içəri keçdi. Arvadı Ayna Mələk onu həyəcanlı görüb təşvişə düşdü.

Bəybura dedi:

—Qadınım, bilirmisən nələr oldu? Bayandır xanın vəziri at ağızlı Alp Aruz üzümü el içində qara etdi. Oğlun-qızın yoxdu, səni tanrı qarğıyıb, biz də qarğarıq, dedilər.

Səndənmidir? Məndənmidir? Niyə tanrı bizə bir oğul verməz, nədəndir? —Bəybura az qala ağlayacaqdı.

Ayna Mələk:

—Mənə qəzəb etmə, — dedi, — inciyib acı sözlər söyləmə. Sənin nə günahın, mənim nə günahım. Qismətimiz bu imiş.

Ayna Mələk hönkürüb ağladı. Bəybura dözə bilməyib çadırdan çıxdı. Ağır-ağır obanın kənarına gəldi, oynayan uşaqlar qorxuşdular, qaçışdılar. Bəybura həsrətlə, kədərlə, uzun-uzun onların ardınca baxdı. Nal səsləri onu qəmli fikirlərindən ayırdı. Çaparaq gələn Bəybecan atından düşdü. Bəyburaya yanaşdı:

—Bəybura, — dedi, — ürəyinə salma. Ac görsən qarnın doldur, yalınçaq görsən əynin geydir. Borclunu borclarından qurtar. Ola ki, bir ağzı dualının alqışıyla tanrı sənə oğul verə. Gün o gün olsun Bayandır xanın gələn şənliyində, oğul atası kimi ağ çadırda oturasan. Tanrı mənə də bir qız verəcək olursa, əhd edirəm, qoy o, sənin oğlunun beşikkəsmə adaxlısı olsun.

Bəyburayla Bəybecan qucaqlaşdılar.

***

Ayna Mələk xəlvətcə çadırından çıxıb Boğazca Fatmanın dəyəsinə gəldi. Boğazca Fatma yemək yeyirdi. İri bir baş soğan əzmişdi, yumurlayıb tikənin üstünə qoymuşdu, indi bu yekə loxmanı ağzına tıxayıb, üstündən də barmağıyla basırdı, az qalırdı, nəfəsi kəsilə. Ayna Mələk ona dərdini danışırdı. Fatma yeməyindən qalmadan qulaq asırdı, arabir başını dəyəyə soxan uşaqların hərəsinə bir tikə verib yola salırdı. Boğazca Fatma ağzındakı tikəni çeynəyə-çeynəyə dedi:

—Neyləyim? Bu yıxılacaq evdə un yox, ələk yox. Dəvə də dəyirmandan gəlmədi. Görüm bu evi xaraba qalsın, ərə gedəndən bəri qarnım doymadı, üzüm gülmədi, ayağım başmaq, üzüm yaşmaq görmədi. Nolaydı bu külbaş ərim oləydi, birinə gedəydim, baxtımdan o barı yaxşı olaydı.

Ayna Mələk yenə də öz dərdindən danışırdı:

—Kişi əriyib şama dönüb, yaman xiffət eləyir. Bilmirəm suçumuz nə oldu ki, tanrı bizi bir övlada həsrət qoydu. Fatma ağzındakı

loxmanı içəri ötürərək: — Ey, kül olsun ərin də başına, uşağın da — dedi. — Mənim doqquz uşağım var — qarnını göstərir — onuncu da budur ha, yoldadı, nə olsun, ağ günə çıxmışam?

...Bəybura da Bəybecanın məsləhətinə əməl edirdi, var-dövlətini aca-yalavaca paylayırdı. Qoyunlar kəsilib şaqqa-şaqqa bölünürdü, təpə kimi ət yığılır, göl kimi süd sağılırdı. Adamlar Bəyburanın qapısına əliboş gəlib əlidolu qayıdırdı. Amma ərlə arvadın muradı hasil olmurdu ki, olmurdu. Onlar qüssəylə bir-birilərinə baxırdılar.

***

Dədə Qorqud qopuz çalır, sözünü davam edir:

—Sizə kimdən deyim, Bəkildən. Bəkil Oğuz elinin keşikçisi idi... Uca dağın başında məskən salmışdı. Əlincə qalasından, Gəncədən, Bərdədən Dəmir qapı Dərbəndədək bütün yurdun qarovulunu çəkirdi. Şad xəbəri, bəd xəbəri tonqal qalayıb bütün el-obaya bildirirdi.

Dağ başında Bəkilin məskəni. Dağın ən yüksək zirvələrində odunlar yığılıb ocaq çatılıb, amma alışdırılmayıb, Bəkil yaraqlanıb-yasaqlanıb ova hazırlaşır.

Dədə Qorqudun səsi gəlir:

—Bəkil həm də igidlər içində ən məşhur ovçu idi. Ov eləyəndə nə yay qurardı, nə ox atardı. Qova-qova ceyranlara çatardı, çata-çata yayını çıxardıb kəmənd kimi ceyranın boğazına atardı, ceyranı tutardı, bıçağını çıxardıb qulağını dələrdi, yenə buraxardı.

Bəkil Dədə Qorqudun danışdığı kimi etdi, gülümsündü, sonra atını qamçılayıb, başqa bir ceyran dəstəsinin ardınca düşdü. Bu üsulla bir ceyran da tutdu, onun da qulağını dəlib buraxdı.

***

Bəyburayla Bəybecan ova çıxmışlar. Onlar düzəngahda rastlarına çıxmış ceyran sürüsünü qovurdular. Bəybura nişan alıb yayın çəkdi, oxun atdı, ceyranı yaralayıb yerə sərdi. Çapıb yaralı ceyranın yanına gəldilər. Ox ceyranın belinə sancılmışdı, amma Bəybura gördü ki, ceyranın qulağı da dəlikdir. Bəybecana göstərdi:

—Görürsənmi, Bəybecan, — dedi, — bu Bəkilin ceyranlarındandır, qulağını dəlib buraxıb.

Bəybecan: — Bunu Bəkilə göndərmək gərəkdir, — dedi, — halal malıdır.

Bəybura: — Elə olsun, — dedi, ceyranı adamlarından birinə verdi. — Bəkilə aparın.

Bu zaman başqa bir atlı çaparaq onlara çatdı:

—Muştuluq, Bəybura! — dedi. — Oğlun oldu.

...Çadırda təzəcə doğmuş ananın sifəti — Ayna Mələyin sifəti yorğun və xoşbəxt idi. Onun yanına yerə sacayaq və bir teşt dolu gül qoyulmuşdu. Qədim inanışa görə bunlar olanda qadın asan doğur. Boğazca Fatma teştin üstünə təmiz parça saldı. Ayna Mələyin yorğanına, paltarına iynələr sancdı — "hal anasından" qorumaq üçün. Sonra Fatma şüşənin içinə soğan saldı, qapının ağzına apardı. Ayna Mələyin başının altında bir parça çörək və ət gizlətdi. Üç soğanı kabab çəkib boşqaba qoydu. Bəyburayla Bəybecan çapa-çapa gəlirdilər ki, qarşılarına bir atlı çıxdı. Bəybecanı səsləyib: — Muştuluq, Bəybecan, — dedi, — gözün aydın, qızın oldu.

Bəybura:

—Bəybecan, sözümüz sözdür ha, — dedi. Qızın oğlumun beşikkəsmə nişanlısıdır. Bəyburanın qarşısında bir dəstə igid və üç nəfər tacir dayanmışdı.

***

Bəybura əvvəlcə tacirlərə müraciət etdi: Tacirlər, — dedi, — sözümü dinləyin. Tale mənə bir oğul verdi. Sizi dünya malından qane edərəm. Tədarük görüb yola düzəlin, gecə-gündüz deməyin, qara-qara dağlardan aşın, qanlı-qanlı sulardan keçin, böyük-böyük şəhərlərdən ötün, yerin bir ucundan, o biri ucuna yetin, Rum elinə çatın. Mənim oğlum boyüyüncə ona yaxşı-yaxşı ərməğanlar alıb gətirin. Sonra Bəybura üzünü igidlərə tutdu:

—Siz də, igidlərim, Bəkilin yanına gedin. Deyin ki, Uca dağda tonqal qalasın, bütün elimizə-obamıza xəbər eləsin. Hamı bilsin ki, Bəyburanın arslan kimi bir oğlu olub. Qoy bütün ərənlər yığılsın, oğlum üçün böyük şənlik düzəldirəm.

***

...Uca dağda tonqal alovlanırdı. Uzaq-uzaq dağların zirvələrində də yeni-yeni tonqallar alışırdı.

Bəybura böyük şənlik düzəltmişdi. Qaval daş döyülürdü. Taraqqalar çatladılırdı. Qırx yerdə ocaqlar odlanırdı, qırx yerdə al-əlvan xalçalar döşənmişdi. Səksən yerdə qızıl bardaqlar qoyulmuşdu, qızıl badələr düzülmüşdü. Doxsan yerdə rəngbərəng çadırlar qurulmuşdu — ağ çadırlar, qızılı çadırlar, qara çadırlar.

Bəybura arvadına deyirdi:

—Xanlar xanı Bayandırı qızılı çadıra ötürəcəm, oğlu yoxdur, qızı

var. Alp Aruzu qara çadıra aparacam, nə oğlu var, nə qızı. Tanrı onu qarğıyıb, biz do qarğıyaq...

Ayna Mələk dedi:

—Bəybura, sözümü dinlə. Padşah tanrının kölgəsidir. Padşahına asi olanın işi rast gəlməz. Bayandır xan sənin qonağındır, o sənə qıydı, sən ona qıyma gəl. İgidlər içində alçaldıb, qızıl çadıra aparma. Bəybura fikrə getdi...

İgidlər bir-bir yetdilər. Bəybura onları sevinclə qarşılayırdı. Çadırlara ötürürdü. Aruza qara çadırı göstərdi. Nə o bir söz dedi, nə də Alp Aruz. Aruz qara çadıra girdi; bu eynilə Bayandır xanın qonaqlığındakı çadırdan idi, yerinə qara keçə doşənmişdi, qab-qacaq da qapqara idi, xidmətçilər də zil-qara geyinmişdilər. Aruz dinməz-söyləməz oturdu. Onun sifəti elə bil donub qalmışdı, amma birdən bığlarından qan sızmağa başladı. Alp Aruzun xasiyyəti vardı — acığı tutanda bıqlarından qan axardı.

Obanın o başında Ayna Mələk xatunları qarşılayırdı. Qadınların içində al-qırmızı donlu, incəbelli, uzun boylu, gənc gözəl bir qız da vardı — Bayandır xanın qızı Burla xatun. Uca boylu Burla xatunun olsa-olsa on beş, on altı yaşı olardı. Burla xatun oğrun-oğrun o biri tərəfə, cavan igidlər yığıldığı yerə baxırdı. Cavan igidlər bir qıraqda ayaq üstə durmuşdular, xalçalar üzərində əyləşmiş atalarının, əmilərinin söhbətlərinə qulaq asırdılar. Bir tərəfdə meydan qurulmuşdu və bu meydan çəpər arasına alınmışdı. Bir azdan hamının baxışları bu meydana dikildi — meydana gözləri qızmış bir buğa və bir erkək dəvə çıxartdılar. Bunlar savaş üçün xüsusi tərbiyə olunmuş heyvanlar idi. Üç kişi dəmir zəncirlə buğanı sağ yanından, üç kişi sol yanından tutmuşdular. Buğanı meydanın ortasına gətirdilər. O biri tərəfdən altı kişi dəvəni meydana gətirdilər. Birdən buğa dartınıb zəncirini qırdı və dəvəyə tərəf cummaqdansa, çəpərə tərəf atıldı. Meydandakılar qorxu içində bir bucağa qısıldılar. Buğa həmlə edib çəpəri dağıtdı və meydandan bayıra çıxdı. Adamlar bir-birinə dəydi. Buğa birbaşa qadınlar olan tərəfə cumurdu, buynuzlarıyla o qırmızı donlu Burla xatunu nişan almışdı, düz qızın üstünə gəlirdi. Hürkmüş qız alaçığa söykənmiş, hərəkətsiz donub qalmışdı. Buğa lap ona çataçatda idi. Hamı özünü itirmiş, quruyub durmuşdu. Birdən cavan igidlərdən biri — on altı-on yeddi yaşlı bir oğlan bir an içində yerindən qopub, göz qırpımında buğanın qabağına keçdi, onun yolunu kəsdi, yumruğunu buğanın düz

alnından vurdu. Buğa elə bil mıxlanıb yerində qaldı. Sonra geri çəkilib var-gücüylə oğlanın üstünə cumdu. Oğlan bu dəfə yumruğunu onun alnına dirədi. İndi hər ikisi öz yerində mıxlanıb qalmışdılar. Nə buğa oğlana güc gələ bilirdi, nə oğlan buğaya. Oğlanın bütün damarları gərilmişdi. Buğanın gücü üstün gəlirdi.

Birdən oğlan nə isə düşündü, qıvraq hərəkətlə yumruğu çəkib özünü kənara atdı. Buğa ayaq üstə dura bilmədi, düşdü, təpəsi üstə yıxıldı. Oğlan aman vermədi, bıçağını çıxartdı, buğanın başını kəsdi. Cavan igid başını qaldırıb bənizi qaçmış qırmızı donlu Burla xatuna baxdı, gülümsədi. Burla xatun da çəkdiyi qorxudan yavaş-yavaş özünə gələrək cavan oğlana gülümsündü.

Bayandır xan:

—Əhsən, — dedi, sonra üzünü ətrafındakı ərənlərə tutub əlavə etdi — bu oğlana ğılınc verin, çalar olsun, ərdəmlidir. Bədöy at verin, minər olsun, hünərlidir. Çiyni quşlu cübbə don verin, geyər olsun, cürətlidir. Dədə Qorqud gəlsin, oğlancığa ad qoysun.

Dədə Qorqud Aslan yatağında, ağca qayanın başında dayanıb. Cavan oğlan onun qarşısında diz çöküb, baş əyib. Dədə Qorqud igidə ad verir, deyir:

—Oğul, meydanda çəng etdin, hünər göstərdin, buğa öldürdün, uğur qazandın. Ömrün həmişə uğurlu olsun, həmişə uğur qazan, Adın da Qazan olsun. Adını mən verdim, yaşını tale versin! Qonaqlar əl çaldılar, bu adı bəyəndilər. Burla xatun Qazana, Qazan Burla xatuna baxdı, ürəklərinə məhəbbət odu düşdü.

Bayandır xan üzünü Bəyburaya tutdu, dedi:

—Bəybura, gün o gün olsun ki, sənin oğlancığın da böyüsün, igidlik göstərsin, şadlıq çalaq, Dədə Qorqud ona da ad qoysun.

...Dədə Qorqud məzarının yanında oturub qopuz çalır, söhbətinə davam edir:

—At ayağı iti, ozan dili çevik olar. Ay keçdi, il dolandı. Oğuz elində ölən öldü, olan oldu. Bayandır xanın qızı uca boylu Burla xatun Qazana ərə getdi, böyük toy edib şadlıq çaldılar. Qazanla Burla xatunun Tural adlı oğulları oldu.

Bəybecan bu dünyadan köç eylədi, qara torpağa tapşırıldı. Bəyburanın oğlançığı da boya-başa çatdı, yetman bir igid oldu.

Bəyburanın 11-15 yaşlı oğlu (Beyrək) at belində seyrana çıxmışdı. O, atını uzaqlardan görünən Uca dağa tərəf çapırdı. Uca dağın yamacıyla piyada gedən pəhləvan cüssəli gənc ovçu Bəkilin

oğlu Qaraca Çobandır. Qaraca Çoban — azmandır.

—Ovçu Bəkilin oğlu Qaraca Çobanın sapandının ayası üçyaşar dana dərisindən, qolları üç keçi tükündən idi — hər atanda on iki batman daş atardı, atdığı daş yerə düşməzdi. Yerə düşsə də, toz kimi sovrulardı. Ocaq kimi oyulardı. Daşın düşdüyü yerdə üç il ot bitməzdi. Qaraca Çobanın acığı tutanda iri bir daşı götürüb əlində sıxar, kül edib havaya sovurardı. Qaraca Çobanın iri bir çomağı vardı. Onu yanınca sürüdükcə torpağa xış kimi cızıq salardı. Qaraca Çoban çomağını sürüyə-sürüyə gedirdi, torpağda xış yeri qalırdı, Qaraca Çobanın qəribə görkəmi vardı. Arxadan ona baxanda adama elə gəlirdi ki, qollu-budaqlı nəhəng bir ağac yeriyir, çünki Qaraca Çoban başının üstündə çox iri bir odun şələsi aparırdı. O, daşdan-daşa addaya-addaya, qayadan-qayaya tullana-tullana gəlib Uca dağın başına çatdı. Bir kənarda ocaq çatmağa başladı.

Atası ovçu Bəkil:

—Oğul, Çoban, — dedi. — Bu ağacı neylərsən, niyə bura gətirdin? Qaraca Çoban:

—Bəyburanın oğlu bu gün bizə qonaq gələcək. Bu ağacdan ocaq qalayacağam, kabab çəkəcəyəm, dostumu qonaqlayacağam — dedi.

Bəkil: —Xoş ola, — dedi, — ocağını çaxmaq daşıyla qala. Çaxmaq daşının odu düşümlü olar!

Bəyburanın oğlu çapa-çapa Uca dağın başına, Qaraca Çobanın yanına qalxırdı.

...Elə bu zaman uzaq-uzaq ellərdən bir dəvə karvanı gəlirdi. Bu haman o taçirlərin karvanı idi, onları necə il bundan qabaq Bəybura Rum elinə göndərmişdi. Karvan qədim şəhərlərin, qalaların, xarabalıqların yanından keçirdi. Ağır yüklü dəvələr ləngər vura-vura addımlayırdı, bəzirganlar da yorğun, yuxusuz idilər. Bəyburanın oğluyla Qaraca Çoban ocaq başında oturub kabab yeyirdilər, şirin-şirin söhbət edirdilər. Karvan dar bir dərəyə düşmüşdü, ağır-ağır irəliləyirdi. Bu dərə Qanlı Dərə adlanırdı. Qanlı Dərənin dibindən çay axırdı. Heybətli, nəhəng bir adam dağın yamacında otura-otura əyilib dərənin dibindən axan çaydan su içirdi. Bu heybətli azmanın sifəti eybəcər və qorxunc idi, özünün də yalnız bircə dənə gözü vardı — təpəsində. Təpəgöz böyük quldur idi, yol kəsib, karvan çapardı. Dağdan iri bir qaya yuvarlanıb gəldi, Təpəgöz çiynini qayanın qabağına verdi, itələyib onu kənara atdı, Dərədən axan çayın üstündən kiçik bir körpü salınmışdı. Karvan həmin körpüyə tərəf

irəliləyirdi.

Çaydan su içən Təpəgöz zınqırovların səsini eşidib başını qaldırmadan karvanı gördü, — kəlləsindəki bircə gözüylə ağır yüklü dəvələrə baxdı. Karvan görpüyə çatar-çatmaz Təpəgöz dəhşətli bir nərə çəkdi, bu nərədən dağlar-daşlar lərzəyə gəldi.

Təpəgöz:

—Hey, balaca adamlar, — dedi, — Dayanın, durun, dəvələrinizin yükünü açın. Qoca tacir dedi:

—Nə heybətli qocasan, səni görcək görər gözlərimiz görməz oldu, tutar əllərimiz tutmaz oldu, ağzımız içi buz kimi, sümüklərimiz duz kimi oldu. Bizdən nə istəyirsən?

Təpəgöz:

—Hey sarsaq! — dedi. — Sifətimi nə bəyənməzsən, sifəti, gözü göyçək qızların, gəlinlərin canını çox almışam. Ağ saqqallı, qara saqqallı kişilərin canını çox almışam. Sizin də malınızı, varınızı soyacam, canınızı alacam, ətinizi qurda-quşa yedirəcəm, sümüklərinizi köpəklərimə atacağam, haydı tez olun, düşün yerə görüm, yükünüzü mənim mağarama daşıyın. Təpəgöz iri bir qayanı dəbərdib dəvələrin üstünə yuvarladı. Dəvələr hürküşdülər. Bəzirganlar dəvələrdən yerə endilər, yükləri açmağa başladılar. Təpəgöz əmr etdi ki, yükləri onun mağarasına aparsınlar, Dağın döşü oyuq-oyuq idi, mağaralar, kahalar ağızlarını yırtıcı heyvanlar kimi açmışdılar. Təpəgözün mağarası vahiməli bir aləm idi. Mağaranın içi iri bir boşluq idi. Bura yarımqaranlıq idi, bucaqlarında yanan iri şamların şölələri mağara divarlarına qorxunc kölgələr salırdı. Mağaranın yuxarısından aşağı sallanan, dibindən yuxarı ucalan buz və əhəng sütunları əcaib məxluqlara bənzəyirdi. Divarlara xallı pələng dəriləri asılmışdı. Hər yerdə sümüklər ağarırdı — insan sümükləri, əcaib heyvan sümükləri. Mağaranın müxtəlif yerlərində qalaq-qalaq şam ərintisi vardı. Şam ərintiləri elə qəribə yığılmışdı ki, qucağında körpə uşağı, başında örpəyi olan qadını xatırladırdı.

Mağaranın divarları boyu böyük daş rəflər vardı, bu rəflərin üstünə insan kəllələri düzülmüşdü. Divarlarda yarıqlar vardı. Yarıqların arasına pərçim olunmuş yarasaların səsindən qulaq tutulurdu. Mağaraya daxil olan tacirlər qorxudan əsim-əsim əsirdilər. Təpəgöz əyilib cavan tacirin qulağını dişlədi, qopartdı, çeynəyib uddu. Tacir çığırdı. Qan qulaq yerindən düdük kimi şorlayıb axdı.

Təpəgöz qulağı çeynəyə-çeynəyə:

—Tez olun, tez olun, yükləri açın — deyirdi. Tacirlər titrəyə-titrəyə yükləri açmağa başladılar.

Təpəgöz bahalı mallara — ipək parçalara, qızıl-gümüşə, bahalı daş-qaşa, ləl-cəvahirata, yaraq-yasağa baxıb ağzı sulanırdı.

—Bəh-bəh, — deyə bəzəkli qılıncı əlinə götürdü, — bu gözəl qılıncı ki, gətirmisiniz, gərək öz başınızı bu qılıncla kəsəm.

Tacirlərin gətirdikləri ərməğanlar içində bir Boz ayğır da vardı. O, indi dəvələrin yanında mağaranın ağzında idi. Cavan tacir quldurun gözünü oğurlayıb mağaradan çıxdı, cəld Boz ayğırın belinə sıçrayıb çapmağa başladı. Qoynu qanla dolmuşdu.

***

...Bəyburanın oğlu Qaraca Çobanla görüşüb ayrıldı, atını çapıb dağdan arana düşdü, düzəngaha çıxdı.

Cavan bəzirgan az çapdı, çox çapdı, gəlib həmin düzəngaha çatdı, Bəyburanın oğlunu gördü, özünü ona yetirdi, salam verdi. Onun üzü al-qan içində idi. Bəyburanın oğlu:

—Hey qocaq, — dedi, — kimsən, haradan gəlirsən, kim səni qanına qəltan eləyib?

Cavan bəzirgan:

—İgid, — dedi, — tacirik, neçə ildir böyük qardaşlarımla bu eldən getmişdik. Uzaq-uzaq elləri gəzdik, bahalı mallar aldıq. Dəmir qapı Dərbənd yanında, Qanlı Dərədə heybətli bir quldur yolumuzu kəsdi, gövdəsi adamdır, amma təpəsində bir gözü var. Malımızı, rizqimizi aldı, dedi canınızı da alasıyam. Qulağımı dişlədi, uddu, qardaşlarımı əsir saxladı, mən qaçdım, sənə gəldim. İgid, mədət qıl!

Oğlan atını mahmızladı:

—Düş qabağa, yol göstər, — dedi.

Tacir:

—İgid, — dedi, — amma quldur zor quldurdur. Bəlkə geri dönəsən. Qaraca başını kəsdirməyəsən, alca qanını şorlatmayasan. Ağ saqqallı babanı, ağ birçəkli ananı, "oğul, oğul" deyib ağlatmayasan.

Oğlan:

—Bu sözü sən mənə deməməli idin, çünki dedin, əlbəttə gedəcəm. Başıma qaxınc, üzümə toxunc olmasın. Neylək? Ölsəm yer bəyənər, qalsam el bəyənər.

Onlar Qanlı Dərəyə gəlib çıxdılar. Oğlan dərənin dibindən Təpəgözü səslədi:

—Hey Təpəgöz! — dedi. — Çıx savaşaq, çəkişək, vuruşaq, yaxşı kşilərin canını sənin əlindən qurtarım.

Mağaranın qaranlıq ağzından Təpəgözün yeganə gözü görünürdü. O, dərə dibindəki oğlana baxıb qəh-qəh güldü.

—Oğlan, oğlan, ay oğlan! — dedi.

— Əlim—ayağım sənə dəyməmiş qayıdıb dön burdan!

Oğlan dedi: — Hərzə-mərzə söyləmə, itim Təpəgöz. Alp ərə qorxu vermək eyib olur, bəri gəl, vuruşaq!

Təpəgöz nərə çəkib mağaradan çıxdı. Nərəsindən dağlar titrədi, yeddi qaya yeddi kərə hay verdi, yamacın daş-kəsəyi yerindən qopub yarğana yuvarlandı. Təpəgöz altı pərli gürzünü əlinə aldı, oğlanın üzərinə cumdu. Oğlan qalxanını yapındı, gürzə qarşı tutdu. Təpəgöz oğlanı yuxarıdan aşağı vurdu. Qalxan paralandı, oğlan yaralandı, amma yıxılmadı. Təpəgöz qılıncını sıyırdı, oğlan da qılınc çəkdi, qılınclaşdılar, bir-birini ala bilmədilər. Süngülərlə vuruşdular, buğa kimi çarpışdılar, qurşaq tutub güləşdilər, süngülər sındı, torpaq ayrıldı, bir-birini alammadılar. Təpəgöz oxu yaya qoydu, nişan aldı, atdı oğlanın çiynindən yaraladı, alca qanın şorlatdı. Təpəgöz qılıncını qaldırıb oğlanın başını kəsmək istədi, oğlan qıvrılıb kənara sıçradı, kəməndini iri bir ağacın budağına keçirdi, ipdən yapışıb özünü yellədi, çayın o biri tərəfinə tullandı. Təpəgöz başını çevirib tək gözüylə ona baxmaq istəyəndə oğlan ipi yelləyib təzədən o biri yana atıldı. Oğlan kəmənddən yapışıb o taya, bu taya atılırdı. Təpəgöz isə tək gözüylə onu izləyə bilmirdi. Oğlan bu dəfə lap hündürə tullandı, havadaykən nişan alıb oxla Təpəgözü düz gözündən vurdu, Təpəgöz gözündən yapışıb fəryad qopardı:

Aman gözum, vay gözüm!
Yalqız gözum, ay gözum!

Kor olmuş Təpəgöz altı pərli gürzü sağına-soluna fırladırdı, gürzün qopardığı yerdən az qala dəvələr yıxılırdı. Oğlan qaçıb mağaranın ağzına gəldi, yumaq kimi büzüşüb mağaranın bir küncündə qalmış tacirləri səslədi.

—Çıxın, — dedi. — Daha Təpəgözdən sizə zaval yoxdur.

Tacirlər mağaradan çıxdılar. Qoca tacir Təpəgözün nalələrindən titrəyə-titrəyə: —Ay oğul, — dedi, — axı malımız, varımız mağarada qaldı.

Oğlan: — Bu saat malınızı ordan çıxardaram, — dedi, mağaraya girdi.

Təpəgöz bunu eşitdi:

—Oğlan, — dedi, — sən mənim mağarama girdin, daha əlimdən qurtara bilməyəcəksən, indi səni mağaraya elə vuracam ki, quyruğun mağaranı yağlasın!

Təpəgöz mağaranın içinə girdi. Oğlan daş rəflərə düzülmüş insan kəllələrindən birini götürüb Təpəgözün əlinə toxundurdu. Təpəgöz bunu oğlanın kəlləsi bilib bərk-bərk yapışdı. Oğlan sivişib mağaranın ağzından çıxdı, dartıb malları da çıxartdı.

Təpəgöz:

—Oğlan, qurtuldunmu? — dedi. Oğlan:

—Qurtuldum — dedi. Təpəgöz hirsindən az qala partlayacaqdı, o, mağaranın əhəng sütunlarının birindən yapışıb silkələdi. Mağaranın divarları titrəməyə başladı. Oğlan, tacirlər, karvan artıq dərənin dibində idilər. Birdən sanki dəhşətli bir zəlzələ qopdu. Təpogöz silkələyib mağarasını öz başını uçurtmuşdu. Gurultulu bir yarğan qopdu, dağın yarısı uçub dağıldı. Təpəgöz daşın-torpağın altında qaldı, həlak oldu. Karvan Qanlı Dərədən keçib açıqlığa çıxdı.

Qoca tacir dedi:

—İgid oğlan! Sən ərlik göstərdin, bizi ölümdən qurtardın, gəl indi bəyəndiyin mallardan seç.

Oğlan ipəyə-qumaşa, ləl-cavahirata gözucu baxıb:

—Tacirlər, — dedi. — Dünya malında gözüm yoxdur.

Amma bir bu yayı, bir bu gürzü, bir də bu boz ayğırı bəyənirəm. Tacirlər tutuldular.

Oğlan:

—Nədi, çoxmu istədim? — dedi.

Qoca tacir:

—Xeyr, igid, — dedi, — niyə çoxdur? Amma bizim bir müştərimiz var, bu üç şeyi onun oğluna ərməğan aparırıq.

Oğlan:

—Müştəriniz kimdir? — dedi.

—Bayat obasından Bəyburadır, — dedilər, — onun oğluyçün aparırıq.

Oğlan gülümsədi, bir şey demədi, atını qamçıladı, çapıb getdi. Tacirlər ardınca baxa-baxa qaldılar:

—Yaxşı igiddir, insaflı, mürüvvətli igiddir, — dedilər.

***

...Karvan Bəyburanın obasına yaxınlaşırdı.

***

...Bəybura öz çadırında əyləşmişdi, oğlu da yanındaydı. Tacirlərin gəldiyini eşitmişdilər, gözləyirdilər. Karvan obaya çatdı, tacirlər obaya gəldilər. Baş endirib salam verdilər, gördülər ki, onları qurtaran igid Bəyburanın sağında oturub. Tacirlər yüyürdülər, oğlanın əlindən öpdülər. Bəyburanın acığı tutdu:

—Bu nə deməkdir, əbləhlər, — dedi. — Ata dururkən oğul əli öpərlər?

Qoca tacir:

—Bu igid sənin oğlunmudur? — deyə xəbər aldı.

—Bəli, oğlumdur.

—Onda incimə, Bəybura, əvvəlcə onun əlini öpdüyümüzə. Əgər sənin oğlun olmasaydı, bizim malımızı da aparmışdılar, canımızı da almışdılar. Oğlun igidlik göstərdi, bizi qurtardı.

Bəybura:

—Bu oğlana ad qoymaq olarmı? — dedi. — Bəli, — dedilər.

...Dədə Qorqud gəldi.

—Sözüm dinlə, Bəybura, — dedi. — Sənin oğlun elimizin arxası olsun. Bunun adı Boz ayğırlı Bamsı Beyrək olsun! Adı mən verdim verdim, yaşını tale versin!

***

Bayandır xan can verirdi. Alp Aruz, Əmən, Qazan, Qarabudaq, Dondar, Bəybura, Beyrək, başqa igidlər onun yanındaydılar.

Bayandır xan yatağında uzanıb, ağır-ağır danışırdı:

—İgidlər, sözümü dinləyin. Mən bu dünyadan gedər oldum. Ona ağlamıram ki, dünyadan doymadım, xanlıqdan usanmadım. Ona ağlamıram ki, at belində, yağılarla savaşda həlak olmadım, evimdə, yatağımda ölürəm. İgidlər, ona ağlayıram ki, oğuldan ortağım yox, qardaşdan qədərim. Allah-taala mənə qarğayıbmış, igidlər, tacım, taxtım üçün ağlayıram.

Alp Aruz, Qazan, başqa igidlər gərginliklə Bayandırı dinləyirdilər. Bayandır xan deyirdi:

—İgidlər, son sözümü dinləyin, vəsiyyətimi bilin, lazımdır ki, mən öləndən sonra məmləkət pozulmasın, xaniman dağılmasın, yağılar evimizi başsız görüb üstümüzə ayaq açmasınlar. Lazımdır ki, taxt-tacıma bir alp igid sahib olsun.

Alp Aruz son dərəcədə böyük gərginliklə dinləyirdi. Bayandır xan sözünü bitirdi:

—Taxt-tacımı kürəkənim Salur Qazana vəsiyyət edirəm, — dedi.

Alp Aruzun bığlarından qan dammağa başladı.

Bayandır xan gözlərini yumdu. Qazan onun əlinin içinə bir daş verdi. Bayandır xan son gücüylə ovcundakı daşı sıxdı...

***

Uca dağın başında tonqal qalandı. Dağdan dağa xəbər getdi. Zirvələrdə qoşa-qoşa tonqallar alovlandı. Bayandırın cənazəsini qaldırdılar, yerinə daş qoydular. Qəbrinin üstündə şam, çıraq yandırdılar. Aslan yatağında, Ağca qayanın yanında igidlər yığnaq olmuşdu.

Qazan qonur atının belində atlı Oğuz igidlərinin qarşısında dayanmışdı. İgidlər ipək örkəni kəmənd kimi Qazanın boynuna atdılar, onu atdan saldılar. Qazan yerdə çapalamağa başladı. İgidlər örkənin uclarından yapışıb dartdılar. Qazan az qala boğulacaqdı. Amma adət belədir dözməlidir — bu xan seçmə mərasimidir. Örkəni dartanlardan birinin — Alp Aruzun gözlərində elə bir kin vardı ki, sanasan o, Qazanı doğrudan-doğruya boğub öldürməyə hazırdı. Əksinə, Beyrək bu ayini yüngül bir təəssüflə icra edirdi. Nəhayət, igidlər örkəni bir qədər boşaltdılar və Qazandan soruşdular:

—Necə il bizə xan ola bilərsən? Qazan xırıldaya-xırıldaya:

—Alnımda neçə il yazılıbsa, onca, — dedi. Örkəni Qazanın boynundan açdılar. Qazanı keçə üstünə mindirib başları üzərinə, göyə qaldırdılar, üç dəfə günəş boyu hərlədilər, hər dövrədə ona təzim edirdilər. Qaval daşın səsi bu mərasimi müşayiət edirdi. Qazanı aparıb Bayandırın taxtına əyləşdirdilər.

Qazan:

—Beyrək mənim vəzirim olsun, — dedi.

Kənardan dayanıb bu mənzərəni kinli baxışlarla seyr edən Alp Aruzun yenə də bığları qanamışdı. O tələsik bığları sildi.

***

Qaranlıq düşəndə Alp Aruz xarabalıqda qara niqablı bir adamla pıçıldaşırdı, ona nə isə deyirdi. Qara niqablı adam başını yelləyərək razılıq verdi, oğrun-oğrun tövləyə yanaşdı, atların birinin ayaqlarından nalları çıxartdı, atı tərsinə nalladı, sonra minib səssizcə obadan çıxdı, uzaqlaşdı. Torpaqda onun atının izləri qalmışdı. Bu izlərə baxan elə biləcəkdi ki, obadan getməyib, əksinə obaya gəlib...

Qıpçaq Məlik basqınçı köçəri tayfalardan birinin başçısı idi. Onun düşərgəsi hündür daqların əlçatmaz qartal yuvasını andıran

zirvəsində yerləşirdi. Bu tayfanın adamlarının qorxunc görkəmi vardı. Əyinlərində vəhşi heyvan dərilərindən kürklər, başlarında dəri papaqlar, sifətləri yoluq. Qıpçaq Məliyin sifəti də yoluq idi. Qıpçaq Məliyin taxtı uca bir talvarın üstündə yerləşirdi. Talvar çox geniş idi. Bura Qıpçaq Məliyin həm taxtı, həm yatağı idi. Bu taxt-talvarın üstündə Qıpçaq Məliyin özündən başqa doqquz qara gözlü, göyçək üzlü, hörmə saçlı, əlləri biləyindən xınalı gözəllər də vardı. Qıpçaq Məlik onlarla əylənirdi. Qızlar ona altun badələrdə al şərab verirdilər.

Qıpçaq Məlik heç vaxt taxt-talvarından ayağla düşməzdi. O bura at belində gələrdi. Bir yerə gedəndə də atı düz talvarına çəkərdilər, taxtından düz atına sıçrayardı. Aşağıda oturmuş tayfa cəngavərləri Qıpçaq Məliyin atının ayaqlarına döşənər, başçıları onların arasından çapıb keçməyincə sifətlərini yerdən qaldırmazdılar.

Taxt-talvar çox bərbəzəkli idi. Onun sütunları bahalı daş-qaşla işlənmiş, kənarları tovuz quşunun lələkləriylə bəzənmişdi. Talvarın müxtəlif yerlərindən şahmar ilanların, gürzələrin qabıqları asılmışdı — bu tayfa ilana inanır, ilana tapınırdı.

Qıpçaq Məlik basqınçı səfərlərdə olmadığı vaxt onun işi-peşəsi bu taxt-yataqda bütün tayfa cəngavərlərinin gözləri qarşısında doqquz məhbus qızla yeyib-içmək, əylənib kef çəkmək idi.

Qara niqablı atlı çapıb bura, Qıpçaq Məliyin düşərgəsinə gəldi. Üzünün niqabını qaldırmadı, paltarlarını soyunmadı, amma ayağındakı çəkmələri çıxartdı — Qıpçaq Məliyin hüzürünə ancaq ayaqyalın girmək olardı.

Qara niqablı atlı Qıpçaq Məliyə təzim etdi, baş əydi, dedi: — Hey, Qıpçaq Məlik! Nə oturmusan?! Xanlar xanı Bayandır xan ömrünü sənə bağışladı, vəsiyyət elədi...

Qıpçaq Məlik qara gözlü gözəlin dodaqlarından ayrılaraq:

—Bilirəm, — dedi. — Taxt-taca gözünü at ağızlı Alp Aruz dikmişdi, amma Salur oğlu Qazan sahib oldu. Aruz Qazandan hayıf çıxmaq istəyir, odur səni mənim yanıma göndərib. Amma Aruza de ki, hələ vaxt çatmayıb. İlan tanrım mənə yar olsa, Qazanı zəbun edəcəm, ocağını söndürəcəm, qara başın kəsəcəm, alça qanın şorladacam, elin, günün çalıb, çapıb qarət edəcəm. Tovla-tovla atlarını, qatar-qatar dəvələrini, sürü-sürü qoyunlarını aparacam. Qızının-gəlinin göyçəyini bura yanıma gətirəcəm, çəkib döşəyimə salacam... Qoy bir vaxtı çatsın...

***

...Sərin-sərin dan yelləri əsəndə, koksü gözəl qaba dağlara gün dəyəndə Beyrək yerindən erkən durmuşdu. Boz ayğırına minmişdi, ova çıxmışdı. Nagahandan Beyrəyin qarşısına bir sürü ceyran çıxdı. Ceyranlar qaçışdılar, Beyrək onları qova-qova gəlib Qız Bənövşə yaylasına çıxdı. Baxdı gordü bura bir yerdir, gül-gülü çağırır, çiçək-çiçəyi çağırır. Qu quşları, durnalar, turaclar, kəkliklər uçurlar. Soyuq-soyuq sular, çiçəklər, çəmənlər... Baxdı gördü ki, bu gözəl yerdə, göy otların üzərində bir ğırmızı çadır tikilib.

Beyrək:

Yarəb, bu çadır kimin ola? — dedi. Xəbəri yox idi ki, bu çadır alaçağı ala gozlü qızın çadırıdır. Beyrək bunu bilmədi, amma ovunu qovub lap çadırın önünə gəldi, ceyranı oxladı. Banıçiçək çadırdan bunu gördü. Dayəsi Qısırça Yengəyə: — — Dayə, — dedi, — bu igid bizə ərlikmi göstərir. Gedin bundan pay diləyin, görün nə deyir.

Qısırca Yengə çadırdan çıxıb Beyrəyi salamladı:

—Hey igid, — dedi, — bu ceyrandan bizə də pay ver.

Beyrək dedi:

—Dadı, mən ovçu deyiləm. Ceyranın hamısı sizə qurbandır.

Gotür. Amma sormaq eyib olmasın, bu çadır kimindir?

Qısırca Yengə dedi:

—İgid, Bəybecan qızı Banıçiçəyindir.

Beyrəyin qanı qaynadı, ədəblə geri döndu. Qısırça Yengə ceyranı Banıçiçəyin önunə gətirdi. Banıçiçək dedi:

—Dayə, bu igid nə igiddir?

Qısırca Yengə dedi:

—Sultanım, bu igid boz ayğırlı yaxşı igiddir.

Banıçiçək dedi:

—Hey, hey dayə! Atam rəhmətlik mənə mən səni Boz ayğırlı Beyrəyə vermişəm — deyərdi. Olmaya ki, bu ola? Çağır gəlsin, xəbərləşək. Qısırca Yengə çağırdı. Beyrək gəldi. Banıçiçək yaşmaqlandı, xəbər soruşdu:

—İgid, gəlişin hardan?

—Boyat obasından.

—Boyat obasında kimin nəyisən?

—Bəyburanın oğlu Bamsı Beyrək dedikləri mənəm.

—Nə məsləhətə, nəyə gəldin, igid? — Bəybecanın bir qızı varmış, onu görməyə gəldim.

Banıçiçək dedi:

—O qız elə adam deyildir ki, sənə görünə. Amma mən Banıçiçəyin dadısıyam. Gəl indi sənlə ova çıxaq. Əgər sənin atın mənim atımı keçərsə, onun atını da keçərsən.

Gəl sənlə ox ataq, oxun mənim oxumu ötərsə, onunkunu da ötərsən. Bir də gəl sənlə güləşək. Məni basarsan, onu da basarsan.

—İkisi də atlandılar, meydana çıxdılar, at çapdılar. Qızın atı Beyrəyin atını keçdi. Ox atdılar, qızın oxu Beyrəyin oxunu ötdu.

Qız dedi:

—İgid bil ki, mənim atımı kimsənin keçdiyi yox, oxumu kimsənin ötduyu yox. İndi gəl sənlə güləşək. Beyrək atdan endi. Güləşdilər. İki pəhləvan olub bir-birinə sarmaşdılar. Beyrək götürüb qızı yerə vurmaq istər, qız qıvrılıb çıxar, qız Beyrəyi yerə yıxmaq istər, Beyrək qacıyıb qurtular.

Beyrək düşündü:

—"Bu qıza basılacaq olsam, el-oba içində başıma qaxınc, üzümə toxunc edərlər".

Qıvradı qızın döşündən yapışdı, sıxdı, qız gücəndi, çabaladı, bu dəfə Beyrək qızın incə belindən tutdu arxası üzərinə yerə qoydu, xəncərini çıxartdı, onun boğazına yaxınlaşdırdı.

Qız:

—İgid, — dedi, — Bəybecan qızı Banıçiçək mənəm.

Beyrək:

—Hey, xanım! — dedi. — Elimizin qızı-gəlini içində, hərə öz sözünü söyləyəndə, sən durarsan, öyünərsən, Beyrəyin atın keçdim, oxun ötdüm — deyərsən, məni xar edərsən. Gözüm dondü, könlüm getdi, öldürəcəm səni!

Banıçiçək dedi:

—İgidim. Öyünərsə ər öyünsün — arslandır! Öyünməklik arvadlara böhtandır. Öyünməklə arvad ər olmaz! Ala yorğan içində sənlə dolaşmadım, dadlı damaq dadıb, soruşmadım, al duvağın altından söyləşmədim. Tez sevdin, tez usandın, sərək oğlu sərək. Yer şahid olsun, göy şahid olsun, mən sənə munisəm, yarım, qıyma mənə, igidim!

Beyrək güldü:

—Gözəlim, incə bellim, öldürməyə mən səni qıyarmıydım. Öz canıma qıyardım, sənə qıymazdım. Mən səni sınayırdım.

Belə deyib Beyrək qızı üç öpdü, bir dişlədi, barmağından qızıl

üzüyünü çıxardı, qızın barmağına keçirdi.

—Aramızda bu nişan olsun, xanım, — dedi.

Qız: — Çünki belə oldu, indi qabağa düşmək gərək, igid — dedi.

Beyrək:

—Nola, xanım, — dedi. — Baş üstə. Banıçiçək yerdən bir dəstə ot dərib Beyrəyə uzatdı: — Al, — dedi — yovşandır. Bunu iyləyib məni yada sal…

...Beyrək atını mahmızladı, çapdı, Banıçiçək onun ardınca baxdı…

...Beyrək atın belində qanadlanıb yel kimi uçdu, sevincindən onun gözləri parıldayırdı.

Beyrək öz-özünə oxuyurdu:

İncə donlum, yer basmayıb yeriyən!
Başım baxtı, evim taxtı!
Evdən çıxıb yuruyəndə sərv boylum!
Badam yesə boylu görünən incə bellim!
Topuğunda sarmaşanda qara saçlım!
Qurulu yaya bənzər çatma qaşlım!
Qoşa badam sığmayan dar ağızlım!
Qar üzərinə qan dammış kimi al yanaqlım!
Sevgilim, gözəlim, adaxlım!..

Beyrək atası Bəyburanın qarşısında dayanmışdı.

Bəybura:

—Oğul, — dedi, — bu gün eldə, obada nə gordün?

—Nə görəcəm, əziz ata? Oğlu olan evləndirmiş, qızı olan köçürmüş.

—Oğul, bəlkə səni də evləndirmək gərək?

—Bəli, əziz ata, evləndirmək gərək.

—Kimin qızını alaq sənə.

—Ata, mənə bir qız al ki, mən yerimdən durmadan o dursun, mən atımı minmədən, o minsin.

—Oğul, sən qız istəməzsən, bir igid pəhləvan istərmişsən ki, onun arxasında yeyəsən, içəsən, xoş keçəsən.

—Bəli, canım ata, elə istərəm. Bəs gedəsən bir cicibacı tərəkəmə qızı alasan, yanından yel ötsə, qarnı yırtılsın?

—Oğul, onda qız tapmaq səndən, mal-rizq vermək məndən.

—Tapmışam, ata.

—Kimdir o?

—Bəybecan qızı Banıçiçək.

Bəybura fikrə getdi.

—Ay oğul, — dedi, — Banıçiçəyi sənə hələ beşikdən nişanlamışdıq. Amma Bəybecan öldü, qızın ixtiyarı qardaşı Qoçərə keçdi. O da ki, dəlinin biridir. Adına Dəli Qoçər deyirlər. And içib ki, bacımı ərə verməyəcəyəm. Qızı istəyəni öldürür.

—Bəs neyləyək?

Bəybura fikrə getdi:

—Bu qızı istəməyə kim gedə bilər? Getsə bircə Dədə Qorqud... Bəlkə Dəli Qoçər Dədənin qopuzuna hörmət eləyə.

Gəl bir Dədə Qorqudla məsləhətləşək.

...Dədə Qorqud:

—Çünki məni göndərirsiz, gedərəm, — dedi. — Amma bilirsiz ki, Dəli Qoçər böyük-kiçik tanıyan deyil. Barı mənə iki yüyrək at gətirin. Qovma-qaçma olarsa, birisini minim, birisin yedim, canımı qurtarım. Dədə Qorqudun sözü məqbul gəldi. İki at gətirdilər. Dədə birini mindi, birini yeddi:

—Xoş qalın — dedi, getdi.

...Dəli Qoçərin çadırının yanında qupquru bir çay yatağı vardı... Amma Qoçər bu susuz çayın üstündən bir körpü tikdirmişdi, yoldan ötənləri məcbur edirdi ki, bu körpüdən keçsinlər. Keçənlərdən otuz axça, keçməyənlərdən döyə-döyə qırx axça alırdı.

İndi də tacirlərdən birini döyürdü. Tacir ağlaya-ağlaya:

—Ay igid, axı niyə belə edirsən, — deyirdi, — düz yolu qoyub bu sınıq korpünün üstündən niyə bizi aparırsan?

Dəli Qoçər bağırdı:

—Nə dedin, sarsaq oğlu sarsaq? Məndən dəli, məndən güclü ər varmıdır ki, qabağıma çıxa! Mənim bahadırlığım, igidliyim Ruma, Şama gedib çatıb.

Qoçər taciri döyüb:

—Körpüdən keçmirsiniz, cəhənnəmə keçin, amma onda qırx axçanı bəri verin görüm, — deyirdi.

Tacir soruşdu:

—Yaxşı, bəs körpüdən keçsək neçə axça alacaqsan?

Dəli Qoçər:

—Körpüdən keçsəniz otuz, — dedi. Tacir pulları Dəli Qoçərin ovcuna sanadı, dəvələrini körpünün üstündən sürdü.

Dəli Qoçər onların ardınca baxıb qəhqəhəylə güldü, sonra iri bir

şərab bardağını başına çəkdi, çaxır onun bığlarına, çənəsinə, boynuna, boğazına töküldü. Dəli Qoçər elə hey içir, içirdi. Bu zaman Dədə Qorqud gəlib çıxdı, atdan düşdü, salam verdi.

Dəli Qoçər bardaqdan ayrılmadan bir müddət Dədə Qorqudu süzdü, sonra rişxəndlə:

—Ay əleykəssalam, — dedi. Dəli Qoçər bir az içib çığırdı:

—Ay əməli azmış, feli dönmüş, qadir tanrı ağ alnına qada yazmış! Ayaqlıların bura gəldiyi yox. Ağızlıların bu suyumdan içdiyi yox. Sənə noldu? Əçəlinmi yetdi? Buralarda neylərsən?

Dədə Qorqud dedi:

—Qarşı yatan qara dağını aşmağa gəlmişəm. Axıntılı çağlar suyunu keçməyə gəlmişəm. Gen ətəyinə, dar qoltuğuna qısılmağa gəlmişəm. Aydan arı, sudan duru bacın Banıçiçəyi Bamsı Beyrəyə istəməyə gəlmişəm.

Dəli Qoçərin matı-qutu qurudu, bir müddat maddım-maddım Dədə Qorqudun üzünə baxdı, sonra ilan çalmış kimi yerindən atılıb, var səsiylə bağırdı:

—Hey, tez olun, nə dediyimi yetirin, ayğırı yarağıyla gətirin.

Ayğırı və yaraqları gətirən kimi Dəli Qoçər atlandı, qılıncını sıyırdı. Dədə Qorqud da fürsəti fövtə vermədi, qaçdı. Dəli Qoçər qova-qova ardınca düşdü. Dədənin altındakı Duru ayğır yoruldu. Dəli Qoçər Dədəni qova-qova haqladı, qılıncını onun başı üzərinə qaldırdı.

Dədə Qorqud:

—Çalarsan, əlin qurusun, — dedi. Birdən Dəli Qoçərin əli havadan asılı qaldı.

Dəli Qoçər:

—Mədəd, aman, əlaman, — deyə bağırdı. — Dədə, mənim əlimi sağalt, bacımı Beyrəyə verərəm.

Dədə Qorqud:

—Yaxşı, — dedi, — sal əlini aşağı. Dəli Qoçərin əli sapbasağ oldu. Əlini aşağı saldı, dedi: — Bacımın yoluna nə istəsəm verərmisiz?

—Verərik, di de görüm nə istəyirsən?

—Min dəvə gətirin... Min ayğır gətirin... Min qoç görməmiş qoyun, min quyruqsuz, qulaqsız köpək gətirin.

Min dənə də birə gətirin.

—Nə, birə?

—Hə, birə! Min dənə. Əgər dediyimdən bircə dənə az gətirsəniz bu dəfə öldürmədim, o vaxt öldürəcəm.

***

Dədə Qorqud döndü, Bəyburanın obasına getdi. Bəybura dedi:

—Dədə, oğlanmısan, qızmısan?

Dədə:

—Oğlanam, — dedi.

—Bəs necə qurtuldun Dəli Qoçərin əlindən?

—Qurtuldum da, qızı da aldım.

Dədə Qorqud Dəli Qoçərin şərtlərini Bəyburaya dedi.

Gülüşdülər, amma sonra Bəyburanı fikir aldı. Yaxşı, Dədə, — dedi, — hamısını mən düzəltsəm, birələri sən taparsan?

—Taparam.

***

...Dəli Qoçərə tovla-tovla şahbaz atlar, qatar-qatar dəvələr, sürü-sürü qoyun, qoçlar gedirdi. Dəli Qoçər körpünün yanında dayanıb bardaqdan şərab içə-içə sayırdı.

—Üç otuz on, beş otuz, on otuz...

Nəhayət, köpəkləri də saydı:

Min, — dedi, sonra birdən üzünü Dədə Qorquda tutub, — hə, Dədə, — bəs hanı mənim birələrim?

—Hay oğul, Qoçər, birələrin hamısını bir yerə yığmışam, gedək say, seç köklərini götür, arıqları qalsın. Gəl dalımca. Dədə Qorqud Qoçəri bir ağılın yanına gətirdi.

—Soyun, — dedi.

Dəli Qoçər lüt soyundu. Dədə Qorqud onu ağıla saldı, qapısını bağladı. Bu ağıl birəylə dolu idi. Birələr, Dəli Qoçərii canına daraşdılar, Qoçər gordü bacara bilmir, haray qaldırdı: — Vay! — dedi — Mədəd! Dədə kərəm elə, allah eşqinə qapını aç çıxım.

Dədə Qorqud bayırda dayanıb qımışırdı, sakit-sakit:

—Oğul, Qoçər, nə haray-həşir salmısan, — deyirdi. — İsmarladığın birələrdir də! Saysana, düz min dənədir! Bəlkə bəyənmədin?! Köklərini götür, arıqları qalsın.

Dəli Qoçər bağırırdı:

—Vay Dədə, hay Dədə! Tanrı bunun kökünü də qırsın, arığını da. Məni burdan çıxar. Dədə, qara başım qurban olsun sənə, Dədə! Mədəd!

Qoçərin fəryadı ərşə qalxırdı. Dədə Qorqud qapını açdı.

Lüt Qoçər ağıldan bayıra atıldı, üstünü birə basmışdı, üz-gözü görünmürdü. Dəli Qoçər Dədənin ayağına düşdü.

—Allah eşqinə, məni qurtar, — dedi. — Qoyunlarımı, quzularımı hamısını sənə qurban kəsərəm.

Dədə Qorqud:

—Qaç oğul, özünü suya vur, — dedi.

Dəli Qoçər çaya tərəf qaçdı, suya atıldı.

***

Dədə Qorqud çapa-çapa Bayat obasına gəldi. Ucadan:

—Muştuluq! Muştuluq! — deyə qışqırdı. Bəybura onun qabağına çıxdı, atının alnına bir yumurta çırpdı.

Bəyburanın evində toy tədarükü başlandı. Qız evinə göndərilən qoyunların, qoçların buynuzlarına qırmızı yaylığ bağladılar, ağızlarına, ayaqlarına xına sürtdülər. Atların boynundan bəhri-qotaz asdılar, dəvələri bəzədilər.

...Banıçiçək öz çadırında Beyrəyə qızılı qaftan tikirdi...

...Boğazca Fatma Beyrəyin anası Ayna Mələyin, üç bacısı Günay, Aysel və Günelin başlarına, əllərinə, ayaqlarına xına qoyurdu...

...Qısırca Yengə Banıçiçəyin başına, əllərinə, ayaqlarına xına qoyurdu, yanağına ənlik, kirşan sürtür, gözlərinə, qaşlarına sürmə çəkirdi...

...Səhər üzü Beyrək yoldaşlarıyla birlikdə Bayat obasının kənarındakı düzəngaha çıxdı. İgid evlənəndə gərək ox ataydı. Oxu hara düşsə gərdəyini orda tikərdi. Beyrək də yayı çəkdi, oxunu atdı. Ox düşən yerdə çadırını qurdu.

İgidlər çıdıra çıxdılar. Beyrəyin dəstəsindəki çavanlardan biri də Yalıncıq idi. O, uzdə gülüb sevinsə də, ürəyindən qara qanlar axırdı.

Banıçiçəkgildən gələn çaparlar xonça, xələt gətirdilər.

Banıçiçəyin tikdiyi qaftanı Beyrəyə verdilər, Beyrək çadırına girdi, ordan qızılı qaftanda çıxdı.

Yoldaşlarından biri:

—Mübarəkdir, sağlığına qismət olsun, — dedi.

Beyrək:

—Bəs niyə gözümə pərt dəyirsəi? — dedi.

Başqa bir yoldaşı:

—Necə pərt olmayaq? — dedi. —Sən təzə qaftan geyirsən, biz köhnə qaftan geyirik.

Beyrək dedi:

—Belə şeydən ötrü pərt niyə olursunuz. Bu gün mən geyinirəm, sabah sən gey. Yeddi gün, yeddi gecə toy olacaq, hər gün biriniz geyinin, ondan sonra bir dərvişə verərik.

Yeddi gün, yeddi gecə toy oldu. İgidlər Qobustan qayalıqlarında həkk olunmuş oküzləri, keçiləri, maralları nişan alıb ox atdılar, at çapdılar, qılınc çaldılar, güləşdilər, yallı getdilər. Hər gün də Beyrəyin qızılı qaftanı başqa bir cavanın əynində idi.

...Qız Bənəvşə yaylağında da toy dəsgahı idi. Banıçiçəyə toy paltarı geyindirirdilər. Qısırca Yengə onun döşünə güzgü tutmuşdu, anası başına qırmızı parçadan çalma bağlayırdı.

Oba kənarında bir xarabalıq vardı. Gecə ay işığında xarabalardan qəribə kölgələr düşürdü. Burada sərgərdan itlər dolaşar, bayquşlar ulaşardı. Xarabalığın bir divarına iki nəfər qısılmışdı. Onları kolgələrindən tanımaq olardı: biri Alp Aruz, o biri qara niqablı adam idi.

Alp Aruz:

—Deməli Qıpçaq Məlik hələ fürsət gözləyir, tələsmir.

Onda gərək ayrı tədbirə əl ataq. Bayburd hasarının xaqanıyla sövdələşək, haydı, çap, Parasarın Bayburd hasarına xəbər apar. Xaqana de ki, Dəli Qoçər bacısını onun qardaşı oğluna vəd etmişdi, ilqarına dönük çıxdı. Qızı Boz atlı Beyrəyə verdi. Sabah gecə gərdəyə girəcəklər. De ki, Beyrəyi aradan götürsələr, Qazanın beli qırılar. Onun dayağı, dirəyi Beyrəkdir. Qara niqablı çapar atın belinə qalxdı. O çaparkən heç bir nal səsi eşidilmirdi. Çapar qaranlığda əridi, gözdən itdi.

***

...Banıçiçək çadırında uzanmışdı, çadırın açıq qapısından səmaya — karvanqıran ulduza baxırdı, yastığının yanına yığdığı yovşan topalarını iyləyirdi. Gözünə yuxu getmirdi.

...Beyrək də öz çadırında yovşan iyləyirdi, karvanqıran ulduza baxırdı, düşünürdü. Yavaş-yavaş xumarlanırdı, gözlərini yumdu, yuxuya getdi.

Beyrəyin gərdəyi bomboş, ucsuz-bucaqsız çölün ortasında idi. Yeddi ağaç məsafədə nə bir işıq ucu görünürdü, nə bir hənirti duyulurdu. Haradansa İsaq-Musaq quşunun səsi eşidilirdi. Beyrəyin Boz ayğırı uzağda ilxının içində idi.

Boz ayğırın xasiyyəti vardı, haçan ki, yağı qorxusu duyulsa,

ayağını yerə döyərdi, tozu göyə çıxardı. İndi də dırnaqlarıyla torpağı didim-didim diddi, fınxırdı, kişnədi, səsini eşidən olmadı.

Gecənin qaranlığında səssiz gələn səkkiz atlı kirimişcə atdan düşdülər, ətrafı pusa-pusa gərdəyə yanaşdılar. Yeddisi əllərində qalın bir örkən gərdəyə girdi, biri çöldə marıqda durdu. Gərdəkdən boğuq səs eşidildi, az sonra ordan həmin o yeddi nəfər çıxdı. Onlar örkənlə möhkəm sarıdıqları, ağzına parça tıxadıqları Beyrəyi sürükləyib gərdəkdən çıxardılar, atın tərkinə atdılar. Atlılar gəldikləri kimi səssizcə də çıxıb getdilər. Yeddisi getdi, biri qaldı. Qalan həmin o qara niqablı adam, atlılar uzaqlaşandan sonra qılıncını sıyırdı, sonsuz bir nifrət və hiddətlə gərdəyi parçalamağa başladı, təpikləri altında çadırı yerlə yeksan etdi, çapıb uzaqlaşdı.

***

Qazanın divanına igidlər yığnaq olmuşdu. Dədə Qorqud da buradaydı.

Qazan:

—Dədə, məsləhət sənindir, — dedi.

Dədə Qorqud:

—Yer altını ilan bilər, yer üstünü insan bilər, — dedi. —İgidləri göndər, dörd iqlimi dolaşsınlar. Beyrəyin ölüsü, dirisi xəbərini gətirsinlər. Qazan dedi:

—Əmən gündoğana getsin. Dondar günbatana getsin. Qarabudaq Ala dağın güneyindən xəbər gətirsin, Yalıncıq Qazılıq dağının quzeyindən xəbər gətirsin. Beyrəyin dirisi xəbərini gətirənə var-dövlət verərəm, ölüsü xəbərini gətirənə — Banıçiçək qismət olsun.

İgidlər atlandılar, dörd yerə çapdılar. Qalanlar intizarda qaldı.

Qazan xəbər gözlədi, Banıçiçəyin gözləri yol çəkdi, Beyrəyin atası, anası, bacıları dörd yol ayrıcında durdular.

Əmən qayıtdı, başını bulayıb:

—Beyrəyi gördüm deyən olmadı, — dedi.

Dondar qayıtdı, gözünü yerə dikib:

—İzi-sorağı yoxdur, — dedi.

Qarabudaq geri döndü:

—Beyrəkdən nam-nişan tapmadım, — dedi.

Yalıncıq gəlib çıxdı, atdan düşüb hönkür-hönkür ağladı.

—Aman Beyrək, can qardaş, — dedi, — muradına—maqsuduna çatmayan yoldaşım.

Qazan: — Yalıncıq, nə xəbər gətirmisən? — dedi.

—Nə xəbər gətirəcəm, xan Qazan? Gətirməsəm gətirdiyimdən yaxşıydı. Namərd düşmən Beyrəyi qaçırıb, yoldaca paralayıb, cəsədini dağdan-daşdan yuvarladıb, qarğaya-quzğuna yem edib.

Qazan:

—Bunu nədən bildin? — dedi.

Yalıncıq ağlaya—ağlaya heybəsindən Beyrəyin al qana bulaşmış qızılı qaftanını — həmin o Banıçiçəyin tikdiyi qaftanı çıxartdı.

—Beyrəyin qaftanıdır, — dedi. — Adaxlısı tikmişdi.

Qazan:

—Biz bunu bilmərik. Adaxlısına göstərin — dedi.

Qaftanı Banıçiçəyə gətirdilər, Banıçiçək al qan olmuş qaftanı görən kimi, zar-zar ağladı:

—Vay şah igidim, vay şahbaz igidim, al duvağım ağası, alnım-başım umudu, doyunca üzünə baxmadığım canım igid, hara getdin məni yalqız qoyub, vay Beyrək!

Dartdı yaxasını yırtdı, payız alması kimi al yanaqlarını cırdı.

***

...Bayat obasına şivən girdi, Bəybura çalmasını açıb yerə çırpdı, qara geyib göy sarındı, yaxasını yırtdı, "oğul, oğul" deyib hönkür-hönkür ağladı. Ayna Mələk saçını yoldu, bacıları: — Vay qardaş, can qardaş! Muradına, məqsuduna çatmayan yalqız qardaş, — deyib göynəyə-göynəyə ağlaşdılar.

Beyrəyin bacıları ağ çıxarıb qara geydilər. Qazan xan ağ çıxarıb qara geydi. Beyrəyin yar-yoldaşları, bütün Oğuz igidləri ağ çıxarıb qara geydilər, ümidlərini üzdülər.

Beyrəyə yas tutdular. Beyrəyin anası, bacıları, Banıçiçək Beyrəyin paltarlarını ortalığa töküb ağı dedilər:

—Oğul vay, qardaş vay, Beyrək vay! Ay kimi doğdun, gün kimi batdın. İtik qardaş, itik bala vay!..

Beyrəyin boz ayğırının quyruğunu kəsdilər, belinə Beyrəyin paltarını, qanlı qaftanını qoydular, üstünə qara ortük çəkdilər, atı qara bəzədilər. Beyrəyin atası, anası, bacıları, Banıçiçək atın qabağına düşüb obanı, eli gəzdilər, yerlə-yeksan olmuş gərdəyin yanına gəldilər.

Ayna Mələk dedi: — Gərdəyi goru olan balam, tanrı sənə bir məzarı da çox gördü.

Birdən Boz ayğır fınxırıb üstündəki pal-paltarı yerə çırpdı, yerindən qopub harasa çapdı. Dalınca düşmədilər. At çapıb-çapıb

uzaqlaşdı, gözdən itdi...

***

Xınalıq kəndini andıran Bayburd qalası uca dağların qoynunda, buludlardan yüksəkdə yerləşirdi. Dağ döşünün dolama yollarıyla qalaya tərəf yeddi atlı qalxırdı. Atlıların qabağınca əli ardından bağlı, ayağı buxovlu bir piyada gedirdi. Bu Beyrəkdir. Qalanın dəmir darvazaları açıldı, dəstə qalanın içinə girdi, dəmir darvazalar bağlandı...

***

Dədə Qorqud öz məzarının yanında oturub qopuz çalır.

—Beyrəyin əhvalatı hələ uzundur, hələ bu əhvalatın dalı var.

Amma indi kimdən deyim, Bəkildən... Bəkil bir gün yenə ova çıxmışdı, Qazan xandan çapar yetdi, Bəkili Qazanın divanına çağırdı. Bəkil divana gəldi, ceyranları Qazana hədiyyə verdi. Qazan da buyruq elədi ki, Bəkilə qılınc, çomaq, yaxşı at və yaxşı qaftan versinlər. Bu vaxt Dondar məclisə daxil oldu. O da ovdan gəlirdi, ceyran ovlamışdı. Ovladığı ceyranı Bəkilin qabağına qoydu.

—Bəkil sənin halal malındır, — dedi, ceyranın dəlik qulağını göstərdi.

İgidlər gülüşdülər.

Alp Aruz:

—Görən bu hünər Bəkilindir, ya atınındır? — dedi.

Əmən:

—Əlbəttə ki, Bəkilindir, — dedi. Yeddillik al şərabın istisi Qazanın başına vurmuşdu.

Qazan:

—Yox, — dedi, — at işləməsə, Bəkil də öyünməz. Hünər atındır.

Bu söz Bəkilə xoş gəlmədi. O ayağa durdu, üzünü Qazana tutdu:

—İgidlər içində bizim boynumuzu palçığa batırdın, — dedi. Bəkil Qazanın bəxşişlərini onun qabağına tökdü, divandan çıxdı. Atın çəkdilər, minib evinə gəldi. Arvadı qabağına çıxdı:

—İgidim, — dedi, — Qazan xanın divanına şad getdin, pərt qayıdırsan, nədir halın?

Bəkil:

—Qazanın nəzəri bizdən dönüb, — dedi, — Qazan xandan küsmüşəm.

Qadını dedi:

—İgidim, elə demə, səbrini bas, tələsik iş görmə, könüldə pas olsa

şərab açar. Şərab iç. Sən gedəni Ala dağlar ovlanmamış. Ova çıx könlün açılsın. Bəkil gördü ki, arvadın sözü, məsləhəti haqdır, atlanıb ova çıxdı.

Ov ovladı, quş quşladı, birdən qarşısına yaralı bir ceyran çıxdı. Bəkil bunun dalınca at saldı. Ceyran özünü bir uca yerdən atdı, Bəkil atın cilovunu çəkə bilmədi, keyikin dalınca yarğandan uçdu. Sağ oyluğu qayaya toxundu, sındı.

Bəkil qaftanın altından ayağını bərk sarıdı. Atı onu obaya gətirdi. Oğlu Qaraca Çoban Bəkilin qabağına çıxdı. Gordü ki, atasının bənizi saralıb, çalması boğazına keçib.

Qaraca Çoban:

—Sənə nə oldu, ata? — dedi.

Bəkil dedi:

—Bir az naxoşam. Oğul, məni atın üstündən al, döşəyimə apar. Qaraca Çoban atasını atın belindən götürüb, döşəyinə apardı, cübbəsini üstünə saldı, qapısını ortdü, Bəkil ayağının sındığını kimsəyə demədi, amma gecə döşəyində zar-zar inlədi, ah etdi.

Arvadı yanına gəldi:

—İgidim, — dedi, — sənə nə olmuş? Nədir halın? Kişi qoynunda yatan halalına sirrini deməzmi olur?

Bəkil:

—Atdan düşdüm, ayağım sındı, — dedi.

Arvad ah-vay edib bacısına söylədi, bacısı çıxıb qapıçıya söylədi. Otuz iki dişdən çıxan bütun obaya yayıldı.

...Qara niqablı çapar düşmənə xəbər apardı.

***

Parasarın Bayburd hasarının xaqanı Qara Arslanın məclisində sağda oturan sağ bəylər, solda oturan sol bəylər taxta əyləşmiş xaqanın əlinə baxırdılar. Qara Arslanın qarşısında böyük mis ləyənin üstündə bütöv qızardılmış bir toğlu vardı. Qara Arslan əlindəki uzun xəncərlə toğlunun ətini hissələrə bölür və hər bəyə oturduğu yerdən və mövqeyindən asılı olaraq toğlunun müəyyən bir hissəsini verirdi. Qara Arslan və bəylər ləzzətlə yeməyə başladılar. Xaqan qapıçıya işarə verdi:

—Əsiri gətirin.

Beyrəyi içəri gətirdilər. Onun gözləri batmış, sifəti arıqlayıb tanınmaz olmuşdu, saçı saqqalına qarışmışdı.

Beyrəyin geyimi də qəribə şəkil almışdı: şalvarı dizdən,

köynəyinin qolları dirsəkdən aşağı kəsilmişdi, bu qəriblik, əsirlik nişanəsidir. Beyrəyin əl-qolu bağlıdır. Ağızlarını marçıldada-marçıldada toğlu əti yeyən bəylərə baxışından hiss olunurdu ki, Beyrək neçə gündür acdır. Amma o özünü sındırmır, düşmənlərin qarşısında başını dik tuturdu.

Qara Arslan Beyrəyə dedi:

—Təpəgöz həramini zəbun edən, ad çıxaran igid Bamsı Beyrək sənmisən? — Mənəm!

—Bilirsənmi səni niyə qaçırtmışıq? İstəyirik ki, sən bizdən olasan. Nə görmüsən Oğuz elində? Çöldə-düzdə yaşamaqda, qışlaqdan yaylağa, yaylaqdan qışlağa koç eləməkdə, at belində güzəran keçirməkdə nə görmüsən, igid. Qal burda, sarayda yaşa, ipək-qumaş döşəklərdə yat, ləziz-ləziz xörəklər təam elə, məhbub gözəllər qulluğunda hazır olsun. Ye, iç, kef çəkib xoş ol. Amma bircə şərtimiz var. Əvvəlcə gərək altı min qoşunla Oğuz elinə gedəsən, o dağların, düzlərin yoluna, cığırına səndən yaxşı bələd olan yoxdur. Oğuz elini tar-mar edib qayıt, sənə bəylik verək, taxt-tac verək, altun axça verək, gözəl qızlar verək.

Beyrək bir müddət susdu, iştahla ət gəmirən bəylərə baxdı, sonra ağır-ağır təmkinlə danışmağa başladı:

—Dədə Qorqud deyərdi ki, "Qara eşşək başına yüyən taxsan at olmaz. Mərd oğul öz yurduna yad olmaz". Öz əslimi, öz kökümü söyməyim yox, öz evim-eşiyim dururkən, yad qapısını döyməyim yox. Əlinə girmişkən alçaq, öldür məni, bitir məni. Çal qılıncın, kəs başımı, qılıncından, xəncərindən qorxmağım yox.

Qara Aslan qəzəblə: — Aparın salın bunu quyuya, yalvarmayınca çıxarmayın. Qoy qalsın orada, çürüsün ölsün, — dedi. Beyrəyi apardılar, dibi görünməz zulmət bir quyuya saldılar. Quyunun ağzına iri bir dəyirman daşı qoydular. Bir əlçə çörəyini, bir qurtum suyunu dəyirman daşının dəliyindən verirdilər.

***

Bir gün Yalıncıq və Dəli Qoçər Qazanın divanına gəldilər, diz çökdülər, baş əydilər, Yalıncıq dedi:

—Dövlətli xanın ömrü uzun olsun! Beyrək yoxa çıxdığı gündən bir il keçib. Özün vəd vermişdin ki, Beyrəyin xəbərini gətirənə Banıçiçək qismət olsun. Bu xəbəri mən gətirdim. Qızın qardaşı da razıdır. İndi məsləhət sənindir.

Qazan üzünü Dəli Qoçərə tutdu. Dəli Qoçər başının hərəkətilə

Yalıncığın sözlərini təsdiq etdi.

Qazan Dəli Qoçərdən soruşdu:

—Bəs qızın özü nə deyir?

Dəli Qoçər dedi:

—Qız Beyrəyin ölümünə həm inanır, həm inanmır.

Möhlət istəyir. Deyir mən onu bir il gözləyəcəyəm, bir il gəlməsə, iki il gözləyəcəyəm, iki il gəlməsə, üç il gözləyəcəyəm. Üç il gəlməsə, kimə versəniz gedərəm.

Qazan dedi:

—Yaxşı, qoy elə olsun. Bir il keçib. Bir il də keçsin, nişanın edərsən. Sonra bir il də keçər toyunu edərsən!..

...Bayat obasında yol kənarındakı daşın üstündə beli bükülmüş, gözləri kor olmuş bir qoca oturmuşdu. Bu Bəybura idi. Zınqırov səsi eşidildi. Bəybura başını qaldırdı.

Kor gözlərini məchul bir nöqtəyə zillədi. — Gedən, gələn! Kimsən, hardan gəlib, hara gedirsən? — dedi.

Qoca tacir:

—Bizik Bəybura, tacirlərik, — dedi. — Uzaq səfərə gedirik. Yalıncıq bizi mal dalınca göndərir. Toyuna vəd alıb.

Bəybura:

—Tacirlər, aman, — dedi, — taleyə yoxdur güman! — Uca dağlardan keçər olsaz, uzaq-uzaq ellərə yetər olsaz bircə oğlancığımın sorağını sorun. Bəlkə ucqar bir iqlimdə ölüsünü, dirisini bilən oldu.

Qoca tacir:

—Arxayın ol, Bəybura, — dedi, — hər yerdə Beyrəyin sorağını soracayıq. Tapsaq tapdıq. Tapmasaq, tanrı verdi, tanrı aldı neyləyəsən?

Tacirlər yola düzəldi, zınqırov səsləri uzaqlaşdı, kor gözlərini səslərin ardınca dikmiş Bəybura dodaqaltı pıçıldadı:

—Qaranlıq gözlərimin aydını oğul, evimin dirəyi oğul, hardasan oğul?...

***

Parasarın Bayburd hasarının dərin quyusunda Beyrəyin gözləri artıq qaranlığa alışmışdı. Amma burada quyunun rütubətli divarlarından başqa nə görmək olar ki? Beyrək büzüşüb hərəkətsiz qalmışdı. O, əlini quyunun daş divarlarına sürtürdü. Birdən daşların birinin nəm olduğunu duydu, həmin daşdan su sızırdı. Beyrək daşı

tərpətdi, daş qopdu, ordan su axmağa başladı. Beyrək bir neçə daş da çıxartdı və həmin yerdən lağım açıldı. Lağım isə yeraltı çaya çıxırdı, Beyrək lağımla sürünüb çaya düşdü, çayda çapaladı, suyun axarı onu başqa lağımın ağzına gətirib çıxartdı. Beyrək bu lağımla sürünüb geniş bir zirzəmiyə düşdü. Bura yeraltı sərdabə idi. Burada yer üstündəki məzarların müqabilində eyni qəlibli qəbir səndüqələri qoyulmuşdu.

Xaqanın qohum-əqrabası burda basdırılmışdı. Beyrək qəbirləri seyr edərkən addım səsləri eşitdi, bir bucaqda gizləndi. Bir də gördü ki, xaqan Qara Arslanın arvadı Despinə xatun bura düşdü, qəbirlərdən birinə yaxınlaşdı.

Despinə xatun ət, süd, cürbəcür ləziz yeməklər, şərab gətirmişdi. Hamısını da həmin qəbrin yanına düzdü.

Despinə xatun qəbrə müraciətlə: — Babacan, — dedi, — sənə bu gün qurbanlıq quzudan qızarmış ət gətirmişəm, bu gecə yuxumda əmlik quzu əti istəmişdin. Yeddi illik şərab gətirmişəm. Süd-qaymaq gətirmişəm. Sabah sənə qızardılmış cücə gətirəcəm. Könlündən nə keçirsə, gecə yuxuda deyərsən, gətirərəm. Ta ki, bir şeydən tamarzı qalmayasan.

Despinə xatun əyilib qəbri öpdü, sonra yavaşca çıxıb getdi. Beyrək gizləndiyi yerdən çıxdı, əvvəlcə təəccüblə ora-bura boylandı, sonra məsələni başa düşüb güldü. Beyrək başa düşüb bildi ki, bunların inancına görə ölülər yemək yeyir, şərab içirlər. Beyrək gülüb usandı, babanın yeməklərini iştahla yedi, şərablarını içdi, sürünüb öz quyusuna keçdi.

Yuxarıdan ona bir əlçə çörək və bir qurtum su salladılar.

***

Səhəri günü eyni vaxtda Beyrək yenə həmin yolla sərdabəyə gəldi, gizləndi. Bir az sonra Despinə xatun yemək-içmək gətirdi. Gördü ki, qəbrin üstündə ancaq sümüklər və boş şərab bardağı qalıb, sevincək:

—Babacan, nə yaxşı yeyib-içmisən, nə əcəb səndən? — dedi. — Deyəsən axır ki, öz əlimlə hazırladığım yeməkləri bəyəndin. Daha bundan sonra həmişə özüm bişirəcəm, yəqin ki, qulun-qaravaşın hazırladıqları yeməklər ürəyinə sinmir, ye, iç, nuş olsun.

...Despinə xatun yer üzünə çıxdı.

...Beyrək iştahla yeyirdi.

***

Bir gün Despinə xatunun gətirdiyi şərab çox tünd oldu, Beyrək içib kefləndi, elə qəbrin yanındaca yıxılıb yatdı: bir də gözünü açıb başının üstündə dayanmış Despinə xatunu gördü. Qadın dəhşətdən bərəlmiş gözlərini onun sifətinə dikmişdi. Beyrək gördü ki, qadının qorxudan bağrı çatlayacaq, odur ki, tələsik: — Qorxma xanım, — dedi, — mən ölü deyiləm, diriyəm, adamam, ərin xaqanın əsiri Bamsı Beyrəyəm.

Despinə xatun ətrafa səpələnmiş toyuq sümüklərini, boş bardağı gördü və hər şeyi başa düşdü.

—Babamın payını sən yeyirsən? — dedi.

Beyrək:

—Bəli, — dedi, — xanım, mən yeyirəm.

Despinə xatun məyus-məyus:

—Çoxdan? — dedi.

—Sən bişirməyə başlayan gündən. Qadının elə bədbəxt görkəmi vardı ki, Beyrəyin ona yazığı gəldi:

—Xanım, dedi, — baban özü yeməkləri mənə verir, deyir qocayam, dişim yoxdur, şərab da içmirəm. Amma balı, qaymağı həmişə yeyir.

Despinə xatun bir az özünə gəldi:

—Yenə insaflı adamsanmış, — dedi, — hamısını tutub əlindən almırsan! Düzünü de, dünya harda yaxşıdır, burda ya yer üzündə?

Beyrək:

—Niyə, bura da pis deyil, — dedi, sonra qəbirləri göstərdi. — Bunlar da mənə yaxşı qulluq edirlər. Biri paltarımı yuyur, biri məni çimizdirir, biri belində gəzdirir.

Beyrək danışdıqca Despinə bir-bir qəbirlərə baxır:

—Vay, paltarı xalam yuyur, dayım çimizdirir? — deyə həyacanlanırdı.

—Yoxsa ay oğlan, səni belində gəzdirən mənim qoca nənəmdir?

Beyrək:

—Bə nə? — dedi, — ölülərinizdə ondan yorğası yoxdur. Çox vaxt ona minirəm.

Despinə xatun başına döyməyə başladı:

—Vay, sənin boynun sınsın, — dedi, — sizlərin əlindən nə yer üzündə dirimiz, nə yer altda ölümüz qurtuldu. Despinə xatun qaça-qaça birbaş xaqanın hüzuruna gəldi. — Kərəm elə, ulu xaqan, — dedi. — O oğuzu quyudan çıxar. Nənəciyəzimin belini üzəcək. Yer

altında nənəciyəzimi minərmiş. Qalan ölülərimizi özüyçün işlədərmiş. Babacığazıma verdiyim yemək̂ləri çəkib alıb yeyərmiş.

Onun əlindən nə ölümüz, nə dirimiz qurtarar. Din eşqinə, çıxar onu quyudan.

***

Beyrək öz quyusunda oturmuşdu. Zindançı quyuya nərdivan salladı, Beyrəyi səslədi:

—Xandan buyuruq oldu ki, yer üzünə çıxasan.

Beyrəyi yer üzündəki zindana saldılar. Zindanın dar pəncərəsinə dəmir barmaqlıqlar vurulmuşdu. Gecə düşəndə Beyrək bu dəmir barmaqlar arasından ulduzlu göyə baxırdı. Ulduzlar içində karvanqıran ulduzu tapırdı.

...Bir cüt ala göz də karvanqıran ulduza baxırdı. Yaş dolu ala gözlər. Banıçiçəyin həsrət gözləri. Banıçiçək Beyrəkdən uzaqlarda, uca-uca dağların, daşqın-daşqın suların arxasında, Qız Bənövşə yaylağında, öz çadırında uzanıb ulduzlu səmada Beyrəyin ulduzunu axtarırdı.

...Bayat obasının kənarında Bəybura da kor gözlərini ulduzlu səmaya zilləmişdi.

...Ay işığında dolama yollarla bir karvan gedirdi. Tacirlərin karvanı. Yavaş-yavaş dan sökülürdü, ağla-qara seçilirdi.

...Beyrək də gözlərini yummamışdı. Hava işıqlaşanda o, zindanın dar pəncərəsindən müdhiş bir mənzərə gördü: uzaqda, hündür bir bürcün başına insan kəlləsi sancılmışdı. Beyrək barmaqlıqlardan yapışıb başını yuxarı uzatdı, boylandı, iri bir meydan gördü.

Meydanın dörd tərəfində bürclər ucalmışdı və onların çoxunun başına insan kəllələri sancılmışdı.

Beyrək zindançını səslədi:

—Bura bax, o kəllələr, hansı biçarələrindir? Ora niyə sancılıblar?

Zindançı dedi:

—Qara Arslan Xaqanın dünyalar gözəli bir qızı var, adına sarı donlu Selcan xatun deyərlər. Küllü-aləmin igidləri o qıza aşiqdir. Qapısına elçi düşürlər. Xaqanın bir aslanı, bir qara buğası, bir də erkək dəvəsi var — hər biri bir əjdahadır. Xaqan şərt qoyub, qızına elçi düşənlər gərək bu əjdahalarla vuruşsun. Onları bassalar, Selcanı alacaqlar, basmasalar, başları kəsiləcək. Hələ bu üç əcdahanı basan olmayıb. O, otuz iki baş da ki, bürclərdən asılıb, haman o otuz iki igidin başıdır, heç birisi aslanla dəvənin üzünü görməyib, elə birinci

döyüşdəcə həlak olublar.

Beyrək:

—Rəvadırmı ki, cavan igidlər bir qızdan ötrü buğanın buynuzunda həlak olsunlar. Get, xaqana xəbər apar, de ki, məni meydana buraxsın, mən əjdahaları öldürüm, yaxşı igidlərin canını qurtarım.

Xaqana xəbər getdi. Təbillər, şeypurlar çalındı. Sağ bəylər, sol bəylər, əyanlar, əmirlər meydana toplaşdı. Xüsusi köşkdə Xaqanın qızı sarı donlu Selcan xatun əyləşmişdi. Yanında yeddi incə belli qız vardı.

Beyrəyi meydana gətirdilər.

Xaqan:

—Bu qoçağı anadangəlmə soyundurun, — dedi. Beyrək soyundu, bircə qızılı incə kətan bezini belinə sarıdı.

Qız koşkdən baxırdı. Beyrəyi görəndə öysəl olmuş dana kimi ağzının suyu axdı, igidə aşiq oldu, yanındakı qızlara dedi:

—Allah atamın könlünü rəhmə gətirsin. Kəbin kəsib məni bu igidə versin... Hayıf deyilmi bunun kimi igid heyvanların əlində həlak ola?

Zəncirlə buxovlanmış buğanı çəkib meydana gətirdilər. Buğa dizin-dizin çökdü, buynuzu ilə mərmər daşı yoğurdu, pendir kimi diddi. Beyrək sağına baxdı, soluna baxdı, dedi:

—Sarı donlu Selcan xatun koşkdən baxar, kimə baxsa eşqilə oda yaxar, sarı donlu qız eşqinə "hu"!

Beyrək "hu" deyib buğanın üstünə cumdu. Buğanın zəncirini açdılar, meydana buraxdılar, buğa buynuzlarını almaz cida kimi Beyrəyin üstünə sürdü.

Beyrək buğanın alnına bir elə yumruq vurdu ki, buğanı dalı üstünə çökdürdü, alnına yumruğunu dayadı, sürüdü, meydanın başına çıxardı, çox çarpışdılar, nə buğa yenər, nə Beyrək yenər. Buğanın ağzı köpükləndi. Beyrək buğanın onündən çəkildi. Buğa buynuzu üstünə yıxıldı, Beyrək onun quyruğundan tutub qaldırdı, üç kərə fırladıb yerə saldı. Buğanın sümükləri xurd-xəşil oldu. Beyrək buğanı basdı, boğazladı, bıçaq çıxarıb başını kəsdi, aparıb xaqanın önünə atdı.

Selcan xatun sevincək yerindən sıçradı. — Bu igidi gözüm gördü, könlüm sevdi, — dedi.

Xaqan:

—Heyvanların sərvəri aslandır, — dedi, onunla da oyun göstər.

Aslanı gətirdilər, aslan elə qışqırdı ki, meydanda nə qədər at vardısa, hamısı qan işədi.

Selcan xatun qızlara:

—Bu yazıq buğadan qurtuldu, aslandan necə qurtulacaq? — dedi:

Beyrək: — Sarı donlu qız eşqinə bir aslandan donərəmmi? — dedi.

Aslan sürdü gəldi. Beyrək gözətçilərdən birinin yapıncısını qapıb qoluna doladı, aslanın pəncəsinə verdi, sonra aslanın alnına bir yumruq vurdu, aslan səndələdi.

Beyrək onun belini üzdü, leşini xaqanın önünə atdı.

Selcan xatun qızlara:

—Vallah bu igidi gözüm gördü, könlüm sevdi, — dedi.

Xaqan dedi:

—Heyvanların padşahı dəvədir. Onunla da oyun oyna. Dəvəni gətirdilər. Beyrək fırladı dəvənin qoltuğuna girdi, fırladı çıxdı. İki heyvanla savaşmışdı, taqətdən düşüb, sərxoş kimi olmuşdu. Bacara bilmirdi. Altı cəllad Beyrəyin başının üstünü aldılar, yalın qılınclarını havaya qaldırdılar.

Dəvə Beyrəyi sıxışdırıb Selcan xatunun köşkünün altına gətirdi. Beyrək yıxıldı, aşağıdan yuxarıya baxanda gördü ki, Selcan xatun ona işarət edir. Selcan əyilib, pıçıltıyla Beyrəyə:

—İgid, — dedi, — bilməzmisən ki, dəvə burnundan zəbun olar? — Beyrək son gücünü toplayıb dəvənin burnundan yapışdı, dəvə bağırıb, ayaq üstündə durammadı, yıxıldı. Beyrək basıb onu iki yerdən boğazladı, dərisindən iki qayış çıxartdı, xaqanın önünə apardı.

Xaqan:

—Qızı bu igidə verdim — dedi. Despinə xatun:

—Üç heyvan öldürdüyü üçün bircə qızcığazımızı alsınmı — dedi?

Xaqan: — Bəli, — dedi. — Xaqan verdiyi sözün üstündən qaçmaz, həm də bu igid bizə qohum olsa, onu tez yola gətirərik. Sonra üzünü Beyrəyə tutdu:

—İgid, — dedi. — Selcan xatunu verdim sənə.

Beyrək:

—Mən sənin qızını istəmirəm, — dedi. —Mənim məqsədim yaxşı igidlərin canını sənin əjdahalarından qurtarmaq idi. Mənim öz elimizdə, göz açıb gördüyüm, konül verib sevdiyim adaxlım var.

Xaqan bu sözlərdən bərk qəzəbləndi.

—Aparın bu nankoru, yenə zindana salın, — dedi.

Gecə Beyrək zindanın bir guşəsində qısılıb uzanmışdı.

Birdən zindanın ağır qapıları ehtiyatla açıldı. İçəri cəngavər paltarı geymiş bir adam girdi.

Cəngavər qılıncını açıb divardan asdı, sonra paltarlarını bir-bir soyunmağa başladı — bu Selcan xatun idi. Selcan soyunub Beyrəyin yatağına girdi. Beyrək yerindən sıçradı. Selcanın qılıncını qapdı, siyırdı, qızla öz arasına qoydu.

Selcan:

—Qılıncını götür, igid, — dedi, — murad ver, murad al. Sarılaq.

Beyrək:

—Yox, xaqan qızı, — dedi. — Mənim həsrətim var. İki ildir, sənin atanın dustağıyam. Ataya, anaya, qohum, qardaşa, alagözlü yarıma həsrətəm.

Selcan:

—İgid, — dedi, — onlar uzaqda, mən yaxındayam. Onlar səni çoxdan unudub, nişanlın çoxdan ərə gedib. Al məni, sarılaq, qovuşaq, dadlı damaq verib soruşaq ala yorğan altda.

—Yer kimi yarılım, torpaq kimi sovrulum, qılıncıma doğranım, oxuma sancılım, oğlum olmasın, olsa da gün yaşamasın əgər mən atamın, anamın üzünü görmədən səninlə bu yatağa girərsəm.

Selcan xatun durub geyinməyə başladı.

—Yaxşı mən gedirəm, — dedi, — amma onu bil ki, sən ömürlük bu qalada dustaqsan. Heç bir vaxt atanın, ananın, yarının üzünü görməyəcəksən. Onlar uzaqda, mən yaxında, hər gecə yanına gələcəm.

—Mən də hər gecə aramıza qılınc qoyacam.

—Nolar? Görək kim kimə inad gələcək. Axır ki, bir gecə bu qılıncı qınından çıxarmayacaqsan.

***

...Tacirlərin karvanı yolları fərsəng-fərsəng udurdu...

***

Dədə Qorqud öz məzarının yanında oturub qopuz çalır, deyirdi:

—Tacirlərin özü yolda, Banıçiçəyin gözü yolda, Beyrək Parasarın Bayburd hasarında dustaq, sizə kimdən deyim Qazan oğlu Turaldan...

Qazılıq dağının yaşıl yamacına al-qırmızı lalə topaları

səpələnmişdi. 16-17 yaşlı Tural bu lələlikdən çiçək dərirdi. Tural ayın on dördünə bənzər alagözlü bir gəncdir. O, dərdiyi çiçəklərdən dəstə bağladı, yamacdan arana endi, söyüdlü bulağa tərəf addımladı.

Söyüdlü bulağın başına qızlar, gəlinlər toplaşırdı. Qızlardan bir neçəsi baş barmaqlarına ip bağlamışdılar, bir neçə kərə suyun üstündən tullandıqdan sonra ipi kəsib suya atırdılar. Bu onların ürəklərində tutduqları tez ərə getmək niyyəti ilə bağlı idi.

Beyrəyin kiçik bacısı Günel də bulaq başındaydı, amma o, başqa qızlardan kənarda qəmli-qəmli dayanmışdı, səhəngini suyla doldurmaq üçün növbə gözləyirdi. Boğazca Fatma ona yanaşdı.

—Günel, — dedi, — anan necədir?

Günel:

—Necə olacaq? Ağlamaqdan onun da gözləri atamın gözləri kimi tutulur, — dedi. Fatma koksünü ötürdü:

—Olacağa çarə yoxmuş. Görünür Beyrəyin alnına belə yazılıbmış — dedi, — bilirsənmi ki, bu payız Banıçiçəyin möhləti tamam olur. Qardaşı onu Yalıncığa ərə verir.

Günel dinmədi, amma doluxsundu, gözlərinin bıldır-bıldır yaşı rəvan oldu, üzünü kənara çevirib için-için ağladı.

Fatma bildi ki, qızın sızlar yerini bir də sızlatdı.

Uzaqdan gələn Turalı görüb sözünü dəyişdi:

—Ora baxsana, Günel, — dedi, — Qazan xanın oğlu Tural bəriyə gəlir. — Günel bu sözlərdən diksinmiş kimi oldu, çevrilib o da baxdı. Fatma bic-bic qımışıb:

—Ayrı vədə heç buralardan keçməz, — dedi. — Di gəl sən buraya gəldinmi, yolunu burdan salasıdır. Ay qız, sən də qızardın, yoxsa arada bir mətləb var. Düzünü de, mən belə işlərdə birçək ağartmışam. Daha niyə utanırsan, bir qız bir oğlanındır. İllah da ki, oğlan belə gözəl, göyçək növcavan ola, özü də Qazan xanın oğlu. Düzdür, heç atasına çəkməyib, atası kimi şaqqalı igid deyil, özü də qız kimi utancaqdır, amma hələ cavandır da, oğlancıqdır, nə bilir?

Günel səhəngini doldura-doldura Tural olan tərəfə boylanırdı. Boğazca Fatma da hey üyüdüb tökürdü:

—Getsənə, — dedi. — Yazığı çox gözlətmə...

Günel obalarına tərəf düzəldi. Tural ona yanaşdı.

—Salam, Günel, — dedi, lalə dəstəsini ona uzatdı.

Günel: — Nə gözəl lalələrdir! — dedi.

Tural: — Qızılıq dağının quzeyi bütün lalə içindədir, — dedi. — Dağ qıpqırmızı qızarıb, odur ora bax.

Günel döndü baxdı, amma dağa tərəf çevriləndə bərk-bərk yaşmaqlandı, sifətində bircə gözləri qaldı:

Tural dedi:

—Günel, sən niyə dağlara baxanda həmişə yaşmaqlanırsan, üzünü gizlədirsən? Günel xəfifcə gülümsündü:

—Bunu bizə anamız öyrədib, — dedi, — ona da nənəmiz öyüd verib. Deyirlər ki, Qızılıq dağı bizim — oğuz qızlarının, gəlinlərinin qayınatasıdır. Bu dağı görəndə gərək sifətimizi örtək.

Tural da gülümsündü. Sonra da bir müddət susdular. Turalın alnı puçur-puçur tərləmişdi. Ürəyində sözü vardı, demək istəyirdi, deyə bilmirdi. Gəlib lap Bayat obasına çatmışdılar. Birdən Tural:

—Günel, sənə bir sözüm var, — dedi, — istəyirəm ki, yüksək-yüksək dağların sənə yaylaq olsun. Günel, mən səni göz açıban görmüşəm, konül verib sevmişəm. İndi söz sənindir.

Günel:

—Ah Tural! — dedi. — Qoy mənə arsız gəlin deyincə, ərsiz qız desinlər, abırsız deyincə, bəxtiqara desinlər. Mən hara, ərə getmək hara? Mən də, bacılarım da əhd eləmişik, Beyrəyin ölüsünü, dirisini öz gözlərimizlə görməyincə bir igid sevər olsaq, ərə getsək, sarı ilan olub bizi çalsın.

Gəlib obaya çatdılar. Günel lalələri Turala qaytardı:

—İncimə Tural, — dedi, — lalələr çox gözəldir, amma mən bu çiçəklərlə yaslı-şivənli evimizə necə gedim, anamın, atamın, bacılarımın üzünə necə baxım? Günel çevrilib getdi. Tural qəmli-qəmli onun ardınca baxdı. Obadan xısın-xısın ağlaşma səsi gəlirdi.

...Yol kənarındakı daşın üstündə Bəybura oturmuşdu, kor gözləri yol çəkirdi.

***

...Qazan xanın divanında igidlər səf-səf əyləşmişdi, yeyib içirdilər. Qazan igidləri qürurla seyr edirdi, döndü sağa baxdı gülümsədi, sola göz gəzdirdi şadlandı:

—Bəs oğlum Tural hanı? — dedi.

Alp Aruz dedi:

—Bayaq onu Qazılıq dağının yamacında görüblər, çiçək dərirmiş. — O bunu gizli bir istehzayla dedi.

Qazan tutuldu:

—Tanrı mənə oğul verməyib, oğlan cildində qız verib, — dedi. — Elə bu zaman Tural içəri girdi, əlində lalə dəstəsi vardı. Qazan onu gördü, daha da qaş-qabağını tökdü. Bu heç kəsin gözündən yayınmadı. Tural da bunu duyub pərt oldu.

Dedi:

—Ağam Qazan, şad sevincək oturmuşdun, məni gördün qanın qaraldı, səbəb nədir, de mənə, qara başım qurban olsun, ağam sənə.

Qazan dedi:

—Oğul! Sağ əlimə baxdım qardaşım Qarabudağı gördüm, baş kəsibdir, qan tökübdür, ad çıxarıbdır. Sol əlimə baxdım Alp Aruzu gördüm, baş kəsib, qan tökub, ad qazanıb. Qarşıma baxdım səni gördüm, on altı yaş yaşladın, baş kəsmədin, qan tökmədin. Bu oturanlar hər biri oturduğu yeri, yediyi yeməyi, qılıncıyla, oxuyla alıblar. Sən divanıma haçan istəsən gəlirsən, igidləri basıb keçib harda istəyirsən otururs an, amma nə hünər göstərmisən?

Tural:

—Ata, — dedi, — dəvəcə böyümüşsən, köşəkcə ağlın yox. Təpəcə böyümüşsən, darıça beynin yox. Baş kəsib, qan tökmək hünərmidir?

—Oğul, iş qan tökməkdə deyil. İş ondadır ki, sən divanımda nə qapı tanıyırsan, nə baca, amma hələ heç bir igidlik göstərməmisən. Nə ov ovladın, nə quş quşladın, nə yay çəkdin, nə ox atdın. Odu, bax, əlində qılınc yox, gül-çiçək tutmusan. Bəs sabahkı gün mən düşəm öləm, taxt-tacımı sənə verməyəcəklər axı. Onu anıb, sonu anıb, dərd eləyirəm.

Tural:

—Yaxşı, ay ata, — dedi, — hünəri oğul atadanmı görər, öyrənər, yoxsa atalar oğuldanmı öyrənər? Sən haçan məni ova apardın, yay çəkmək, ox atmaq, qılınc oynatmaq öyrətdin?

Qazan əlini-əlinə çaldı, qəh-qəh çəkib güldü. Dedi:

—İgidlər, Tural yaxşı soylədi, şəkər yedi. Doğrudan da yata-yata yanımız ağrıdı, dura-dura belimiz qurudu. Mən bu oğlanı da gotürüb ova çıxım. Ov ovlayaq, quş quşlayaq, qayıdaq gələk sizinlə birlikdə yeyək, içək, xoş keçək.

Qarabudaq:

—Bəli, ağam Qazan, məsləhətdir, — dedi.

Əmən:

—Xan Qazan, məsləhətdir, — dedi.

Alp Aruz:

—Qazan məsləhətdir, — dedi, — amma doqquz tümən yolda Qıpçaq Məliyin ordusu durub, bəs yurdunu kimə tapşırıb gedirsən?

Qazan:

—Qıpçaq Məliyin hünəri nədir, mənim yurduma basqın edə, — dedi.

Alp Aruz: — Özün bilən yaxşıdır, — dedi.

Qazan:

—Mən bu oğlancığı aparıb cəng etdiyim, cida sındırdığım, qılınc oynatdığım yerləri göstərim. Sonra oğlana gərək olar! — dedi.

***

Qazanla oğlu Tural yaraqlandılar, atlarını çəkib mindilər.

Burla Xatun çadırdan çıxdı, "oğlancığımın ilk ovudur" — deyə ona xeyir-dua verdi, atının ardınca bir parç su atdı. Qazanla Turalın ardınca bir cüt göz də baxırdı — ədavətlə, kinlə, nifrətlə baxırdı — Alp Aruzun gözləri. Qazanla Tural gözdən itəndən sonra Alp Aruz igidlərə:

—İgidlər, — dedi, — bizə yaraşmaz ki, Qazan obasından çıxandan sonra onun divanında oturub, yeyək-içək. Gəlin biz də hərəmiz öz obamıza gedək. Qazanla oğlancığı ovdan qayıdanda onların pişvazına çıxarıq.

—İgidlər bu sözü bəyəndilər.

***

Alp Aruz xarabalıqda qara niqablı çaparla danışırdı.

—Atına quş qanadı tax. Yeddi ağac yolu yeddi göz qırpımında keç. Qıpçaq Məliyə xəbər apar. De ki, Qazanla oğlancığı Sürməlidə, Dərəşamda ovdadırlar. İkicəciyəzicə gediblər. Tədbirin görsün.. De ki, bir də belə fürsət ələ düşməz.

...Qara niqablı atlı yel kimi çapıb uzaqlaşdı.

***

...Qazanla Tural xeyli ov etmişdilər. Bir meşə qırağında, bulaq başında məskən salmışdılar, ocaq çatıb kabab çəkmişdilər.

...Qazanla Tural kabab yeyir, yeddillik şərab içirlər. Şərabın istisi Qazanın başına vurdu, gözünü yuxu aldı. Oğuz igidləri yatanda yeddi gün yatırdılar. Bəli, elə ki, Qazanın gözünü yuxu tutdu, Qazan dedi: — Oğul, mənim gözümü yuxu aldı. Mən bir az yatım, sən mənə pusqu ol! Qazan yuxuladı, xorultusundan dağ-daş lərzəyə gəldi, Tural atasının ətrafında gəzişirdi. Birdən onun qolunun üstündəki ov

şahini havaya qalxdı, uçdu. Meşənin qalın yerində bir ağacın üstünə endi. Sən demə, Qıpçaq Məlik bu yerdə bir qoruq qurdurubmuş. Qaz, toyuq, ceyran, dovşanı bu yerə yığıb tələ düzəldibmiş. Oğlancıqdır nə bilsin? Şahinin ardınca meşəyə tərəf getdi. "Atam durana qədər uçardan, qaçardan ovlayıb gətirim, atam oyanıb görsün, güvənsin, sevinsin, fərəhlənsin" — dedi, atlanıb meşəyə tərəf üz tutdu. Tural meşəyə girər-girməz dörd tərəfdən üstünə tor atdılar, altmış yaraqlı adam əl-qolunu, ağzını bağladılar. Boynuna, topuğuna buxov taxdılar. Ağ ətindən qan çıxınca döydülər, əli bağlı, boynu bağlı qabaqlarına qatıb apardılar. Tural dustaq oldu.

***

Qara donlu, göy dəmirli yağılar nagahandan yetdilər.

Qazan yatan yerə gəldilər. Qazan bərk yuxuda idi, xorultusu ərşi-gürşi tutmuşdu. Altmış adam qəfildən Qazanın üstünə düşdü, əlin ayağın bərk-bərk sarıdılar, Qazanı bir arabaya yüklədilər, iplə kip bağladılar. Qazan nəinki oyanmadı, heç qımıldanmadı da, xorultusuna ara da vermədi. Araba yola düzəldi.

***

Qazanın obasında hələ heç kəsin heç nədən xəbəri yoxdu. Qızlardan biri uzaqlardan qalxan tozu gorüb Burla xatuna dedi:

—Ceyran sürüsü keçir, gör necə toz qaldırıb.

Burla xatun onun göstərdiyi yerə baxıb həyəcanla dedi: — Ceyran tozu olsa, bir ya iki bölük olardı. Bu gələn, bilmiş olun, yağıdır.

Toz yayıldı, gün kimi işıldadı, dəniz kimi yayxandı, meşə kimi qaraldı. Altı min it üzəngili, geçə börklü, gecə ürəkli, quzğun üzlü, azğın sözlü düşmən süvarisi Qazanın obasına basqın elədi. Qazanın ağ ban evlərini, çadırlarını-çətirlərini çalıb çatdılar, qaza bənzər qızlarını, gəlinlərini çıqırışdırdılar. Tovla-tovla şahbaz atlarını mindilər. Qatar-qatar qızıl dəvələrini yeddilər. Ağır xəzinəsini, bol axçasını taladılar. Qırx incə belli qızla boyu uzun Burla xatun əsir getdi.

***

Qıpçaq Məlik:

—Qazanın belini qırdıq, — dedi.

Qıpçaq Məliyin atlılarından biri:

—Qazanda bir heyfimiz qaldı, — dedi.

—Nə heyfimiz qaldı?

—Oğuzların Dəmirqapı Dərbənddə on iki min qoyunu var. O

qoyunları da gətirsək Qazana ulu heyf edərik.

Qıpçaq Məlik:

—Altı yüz atlı getsin, o qoyunları gətirsin, — dedi.

Altı yüz atlı Dəmirqapı Dərbəndə tərəf getdi.

...Tural əli bağlı atlar qabağında gedirdi...

...Qırx incə belli qızın içində boyu uzun Burla xatun əsir gedirdi... ...Qazan arabada xoruldayırdı...

...Uca dağın bir zirvəsində Qaraca Çoban qayanın üstündə oturmuşdu. O, qəflətən uzaqlarda qalxan tozu gördü. Toz artdı, dünyanı tutdu, yaxınlaşdıqca yaxınlaşdı. Sanki qara səmum yelləri əsirdi, əsə-əsə uca dağa yaxınlaşdı. Qaraca Çoban atası Bəkilin yanına gəldi. Tamamilə taqətdən düşmüş Bəkil yatağında üzüquyulu qalmışdı.

Qaraca Çoban:

—Ata, — dedi, — ora bax, o dəniz kimi qaralıb gələn nədir? Od kimi işıldayıb, ulduz kimi parlayan nədir, ağız dildən bir kəlmə xəbər ver mənə. Qara başım qurban olsun, ata, sənə.

Bəkil yatağında dirsəklənib uzaqlara baxdı, bildi ki, gələn yağıdır. — Bəri gəl, aslanım oğul! — dedi, — dəniz kimi yayxanıb gələn yağıdır, oğul! — Yağı nəyə deyərlər, ata?

—Oğul, oğul, ay oğul. Yağı Qıpçaq Məlikdir. Onun oxcusu var, üç ox atar, biri yayınmaz. Onun hay demədən başlar kəsən cəlladı var. Adam ətindən qovurma bişirən aşpazı var. Yağı bizi yaman yerdə haqladı. Güclü belimin qüvvəsi oğul, bir gör axı nələr oldu, nələr gəldi mənim başıma. Yağı bilib ki, neçə vaxtdır oğuz igidlərindən aralanmışam, bilib ki, yıxılıb qıçımı sındırmışam, bilib ki, sən hələ bərkə-boşa düşməmisən, məni yalqız görüb üstümə qudurub oğul, dur dağımızın başında iki tonqal qala, oğuz igidləri bilib agah olsun. Özün də tez Qazan xanın yanına get, əlini öp, de ki, atam bükülüb əyilib, haldan düşüb. De ki, Qazan xan igidləri başına yığsın, əlbəttə və əlbəttə mənə yetişsin, gəlməz olsa, yağı yurdumuzu çapıb talayacaq, sürülərimizi aparacaq, elimizi ac-yalavac qoyacaq. Məmləkətimiz pozulub xarab olacaq.

Qaraca Çoban dedi: — Ata, nə soylərsən, nə deyərsən, bağrımla ürəyim nə dağlarsan. Tonqal qalayıb imdad dilədiyim yox. Qazan kimdir? Onun əlini opməyim yox. Özümə nə gəlib ki...

Gücümü, qüvvəmi saxlamışdım bu gün üçün, günü gəldi.

Qolumu, biləyimi saxlamışdım bu gün üçün, günü gəldi.

Aslan adımı saxlamışdım bu gün üçün, günü gəldi.

Bəkilin gözləri yaşardı: — Ölüm ağzın üçün oğul, — dedi, — ölüm dilin üçün oğul. Qoluna qüvvət!

Qaraca Çoban qoyunların yerləşdiyi ağılların qapısın bərkitdi, üç yerdə təpə kimi daş yığdı, ala qollu sapandını əlinə aldı. Altı yüz atlı gəlib çıxdı. Dedilər: — Hey Çoban! Qazan xanın elini-obasını çalıb-çapmışıq, ağır xəzinəsini aparırıq, bizimdir. Qırx incə belli qızla Burla xatunu aparırıq, bizimdir. Çoban sən də gəl bəri, baş endirib bağır bas, bizə müti ol.

Oğuz elinin qoyunlarını da qat qabağına gətir, səni öldürmərik, apararıq Qıpçaq Məliyin yanına, sənə bəylik verər, səni amiraxur eləyər.

Qaraca Çoban dağın başından səsləndi:

—Hərzə-mərzə söyləmə itim yağı, — dedi. — Mən kimsənin boyunduruğuna girmərəm. Gələcəyin varsa, görəcəyin də var.

Yağılar bu sözləri eşitdilər, at təpdilər, ox səpdilər. Qaraca Çoban sapandına iri-iri daşlar qoydu, atdı. Birini atanda yağının ikisini, üçünü yıxdı. İkisini atanda üçünü, dördünü yıxdı. Yağıların canına vəlvələ düşdü. Çobanın daşı tükəndi, qoyun, keçi deməz, sapandına qoyar, atar, yağıların dördün, beşin bir yerə yıxar. Gen dünya yağının başına dar oldu. Bu yandan da axşam düşdü, hava qaraldı, göz-gözü görməz oldu.

Qaraca Çoban bu səfər ağacdan oxlar yondu, ucuna əski bağladı, əskini odladı, yanar oxları gecənin zülmətində od yağmuru kimi yağıların başına yağdırdı. Yağılar qaranlıqda fısıl-fısıl söyləşdilər:

—Bu Çoban hamımızı qırıb qurtaracaq.

Cəhənnəm olsun özü də, qoyunları da, qaçaq, canımızı qurtaraq.

Durmayıb qaçdılar.

Amma Qaraca Çoban da yaralanmışdı, çaxmaq çəkib od qaladı, yapıncısından bir parça yandırdı, yarasına basdı, atasının yanına gəldi. Gördü ki, atası can verir. Demə düşmənin ötgün oxlarından biri çovuyub gəlib Bəkilə dəyib. Bəkil son gücünü yığıb danışırdı:

—Oğul, — deyirdi. — Uca dağımın yüksəyi oğul! Ananın südü, atanın çörəyi sənə halal olsun. Hünər göstərdin, qeyrət göstərdin. Amma sözümü dinlə, son sözümü heç vaxt yadından çıxarma. Nə qədər güclü olsan da, onu bil ki, tək əldən səs çıxmaz. El gücü — sel gücüdür. Mən bunu başa düşüb ölürəm, sən bunu başa düş yaşa, oğul! Sənə bu tonqalları vəsiyyət eləyirəm. Xoş gündə də, pis gündə

də onları qala, oğuz ellərinə xəbər elə, sevincini, dərdini elinlə bölüş.

Bəkilin son naləsi koksündən çıxdı, Qaraca Çoban onun göz qapaqlarını bağladı, hönkürüb ağladı, sızladı, fəryadı dağa-daşa düşdü, əks-səda verdi. Qaraca Çoban: — Qazan, ay Qazan! Haradasan, ay Qazan? Ölümüsən, dirimisən, bu işdən xəbərim yoxmudur? — deyirdi.

***

Araba dolama yollarla qalxanda birdən təkəri çıxdı.

Araba yan böyrü üstə əyildi, təkərlər çırıldadı, dayandı.

Birdən-birə Qazan sərmərdi, gözlərini açıb oyandı, gərnəşmək istədi, gördü əl-qolu bağlıdır, qəh-qəh çəkib güldü.

Onu müşayiət edən yaraqlı atlılardan biri:

—Nə gülürsən? — dedi.

Qazan daha da bərkdən güldü:

—Vallah, — dedi, — indicə elə xoş yuxu görürdüm ki. Görürdüm ki, körpə uşağam, beşikdəyəm. Demə bu arabanı beşiyim sanmışam. Sizi də yumru-matan dayəm bilmişəm.

Atlı:

—Yaxşı yatacaq yer tapmısan, — dedi, — qəribliyə gələn yatarmı, əbləh?

Qazan:

—Bəs siz nə qadasınız? — dedi.

—Biz Qıpçaq Məliyin ləşgəriyik.

—Belə de. Demək məni yatan yerdə tutdunuz?

—Bəli.

—Oğuz igidlərinə nə qəza gəlsə yuxudan gələr. Oyanmasaydım yeddi gün, yeddi gecə yatacaqdım. Yaxşı, bəs indi məni hara aparırsınız?

—Sənin qaraca başını Qıpçaq Məliyə ərməğan aparırıq.

Qazan bəy nə isə fikirləşib ora-bura boylandı:

—Yaxşı, bəs mənim oğlum vardı, o necə oldu? Atlılar cavab vermədilər, istehzayla baxışdılar.

Bayaqdan bəri xoş bir zarafatla danışan Qazan birdən qəzəbləndi:

—Namərdlər, neylədiniz mənim oğlancığımı? — dedi, — bu saat hamınızı qıraram.

Atlılar Qazanın bağlı ol-qoluna baxdılar, onun vəziyyətilə dediyi sözlərin uyuşmadığını lağa qoyub güldülər.

Qazan daha da hiddətlə:

—Oğlumun başından bircə tük də əskik olsa, hamınızı qıracam! — dedi. Atlılardan biri əyri-əyri qımışaraq:

—Sən öz başının qeydinə qal Qazan, — dedi. — Qıpçaq Məlik səpin başını oğlunun başının yanında asdıracaq.

—Nə? — deyə Qazan dəhşətli bir nərə çəkdi, bir an içində güc verib əl-qolunu bağlayan ipləri qırdı, göz qırpımında atlıların birini qamarlayıb atdan saldı, qılıncını çəkib aldı, onun atına sıçradı, o biri atlıların üstünə cumdu.

Atlılar özlərini itirdilər. Qazan ikisini də yerə sərdi, toppuzu qapdı, dördünçü bir atlının üstünə çapdı, yaxasından yapışıb: — Hanı mənim oğlum, — deyə bir də bağırdı — de, yoxsa boğazını quş boğazı kimi üzəcəm. Bənizi qaçmış, dili-dodağı əsim-əsim əsən atlı:

—A Qazan, başına dönüm, məni öldürmə, — dedi, — oğlun sağ-salamatdır.

—Bəs o hardadır? — deyə Qazan başqa bir atlının üstünə hücum çəkdi, bu atlı özünü itirmədi, tez bir yalan uydurdu:

—A xan, — dedi, — oğlan quş ürəkli olur. Bizi görüb qorxdu, qaçıb anasının yanına getdi.

Dərhal o biri atlılar da: — Bəli, dedilər, — bizi görən kimi elə götürüldü ki, izi-tozu qalmadı. — Qazan bu sözə inandı:

—Aman! — dedi. — Tanrım mənə bir kor oğul verib. Gedim onu anasının yanından alım, qılıncla parçalayım, altı bölük edib, altı yolun ayrıcında atım. Bir də kimsə yoldaşın dar ayaqda qoyub qaçmasın.

Qazan xan atını qamçıladı, bir qədər, aralanandan sonra dönüb atlılara dedi: — Qıpçaq Məliklə mənimki qalsın sonraya!

***

Qazan atını mahmızlayıb çapdı, dərələr, dağlar aşdı, gəlib yurduna çatdı.

Gördü ki, yurdu talanıb, çadırlar parçalanıb, ocaqlar söndürülüb, otlar, ağaclar yanıb kösöv olub, dörd bir tərəf at təpiyi altında tapdaq olub.

Bu halları gördükdə Qazanın qara qıyma gözləri qan-yaşla doldu, bağrı sarsıldı, ürəyi oynadı, dedi:

—Səni yağı nə yerdən daramış, gözəl yurdum? Qarıcıq anam oturanda yeri qalmış, igidlərin at çapanda meydan qalmış, qara mətbəx tikiləndə ocaq qalmış. Çalınıb—çapılmış, talanıb viran

qalmış yurdum, gözəl yurdum! Qazan Uca dağın ətəyinə gəldi, Qaraca Çobanı səslədi:

—Ehey, Çoban, — deyə çağırdı. — Çoban mənim evim burdan keçdimi, gördünmü, desənə mənə. Çoban dedi:

—Ölmüşmüydün, itmişmiydin, Qazan? Haralarda gəzirdin? Dünən yox, ötəki gün evin burdan keçdi. Boyu uca Burla xatun qırx incə belli qızla burdan keçdi!

Çoban belə decək Qazan ah elədi, ağlı başından çıxdı, dünya gözünə qaranlıq oldu.

Dedi: — Ağzın qurusun, Çoban! Dilin çürüsün Çoban!

Çoban dedi:

—Nə qarğıyırsan mənə, Qazan?! Altı yüz yağı üstümə gəldi. Üç yüzün öldürdüm, üç yerdən yaralandım, ağ saqqallı atamı öldürdülər. Yalqız qaldım, amma elin malından bircə qoyun yağılara vermədim. Bumudur mənim taqsırım?! Qonur atını mənə ver, qalxanını mənə ver, qara polad üz qılıncını mənə ver, gedim yağının üstünə, ölsəm atamın yolunda ölüm qanını alım, sənin də evini qurtarım.

Qazan:

—Artıq-əskik danışma, Çoban, — dedi, — özümə nə gəlib ki, mənim evimi sən qurtarasan?! Qazan atını qamçılayıb yola düzəldi.

Qaraca Çoban onun toz qaldırıb getdiyi dolama yollara baxdı, sonra özü də atlandı, Qazanın dalınca. Qazan onu görmədi. Amma gədiyi aşanda, Çoban birdən dayandı, geri döndü. Uca dağın zirvəsinə qalxdı, atasının vəsiyyət elədiyi kimi iki tonqal çatdı, çaxmaq daşıyla alışdırdı. Tonqallar alovlandı. Qaraca Çoban yenidən Qazanın ardınca çapdı.

***

Qıpçaq Məlik öz talvar-taxtında yeyir-içir, gözəllərlə əylənirdi. Aşağıda onun adamları oturmuşdular, əl-qolu bağlı Turalın üstünə yapıncı atıb eşik qapısının ağzında uzatmışdılar. Gəlib-gedən onu tapdayıb keçirdi.

Girən basdalayırdı, çıxan basdalayırdı.

Tural dişlərini qıcayıb dözürdü, ondan nə bir inilti, nə bir zırıltı çıxırdı. Qıpçaq Məlik şərabı başına çəkib piyaləni Turalın üstünə atdı. O, lap keflənmişdi, gözləri qıpqırmızı qan çanağı idi. Yarıçılpaq qızlardan biri onu qucaqladı, Qıpçaq Məlik onu itələdi, üzünü adamlarına tutub:

—Bilirmisiniz Qazana necə heyf eləmək gərək, — dedi. —

Qazanın arvadı Burla xatunu gətirin bax bura, mənim yanıma.

Tural bu sözləri eşidib yerində çabaladı, keşikçilərdən biri onun üz-gözünü qamçıladı.

***

Burla xatun qırx incə belli qızla zindanda idi. Burla xatun göz yaşları içində deyirdi:

—Hardasan Qazan, hardasan Tural? Bizim bu günümüzü bilməzmi olarsız? Hardasınız?

Zindançı zindana girdi:

—Hey, Qazan bəyin xatunu hansınızdır? — dedi.

Sükut çökdü. Burla xatun susurdu, tələşla gah zindançıya, gah qızlara baxırdı. Qızlardan biri:

—Mənəm, — dedi, — elə həmin andaca başqa bir qız: — Mənəm, — deyə səsləndi. Zindanın müxtəlif yerlərindən qırx qızın avazı ucaldı:

—Mənəm.

Zindançı mat-məəttəl qalmışdı. Qızlar get-gedə daha uca səslə:

—Mənəm, mənəm, — deyə qışqırırdılar. Onların çıqırtıları bütün zindanı tutmuşdu. Zindançı qulaqlarını tutub zindandan çıxdı.

Qıpçaq Məlik taxt-talvarında zindançını dinləyib pis-pis güldü: — Onda biz belə bir tədbir görərik, — dedi, —Qazanın oğlunu bura gətirin.

Turalı yerdən götürüb Qıpçaq Məliyin hüzuruna qaldırdılar. Qıpçaq Məlik kirpiksiz gözləriylə düz onun ala gözlərini içinə baxıb dedi:

—Qazan oğlu Tural, eşit və bil! Səni cəzayla öldürəcəm, dartıb çəngələ çəkdirəcəm, asdıracam, sonra ağ ətindən qıyma-qıyma doğrayıb qara qovurma bişirdəcəm. Qovurmanı qırx qızın qabağına qoyduracam. Hər kim yedi o deyil, hər kim yemədi, odur sənin anan. Onu bura gətirəcəm, döşəyimə salacam.

Tural yerində çabaladı, dörd tərəfdən onu tutan adamlar ipləri daha da bərk dartdılar, oğlanın qolları-qıçları al-qana bulaşdı.

Qıpçaq Məlik:

—Amma səni öldürməyə də bilərəm. Göndərim səni zindana, özün ananı başa sal ki, gizlənməsin, üzə çıxsın.

***

Turalı gətirib zindanın qapısından atdılar.

Burla xatun qanına qəltan olmuş oğlunu görüb çığırmaq istədi,

Tural dərhal üzünü əks tərəfə çevirdi, bu biri tərəfdə dayanan qadına baxıb:

—Ana, məbadə özünü bildirəsən, — dedi.

Burla xatun qızlara qarışdı, gizləndi.

Tural danışmağa başladı. Danışdıqca o bir-bir qızlara-qadınlara müraciət edirdi, belə ki, onun sözünü kimə dediyi məlum olmasın. Burla xatun və başqa qadınlar onu göz yaşları içində, dərin həyəcanla dinləyirdilər. Tural deyirdi:

—Ana, ay ana, bilirmisən nələr oldu? Yağılar pis danışdılar. Dedilər ki, Turalı çəngələ sancın, qıyma-qıyma ağ ətindən qovurma bişirin, qırx qadına gətirin, kim yemədi, bilin ki, Qazanın xatunu odur, çəkin yanımıza gətirin.

Burla xatun dəhşətlə qışqırdı, amma dərhal o biri qızlar da qışqırdılar, ağlamağa başladılar.

Tural yenə də müxtəlif qadınlara müraciət edə-edə:

—Ağlama, ana, — dedi. — Bunu sənə dedim ki, məbadə özünü bildirəsən. Mənim üzərimə gəlməyəsən, mənim üçün ağlamayasan. Qoy mənim ətimi qovurma eləsinlər, hamı bir yesə, sən iki ye, təki səni bilməsinlər, duymasınlar. Ta ki, atam Qazanın namusunu sındırmayasan. Burla xatun və qırx qadın hönkürüb ağladılar, al yanaqlarını dartdılar, yırtdılar, qara saçlarını yoldular. Burla xatun:

—Oğul, oğul, — deyən kimi qızlar, qadınlar da "oğul, oğul" deyib zar-zar ağlaşdılar. Qızlar, qadınlar Turala ağı deyirdilər, hərəsi ağının bir bəndini deyirdi və Qıpçaq Məliyin adamları da hər dəfə növbəti ağı deyəni Burla xatun bilirdi. Burla xatun da ağlaşmalar içində öz müsibətinə ağlamağa imkan tapmışdı. Tural üçün qırx qadın ağlayırdı, sanasan ki, onun qırx anası var, — bircəcik əsl anasının hönkürtülərini öz hönkürtüləri içində gizlədən qırx ana! Qadınlar hamısı Turalı oxşayırdı, Burla xatun da onların içində:

Oğul, oğul, ay oğul!
Evimin-eşiyimin dirəyi oğul.
Qızımın, gəlinimin çiçəyi oğul.
Doqquz ay dar qarnımda gəzdirdiyim oğul.
Tovlama beşikdə bəslədiyim oğul!

Tural qırx qadına müraciətlə:

—Qadın anam! — dedi, — nə ağlarsan, nə bozlarsan? Bağrımla ürəyimi nə dağlarsan? Keçmiş mənim günümü nə andırarsan. Hey

ana! Ərəbi atlar olan yerdə, bir qulunu olmazmı olur? Qızıl dəvə olan yerdə, bir köşəyi olmazmı olur? Ağca qoyunlar olan yerdə, bir quzucuğu olmazmı olur? Sən sağ ol, atam sağ olsun. Bir mənim kimi oğlan tapılmazmı olur?

Qadınlar yenə hönkürdü. Tural üzünü yağılara tutdu:

—Son dəfə anamın üzünü gördüm, ürəyimdə həsrətim qalmadı. İndi aparın, çəkin məni çəngələ.

Onlar heç nə başa düşməyib: — Bəs hansıdır anan?

Tural:

—Hamısı — dedi.

***

...Qazan atını dördnala çapa-çapa gəlirdi...

...Ondan çox aralı, amma onun ardınca düşmüş Qaraca Çoban çapa-çapa gəlirdi...

...Uca dağın başında iki tonqal yanırdı.

Hardasa çox uzaqda, başqa bir dağın zirvəsində də iki tonqal yanırdı. Hardasa çox uzaqda bir dağın zirvəsində də iki tonqal alovlandı. — Uca dağdan gələn xəbər başqa yerə də çatmışdı.

***

Qıpçaq Məliyin düşərgəsində qaba govdəli, qollu-budaqlı bir ağac vardı, cəllad kəndiri bu ağacın yoğun budağından keçirdi, bərk-bərk düyünlədi. Başqa bir cəllad əli-qolu bağlı Turalı dar ağacının altına gətirdi.

Tural dedi:

—Barı son nəfəsdə qopuzumu gətirin, çalım. Qıpçaq Məlik rüsxət verdi, qopuzunu gətirdilər.

Tural qopuzu aldı, opdü, gözünün üstünə qoydu, sonra sinəsinə basıb çalmağa, oxumağa başladı:

Yəhəri boş qalıb kişnəyəndə atıma yazıq!
Oğul deyib sızlayanda anama, atama yazıq!
İtik qardaşıyla, itik yarına ağlayanda
Günelimə yazıq!
Dünyadan usanmadım,
cavanlıqdan doymadım, özümə yazıq!

Talvar-taxtında qulaq asan Qıpçaq Məlik qəh-qəh çəkdi, adamları da güldülər. Zindanın pəncərəsindən boylanan qadınlar zar-zar ağladılar.

***

...İndi neçə-neçə uzaq-uzaq dağların başında qoşa-qoşa tonqallar alovlanırdı. Bütün elə xəbər çatmışdı... Qonur atının yalmanına yata-yata çapan Qazan birdən yüyəni dartdı. O, Qıpçaq Məliyin düşərgəsinin yaxın mənzilinə çatmışdı. Qazan o yan-bu yana baxdı, yaraq-yasağını rahatladı. Qazan ora-bura göz gəzdirəndə gəldiyi yolda bir tozanaq gördü. Diqqət elədi, gəlib yetən çaparı tanıdı — bu Qaraca Çoban idi.

Qazan dedi:

—Çoban, sən niyə gəldin?

Çoban:

—Gəldim sənə arxa olam, — dedi.

Qazan:

—Çoban, bayaq dedim ki, sən sözünün yerini bilmirsən.

Sən kimsən ki, mənə, Qazan xana arxa olasan? İstəyirsən igidlər toyda, yasda danışsınlar ki, Qazan evini qurtara bilmədi, köməyinə Çoban gəldi. Düş görüm atdan.

Çoban bir az pərt oldu, amma Qazan xanın üzünə ağ olmadı, atdan düşdü.

Qazan:

—Gəl görüm bu ağacın altına, — dedi. Örkəni atıb Çobanı möhkəmcə yoğun gövdəli ağaca sarıdı.

Çoban:

—Belə niyə etdin, a Qazan, — dedi.

Qazan:

—Yağı mənim evimə basqın edib, yağıyla tək vuruşacam. Yağını bassam, düşmənimi sındırsam əl-qolunu açacam. Yox, ölər olsam, sən də qal burada, qurd-quşa yem ol! Onda bilərsən ki, izinsiz başqasının yağısına girmək bizim eldə eyib işdir.

Qazan atına sıçrayıb irəli getdi.

...Cəllad kəndiri Turalın boynuna keçirtdi.

Qıpçaq Məlik işarə verdi, cəllad Turalın qopuzunu aldı, yerə çırpdı, qopuz çilik-çilik oldu. Cəllad ipi dartdı, Tural havaya qalxdı.

Zindan pəncərəsindən baxan Burla xatun: — Oğul, Tural, — deyə bağırdı. Qıpçaq Məlik və adamları onu görüb bildilər, yağlı-yağlı baxışdılar. Elə həmin andaca ağacın budağı sındı, Tural yerə düşdü.

O sağ qalmışdı. Qıpçaq Məlik qışqırdı:

—Qazanın arvadı Burla xatun o uca boylu qadındır.

Tez onu yanıma gətirin. — Sonra Turalı cəllada göstərib:

Bunun da boynunu qılıncla vur, işi uzatma, — dedi.

Cəllad qılıncını qaldırdı, endirmək istədi.

Birdən əlinə vıy-vıy vıyıldayıb gələn bir ox sancıldı, qılıncı yerə düşdü. ...Təpə başında at belində durmuş Qazan yayını ikinci dəfə çəkdi, cəlladı yerə sərdi. Yağılar dönüb Qazanı gördülər, hürkdülər. Kimi atına minər, kimi qılıncını taxar, kimi dəmir libasını geyər.

Qıpçaq Məlik talvarında vurnuxmağa başladı. Onun atını talvarın qabağına çəkdilər, mindi.

Qazan qışqırdı:

—Hey, Qıpçaq Məlik! Müxənnət oğlu, müxənnət! İndi sənə namərdliyin aqibətin göstərərəm. Ərsənsə meydana çıx, sənə can dadlısın göstərim, qan qusdurum.

Mən sənin ordunun üstünə tək gəlmişəm. İndi sən mənim qabağıma çıxmasan, qoy sənin bütün ordun bilsin ki, sən kişi deyilsən, quş ürəkli arvadsan. Başına ləçək bağla, qurumsaq.

Qıpçaq Məliyin adamları gözlərini ona zilləmişdilər, onun cavabını gözləyirdilər. Qıpçaq Məlik özünü sındırmadı, yaraqlandı, yasaqlandı, atını düz Qazanın üstünə sürdü.

Qazan ox atdı, Qıpçaq Məlik oxdan yayındı.

Qıpçaq Məlik ox atdı, Qazan yana çəkildi, ox çovuyub getdi.

Gürzlə vuruşdular. Qılıncla çarpışdılar, bir-birini yıxammadılar. Ağaca bağlanmış Qaraca Çoban bu döyüşə qıraqdan baxırdı.

Qıpçaq Məliyin adamları da başçılarının savaşına baxır, yaraqlı-yasaqlı hazır dururdular.

***

...İndi bütün Oğuz elində hündür yerlərdə qoşa-qoşa tonqallar alovlanırdı. Qəziyyəni eşidən igidlər müxtəlif tərəflərdən çapıb gəlirdilər. Amma onlar hələ Qazanın Qıpçaq Məliklə cəng etdiyi yerlərdən çox-çox uzaqlarda idilər.

***

Qazan bir zərbə vurub Qıpçaq Məliyi atdan saldı, qılıncını sıyırıb onun üstünə atıldı. Qıpçaq Məlik səndələdi, az qala yıxılacaqdı, ancaq elə bu dəm düşərgədən atılan ox Qazanın göz qapaqına toxundu, qanı axdı, gözlərini tutdu. Qazan heç nə görmədi. Qıpçaq Məlik fürsətdən istifadə edib toppuzu onun başına endirdi, ağ üzünü qara yerə sərdi, ağzıyla burnundan qan şorlatdı, Qazanın qılıncı əlindən düşdü. Qazan yerə sərildi, huşunu itirdi, yağılar hər tərəfdən Qazana tərəf qaçışdılar. Qıpçaq Məlik qara polad üz qılıncını sıyırdı.

...Qaraca Çoban Qazanın aqibətini görürdü, amma o ağaca sarılı qalmışdı. Nə edəydi? Qaraca Çoban həmlə edirdi, örkəni qıra bilmirdi, amma qaba gövdəli ağacı əsdirirdi. Nəhayət, Qıpçaq Məliyin adamları yerə sərilmiş Qazana tərəf qaçışanda, Qıpçaq Məlik qılıncını sıyıranda Qaraca Çobana güc gəlib ağacı köklü-köməcli yerindən qopardı.

Qazana tərəf qaçışanlar birdən diksinib dayandılar, hürküb qorxu içində addım-addım geri çəkilməyə başladılar — onların üstünə qollu-budaqlı, nəhəng bir ağac gəlirdi.

Ağacın budaqları, yarpaqları arasından onun gövdəsinə bərk-bərk bağlanmış Qaraca Çoban görünmürdü və onlara elə gəlirdi ki, yeriyən ağac özüdür. Qıpçaq Məlik isə hələ addımlayan ağacı görməmişdi. O, tayfasının adətinə görə yerə sərilmiş düşməninin cəsədi üstündə yalın qılıncla atılıb düşür, vəhşi bir hava oxuyurdu. Nəhayət, Qıpçaq Məlik rəqsini qurtardı, qılıncını Qazanın düz alnına tuşladı, zərbəni endirdiyi an ağacın budağı ona çırpılıb Qıpçaq Məliyi döyəclədi. Bu insanla ağacın qəribə təkbətək döyüşü idi. Qıpçaq Məlik birtəhər atının belinə sıçradı, düşərgəsinə çəkildi.

Qaraca Çoban bağlandığı ağacla birgə yaralı Qazanın başı üstündə dayandı. Bayağdan bəri gün altında sərələnmiş Qazan indi birdən-birə ağac gölgəsində uzanmış oldu. Çoban hələ də aqaca sarılıydı və ağacla birlikdə Qazanın keşiyində durmuşdu. Yüngül meh ağacın yarpaqlarını tərpədirdi.

***

...Oğuz igidləri çapırdılar.

***

Qıpçaq Məliyin adamları oxlarının ucuna əskilər bağlayıb ağacı oxlamağa başladılar. Ağacın budaqları alışdı, alov yavaş-yavaş ağacın gövdəsinə, Qaraca Çobana yaxınlaşdı.

Eyni zamanda, dörd tərəfdən nizəli, yalın qılınclı atlılar da ağacı, Çobanı, Qazanı dövrəyə almışdılar, yavaş-yavaş mühasirə dairəsini daraldır, yaxınlaşır, sıxlaşırdılar. Qaraca Çoban ağacı hərlədib düşmənləri beş-beş, on-on yerə sərirdi. Amma özü də alışıb-yanırdı.

Uzaqdan at kişnərtisi, igid nərəsi eşidildi. Oğuz igidləri çapıb yetişdilər.

Qarabudaq sağdan təpdi. Dondar soldan təpdi. Qılınclar çalındı, oxlar atıldı, nizələr parladı, altı pərli gürzlər endirildi. Yağı pərən-pərən oldu. Sanasan ki, dar yolda dolu düşdü. Dərələrdə, təpələrdə

yağıya qırğın girdi, leşinə quzğun daraşdı. Əli-qolu açılmış Qaraca Çoban atını düz Qıpçaq Məliyin üstünə sürdü. Çoban ağacın bir budağını qoparıb çomaq eləmişdi. Qıpçaq Məlik hasarın qapısından içəri, düşərgəsinə girərkən Qaraca Çoban onun təpəsindən çomağını elə endirdi ki, Qıpçaq Məliyin başı top kimi yerə düşdü. Yağılar zəbun oldu. Oğuz igidləri qaçanı qovmadılar. Aman deyəni öldürmədilər.

Düşərgəyə girdilər. Turalı, qırx incəbelli qızla Burla xatunu əsirlikdən qurtardılar. Öz yurdlarına yola düzəldilər.

***

...Başı-gözü sarıqlı Qazan atının belində dik oturmuşdu. Oğlu Tural da yanında idi.

—Oğul, Tural, — dedi, — gördünmü bu dünyada baş kəsmədən, qan tökmədən keçinmək olmur. İndi bildinmi mənim sözümün haqq olduğunu?

Tural:

—Yox, əziz ata, — dedi, — indi onu bildim ki, bu dünyada baş kəsməkdən, qan tökməkdən, zalımlıqdan pis şey yox imiş! — Qazan qəzəblə qaşlarını çatdı, bir söz demədi, üzünü sol yanında çapan qardaşı Qarabudağa tutdu: — Qarabudaq, — dedi, — bəs heç dayım Aruz gözümə dəymir?

Qarabudaq:

—Xəbər göndərmişdik, deyib ki, ovda yıxılıb qıçımı sındırmışam, gələ bilmərəm. Gəlib Uca dağın ətəyinə çatdılar. Qazan Qaraca Çobana dedi:

—Çoban, qalx dağın başına, tonqallardan birini söndür, biri qalsın, toy-düyün tonqalı, şadlıq tonqalı. Bütün igidlər məclisimə yığışsın, bayram edək. Dədə Qorqud gəlsin boy boylasın, söz söyləsin, oğuznamə düzsün.

Çoban atının başını çəkdi, dağın zirvəsinə tərəf yollandı. Uca dağın başındakı tonqallardan biri sondü, biri qaldı. Başqa dağda tonqallardan biri sondü, biri qaldı. Hər dağın başında indi bircə tonqal alovlanırdı — bayram tonqalı.

Bu tonqallara öz obasından sonsuz nifrətlə baxan Alp Aruzun bığlarından qan damırdı.

Qazanın Qılbaş adlı bir dostu vardı.

Dünya görmüş, işə yarar adam idi. Qılbaş becid çapıb Alp Aruzun yanına gəldi.

—Aruz, — dedi, — şadlıq tonqalı yanır, görməzmisən. Bəs nə səbəbdən Qazanın divanına şadlığa gəlmirsən?

Alp Aruz qəzəbini güclə boğaraq: — Hazırlaşırdım indicə gələcəkdim, — dedi.

Qılbaş:

—Bilirsənmi, bayramımız yasa döndü, — dedi. — Qıpçaq Məliyi təzəcə zəbun etmişdik ki, o yandan Şöklü Məlik üstümüzə hücum çəkdi. Qazanın evin-günün çapıb taladı, qızını, gəlinini əsir apardı. Qazanın yaraları sağalmamış, onu qılıncladı, yerə vurdu. Qazan ölüm ayağında məni sənin yanına göndərdi, dedi ki, dayım Aruz gəlsin, mənə kömək olsun.

Aruzun sevincindən gözləri parladı:

—Deməli işlər belə imiş! — dedi. — Qılbaş! Qazan yaxşı günündə özünə vəzir seçəndə, malını-dövlətini paylayanda dayısı Aruzu saymadı. İndi yaman günündə nə mədət diləyir?

Qoy həmişə Qazanın başı bəlalı olsun. Mən Qazana düşmənəm, bu gündən açıq düşmənəm, bunu bilsin — Alp Aruz əllərini göyə qaldırdı. — Şükür sənə ulu tanrım, axır ki, hayıfımı Qazanda qoymadın. Bu yaradan Qazan çətin sağala. Aruz məmnun-məmnun çadırında var-gəl edir, əlini-əlinə sürtürdü. Qılbaş astaca çadırdan çıxdı, atının belinə sıçradı, qamçısını qaldırdı və yalnız bundan sonra Aruzu səslədi:

—Hey Aruz, — dedi, sarsaq qoca! Qazan sağ-salamatdır, kefi kök, damağı çağdır. Nə üstünə yağı gəlib, nə də yaralanıb. Üç yüz altmış altı igid başına yığılıb. Yeyib-içir, xoş keçirlər. Yemək-içmək arasında igidlər səni andı. Mən dedim ki, gedib səhih xəbər bilərəm. Mən sənin dostluğunu, düşmənliyini sınayırdım. Qazana düşmənsənmiş bildim... Xoş qal! — deyə qamçını atına çəkdi, çapıb getdi. Aruz ardınca baxa-baxa qaldı. Bığlarından qan dammağa başladı.

***

Tacirlərin karvanı hələ də yollarda idi.

***

Parasarın Bayburd hasarında Beyrək əvvəlki kimi zindandaydı. Hər gecə Selcan cəngavər paltarında onun yanına gəlib paltarını soyunur, qılıncını divardan asırdı. Hər gecə də Beyrək qılıncı divardan götürüb sıyırır, çılpaq qızla öz arasına qoyurdu.

Necə gecə belə keçdi, necə gün, neçə ay belə keçdi. Bəlkə bu

gecə səma həmişəkindən uzaq idi, payız küləyi həmişəkindən iniltili, üzüntülü idi. Bu gecə Selcan cəngavər paltarında gəldi, soyundu, qılıncı divardan asdı.

Amma bu gecə Beyrəyin əli divardakı qılınca uzanmadı.

Qılınc bütün gecəni öz qınındaca asılı qaldı.

...Səhər açılanda Selcan artıq yox idi. Amma zindanın qapısı taybatay açıq idi. Beyrək durub qapının ağzına gəldi. Gözətçi yox idi. Beyrək zindandan qalanın içinə çıxdı. Gəzə-gəzə ağça bürclü hasara yanaşdı, uzaqdan hasarın darvazasını gördü, onun qarşısına gəldi. Darvaza açıq idi. Nizəli keşikçilər nizələrini kənara çəkdilər.

Beyrək əvvəlcə təəccüb elədi, sonra yavaş-yavaş darvazadan keçdi. Hasardan dişarıya çıxdı. Bura açıqlıq idi, çöl idi, burada o azad idi. Beyrək öz azadlığına inanmırdı, o dörd tərəfinə baxdı, sonra bir cüt gözün ona zilləndiyini hiss etdi, başını qaldırdı: hasarın üstündən, Ağça bürcdən Selcan ona baxırdı. Zindanın qapılarını, darvazalarını Beyrəyə o açdırmışdı. Bilirdi ki, Beyrək daha heç yerə getməyəcək. Beyrək çevrilib darvazadan içəri, hasarın daxilinə girdi.

***

...Tacirlər yol gedirdi.

...Parasarın Bayburd hasarında Beyrək qalanın içində dolaşır, bürclərin mazqalların yanından keçir, yerli camaata salam verib, salam alırdı, o artıq burda mərhəm olmuşdu. Qolu, dizi kəsik paltarlarını — qəriblik əlamətini də çıxarıb adicə paltar geymişdi. Amma üç gündən bir, beş gündən bir Beyrək aşılmaz, düşülməz hasarın ən uca Ağca bürcünə qalxır, oradan həsrətlə, intizarla, kədərlə uzaqlara, itirilmiş yurduna baxırdı.

Bir gün Beyrək yenə də gəzə-gəzə hasardan dişarı çıxdı, qalanın dibində bir daş vardı, o daşın üstündə oturdu. Şuşadakı "Ərimgəldi" qayasını xatırladan bu yerdən dolama yollar görünürdü. İndi bu yolla ağır-ağır bir karvan qalxırdı. Karvan gəlib Beyrək olan yerə çatdı. Bu haman o tacirlərin karvanı idi. Amma nə onlar Beyrəyi tanıdılar, nə da Beyrək onları — gör bir aradan neçə il keçmişdi!

Salamlaşdılar. Beyrək:

—Nə yerlərdən gəlirsiniz, tacirlər, — dedi.

Tacirlər:

—Oğuz ellərindən gəlirik, — dedilər. Beyrək sarsıldığını gizlətmək üçün, üzünü yana çevirdi, sonra özünü ələ alıb soruşdu:

—Oğuz ellərində Salur Qazanı sorur olsam, sağmıdır?

Qarabudağı, Dondarı, Əməni, Qaraca Çobanı sorur olsam, sağmıdılar? Bəyburanın arvadını, qızlarını sorur olsam, sağmıdılar? Bəybecan qızı Banıçiçək evdəmi, yoxsa gordamı?

Qoca tacir:

—Salur Qazanı, igidləri sorur olsan, sağdılar, Bəyburanı, arvadını, qızlarını sorur olsan, sağdılar, ağ çıxarıb qara geydilər Beyrək üçün. Banıçiçəyi yeddi yol ayrıcında ağlar gördük. Beyrəyim, deyib sızlar gördük. İgid, olmaya sən də Oğuzdan olasan, olmaya Bəybura oğlu Bamsı Beyrəyin sorağın eşitmisən.

Beyrək:

—Yox tacirlər, — dedi. — Mən Oğuzdan deyiləm, Beyrəyi də görməmişəm. Mən yurdsuz-yuvasız bir yolçuyam.

Amma geri dönəndə Oğuz elinə çatanda Beyrəyin ağ saqqallı atasına, ağ birçəkli anasına, bacılarına, bir də Bəybecan qızı Banıçiçəyə deyin ki, daha Beyrəyi gözləməsinlər, daha Beyrək gəlməz oldu. Atası ayğır atın boğazlayıb aşın versin, anası-bacıları qara geyib göy sarısınlar, Beyrəyin axır yasını tutsun, yad qızı nişanlısına rüsxət versinlər, gözü kimi tutarsa, könlü kimi sevərsə, ona getsin, Beyrək gedər-gəlməzə gedibmiş, deyin...

Qoca tacir: — yazıq Beyrək, — dedi. — Qürbət eldə can verən Beyrək. — Sonra xurcunundan bağlama çıxarıb Beyrəyə verdi.

—Yolçu, — dedi, — birdən yolun düşdü, Beyrəyin məzarına rast gəldin. Onda bax bunu ora atarsan. Bu bizim torpaqdır, Biz tacirlərin ömrü qürbət ellərdə keçir, torpağımızı torbada daşıyırıq ki, işdi, birdən yad yerdə düşüb ölsək, qəbrimizin üstünə öz torpağımızdan bir ovuc atılsın. Al bunu, salamat qal.

Karvan uzaqlaşıb getdi. Beyrək uzun-uzun karvanın dalınca baxdı, sonra torpaq bükülü dəsmalı açdı. Üzunu ovcundakı torpağa qoyub iylədi, bayıldı, yavaşcadan:

—Yovşan iyi, — dedi və birdən anladı ki, daha burada qala bilməyəcək. Yerindən sıçradı, dəli kimi qaçmağa başladı.

Yamaclardan, qayalardan, yarğanlardan atıldı. Hasarın üstündən, Ağca bürcdən Selcan xatun Beyrəyin qaçdığını gördü, yaralı quş kimi çırpındı, hasardan pırlayıb uçmağ istədi. Keşikçiləri səsləyib əmr etmək istədi ki, Beyrəyi qovub tutsunlar, qaytarsınlar. Amma birdən-birə o da başa düşdü ki, hər şey əbəsdir, Beyrəyi daha qaytarmaq olmayacaq. Selcan xatun sonsuz həsrətlə, ağrıyla uzaqlaşıb gözdən itən Beyrəyin ardınca baxırdı.

***

Beyrək qaçıb dərənin çalovuna çatdı, o yan-bu yana boylandı. Yarımaqaç məsafədə bir ilxı gördü. Bu zaman ilxıdan bir at aralanıb ona tərəf qaçdı. Beyrək baxıb Boz ayğırını tanıdı. Beyrək dustaq olandan Boz ayğır da sahibinin iyini tutub bura gəlmişdi, Qara Arslanın ilxısına qoşulub könüllü "dustaq" olmuşdu. Boz ayğır uzaqdan Beyrəyin iyini almışdı, qaçıb yaxına gəldi, iki ayağının üzərinə qalxıb kişnədi. At başını yuxarı tutdu, bir qulağını qaldırdı, Beyrəyin qarşısında durdu, Beyrək atın köksünü qucaqladı. İki gözlərindən öpdü, sıçradı, mindi. — At demərəm sənə, qardaş deyərəm, qardaşımdan da yaxın, yoldaş deyərəm, yoldaşım, çap məni yurdumuza apar, — dedi. Yel kimi yerlərindən qopdular.

***

Qalada Beyrəyin qaçdığını xəbər tutdular, yaraqlandılar, atlandılar, Beyrəyi qovmaq istədilər, darvazaya tərəf gələndə Selcan xatun hasarın üstündəki kəndiri dartdı, darvaza bağlandı, atlılar içəridə qaldılar.

***

Beyrək isə Boz ayğırın belində neçə gün neçə gecə çapıb gəldi. Oğuz elinə çıxdı. İlk rastına çıxan ozan oldu.

Beyrək ozana dedi:

—Ozan, obadan-obaya gəzərsən, ər comərdin ər nakəsin bilərsən. Elimizdə həmişə çalıb oxuyan Ozan olsun!

Ozan:

—Sağ ol, igid, — dedi, — sənin də ömrün xoş, alnın açıq olsun. Azıb gələn qadan başından sovuşsun!

Beyrək ozana dedi:

—Ozan, — dedi, — nə yerə gedirsən?

Ozan: — İgid, — dedi, — toya-düyünə gedirəm.

—Toy kimindir?

—Yartacaq oğlu Yalıncığ Bamsı Beyrəyin adaxlısı Banıçiçəyi alır.

—Yalıncıq?

—Bəli. — Ozan əhvalatı Beyrəyə danışdı.

Beyrək:

—Ozan, — dedi, — qopuzunu mənə ver. Atımı sənə girov qoyuram. Saxla, gələrəm bahasını verərəm, atımı apararam.

Ozan: — Olsun, — dedi, — səsim boğulmadan, avazım

kəsilmədən, bir atdır əlimə düşdü.

Ozan qopuzu verdi, Beyrək yoluna davam etdi.

Uca dağın ətəyinə çatanda gördü Qaraca Çoban yolun qırağına xeyli daş toplayıb, yenə yığır. Beyrək onu tanıdı, amma Qaraca Çoban Beyrəyi tanımadı.

Beyrək:

—Çoban — dedi, — bir adam yolda daş görsə, kənara atar.

Son daşları bu yola niyə yığırsan?

Qaraca Çoban:

—Sən səni bilirsən, — dedi — mənim halımdan nə xəbərin var? — Nədir ki, halın?

—Mənim Bamsı Beyrək adlı bir dostum vardı. Neçə ildir ölüsü-dirisi xəbərin kimsə bilməz. Yarıtmasın onu Yartacaq oğlu Yalıncıq Beyrəyin ölüm xəbərini gətirdi. Beyrəyin adaxlısını ona verər oldular. Gəlib burdan keçəcəklər, bu daşları yığmışam ki, onu vurum. Banıçiçəkdən əl çəksin, getsin tayını-tuşunu tapsın.

Beyrək:

—Üzün ağ olsun Çoban, — dedi, — Beyrəklə kəsdiyin çörək sənə halal olsun.

***

Beyrək ordan ötüb öz obalarının — Bayat obasının qırağına, Soyüdlü bulağın başına gəldi. Gördü ki, kiçik bacısı Günel bulaq yanındadır. Su aparmağa gəlib.

Günel: — Beyrək, qardaşım, toyu-düyünü qara gələn qardaşım, — deyib ağlayırdı.

Beyrəyə də qatı fəraq gəldi, kövrəldi, bıldır-bıldır gözünün yaşı rəvan oldu. Qopuzunu gotürüb çaldı, qıza söylədi, görəyin nə söylədi:

—Ay qız, — dedi, — nə ağlarsan, nə bozlarsan? Yandı bağrım, göynədi içim. Nə olub axı? Məgər sənin qardaşın yox olubdur, ürəyinə qaynar yağlar qoyulubdur. Ağı deyib nə ağlarsan, nə sızlarsan, qız!

Günel dedi:

—Çalma ozan, oxuma ozan. Mən qara bəxtli qızın nəyinə gərək ozan? Qara dağı aşıb gəldiyində, Beyrək adlı bir igidə rast gəlmədin ki? Bircə qardaşım alınıbdır, ozan sənin xəbərin yox, qara bağrım dəlinib, uca dağlarım yıxılıb, kolgəli ağacım kəsilib, ozan sənin xəbərin yox. Çalma ozan, oxuma ozan.

Mən bəxti qara qızın nəyinə gərək ozan? Eldə toy-düyün var, öt get ora, ozan.

***

Beyrək burdan keçib evlərinin yanına gəldi. Baxdı gördü bacıları Aysel və Gunay qara geyib oturublar, ağlayırlır.

Beyrək:

—Ay qızlar, — dedi, — qatıqdan, qaymaqdan, qara sac altında umacdan, əppəkdən nəyiniz var? Üç gündür yol gəlirəm, doydurun məni. Üç gün keçməz sevindirərəm sizi. Günay yemək gətirdi. Beyrəyin qarnını doydurdu.

Beyrək dedi:

—Qardaşınızın başı, gözü sədəqəsi, köhnə qaftanınız varsa verin geyim, toya gedim, toyda əlimə qaftan düşərsə sizinkini qaytararam.

Aysel getdi Beyrəyin qaftanını gətirdi, verdi. Beyrək aldı, geydi, boyu-boyuna, beli-belinə, qolu-qoluna yaraşdı.

Böyük bacısı Aysel bunu Beyrəyə bənzətdi, qara qıyma gözləri qan-yaşla doldu, dedi:

—Qara qıyma gözlərin batmasaydı, Beyrək deyərdim sənə, üzünü ağ-qara saç örtməsəydi, biləklərin solmasaydı Beyrək deyərdim sənə. Yürüşündən, baxışından Beyrəyə bənzədirəm ozan səni, xatırlatdın, sevindirdin, ozan məni.

Günay:

—Ay ozan, — dedi, — sən hardan gəlib çıxdın bura? Beyrək gedəli bizə ozan gəldiyi yox, bizdən qaftan aldığı yox.

Beyrək düşündü:

"Qızlar bu qaftanla məni az qala tanıdılar. Sonra oğuz igidləri də tanıyarlar. Qoy hələ tanımasınlar, görüm dostum, düşmənim kimdir". Qaftanı sıyırdı çıxartdı, qızın üstünə atdı, dedi:

—Nə sən, nə də Beyrək qalsın. Bir kohnə qaftan verdiniz, mənim başımı beynimi apardınız.

Çıxıb getdi, bir köhnə dəvə çulu tapdı, deşdi, boynundan keçirtdi, özün dəliliyə qoydu, gəldi toya çıxdı.

Toy məclisində Qaval daş vurulurdu, nağaralar doyülürdü, borular çalınırdı, zurnanın səsi yeri-göyü tutmuşdu. İgidlərin bir qismi yallı gedir, bir qismi ox atırdı.

Toy şənliyi Qobustan qayalıqlarında qurulmuşdu. Ox atanlar üçün hədəf də Qobustanda həkk olunmuş, oküz, keçi, maral şəkilləri idi. İndi iri bir qayanın üstündə çəkilmiş öküz şəklinə, şəklin tən

ortasında saqqızla yapışdırılmış üzüyə nişan atırdılar.

Özünü dəliliyə qoymuş, əcaib qiyafəli Beyrək gəlib bir qıraqda dayandı, ox atanlara tamaşa eləməyə başladı.

Elə ki, Qarabudaq ox atdı, Beyrək:

—Əlin var olsun! — dedi. Əmən atdı, Dondar atdı, Beyrək:

—Əlin var olsun! — dedi.

Növbə Yalıncığa çatdı. Yalıncıq atanda Beyrək:

—Əlin qurusun, barmaqların çürüsün, — dedi, — Hey donuz oğlu donuz, donuz da öküzə ox atarmı?

Bu sözə igidlər gülüşdü, Yalıncığın bərk acığı tutdu, hirslə:

—Hey, dəli ozan, — dedi, — sən hardan gəlib çıxdın? Sən kimsən ki, mənə bunun kimi sözlər söyləyirsən?

Beyrək:

—İgidlərə qurban olasan, — dedi, — ox ata bilmirsən, niyə başını başlara qoşursan? Heç yayı elə çəkərlər?

Yalıncıq:

—Yaxşı, sarsaq, — dedi, — gəl mənim yayımı çək görüm, necə çəkirsən. Çəkə bilməsən səni öldürəcəm.

Beyrək yayı aldı, çəkdi, yay qəbzəsindən iki para bölündü, Beyrək paraları Yalıncığın üstünə atdı.

—Daz yerdə torağaya atmağa yaxşıdır, — dedi.

Yalıncıq mohkəm pərt oldu, amma özünü sındırmadı:

—Beyrəyin yayı vardır, gedin, onu gətirin, — dedi.

Gətirdilər, Beyrək öz yayını görcək kövrəldi, yayı əlinə alıb opdü:

—İgidlər, — deyə üzünü oğuz igidlərinə tutdu, — sizin eşqinizə yayı çəkib, oxu atıram,— dedi. Bir oxla üzüyü vurdu, paraladı. İgidlər bunu görcək əl çaldılar, gülüşdülər. Bir qıraqda, yüksək bir yerdə oturub tamaşa edən Qazan Beyrəyi çağırdı. Beyrək gəldi, baş endirdi, bağır basdı, salam verdi.

Qazan:

—Hey dəli ozan, — dedi. — Yayı çəkib, ox atmağın xoşuma gəldi. Beyrək gedəli heç kəs onun yayını çəkə bilməmişdi. Bu hünəri ki, sən göstərdin, dilə məndən nə dilərsən. Çətirli otaq, altun axça, qoyun, dəvə, at — dilə verim.

Beyrək:

—Sultanım, — dedi, — səndən diləyim budur: qoy mən yeməklər bişən yerə gedim, qarnım acdır, doyurum.

Qazan güldü:

—Dəli ozan, dövlətin təpdi, — dedi, sonra üzünü igidlərə tutub: — İgidlər bu günkü bəyliyim bunun olsun, — dedi. — Qoyun hara gedirsə-getsin, neyləyirsə eləsin.

***

Beyrək gəlib qazanları açdı, xidmətçiləri çağırdı:

—Aparın bu xörəkləri yetimə-yesirə paylayın — dedi. — Qadınlar hansı tərəfdədir, məni onların yanına aparın.

Xidmətçilərdən biri Qazanın yanına gəldi:

—Sultan, — dedi, — dəli ozan xorəkləri yetim-yesirə payladı.

İndi də qızların yanına getmək istəyir.

Qazan:

—Qoyun neyləyir eləsin, qızların yanına getmək istəyir, getsin, — dedi.

***

Beyrək qızlar, qadınlar oturan çadırın yanına gəldi, zurnaçıları, nağaraçıları qovdu:

—Özüm çalacağam, — deyə qopuzu köynəyindən çıxartdı.

Beyrək xanımlar oturan çadırın eşiyində oturdu.

Boyu uzun Burla xatun qəzəbləndi, dedi: — Hey, əbləh! Sənə yaraşarmı bitəklif xatunlar oturan yerə gələsən?

Beyrək dedi:

—Xanım, Qazan xandan mənə buyruq oldu. Mənə kimsə dolaşa bilməz.

Burla xatun qadınlara:

—İndi ki, Qazandan buyruq olubdur, qoyun otursun, — dedi, sonra Beyrəkdən soruşdu: — Yaxşı ozan məqsədin nədir?

Beyrək dedi: — Xanım, məqsədim odur ki, mən qopuz çalım, ərə gedən qız qalxıb oynasın.

Üzü al duvaqlı Banıçiçək pərdə arxasında oturmuşdu, görünmürdü. Xanımlar pıçıldaşdılar.

Burla xatun pıçıltıyla Qısırca Yengəyə:

—Qısırca Yengə, dur sən oyna, — dedi, — nə bilir dəli ozan?..

Qısırca Ysngə durdu, dedi:

—Çal dəli ozan! Çal oynayım, ərə gedən qız mənəm.

Beyrək qopuz çaldı, Qısırca Yengə oynamağa başladı.

Beyrək çala-çala avazla deyirdi:

—Evinizin ardından sarvanlar sənə baxır, hansı dərəyə gedib, deyə izini izlər, hansı yandan gələcək, — deyə yola baxır, gözlərinin bıldır-

bıldır yaşı axır. Sən onların yanına get, muradını ver, muradına yet. And içmişəm qısrağa mindiyim yox.

Xatunlar yaşmaqlarının altdan xısın-xısın gülüşdülər.

Beyrək sözünə davam etdi:

—Qısırca Yengə səninlə mənim işim yox. Ərə gedən qız qalxsın, qol salıb oynasın, mən də qopuz çalım.

Qısırca Yengə:

—Boy, bu dəli zavala gəlsin, gozüylə görürmüş kimi danışır, — dedi. Xatunlardan biri Boğazca Fatmaya pıçıldadı:

—Dur oyna.

Boğazca Fatmanın üzünə duvaq saldılar, üzü görünməz oldu.

Fatma ortalığa çıxıb dedi:

—Çal, dəli ozan, oynayım, ərə gedən qız mənəm. Beyrək qopuzunu danqıldada-danqıldada avazla dedi:

—Evinizin ardı dərəcik deyildimi? İtinizin adı Bərəcuq deyildimi? Sənin adın qırx oynaşlı Boğazca Fatma deyildimi? Keç yerində otur, oynama, yoxsa yenə eybini açaram, biabır olarsan. Mən səni yaxşı tanıyıram. And içirəm, boğaz qısraqa mindiyim yox, səninlə oyunum yox. Ərə gedən qız yerindən dursun, mən qopuz çalım, qol salıb oynasın, — dedi.

Beləcə decək Boğazca Fatma özündən çıxdı:

—Boy, bu dəli boğma çıxaracaq, olan-qalan eybimizi açacaq, — dedi, sonra üzünü Banıçiçəyə tutdu. — Dur qız! Oynayırsan oyna, oynamırsansa cəhənnəmdə oyna! Beyrəkdən sonra başına bu hal gələcəyini bilmirdin?

Burla xatun dedi:

—Qız qalx oyna. Əlindən nə gələcək?

Banıçiçək durdu, əllərini paltarının qolları içində gizlətmişdi ki, heç kəs barmağındakı üzüyü — Beyrəyin üzüyünü görməsin, ortalığa çıxdı, dedi:

—Ərə gedən qız mənəm.

Beyrək:

—Bəli sənsən, — dedi. — Əllərini niyə gizlədirsən, yəqin suya getmisən, soyuq olub, don vurub, barmaqların qopub düşüb. Əllərin eyiblidir, eyibini gizlədirsən. Eyibli qız, sənə ərə getmək eyibdir! Banıçiçək tutuldu:

—Hey, dəli ozan, — dedi. — Mən eyibliyəm ki, mənə eyib qoşursan?

Gümüş kimi ap-ağ biləyini açdı, əlini çıxartdı, Beyrəyin keçirdiyi üzük barmağında göründü.

Beyrək üzüyünü tanıdı. Dedi:

—Beyrək gedəli Bam-bam təpə başına çıxdınmı qız? Uzun-uzun yollara baxdınmı qız? Gecə kimi qara saçlarını yoldunmu qız? Ala gözdən acı yaşlar tökdünmü qız? Gələnindən, gedənindən Beyrək xəbərini sordunmu qız?

Banıçiçək ağlaya-ağlaya dedi:

—Ağladım ozan, sızladım ozan, neçə illər gözlədim ozan.

Şahbaz igidim gəlməz oldu... Bu gün mən ərə getmirəm ozan, gora gedirəm. Aman ozan, yaramı təzələmə.

Beyrək dedi:

—Qız, barmağındakı altun üzüyü sənə kim bağışlayıb? Ver onu mənə. Mən onun nişanlarını bilirəm.

Qız:

—Yox, — dedi. — Altun üzüyün çox nişanı var. Onu ancaq bağışlayan bilər, sən bilməzsən.

Beyrək yenə qopuzun çaldı, avazla dedi:

—Ala sabah boz ayğırın belinə minmədimmi? Sənin evinin yanına ceyranları qovmadımmı? Sən məni yanına çağırmadınmı? Sənlə meydanda at çapıb, ox atıb, güləşmədikmi? Üç öpüb, bir dişləyib, altun üzüyü barmağına keçirmədimmi? Sevişdiyin Bamısı Beyrək mən deyiləmmi?

Banıçiçək duvağını qaldırdı, onun bənizi qaçmışdı, dodaqları titrəm-titrəm titrəyirdi, həyəcanla, tələşla, qorxuyla Beyrəyin qocalmış sifətinə, batıq gözlərinə, ağarmış saç-saqqalına baxdı, əfsuslanmış kimi ona tərəf iki addım atdı. Beyrək əlini ona tərəf uzatdı, yumruğunu açdı, ovcunun içində torpaq qarışıq yovşan vardı. Yovşan iyi Banıçiçəyin burnuna dəydi, Banıçiçək pıçıltıyla:

—Yovşan iyi, — dedi, Beyrəyə tərəf atıldı, sonra birdən dayandı, cəld çadırdan bayıra sıçradı, atlardan birinə tərəf qaçdı.

***

Banıçiçək atlandı, atına qamçı çəkib çapdı, toya gəlmiş qonağların arasından, oxatma meydanında toplanmış igidlərin içindən, təəccüblə ona baxan Qazanın, Turalın, Qarabudağın yanından, sərxoş olub bir tərəfdə sərələnmiş Dəli Qoçərin üstündən, özünü itirib çaşıb qalmış Yalıncığın böyründən çapıb getdi, çöllərdən-çəmənlərdən keçib Bayat obasına çatdı. Gözləri kor olmuş

Bəybura və arvadı Ayna Mələk həmişəki yerlərində, oba kənarındakı daşın üzərində oturmuşdular. Banıçiçək çaparaq onlara yetdi, atının yüyənini dartdı. At şahə qalxdı. Banıçiçək uca səslə dedi:

—Hey qayınata, qayınana. Qara dağın yıxılmışdı, ucaldı axı! Axar suların qurumuşdu çağladı axı! Neçə ilin həsrəti oğlun Beyrək gəldi axı! Qayınata, qayınana muştuluq mənə nə verərsiniz?

Bəybura yerindən sıçrayıb dedi:

—Dilin üçün ölüm gəlinciyim, yoluna qurban olum gəlinciyim. Yalansa bu sözlərin gerçək ola, gəlinciyim.

Bu məhəldə igidlər və Beyrək çaparaq gəlib yetdilər.

Qazan:

—Muştuluq Bəybura, — dedi. — Oğlun gəldi.

Bəybura dedi:

—Oğlum olduğun ondan bilərəm ki, çeçələ barmağını qanatsın, qanını gözümə sürtsün. Açılacaq olursa oğlum Beyrəkdir.

Beyrək cəld çeçələ barmağını çərtib qanını atasının gözlərinə çəkdi, Bəyburanın gozləri açıldı.

Bəybura:

—Oğul, — dedi, — görür gözümün aydını oğul, tutar əlimin qüvvəti oğul, evimin dirəyi oğul.

Ayna Mələk:

—Qızımın, gəlinimin çiçəyi oğul, — dedi. Ata, anası, bacıları Beyrəyi qucaqladılar, ağladılar, güldülər, güldülər, ağladılar.

Qazan Banıçiçəyə, Beyrəyə baxıb: — Yaxşı, — dedi, di murada yetin.

Beyrək. — Hələ bir işim var — dedi. Onu etməyincə murada yetmərəm. Hanı Yalıncıq? Beyrək atını geri döndərdi. İgidlər də onun ardınca çapdılar.

***

Yalıncığ da atını minib qaçırdı. Dönüb arxaya baxa-baxa qaçırdı. Beyrək qovur, Yalıncıq qaçırdı. Yalıncığın atı daha yeyin gedirdi, get-gedə onların arasındakı məsafə artırdı. Artıq Beyrək arxada qalıb gözdən itmişdi.

Ancaq bu zaman Yalıncıq Uca dağın ətəyinə çatanda Qaraca Çoban onu daşa tutdu. Yalıncığın atı büdrədi, yıxıldı, Yalıncıq atdan düşüb qaçdı, yaxındakı qamışlığa girdi, gizləndi.

Beyrək çapıb getdi. Yalıncığı görmədi. Qaraca Çoban:

—Darıxma, — dedi. — Qamışlıqda gizlənib. Bu saat onu ordan

çıxardarıq.

Qaraca Çoban çaxmaq daşını çəkdi, od yandırdı, qamışlığı odladı. Alov bütün qamışlığı bürüdü. Qamışlığdan dəhşətli böyürtülər eşidildi. Üst-başı yanıb parça-parça didilmiş, üz-gözünü his basmış Yalıncıq böyürə-böyürə qamışlıqdan çıxdı. Gələn igidlər onun bu gülünc görkəminə baxıb qəh-qəh çəkdilər. Yalıncıq indi murdar və qorxulu deyildi, zavallı və miskin idi.

Yalıncıq gəlib Beyrəyin ayaqlarına yıxıldı.

Beyrək qılıncını sıyırdı. Yalıncıq dili topuq çala-çala:

—Amandır, öldürmə məni, — dedi.

Beyrək: — Öldürmürəm, sarsaq, — dedi. — Dur qılıncımın altından keç! — Yalıncıq Beyrəyin qılıncının altından keçdi.

Beyrək: — Get, — dedi. — Keçdim sənin günahından.

***

Dədə Qorqud qopuzunun şən sədaları ucaldı.

***

...Dədə Qorqud məzarının başında oturub. Qopuzun dınqıldadır, amma indi onun çaldığı hava şən toy havası deyil — Dədə Qorqudun özü kimi qəmgin, kədərli bir nəğmədir.

Dədə Qorqud deyir:

—Beyrək əsirlikdən qayıdıb gəldi, toyun etdi, Banıçiçəyi gərdəyinə gətirdi, oğulları oldu. Beyrəyin bacısı Güneli Qazanın oğlu Turala nişanladılar. Şadlıq elədik, çaldıq, oxuduq. Elə bildik ki, Oğuz elinin qadalı-bəlalı günləri qurtardı getdi. Nə biləydik ki, müsibətli günlərimiz qabaqdaymış, nə biləydik ki, hələ başımıza necə qəzalar gələcək, yurdumuz nə bəlalar görəcəkmiş.

...Alp Aruzun çadırında Qara niqablı adam ona məlumat verdikcə Aruzun bığlarından qan sızırdı. Aruz əlini çalıb, xidmətçilərini çağırdı:

—Qan qohumumuz olan igidlərə adam salın, çağırın gəlsinlər. Əmən gəlsin, Dəli Qoçər gəlsin.

...Çağrılan igidlər gəlib yığnaq oldu. Alp Aruzun çadırına gəldilər. Həmişə sərxoş olan Dəli Qoçər atdan səndələyə-səndələyə düşdü, çadıra yellənə-yellənə girdi.

Alp Aruz igidləri salamlayıb dedi: — İgidlər, mən sizi niyə çağırdığımı bilirmisiniz?

Dedilər:

—Bilmirik.

Alp Aruz dedi:

—Görürsünüzmü ki, mən Oğuz igidlərindən ancaq sizi, yəni qan qohumlarımı çağırmışam. Çünki belə gündə ürəyim ancaq sizə qızar. Bilirsiniz ki, Qazanın heç vaxt mənimlə arası yox idi, indi isə açıq düşmən olub. Deməli o sizin də düşmənizdir. İndi Beyrək də gəlib çıxıb. Qazanın bir gücü iki olub. Beyrək toyuna bizi çağırmadı, açıq ədavət bağladı. İndi tədbiriniz nədir igidlər, nə deyirsiniz?

Dəli Qoçər xumar-xumar Alp Aruzu süzərək dedi: — Nə deyəcəyik. Çünki sən Qazana düşmən oldun, biz də düşmənik.

Aruz:

—İgidlər, — dedi, — and için! İgidlər: — sənin dostuna dost, düşmənə düşmənik, — dedilər.

Dəli Qoçəri yuxu aparmışdı.

Alp Aruz ona baxıb dedi:

—Beyrək bizdən qız almışdır, Dəli Qoçərin yeznəsidir. Amma Qazanın da sağ əlidir. Gəlin Beyrəyə xəbər göndərək ki, gəl bizi Qazanla barışdır. Onu bura gətirək. Bizə müti olursa xoş, olmaz isə mən saqqalından yapışım, siz qılınc vurun, paralayın. Beyrəyi aradan götürək. Ondan sonra Qazanla işimiz asan olar.

***

Aruzdan Bayat obasına adam gəldi, Beyrəyin yanına girdi.

—İgid, Aruz sənə salam göndərdi, Beyrək gəlsin, Qazanla bizi barışdırsın, dedi.

Beyrək:

—Xoş ola, — dedi, atın çəkdi, mindi, Aruzun evinə gəldi, igidlər oturan otağa girib salam verdi, Aruzun yanında əyləşdi.

Aruz Beyrəyə dedi:

—Bilirmisən Beyrək, səni niyə çağırdıq?

—Niyə çağırdınız?

Aruz:

—Bütün bu oturan igidlər Qazana düşmən olduq, and içdik, — dedi, — sən də and iç.

Beyrək ətrafa göz gəzdirdi, gərginliklə ona zillənmiş gözləri gördü, dedi:

—And içirəm ki, mən heç vaxt Qazana düşmən olmaram. Mən Qazanın nemətindən çox yemişəm, bilməzsəm gözümü tutsun. Qazılıq atını çox minmişəm, bilməzsəm mənə tabut olsun. Yaxşı qaftanlarını çox geymişəm, bilməzsəm kəfənim olsun. Qazanın evini evim,

ocağını ocağım bilmişəm, ağlayanda ağlamışam, güləndə gülmüşəm. Mən Qazandan dönmərəm, bunu bilin.

Aruz əl atıb Beyrəyin saqqalını tutdu. Beyrək qımıldanmadı, yerindən tərpənmədi. Aruz igidlərə baxıb işarə elədi. İgidlər qılınclarını sıyırdılar, amma heç biri Beyrəyə qıyıb əl qaldırmadılar.

Beyrək dedi:

—Aruz, mənə bu işi edəcəyini bilsəydim, əyni bərk dəmir donumu geyərdim, qara polad üz qılıncımı belimə bağlardım, alagözlü igidləri yanıma salardım.

Alçaq, mən bu işi duysam belə gələrmiydim? Aldadıb ər tutmaq arvad işidir, arvadındanmı öyrəndin sən bu işi, namərd?

Aruz dedi:

—Boş-boş danışma. Qanına susama. Gəl biz dediyimizə and iç.

Beyrək dedi:

—Mən Qazanın uğrunda baş qoyaram. Neçə il dustaq oldum, dostlarımdan, elimdən dönmədim, indi də dönmərəm, istəyirsən məni yüz para elə.

Aruz igidlərə baxdı, gördü kimsə yerindən tərpənməz, özü qara polad üz qılıncı dartıb Beyrəyin sağ oyluğunu çaldı, qana bulaşdı. Beyrəyin başı bükülü oldu. İgidlər səssiz-səmirsiz dağılışdılar. Hərəsi öz atına mindi. Beyrəyi də atına yüklədilər, atın tərkinə adam mindi, Beyrəyin cəsədini tutdu, Beyrəyi obasına yetirdi, Bayatın kənarında yerə qoydu, cübbəsini üzərinə örtdü, çapıb getdi. Beyrək zarıdı, Banıçiçək səsə gəldi. Beyrəyi qanına qəltan görüb bayıldı. Beyrək ağır-ağır nəfəs alırdı. Əhvalatı qırıq-qırıq Banıçiçəyə söylədi:

—Sevdiciyim, — dedi, — tez tərpənmək lazımdır. Çap Qazanın divanına, sən sağ ol, Beyrək öldü, de. De ki, mənim qanımı namərd dayısı Aruzda qoymasın. De ki, Aruz namərdləri ilə bura gəlmədən, elim-günüm çapılmadan, Qazan özünü yetirsin. Səni, bacılarımı, qoca atamı, anamı, Qazana tapşırıb gedirəm, oğlumuzu da Qaraca Çoban igid boyütsün, — deyə Beyrək gözlərini yumdu. Banıçiçək hönkürüb onun üstünə yıxıldı.

***

...Qazan dəsmalını əlinə alıb honkür-honkür ağlayırlı. Qarabudaq da, Dondar da.

***

...Uca dağın başında Qaraca Çoban başına daşları tökə-tökə ağlayırdı...

Qazan durub öz otağına çəkilmişdi, kimsəni yanına buraxmırdı. Tural Qılbaşa yanaşdı:

—Qılbaş, yeddi gündür atam otağından çıxmır, — dedi, — bir yanına girsənə.

Qılbaş;

—Sən oğlusan, sən get, — dedi. Nəhayət, ikisi bir yerdə Qazanın otağına girdilər.

Tural:

—Ata, — dedi, — bir igid aramızdan əksildi. Başını bizim yolumuzda qoydu. Sənə ismarlamış ki, qanını yerdə qoymayasan, alasan. Ağlamaqdan nə çıxar? Deyirəm ki, namərdləri haqlayaq, Beyrəyin qanını alaq.

Qazan ağır-ağır başını qaldırıb:

—Bəli, qana qan, — dedi, — Qılbaş, de ki, tez cəbbəxananı atlara yükləsinlər. İgidlər hazır dursun. Cəmi igidlər yaraqlandı, yasaqlandı, atlandı. Çəkdilər Qonur atı Qazan mindi. Borular çalındı, sinç vuruldu.

Gecə bilmədilər, gündüz demədilər, yortdular. Qazan yanında çapan oğluna döndü:

—Oğul, Tural, — dedi, — bu döyüş sınaq döyüşüdür. Ya onlar bizi yenəcəklər, ya biz onları. Gərəkdir ki, sən bu doyüşdə hünər göstərəsən, mənə arxa olasan, Beyrəyin yerini tutasan.

Tural çevrilib arxaya baxdı. Ağlar gözlü Günel Bayat obasının kənarına çıxdı, Turalın ardınca baxırdı.

Aruz və onun adamlarına xəbər yetdi. Yaraqlanıb, yasaqlanıb, atlanıb Qazangilə qarşı gəldilər. Savaş başlandı; koksü yaşıl ulu dağlar belə vuruşma gorməmişdi. Dibi dərin dar dərələr belə döyüş bilməmişdi. Bir təpənin başında dayanmış Dədə Qorqud igidlərə yalvarırdı, bu qardaş qırğınına son qoymaqa çağırırdı.

Ona məhəl qoyan yox idi. Alp Aruz meydanda at təpdi, Qazanı görüb bağırdı.

—Hey Qazan, gəl bəri, başını kəsim atım.

Qazan qalxanını yapındı, süngüsünü əlinə aldı, başı üzərinə çevirdi:

—Hey Aruz, — dedi, — müxənnətliklə ər öldürmək necə olur, mən sənə göstərərəm.

Aruz Qazanın üzərinə at saldı. Qazanı qılıncladı, zərrə qədər kəsə bilmədi, otüb keçdi. Növbə Qazana çatdı. İti süngüsünü Aruzun

koksundən sancdı, dartıb Aruzu at üzərindən yerə saldı, qılıncını sıyırıb başını kəsmək istədi, birdən gözləri bir kənarda vurnuxan Turala sataşdı. Qazan oğlunun dəhşətdən bərəlmiş gözlərini gördü və o saatca qərara gəldi, Aruzu göstərib:

—Oğul, Tural, — dedi, — bunun başını sən kəsəcəksən.

Qazan atını çapıb ötdü, döyüşənlərin içinə girdi, sanasan ki, qara qazın içinə şahin girdi.

Tural atdan endi, qılıncını çəkdi, amma öldürə bilmədi. Aruzun mərhəmət diləyən gözlərini gordü, qılıncını qınına saldı, atını sıçradıb çapdı. Aruz yavaş-yavaş yerində dirsəkləndi, son gücünü toplayıb oxunu yaya qoydu, uzaqlaşan Turalı nişan aldı. Atdı. Ox Turalın kürəyinə dəydi. Alca qanı şorladı. Qolunu köhlən atının boynuna doladı, qucaqladı, yalmanına yatdı, sonra aşağı sürüşdü, ayaqları üzəngidən qopmadı, atın belindən sallanıb qaldı. At yaralı sahibini doyüş meydanından çıxartdı, üzünü dağlara tutub uzaqlaşdı. Aruz oxunun dəydiyini görüb məmnun-məmnun güldü, amma ağrıdan ağzı əyildi, başı yana əyildi, canı çıxdı. Döyüş meydanının müxtəlif yesrlərində igidlər bir-bir tələf olurdular. Qazanın atı da, özü də qılınclandı. Qarabudaq həlak oldu. Əmən həlak oldu, Dondar həlak oldu. İgidlər də, atlar da bir-bir yıxılıb qalırdı.

***

Qara niqablı atlı hələ də meydanda cövlan edirdi. Ona qarşı ağ niqablı bir igid gəldi, onu qılıncladı, böyürdüb atdan saldı, qanını şorlatdı. Qara niqablı atlı yerə yıxılarkən niqabı üzündən düşdü — bu Yalıncıq idi. O, son gücünü toplayıb süngüsünü ağ niqablı igidin kürəyinə sancdı. Ağ niqablı atından yıxıldı, yerə sərildi. Yalıncıq ölürdü, ancaq öldüyü an onu öldürənin və öldürdüyünün kim olduğunu bilmək istədi, zəif bir hərəkətlə əlini uzatdı, ağ niqabını üzündən qopartdı. Bu Banıçiçək idi.

O artıq ölmüşdü. Həmin an Yalıncığın da canı çıxdı və o, Banıçiçəyin ayağları altında yıxılıb hərəkətsiz qaldı.

***

Meydanda ancaq qalaq-qalaq insan meyidi, at leşi vardı. Onlar da daşlaşıb heykəllərə dönürdülər. Amma heykəllər də biçimlərini, şəkillərini itirirdilər, adicə daş topalarına çevrilirdilər.

İndi bu geniş meydanda əcaib daş yığnaqlarından, qəribə qayalardan başqa heç bir şey qalmamışdı...

Təpənin başında dayanmış Dədə Qorqud üzünü tutub ağlayırdı.

***

...Turalın atı çapıb sahibini uzaqlara, dağların arxasına aparırdı...

***

Meydandakı daş qalıqları arasında saçları pərişan, yumru-yumru ağlayan qadınlar, qızlar, qocalar dolaşırdılar. Onların içində boyu uzun Burla xatun da var idi, Günel də. Qadınlar bir-bir igidlərin adını çəkib zarıldayırdılar. — Qazan vay! Əmən vay! Aruz vay! Qarabudaq vay! Tural vay!..

***

...Dədə Qorqud öz məzarı başında oturub qopuz çalırdı. Söylədiyi əhvalat sona yetmişdi. Dədə Qorqud deyirdi: — Hanı dediyim alp ərənlər? Dünya mənim deyənlər? Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı! Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya! Qoca Qorqud ölür oldun, onu bil! Karvan getdi, sən gecikdin, onu bil. Əl-aqibət uzun yaşın ucu ölüm, axırı ayrılıqdır.

Dədə Qorqud sözünü deyib qurtardı, qopuzunu götürüb koynəyinə taxdı, bir kənara qoydu, sakitcə məzarına baxdı, üsulluca ora girdi, uzandı, fısıllıqdan ala ilan çıxıb fışıldaya-fışıldaya məzara tərəf süründü.

Dədə Qorqud gözlərini yumub gözləyirdi. Birdən uzaqdan səslər eşitdi, gözlərini açdı, başını qaldırdı, diqqət elədi. Uzaqdan ona tərəf bir qadın və bir gənc qız gəlirdi. İkisi də pərişan saçlıydı, ikisi da zar-zar ağlayırdı. Biri boyu uzun Burla xatun, o biri Günel idi. Burla xatun qarğış edirdi: — Nə Qazılıq dağı, axar sənin suların! Axar ikən axmaz olsun! Bitər sənin otların, Qazılıq dağı! Bitər ikən bitməz olsun! Təbiət ana qarğışına müti olurdu. Axıntılı sular quruyurdu, otlar, çiçəklər saralıb-solurdu.

Burla xatun deyirdi:

—Hardasan, ay oğul, Turalım! Ölənlər içində səni tapmadım, yaralılar içində bulmadım. Oğul, oğul, ay oğul! Harda qaldın, onu bilsəm!

Dədə Qorqudun yanına gəldilər. Dədə Qorqud isə onlara baxmırdı, onun diqqətini başqa bir şey cəlb etmişdi. Dədə dağın o biri tərəfinə baxırdı. Dağın ardından qarğa-quzğun havalanıb qalxır, sonra yenə aşağı enirdi, yenə uçurdu, yenə qonurdu.

Dədə Qorqud Burla xatuna bunu göstərdi:

—Xanım, — dedi, — ağlama, oğlun salamatdır, gedin dağın güneyinə.

***

Alçaqdan uca yerlərə çapıb, ucadan alçaq yerlərə endilər. Gördülər ki, Tural bir dərənin çalovunda yıxılıb qalıb. At da yanındadır. Qarğa-quzğun qan iyinə gəlib oğlanın üstünə qonmaq istəyir, at şıllaq atıb qarğa-quzğunu qovur, qonmağa qoymur. Qarqa-ğuzğun qalxıb-endikcə toz gah qalxır, gah durulurdu.

Dədə Qorqud oğlanın yarasına baxıb:

— Xanım, bu yaradan qorxma, — dedi, — bu yaradan oğlana ölüm yoxdur. Ana südü, bir də dağ çiçəyi onun yarasına məlhəmdir.

Dədə Qorqud sonra Günelə dedi: — Qızım, qalx dağın döşünə, çiçək dər gətir, — nişanlının yarasına bas.

Günel dağdan utanaraq yaşmaqlandı, yamaca çapdı. Dağın döşü yapyalın idi, nə bir ot, nə bir çiçək. Günel nə qədər gəzdi, bir şey tapmadı.

***

...Burla xatun əmcəyini sıxdı, südü gəlmədi, iki sıxdı, südü gəlmədi, üçüncüdə qan qarışıq gəldi. Ana südündən üç damcı Turalın dodaqlarına damızdırdı.

***

Günel üzünü ot bitməz, çiçək açmaz dağın zirvəsinə tutub dedi:

—Yüksək dağım, gözəl dağım. Anam deyərdi ki, sən Qazılığ dağı, bizim hamımızın, Oğuz qızlarının, gəlinlərinin qayınatasısan. Otunu, çiçəyini Turaldan əsirgəmə, Qazılıq dağı.

Həmin andaca dağın döşü çiçəkləndi, otlandı, yaşıl sarıya, sarı qırmızıya qarışdı. Günel çiçəkləri toplamağa başladı, qaçıb Turalın yanına gəldi, çiçəkləri sıxdı, suyundan iki-üç damcı Turalın yarasına damızdırdı. Tural aram-aram gözlərini açdı, duman içində anasını gördü, sevgilisini gördü, Dədə Qorqudu gördü, vəfalı atını gördü, çiçəkli dağları, açıq səmanı, dünyanı gordü, gülümsündü.

Dədə Qorqud, Burla xatun, Günel və Tural harasa gedirdilər. Onlar gəlib haman döyüş meydanına çıxdılar.

Bura tamam dəyişmişdi, Qaraca Çoban yöndəmsiz daş qalığlarını dığırlayıb kənara atırdı. Daşlardan boşalmış meydanda öküzlər cüt sürür, adamlar holavar çağıra-çağıra torpağı xışlayırdı. Qaraca Çoban qan-tər içində torpağı daşdan-kəsəkdən təmizləyirdi. Beyrəyin 14 yaşlı oğlu ona kömək edirdi.

Dədə Qorqud: — Çoban, oğul, nə edirsən belə? — dedi.

Qaraca Çoban:

—Torpağı təmizləyirəm, Dədə — dedi. — İstəyirəm şumlayağ, əkək,

biçək, yeyək, dolanaq. Məsləhətdirmi, Dədə?

Dədə Qorqud:

—Çoban, sözün haqdır, — dedi, — yurdumuzun başına çox qəzalar gəldi, ərlərimiz, igidlərimiz çox qırıldı, amma tamam qırılıb qurtarmadıq. Hələ varıq, hələ olacayıq, qalacayıq.

Çoban:

—Dədə, bu oğlana ad qoyasınca varmıdır?

Dədə Qorqud:

—Bəli, — dedi, — ad almağa layiqdir. Bu torpaqda çox ər qırıldı, az ər qaldı. Onun adını Azər qoyuram. Qoy az ərlər çox olsun, qoy Azərlər çoxalsın.

Dədə Qorqud Azərə baxdı, bir daha soylədi, görəyin nə söylədi:

—Oğul, Azər, — dedi, — onu bil ki, torpağın yurd, vətən olması üçün iki şərt lazımdır. Biri odur ki, gərək bu torpağı əkəsən, becərəsən, birisi də odur ki, gərək bu torpağı yağılardan qoruyasan. O torpağı ki, qoruya bilmədin, onu əkib-becərməyə dəyməz. O torpağı ki, əkib-becərmədin, onu qorumağa dəyməz.

Qaraca Çoban: — Oğlum, Azər, bu sözləri yaxşı yadında saxla, — dedi.

Dədə Qorqud:

—Çoban, — dedi, böyük işə başlamısan, yaxşı işə girişmisən. Qalx dağın başına, dağ başında üç tonqal qala.

Bir tonqal qalayanda elimiz şənliyə toplaşır, iki tonqal qalayanda basqınlardan qorunmağa yığışır. Qoy indi üç tonqal görəndə hamı cütlə, xışla gəlsin, bilsinlər ki, işləməyə gəlirlər.

Qaraca Çoban ata minib dağ başına çapdı. Dədə Qorqud üzünü işləyən adamlara tutub dedi: — İşimiz avand, torpağımız bərəkətli olsun. Kölgəli ağacımız kəsilməsin! Çağlayıb axan sularımız qurumasın! Namərdə möhtac olmayaq! Ümidimiz üzülməsin! Qanadımız qırılmasın! Uca dağın ocaqları həmişə yanar dursun!

Uca dağın başında üç tonqal alovlanırdı. Qaraca Çobanla Azər tonqalların yanında durub fərəhlə baxırdı.

Dağın ətəyində Dədə Qorqud, Burla xatun, Tural, Gunel, Aysel, Günay, başqa adamlar sevinclə tonqallara baxırdılar.

...Uzaq bir dağın zirvəsində də üç tonqal alovlanırdı.

...Başqa bir dağın başında da eləcə...

...Uzaq-uzaq daqların başlarında üç-üç tonqallar alovlanırdı... İnsanlar, dağlar işıqlarıyla bir-birinə hay verirdi.

1970-1973
Bakı-Moskva-Bakı

QƏM PƏNCƏRƏSİ

(Bu ssenari əsasında Anar quruluşçu rejissor kimi iki seriyalı eyni adlı bədii film çəkmişdir. Ədəbi ssenarinin burada təqdim olunan ilk variantı ilə film arasında müəyyən fərqlər var.)

Naxçıvanda Mirzə Gəlil Məmmədquluzadənin heykəli. Kamera heykəldən meydana panorama edir və filmdə baş rolu ifa edəcək aktyoru görürük. Müəllif aktyora yanaşır, Onlar müasir Naxçıvanın küçələriylə dolaşır və gələcək film haqqında danışırlar

Aktyor:

—Sən Mirzə Cəlilin uşaqlığından danışırsan, Bu səhnələri burda, Naxçıvanda çəkəcəyik?

Müəllif:

—Əlbəttə sonralar burda da çəkəcəyik, amma çəkilişə Bakıdakı epizodlardan başlayacayıq. Mirzə Cəlilin yaşlı vaxtından. İndi bura, Naxçıvana gəlməyimizin məqsədi odur ki, sən də, filmimizin başqa yaradıcıları də bu yerlərlə, böyük yazıçının uşaqlığı keçdiyi yerlərlə daha yaxından tanış olasınız. O dövrü daha yaxşı duymaq üçün buranın mənzərələri, ab-havası, mühiti ilə daha yaxından tanış olmanız lazımdır.

Aktyor və müəllif gəlib Nehrəm kəndinə çıxırlar

Müəllif:

—Bax, Nehrəm kəndinin bu məktəbində Mirzə Gəlil dərs deyib.

Məktəbin həyətinə girir, Mirzə Cəlilin buradakı müəllimlik fəaliyyətinə həsr olunmuş xatirə lövhəsinin qarşısında dayanırlar, Həyətdə məktəbli uşaqlar oynayır.

Müəllif həyətdəki ağacın budağından asılmış zəngi göstərir:

—Bu zəng də elə o vaxtdan qalıb. Qəribə deyilmi, 90 il bundan qabaq bax bu zənglə şagirdləri siniflərə çağırırmışlar. Bəlkə elə Mirzə Gəlilin özü də bu zəngi çalırmış.

Müəllif əlini uzadır, zəngi tərpədir. Zəng çalınır və həyətdə oynayan uşaqlar bu səsi eşidib siniflərə cumurlar.

Zəng səsləri altında yüyürüb siniflərə doluşan uşaqların fonunda filmin adı yazılır:

Titrlərdən dərhal sonra aktyor soruşur:

—Filmin adını niyə "Qəm pəncərəsi" qoyuruq?

Müəllif:

—Sabirin belə bir misrası var: "Baxmış bu müsəlmanlara qəm pəncərəsindən"…

—Mirzə Cəlili nəzərdə tutub?

—Yox. Amma mənə nədənsə elə gəlir ki, Sabirin bu sözləri məhz elə Mirzə Cəlilə aiddir. Mirzə Cəlil yazılarında tez-tez pəncərə obrazına müraciət edib. "Molla Nəsrəddin" jurnalında bir karikatura var, sənə göstərmişdim, yadında?

Ekranda "Molla Nəsrəddin" jurnalından karikatura: bir yanda pəncərələri dəmir barmaqlıqlarla qapanmış həbsxana, o biri tərəfdə pəncərəsiz bir ev və iki qadın.

Aktyor:

—Yadımdadır. Qadınlardan biri o birinə deyir, ay bacı, kaş bizim də belə pəncərəmiz olaydı, adamın ürəyi darıxanda küçəyə baxaydı. Yəni türmə pəncərələrini nəzərdə tutur. Çox acı yumordur

Müəllif:

—Mirzə Cəlilin hər zarafatında bir acı, bir ağrı var.

Bakı. Aktyor və müəllif Mirzə Cəlilin son illər yaşadığı evin qarşısında. Kamera indi mənzil-muzey yerləşən bu binanın üstünə vurulmuş lövhəni göstərir.

Aktyor:

—Filmimiz elə bu kadrlarla başlayacaq?

Müəllif:

—Bəli. Sən mənim prinsipimi bilirsən. Əgər real tarixi şəxsiyyətlər haqqında fim çəkiriksə, hadisələr də məhz elə o real məkanda cərəyan etməlidir.

Ev-muzeyin qarşısındakı küçədə çəkiliş səhnələri. Aktyor artıq ömrünün son illərini yaşayan Mirzə Cəlilin qrimində və qiyafəsindədir.

Müəllif aktyorla söhbət edir:

—Ömrünün son illərini təsəvvür et. Böyük, parlaq və çətin bir həyat yaşanılıb. Bu həyatda hər şey olub —mübarizə, itkilər, dostlar və düşmənlər, eşq, ailə və gündəlik ağır zəhmət — yorulmaz yazıçı, publisist, redaktor əməyi , bir gün də ara verməyən vətəndaş

fəaliyyəti. İndi bax 1932-ci ilin bu dekabr günü 65 yaşlı Mirzə Cəlil gəzintidən evinə qayıdır. Ağır xəstədir, özü də dərk edir ki, ömrün axır günləridir. Bilmirəm o gün qar ya yağış yağırmışmı. Hər halda dekabr axşamı soyuq olub yəqin. O günü Həmidə xanımın necə təsvir etdiyi yadındamı?

Aktyor:

—Əlbəttə.

Müəllif:

—Gəl o günün emosional durumunu canlandıraq. O vaxtdan bəri çox az dəyişən bu küçəylə sinni yazıçı aram-aram evinə doğru addımlayır, Daha doğru sən addımlayırsan. Bu adam sən yox, osan, Mirzə Cəlilsən.

Titr: Mirzə Cəlil rolunda — aktyorun adı.

Müəllifin səsi:

—Diqqət! Motor!

Çəkiliş başlayır.

Mirzə Cəlil əlində əsası küçədən keçib, xatirə lövhəsində adı yazılmış evin qapısından içəri girir, yavaş-yavaş pilləkənlərlə ikinci mərtəbəyə qalxır.

İndi müzey olmuş mənzil. Həmidə xanım tikiş tikir

Mirzə Cəlil daxil olub salamlaşır:

—Uşaqlar evdə yoxdu?

Həmidə:

—Midhət işdədi, Ənvər də hələ institutdan gəlməyib.

Mirzə Gəlil paltosunu çıxarır.

Həmidə:

—Necə gəzdin, yorulmadın ki?

—Yox, amma palto çox ağırdır, Qəzetdə yazıblar ki, koprativdə şəkər verəcəklər. Gərək bir az pul tapıb şəkər alaq. Uşaqlar şirin çayı xoşlayır, Həm də xeyirdir. —əllərini yuyub silir — bu gün küçədə iki ölü mərasimi gördüm. Nə yaman çox adam ölür.

Həmidə xanım tikiş tikməyə davam edir, Mirzə Gəlil çarpayısına yanaşıb uzanır. Uzun zaman pəncərəyə sarı baxır, sonra sanki özü özüylə danışır.

—Amma hər halda düz demirmiş…

Həmidə xanım:

—Kim?

—Kislovodskdakı həkim, Axı bilirsən, sizə çatdırmaq üçün mənə

verdiyi qapalı zərfin içində nə yazmışdı? Hövsələm çatmadı, yolda açdım, oxudum. Yazmışdı ki, vur-tut iki ay ömrüm qalıb. Amma bax on ay keçib, hələ sağam.

—Boşla sən allah, at bu fikirləri başından…

—Hə, əlbəttə.

Əlini uzadıb tumboçkanın üstündəki "Molla Nəsrəddin" jurnallarını götürür, vərəqləyib bir qırağa qoyur. Uzun-uzadı pəncərəyə sarı baxır.

Pəncərədə qaranlıq düşmüş dekabr axşamı, yağış damlaları şüşəni isladır. Birdən birə pəncərədə yeddi-səkkiz yaşlı uşağın siması görünür, Gözləri Mirzə Cəlilin gözləri kimi çox kədərlidir, Daha doğrusu elə Mirzə Gəlilin gözləridir — pəncərədəki uşaq böyük yazıçının xatirələrində canlanan uşaqlığıdır.

Sinli və uşaq Mirzə Cəlil diqqətlə bir-birinə baxır.

Kəndin qırağıyla XIX əsrin kəndli qiyafələrində bir dəstə adam addımlayır, papaqlı kişilər, çadralı qadınlar.

Onlar susuzluqdan cadar-cadar olmuş çölə çıxırlar. Qızmar günəş adamın təpəsini deşir.

Adamlar diz çöküb dua etməyə başlayırlar:

—Xudaya, bizə yağış. Qurban olaq Xudaya, bizə bir damcı yağış göndər. Biz də, torpaq da susuzluqdan yanıb-yaxıldıq. Xudaya, bizə yağış.

Göydə bir əlçim bulud da yoxdur. İnsanlar yağış duasıyla Allaha yalvarırlar.

Balaca Gəlil də onların arasındadır.

Yaşlı Mirzə Cəlil öz mənzilində pəncərəyə baxır, Pəncərədə balaca Cəlilin sifəti qeyb olur. Pəncərədə zil qaranlıq gecə. Mirzə Cəlilin kadrarxası səsi eşidilir:

—Gözümü açıb dünyanı qaranlıq görmüşəm. Və bu qaranlıqda ilk eşitdiyim səs müədzinin əzan səsidir.

Mirzə Cəlilin uşaqlıq illəri. Qaranlığa qərq olmuş kəndin üzərində müədzinin səsi axıb gedir:

—Allahu əkbər, Allahu əkbər…

Gündüz vaxtı kənd məscidinin həyətində yığışanlar namaz qılır. Həyətdə kiçik bir krandan su axıb gedir.

7-8 yaşlı uşaqlar — onların arasında Cəlil və Əhməd də var — həsrətlə bu krandan axan suya baxırlar, qup-quru dodaqlarını yalayırlar. Bir it gəlib kranın qarşısındakı nohurdan su içir. Əhməd

dözməyib krana yaxınlaşır, barmağlarını isladıb dodaqlarına çəkmək istəyir, amma bu zaman zəhmli bir səs eşidir, duruxur, geri çəkilir. Zəhmli səs kənd mollasınındır. Molla:

—Cəhənnəmdə böyük bir ilan var, uzunluğu burdan göyə qədər. Məhşər cünü o cəhənnəmdən çıxıb gələcək. Soruşacaqlar: sən kimi axtarırsan. Cavab verəcək, mən o kəsləri axtarıram ki, müqəddəs Ramazan ayında namaz ğılmır, oruc tutmur, dözməyib ağzına bircə dənə də olsun darı qoyub ya dodaqlarını bircə damlayla isladıb.

Əhməd cəld yerinə, Cəlilin yanına qayıdır. Onlar da başqaları kimi duanın sözlərini vird edirlər.

Kəndə axşam düşüb. Zəif şam şöləsiylə işıqlanmış pəncərələrin biri Gəlilgilindir. Cəlilin valideynləri, özü , bir də dayısı Hacı namaz qılırlar.

Hardansa bir pişik peyda olur. Rahat-rahat otaqda gəzişir, xalçanın üstünə sərilmiş, üstünə yeməklər düzülmüş süfrəyə yanaşır. İftar vaxtıdır. Namaz qılanlar pişiyin hərəkətlərini izləyir, ancaq onu qova bilmirlər — namazı pozmaq olmaz. Hacı dua edə-edə ancaq səsini qaldırır, amma pişik buna məhəl qoymur. Bu bir məzəli mənzərədir və balaca Cəlili gülmək tutur, gülümsünür, amma dayısı Hacının qəzəbli baxışlarını görüb özünü yığışdırır.

Balaca Əhməd kəndin qaranlıq küçələriylə qaçır, gəlib Cəlilgilə çıxır.

Cəlilgilin ailəsi iftar açır.

Əhməd töyşüyə-töyşüyə Hacıya müraciət edir:

—Hacı əmi, dədəm məni sənin yanına göndərdi, naxoşdur, yorğan-döşəkdədir, namazın qıla bilmir. Neyləsin?

Hacı:

—Nasazdı, yorğan-döşəkdədirsə elə yatdığı yerdə qılsın namazın.

—Axı heç tərpənməyə də taqəti yoxdur.

—İndiki heç taqəti yoxdur, onda qoy yatan yerdə dua eləsin və gözləriylə namaz qılsın.

Əhmədin atası Məmmədhəsən əminin yoxsul daxması. 50 yaşlı xəstə Məmmədhəsən əmi yorğan-döşəkdə taqətsiz uzanıb, dua pıçıldayır və gözlərini o tərəf bu tərəfə hərləyir, guya bu tərzlə namaz qılır.

Əhməd buna baxır və Cəlil kimi onu da gülmək tutur.

İşıqlı gün. Çinar kölgəsində Cəlil, Əhməd, onların tay-tuşları. Cəlil dayısı Hacını yamsılayaraq dua oxuyur və guya ki, pişiyi

qovmaq üçün səsini ucaldır.

Uşaqlar gülüşür. Sonra Əhmədin oyun çıxarmaq növbəsi çatır, Məmmədhəsən əmi kimi yerə uzanır və gözlərini o yan-bu yana hərləyərək guya namaz qılır. Uşaqlar uğunub gedir. Əhməd get-gedə daha çox həvəsə düşür, amma birdən birə ağrıdan qışqırır.

Xudayar bəy balaca Əhmədin qulağından yapışıb dartır, Əhməd ağrıdan bağırır.

Xudayar:

—Mürtəd uşağı mürtəd, dinimizi ələ salırsız?

Uşaqlar qaçışıb gedir. Bircə Cəlil qalır, Əhməd ağrıdan qışqırır.

Birdən kimsə Xudayarın biləyindən yapışıb sıxır bu İskəndərdir.

İskəndər:

—Uşağın qulağını burax — deyir.

Xudayar əlini çəkir, Əhməd də, Cəlil də qaçıb gedirlər. Xudayar nifrətlə İskənləri süzür:

—İstəyirsən ki, bunlar da sənin kimi dinsiz-imansız olsun — deyir.

Kəndin kənarında, səfalı bir yerdə uşaqlar İskəndəri dövrəyə alıblar. İskəndər onlara nə isə maraqlı bir şey danışır, Hərəkətlərindən aydın olur ki, səma cisimləri, günün, ayın hərəkəti haqqında məlumat verir. Uşaqlar heyranlıqla dinləyirlər. İskəndərin jestlərindən o da aydın olur ki, o, yerin guya öküzün buynuzu üstündə dayandığı əfsanəni də danışır və uşaqlar ürəkdən gülüşür.

Uzaqdan çavuşun — Kərbəlaya gedənlərin bələdçisinin çağırışı eşidilir:

Hər başda var əlaməti-sevdayi Kərbəla
Görsün səfər tədarükünü, karivan gedir.

Karvanın keçdiyi küçədə bir neçə kəndli əyləşib çubuq çəkir. Məmmədhəsən əmi də onların arasındadır.

Birinci kəndli:

—Allah ziyarətini qəbul eləsin Namazəli.

Zəvvar:

—Sağ ol Kərbəlayi Zeynal — deyə cavab verir, — Xoş qalın Kərbalayi Oruc, Kərbəlayi Ağakişi. Salamat qal Məmməd Həsən əmi. İnşallah bir aya qayıdarıq.

Məmmədhəsən:

—Salamat gedib qayıdın… — göz yaşlarını silir — bəxtəvərlər.

Karvan uzaqlaşıb gözdən itir. Kəndlilərdən biri:

—Allaha and olsun, Məmmədhəsən əmi, mən lap sənə məəttəl qalmışam, Sən ki belə mömün kişisən, nə əcəb indiyəcən o qurbanı olduğumun ziyarətinə getməyibsən.

Məmmədhəsən əmi köksünü ötürüb gözlərini silir:

—Ey, ay Kərbalayi Oruc. Allah kasıblığın evini yıxsın. Sinnim ötüb, amma heç cür otuz-otuz beş manat yığıb bir at ala bilmirəm.

—At ala bilmirsən, ulaq al. Birimincisi ulaq atdan ucuzdu, ikimincisi də birisi ziyarətə atnan gedə, başqası ulaqnan gedə, əlbəttə ki, ulaqnan getməyin Allah-taala qarşısında feyzi daha böyükdü.

Başqa bir kəndli:

—Elədir ki, var, hətta piyada getməyin feyzi ulaqnan getməkdən də çoxdu...

Məmmədhəsən əmi:

—Duz deyirsən Kərbəlayi Zeynal, amma mənim nə yaşım o yaşdı, nə canım-başım elə deyil ki, payi-piyada gedim o boyda yolu.

Uzaqlardan yenə çavuşun zil səsi eşidilir:

Hər başda var əlaməti-sevdayi Kərbəla
Görsün səfər tədarükünü, karivan gedir.

Məmmədhəsən əmi yenə ağlayır.

Kərbəlayi Oruc:

—Ürəyivi sıxma Məmmədhəsən əmi, bu səfər baş tutmadı, gələn səfər gedəssən. Nəyin var sat, bir ulaq al. Biz də xərcdən-borcdan eləyib üstünə qoyarıq.

Kərbəlayi Zeynal:

—Əlbəttə, bəs biz bu kişiyə əl tutmasaq dəxi bu müsəlmançılıq olmadı ki…

Məmmədhəsən əminin evi: Məmmədhəsən əmi iri bir torbaya mis qab-qacağı yığır. Arvadı İzzət ona yanaşır, üzüyünü, sırğasını uzadır:

—Al, anamdan qalanlar bir bunlardı, apar sat. Mən lap canımı da verərəm, təki sən Kərbəlaya gedəsən. Kənddə dəxi bir kişi qalmayıb ki, Kərbəlayi olmasın, adamların üzünə baxmağa xəcalət çəkirəm.

İskəndər uşaqlarla gəlib kəndin qırağına çatır.

—Hə, uşaqlar, burdan özünüz gedin, sizi mənimlə görməsələr yaxşıdır... Sabah həmin yerə gələrsiz.

Uşaqlar dağılışır, İskəndər kədərlə onların ardınca baxır. Cəlil bir az arxada qalır, çönüb İskəndərə baxır.

İskəndər çevrilib meşəyə tərəf gedir, ağacların arasında kiçik bir həsir daxması var. İçəridən bir şüşə "Smirnov" arağı çıxarıb başına çəkir.

Uzaqdan Cəlil onun hərəkətlərini izləyir.

Mirzə Cəlilin Bakıdakı mənzili. Mirzə Gəlil çarpayıda uzanıb, gözləri qapalıdır. Kadrarxası səsi eşidilir:

"16-cı ildə Bakıda "Ölülər" pyesimi tamaşaya qoyanda Mirzağa Əliyev Kefli İskəndəru oynayırdı. Demə Naxçıvana gedibmiş. Kimsə ona deyib ki, orda İskəndərin real prototipi var. Bunu eşidəndə dedim: Mirzağa, bu əlbəttə, sənin öz işindir, amma mənim Kefli İskəndərimin heç bir real prototipi yoxdur. Uşaqlığımda da, sonralar da mən bu cür İskəndərləri çox görmüşəm. Rusiyada ya Avropada təhsil alıb vətənlərinə qayıdırdılar, bu mühitdə boğulurdular, təklikdən, gücsüzlükdən, dərddən içkiyə qurşanırdılar. Onlara bəzən dəli kimi baxırdılar. Doğrudan da bəzən çox qəribə hərəkətlər edirdilər.

Həmin kənd məscidi — toplaşanlar mollanın ərəbcə oxuduğu moizəsini dinləyib ağlaşırlar, başlarını bulayır, dizlərinə döyürlər. Birdən molla xoruz buraxır, moizəsinə ara verib içəri keçir, yumurta sındırıb içir. Cəlillə Əhməd bunu görüb bir-birinə göz vururlar. Fürsətdən istifadə edən İskəndər mollanın yerinə qalxır və fransızca şer oxumağa başlayır.

Toplaşanlar mat-mat ona baxır. İskəndər fransızca şerini bitirib camaata müraciət edir:

—Ə, bə niyə ağlamırsız? Soruşuram niyə ağlamırsız?

Kəndlilərdən biri:

—Axı biz qanmadıq sən nə deyirsən.

İskəndər:

—Bə molla ərəbcə dediklərini qanırdız? Niyə onda ağlayırdız, indi ağlamırsız?

Molla tələsik özünü yetirir:

—Rədd ol kafir oğlu kafir — deyir. — Ay camaat, bu haramzadə Allahın evinə şərab şürb eləyib gəlib. Siz necə müsəlmansınız, buna necə dözürsüz?Vurun bu mürtədi!

Camaat İskəndərə hücum edir, onu daşa basır.

Döyülmüş, baş-gözü yarılmış İskəndər qan içində qaçıb kənddən çıxır.

Zeynəb bu səhnəni pəncərədən seyr edir.

Yaralı İskənlər meşədəki həsir daxmasında yerə sərilib.

Zeynəb ehtiyatla ora-bura boylanıb Cəlillə Əhmədi çağırır, onlara kiçik bir bağlama verir.

Əhmədlə Cəlil də ora bura boylana-boylana İskəndərin yanına gəlirlər, bağlamanı açırlar. Bağlamanın içində lavaş-pendir, bir bardaq sərin su var. Cəlil yaş dəsmalla İskəndərin üzünü silir, ona su içirdir.

—Zeynəb göndərib — deyir.

İskəndər zəif gülümsünür, gözləri önündə bir səhnə canlanır. Çərkəzi çuxalı, buxara papaqlı 17 yaşlı İskəndər at belində ovdan qayıdır. Bulağın yanına gəlir.

Bulaq başında gənc, gözəl Zeynəb paltar yaxalayır. Çadrasını bir yana atıb, külək xurmayı saçlarını oxşayır. İskəndər qızın qeyri adi gözəlliyinə heyran-heyran baxır. Zeynəb bu baxışları duyub başını qaldırır, dərhal çadrasını qapıb başına salır. Külək çadranı aparıb çaya atır. Zeynəb lap özünü itirir, İskəndər atını mahmızlayıb çaya girir, çadranı götürüb Zeynəbə verir. Zeynəb sanki gizlənməyi unudaraq boylu-buxunlu gəncə baxır…

Məmmədhəsən əmi əlindəki qəpik-quruşu sonacan sayıb ulaq satan adamın ovcuna qoyur.

Hamı kəndə ulaqla qayıdan Məmmədhəsən əmiyə baxır, Məmmədhəsən əminin sifətində xoşbəxt və məmnun ifadə var. Həyətlərində İzzət də belə sevinclə ulağa baxır. Balaca Əhmədin fərəhinin həddi-hüdudu yoxdur. Atdanıb-düşür, nəvazişlə ulağın boynunu sığallayır.

Bu xoşbəxtlik səhnələri kiminsə həyəcanlı səsiylə pozulur. Kərbəlayi Oruc:

—Məmmədhəsən əmi, ay Məmmədhəsən əmi, kişi nə oturmusan — həyətə daxil olur. — Heç xəbərin var nə olub?

—Nədi, nə olub?

—Kəndə azı on-on beş atlı gəlib, bəlkəm də otuz-qırx.

İkinci kəndli hövlnak həyətə girir:

—Kərbəlayi Oruc, Məmmədhəsən əmi, xəbəriz var? Urusətdə nə kim böyük adam var, hamsı bizim kəndə gəlib. Nəçənnik də gəlib, silist də, inspextor da, uçtel də. Qazi də onnarnandı. Bizim katda Xudayar bəy də böyürlərindədi…

Hər üçü küçəyə çıxarkən bir kəndliylə də toqquşurlar.

—A kişilər, xəbəriniz var? Nə kim böyük adam var, hamsı bizim kəndə varid olub.

—Heç başa düşə bilmirəm bu nə işdi

İndi dördü həyəcanla küçədə addımlayırlar. Başqa bir kəndli

onların qarşısına çıxır:

—Eşidibsiz? Qubernatorun özü də kəndə gəlib

Kərbəlayi Oruc:

—Yox, qubernator yoxdu, amma nəçənnik gəlib, uçtel də onunladır. — Kəndlilər bir-birinin sözünü kəsərək danışmağa başlayırlar — Mən eşitdim qubernator gəlib

—Yox. Yalan sözdu, qubernator yoxdu.

—Qanmıram bu nə işdi, uşaq deyilik ki, nəçənniki də görmüşük, silisti də, mənim bibim oğlu şəhərdə qubernatorun özün də görüb bir kərəm… Amma niyə indi hamsı bir yerdə gəlib kəndə, heç baş açа bilmirəm.

—Nə məsələdir görən? — pıçıltıyla — bəlkəm soldat aparacaqlar.

Kəndlilər böyük təşviş içində:

—Kərbəlayi, yəni deyirsən soldat məsələsidi?

—Düz deyirsən Kərbəlayi. Qorxuram elə soldat məsələsi ola.

—Əşi boşlayın görək. Bu soldat məsələsin hardan çıxardız?

—Bəs onda niyə nəçənnnik də gəlib, silist də…

—Özü də hamısı bir yerdə. Nə olur olsun, gərək ehtiyatlı olaq. Mənim soldatdığa verməyə uşağım yoxdu. Bilin.

—Necə yoxdu, Kərbəlayi. — birdən başa düşür-bəli, bəli, heç mənim də uşağım yoxdu.

—Bizim də yoxdu.

—Gedib oğluma deyim, çölə çıxmasın.

Kəndlilər hərəsi öz evinə doğru gedir. Məmmədhəsən əmi də həyətinə qayıdır, pıçıltıyla:

—Əhməd, Əhməd — deyə çağırır.

İzzət:

—Nə olub?

—Əhməd hardadır? Tez ol onu Kərbalayi Orucgilə göndər. Oların həyətində kərmə qalağı var, Qoy orda gizlənsin, heç burnunu da bayıra çıxarmasın.

—Nə olub axı?

—Deyirlər soldat aparacaqlar.

İzzət:

—Nə, soldat? Əhmədi? — haray-həşir qoparır — Vay , Əhməd, vay oğul!…

—Dayan görüm, vay-şivən salma. Tez Əhmədi Kərbəlayi Orucgilə göndər. Deyərik ki, bizim uşağımız yoxdu…

Kənddə meydan. Hündür yerdə naçalnik, müstəntiq, müəllim Həsənov, qazi və başqaları. Qarşılarında kəndlilər.

Əlində şallaq olan Xudayar bəy kəndliləri dümsüklüyə-dümsüklüyə bir yerə toplayır.

Naçalnik nitq irad edir:

—Milostlivıe qosudarı! Zabota ob obrazovanii vxodit v zadaçu kajdoqo blaqoustroyennoqo qosudarstva i potomu na nas vozlojena vısokaya missiya otkrıtiya odnoklassnoqo zemskoqo uçilişa v vaşem selenii.

Naçalnik sözünə ara verən kimi Xudayar bəy var səsiylə bağırır:

—Yaşasın cənab nəçənnik, (kəndlilərə) — ə dilivizi pişik yeyib, qışqırın da. Yaşasın cənab nəçənnik! Vurrey!

Kəndlilər:

—Yaşasın cənab nəçənnik!

Naçalnik:

—A teper neskolko slov skajet uçitel Qasanov Qasan Movlamverdiyeviç!

Həsənov:

—Milostlivıye qosudari. Ya bezmerno sçastliv, çto stoyü pered vami i prinimayü uçastie v stol velikom prazdnike, kak otkrıtie novoy şkolı, etoqo deystvennoqo fermenta kulturı i sivilizasii. Yavlyayas svoeqo roda laboratoriey dlya priqotovleniya soznatelnıx qracdan i vernıx poddannıx qosudarstva, ona, eta şkola, razvyajet yazık vaşim detyam, nauçit ix qovorit i ponimat vsyakoqo administratora, proxodyaşeqo çerez selo soldata, da soldata.

"Sodlat" sözünü eşidən kəndlilər bir-birinə dəyir. Meydanda yalnız bircə uşaq var, "soldat" sözünü eşidən kimi atası tələsik onun əlindən yapışıb meydandan aparır.

Kərbəlayi Orucun həyətində kənd arvadları ağız-ağıza verib ağlaşırlar:

—Balamı soldat aparacaqlar, balam vay…soldat gedən tifil balam, vay…

Oğluyla meydandan qaçan kəndli həyətə girir, qeyzlə:

—Deməli belə, Kərbəlayi Oruc — deyir — öz uşaqlarınızı gizlətibsiz, mənim oğlumu da demək soldat aparsınlar hə… Başa düşmürəm, mənim uşağımı soldat aparsalar bundan sizə nə fayda. Bəlkə döşüvüzə midal-zad taxacaqlar. Müsəlmanın evini elə bu paxıllıq yıxır da. .

—Nə danışırsan Kərbəlayi Ağakişi. Sənin oğlunu şeytanlayanın evi yıxılsın. Gətir uşağı bura, gətir gizlədək.

Qadınların ağlaşması:

—Balamı soldat aparacaqlar, balam vay.

Onlara uşaqların özü də goşulur

—Bizi soldat aparacaqlar, vay….

Kənd meydanında.

Naçalnik:

—Çto je, spisok malçikov qotov?

Həsənov:

—Vot spisok (oxuyur). Kərbəlayi Zeynal, oğlun hanı?

Kərbəlayi Zeynal:

—Başına dönüm nəçənnik, mənim oğlum yoxdu…

Həsənov:

—Necə yoxdu?.

—Yoxdu da…

Kəndlilər təsdiq edir:

—Yoxdu onun oğlu.

Həsənov siyahını oxuyur:

—Kərbəlayi Səfər:

Kərbəlayi Səfər:

—Mənim də oğlum yoxdu, vallah, billah. Olsaydı, verməzdim soldatlığa? Ağa nəçənnikə canım da qurban. Bir oğul nədi ki, onu ağa nəçənnikə qyımayam? Oğlum-zadım yoxdu. Birdən — balacadı e, nəçənnik ağa, başına dönüm, olsa-olsa yeddi yaşı olar. Ondan soldat olar? O boyda tüfəngi necə daşıyacaq?

Həsənov:

—Nə boş-boş danışırsan kişi, nə soldat, nə tüfəng…

Naçalnik:

—Çto je poluçaetsya qospodin uçitel, poka ni odnoqo malçika nalitso.

Kərbəlayi Zeynal:

—Ayağının altında ölüm nəçənnik ağa, bizim kənddə yerli-dibli uşaq olmayıb.

Naçalnik acıqla Həsənova nə isə deyir. Həsənov Xudayar bəyə müraciət edir:

—Cənab Xudayar bəy. Naçalnik sizdən çox narazıdı. Bir saatdır burda çənə döyürük, bir uşaq da üzə çıxmayıb. Yəni belə böyük

kənddə uşaq yoxdu?

Xudayar bəy şallağını havada yellədir.

—Ay camaat, qulaqlarınızı yaxşı açıb eşidin. Bir aydı mən bu kəndin katdasıyam və hamı bilir ki, mən sidqi ürəklə əlahəzrət padşahımıza və hökümətimizə can-başla xidmət edirəm. Mən qoymanam desinlər ki, nəçənnik bu kənddə məktəb açmaq istədi, amma siz Xudayar bəydən qorxmadınız, uşaqlarınızı gizlətdiniz. Bax deyirəm sizə, bu saat uşaqlarınızı gətirin, yoxsa mən siznən bax bu şallaqnan danışacam.

Şallağını qaldırıb kəndlilərin belinə endirir.

Həsənov:

—Nu zaçem je tak? Camaat, cümlə millətlər oxuyub savad almaq istəyir, amma siz o qədər nevejestvennisiz ki, nə Uşinskini tanıyırsız, nə Pestolotsini. İndiyə qədər qanmayıbsız ki, uçenie svet, neuçenie tma.

Naçalnik:

—Vot, vot, soverşenno verno.

Həsənovun maarifçı çıxışları Xudayar bəyin şallaq səsləriylə müşayiət olunur. Kişilər ağrıdan zarıyır, apvadlar vay-şivən qoparır, Xudayar bəyin sifəti qəzəbdən əyilib.

Mirzə Cəlilin kadrarxası səsi:

—Bəli, balaca adam deyil bu Xudayar bəy. Əslinə qalsa əvvəllər bəy-zad deyildi, katda Kərbəlayi İsmayılın ən yaxın əhbabı və əlaltısı idi. Amma elə ki, Kərbəlayi İsmayıl rəhmətə getdi, Xudayar onun yerinə katda oldu, əlinə bir şallaq alıb dedi ki, mən day Xudayar deyiləm, Xudayar bəyəm. Kim ki ona bəy yox, eləcə Xudayar deyirdi, salırdı qoduqluğa. Azı otuz-qırx adamı bu babətdən həbs elədi. Amma insafən demək lazımdı ki, Xudayar köhnə dostu Kərbəlayi İsmayılın ailəsini də başına buraxmadı. Elə ki, rəhmətliyi basdırdılar, Xudayar bəy onun dul övrəti Zeynəbi almaq fikrinə duşdu.

Zeynəbin evi. Zeynəb balaca qızını yatızdırır, ona laylay çalır və ağlayır.

Qonşu Səkinə arvad gəlir.

—Nədi, yenə ağlayırsan, ay abadanın qızı, özünü üzərsən ki… Ölənlə ölmək olmaz. Bir toxta görək.

—Ağlamayım, neyləyim ay Səkinə xala.

—Naşükür olma qızım, Allaha xoş getməz. Ölüm Allah əmridir.

Lazım bilib ki, sənin ərini də o dünyaya aparsın, Mömin, dindar adam idi rəhmətlik, yəqin indi yeri cənnətdi.

—Allah ağzından eşitsin, Səkinə xala. Amma bundan mənə nə hacət.

—Dedim ki, naşükür olma, qızım, Gör bir rəhmətlik sənə nə var-dövlət qoyub gedib. Ev-eşik, mal-mülk, cəvahirat… Heç şikayət etməyin yeridir.

—E, ay Səkinə xala, bəyəm xoşbəxtlik var-dövlətdədi?

—Yox, amma gərək var-dövlətin də qədrini biləsən, ağılla işlədəsən. Day havaya sovurmayasan. İndi sən dul qalmısan, özün də maşallah cavan , gözəl cöyçək övrətsən, bilirsən sənə nə qədər adamın tamahı düşəcək. Mal-dövlətivə də göz tikənlər olacaq, özüvə da…Məbadə bir adama söz verəsən.

—Sən nə danışırsan ay arvad. Ərimin meyidi bəlkəm heç torpaqda soyumayıb, mənim indi təzə ər barədə fikirləşmək vaxtımdı?

—Ay sağ ol. Bax elə Xudayar bəy də belə deyir.

—Xudayar bəy? Xudayar bəyin buna nə dəxli var?

—Necə nə dəxli var? Xudayar bəy rəhmətlik Kərbalayi İsmayılın ən yaxın dostu-əhbabı deyildi bəyəm? Can deyib, can eşidərdilər. Məni də sənin yanına o göndərib. Deyir bax, məbadə Zeynəb bir adama söz verə. Onü özüm alacam.

Zeynəb ilan çalmış kimi yerindən sıçrayır:

—Nə? Xudayar məni alacaq?Ay arvad, başıva hava gəlib?

—Sənə lap mat-məəttəl qalmışam qızım, Xudayar bəy ərivin ən yaxın dostuydu, qardaş kimiydilər. Belədi, belə deyil? Çox əcəb, Sən də cavan gəlinsən, gərək hökmən ərə gedəsən. Belədi belə deyil? İndi mənə cavab ver. Olarmı ki, Xudayar bəy dura-dura dostunun arvadı da, mal-mülkü də başqa bir qurumsağa qismət ola?

—Deməli Xudayar bəy belə dost imiş. Bax, get Xudayar bəyə de. Beş il yox, lap əlli il də ərsiz qalaram, təki Xudayar bəyin o murdar sifətini, o əyri burnunu görməyim…

—Nahaq yerə belə inad edirsən, qızım. Xudayar bəyin qızı axı oğlun Vəliqulunun deyiklisidi. Xudayar bəyə getməyə razı olmasan, bu nişan da pozulacaq. Dedi, Zeynəbə elə belə de. .

—Çox yaxşı. İndiki Xudayar qızını mənim oğluma vermək istəmir, mən də heç onun qızını Vəliquluya almaq istəmirəm.

—Özün bilən yaxşıdı — deyə Səkinə arvad ayağa durdu,

çadrasını başına saldı, qapıya tərəf getdi, qapıda çönüb Zeynəbə dedi:

— Hə, Xudayar bəy onu da dedi ki, rəhmətlik ərinin ona iki yüz manat borcu varmış. Dedi ki, day ayrı söz-söhbət olmasın, Zeynəb tez o borcu mənə qaytarsın…

—Yaxşı dost imiş Xudayar.

Səkinə yenə Zeynəbi dilə tutmağa başlayır:

—Qulaq as, qızım. Nahaq yerə işi belə düyünə salırsan. Bilirəm ki, Xudayar səndən əl çəkən deyil. Nə qədər tez razılaşsan özünçün də, balalarınçın də yaxşı olar. Yaxşı, axır sözün nədi?

—Axır sözüm — Zeynəb bir an fikrə getdi — Axır sözüm odu ki, qoy Xudayar anqırsın tayın tapsın.

Səkinə tələsik qapıdan çıxmaq istərkən içəri girən Vəliquluyla toqquşur, yıxılır.

—Vay, ombam sındı…

Vəliqulu:

—Sənsən Səkinə xala? — qolundan tutub onu qaldırır — nə olub, niyə belə özündə deyilsən?

—Anandan soruş. Başına ağıl qoy onun. Sən də day uşaq deyilsən ki…

Xudayar bəyin bahalı xalılarla döşənmiş mənzili. . Hirsindən-hikkəsindən qap-qara qaralmış Xudayar sulu qəlyan çəkə-çəkə Səkinə arvadın "hesabatını" dinləyir:

—Başın haqqı, elə beləcə dedi. Dedi Xudayara de ki, anqırsın tayın tapsın.

Xudayar:

—Heç eyb etməz, Mən onun başına bir oyun açım ki, anadan əmdiyi süd burnundan gəlsin.

Zeynəbin evi. Vəliqulu hay-küy qoparıb:

—Deməli belə, deməli oğlunun xoşbəxtliyi sənінçün bir qara qəpiyə dəyməz. Mən, sənінçün deməli heç nəyəm. Nə olar? Əgər belədirsə, biz daha sənінlə bir evdə yaşaya bilmərik. Mənim payımı ver, mən gedirəm bu evdən.

Zeynəb yalvarır:

—Nə danışırsan, ay oğul. Sən deyildin dədənin ölümündən sonra mənə ürək-dirək verən? Demirdin mənim dayağım olacaqsan?

—Bəs sən məni adam yerinə qoymursan, məni adaxlımdan ayırırsan. Sən…

Vəliqulu qışqır-bağır salır, səsə balaca bacısı oyanır, ağlayır. Zeynəb onu qucağına alıb ovudur, Vəliqulu hirslə qapını çırpıb gedir …

Xudayarın evi. Evin arvadlar oturan tərəfində Səkinə Xudayarın arvadı Şərəfi əhvalatdan agah edir. Şərəf üzü əsəbdən titrəyə-titrəyə dinləyir.

O biri otaqda Xudayar və Vəliqulu. Xudayar mütəkkələrə söykənib oturub, təsbeh çevirir, Vəliqulu onun qarşısında günahkar kimi dayanıb.

Xudayar:

—Yox, Vəliqulu, mən dəxi sənə inanmıram. Əgər sən evdə əsl kişisənsə anan nə qələt eləyə bilər. İndi bu evin də, mal-mülkün də sahibi sənsən. Harda görünüb ki, övrət evin kişisinin bir sözünü iki eləsin.

Vəliqulu:

—Qurbanın olum əmi, sən de, mən neyləməliyəm eləyim. Ne deyirsən eləyim də. Nə məsləhətin var de, baş üstə.

Arvadlar tərəfində Səkinə söhbətini davam edir, Şərəf dinməz-söyləməz dinləyir.

Xudayarın otağı.

Xudayar:

—Onda gəl belə eləyək. Sən qal bizdə. Amma heç kəs bilməsin. Anana da xəbər göndərək ki, Zeynəb borcu qaytarmadığı üçün Xudayar oğlunu dama basıb. Görək onda anan neyləyəcək. Ananın ağlı başına gələnə qədər qal burda.

—Baş üstə, əmi. Sən necə desən elə olsun.

Bu vaxt Şərəf haray-həşirlə otağa daxil olur.

Şərəf:

—Məlun oğlu, məlun, bütün cehizimi yeyib üstündən su içibsən, sənə gələndən bir xoş gün görmədim. İndi bu qoca yaşımda üstümə arvad alırsan, it oğlu it.

Xudayarın üstünə atılır. Saqqalından yapışır. Əvvəl özünü itirən Xudayar yerindən sıçrayıb Şərəfin saçlarından yapışır. Hər ikisi bağırır.

Səkinə və Vəliqulu onları ayırmağa çalışırlar.

Xudayar təngnəfəs halda:

—Allaha and olsun, əgər mənim işimə qarışsan səni tikə-tikə doğraram. — Şallağını əlinə alıb Şərəfi qırmaclayır — Bax bu

şallaqla bütün qabırğalarını sındırram. Sənin nə işinə evlənirəm ya evlənmirəm. Nədi, evimə güclü cehiz gətirmişdin ki, indi mənimlə çənə-boğaz olursan. Mən nədi evlənəndə səndən izn istəməliyəm?

Şərəf:

—Evlənirsən cəhənnəmə evlən, gora evlən. Amma onda məni boşa. Mən bu yaşımda sənin o cavan arvadının nazıynan oynayan deyiləm.

—Bax, bu başqa məsələ. Çox əcəb, çox da pakizə. Razıyam. Elə belə də edərik. Günü sabah səni boşayaram. Onda başa düşərsən ki, ərin qabağında söz demək nədi. Elə sabah şəhərə, qazinin yanına gedəcəm. Sənə də, cümlə bu kənddəkilərə də həddinizi göstərrəm. Arvad olasan, mənim üstümə xoruzdanasan? Çox əcəb, elə sabah şəhərə gedəcəm.

Həyətlərində Məmmədhəsən əmi ulağını yemləyir, sığallayıb oxşayır.

Kəndlilərdən biri həyətin yanından keçir, Məmmədhəsən əmiylə salamlaşır.

—Yaxşı ulaqdı — deyir.

Məmmədhəsən əmi məmnun-məmnun gülümsəyir.

—İnşallah haçan gedirsən ziyarətə?

—Çavuşu gözləyirik də. Deyirlər iki-üç günə kəndimizə gələsidi.

—Sağ get, salamat qayıt. Ziyarətin qəbul olsun…

Böyük tövləni məktəb kimi istifadə ediblər. Divarda qara lövhə, coğrafi xəritə, vurma cədvəli və bir at şəkli asılıb. Həsənov dərs deyir. Sinifdə aralarında Cəlil və Əhməd olmaqla xeyli uşaq var. Onların ataları — papaqlı kişilər də divar boyu oturublar.

Həsənov:

—Durun — uşaqlar durur. Valideynlər də dururlar. —Oturun. Kim doskanı göstərə bilər. Cəlil.

Cəlil qara lövhəni göstərir.

Həsənov:

—Yaxşı.

Kərbəlayi Oruc mürgü döyən nəvəsini dümsükləyir:

—Əsəd , bala, sən də göstər.

Həsənov:

—Kərbəlayi Oruc, xahiş edirəm uşaqlarla danışma. Dünənki dərsi təkrar edək. Mustafa, sən.

Mustafa:
—Qoyun, keçi, it, pişik, at, öküz, inək…
Əhməd:
—Uçtel, birini demədi.
—Nəyi demədi?
—Dananı
Kərbəlayi Zeynal:
—Paho, böyük iş oldu. Dananı demədi, — çubuğunu odlayır.
Həsənov:
—Kərbəlayi, sinifdə çubuq çəkmək olmaz. Olmaz, olmaz. Şagirdlərlə danışmaq, dərsə mane olmaq da olmaz. Dərsimizi davam edək. — şəkildəki atın başını göstərir — bu nədi? Zülfəli, sən de.
Zülfəli:
—At…
Həsənov:
—Yox, düz deyil. Bir yaxşı düşün.
Zülfəlinin babası Kərbəlayi Ağakişi:
—Dəxi nə düşünsün. Atdı da, balam at döyül?
Həsənov məzəmmətlə ona baxır.
—Səbzəli, sən de.
—Bu atdı.
Həsənov:
—Düz deyil.
Kəndlilər başlarını bulayır.
Həsənov:
—Belə demək lazımdı — bu at şəklidi. Bir yerdə. Xorom.
Uşaqlar və kəndlilər:
—Bu at şəklidi.
Həsənov:
—Yox. yox, yenə düz demədiz — öz başını göstərir: — bu nədi?
Hamı mat-mat bir-birinə baxır.
Həsənov:
—Bu mənim başımdı. Təkrar edin.
Uşaqlar:
—Bu mənim başımdır.
Həsənov lap hövsələdən çıxır:
—Yox, yox sənin yox, mənim başımdır. Deyin görüm: bu sənin başındır.

Uşaqlar:
—Bu sənin başındır.
Həsənov:
—Xoroşo. (Şəkildəki atın başını göstərir) İndi deyin görüm.
Şagirdlər:
—Bu sənin başındır.
Həsənov:
—Aman Allah, adam dəli olar. Yox. yox, Belə demək lazımdır: bu atın başıdır. Təkrar edin: bu atın başıdır.
Uşaqlar təkrar edir:
—Bu atın başıdır.
Həsənov:
—Xoroşo— atın qulağını göstərir: — Bəs bu nədi? Əsəd, sən de.
Əsəd:
—Atın qulağı.
Həsənov:
—Yox.
Kərbəlayi Zeynal:
—Yaxşı onda özün de, atın qulağı deyil nədi?
Həsənov:
—Kərbəlayi, əgər dərsə mane olsan səni bayıra çıxaracam.
Əhməd:
—Uçtel biz eşşək almışıq.
Həsənov:
—Əhməd, bala, məgər mən soruşdum ki, siz nə almısız? Hə, soruşdum, cavab ver.
Əhməd:
—Yox, soruşmadız.
Həsənov:
—Cəlil, soruşdum?
Cəlil:
—Yox, sorumadız.
Həsənov:
—Çox yaxşı, Onda bir yerdə: yox, soruşmadız. Xorom.
Hamısı təkrar edir:
—Yox, soruşmadız.
Həsənov:
—Otliçno.

Əsəd:

—Uçtel bizim də atımız var.

Həsənov:

—Aman Allah. .

Kərbəlayi Oruc:

—Əsəd, oğul, yəqin bu yazıq uçtel ömründə at görməyib. Get, atımızı gətir bura, görsün başı hardadır, qulağı harda…

Həsənov:

—Kərbəlayi, axırıncı dəfə səndən xahiş edirəm, dərsə mane olma.

Əsəd durub qapıya tərəf gedir. Həsənov:

—Hara gedirsən Əsəd, dərsimiz qurtamayıb.

Əsəd:

—Gedim atımızı gətirim.

Hamı gülüşür. Həsənov:

—Məni ələ salmısınız? Keç bucaqda dayan.

Əsədi üzü divara küncə qoyur. Kəndlilər başlarını bulayır. Uşaqlardan biri — Mustafa durub qapıya tərəf gedir.

Həsənov:

—Sən hara belə?

Mustafa:

—Uçtel, yaman acmışam, gedib yeyim, gəlirəm. — Cavab gözləmədən qapıdan çıxır. Həsənov ardınca qışqırır:

—Mustafa, Mustafa! Qayıt! Belə iş olar? Siz nevejestvennı adamlarsız. Gərək siz müəlliminizə, yəni mənə hörmət edəsiz. İznsiz sinifdən çıxmayasız, danışmayasız. Hamınız bilməlisiz ki, müəllimlik çox çətin peşədi. (Xəyalpərvər bir ədayla davam edir) Yadımdadı, biz seminariyanı bitirəndə, qubernator gəlib bizimlə vidalaşdı. Elə yaxşı sözlər dedi ki. Dedi özü, yəni o, qübernator cənabları bizə həsəd çəkir. Çünki siz, dedi, Qafqazın ən uzaq kəndlərinə gedib uşaqlara savad, bilik verəcəksiz. Heyf ki, mən, yəni qubernator, sizin yerinizdə deyiləm. Bütün rütbələrimi, ad-sanımı, vəzifəmi verərdim, təki sizin kimi kəndlərdə uşaqlara bilik öyrədim.

Kəndlilər və uşaqlar bir şey anlamadan dinləyirlər.

Mustafa hövlnak qayıdır:

—Uçtel, Əsədin nənəsi böyük bir çomaq alıb əlinə, bura gəlir. Bilirsən nə böyük çomaqdı…

Sözünü qurtarmamış Səkinə arvad, əlində iri bir çomaq sinfə daxil olur.

—Hanı mənim balam? — deyə qışqırır, — e, ay uçtel, bu yazığ uşağı niyə üzü qibləyə qoyubsan, burnu divara dirənib. Görüm sənin bu şkolun dağılsın. Bu saat səni bir günə qoyaram ki —çomağı hərləyir.

Həsənov (cır səslə):

—Çıx get, çıx get.

Kərbəlayi Ağakişi:

—Ay arvad, abrın-hayan olsun — deyir — burda hamsı kişilərdi, sən də başı açıq girmisən içəri. Ayıbdı, çıx get.

Səkinə:

—Sən sus görüm — deyə Əsədi divardan aralayır, Həsənovu itələyib divara dirəyir. İndi elə bil Həsənovun özünü güncə qoyublar.

Səkinə nəvəsinin əlindən yapışıb sinifdən çıxarır.

Həsənov qanrılıb ürkək-ürkək baxır, sonra yerinə qayıdır:

—O boje, belə şəraitdə dərs demək olar? Elə bu saat naçalnikə raport yazacam.

Masanın arxasına keçib yazmağa başlayır.

Kəndlilər bərk qorxuya düşür. Kimsə gedib Xudayar bəyi çağırır.

Kərbəlayi Oruc:

—Uçtel, qurban olum, evimizi yıxma. Yazma. Döy bizi, söy bizi, nə istəyirsən elə, amma yazma, istəyirsən mənim oğlum səhərdən axşamacan güncdə dursun, istəyirsən lap elə mən özüm güncdə dayanım, amma yazma. Bizə yazığın gəlsin.

Həsənov bu sözləri eşitmirmiş kimi yazır. Kəndlilər daha da çox həyəcanlanırlar. Xudayar bəy əlində şallaq daxil olur. Kəndlilər Həsənovu göstərib Xudayarın qulağına nəsə pıçıldayırlar.

Həsənov yazıb qurtarır, ərizəsini zərfə qoyur. Kəndlilər tələş içindədi.

Xudayar boğazını arıtlayıb deyir:

—Hörmətli cənab uçtel. Mən bu saat bu nadürüstlərin dərsin verəcəm. Başın haqqı atamın oğlu deyiləm, hamsını qazamatda çürütməsəm. Özlərini də, uşaqlarını da. (Həsənova, mülayim). Amma daha nəçənnikə başağrısı vermək nə lazım?(Kəndlilərə, qəzəblə) Hamıvızı dama basacam, köpək uşağı.

Kəndlilər:

—Allah səndən razı olsun, Xudayar bəy. Allah atana rəhmət eləsin.

Xudayar bir-ikisini şallaqlayır, sonra yenə son dərəcə yumşaq

səslə Həsənova müraciət edir:

—Yazarsan nəçənnikə, o da elə bilər ki, Xudayar bəy bu nadürüstlərlə bacarmadı, kənddə qayda-qanun yarada bilmədi, deməli yerində deyil. Amma atamın qəbrinə and olsun, bunların hamsını türmədə çürüdəcəm, bax bu şallaqla məcbur edəcəm ki, sənin uşkoluna gəlsinlər. Amma yazma, başına dönüm yazma. Yazdığını cır at.

Kənqdlilər:

—Sən o bir Allah, cır at.

Xudayar:

—İş ondadır ki, bunlar çoxdan şallaq yeməyib.

Həsənov:

—Xudayar bəy. Şallaqla elm olmaz, dərs olmaz. Nə Pestolotsi, nə Komenski, nə Uşinski belə metodları məqbul saymazdı. Bunlar gərək özləri başa düşsün ki, uçenye svet, neuçenye tma.

Xudayar bəy:

—Allaha and olsun, qızıl sözlərdi. Yaşasın üçtel Həsənov. (Kəndlilərə) Ə, niyə səsiniz çıxmır. Yaşasın uçtel Həsənov.

Kəndlilər:

—Yaşasın uçtel Həsənov.

Həsənov:

—Böyük Lomonosovu götürün. O da adicə bir kəndçi balasıydı. Amma görün haralara ucaldı. Hamsı da zəhmət, bilik, savad sayəsində.

Xudayar:

—Vallah ağzından dürr tökülür cənab uçtel. Amma yalvarıram, cır at o kağızı.

Kəndlilər:

—Evimizi yıxma uçtel.

Həsənov əlindəki zərfi cırıb atır.

Kəndlilər rahat nəfəs alır.

Xudayar lovğa-lovğa kəndlilərə baxır.

Həsənov:

—Amma unutmayın: Uçenye svet, neuçenye tma.

Kəndin kənarında həmin yerdə İskəndər və uşaqlar. Əhməd siniflərindəki dərsi, Həsənovu yamsılayır:

—Üçenye svet, neuçenye tma.

İskəndər gülür.

Cəlil dəftərinə nə isə yazır. İskəndər:

—Gəlil də elə hey yazır, yazır. Deyəsən axı sən mirzə olacaqsan, hə? Mirzə Gəlil.

Cəlil gülümsünür.

Məmmədhəsən əminin həyəti. Yenə ulağını oxşayır. Xudayar bəyin zəhmli səsi eşidilir. Xudayar bəy əlində şallaq divarın yanında dayanıb

—Məmmədhəsən əmi — deyir — çıxart eşşəyini, şəhərə getməliyəm. Nəçənnik çağırıb.

Əvvəl-əvvəl karıxıb qalan Məmmədhəsən əmi:

—Bu saat, bu saat, baş üstə — deyə-deyə ulağı həyətdən çıxardır. Xudayar ulağın belinə minir.

Küçənin o başında Əhməd və Cəlil görünürlər. Əhməd ulağın belində Xudayarı görüncə yerindən sıçrayır, qaçıb gəlir, ulağın quyruğundan yapışır.

—Qoymaram, qoymaram — deyir — qoymaram ki, mənim eşşəyimi aparasan. Dədə, hara aparır mənim eşşəyimi?

Məmmədhəsən əmi oğlunu sakitləşdirməyə çalışır:

—Bala, bir toxta görək. Eşşəyinə nə olacaq ki, Xudayar əmin…Xudayar bəy əmin şəhərə gedir, axşama qayıdacaq, eşşəyin də gəlib çıxacaq.

Əhməd qışqırır:

—Yox. yox, qoymaram. — Eşşəyin quyruğunu buraxmır — qoymaram aparsın.

Xudayar çevrilib qəzəblə ona baxır:

—İt oğlu it — deyir — korsan, görmürsən məni…

Əhməd yenə də eşşəyin quyruğun buraxmır.

—Qoymaram, qoymaram.

Xudayar şallaqla Əhmədin başından vurur. Əhməd yıxılır. Xüdayar bir şallaq da eşşəyə çəkib tələsik uzaqlaşır.

Məmmədhəsən əmi oğluna tərəf atılır.

Əhmədin üzündə şallaq yeri — qançır var. Amma dişini-dişinə sıxıb daha ağlamır, uzaqlaşan Xudayarın arxasınca nifrətlə baxır.

Tozlu yollarla Xudayar eşşək belində şəhərə tərəf gedir. Yol boyu rastlaşdığı kəndlilər ona təzim edirlər.

Xudayar kiçik əyalət şəhərciyinə girir, karvansaranın yanına gəlir. Ulaqdan düşüb karvansaraçı Kərbəlayi Cəfərlə görüşür…

—Kərbəlayi Cəfər — deyir — apar qat bu eşşəyi tövlənə. İki

saatdan sonra gəlib aparacam.

Burdan Xudayar bəybir başa bazara gəlir, iri kəllə qənd alır, çuxasının altında gizlədir. Ora-bura döyükə-döyükə gəlib bir evin qapısı qarşısında dayanır. Taqqül-babı döyəcləyir, üst-başını düzəldir, mötəbər görkəm alır.

Qapı açılır. Saqqallı yaşlı adam — qazı — soruşur.

—Kimi istəyirsən?

—Mən kəndimizin katdası Xudayar bəyəm, Qazı lazımdı mənə.

—Qazı nəyinə gərəkdir?

—Onunla vacib işim var.

Qazının iti gözləri Xudayarın çuxası altında gizlətdiyi kəllə qəndi görür

—O nədi elə, çuxanın altında gizləmisən?

—Qənddir. Xeyir işin şirinliyidir, xeyir işimiz var.

—Yaxşı, gəl içəri — deyə qazı Xudayarı evə dəvət edir və eyni zamanda çığırır:

—Dəf olun, qonağımız var.

Tələsik qaçışıb gedən qadınları arxadan görürük

Qazı Xudayarı böyük otağa gətirir, Xudayar bəy başmaqlarını çıxarıb içəri keçir, ora-bura döyükür...

Bir azdan qazı gəlir, amma o indi başqa qiyafədədir. Ağappaq çuxa, əmmamə. Əlində müsür təsbeh. Oturur, Xudayarı da dəvət edir ki, əyləşsin.

—De görüm işin nədi?

—Qazi sənsən?

—Bəli.

Xudayar bir az təəccüblənir, sonra kəllə qəndi çıxarıb ortaya qoyur.

—Qazı ağa, ərz etdim ki, bu qənd şirinlikdir. Xeyir iş üçün gəlmişəm yanına. Evlənmək istəyirəm, gərək kəbin kəsəsən.

—Evlənmə yaxşı işdi. Allah xeyrə calasın. Bu saat kəbinini kəsərəm, siğəni oxuyaram.

—Bəli, amma…

—Daha nə amma?

—Axı deyəsən şahidlər də gərəkdi.

—Əlbəttə, bəs necə, hanı şahidlərin? Çağır gəlsinlər işi tamam edək.

—Şahidləri gətirmək çətin iş deyil, amma…

—Nə amma canım?

—İş ondadır ki…

—Hə, nədədi iş, ürəyimizi çəkmə. .

—İş ondadır ki, bizim kənddə bir dul övrət var. Onu almaq istəyirəm. Amma kimsə onu tovlayır ki, mənə getməsin.

Qazı diqqətlə Xudayara baxır. Xudayar:

—Heç cür razı olmur övrət. İndi, Qazı ağa, gərək sən bu işə bir əncam çəkəsən.

Qazı:

—Get, həpənd. gətirdiyin iki girvənkə qənddi, zornan gətirim övrəti qatım sənin qoynuna? Get burdan…

—Allaha and olsun, qazı ağa, sən bu işdə mənə kömək eləsən, sənin yolunda başımı da verərəm.

—Sənin başın mənim nəyimə gərəkdir, bəradər. Mənə bax bu lazımdı, bu — əliylə kəllə qəndi sığallayır.

—Sən nə danışırsan qazı ağa. Sən məni nə bilmisən. Sən bir kəllə rus qəndi deyirsən, mən sənə on bir kəllə gətirrəm. Nədi mənim pulum yoxdu? Vallahi heç vaxt sənin kimi ağaların yanında xəcalətli qalmanam. Nə qədər desən pulum var…

—Allah artıq eləsin. Mən adam tanıyanam, səni görən kimi dedim ki, hə, bax bu mən deyən adamdı. Mən səndən bir kəllə yaxşı rus qəndi alacam, vəssalam.

—Bu da gözüm üstə, qazı ağa. Bu saatca — getmək istəyir.

Qazı onu saxlayır.

—Tələsmə. Mən axı gərək elmi kitablara baxım, görüm bu mətləbi necə həll eləmək olar. Hər şey gərək qanun qaydayla olsun axı — Rəfdən qalın kitablar götürüb vərəqləməyə başlayır — Hə, görürəm ki, bu məsələ bir az tuldur. Deməli bir kəllə qənd gətirmək istəyirsən, çayı da yanında həmi?

—Əlbəttə — Xudayar yenə durub getmək istəyir.

—Tələsmə, tələsmə, bəradər. Hara tələsirsən. İndiki xərcə düşəcəksən onda pulunu boş yerə səpələmə. Yaxşı çay Popovdu, qənddəki, məsləhət edirəm ki, Karapetin dükanından alasan. Bu günlərdə ora yaxşı qənd gətiriblər — Brodski.

Xudayar:

—Prodski — deyə təkrar edir.

—Hə, indi gedə bilərsən, sən get tədarükünü gör, mən də bu kitablara baxım görüm nə çarə eləyirəm. Amma hər halda gərək iki

şahidin olsun.

—İki? Əşi, mən bir papaq eləsəm kənddən lap qırx şahid gələr. Katdanın sözündən çıxan olar?

Xudayar artıq qapıdan çıxırdı ki, qazı yenə onu səslədi

—Bəradər, söz yox, burada bir xilafi şəriət əməl yoxdu, amma çünki belə işlər az düşür, bu səbəbə gərək bizim bu işimiz ikimizin arasında qalsın.

—Nə danışırsan qazı ağa, mən bəyəm uşaq-zadam

Məmmədhəsən əminin evi. Əhməd heç cür sakit ola bilmir. Hirsindən, ağrıdan zar-zar ağlarır.

—Vay, vay, vay, mənim eşşəyim hanı? Kim apardı mənim yazıq eşşəyimi?

Məmmədhəsən əmi:

—Oğul, dur görüm, niyə canını üzürsən, Axşam katda gətirəcək də eşşəyimizi. Yeməyəcək ki, onu. Ağlama.

İzzət kinayəylə ərinə:

—Gözlə, ay gətirdi ha — deyir — kənddə hamı danışır ki, Xudayar sənin eşşəyini körpünün tikintisinə aparıb, daş daşıtdıracaq ona. Əlbəttə kənddə ayrı heyvan tapılmadı, gərək elə sənin eşşəyini aparaydı. Axı bilir ki, sən dilsiz-ağızsız adamsan, heç Xudayarın sözünün qabağında söz deyərsən?

Məmmədhəsən əmi başını aşağı salıb oturub. Arvadının dediklərinə cavab vermir. İzzət daha da qızışır:

—Bilmirəm nə fikir eləyirsən? Sabah birigün zəvvarlar yola çıxır. Bu yazıq heyvan səni o boyda yola aparacaq, Gərəkməzmi belə uzun yola çıxmamışdan bir hovur dincini alsın. İki ay o başa, iki ay bu başa. Yazıq eşşək necə dözsün buna.

Arvadının sözlərinə cavab verməyən Məmmədhəsən əmi mağmın-mağmın baxır. Bu an onun görkəmi elə yazıq və eyni zamanda elə gülməlidir ki, Əhməd gülməyə başlayır. Qəribədir ki, Məmmədhəsən əmi də oğlunun güldüyünü görüb gülür.

İzzət lap özündən çıxır:

—Gül, gül…Səndə bir damcı abır-həya yoxdu. Bütün qonşular çoxdan kərbəlayi olublar, sən arvad kimi elə evində oturub qalassan. Yüz cür əzab əziyyətlə aldığımız bu eşşək də daş daşımaqdan üzülüb öləcək.

Əhməd sanki bu sözü indicə eşitdi:

—Nə daş?

İzzət:

—Bəs bilmirsən? Bizim yazıq eşşək indi körpüdə daş daşıyır.

Əhməd sıçrayıb otaqdan qaçır.

Məmmədhəsən əmi:

—Əhməd, Əhməd, hara gedirsən?

Əhməd tozlu yollarla şəhərə tərəf qaçır. Bir az öncə həmin bu yollarla Xudayar bəy keçib getmişdi,

Karapetin dükanı. Divarda "hallıca-dulluca" bir qadının şəkli.

Xudayar bəy daxil olur, kamal ədəblə dükan sahibiylə salamlaşır. Çubuğunu çıxardır.

—Bir kirbitivi çək , xozeyin — deyir.

Karapet:

— Görmürsən ki, bura dükandı, çıx get burdan.

—Sən nahaq yerə hirslənirsən xozeyin. Görürəm ki, bura dükandı. Mən də gəlmişəm səndən mal alım. Qənd almaq istəyirəm səndən.

—İndi sən məndən yarım kilo qənd alacaqsan deyə durub sənin ayağına düşməliyəm.

—Sən nahaq yerə mənimlə bu tövr danışırsan xozeyin, mən o adamlardan deyiləm ki, səni yarım kilo qənd üçün narahat edim. Mən böyük bir kəndin katdasıyam. Xudayar bəy. Mən səndən iki kəllə qənd alacam.

Karapetin dərhal sifəti dəyişir, nəzakətlə danışmağa başlayır.

—Bəy, mən nə deyirəm ki, yəni mən sənə qənd satmaq istəmədim, eli? Belə can başla sataram, məzhəb haqqı. Ey, axçi, mənim dostum bəyə bir stəkan yaxşı çay süz gətir. Kirbit çıxarıb Xudayarın çubuğunu odlayır. Xudayar bir qullab vurur.

Əhməd qaça-qaça tozlu yollardan keçir.

Döşu-başı açıq ağ əndamlı erməni qızı işvəylə bir stəkan çay gətirib Xudayarın qarşısına qoyur. Xudayar gah onun divardakı şəklinə, gah da açıq sinəsinə baxır.

Karapet onu şirin xəyallardan ayırır:

—Yaxşı, əzizim bəy, nə qədər qənd lazımdı sənə?

—Neçəyə verəcəksən qəndi?

—Qardaşım bəy. Sən qiymətini pikirləşmə. Sən bax gör sənə necə gözəl qənd verəcəm. Brodski. Məzhəb haqqı bütün şəhərdə bu cür qənd tapa bilməzsən. Amma dostluğumuz xatirinə sənə ən yaxşısını gərək seçəm.

Bir-bir rəfdəki kəllə qəndləri götür-qoy edir, guya ən yaxşısını axtarır.

—Yox bu sənin adına yaraşmaz. Bu da pis deyil, amma dostum bəyə layiq deyil. Hə, bax bu lap əlasıdır.

Əhməd şəhərin dar küçələriylə qaçır. Birdən dayanır. Eşşəyin anqırtısını eşidir, səsindən tanıyır, səs gələn tərəfə — karvansaraya qaçır. Əhməd karvansaraya daxil olur, qulaq verir ki, səs hardan gəlir. Kərbəlayi Cəfər ona yaxınlaşır:

—Nə istəyirsən?

—Mənim eşşəyim hardadır?

—Nə eşşək?

Karapetin dükanı. Xidmətçi qız boş stəkanları yığışdırır. Xudayar iştahla onun çılpaq baldırlarına baxır .

Karvansara. Əhməd eşşəyinin səsi gələn tövləyə tərəf getmək istəyir, Kərbəlayi Cəfər onu qovur, axır ki, uşağın qulağını ələ keçirir. onu dartır. Əhməd ağrıdan qışqırır, Kərbəlayi Cəfər uşağı karvansaranın qapısından küçəyə atır.

Küçədən keçən fayton gölməçədəki suları Əhmədin üzünə çırpır.

Karapetin dükanı.

Karapet Xudayarın qabağına kəllə qənd qoyur.

—Buyur. Məzhəb haqqı yüz verst gəz, lap belə Tiflisə, Bakıyacan get, belə qənd tapa bilməzsən.

—Yaxşı, neçə verməliyəm sənə?

Karapet saymağa başlayır:

—Bu belə, bu da belə, bu heç, keçirəm dostum bəy üçün. Demək ki, cəmisi beş manıt.

—Nə — Xudayarın gözü kəlləsinə çıxır, əlbəttə bu qədər pulu yoxdu, amma özünü sındırmaq da istəmir. — Beş deyirsən, beş olsun. Mən xırdaçı adam deyiləm, bir manıt o yana, bir manıt bu yana. Biz ki, sənlə dostuq.

Xudayar iki kəllə qəndi götürüb öz yanına qoyur, sonra Karapetə müraciət edir:

—Hə, indi bildin da mən kiməm?

Karapet bir qədər şübhəylə:

—Kimsən ki? — deyə soruşur.

—Mən kəndimizin katdası Xudayar bəyəm — və sanki tanış olmaq üçün əlini uzadır.

Karapet də təəccüblə ona əl verərək:

—Mən də ikinci cildiya kupets Karapet ağayam.

—Deməli belə, mənim əziz dostum və qardaşım Karapet ağa. İndi dunya elə etibarsız olub ki, gərək heç kəsə inanmayasan. Görürsən bir haramzada gəldi, basdı, kəsdi, sora da çıxdı getdi. İzi, tozu qalmadı. Amma sənlə mən abırlı adamlarıq, sözümüz sözdü — ayağa durur, kəllə qəndləri çuxasının altında gizlədir. Biz sənlə dost kimi, qardaş kimi açıq danışmalıyıq. İş ondadır ki, səhər kənddən gələndə yadımdan çıxıb pul götürməmişəm. İndi mən bu qəndi götürüm, inşallah sabah sübh tezdən sənin beş manıtını gətirrəm.

Karapet bir şey demir, mat-mat Xudayara baxır, sonra kəllə qəndləri onun çuxasının altından çıxarıb əvvəlki yerinə qoyur. Xudayara tərəf çevrilir və əvvəlki tək sakit tərzdə qapını göstərir:

—Çıx get burdan, supa oğlu supa.

Məmmədhəsən əmi evinin qabağında oturub çubuq çəkir. Fikirlidir. Arvadının ağlamasını eşidir, qulaq verir, sonra çağırır:

—İzzət, İzzət

Cavab yoxdur.

Məmmədhəsən əmi otağa girir, Küncdə İzzət dizlərini qucaqlayıb oturub.

Məmmədhəsən əmi:

—İzzət!. .

İzzət:

—Korsan, görmürsən ki, mənəm, nə istəyirsən?

—Ağlamaq səsi eşitdim. sən idin ağlayan?

İzzət susur.

—Bilirəm, sənsən. Allaha and olsun, nahaq qanını qaraldırsan, Xudayar bəy mütləq eşşəyi qaytaracaq.

İzzət partlayır:

—Cəhənnəm olsun Xudayar bəy də, sənin eşşəyin də, sən özün də…Mən o andıra qalmış eşşəyin xiffətin eləmirəm, oğlum yazığın dərdin çəkirəm. Hardadır yazıq, başına nə bəla gəlib? Axı belə hövsələsizdi. Gedər özünü quyuya atar, sənin görürəm vecinə deyil. İstəyir oğlun itsin, istəyir eşşək —borcuna deyil. Yazıq balam, Əhməd, hardasan?

—Ağlama, sən tanrı ağlama, eşşəyi də qaytaracaq, Əhməd də gəlib çıxacaq. Bəlkə də gəlib kəndə, Cəlilgilə gedib ya uçtelgilə. Gedim tapım onu.

Şəhərdə karvansara. Xudayar bəylə Kərbəlayi Cəfər xalçanın üstündə oturub bozbaş yeyirlər.

Xudayar təəssüflənir:

—Heyf, heyf ki, mən burda olmamışam, vallahı o köpək oğlunun canını alardım. Böyük iş olub, əyyamda bir dəfə eşşəklərini istəmişəm. Durub dalıycan şəhərə gəlib. Eyib etməz, kənddə dərslərini verərəm, uşağın da, atasının da… Allah haqqı mən burda olsaydım əlimdən salamat qurtara bilməzdi. Nadürüst oğlu nadürüst — bozbaş yeyə-yeyə davam edir. — Bura bax Kərbəlayi Cəfər, sənə bir işim düşüb. Mənə beş manıt borc ver.

Tikə Kərbəlayi Cəfərin boğazında qalır, öskürür, birtəhər özünə gəlib:

—Nə danışırsan kişi — deyir — mən ömrümdə bu qədər pulu bir yerdə görməmişəm. Hardandı məndə beş manıt?

—Yoxundu, bir adamdan borc al.

—Məzən olsun, a kişi. Bu zamanada kim sənə bu qədər pul borc verər. İstəyəcəksən, deyəcək o qiymətdə bir şeyi girov qoy.

—Çox yaxşı, sən elə bir adam tap beş manıt versin, mən də yanında girov qoyum.

—Sənin nəyin var ki, girov da qoyasan.

—Bax o eşşəyi girov qoyaram.

Kərbəlayi Cəfər gülməyə başlayır.

—Ha, ha, ha… A kişi sən nə baməzə adamsanmış. Bəyəm eşşək sənindir ki, girov da qoyasan. Eşşəyin sahibi gələcək, istəyəcək eşşəyini, onda necə olsun, hə? Ha. ha, ha…

—Asta gül, boğazında qalar. De görüm Məmmədhəsən əmi kimin yanında, hansı şahidin yanında bu eşşəyi sənə etibar edib, hı? Mən gətirmişəm, eşşəyini də məndən istəsin. Qoy bir mənim yanımda eşşək söhbəti salsin, vallahı başına bir oyun açaram ki, özü dönüb olar uzunqulaq. Onun böyüyü mən deyiləm? Salaram onu ayağımın altına, basaram palçığın içinə tapdalaram.

—Özün bilən yaxşıdır. Hə. yadıma düşdü, hardansa cibimdə beş manıt qalıbmış, tamam yadımdan çıxmışdı. Verim onu sənə, əlbəttə sən də eşşəyi girov qoy.

—Mən o eşşəyi girov qoymuram, sənə bağışlayıram. İstəyirsən sat, bağışla, nə istəyirsən elə… Məmmədhəsən əmi gəlsə de ki, eşşəyi oğurlayıblar. Vəsslam. Çox çəm-xəm eləsə göndər mənim yanıma.

Kərbəlayi Cəfər üzünü yana çevirir, cibindən xeyli pul çıxarır, sayıb bir hissəsini Xudayara uzadır.

—Ay sağ ol. Ömrün uzun olsun. Day gecdi, kəndə qayıtmayacam, elə burda sənin karvansaranda gecələyərəm.

Kənd qaranlığa qərq olub, Yalnız bir pəncərədən zəif şam işığı gəlir, — Məmmədhəsən əminin evindən. Pəncərənin qarşısında İzzət dayanıb, çölə baxır və ağlayır:

—Allah sənə lənət eləsin Xudayar bəy, ömründə bir xoş gün görməyəsən, necə ki, biz görmürük.

Karvansara. Xudayar bəy yuxudadır. Xoruldayır. Yuxuda görür ki, gözəl Zeynəb onu qucaqlayır, öpür, oxşayır…

Həqiqətdə isə gerçək Zeynəb öz evində çırpınır. Kadrarxası səsi:

—Aman Allah — deyir — nədi mənim günahım ki, bu idbar Xudayar oğlumu dama basıb? Onun nə günahı var, mənim nə günahım var? Əgər Xudayarın o adamaoxşamaz sifətin görəndə ürəyim bulanır, qusmağım gəlirsə mən necə ona arvad ola bilərəm?

Elə bu vaxt Xudayar yuxusunda yenə də Zeynəbi görür, Zeynəb boyunbağını, barmağındakı üzükləri, bir-bir çıxarıb Xudayarın boynuna salır, barmaqlarına keçirir. Sırğalarını da çıxarıb Xudayar qulağına taxmaq istəyir, qulağını deşəndə Xudayar qışqırıb oyanır.

Otağın o biri tərəfində uzanmış Kərbəlayi Cəfər:

—Ditdilidi — deyir — aman vermirlər ki, gözümüzün çimirini alaq.

Əhməd yorğun-yorğun kəndə tərəf gəlir, qurdların ulamasını eşidib qorxur, yüyürməyə başlayır. Kəndin girəcəyində atası Məmmədhəsəni görür, ona tərəf atılır: — Dədə…

—Oğul, Əhməd — uşağı qucağına alır — a bala yanırsan ki, qızdırman var…

Səhər çağı Məmmədhəsən əmi kənddən şəhərə tərəf addımlayır.

Qazının otağı. Qazının qarşısında iki kəllə qənd. Qazı qalın kitablardan ərəbcə nə isə oxuyur. Xudayar və Kərbəlayi Cəfər diqqətlə qulaq asırlar.

Qazı:

—Allahın köməkliyiylə siğə oxudum. Yaxşı bə sənin şahidlərin hanı? Gərək gəlin tərəfindən də şahid olsun.

—Allah-taala ömrünü uzun eləsin, qazı ağa — deyir Xudayar və Kərbalayi Cəfəri göstərir — bax budu şahid, özü də gəlinin oğludu.

—Nə, oğlu?

—Özüdü ki, var, Zeynəbin oğlu Vəliqulu budu.

Qazı qırx-əlli yaşlı Kərbəlayi Cəfəri diqqətlə süzür:

—Budu gəlinin oğlu, bəs gəlinin neçə yaşı var?

Xudayar:

—Gavar qırx-qırx iki olar.

Qazı Kərbəlayi Cəfərə müraciət edir:

—Bəradər bə sən neçə yaşındasan?

—Nə bilim qazı ağa, kimdi bizim yaşımızı yazan? Qırxdan, əllidən olar da…

Qazı üzünü Xudayara tutur:

—Ay haramzada, məni dolamısız?

—Allah göstərməsin qazı ağa, sənin kimi mömin adamı heç dolayaram mən. Bu uşağın da olsa-olsa 20-25 yaşı olar, Gün vurub, belə yaşlı görünür. Yoxsa onun nə yaşı var, quzu baladı, quzu bala… — Kərbalayi Cəfərin başını sığallayır. — İndi nə deyirsən qazı ağa, iki şahid üçün təzədən bu qədər yolu yortub kəndə qayıdım? Bəs bu qəndi neyləyim, özümlə aparım, gün altında ərisin? Bir xeyir iş gör, indiki başlamısan tamam elə… Ağzımızı da şirin eləyək.

—Ah avam kəndlilər, haçan adam olacaqsız? Yaxşı bura qol qoyun görüm.

Xudayar və Kərbəlayi Cəfər bir-birinə baxır.

Qazı:

—Nədi?

—Qazı ağa, ərz eləyim ki, ikimiz də savadsızıq. Nə yaza bilirik, nə oxuya…

Qazı:

—Müsibətsiz, müsibət… Sizdən nə umasan, avam, cahil adamlarsız da… Yaxşı (Xudayara) barmağını bura batır, bura da bas (Kərbəlayi Cəfərə) indi də sən. Yaxşı, indi o biri barmağını bas, bu da olsun ikinci şahid. Çox gözəl, hər şey qayda-qanunla oldu.

—Deməli Qazı ağa, dəxi Zeynəb mənim kəbinli arvadım oldu.

—Bəli, əlbəttə.

—Bəs razı olmasa mənim evimə gəlməyə.

—Harda görünüb ki, arvad ərindən ayrı evdə yaşasın. İndi o sənin kəbinli arvadındı. Çəm-xəm eləsə nəçəlnikə şikayət elə, o da pristava tapşırsın, pristav gəlib onu leş kimi dartıb aparar sənin evinə.

—Allah səndən razı olsun, qazı ağa.

Məmmədhəsən əmi uzun-uzadı yol gedir.

Kərbəlayi Cəfər Məmmədhəsən əminin ulağını həmin o adama satır, o adama ki, Məmmədhəsən əmi ulağı elə ondan almışdı. Kərbəlayi Cəfər məmnum gülümsəyərək pulları cibinə qoyur.

Məmmədhəsən əmi yollardadır.

Karvansara. Kərbəlayi Cəfər nahar eləyir. Məmmədhəsən əmi gəlir, kamal-ədəblə salamlaşır, Kərbəlayi Cəfər salamını almır.

Məmmədhəsən:

—Kərbəlayi, atan rəhmətlik, mənim eşşəyimi tovlədən çıxart, aparım onu kəndə, bu gün-sabah zəvvarlar yola çıxacaq.

Kərbəlayi Cəfər tikəsini çeynəyə-çeynəyə bu sözlərə məhəl qoymur.

—Kərbəlayi, atan rəhmətlik — Məmmədhəsən yenə yalvarmağa başlayır — axı yazıq heyvan da dincəlməlidir. O boyda yol gedəcək. Çıxart onu tövlədən, Kərbəlayi…

Kərbəlayi Cəfər birdən onun üstünə çəmkirir:

—Cəhənnəm olun, sən də, sənin eşşəyin də, nə yapışmısan eşşək, eşşək… Nə eşşək? Bura eşşək-zad gətirmisən? Haçan, kimin yanında eşşəyi mənə tapşırmısan? Deyən sənin başın xarab olub kişi…

—Ay Kərbəlayi, başına dönüm, axı bilirəm eşşək sənin karvansarandadı. Oğlum da dünən onu görüb. Bizim kəndin katdası gətirib onu bura, Xudayar bəy.

—Katda gətirib, get ondan soruş, Mənim buna nə dəxlim var?

—Axı eşşək burdadı.

—Burda heç bir eşşək-zad yoxdu.

—Apardılar? Kim apardı?

—Kim gətirmişdi, o da apardı.

—Xudayar bəy?

—Bilmirəm day hansı bəy. Kim gətirmişdi, o da apardı.

—Hara apardı?

—Cəhənnəmə apardı, gora apardı — deyə qışqırır. — Mən nə bilim, qoymazsan bir tikə zəhrimarımızı yeyək?

Məmmədhəsən əmi şəhərin küçələriylə gedir, dəftərxananın qabağına gəlib çıxır. Fayton gəlib dayanır. Naçalnik və əsabələri faytondan düşüb qapıya tərəf gedirlər. Naçalniki görən Məmmədhəsən əmi ona tərəf atılır:

—Naçalnik ağa, başına dönüm, bizim kəndin katdası Xudayar bəyi görməmisən ki? Deyirdi ki, sən çağırmısan onu şəhərə. İş ondadı ki, mənim eşşəyimi aldı, bu gün sabah da zəvvarlar yola çıxacaq. Eşşək

yazıq gərək bir az dincəlsin axı…

—Kakoy eşe k çertu işak? — deyir naçalnik, keçib gedir.

Yanındakılar Məmmədhəsən əmini itələyirlər.

Məmmədhəsən əmi lap qulağının dibində səs eşidir:

—Deməli belə, Məmmədhəsən əmi — bu Xudayar bəydir — deməli məndən nəçənniyə şikayət eləyirdin.

Məmmədhəsən əmi Xudayar bəyi görüb sevincək:

—Nə danışırsan Xudayar bəy — deyir — Mən sənin yerini soruşurdum, çox şükür özün qabağıma çıxdın.

—Demək belə — Xudayar bəy dodaqaltı danışır, — məndən şikayət eləməyə gəlmisən. Heç eyib etməz. Sənlə kənddə danışaram.

—Nə deyirsən Xudayar bəy, vallah-billah şikayət etmək fikrim yoxdu, ancaq elə sənin yerini bimək istəyirdim.

—Yaxşı, Məmmədhəsən, şikayət elə, elə… əlbət kəndə qayıdarıq

Xudayar bəy dəftərxananın qapısını açıb içəri girir.

Məmmədhəsən əmi mağmın-mağmın onun ardınca baxır.

Zeynəbin evi. Molla, Xudayar, Vəliqulu Zeynəbin qarşısında durublar.

Molla:

—Bacı, axırıncı dəfə səni xəbərdar edirəm. Xilafi şəriət iş tutma.

Zeynəb:

—Axı mənim günahım nədi?

Molla:

—Gunahın odu ki, qanunu ərinin evində gedib oturmursan. Bəyəm bilmirsən ki, sən indi Xudayar bəyin kəbinli övrətisən, hər işdə də gərək onun sözünə baxasan.

—Mən haçan, harda, kimin yanında razılıq vermişəm ki, Xudayar bəyə övrət olum?

Xudayar Vəliquluya işarə edir. Vəliqulu:

—Mənim yanımda, Sən məni vəkil elədin, mən də qazıya sənin razılığını bildirdim.

Xudayar:

—Yəni bu boyda şeyi də danmaq olar?

Zeynəb ona məhəl qoymadan oğluna müraciət edir:

—Utanmırsan Vəliqulu, belə ağ yalan danışırsan?

Molla:

—Bacı, işi cəncələ salma. Səni yəni zorla sürüyüb aparsınlar

Xudayar bəyin evinə, ayıb deyil? Camaat nə deyər?

Vəliqulu:

—Bax, ana, əgər razı olmasan, mən elə günü bu gün evdən çıxıb gedərəm, sənə də dəxi ana demərəm.

Xudayar:

—Qulaqlarını aç, eşit ay arvad. Qazı kəbini kəsib, nəçənnik kağıza qol çəkib, möhür də basıb. Hər şey qanunladı. Əgər sən qanuna məhəl qoymasan, səni zorla məcbur edərlər. Qazıya da, nəçənnikə də xəbər yollayaram ki, filan övrət qanuni ərinin evində yaşamaq istəmir, özü də pis yola düşüb. Onda bilirsən nə olar?

—Belə iş tutma, bacı, razı ol.

Vəliqulu:

—Razı ol, vəssəlam.

Xudayar:

—Hə, axır sözün nədi?

Zeynəb pıçıltıyla:

—Razıyam — deyir.

***

Mirzə Cəlilin Bakıdakı mənzili. Həmidə xanım tikiş tikir, Mirzə Cəlil yerindən durur və divardan asılmış kamançasını götürüb həzin-həzin çalmağa başlayır. Həmidə xanım sonsuz kədərlə bu yanıqlı çalğını dinləyir.

***

Kəndə fayton gəlir. Faytondan avropasayağı geyinmiş sinli bir kişi düşür. Bu Rəşid bəydir.

Kənd məktəbinin həyətində Rəşid bəy və Həsənov gəzişirlər.

Tənəffüs vaxtıdır, şagirdlər həyətdə qaçışır, oynayırlar.

Həsənov:

—Sizi əmin edirəm Rəşid bəy, bu kənddə siz bir nəfər də olsun uşaq tapa bilməzsiz ki, gedib Qori seminariyasında oxuya bilsin. Hamısı nevejestvennı adamlardı, ataları da, özləri də…

Rəşid bəy:

—Ola bilməz, ola bilməz ki, bu boyda kənddə bir-iki qabiliyyətli uşaq tapılmasın. İntəhası onları savadlandırmaq lazımdır, onlara bilik vermək lazımdır.

—Vı rassujdaete abstraktno, a ya imeyu delo s konkretnımi uçenikami. Neçə vaxtdı, mən dəridən qabıqdan çıxıram ki, bunlara bir şey öyrədim, heç bir faydası yoxdu. Bu divardı —cəhalət,

nevejestva divarı.

—Hər bir divarın pəncərəsi də olmalıdır, yoxdursa bu pəncərəni açmaq lazımdı — elm, maarif pəncərəsini.

Həsənov:

—Belələriylə nə elm, nə maarif, nə mərifət — deyə qaçışan uşaqları göstəir.

Rəşid bəy balaca Cəlilə diqqət edir:

—Bir baxın, bu uşağın necə ağıllı gözləri var.

—Hörmətli Rəşid bəy, siz mənə nəyi sübut etmək istəyirsiz? Siz bura gəlmisiz ki, Qori seminariyasında oxumaq üçün bir-iki uşaq seçəsiniz. Mən də sizə so vsey otvetstvennostyu deyirəm ki, beləsi burda yoxdu. Bu kənddən heç vaxt oxumuş adam çıxmayıb, çıxmayacaq da. Xatırlayırsınızsa Pestolotsi deyib ki...

—Dayan, dayan, yaxşı yadıma düşdü. Bizim məzunlardan biri elə bu kənddəndi, İskəndər. Çox zəkalı cavan idi.

—Bəli, bəli, İskəndər. Bu kənddən çıxmış yeganə oxumuş adam. İndi gedin baxın o nə haldadır. Əyyaş, pyanitsa, miskin bir varlıq…

—Hardadır o?

Meşədə, İskəndərin koması qarşısında Rəşid bəy və İskəndər. İskəndər azacıq dəmdi.

—Sənin bu gününü görməyəydim İskəndər —kənara atılmış boş araq şüşələrini göstərir. —Mən bütün məzunlarımızla əlaqə saxlayıram. Bircə səndən xəbər-ətər yoxdu. Sən də gör nə haldasan. Seminariyada sənə bunu öyrətmişdik?

—Əziz Rəşid bəy, seminariya başqa, həyat başqa. Bizə söylədiyiniz o gözəl sözlər, yüksək ideallar hamısı həyatla rastlaşanda heç oldu, puç çıxdı. Xalq bizim yox, o saqqallı mollaların sözünə qulaq verir. Bizim aqibətimiz isə ya o Həsənov kimi lağa qoyulmaqdı, ya da mənim kimi içkiyə qurşanmaq…

—Duz demirsən, duz demirsən İskəndər. Hər bir ziyalı gərək bütün çətinliklərə sinə gərsin, nadanlığa, cəhalətə meydan oxusun. Mirzə Fətəli rəhmətliyi yada sal. Ya elə Həsən bəy Zərdabini. Başına nə oyunlar açmadılar Həsən bəyin… Danos yazdılar, üstünə çirkab atdılar. Amma o geri çəkilmədi. Çünki gələcək haqqında düşünürdü. Özü də yalnız düşünmürdü, bu gələcəyi hazırlayırdı. Əziz İskəndər, biz gələcəyi necə hazırlasaq, gələcək də elə olacaq… Elə mənim özümün başım elə bilirən az çəkib? Nə böhtanlar deməyiblər, nə danoslar verməyiblər mənim barəmdə…

—Siz güclü adamsız Rəşid bəy, Həsən bəy də güclü adamdı, rəhmətlik Mirzə Fətəli də… Amma mənim gücüm çatmadı. Sındırdılar məni, əydilər, bükdülər.

İskəndər komasına girib ordan bir zəng çıxarır:

—Yadınızdadır? — deyir

—Yox. Hardandır bu…

—Bizim seminariyanın həyətində asılmışdı. Siz bu zəngi çalıb bizi dərsə çağırırdınız. Buraxılış günü mən bu zəngi "oğurladım", yadigar kimi saxlamaq istəyirdim. Xam xəyal idi, başa düşürəm, amma mən arzulayırdım ki, mən də kəndimizdə bu zənglə uşaqları elmə, maarifə çağırım. Heç bir şey çıxmadı, əvvəl-əvvəl məni lağa qoydular, ələ saldılar, sonra da qovdular. Mən də bax bu yerdə insanlardan, onların avamlığından, nadanlığından uzaq bir guşədə məskən saldım. Başa düşün Rəşid bəy, mən bu mühitlə barışa bilmirəm, bu adamların arasında yaşaya bilmirəm. Mehrimi bir uşaqlara salmışdım, onlara da valideynləri mənimlə görüşməyi qadağan etdilər.

—Gərək mübarizə edəydin.

—Gücüm çatmadı. Yəni mən də o əbləh uçtel Həsənov kimi imperiyanın küt təbəələrini hazırlamalıydım? Uşaqlar onun necə dərs deməsindən mənə danışıblar. O uşaqların arasında elələri var ki, Həsənovdan min pay ağıllıdır. Məsələn Əhməd — ayıq başlı, diri uşaqdı, iti müşahidəsi var, adamı elə təqlid edir, elə yamsılayır ki, elə bil əsl artistdir. Ya Cəlil… Hər şeyi görür, hər şeyi müşahidə edir, dəftərinə də nə isə elə hey yazır. Amma çifayda, nə Əhmədin, nə Cəlilin axırı bir yerə çıxmayacaq. Bu bataqlıqda çürüyüb gedəcəklər.

Rəşid bəy:

—Necə dedin? Əhməd, Cəlil… —dəftərinə yazır.

***

Cəlilgilin evi. Rəşid bəy və Cəlilin atası. Cəlil qapının dalından onların söhbətlərini dinləyir.

—Vallah mənim bir sözüm yoxdu, amma bizim evin böyüyü, ağsaqqalı Hacıdı, dayımız. Görək o nə məsləhət eləyir.

Rəşid bəy kəndin küçələri ilə gedir. Cəlil qaçıb onun yanına gəlir:

—Uçtel, böyük uçtel — deyir.

—Nədi, bala?

—Mən demək istəyirəm — həyəcandan səsi əsir — demək istəyirəm…mən sizinlə gedəcəm…oxumağa. Atam qoymasa,

qaçacam.

—Elə niyə, bala. Atan məncə ağıllı və xoşxasiyyət adamdı. Başa düşməlidi ki, bizim zəmanəmizdə savad almaq ən vacib işdir. Hər şey yaxşı olacaq, səni də, sənin dostun Əhmədi də Qoriyə aparacam. Əhmədgilin evi hansıdır?

Məmmədhəsən əminin evi. Məmmədhəsən əmi doqqazda oturub, dərin fikirlərə qərq olub. Rəşid bəyə:

—Mən bilirəm —deyir, — onun naxoşluğu da eşşəyin xiffətini eləməkdəndi.

Cəlil otağa cumur.

Bir dəri, bir sümük qalmış Əhməd yataqdadır. Güclə gözlərini açıb Cəlilə baxır. Çətinliklə sözləri tələffüz edir:

—Cəlil — deyir — al bizim hayıfımızı Xudayardan. Söz ver ki, alacaqsan…

Dəhşətli qadın qışqırığı.

Qışqıran İzzətdir — Əhmədin anası.

Kəndin küçələriylə Əhmədin meyitini aparırlar. Qabaqda Molla Əlrəhman oxuyur. Meyidin ardınca Məmmədhəsən əminin qoluna girmiş kəndlilər gedirlər.

Bir tərəfdə arvadlar ağı deyir. Hamısı çadradadır, yalnız biri — İzzət bütün qanun-qaydaları saymadan açıq üzlə vay-şivən edir, saçlarını yolur, üzünü cırır:

—Vay Əhməd, vay bala. Hara gedirsən Əhməd, sənə kim qıydı bala. Evimizə bu bəlanı salanın evi dağılsın, vay bala, vay Əhməd.

Öz evinin pəncərəsindən bu səhnəni Xudayar bəy seyr edir….

Cəlilin gözləri dolub, özü quruyub qalıb. İskəndər yanındadır.

—Yaxşı bax, Cəlil, yadında yaxşı saxla. Bir vaxt bütün bunları yazarsan. Mütləq yazmalısan.

Cəlilgilin evi. Atası Hacıyla söhbət edir.

Hacı:

—Başına at təpib Məmmədqulu, bu nə fikirdi gəlmisən. Oğlunu kafərlərin arasına göndərmək istəyirsən ki, onların murdar dinini qəbul etsin, donuz əti yesin, şərab istemal eləsin, İskəndər kimi əyyaş olsun… İstəyirsən papağımızı yerə soxsun. Yox, yox, məbadə, bu fikri at başından. Mən özüm ona quran oxumağı öyrədəcəm. Uçtel Həsənov da az-maz ruscanı öyrədər, kifayətdi.

—Yox, mən gedəcəm, gedəcəm — deyə Cəlil qışqırıqla otağa daxil olur, rəflərdəki kasaları, qab-qacağı götürüb yerə çırpır,

sındırır. Məmmədqulu da, Hacı da uşağın bu gözlənilməz çılğınlığına mat-məəttəl qalıblar, elə bil dilləri tutulub.

Faytonda Rəşid bəy və yol paltarında balaca Cəlil. Ata-anası faytonun ardınca su atırlar.

Fayton meşənin yanından keçəndə İskəndər yüyürüb gəlir. Fayton dayanır, İskəndər əlindəki zəngi Cəlilə verir:

—Al, Cəlil — deyir — bunu məndən yadigar saxla…

Kəndin o biri tərəfində çavuş zəvvarları səsləyir.

Hər başda ki, var əlaməti sevdayi Kərbəla
Görsun səfər tədarükünü, karivan gedir.

Zəvvarlar kimi dəvə, kimi at, kimi eşşək belində çavuşa tərəf axışır.

Məmmədhəsən əmi də ona yanaşır, bir məkiub uzadır.

Çavuş:

—Bu nədi Məmmədhəsən əmi? — deyə soruşur.

Məmmədhəsən əmi cavab verə bilmir, ağlayır.

Çavuş:

—Nə olub Məmmədhəsən əmi? Bə sən bizimlə getmirsən? Axı hazırlaşırdın.

—Qismət deyilmiş, Kərbəlayi olmaq mənə qismət deyilmiş. Al bu kağızı… Xahiş elədim, molla yazdı. Bu kağızı qurban olduğumun qəbrinə qoyarsan. Şikayətimdi. Bəlkəm imam rəhm elədi… Qoy bilsin mənim dərdimi… Gedə bilmədim, onun ziyarətinə gedə bilmədim… Qoymadılar. Eşşəyimi oğurladılar, yedilər, oğlumu dərd öldürdü, övrətim ağlını itirdi… Yalvarıram çavuş, bu kağızı imama çatdır. Qoy bizə rəhm eləsin, bağışlasın məni ki, gedə bilmədim… qoy bağışlasın…

—Qəm yemə, Məmmədhəsən əmi, bu səfər gedə bilmədin, gələn səfər gedərsən inşallah.

Məmmədhəsən əmi artıq onun sözlərinə qulaq asmadan qəbiristanlığa tərəf gedir.

Başdan ayağa qara çadraya bürünmüş qadın çavuşa yanaşır. Bu Zeynəbdi. O da çavuşa kağız verir:

—Qurban olum çavuş — deyir — bu kağızımı al apar, imamın qəbrinə. Bircə ona umudum qalıb. Xudayar malımı yedi, sonra da məni çölə atdı. Oğlumu da aldatdı, qızını vermədi ona, indi Vəliqulunu qapısında nökər saxlayır, qızımı da qaravaş… — Ağlayır. — Axı ola bilməz, ola bilməz axı, Allah bu zülmü yerdə

qoysun. Heç kəs yəni bizim hayıfımızı çıxmayacaq Xudayardan?

—Sakit ol bacı. Həzrət imam hər şeyi görür, hər şeydən agahdı, hər şeydən xəbərdardı, sənin hayıfını da çıxacaq. Lap arxayın ol. Bu zülmü yerdə qoymaz imam.

Rəşid bəylə Cəlilin faytonu gedir.

Zəvvarların karvanı da yoldadır. Qabaqda ağ at belində çavuş.

Faytonla karvan qarşılaşırlar. Zəvvarlar Rəşid bəyi və Cəlili süzürlər. Rəşid bəylə Cəlil də karvana baxır, sonra yolları ayrılır, hərə bir tərəfə gedir, əks istiqamətdə hərəkət edir.

Fayton qəbiristanlığın yanından keçir. Saçları çiyninə tökülmüş İzzət qəbirlərin arasıyla dolaşır. Qucağında sanki bələyə bürünmüş uşaq var. İzzət bələyi köksünə sıxıb həzin-həzin lay-lay deyir.

Qəbrin qırağında dərddən donub qalmış, sanki daşa dönmüş Məmmədhəsən əmi oturub.

Cəlil kədərlə onlara baxır, Qulağına Əhmədin səsi gəlir:

—Heyfimizi çıx Cəlil…Çıx heyfimizi Xudayardan….

Mirzə Cəlilin Bakıdakı mənzili.

Mirzə Cəlil qaranlıq pəncərəyə baxır. Pəncərədə yağış damcıları.

Mirzə Cəlil əlini uzadıb yaş pəncərəni silir. Pəncərə arxasında balaca Əhmədin sifəti görünür.

Mirzə Cəlil:

—Sənin istədiyini elədim Əhməd.

Əhməd gülümsünür. Mirzə Cəlilin də sifətində xoş, rahat bir təbəssüm görünür.

Son

1985

ÜZEYİR ÖMRÜ

(iki seriyalı bədii filmin ədəbi ssenarisi)

1981-ci ildə çoxdankı arzumu həyata keçirə bildim — Üzeyir Hacıbəyli haqqında iki seriyalı bədii film çəkdim. Böyük Azərbaycan bəstəkarı haqqında filmin ssenarisi üzərində işə başlarkən mən, şübhəsiz, bütün çətinlikləri və məsuliyyəti nəzərə almışdım. Amma hər şey mən düşündüyümdən həm daha çətin, həm də daha maraqlı oldu.

Real tarixi şəxsiyyət, bizdən çox da uzaq olmayan vaxtda yaşamış insan haqqında, məsələn Üzeyir Hacıbəyli haqqında əsər yaratmağın çətinliyi nədədir? Birinci növbədə Üzeyir Hacıbəyli şəxsiyyətinin — bəstəkar, alim, publisist, ictimai xadim kimi fəaliyyət göstərmiş bu böyük insanın miqyas ölçülərində. Ü.Hacıbəylinin yaradıcılıq yolu — yalnız tək bir adamın, tək bir dahi sənətkarın ömrü deyil, bütün Azərbaycan musiqisi və səhnə sənətinin yarıməsrlik salnaməsidir, ideya estetik toqquşmalarla zəngin olan salnaməsi… Deməli, Hacıbəyli haqqında əsər bir sənətkarın ömrü və yaradıcılığını izləməklə bərabər, bütöv bir sənət sahəsinin də "tərcümeyi-halını" əks etdirməlidir və həmin bu "tərcümeyi-hala" neçə-neçə başqa adamın da — Üzeyir bəyin müasirlərinin, silahdaşlarının, yaxud bədxahlarının da taleyi daxildir.

Problemin bir qəlizliyi də ondaydı ki, Üzeyir Hacıbəyli iki dövrün ayrıcında yaşayıb yaratmış, həm inqilabdan əvvəlki illərdə, həm də sovet hakimiyyəti dövründə fəal işləmişdir… Onun taleyində inqilabdan qabaqkı mütərəqqi ziyalılarımızın fəaliyyəti sovet sənətkarının çalışmalarıyla qovuşub birləşir. Bunu da dərk etmək və göstərmək lazım idi.

Ü.Hacıbəyli Azərbaycanda hədsiz-hüdudsuz və misilsiz bir şöhrətə malik bəstəkardır. Təbii ki, onu Azərbaycandan çox uzaqlarda da tanıyırlar.

Onun füsünkar musiqisi xalqımızın neçə-neçə nəslini ömür boyu müşayiət etmiş və etməkdədir. Ona görə də, şəksiz, hər bir dinləyicinin, hər bir tamaşaçının — onların sayı isə minlər yox, milyonlardır — böyük bəstəkar haqqında öz təsəvvürü var, öz "Üzeyir obrazı" var. Bax bu da Ü.Hacıbəyli haqqında əsər yaratmaq

fikrinə düşən adamçün xeyli çətinlik törədir. Üzeyir surətini elə şəkildə mənalandırmaq, göstərmək gərəkdir ki, müxtəlif adamları inandıra bilsin.

Nəhayət daha bir çətinlik: Üzeyir bəy real tarixi şəxs kimi, nisbətən yaxın zamanlarda yaşamışdır. Onu uzun illər boyu yaxından tanıyan adamlar dururlar, onun bioqrafiyasının bir çox faktı hələ tarixə çevrilməyib. Bir çox mətləblər, xüsusilə ömrünün axır illərinə aid hadisələr, məncə, hələlik bədii şəkildə əks oluna bilməz. Məsələn, indi də xoşbəxtlikdən sağ-salamat olan, ömür sürən bir çox adam — Üzeyir bəyin qohumları, tələbələri, tanışları var ki, onları bədii surət kimi göstərmək və rollarının ifasını aktyorlara tapşırmaq, zənnimcə qeyri-etik təsir bağışlardı.

Həm ssenari üzərində iş zamanı, həm də quruluşçu-rejissor kimi film çəkdiyim dövrdə, mən, demək olar ki, hər gün Üzeyir Hacıbəyli operalarının və operettalarının vallarını, lent yazılarını dinləyirdim və özümçün bu ecazkar musiqinin iki yeni keyfiyyətini də "kəşf" etdim. Birinci keyfiyyət odur ki, bu musiqidən doymaq olmur, yəni nə qədər qulaq asırsan as, bıqmırsan, usanmırsan, bu musiqi heç bir vaxt adamın "pisini vura" bilməz. İkincisi, Hacıbəyli musiqisi, bütün başqa gözəl cəhətlərindən əlavə, həm də son dərəcə görümlü, əyanidir, təsəvvürümüzdə bir-birindən canlı obrazlar, səhnələr oyadır. Məsələn, "Leyli və Məcnun"un finalı adamın xəyalında tam aydınlıqla səhra obrazını canlandırır. Səhra, sonsuz qumlar, qumlar və bu qumların içində tək-tənha insan…

İlk Məcnunumuzun — Hüseynqulu Sarabskinin xatirələrində oxuyanda ki, operanın finalında o məhz bu duyğuları keçirib, özünü səhnədə deyil əsl səhrada hiss edib —çox sevindim. Sarabskinin bu duyğularına tam uyğun olaraq bizim filmdə "Leyli və Məcnun"un finalında aktyor tamaşa zamanı sanki xəyalən səhnəni tərk elir, əsl səhraya çıxır, get-gedə uzaqlaşır, qumların içində itir…

Əvvəlcə ssenari, sonra isə film üzərində iş zamanı mən Üzeyir Hacıbəylinin musiqi və ədəbi-publisist əsərlərindən başqa onun haqqında tədqiqatlarla, dövrün bir çox sənədləriylə, xatirələrlə, məktublarla tanış oldum, bütün əlaqəli kinoxronikaya baxdım, dahi bəstəkarı şəxsən tanıyan adamlarla uzun-uzadı söhbətlər etdim. Mən bunu yalnız ona görə demirəm ki, həmin adamlara bir daha öz minnətdarlığımı bildirim. Minnətdarlıq öz yerində — doğrudan da bu söhbətləriylə, yaxud kitablarıyla, məqalələriylə Üzeyir dünyasına

məhrəm olan adamlar mənə bu dünyanın yeni-yeni guşələrini açıb göstərdilər.

İlk növbədə mən həyat yoldaşım, çağdaş Azərbaycanın ən ardıcıl üzeyirşünası, Ü.Hacıbəylinin illərdən bəri çap edilməmiş musiqi əsərlərini çapa hazırlayıb nəşr etdirən Zemfira xanıma təşəkkürlərimi bildirirəm. Üzeyir bəy haqqında filmin çəkilişi həyatımın ən ağır günləriylə — yüz gün içində atamı və anamı itirdiyim vaxtla eyni zamana düşdü. Bu çətin günlərimdə filmin bütün yaranma prosesini yaxından izləyən Zemfira həm peşəkar məsləhətləriylə yardımçım oldu, həm də itkilərimin ağrısını mənimlə paylaşan hayanım, dayağım…

Üzeyir bəy haqqında flim çəkmə təklifi aldığım gündən böyük bəstəkarla bağlı heç bir məlumatı, heç bir sənədi, heç bir məqaləni, kitabı, araşdırmanı diqqətimdən yayındırmadım. Mən bu barədə öz səylərimlə yaxud öyrəndiklərimlə lovğalanmaq üçün yazmıram. Yox, məqsədim tamam başqadır. İzah etmək istəyirəm ki, filmdə seçdiyimiz forma təsadüfü yaranmayıb, materialın özündən doğub. Həm materialın bolluğundan, həm də onun müəyyən spesifik xüsusiyyətlərindən. Məhz material bizi bir sıra ifadə vasitələrindən istifadə etməyə sövq etdi, məhz material bizi inandırdı ki, bu filmdə uydurulmuş səhnələrdən, obrazlardan, sözlərdən mümkün qədər gen qaçmaq lazımdır… Bu prinsipdən çıxış edərək ssenari elə qurulmuşdu ki, onun mətnində sənədlərlə, yaxud nüfuzlu xatirələrlə təsdiq olunmayan bircə səhnə, bircə epizod da yoxdur. Xırda-para, keçəri replikalardan savayı ssenaridə yazılı şəhadətnamələrə əsaslanmayan demək olar ki, heç bir söhbət, söz, dialoq verilməyib. Üzeyir bəyin bioqrafiyasına və yaradıcılıq irsinə yaxşı bələd olanlar mənim "yalanımı çıxara" bilər və filmdən bu prinsipə riayət etmədiyimiz yerləri misal çəkərlər. Mən özüm bu işdə onlara kömək edərəm: Məsələn, Natəvanla balaca Üzeyirin görüşü məhz belə epizodlardandır.

Natəvan vəfat edərkən Üzeyirin on iki yaşı vardı, Şuşada evləri qonşudur, Natəvanın imzasıyla Üzeyirə verilən şəhadətnamə durur. Üzeyirin atası da, anası da şairənin yaxın adamlarından idilər. Natəvanla Üzeyir nə şəraitdə görüşə bilərdilər? Natəvan muğamatı sevərmiş, Üzeyirin uşaqlıqda yaxşı səsi varmış, oxuduğu muğamlar xoş təsir bağışlarmış.

Filmdə Natəvanla Üzeyirin görüşünü təsvir edən epizod bax bu rüşeymlərdən yaranmışdır. Onlar nə barədə söhbət edə bilərdilər?

Məlumdur ki, balaca Üzeyir məktəbə gedərkən Natəvan ona öz Quranıyla xeyir-dua verib. Bu Quran durur. Amma Natəvanın öz əliylə yazdığı şerlərdən və çəkdiyi şəkillərdən ibarət albomu da durur. Bizə elə gəldi ki, məşhur şairəylə gələcək bəstəkarın görüşünü canlandıran səhnədə bu albomu meydana çıxarmaq daha münasibdir. Həm də Üzeyir özü də uşaqlıqda kiçik hekayələr yazar, şəkillər çəkərmiş və onun bu dəftəri hifz olunub.

Mən bu epizod haqqında ona görə belə müfəssəl danışıram ki, nadir hallarda səhnələr "uydurulanda" bu "uydurmaların" həqiqət dərəcəsi aydın olsun.

Üzeyir Hacıbəyli və Əbdürrəhim bəy Haqverdiyev tərcümeyi-hallarının biliciləri üçün bir məsələ də gözlənilməz görünə bilər: Haqverdiyevin "Leyli və Məcnun" operasının premyerasında dirijorluq etməsinin səbəbləri.

Görkəmli yazıçı, dramaturq Ə.Haqverdiyev musiqini sevən və gözəl bilən adam idi, Şuşada və Bakıda Şərq konsertləri təşkil edirdi. Şuşada hətta "Məcnun Leylinin qəbri üstündə" mövzusunda kiçik səhnəciyin quruluşunu vermişdi. (Bu səhnəciyi uşaqlıqda Üzeyir də görüb). Bütün bunlara baxmayaraq bir tarixi fakt adama təəccüblü gəlir: Peşəkar musiqiçi, dirijor olmaya-olmaya, Haqverdiyev "Leyli və Məcnun"un ilk tamaşasında orkestri idarə etmişdir. Onu da xatırladaq ki, orkestrdə şərq alətlərindən başqa — skripka, violonçel, klarnet, fleyta kimi notlu partiyaları ifa edən alətlər də vardı. Bu tamaşada Haqverdiyev ilk və son dəfə dirijor olmuşdur. Bundan sonra heç bir vaxt heç bir opera yaxud operettada orkestri idarə etməyib. Bu məlum faktdır, amma onun motivləri və səbəbləri haqqında heç yerdə bir kəlmə deyilmir…

Belə olan surətdə mən bu məlum faktı başqa bir məlum faktla əlaqələndirirəm. — "Leyli və Məcnun"un premyerasına iki saat qalmış tarzənlər (Qurban Pirimov və Şirindən başqa) nə üstündəsə mübahisə edir və çıxıb gedirlər. Üzeyir bəy təcili surətdə onların partiyalarını skripkalar üçün yazmalı olur. Premyerada bəstəkar özü orkestrdə skripka çalıb. İkinci tamaşadan başlayaraq operaya müəllif özü dirijorluq edib. Başqa bir məlum fakt: O vaxt "İslamiyyə" mehmanxanasında yaşayan Üzeyir bəy operanın məşqlərini də burda keçirirmiş. Həmin vaxt Haqvediyev də bu mehmanxanada qalırmış və ilk operamızın yaranma prosesini müşahidə edirmiş. Bütün bu faktlar haqqında dəqiq sənədlər var. Beləliklə bu müxtəlif faktları

bir-biriylə əlaqələndirərək Haqverdiyevin nə səbəbdən "Leyli və Məcnun"un premyerasında dirijorluq etdiyini izah etməyə çalışmışıq. Bu izah sənədlərlə təsdiq olunurmu? Yox. Amma bu izahı təkzib etmək də müşküldür. Onun gerçəkliyini təsdiq edən sübutlar olmadığı kimi, inkar edən dəlillər də yoxdur.

Bütün başqa yerlərdə isə hər hansı epizodun, dialoqun dəqiqliyi şəksizdir, dialoqlar bəzi hallarda sözbəsöz tarixi sənədlərdə hifz olunmuş mətnlə eynidir. İnqilabdan qabaqkı mətbuatda jurnalistlərin rəyləri də dəqiq sitatlar şəklində verilir…

Filmin bir janr xüsusiyyətini də nəzərə çatdırmaq istərdim. Bu xüsusiyyət yalnız materialla deyil, həm də televiziya janrının spesifikasıyla müəyyənləşir. Fikrimcə televiziya janrı, bütün başqa sənət növlərindən daha artıq imkan yaradır ki, bədii təhlili publisist, elmi təhlillə üzvü vəhdətdə birləşdirəsən… Hacıbəyli haqqında filmi biz bəstəkar haqqında tədqiqat kimi, film-esse kimi düşünürdük. Esseyə xas olan sərbəst zaman və məkan keçidləri, dəyişmələriylə. Əsas qayə — Hacıbəyli taleyini və Hacıbəyli sənətini dərk etmək və dolğun əks etdirmək idi. Bu məsələnin həllinə can atarkən, biz tamaşaçını iştirakçıya çevirməliydik — yaradıcılıq prosesinin, bəstəkar və onun ömrü, yaradıcılığı haqqında düşüncələrimizin iştirakçısına… Tamaşaçının fəal iştirakı — məhz televiziya sənətinə xas olan əsas cəhətdir…

Filmdə opera və operettalardan böyük parçalar olmalıydı. Axı film musiqili televiziya filmiydi…Və nəhayət film bədii olduğuna görə aktyor oyunundan geniş istifadə olunmalıydı. Film-təhlil, film-essenin xüsusiyyətlərindən onun forması doğulurdu. Əsərdə Aparıcı olmalıydı, müəllif düşüncələrini, Üzeyir ömrünün müxtəlif məqamlarını şərh edən, tamaşaçını müəyyən epoxalara daxil edən, nəyisə dəqiqləşdirən, hansı yanlışısa düzəldən Aparıcı — obyektiv olmaqla bərabər emosional cəhətdən laqeyd, biganə də qala bilməzdi… hadisələrə öz replikalarıyla, verdiyi qiymətlərlə müdaxilə etməliydi. Aparıcı obrazı filmin müxtəlif laylarını bir vəhdətdə birləşdirir — fikirlər, anımlar, xatırlamalarla müxtəlif hadisələri, faktları, personajları, dövrləri bir-birinə calayır.

Odur ki, bəzi epizodların məişət məkanı tamamilə şərtidir. Məsələn jurnalistlərin iştirak etliyi epizodda biz sırf şərti, neytral interyerdən ona görə istifadə etdik ki, ideyalar, estetik və ictimai mövqelərin toqquşmasını məişət dekorlarından kənar bir şəraitdə

verək, münaqişə iştirakçılarını sözün hərfi və məcazi mənasında iri planda göstərək.

Çoxlu təsviri materialdan — fotolardan, karikaturlardan, şəkillərdən və əlbəttə ki, kinoxronikadan geniş istifadə etməyimizin səbəbi də bundadır.

Bu prinsipdən çıxış edərək, aktyorlar tərəfindən bədii kino qanunlarına uyğun olaraq ifa edilən epizodlar kinoxronika kadrlarıyla uzlaşır, bəzən qovuşur. Kinoxronika bədii parçaların nə dərəcədə gerçək olub olmadığunu yoxlamaqçün bir növ lakmus kağızı, məhək daşıdır. Üzeyir Hacıbəylinin kinoxronika kadrlarında hifz olunmuş obrazı müəyyən mənada onun rolunu oynayan aktyorçun meyardır. Bu sözü tarixi şəxslərin rollarını ifa edən başqa aktyorlara da şamil etmək olar. Yəni əslində, filmdə tarixdə real mövcud olmamış şəxslərin obrazları yoxdur (Heç nəyə inanmayan jurnalistin — "Skeptik"in şərti ümumiləşdirilmiş surəti — istisnadır). Odur ki, aktyorları seçərkən, adi tələblərdən başqa ifaçının real tarixi personajla zahiri bənzəyişinə də diqqət edirik.

Bütün çəkiliş qrupumuz cəhd edirdi ki, filmimizə sözün yaxşı mənasında sənədlilik xas olsun. Axı sənədlilik Hacıbəylinin ilk operaları üçün də səciyyəvi cəhətdir. Xalq musiqisindən, muğamlardan sitatlar verilən bu ilk operalarımızı, təbir caizsə, musiqili-sənədli əsərlər adlandrmaq olar.

Amma hər halda, sənədliliyə aludəçiliklə bərabər, filmi yaradanların fantaziyası müc olub qalmamalıydı. Əksinə, müəyyən mənada sənədli gerçəklikdən imtina etmək də lazım idi. Fikrimi aydınlaşdırım: inqilaba qədər "Leyli və Məcnun"da da, digər muğam operalarımızda, müsiqili komediyalarımızda da bütün qadın rollarını, məlum olduğu kimi kişilər ifa edirdi. Filmimizdə bu tarixi faktı təhrif etmədən (ilk tamaşada Leyli rolunu gənc oğlan oynayıb) biz eyni zamanda qadın obrazının estetik gözəlliyini göstərmək naminə müəyyən şərtiliyə əl atdıq. Leyliylə bağlı səhnələri sanki Üzeyir bəyin xəyalı təsəvvüründə göstərdik. Axı, doğrudan da orkestrdə oturub skripka çalan müəllif özü operanı görmürdu, yalnız eşidirdi. Belə hesab edək ki, eşitdiyi musiqi sədaları onun təsəvvüründə ideal Leyli obrazını — məhz qadın ifasında canlandırırdı.

Səs gözəlliyini, çağdaş estetik zövq meyarlarını nəzərə alaraq biz Hacıbəyli musiqisini müasir vokalistlərin, orkestrlərin yüksək

səviyyəli ifasında təqdim edirik.

Bütün istədiklərimizi, can atdıqlarımızı, arzuladıqlarımızı həyata keçirə bildikmi, bilmədikmi — bu barədə söz, əlbəttə, mənim deyil, tamaşaçılarındır. Mən isə ancaq onu deyə bilərəm ki, böyük bəstəkarın fədakar ömrüylə, ölməz Üzeyir sənətiylə məni daha da yaxınlaşdıran, doğmalaşdıran, təkrarsız Hacıbəyli dünyasına — gözəlliyə qovuşduran filmə minnətdaram. Gerçəkdən də Hacıbəyli dünyası — gözəllik, ülvülük, nəciblik dünyasıdır. Üzeyir Hacıbəylinin müqəddəs surəti ömrümün, mənəvi həyatımın ayrılmaz hissəsidir. Bu dahi insana qibtə edirəm.

Onun müsiqisi ölməzdir.

Üzeyir ömrünün verdiyi dərslər — son dərəcə qiymətlidir.

1980-1985

P.S. *20-25 il bundan əvvəl yazılmış bu qeydlərə bir əlavə etmək istəyirəm. "Üzeyir ömrü" ("Akkordı dolqoy jizni") sovet vaxtında çəkilmişdi və təbii ki, böyük bəstəkarın bioqrafiyasında önəmli yer tutan bəzi məqamlar filmdə əks oluna bilməzdi: Üzeyir bəyin ilk Azərbaycan Cümhuriyyətinin görkəmli xadimlərindən biri kimi fəaliyyəti, "Müsavat" partiyasının üzvü olması, Baş redaktoru olduğu "Azərbaycan" qəzetində kəskin antikommunist, anti-rus yazıları, nəhayət müstəqil Azərbaycanın himnini bəstələməsi… Bütün bunlar təbii ki, o dövrdə əks oluna bilməzdi. Əhməd Cavadın sözlərinə bəstələnmiş, Türkiyədə də çox populyar olan "Çırpınırdı Qara dəniz" mahnısı, qardaşı Ceyhun Hacıbəylinin Parisdə qalması və s. məsələlər də bu sıradandır. Hətta əks işarəli faktlar — Stalin və o zamankı sovet rəhbərliyinin "Koroğlu" operasının Moskva tamaşasında iştirak etmələri və müəllifi təqdir etmələri, Üzeyir bəyin Stalinlə görüşləri, ona kantata həsr etməsi, müstəsna hal olaraq bəstəkarın namizədlik müddəti keçmədən bir başa Kommunist partiyasına üzv qədul edilməsi və bu səpkidən başqa mətləbləri də o vaxt heç cür açmaq olmazdı. Bu günün "icazəli qəhrəmanları": bəs həmin mühüm faktlardan söz açа bilmirdinizsə niyə bu filmi çəkirdiniz? deyə irad tutacaq. Belə iradlara cavabım budur: Üzeyir bəy ilk növbədə böyük bəstəkar idi. Onun özəlliyi siyasi fəaliyyətində deyil — dahiyanə musiqisindədir. Bizim məqsədimiz də üç saatlıq filmin göstərilmə müddətində tək Azərbaycan tamaşaçılarını deyil —*

SSRİ də yaşayan bütün xalqları bu ecazkar musiqinin bütün genişliyiylə, onun yaranma dövrü, mühiti və şərtləriylə tanış etmək idi (Film Moskvanın Mərkəzi Televiziyasının sifarişiylə çəkilirdi və ilk dəfə də Ümumittifaq ekranda — 1-ci proqramla göstərildi). Bu məqsədə nail olduq. Və bu gün, filmin yaranmasının üstündən 25 il keçəndən sonra hələ də TV ekranlarımızdan düşməyən "Üzeyir ömrü"nü seyr etdiyimiz zaman ən azı ona mütəəssir oluruq ki, orda müvəqqəti itirilsə belə hər halda bü gün həsrəti hamımızın qəlbində ovunmayan Şuşanı, Cıdır düzünü, İsa bulağını görürük, nadir istedadlarını qoruya bilmədiyimiz o vaxtkı "Qarabağ bülbülləri"nin səsini eşidirik, Qədir Rüstəmovun unikal kadrlarına baxırıq.

Amma onu da deyim ki, hər halda o dövrün senzurasını da aldada bildik. Filmdə adı çəkilməsə də musavatçı, siyasi mühacir Ceyhun bəyin də obrazı var. Tarixi faktdır ki, "Leyli və Məcnun"un premyerasında İbn Səlam rolunu Ceyhun bəy ifa edib. Bizim filmimizdə İbn Səlam rolunu ifa edən aktyor, həm səhnədə bu rolda görünür, həm də həmişə tamaşanı yaradanların arasındadır. Bunu o vaxt bircə rəhmətlik Niyazi sezmişdi. Filmin məsləhətçisi kimi "Üzeyir ömrü"nü ona göstərəndə qulağıma: Bilirsən, ilk tamaşada İbn Səlamı kim oynayıb? Ceyhun bəy — deyə pıçıldadı. — Bilirəm — dedim və bununla da bu mövzuya bir daha qayıtmadıq. Hər ikimizçün hər şey aydın idi.

3 dekabr 2005

Üzeyir bəyin xronikal kadrları. O dövrləri əks etdirən xronikal kadrlar. Aparıcı bu kadrları ekranda seyr edir, sonra üzünü kameraya — tamaşaçılara tutaraq danışmağa başlayır:

—Sizə bir insan ömründün danışmaq istəyirik. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacəbəylinin ömründən. Onun dostlarından və silahdaşlarından danışacayıq, o adamlardan ki, Üzeyir bəylə birlikdə Şərqin ilk musiqi teatrını yaradırdılar.

Bu dövr haqqında sizə Şuşanın əbədi dağları və meşələri, Bakınıın köhnə evləri, küçələri, kinoxronika kadrları, saralıb solmuş fotolar, məktublar və sənədlər danışacaq. İştirakçıların özləri də söhbətə qoşulacaqlar.

Sarabski, Ərəblinski, Maqomayev, Zülfuqar Hacıbəyli, Şövkət xanım Məmmədova. Bir də özü — Yzeyir Hacıbəyli.

Aparıcının bu sözləri səsləndikcə biz xronika kadrlarını və adları çəkilən adamları görürük — həm onların xronika kadrlarında əks olunmuş surətlərini, həm də bizim filmimizdə onları oynayan aktyorları.

Aparıcı:

—Qırx ildən çox Üzeyir bəy Bakıda yaşayıb yaratmışdır. Onun qəhrəmaları bu şəhərin əbədi sakinləri olmuşlar. Bu şəhərdə onun müsiqisi daima səslənəcək.

Uzeyir Hacıbəylinin əsərləri ifa olunan konsert və teatr binaları, afişlər, "Arşın mal alan" personajlarının barelyefləri.

Aparıcı Akademiyanın binası qarşısında dayanıb.

Aparıcı:

—Günəşlə dolu bu işıqlı gündə mən başqa bir günü xatırlayıram — 48-ci ilin acı, tutqun noyabr gününü. Böyük bəstəkarla vidalaşdığımız günü. Yadımdadır o gün dəfn mərasimində Bülbül Üzeyir bəyin "Sənsiz" qəzəl-romansını oxudu.

Sənədli kadrlar: Üzeyir bəyin dəfni, Akademiyanın binasında tabutun yanında fəxri qaravulda duranlar. Bülbül "Sənsiz"i oxuyur.

Ekranda yazı:

ŞUŞA

Şuşanın qala divarları və ümumi mənzərəsi fonunda Aparıcı:

—Şuşadayıq. Ağcabədidə doğulmuş Üzeyir uşaqlığını Şuşada keçirmiş, xalqının musiqi xəzinəsinə ilkin burda qovuşmuşdur. Üzeyir Hacıbəylinin vətənini görmədən, sənətinin qaynaqlarına bələd ollmadan onun musiqisinin sehrini və möcüzəsini dərk etmək çətindi.

Şuşanın müxtəlif mənzərələri — Cıdır düzü, Daş altı çayı, Qırx pilləkan, İsa bulağı, Səkili bulaq, Ərimgəldi, Xəznə qayası, Topxana meşəsi…

Aparıcı:

—İlk parlaq həyat təəssuratlarını bu şəhərdə aldı. Gözlərini açıb bu dağları, dərələri, bu meşələri, bulaqları görüb və ömrünün axırına qədər qəlbində təbiət eşqini yaşadıb. Xalqının əsrlərdən bəri yaratdığı bu nəvaları. nəğmələri ilk dəfə burda eşidib və həyatın son gününədək onlara sadiq qalıb. Bu şəhəri haqlı olaraq Qafqazın konservatoriyası adlandırırlar. Şuşa bir çox məşhur musiqi xadiminin vətənidir.

Şuşada Üzeyir bəyin indi muzey olmuş evi. Çoban tütəyinin səsi eşidilir. Hasarın o biri tərəfində 15-16 yaşlı qız (şərti olaraq ona "Leyli" deyək) ağacdan asılmış yellənçəkdə yellənir. Yelləncək onu yüksəyə qaldıranda qızın gözəl çöhrəsini açıq mavi səma fonunda görürük, yellənçək aşağı enəndə hasarın dalında görüməz olur.

Hasarın bu üzündən onu 10-12 yaşlı oğlan uşağı — Üzeyir — seyr edir. Bir-birinə gülümsünürlər.

Kadr arxasından qadın səsi eşidilir.

Üzeyirin anası:

—Üzeyir! Üzeyir, atan gəlib.

Balaca Üzeyir:

—Ata, ata! — deyə darvazadan həyətə girmiş atası Əbdülhüseynə tərəf atılır.

Anası, qardaşları da Əbdülhüseyn kişiyə tərəf qaçışırlar.

Hamısı birlikdə evə girirlər. Evin divarında muzey lövhəsini görürük.

Aparıcı:

—Üzeyirin atası Əbdülhüseyn Ağcabədidə kənd mirzəsi idi. Şuşadakı evləri Xan qızı Xurşid Banu Natəvanın malikanəsiylə qonşu idi.

Balaca Üzeyir dostlarıyla Şuşanın küçələriylə addımlayır. Dayısı Ağalar bəy də onlarladır. Şər qarışan vaxtdır. Gövhər ağa məscidinin minarəsindən azan səsi eşidilir.

Üzeyir (heyranlıqla):

—Nə gözəl oxuyur.

Ağalar bəy:

—Hacı Hüsüdü. Bir vaxtlar Qarabağın ən məşhur xanəndəsi idi. Mollalar göz verib işıq vermirdilər ona. Həccə getdi, gəldi, qayıdandan sonra daha oxumur, ancaq əzan çəkir.

Üzeyir:

—Nə gözəl səsi var…

Ağalar bəy:

—Sabah sizi İsa bulağına aparacam — Qarabağın ən yaxşı xanəndələrinə qulaq asarsınız.

Ağalar bəy, Üzeyir, uşaqlar arabayla İsa bulağına tərəf gedirlər. Ağalar bəy onlara nə isə danışır. Aparıcı:

—Bu Ağalar bəy Əliverdibəyovdur… Yzeyirin dayısı. Sonralar Üzeyir bəy onu özünün ilk musiqi müəllimi adlandırıb.

Meşənin müxtəlif tərəflərində qurulmuş musiqi məclisləri, Ağalar bəy, uşaqlar bir-bir onların yanından keçir, xanəndələrin, Gülablı aşıqlarının çalıb oxumalarını dinləyirlər.

Məclislərin birində xanəndə zilə qalxıb.

Bir nəfər məclisə nərdivan gətirir, hamı gülüşür.

Balaca Üzeyir:

—Bunlar nəyə gülür, nərdivanı niyə gətirib?

Ağalar bəy də gülür:

—Zarafatlarından qalmırlar da qarabağlılar. Nərdivan gətiriblər ki, xanəndə zildən bəmə yenə bilsin…Bax, görürsənmi, bu cavanın güclü səsi var, amma hələ təcrübəsi azdır, tarzəni da naşıdır. Odur ki, elə zildəcə ilişib qalıb.

Dinləyicilərdən biri:

—Bundan uzun nərdivan tapmadın?

Yaşlı tarzən tarıyla məclisə gəlir, xanəndənin yanına oturur, çalan tarzənə qoşulur.

Ağalar bəy:

—Hə, Məşədli Cəmil gəldi, indicə ustalıqla xanəndəni pərdə-pərdə aşağı yendirəcək.

Meşənin başqa bir guşəsində də məclis qurulub.

Muğam oxuyan xanəndə birdən oxumasına ara verir, tarzən və kamançaçı da çalmırlar. Məclisdə, xalçanın üstündə bardaş qurmuş tacir :

—Nə oldu, niyə dayandınız, niyə çalıb oxumursuz?

Tarzən:

—Eşitmirsən Məşədi, Cabbar oxuyur.

Tacir:

—Nə olsun, Cabbar oxuyur özüyçün, sən də oxu bizimçün.

Xanəndə:

—Cabbar oxuyan vaxtı oxumaq günahdı.

Tacir cibindən xeyli pul çıxarıb xanəndənin cibinə qoymaq istəyir. Rişxəndlə:

—Bəlkəm indi gunah olmadı, hə, oxu, bizi feyziyab elə…

Xanəndə pulu qaytararaq:

—Məşədi, bax bütün bu meşəni də bizə bağışlasan yenə Cabbar oxuyan vaxt biz ağzımızı açmarıq.

Başqa bir məclisdə Cabbar Qaryağdıoğlu Mənsuriyyə oxuyur. Üzeyir, uşaqlar, Ağalar bəy onu heyranlıqla dinləyirlər. Bu məclisdən bir az aralı, amma eyni kadrda Aparıcını görürük. Aparıcı:

—Cabbar Qaryağdıoğlu uzun ömür sürdü və həyatının son günlərinəcən oxudu. Yetmiş iki yaşındaykən Cabbarın Hüzzal oxuması çoxlarının yadındadı. Tarzən Qurban Pirimovun müşayiətiylə.

Sənədli kadrlar: Cabbar Qaryağdıoğlu oxuyur, Qurban Pirimov onu tarda müşayiət edir.

Aparıcı:

Bu kadrlar əlli ildən sonra çəkiləcək, indi isə…

Xronikadan filmimizin kadrlarına keçirik.

Aparıcı:

—İndi isə Cabbar gəncdir, səsinin, sənətinin, şöhrətinin çağlayan çağıdı. Bu gün onu dinləyənlərin içində bir gənc də var.

Məclisdə şərq qiyafələrindəki adamların arasında avropasayağı geyinmiş bir gənci görürük.

Aparıcı:

—Bu gələcəyin məşhur yazıçısı, dramaturqu Əbdürrəhim bəy Haqverdiyevdir. Peterburqda ali məktəb tələbəsidir, vətənə, Şuşaya, yay tətilinə gəlib.

Yenə Üzeyirgilin həyətindəyik. Hasarın o biri tərəfində qız — "Leyli"—yellənçəkdə yellənir. Üzeyirlə bir-birinə baxıb gülümsünürlər.

Qonşu evin qapısından çadralı qadınlar çıxır. "Leyli" də onların

arasındadır, amma üzü açıqdır. Onlara qarşı gələn kişi qəzəblə qadınlara və "LeyliUyə baxır:

—Bu nədi belə? — deyə "Leyli"nin üstünə qışqırır —evdən bu sayaq niyə çıxırsan?Daha balaca deyilsən axı, çadran hanı, — yalnız gözləri görünən qadınlardan birinə tərəf dönür: — Bəs sənin gözün hardaydı?Lap abrınızı itirmisiz. Tez ol, get başına çadra sal.

Kişi həyətə girir, qəzəblə yellənçəyi ağacın budağından açır.

"Leyli" təpədən dırnağa çadraya bürünmüş halda bayaqkı qadınlara qoşulur.

Şuşanın küçələriylə cavan arşınmalçı addımlayır və çağırır:

—Arşın mal alan, ay arşın mal alan, hey! Hardasız, arşın mal var ha… Alın, tez olun, bafta, tafta, ipək, qumaş,

Gəlib bayaqkı hirsli kişinin qapısının ağzına çıxır. Uzeyir pəncərədən onu izləyir. Hirsli kişi qapını açıb, arşınmalçını qovur:

—İtil burdan görüm, burda nə itin azıb?

Arşınmalçı:

—Dedim bəlkə mal almaq istəyən oldu.

—İtil burdan dedim, bir də gözüm səni burda görməsin…

Aparıcı:

—Üzeyir Hacıbəyov gələcəkdə yalnız böyük bəstəkar kimi deyil, istedadlı komediyanəvis kimi də tanınacaq. Musiqili komediyalarının librettosunu özü yazacaq.

Ənənəvi Məşədi İbad obrazını xatırladan tacir dükanının qarşısında oturub. Yumurta satan ona yanaşıb yumurta təklif edir. Məşədi kiçik bir həlqə götürür və yumurtanı ordan keçirir, sonra yumurta satana:

—Gədə, bəs sən bilmirsən ki, bax bu həlqədən keçən yumurtanı Məşədi İbad dünyasında almaz — deyir. — Götür get

Satıcı heybəsindən başqa, daha iri yumurta çıxarıb həlqəyə salır — Məşədi — deyir — heç gör bu keçir.

Məşədi:

—Hə, bu başqa məsələ

Ətrafdakılar gülüşürlər. Balaca Üzeyir də onların arasındadır.

Aparıcı:

—Üzeyirin dramaturji itstedadı da bu şəhərdə oyanırdı… Zarafatlar, lətifələr, baməzə sözlər mühitində...

Dörd oğlan — Üzeyir də onların arasındadır — Xan qızının divarları yanında müğam oxuyur. Xan qızı Natəvan bu səsləri eşidib

bir müddət qulaq asır, sonra yavaş-yavaş qapıdan küçəyə çıxır.

Onu görən uşaqlar cəld qaçıb gedirlər. Bircə Üzeyir qalır. Natəvan onu yanına çağırır.

—Görürəm, sən qoçaq uşaqsan, hamı qaçdı, sən qaldın. Adın nədi?

—Üzeyir.

—Əbdülhüseynin oğlusan? Şirin bacı danışıb mənə səndən. Deyirdi ki, yaxşı şəkil çəkirsən, amma sənin gözəl də səsin varmış. Məni tanıyırsan?

—Əlbəttə. Siz Xan qızı Xurşid Banu Natəvansız, şer yazırsınız, şəhərimizə su çəkdirmisiniz.

—Əhsən, bərəkallah. Mən, sənin kimi şəkil də çəkirəm. Şəkillərimə baxmaq istəyirsən.

—İstəyirəm.

—Gəl gedək…Göstərim sənə.

Nətəvan rəsmləri və şerləri toplanmış albomunu Üzeyirə göstərir. Aparıcı onlara yanaşır, albomu götürür. Aparıcı:

—Bu albom qalıb, Natəvanın rəsm dəftərində onun öz əliylə çəkdiyi zərif şəkillər və gözəl xəttiylə yazdığı şerlər hifz olunub. Qəribədir ki, bu balaca dəftər də itməyib —başqa bir məktəbli dəftərini göstərir — *Bu da balaca Üzeyirin dəftəridir — o da ilk hekayələrini bura yazıb, ilk rəsmlərini bura çəkib…*

Cıdır düzü. İki nəfər söhbət eləyə-eləyə buranı dolaşırlar. Bunlardar biri Cabbar Qaryağdıoğlu, o biri Əbdürrəhim bəy Haqverdiyevdir.

Cabbar :

—Qorxuram bir şey çıxmaya Əbdürrəhim bəy, axı mən xanəndəyəm, artist deyiləm.

Haqverdiyev:

—Sən deyən bir artistlik gərək deyil. Kiçik bir səhnəcikdir — Məcnun Leylinin məzarı başında…Sən ki Füzulinin sözlərinə muğam oxuyursan…Həmim muğamı oxuyacaqsan… İntəhası Xandəmirov teatrının səhnəsində… Vəssəlam…

Uzaqdan uşaqların — ("Qarabağ bülbülləri"nin) oxumaları eşidilir.

Cabbar:

—Eşidirsən? Eşidirsən necə oxuyurlar?

Haqverdiyev:

—Uşaqdırlar, hələ lap uşaqdırlar.

Cabbar:

—Bilirsən Əbdürrəhim bəy, bizim Qarabağda uşaqlar elə beşikdə ağlayanda muğam üstündə ağlayır.

Haqverdiyev gülür.

—Görürsən? Sən də kiçik bir səhnəcikdə oxumaqdan çəkinirsən. Gəl elə bax bu uşaqları da tamaşamıza cəlb edək. Xor oxusunlar, hə…

Cabbar:

—Sən bilən yaxşıdı…

Şuşada teatr binası. Aparıcı bu binanın qarşısındadır. Aparıcı:

—1897-ci ilin avqustunda Xandəmirov teatrının səhnəsində tamaşa oynandı, daha doğrusu bir səhnəcik — Məcnun Leylinin məzarı başında.

Teatrın səhnəsi… Səhnədə baş daşı. Səhnə arxasında Haqverdiyev uşaqlarla — Üzeyir də onların arasındadır— məşq edir.

—Uşaqlar, diqqətlə qulaq asın — deyir. — Mən işarə verən kimi hamınız bir yerdə oxuyun, məşq elədiyimiz havanı, bildiz?

Uşaqlar:

—Bildik.

Səhnəcik başlanır. Cabbar Qaryağdıoğlu Məcnun rolunda — əynində cır-cındır paltar, saçı-saqqalı bir-birinə qarışmış halda Leylinin qəbrinin üstündə oxuyur.

Aldığı güclü təsirdən balaca Üzeyirin sanki dili tutulub. Haqverdiyev işarə verəndə uşaqlar xorla oxuyur. Üzeyir oxumur.

Haqverdiyev Üzeyirin oxumadığına, doluxsunmuş gözlərinə diqqət edir.

Cabbar oxumasını bitirir. Salonda alqışlar qopur.

Haqverdiyev (məmnun halda) — Əhsən uşaqlar, siz də yaxşı oxudunuz.

Uşaqlardan biri:

—Amma Üzeyir heç oxumadı.

Haqverdiyev diqqətlə Üzeyirin kədərli sifətinə baxır:

—Hə — deyir — Üzeyir doğrudan da oxumadı.

Həmin teatrın salonu indi boşdur. Yalnız aparıcı burdadır. Aparıcı:

—Çox illərdən sonra Üzeyir Hacıbəyli belə yazacaq: —əlindəki kitabı açıb oxumağa başlayır: *— On üç yaşında olarkən doğma*

şəhərim Şuşada tamaşadan bir səhnə gördüm. Məcnun Leylinin məzarı başında. Bu səhnə məni o qədər həyəcanlandırdı kt, bir neçə ildən sonra Bakıya gəlib opera yazmaq fikrinə düşdüm.

Üzeyirgilin evinin qarşısında fayton dayanıb. Anası, ailə üzvləri Üzeyiri Qoriyə yola salırlar. Atası faytonçuya deyir:

—Deməli bildin də. Çox xahiş edirəm Yevlaxda Tiflis qatarına mindirərsən. Tiflisdə qabağına çıxacaqlar. Üzeyir, çatan kimi məktub yaz.

—Yaxşı.

Anası:

—Özündən muğayat ol. Yaxşı yol!

Ardınca su atır.

Fayton Şuşanın dolama yollarıyla irəlilədikcə balaca Üzeyirin yaddaşında müxtəlif xatirələr canlanır — İsa bulağında musiqi məclisləri, azan verən Hacı Hüsü, balaca xanəndə dostları, Cabbar Qaryağdıoğlu Məcnun rolunda, yellənçəkdə yellənən "Leyli" və sonra boşalmış yellənçək…

Aparıcı da faytonun arxasınca baxır:

Doğma şəhərindən ayrılırdı, uşaqlığından ayrılırdı. Şuşaya hələ çox səfərlər gələcək, amma daha qonaq kimi. Şuşayla vidalaşırdı, Şuşanın şöhrətini daha da ucaltmaq üçün. Uzaqdan "Qarabağ bülbülləri"nin oxuduğu muğam eşidilir — bir müddət bu musiqidən aralanırdı, onu qəlbində daima yaşatmaq, əbədiləşdirmək üçün…

Ekranda yazı:

QORİ

Aparıcı Qori seminariyasının qarşısında dayanıb. Aparıcı:

—1899-cu ildə Üzeyir Qori müəllimlər seminariyasına daxil olur və 1904-cü ildə oranı bitirir. Qori seminariyası rus dili müəllimləri hazırlayırdı, amma bu seminariyada musiqi fənləri də keçilirdi — fortepianoda, skripkada, başqa alətlərdə çalmağı öyrədirdilər.

Seminariyanın koridorunda buranın məzunlarının şəkilləri asılıb. Onların arasında Nəriman Nərimanovun, Mirzə Cəlil Məmmədquluzadənin, Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin şəkillərini də görürük. Aparıcı həmin lövhənin qarşısında dayanıb. Aparıcı:

—Üzeyir oxuduğu kursun şagirdləri xüsusi müsiqi qabiliyyətinə malik idilər. İllah da Üzeyir və Müslüm Maqomayev…

Aparıcı Qori seminariyasının arxivində qovluqları vərəqləyir.

Qovluqların birini açır. Aparıcı:

Bu qovluq Qori seminariyasının arxivində saxlanılır. Budur Üzeyir Hacıbəyovun xasiyyətnaməsi. Qısaca: Qabiliyyətlidir, rəftarlıdır, şəkil çəkməyi və kitab oxumağı çox sevir. İllik qiyməti beş. 1900-cu il dekabrın 3-nə aid qeyd: Üzeyir Hacıbəyov öz ana dilində danışdığı üçün tənbeh edilmişdir. Üzeyir bəyin ömrü boyu eşitdiyi haqsız tənbehlərin bu yəqin ki, siftəsidir. İkinci qeyd: Üzeyir Hacıbəyov ifadə yazısında öz arzusunu belə bildirmişdir: doğma ana dilində hesab və çoğrafiya dərslikləri tərtib etmək istəyir.

Bir neçə ildən sonra bu arzusunu həyata keçirdi: hesab dərsliyi və lüğətlər tərtib etdi, sevdiyi yazıçı Qoqolun "Şinel" əsərini ana dilinə çevirdi.

Foto atelyedə Üzeyir, Müslüm, Hənəfi və Əli Terequlovlar. Fotoqraf:

—Ayn moment —deyə dördünün bir yerdə şəklini çəkir.

Əli Terequlov kameraya, tamaşaçılara müraciətlə danışır:

—Üzeyirin musiqi qabiliyyətinə hamımız mat qalmışdıq, Çoxsəsli Avropa sisteminə bələd olmayan Üzeyir dərhal ikinci, üçüncü səsləri qavraya bilirdi. Şərq motivlərini də ondan yaxşı ifa edən yox idi.

Aparıcı:

—Əlinin böyük qardaşı Hənəfi Terequlov bolşevik idi, Qori seminariyasını onlarlan bir neçə il qabaq bitirmişdi. Terequlovların kiçik bacıları isə bir neçə ildən sonra Üzeyirə və Müslümə ərə getdilər….

Dördünün bir yerdə çəkdirdikləri şəkil canlı kadrdan fotoya çevrilir. Sonra yenə canlı kadrda Terequlovlar, Üzeyir, Müslüm bir-biriylə görüşüb vidalaşırlar.

Əli Terequlov:

—1904-cü il iyunun əvvəllərində seminariyanı bitirdik və bir-birimizlə vidalaşıb təyinat yerlərimizə yollandıq. Müslüm Maqomayev Şimali Qafqaza, Bekoviç kəndinə getdi. Bizim musiqi müəllimimiz Mixail Leontyeviç Pekker Müslümə bir skripka bağışlamışdı.

Şimali Qafazda aul. Qarlı qış gecəsi. Yatmış kəndin mənzərələri fonunda skripka səsi eşidilir. Müslüm öz otağında, odunla qalanmış sobanın yanında skripka çalır. Sonra skripkasını bir yana qoyub məktub yazmağa başlayır. Kadrarxası səsi eşidilir:

—Əziz müəllimim Mixail Leontyeviç. Tale məni ucqar bir aula atdı. Yeganə təsəllim sizin mənə hədiyyə verdiyiniz bu taxta parçasıdır.

Aparıcı:

—Elə bu zaman Azərbaycanda, başqa bir ucqar kənddə —Üzeyir Hacıbəyli müəllimlik edirdi. O, Hadrut kəndinə təyinat almışdı. Oradan Bakı qəzetlərinə ilk məqalə və felyetonlarını göndərirdi. 1905-ci il, Bakıda inqilab şimşəklərinin gurultusu eşidilirdi və Üzeyir bütün varlığıyla ora, böyük şəhərə can atırdı, Yeni Azərbaycan mədəniyyətinin — XX əsr mədəniyyətinin təməl daşları orda qoyulurdu…

Ekranda yazı:

BAKI

Üzeyir Hacıbəyli faytonda Bakı küçələrindən keçir. Filmin bu kadrları köhnə Bakının sənədli kadrlarıyla calanır Küləkli şəhər, o vaxtkı geyimlərdə kişilər, çadralı qadınlar, İçəri şəhərin o zamankı mənzərələri.

Sonra Aparıcını Sabir bağında, böyük şairin heykəlinin yanında görürük.

Aparıcı:

—Bax burda, böyük Sabirin heykəli ucalan bu yerdə vaxtilə "Həyat" qəzetinin redaksiyası yerləşirdi. 1905-ci ildə Bakıya gələn Üzeyir Hacıbəyli Bibiheybət məktəbində müəllim işləyir, eyni zamanda qəzetlərlə əməkdaşlıq edirdi.

Üzeyir redaksiyada masa arxasında oturub kağızlara baxır. Qarşısında heç nəyə inanmayan jurnalist əyləşib. Onu şərti olaraq "Skeptik" adlandıraq. "Skeptik" jurnalları, qəzetləri vərəqləyir. "Skeptik":

—Üzeyir, bax! "Molla Nəsrəddin"i də bağladılar.

Üzeyir:

—Dumanı bağladılar, "Molla Nəsrəddini" bağladılar. Fərq ondadır ki, Dumanı çarın əmriylə bağladılar, "Molla Nəsrəddin"i isə çara verilən danosların əsasında… — Əlindəki "Molla Nəsrəddin" jurnalını vərəqləyir — Əlbəttə bağlayacaqlar. Gör burda nə qədər qırmızı rəng var. Bizim hökümət də qırmızı rəngdən qorxan kimi heç nədən qorxmur.

"Skeptik":

—Baho! Burda səndən də yazıblar ki…

Üzeyir:

—Nə yazıblar?

"Skeptik":

—Yazır ki, Üzeyin yazılarından özgə bir iy gəlir.

Üzeyir (xarakter hərəkətiylə əlini bığlarına çəkir):

—Bu cənabdan xahiş etmək lazımdır ki, bundan sonra mənim yazılarımı iyləməsin.

"Skeptik" gülür .

Bibiheybət məktəbində. İnspektor məktəbin dəhliziylə keçir, siniflərdən birinin qapısını açır. Yanındakı köməkçisindən soruşur:

—Sinifdə müəllim yoxdur, kimin dərsidir?

—Hacıbəyovun.

—Bəs özü hardadır?

Köməkçi göstərir. İnspektor pəncərənin qarşısında, arxası bizə tərəf dayanmış adamı göstərir. Bu Üzeyirdir. İnspektor arxadan ona yanaşır və eşidir ki, Üzeyir bir melodiya züm-zümə edir. Üzeyirin xəyalında Şuşada gördüyü tamaşa — "Məcnun Leylinin məzarı başında" səhnəciyi canlanır.

İnspektor (təəccüb içində):

—Üzeyir bəy, dərs başlayıb.

Yzeyir (sanki xəyallardan ayılmış kimi):

—Hə?Bəli, bəli, əlbəttə. Bu saat gedirəm. Sinfə tərəf addımlayır.

Üzeyir yenə redaksiyada, masa arxasındadır. Materialları redaktə edir.

"Skeptik" hövlnak otağa daxil olur

—Üzeyir, heç bilirsən kim gəlib bizim redaksiyaya —Həsən bəy…

Üzeyir (kağızlardan ayrılaraq):

—Nə?Kim?Hansı Həsən bəy?

"Skeptik":

—Həsən bəy Zərdabi!

Redaksiyanın pilləkənləriylə nurani sifətli bir kişi aramla yuxarı qalxır — Həsən bəy Zərdabi. Arvadı Hənifə xanım onun qolundan tutub.

Aparıcının kadrarxası səsi:

—O publisist, demokrat, darvinist alim idi. Teatrımızın əsasını qoyanlardan biri və ilk qəzetimiz "Əkinçi"nin yaradıcısı idi. Moskva

Universitetini bitirmişdi, Mirzə Fətəliylə dostluq edirdi, Lev Tolstoyla məktublaşırdı…

Zərdabi və xanımı redaksiya otağına daxil olurlar. Üzeyir ayağa durub onları salamlayır.

Həsən bəy:

—Deməli o məşhur Filankəs — Üzeyir sənsən?Oxuyuram felyetonlarını, bəd deyil…

Üzeyir:

—Sağ olun Həsən bəy.

Hənifə xanım:

—Sizi, cavan jurnalistləri Həsən bəy öz doğma balalarından çox istəyir. Bütün yazılarınızı oxuyur, hərçənd ki, həkimlər oxumağı ona qadağan ediblər. Bütün tamaşalarınıza gedir…

Həsən bəy:

—Hərçənd həkimlər bunu da qadağan ediblər…

Hənifə xanım:

—Bu gün də evdə saxlaya bilmədim.

Üzeyir:

—Buyurun, əyləşin.

Həsən bəy (Üzeyir bəyə kağız uzadaraq):

—Sizin qəzet üçün bir yazı gətirmişəm.

Üzeyir alıb oxuyur:

—"Bizim nəğmələrimiz"

Həsən bəy:

—Bəli, dedim bir nəğmələrimizdən yazım. Bir vaxtlar "Əkinçi"də şairlərimizə xitab etmişdim ki, xalqın karına gələn, onun tərbiyəsinə yarayan nəğmələr yazsınlar. Yadımdadı, bircə rəhmətlik Seyid Əzim elm, təhsil barədə bir neçə şer yazmışdı. Bu nəğmələri cəm edib Tiflisə sansora göndərdik, amma bizlərdə not olmadığına görə havalarını yaya bilmədik. Bir yandan da şeytançılıq elədilər…

Üzeyir:

—Bəli, bunu yaxşı bacarırıq, Molla Nəsrəddin demişkən şeytançılıq yarışları keçirilsəydi biz müsəlmanlar birinci yerə çıxardıq.

Həsən bəy:

—Yadımdadı, "Əkinçi"nin nəşrinə başlayanda gündə məndən danos yazırdılar — jandarm polkovnikinə, qubernatora, sərdara, Allah bilir daha kimə…

"Skeptik":

—Amma "Əkinçi" bizim birinci qəzetimiz, cəmi Rusiyada ilk və o vaxt yeganə müsəlman qəzeti idi…

Həsən bəy masanın üstündəki jurnal-qəzet qalağını göstərir:

—Amma indi, maşallah gör nə qədər qəzet-jurnal çıxır. Teatr sahəsində də bir canlanma var. Bir neçə tamaşaya baxdım. Bəd deyil. Qırx il bundan əqdəm Mirzə Fətəli rəhmətlik "Təmsilat"ını mənə göndərmişdi və xahiş eləmişdi ki, pyeslərindən birini şagirdlərimlə oynayım. "Hacı Qara"nı seçdik, Nəcəf Vəzirovla, Adıgözəl Goraniylə bir yerdə tamaşaya qoyduq. Haçandı bu, dayan görüm…

Hənifə xanım:

—1873-cü il, martın 12-də, əzizim.

Həsən bəy:

—Bəli, bəli…

"Skeptik":

—Həsən bəy, Mirzə Fətəli Şərqdə ilk pyesləri yazdı, siz onları ilk dəfə səhnədə oynadız. İndi isə Üzeyir bəy (azacıq rişxəndlə) ilk operamızı yaratmaq fikrinə düşüb.

Həsən bəy:

—Doğrudan?

Üzeyir:

—Bəli, çoxdandı bu fikir başımdan çıxmır. Məşhur əsərlərdən birini götürüb musiqi tərtibatı vermək istəyirəm.

Həsən bəy:

—Yaxşı fikirdi. Sən elə tamaşa yarat ki, iştirak edənlər oxusun…

Üzeyir:

—Elə mənim də məqsədim budu.

Həsən bəy:

—Bəs hansı əsəri götürmək istəyirsən?

Üzeyir:

—Füzulinin "Leyli Məcnun"unu.

Həsən bəy:

—Çox gözəl. Sənə müvəffəqiyyət arzu edirəm. Mütləq premyerana gələcəm, mütləq.

Fəxri xiyabanda Həsən bəy Zərdabinin məzarı. Məzar üstündə güllər. Aparıcı:

—Bu arzusuna çatmadı Həsən bəy Zərdabi. "Leyli və Məcnun"un ilk tamaşasından ay yarım qabaq vəfat etdi.

Üzeyir köhnə Bakının küçələriylə addımlayır. Gəlib su budkasının yanına çıxır. Budkada Hüseynqulu Sarabski su satır. Belinə tuluq almış hamballar Hüseynquluya pul verirlər, o kranı açır və hamballar tuluqlarını doldurub gedirlər.

Üzeyir bəy bir qədər təəccüb içində bunu kənardan müşahidə edir. Növbədəki axırıncı hambal gedəndən sonra bir müddət boş qalmış Hüseynqulu zümzümə etməyə başlayır. Üzeyir gülümsünür və ona yanaşır.

—Salam — deyir.

—Əleykəssalam.

—Hüseynqulu Sarabski sizsiz?

—Bəli.

—Dünən axşam sizi "Əlmənsur" tamaşasında gördüm. "Hicazı" yaxşı oxudunuz.

Hüseynqulu acı bir istehzayla:

—Hə… Gündüzdəki görürsüz nəylə məşğulam. Neyləyəsən, bizim zəmanədə müsəlman artistinin günü-güzəranı budu. Bir yerdən qazancın olmasa dolanmazsan.

Sarabski budkadan çıxır.

Üzeyir əlini uzadır:

—Tanış olaq. Üzeyir Hacıbəyli. Jurnalistəm.

Sarabski:

—Çox şadam.

Üzeyir:

—Sizin tamaşa haqqında yazmaq istəyirəm.

Sarabski:

—Onda onu da yazın ki, dünən yenə bizi hədələyirdilər. Canımızı qurtarmaq üçün dal qapıdan qaçmalı olduq.

Bayaqdan bəri su kranının açılmasını gözləyən hambal:

—Nə oldu? — deyir.

Üzeyir:

—Yanınıza gəlməkdə başqa məqsədim də var. Mən bir opera yazıram — "Leyli və Məcnun". İstəyirəm ki, Məcnun siz olasınız. Necə, razısınız?

Hambal:

—Yaxşı, bu suyu verəcəksən ya yox?

Sarabski (kədərli təbəssümlə):

—Hara tələsirsən, qaça-qaçdır? — deyə budkaya keçir, kranı açır,

sonra Üzeyirə müraciətlə: — Razıyam. — deyir.

Sarabski köhnə küçələrin birində, divarında "Hüseyn Ərəblinski bu evdə yaşayıb" sözləri yazılmış xatirə lövhəsinin qarşısında Hüseyn Ərəblinski ilə rastlaşır. Sarabski:

—Mən elə sizə gəlirdim Hüseyn. İndicə Üzeyir Hacıbəyliylə söhbət edirdik, "Leyli Məcnun" operası yazır.

Ərəblinski:

—Opera?

—Bəli. Mənə də təklif etdi ki, Məcnun rolunda çıxış edim. İstəyirik tamaşanın rejissoru sən olasan.

—Maraqlıdı. Düzdü mən indiyə qədər opera tamaşaya qoymamışam.

Sarabski:

—Gedək Üzeyir bəyin yanına, "İslamiyyə" mehmanxanasında qalır. Danışaq, məsləhətləşək.

Aparıcı Bakının müasir Hüsü Hacıyev küçəsində. İndi yaşayış evi olmuş binanı göstərir:

—Həmin bu bina indi yaşayış evidir, o vaxtlar "İslamiyyə" mehmanxanası bu evdə yerləşirdi. Otuz birinci nömrədə Yzeyir Hacıbəyli yaşayırdı, "Leyli və Məcnun" operasını burda yazırdı və ilk məşqlər də burda keçirdi.

"İslamiyyə" mehmanxanasının girişində əlində skripka qutusu olan Əli Terequlov dayanıb. Əllərində müxtəlif musiqi alətləri olan bir neçə nəfər də gəlir, Əli Terequlovla salamlaşıb içəri keçirlər.

Şeşə bığlı qorodovoy onlara şübhəylə baxır.

Mehmanxanada Üzeyirin otağı. Çoxlu adam var.

Haqverdiyev otağa daxil olur:

—Dostlar — deyir — görürəm yeriniz çox darısqaldır.

"Skeptik":

—İndi Hənəfi Terequlov xoru gətirəcək, onda burda heç tərpənmək mümkün olmayacaq.

Haqverdiyev:

—Mənim otağım daha genişdir. Qonşuluqdayıq. Buyurun ora.

Aparıcı:

—Yazıçı Əbdürrəhim bəy Haqverdiyev bax beləcə "Leyli və Məcnun" operasının yaranmasına cəlb oldu.

Mehmanxananın qarşışı. Hənəfi Terequlov xorun iştirakçılarıyla mehmanxanaya girir.

Bığlı qorodovoy əlaltısını yanına çağırır:

—Kajetsya opyat sobirayutsya v tridsat pervom nomere. İdi, prover, potom dolojiş mne.

Mehmanxana nömrəsində, ifaçılardan birinin — Əli Teruqulovun əlində skripka var, kameraya — tamaşaçılara üz tutaraq danışır:

—Üzeyirin dostları, Qori seminariyasındakı yoldaşları opera yaratmaq fikrini böyük həvəslə qarşıladılar. Orkestrə ümumi rəhbərliyi Üzeyir özü edirdi. Birinci skripkada çalmaq şərəfi mənə nəsib oldu.

Üzeyir musiqiçilərlə məşq edir. "Leyli və Məcnun" operasının üvertürası unison çalınır. Birdən Üzeyir məşqləri dayandırır:

—Olmadı, olmadı…Durun. Bir də başdan…

Tarzən:

—Daha neçə kərəm olar?

Bir qıraqda oturub onlara tamaşa edən Haqverdiyev:

—Əzizim, elə məşq onunçundur da…

Tarzən:

—Mən tələsirəm. Axşam İsa bəyin toyunda çalmalıyam.

Haqverdiyev:

—Darıxma, çatarsan — Üzeyirə — Üzeyir, sən işində ol. Məşqi mən apararam.

Üzeyir əlindəki notlarda nə isə düzəlişlər edir.

Haqverdiyev musiqiçilərə dirijorluq edir. Üzeyir təəccüblə ona baxır.

Haqverdiyev:

—Vəssalam, qurtardı getdi.

Üzeyir:

—Əbdürrəhim bəy, demə siz əməlli başlı dirijormuşsuz.

Haqverdiyev (təbəssümlə):

—Mən Şuşalıyam Üzeyir, Şuşalı olasan, musiqidən az-maz başın çıxmasın?…

Ərəblinski və Sarabski İçərişəhərin küçələriylə addımlayırlar:

Ərəblinski:

—Əvvəl gəl görək hadisə nə vaxt cərəyan edir. Füzulinin poeması dörd yüz il bundan qabaq yazılıb…Ondan da ğabaq bu mövzunu Nizami yazıb.

Sarabski:

—Füzulidən dörd əsr əvvəl.

—Tamamilə doğrudur. Deməli bu əhvalatın yaşı azı-azı səkkiz yüz ildir, vaxtını müəyyən etdik… Məcnun ərəbcə dəli deməkdir.

Sarabski:

—Mən dəlilərə göz qoymağa başlamışam. Onların hərəkətlərinə, rəftarlarına…

Ərəblinski:

—Yox, yox, Hüseynqulu. Məcnun elə belə adi dəli deyil. O eşqin, məhəbbətin dəlisidir. Daha doğrusu ətrafdakı adamlar, küt, nadan, cahil adamlar onu dəli hesab edir. Onun Leyliyə böyük sevgisini başa düşə bilmirlər.

Sarabski:

—Oylə sərməstəm ki, idrak etməzəm dünya nədir, mən kiməm, saqi olan kimdir, meyi səhba nədir?

Mehmanxana otağı. Üzeyir, Sarabski, Ərəblinski, Haqverdiyev və başqaları.

Üzeyir (Ərəblinskiyə):

—Hüseyn , sənin artistlərin nəsə yubanırlar.

Ərəblinski:

—Üzeyir, əzizim, sən məgər bizim artist tayfasına bələd deyilsən. Axşamlar artistdirlər onlar, gündüzlər isə hərəsi bir işlə çörəyini qazanır. Darıxma, indi dükanlarını bağlayıb məşqə gələcəklər.

"Skeptik":

—And olsun Allaha, qəribə adamlarsız. Yəni doğrudan elə güman edirsiz ki, bu işinizdən bir şey çıxacaq? Pulu hardan tapacaqsınız? Əlbisəni, qrimi, rekviziti hardan alacaqsız? Antreprenyörə nə verəcəksiz? Hansı puldan? Pulsuz heç nə baş tutmaz, özünüz də bilirsiz. Qapıçıdan tutmuq afişləri yapışdırana qədər hamı sizdən pul istəyəcək. Bəs dekorlar? Dekorlar? Ərəbistan səhrasının əvəzində sizə olsa-olsa quru bir budaq verəcəklər.

Ərəblinski:

—Zərər yoxdu… İndiyə qədər bir təhər başımızı girrəmişik, indi də bir şey fikirləşərik…

"Skeptik":

—Bəli, elə başımızı girrəyirik. Bəs paltarları hardan tapacaqsız?

Ərəblinski:

—Bu işdə Sarabskinin yaxşı səriştəsi var…

Sarabski:

—Yox. yox, bağışlayacaqsız…

Haqverdiyer:

—Nədir ki?

Sarabski:

—Bir dəfə evdən hansı tamaşayçünsə arvad paltarı gətirdim. Başıma bir oyun açdılar ki… Səhnədə adımızı batırdığın bəs deyil, indi də bizi bu cür biabır edirsən, pal-paltarımızı camaata göstərirsən? Canımı güclə qurdardım. Odu ki… məndən kömək gözləməyin…

Ərəblinski:

—Bığlarını da onunçün qırxdırmır da… Deyirəm ona ki, artistin sifəti gərək təmiz olsun — bığsız-saqqalsız… İstənilən qrimi eləmək mümkün olsun…

Sarabski:

—Yaxşı, Hüseyn, sən qırxdırdın bığlarını, danış da başına nə oyun gəldi.

Haqverdiyev:

—Nə məsələdir?

Ərəblinski:

—Heç əşi, boş sözdur, Mənim bir qohumum var — Xalıq. Hamıya car çəkib ki, əvvəl-axır məni öldürəcək. İndi ki, belədir, nə fərqi var, bığlı öldürsün ya bığsız.

Haqverdiyev:

—Yaxşı, axı niyə görə səni öldürmək istəyir?

Ərəblinski:

—Necə niyə? Səhnədə oyun çıxarıram, ailəmizin adını batırıram.

Zülfüqar Hacıbəyli:

—Pərvərdigara, haçan canımız bu sayaq söhbətlərdən qurtaracaq. Haçan artistlərə hörmət eləməyi öyrənəcəyik.

Sarabski:

—Hə, başqa yerlərdə artistlərə gül verirlər, ehtiram edirlər. Bizim qazancımız isə təhqirlə söyüş olur.

Ərəblinski (Haqverdiyevə):

—Bilirsiz, Əbdürrəhim bəy, hər şeyə dözmək olar — yorğunluğa da, pulsuzluğa da, təki bizi adam yerinə qoyaydılar, bizimlə insan kimi rəftar edəydilər.

Haqverdiyev:

—Ürəyinə salma Hüseyn, vaxt gələcək hər şey düzələcək. — şöhrət də olacaq, hörmət-ehtiram da… Dostlarım, Üzeyir sizin bu

opera fikrinizi mənə danışanda elə sevindim ki... Amma indi məni bir məsələ düşündürür: axı vacib bir iş də var. Qadın rolunu kim oynayacaq. Axı bu bizim bədbəxtçiliyimizdir. Vaxtilə Hüseynin xahişi ilə "Qacar"ı elə yazdım ki, orda bir dənə də qadın rolu olmadı.

Ərəblinski:

—Əziz Əbdürrəhim bəy, heç olmasa bir tamaşada canımızı bığlı-saqqallı "qadınlardan" qurtardınız.

Haqverdiyev:

—Hə, ancaq "Leyli Məcnun" Leylisiz necə baş tuta bilər?.

Aktyorlar otağa daxil olur, onların arasında yekəpər Mirzə Muxtar da var.

Sarabski qəhqəhə çəkib Mirzə Muxtarı göstərir:

—Bu da bizim Leyli — qadın rollarının əvəzsiz ifaçısı…

Hamı gülüşür, Mirzə Muxtar pərtləşir.

Sarabski zarafatını davam etdirir:

—Bilirsiz, Əbdürrəhim bəy, bir dəfə bax bizim bu Mirzə Muxtarla bir tamaşada oynayırdıq. O, həmişəki kimi qadın rolunda çıxış edirdi. Yadımda deyil nə roldu, amma xatırlayıram ki, Mirzə Muxtar belə dəsmalla bığlarını örtmüşdü, başına da ləçək bağlamışdı. —Göstərir. — Belə gen ətəkli tumanı da vardı. İndi bu oynayır, oxuyur, elə qızışıb ki, dəsmal düşüb, bunun da heç vecinə deyil. Hüseyn Ərəblinski səhnənin arxasından qışqırır: Mirzə Muxtar, Mirzə Muxtar, dəsmal düşüb, dəsmal düşüb… Camaat qırılıb gedib gülməkdən, Mirzə Muxtar da elə bilir bunun yaxşı oyununa gülürlər.

Mirzə Muxtar:

—Hüseynqulu Allah heç bəndəni sənin dilinə salmasın.

Sarabski:

—Nədi, yalan deyirəm? Sonra ləçək də başından düşdü, dazı göründü. Amma bu heç fərqinə varmır, oxuyur, oynayır. Camaat qırılıb gedib, biz də səhnənin dalında day gülməkdən qəşş etmişik. Bu yerdə tumanı da düşdü, tüklü qıçları göründü… Ərəblinskinin ürəyi getdi, yıxıldı.

Ərəblinski:

—Pərdəni salmalı olduq.

Gülüşürlər, bircə Ərəblinskinin sifəti ciddidir.

"Skeptik":

—Siz də opera göstərmək istəyirsiz. Ay hay!. Bir də unutmayın , üç senzuradan keçmək lazım gələcək.

Terequlov:
—Üç niyə?
"Skeptik":
—Biriminci gərək hökümətdən izin alasız. Bu bir. İkiminci gərək mollalardan icazə istəyəsiz ki, yəni burda xilafi şəriət bir iş yoxdur, Bu iki. Üçüncü də gərək qoçuların xeyir-duasın alasız…
Terequlov:
—Qoçuların?
"Skeptik":
—Bəli. Bəyəm bilmirsiz ki, indi tamaşaların afişlərində bir qoçunun da adı yazılır. Yəni bu qoçu tamaşaya himayədarlıq edir ki, day o biri qoçular dəyib dolaşmasın.
Haqverdiyev:
—Gör nə günə qalmışıq.
Sarabski (Ərəblinskiyə):
—Yadındadı Hüseyn, qoçu Ağazəkinin yanına xahişə getmişdin ki, icazə versin adını afişə yazaq
Ərəblinski:
—Mənimlə heç danışmaq istəmədi.
"Skeptik":
—Yox, qardaşlar, sizin bu işinizdən qan iyi gəlir. Camaat başınıza bir oyun açar ki, dəymişiniz qalıb kalınız tökülər.
Sarabski:
—Elə ki, sən ağzını açdın, alam istəyir başını götürüb qaçsın burdan.
Əli Terequlov:
—Hara qaçacaqsan, Hüseynqulu? Rütbəni, vəzifəni alacaqlar əlindən? Sən onun sözünə qulaq asma. Lap əntiqə oynayacaqsan, daha da çox tanınacaqsan.
"Skeptik":
—Gözlə, tanınacaq… Mənim sözümü yadınızda saxlayın: bu işdən heç nə çıxmayacaq, heç kəs gəlməyəcək tamaşanıza. Gəlsələr də üstünüzə lax yumurta atacaqlar. Hələ daşa basmasalar yaxşıdı…
Üzeyir qonşu otaqda məşqi bitirib, xor iştirakçılarını buraxır. Xor iştirakçıları mehmanxanadan çıxanda qorodovoy şübhəylə onlara baxır.
Üzeyir dostları olan otağa daxil olur, Sarabskiyə:
—Hüseynqulu, o səhnəni Hicaz üstündə oxusan, necə olar?

Gecə düşüb. Üzeyir və dostları mehmanxanadan çıxırlar.

Qaradovoy o biri jandarmalara işarə verir. Jandarmalar Üzeyirin mehmanxanadakı otağına girib hər şeyi alt-üst edirlər.

Redaksiyada. Üzeyir masanın arxasında oturub nə isə yazır. Kadrarxası səsi eşidilir:

—Dünən Bakı hökumətinin könlünə adam axtarmaq həvəsi düşmüşdü. Bilmirdi hara getsin və kimi axtarsın. Fikir elədi, elədi, axırda alnına vurub dedi, hə, bildim və yola düşüb getdi və gəlib "İslamiyyə" mehmanxanasına yetişdi və xalqı axtarmağa başladı, axtarmamış yer qoymadı və xalqın yorğan-döşəyini eşələyib az qaldı ki, balışların və mütəkkələrin bağırsaqlarını çıxarsın və heç nə tapmadı. Ona görə bərk acığı tutdu və istədi ki, mehmanxananın çəngəl-bıçağını aparsın. Amma çəngəl-bıçaq ilə çörək yeyildiyinə görə və çörək yeməkdə də xilafi-hökumət bir iş olmadığına görə əliboş getməkdən savayı bir əlac tapmadılar.

Mehmanxana otağında Ərəblinski artistlərlə məşq edir.

Mirzə Muxtar daxil olur.

Ərəblinski:

—Yenə niyə gecikirsən?

Mirzə Muxtar:

—Üzr istəyirəm Hüseyn, cəmisi on dəqiqə gecikmişəm.

Ərəblinski:

—Dedim axı, hamınız bu gün qrimdə gəlin.

Mirzə Muxtar:

—Biz ki, hələ səhnədə deyilik Hüseyn.

Ərəblinski əsəbi gəzişməyə başlayır, sonra üzünü Mirzə Muxtara tutub:

—Yox, mən başa düşmürəm, rejissor burda kimdir, sən ya mən? — Deyir. — Dedim axı, hamı bu gün qrimdə gəlsin. — Bir kənarda kirimişcə oturmuş adamı göstərərək: — Bu kimdi belə?

Köməkçi:

—Faytonçu Dadaşdı, Yaman teatr həvəskarıdı. Artistlərimizi müftə gəzdirir, bircə xahişi odur ki, qoyaq məşqlərdə iştirak eləsin.

Ərəblinski (aktyorlardan birinə):

—Sənin əsan hanı?

Aktyor:

—Bağışla Hüseyn…Tamam yadımdan çıxıb əsam, evdə qalıb, amma sən heç darıxma, əsasız da elə gedəcəm ki…

Ərəblinski:

—Yox bu cür işləmək mümkün deyil. Axı dedim mən —əvvəldən axıracan məşq edirik bu gün. Səhnədəki kimi… Qurtardı. Olmayacaq məşq.

Otağa Sarabski daxil olur. O, Məcnun qiyafəsində və qrimdədir.

Sarabski:

—Necə məşq olmayacaq? İki saatdır qrim eləyirəm.

Ərəblinski (onun qriminə baxır):

—Nədir bu belə?

Sarabski:

—Dedin axı, hamı qrim eləsin, elədim də…

Ərəblinski (Onun qap-qara sifətinə işarə edərək):

—Hüseynqulu, səncə ərəblər zəncidirlər?

Sarabski:

—Bizim qonşu bildir Məkkəyə getmişdi, ordan bir oğlan uşağı gətirmişdi qap-qara. Dedim yəqin bütün ərəblər bu cürdür də…

Ərəblinski:

—Siz məni dəli edəcəksiz. Get yu üzünü. Ondansa saqqal yapışdıraydın.

Sarabski:

—Vallah, səni heç başa düşmək olmur, gah deyirsən bığını qırx, gah da deyirsən saqqal yapışdır…

Ərəblinski (Özünü ələ almağa çalışaraq):

—Bax Hüseynqulu, parik qoymusan, saçlarını pırpızlaşdırmısan, yaxşıdır. Bu gün Məcnunun dəliliyi səhnəsini məşq edəcəydik. Məcnun çoxdandı səhrada yaşayır, saçları uzanıb. Bəs bu vaxtda səncə saqqalı uzanmayıb? Ya bəlkə səhrada hər gün üzünü qırxırmış?

Hamı gülüşür. "Skeptik":

—İşiniz-gücünüz qurtarıb — bığ, saqqal… Siz onun dərdinə qalın ki, saqqallı, bığlı Leylini hardan tapacaqsınız?

***

Açıq havada çayxana. Üzeyir, Ərəblinski, Sarabski bir masa arxasında oturub çay içirlər.

Üzeyir:

—Hə, doğrudan da çətin işdi bu… Hələ bir on il də Leyli roluna qadın ifaçı tapa bilməyəcəyik, amma gərək elə bir gənc oğlan tapaq ki, onu Leyli kimi qrimləmək olsun.

Ərəblinski:

—Azdan-mazdan səsi də olsa pis olmaz.

Çayçı şəyirdi — cavan oğlan masalara çay paylaya-paylaya zümzümə edir.

Üzeyirgil onun oxumasına diqqət edirlər.

Sarabski:

—Səsi pis deyil ha…

Üzeyir:

—Dostlar, bilirsiz ağlıma nə gəldi.

Sarabski:

—Bu mənim də ağlıma gəldi…

Ərəblinski:

—Ağlınıza nə gəldiyin bilirəm. Ancaq razı olmaz.

Çay içir və dinləyirlər. Oğlan oxumağa davam edir.

Üzeyir:

—Hüseynqulu, bəlkə sən danışasan bir…

Sarabski:

—Yox, yox, Üzeyir bəy. Mən bakılıyam, hər kəs məni tanıyır, iş çıxan kimi üstümə davaya gəlirlər. Yox… —Bir qurtum da çay içir, sonra birdən qərara gəlir. — Yaxşı, neynək, görüm neynirəm.

Durub çayçı oğlana yanaşır, nə barədəsə danışırlar.

Müasir paltarda Aparıcı da bu çayxananın bir qırağında durub hadisələri izləyir. Aparıcı:

—Beləliklə iş elə gətirdi ki, çayçı şəyirdi Fərəcov Leyli rolunun ilk ifaçısı oldu.

"Leyli və Məcnun" tamaşasının premyerası olan Tağıyev teatrının fasadı. Divarda ilk şərq operası "Leyli və Məcnun"un afişi asılmışdır.

Aparıcı afişanın yanında dayanıb. Aparıcı:

—Nəhayət bu gün gəldi — 1908-ci il yanvarın on ikisində, burda, Tağıyev teatrının binasında ilk Azərbaycan operasının ilk tamaşası oldu.

Kamera afişi iri planda göstərir. Afişin aşağı tərəfində ərəb əlifbasıyla və rus dilində yazı: Müsəlman xanımları üçün ayrıca, örtülü lojalar var.

Teatr salonu. Salon bom-boşdur. Aparıcı üstünə qara tül pərdə çəkilmiş lojaları göstərir:

—O vaxtlar bu salonda bəzi lojaların qarşısına örtük çəkilmişdi. Bu lojalarda qadınlar əyləşərdi.

Kamera iri planda səhnə pərdəsinin ucundan asılmış qıfılı göstərir.

Aparıcı:

—Teatr pərdəsinin qırağından isə iri bir qıfıl asılmişdı. Açarı binanın icarədarının cibindəydi.

Səhnədə məşq gedir — Ərəblinski və qrimli, ərəb qiyafəli aktyorlar, köməkçi hövlnak Ərəblinskiyə yanaşır.

—Hüseyn, icarədar qıfılın açarını vermir.

Ərəblinski:

—Niyə?

Köməkçi:

—Deyir pul azdır.

Sarabski:

—Nə danışır o, biletlər hamısı satılıb ki…

Köməkçi:

—Əlavə pul istəyir. Üzeyir bəy qızıl saatını girov qoydu, amma deyir bu da azdır…

Ərəblinski barmağından üzüyünü çıxarır:

—Yeganə qiymətli şey budu məndə. Apar o qansıza, pərdəni açsın, bizə mane olmasın. Leyli hanı?

Ərəblinski və Sarabski qrim otağına girirlər. Qrimçi Fərəcovu qrimləmək istəyir. Fərəcov haray-həşir qaldırıb qoymur. Ərəblinski:

—Nə olub?

Fərəcov:

—Qoymaram üzümə piy çəksin.

Qrimçi:

—Ya xotel nalojit nemnoqo krema, a to on je sovsem ne budet poxoj na Leyli…

Fərəcov:

—Xeyir…Heç vədə qoymaram. Guya bilmirəm, üzümə piy sürtsəz heç vaxt saqqalım çıxmayacaq.

Sarabski:

—Boş-boş danışma. Biz hər gün qrim edirik — bığlarını göstərir — görürsən ki…

Fərəcov:

—Sizə nə var, siz artistsiz…

Ərəblinski içindəki hiddətini boğmağa çalışaraq, bir müddət otaqda gəzişir, sonra ehtirasla danışmağa başlayır:

—Hə... Biz artistik. Neçə ildi mən sifətimə un və his çəkirəm, milli sənətə xidmət edirəm və bundan yüksək heç nə ola bilməz. Səhnə insanları qardaş edir bir-birinə. Hə, biz aktyoruq, biz du səhnədə hər hansı şahın, kralın tacını götürüb ayaqlarımızın altına ata bilərik, tapdalayarıq. Biz şahıq, biz dövlətliyik, hakim bizik, arvadlarını və bacılarını çadraya bürüyüb bizə baxmağa gələnlər yox… — Otaqdakı butafor tacı götürüb ayağı altına atır. — Hər şey dəyişəcək bir vaxt. Qədrimizi biləcəklər. Biz öləcəyik, amma bizi xatırlayacaqlar. Bəs onları kim yada salacaq görəsən? — Qrimi götürüb Fərəcovun üzünü qrimləməyə başlayır. — Qorxma, qorxulu bir şey yoxdur. İndiki bizə kömək eləmək istəyirsən sözünün üstündə dur da…. Aha, bax belə, çox yaxşı…. Unutma, qadın rolu oynamaq üçün böyük kişilik lazımdı…

Teatrın başqa bir otağında Üzeyir və "Skeptik".

Qurban Primov həyəcanlı halda daxil olur.

Qurban Pirimov:

—Üzeyir bəy, batdıq.

Üzeyir:

—Nədi, nə olub yenə?

Qurban Pirimov:

—Tarzənlərin sözü bir-biriylə çəp düşdü, hamısı çıxıb getdilər, bir mən qaldım, bir də Şirin.

"Skeptik":

—Mən bilirdim ki, belə olacaq, deyirdim sizə…

Köməkçi gəlir:

—Üzeyir bəy, neyləyək?

"Skeptik":

—Tamaşanı saxlayın. Elan verin ki, "Leyli-Məcnun" həmin gün, həmin saatda oynanılacaq… Amma iyirmi ildən sonra…

Köməkçi:

—Üzeyir bəy, doğrudan tamaşanı saxlayaq?

Üzeyir:

—Yox, saxlamaq-zad lazım deyil. Qurban Şirinlə sən muğamları çalarsız, təsnifləri mən skripkalara verəcəm.

Köməkçi:

—Haçan axı, Üzeyir bəy? Tamaşanın başlanmasına iki saat qalıb.

Üzeyir:

—Eyb etməz. Mənə çoxlu not kağızı gətir — köməkçi qapıdan çıxarkən — bir də üç stəkan tünd çay.

Üzeyir öz musiqisinin sədaları altında not kağızlarını bir-bir doldurub köməkçiyə uzadır.

Teatrın foyesində Haqverdiyev və Üzeyir.

Üzeyir:

—Əbdürrəhim bəy, skripkada mən özüm çalacam, çalanları ardımca aparacam.

Haqverdiyev:

—Necə? Onda bəs dirijorluğu kim edəcək?

Üzeyir:

—Siz.

Haqverdiyev:

—Nə, mən? Mən dirijor deyiləm Üzeyir.

Üzeyir:

—Siz şuşalısınız Əbdürrəhim bəy. Hansı şuşalı musiqiçi deyil ki?…Siz bütün operanın musiqisini gözəl bilirsiniz. Səhnəyə baxıb artistlərə və orkestrə göstəriş verəcəksiniz. Vəssalam.

Tamaşa salonu. Artıq bütün yerlər dolub. Tamaşaçılardan biri lojanı göstərərək:

—Ora bax — deyir —şair Abbas Səhhətdir.

Lojada Abbas Səhhət əlindəki proqrama baxıb yanında oturan adama:

—Məcnunu Sarabski oynayır — deyir.

—Maraqlıdır.

Səhnə arxasında Üzeyir, əlində dirijor çubuğu olan Haqverdiyev, Ərəblinski, Məcnun qrimində və qiyafəsində Sarabski…. Köməkçi tələsik onlara yanaşır.

—Üzeyir bəy — deyir — adam doludur. Hər yerdən gəliblər — Tiflisdən, İrəvandan, Gəncədən, Şuşadan, hətta Vladiqafqazdan. Bəziləri tək özünə iki bilet alır.

Haqverdiyev:

—Bu nə səbəbdən?

Köməkçi:

—Özünə və papağına.

Salonda bir neçə nəfərin oturub papaqlarını yanlarındakı boş yerə qoyduqlarını görürük.

Səhnə arxasında Sarabski:

—Neçə ildi dramatik səhnədə oynayıram, amma indi uşaq kimi əsirəm…

Haqverdiyev:

—Mən də sənin kimi. Ağlıma gəlməzdi ki, bir gün dirijorluq edəcəm.

Üzeyir:

—Vaxtdır, başlamalıyıq.

Haqverdiyev:

—Yaxşı, görək nə olur? Allah kərimdir, necə deyərlər.

Köməkçi qaçıb gəlir:

—Üzeyir bəy! Üzeyir bəy! Camaat qapını sındırır, küçə adamla doludu. Sıraların arasında stullar qoymuşuq, əlavə biletlər satmışıq, amma… neyləyək bəs…

Sarabski (qəfil pafosla):

—Açın foyedə bütün pəncərələri. Qoy bütün küçə eşitsin.

Ərəblinski əlindəki balaca zınqırovu çalır — o vaxtlar teatr tamaşalarının başlanmasını belə xəbər verirdilər.

Ağzınacan dolu tamaşa salonu. Orkestrdə skripka çalan Üzeyir, Əli Terequlov, tarzənlər Qurban Pirimov, Şirin və başqaları…

Haqverdiyev dirijor pultu arxasında. Çubuğunu qaldırır və orkestr "Leyli və Məcnun"un uvertürasını çalmağa başlayır. Pərdə açılır. Alqışlar altında "Şəbi-hicran" xoru səslənir.

Operadan müxtəlif fraqmentləri, bu səhnələri alqışlayan tamaşaçıları görürük, orkestri, dirijorluq edən Haqverdiyevi, skripka çalan Üzeyiri görürük.

Qara tül pərdəylə örtülmüş lojaların birində bir neçə qadın. Üzeyirin diqqətini sifəti güclə sezilən gənc qız çəkir və səhnədə Leylinin ariyaları səslənən zaman sanki tül pərdə düşür və Üzeyir bu qızın gözəl çöhrəsini görür, xəyalında uşaqlıq vaxtı Şuşada yellənçəkdə yellənən qonşu qızın surəti canlanır. Leylinin partiyalarıyla bağlı bütün səhnələrdə gah Uzeyirin xəyallara dalmış simasını, gah da xəyallarında canlandırdığı gözəl "Leyli"ni görürük.

Gurultulu alqışlar altında pərdə enir.

Üzeyir və Ərəblinski Sarabskinin qrim otağına gəlirlər. Üzeyir həmişəki kimi təmkinlidir, amma dərin məmnunluq hissi keçirdiyi duyulur. Üzeyir (Sarabskiyə):

—Əhsən qoçaq.

Ərəblinski:

—Hüseynqulu, Allaha and olsun, sən əgər sonrakı pərdələri də belə oynasan, məşhur opera artisti kimi tanınacaqsan.

Sarabski:

—Siz hələ baxarsız, finalda neyləyəcəm.

Yenə də "Leyli və Məcnun" operasından fraqmentləri görürük. Aparıcının kadrarxası səsi:

—İndi siz Sarabskinin özünü əks etdirən sənədli kadrları görəcəksiniz.

Sarabskini Məcnun rolunda əks etdirən sənədli kadrları görürük, sonra bu kadrlar eyni mizansəhnədə eyni qiyafə və qrimdə Sarabskini oynayan aktyorun kadrlarıyla əvəz olunur və o da xronikadakı real Sarabski kimi arxası bizə olaraq səhnənin kənarına tərəf gedir. Filmimizdəki Sarabski xəyalən səhnədən çıxıb boz bir səhrayla addımlayır, get-gedə uzaqlaşır.

Səhra, qumlar, qumlar…Operanın dahiyanə final xorunun sədaları altında Məcnun səhrada get-gedə uzaqlaşıb itir.

Yenidən teatra, səhnəyə qayıdırıq. Tamaşa bitir. Gurultulu alqışlar qopur. "Əhsən!", "Bravo!" səsləri eşidilir. Səhnə önündə Üzeyir, Ərəblinski, Haqverdiyev, aktyorlar tamaşaçılara baş əyir. Üzeyir (təəccüblə Ərəblinskinin qulağına pıçıldayır):

—Bəs Sarabski hanı?

Səhnə arxasında Sarabski bir bucağa qısılıb ağlayır.

İçərişəhərin küçələrindən biri. Sarabski bu küçələrlə addımlayır. Uşaqlar onun dalınca düşərək:

—Məcnun! Məcnun! —deyə qışqırışırlar.

Aparıcının kadrarxası səsi:

—Hamı onu Məcnun deyə çağırmağa başladı və bu Sarabskinin ürəyindən idi.

Bakıda, Fəxri xiyabanda Sarabskinin Məcnun rolunda qəbrüstü abidəsi. Aparıcının kadrarxası səsi:

—Sarabski Məcnunun ilk, ən yaxşı və otuz il ərzində misilsiz ifaçısı oldu. Qırx ikinci ildə vəfat etdi. Ömrünün son günündə tarzən Qurban Pirimovu və aktrisa Həqiqət Rzayevanı yanına çağırıb və xahiş edib ki, "Leyli və Məcnun"dan bir parça ifa etsinlər.

Sənədli kadrlar. Xəstə Sarabski yatağında uzanıb. Qurban Pirimovun tar çaldığı sənədli kadrlar bizim filmimizdəki "Leyli və Məcnun" epizodlarıyla canlanır. Sanki bütün bunlar xəstə və qoca Sarabskinin xəyalında canlanır — Məcnunun səhnələri, alqışlar, güllər, premyera günü "açın bütün pəncərələri" deməsi və tamaşadan sonra səhnə arxasında ağlaması.

Opera teatrının fonunda Aparıcı:

—"Leyli və MəcnunUun taleyi çox uğurlu oldu. Düz yetmiş dörd ildir ki, bu opera səhnəmizdən düşmür…

BİRİNCİ SERİYANIN SONU
İKİNCİ SERİYA

Aparıcı:

—"Leyli və Məcnun"un ilk tamaşasından bir il sonra Üzeyir bəyin həyatında mühüm hadisə baş verdi. Bakıda Terequlovların kiçik bacıları Məleykəylə rastlaşdı. Onu hələ Tiflisdən tanıyırdı, o vaxt balaca qız idi. Onlar evləndilər və bundan sonra ömürləri boyu bir-birlərindən ayrılmadılar.

Üzeyir bəy və Məleykə xanım "Sevgili canan" qəzəl-romansının sədaları altında Bakı küçələrini dolaşır, indi bəstəkarın mənzil-muzeyi olan evin qarşısına gəlirlər. Divarda muzeyin lövhəsini görürük. Üzeyir bəy və Məleykə xanım içəri daxil olurlar.

Küçədə aparıcı pencərənin qarşısında dayanıb içəridən eşidilən musiqiyə qulaq asır.

Aparıcı:

—Gəlin biz də bəstəkarın öz ifasında onun "Layla"sına qulaq asaq.

Üzeyir Hacıbəylinin öz ifasında lent yazısı səslənir.

Aparıcı:

"Leyli və Məcnun"un uğuru Üzeyir bəyi yeni əsərlər üzərində işləməyə ruhlandırdı. Beş il ərzində dörd opera və üç operetta yaratdı. Əsərlərinin yalnız musiqisini deyil, librettolarını da özü yazırdı. "Leyli və Məcnun"un ikinci tamaşasından başlayaraq öz əsərlərinə özü də dirijorluq edirdi. Eyni zamanda qəzetləri redaktə edir, hər gün felyetonları və məqalələri çıxırdı.

Üzeyir rolunda aktyorun müxtəlif kadrları — musiqi yazır, dirijorluq edir, qəzetdə çalışır… Aparıcının kadrarxası səsi eşidilir:

Bəstəkarın ikinci operası — "Şeyx Sənan" uğur qazanmadı. 1909-cu il dekabrın 12-də "Kaspi" qəzeti yazırdı: "Şeyx Sənan"ın tamaşası gözlənildiyindən pis keçdi. Musiqi gözəl olsa da, şərq üslubuna alışmış tamaşaçılar avropasayağı üslubu qəbul etmədilər".

Üzeyir:

—"Şeyx Sənan" operasının ilk tamaşasından sonra əsəri cırıb atdım. Ağır maddi vəziyyətə düşdüyəmə görə 1910-cu ildə "Rüstəm və Söhrab" operası yazdm ki, borclarımı ödəyim.

Aparıcı:

—1910-cu il noyabrın 14-də "Günəş" qəzeti yazırdı: Firdovsinin parlaq əsəri operada əfsus ki, layiqli şəkildə əks olunmadı.

Üzeyir:

—Bir neçə tamaşadan sonra "Rüstəm və Söhrab" operasının notlarını da cırıb atdım.

Aparıcı:

—Sənət məsələlərində Üzeyir bəy heç bir güzəştə getmirdi — nə özünə, nə özgələrə…

Tağıyev teatrının qarşısında "Ər və arvad" operettasının afişi. Afişin yanında dayanan Aparıcı:

1910-cu il iyuun 6-da Şərqin ilk musiqili komediyası yarandı. Bu gün Üzeyir Hacıbəylinin "Ər və arvad" musiqili komediyasının ilk tamaşası verildi.

Səhnədə "Ər və arvad" dan bir fraqment — Əhməd Ağdamski qadın rolunda "Mənim adım Cənnətdir" ariyasını ifa edir.

Aparıcının kadrarxası səsi:

—Əhməd Ağdamski…1908-ci ildən Azərbaycan opera və operettalarında bütün baş qadın rollarının ifaçısı...

Salondakı tamaşaçılardan biri — gənc oğlan — heyran-heyran Ağdamskiyə — "Cənnət xanıma" baxır.

Aparıcı səhnənin qırağında dayanıb Cənnətin ariyasını dinləyir. Aparıcı:

—On il ərzində Əhməd Ağdamski qadın rollarının misilsiz ifaçısı olub və yalnız 1918-ci ilin sentyabrında qəzetlərdə belə bir elan çıxdı ki, bu gün Ağdamski ilk dəfə olaraq KİŞİ rolunda çıxış edəcək.

Heyran tamaşaçı yanında oturan adamın qulağına pıçıldayır:

—Allaha and olsun, bu qadın məni dəli edəcək. Necə də gözəldir, zərifdir, nə qədər qadın məlahəti var onda.

Alqışlar…Ağdamski—Cənnət xanım səhnədən gedir, dəhlizdən qrim otağına tərəf addımlayarkən heyran olmuş oğlan əlində bir dəstə gül onu haqlayır:

—Siz məni valeh etdiniz — deyir. — Ən böyük arzum sizi bir də görməkdir.

Ağdamski (qadın səsiylə):

—Yaxşı, ancaq qoyun paltarımı dəyişim — otağına keçir.

Oğlan bir qədər gözləyib qapını tıqqıldadır.

Qrim otağında Ağdamski əvvəlcə qadın parikini — uzun hörüklü saçlarını, sonra bığını örtdüyü ağ tənzifi çıxarır. Qapının tıqqıltısını eşidir, gözləri bir qırağa atılmış jandarm əlbisəsinə sataşır.

Oğlan yenə bayırdan qapını tıqqıldadır. Qapı açılır və nə görsə yaxşıdır: bığı burma Ağdamski jandarm qiyafəsində. Ağdamski (qalın səslə):

—Kimi istəyirsən?

Aparıcı "O olmasın, bu olsun" operettasının — Məşədi İbadın şəkli olan afişin qarşısında. Aparıcı:

—Belə əhvalat Üzeyir Hacıbəylinin yeni operettasının — "O olmasın, bu olsun" musiqili komediyasının baş qəhrəmanı Məşədi İbadın da başına gəlir.

Məşədi İbad rolunda — məşhur artist Mirzağa Əiyevi görürük. Bu kadrlar 45-ci ildə çəkilmiş "Arşın mal alan" filmindən götürülməli, Mirzağa Əliyevin səsi isə radioda saxlanılan lentdən alınmalıdır. Bu kadrların fonunda Aparıcının kadrarxası səsi:

—Məşədi İbad rolunda siz məşhur komediya ustası Mirzağa Əliyevi görür və onun səsini eşidirsiniz.

Çox sonralar çəkilmiş "O olmasın, bu olsun" filmindən Məşədi İbadın toy səhnəsi və Sərvərin onu qorxutması epizodunu canlandıran kadrlardan da istifadə etmək olar. Aparıcının kadrarxası səsi:

"O olmasın, bu olsun" operettası böyük uğur qazandı. Premyerası 1911-ci il aprelin 25-də oldu, tezliklə müxtəlif dillərə tərcümə edildi, gürcü, erməni dillərinə. İran, Türkiyə səhnələrində göstərildi, bir neçə dəfə ekranlaşdırıldı.

Aparıcı Bakı küçələrinin birində. Bir evin ikinci mərtəbəsindəki pəncərəni göstərərək deyir:

—Yetmiş il bundan ğabaq bax həmin bu pəncərənin dalında cavan bir qız dayanmışdı və için-için ağlayırdı.

Şövkət xanım Məmmədovanın yaşlı çağında sənədli kadrlarını görürük və səsini eşidirik:

—O gənc qız mən idim. 1912-ci ildə Milanda Hacı Zeynalabdin Tağıyevin təqaüdüylə təhsil alırdım. Birdən birə təqaüd kəsildi. İndiyəcən səbəbini bilmirəm.

Aparıcının kadrarxası səsi:

—Sonralar, iyirminci illərdə sovet hökuməti Şövkət xanım Məmmədovanı təhsil almaq üçün İtaliyaya göndərdi. Sonralar o, Parisdə və Moskvada çıxışlar etdi, şöhrət qazandı, alqışlandlı, təltif olundu.

Sənədli kadr: Kalinin Şövkət xanıma orden təqdim edir.

Aparıcının kadrarxası səsi:

—Sonralar Reynqold Moritsoviç Qliyer Şövkət xanımın təşəbbüsüylə Azərbaycana gəldi, musiqi folklorumuzu öyrəndi, "Şahsənəm" operasını yazdı və bu əsəri Şövkət xanıma ithaf etdi.

Aparıcının bu sözləri fonunda sənədli kadrları görürük. Qliyer dirijorluq edir… Şövkət xanım Şahsənəm rolunda ariya ifa edir.

Yaşlı Şövkət xanımın sənədli kadrları. Real Şövkət xanım danışır:

—Bəli, sonralar…hamısı sonralar oldu — konsertlər, tamaşalar, şəhərlər, görüşlər, alqışlar… Onda isə…1912-ci ildə əlim hər yerdən üzülmüşdü. Mənə elə gəlirdi ki, daha ömrüm bitib qurtarıb — on altı yaşım vardı axı.

Şövkət xanım rolunu ifa edən gənc aktrisa pəncərə qarşısında dayanıb ağlayır. Real Şövkət xanımın kadrarxası səsi:

—Birdən qapı döyüldü.

Qapı döyülür. Gənc Şövkət qapını açır, əlində qərənfil dəstəsi tutmuş Üzeyiri görür.

Üzeyir:

—Salam. Səhv etmirəmsə siz Şövkət Məmmədovasınız.

Şövkət:

—Bəli.

Üzeyir əlini uzadır:

—Üzeyir Hacıbəyli. Tanış olaq —gülləri ona verir — bu güllər sizindir.

Şövkət:

—Sağ olun.

Üzeyir:

—İndi deyin görüm niyə ağlayırdınız.

Gənc Şövkət danışmağa başlayır, amma biz onun səsini eşitmirik. Arabir gənc aktrisanın ifasındakı Şövkətin kadrları real Şövkət xanımın sənədli kadrlarıyla calanır. Sənədli kadrlardakı yaşlı Şövkət xanım:

—Üzeyir bəy elə ilk baxışdan etibarımı qazandı və mən hər şeyi ona danışdım.

Gənc Şövkət (aktrisa) söhbətini tamamlayır:

—Əgər təhsilimi davam etdirə bilməsəm özümü öldürəcəm.

Üzeyir gülümsünür:

—Darıxmayın, təhsilinizi davam etlirəcəksiniz. Biz sizə kömək edərik.

Real Şövkət xanımın sənədli kadrları. Şövkət xanım:

—Bu sözləri heç vaxt unutmayacam. Bilmirdim onlar kimdir, mənə necə kömək edə biləcəklər, amma əsas bu deyildi, əsas o idi ki, ömrümün bu çətin vaxtında vətənimdə mənə yardım əlini uzadan adam tapıldlı.

Gənc Şövkət (aktrisa):

—Axı siz nə yolla mənə kömək eləyə bilərsiniz?

Üzeyir:

—Mən hər şeyi fikirləşmişəm. Sabah mənim tamaşam oynanır: "Ər və arvad". Camaat çox gəlir bu tamaşaya, pul çox yığılacaq. Dostlarımla danışmışıq. Tamaşa sizin benefisinizə oynanacaq. Tamaşadan sonra öz repertuarınızdan bir-iki mahnı oxuyarsız və yığılan bütün məbləği sizə verərik. İtaliyada təhsilinizi davam etdirərsiz.

Gənc Şövkət:

—Sağ olun. Çoxlu italyan və rus musiqisi oxuyuram, amma burda, Bakıda çıxış etmək…

Üzeyir:

—Demək istəyirsiz ki, hələ heç vaxt şərq qadını səhnəyə çıxmayıb. İlk qaranquşumuz elə siz olarsız da…

Şövkət:

—Nə deyim… çətindir…

Üzeyir:

—Hər təzə işi başlamaq çətindir.

Real Şövkət xanımın sənədli kadlrları. Şövkət xanım:

—Yadımdadır, Üzeyir yeni əsərinin notlarını gətirmişdi, royal arxasına keçdi.

Üzeyir:

—Təzə operetta yazmaq istəyirəm. Hələ mövzusunu fikirləşirəm. Amma bir ariya artıq hazırdır.

Notları Şövkət xanıma verir və royalda çalmağa başlayır, Şövkət xanım notları nəzərdən keçirir, Gülçöhrənin ariyasını əvvəlcə zümzümə etməyə, sonra oxumağa başlayır.

Aparıcının kadrarxası səsi:

—Sonralar, 1926-cı ildə Şövkət xanım həmin bu ariyanı — Gülçöhrənin ariyasını Parisdə ifa etdi.

Real Şövkət xanım:

—Amma ilk dəfə səhnəyə Bakıda çıxdım. 1912-ci il aprelin 13-də. O günü heç zaman unutmayacam.

Tağıyev teatrının qrim otağında Şövkət xanım və piano arxasında akkompanementçi qadın.

Xidmətçi otağa daxil olur və iri bir qərənfil səbətini gənc Şövkət xanımın qabağına qoyur.

Xidmətçi:

—Bunu sizə Hacı Zeynalabdin Tağıyev göndərdi.

Şövkət:

—Sağ olsun. Nədi, o da teatrdadır?

Xidmətçi:

—Əlbəttə —deyə gedir.

Akkompanementçi qadın:

—Ondansa İtaliyaya pul göndərəydi. .

Qapı açılır. Üzeyir bəy:

—Şövkət xanım axırıncı səhnədir, bu saat qurtarır, hazır olun. Beş dəqiqədən sonra siz çıxış edirsiz.

Şövkət:

—Yaxşı…Üzeyir bəy…

Səhnə. Səhnədə royal. Gənc Şövkət və pianoçu qadın səhnəyə çıxırlar. Şövkət İtalyan operasından ariya oxumağa başlayır.

Lojada Hacı Zeynalabdin Tağıyev və Osmanlı konsulu. Konsul:

—Hacı, bu ne rezalet?Devletimiz İtaliyayla savaş ediyor, bu zaman türk qızı italyan şarkıları okuyor… Ayıb…

Tağıyev bu sözlərə heç bir reaksiya vermir. Təsbehini çevirir. Konsul həqarətlə lojanı tərk edir. Tağıyev onun ardınca baxıb gülümsünür.

Gənc Şövkət ariyasına davam edir.

Salonda da bir neçə nəfər ayağa durub hiddətlənir, çıxıb gedirlər. Gedə-gedə:

—Bu nə biabırçılıqdır. Müsəlman qızı üzü-başı açıq kişilərin qabağında mahnı oxuyur. Görəcəyimiz günlər varmış…

—Biz də buna baxırıq. Ayıb olsun bizə. Papağımızı yerə soxdu…

Səhnə arxasında Üzeyir, Ərəblinski, Sarabski gənc Şövkətin

oxumasını dinləyirlər. Mirzağa Əliyev həyəcanla onlara yanaşır:

—Üzeyir bəy, Osmanlı konsulu çıxıb getdi… Bir çox başqa adam da çıxıb gedir.

Üzeyir:

—Getsinlər. Bizə qalanlar lazımdı…

Şövkət oxuyur.

Foyedə qoçular Sarabskinin qabağını kəsir. Qoçulardan biri:

—Bura bax Hüseynqulu…Kişilərimizi biabır elədiz, canınız cəhənnəm, indi arvadlarımızı da biabır eləmək istəyirsiz. Özünüz kimi arsız mütrübliyə öyrədirsiz.

Mirzağa Əliyev səhnə arxasında Üzeyirə yanaşır:

—Üzeyir bəy, qoçu Nəcəfqulu dəstəsiylə içəri girib, Şövkəti öldürmək istəyirlər.

Üzeyir əlini bığına çəkərək sakit:

—Kassada nə qədər pul var?

—1500 manat.

Üzeyir:

—Deməli Şövkət təhsilini davam etdirə biləcək.

Sarabski gəlir:

—Eh dostlar — deyir, — hamsı əbəsmiş. İsa bəy kassanı bağlatdı, qəpik də almayacayıq.

Mirzağa Əlyev:

—Yazıq Şövkət İtalyanı görəsi olmadı…

Sarabski:

—Ora baxın, ora baxın!

Qoçular salona daxil olur, iri mauzerlərini çıxarıb səhnəyə doğru addımlayırlar.

Üzeyir və dostları Şövkətə işarə edirlər ki, səhnədən çıxsın. Şövkət onların işarələrini və qoçuların gəlməsini görsə də oxumağı davam edir.

Sənədli kadrlarda yaşlı Şövkət xanım:

—Heç nəyə baxmayaraq ariyanı axıradək oxudum.

Ərəblinski:

—Onu arxa qapıdan çıxarmaq lazımdır.

Köməkçi salona girir, tamaşaçılar arasında əvvəlki epizoddan bizə tanış olan faytonçu Dadaşı tapır.

—Dadaş, Dadaş — deyir — Tez elə, faytonu dal qapının ağzına çək.

Faytonçu tez salondan çıxır.

Qoçular artıq səhnəyə çıxa-çıxdadılar. Şövkət ariyanı tamamlayıb səhnədən qaçır.

Üzeyir:

—Dal qapıdan gedək. Fayton orda gözləyəcək.

Üzeyir, dostları gənc Şövkəti teatrın dal qapısından küçəyə çıxarırlar.

Sənədli kadrlarda yaşlı Şövkət xanım:

— O gecə Üzeyir və dostları məni ölümdən qurtardılar.

Şövkəti faytona mindirirlər. Üzeyir (faytonçuya):

—Dadaş, elə sür ki, nallarından od çıxsın.

Fayton uzaqlaşır, Üzeyir faytonun ardınca baxır. Aparıcının kadrarxası səsi:

—Üzeyir bəy bütün bunları görürdü, bilirdi, zəmanəsinə bələd idi, dərk edirdi ki, hələ neçə il qadın rollarının qadın ifaçısını tapmaq mümkün olmayacaq, Amma buna baxmayaraq bütün opera və operettalarında füsünkar qadın surətləri yaradırdı. Çünki daha böyük bir həqiqəti də bilirdli. Bilirdi ki, gec-tez hər şey dəyişəcək və bu rolları qadınlarımız özləri ifa edəcək.

Müasir opera teatrının qarşında afişlər: "Sevil", "Karmen", "Aida" operalarının afişlərində qadın ifaçıların şəkilləri. Kamera iri planda "Əsli və Kərəm" afişasını göstərir. Afişin yanında dayanmış Aparıcı:

"Əsli və Kərəm" operasının premyerası bax həmin bu teatrda oldu — 1912-ci ilin mayında. O vaxtdan bu opera da səhnədən düşmür. Bu gün Əsli rolunda SSRİ Xalq artisti Zeynəb Xanlarova çıxış edir.

"Əsli və Kərəm" operasından fraqment. Zeynəb Xanlarova Əslinin ariyasını ifa edir.

O dövrün müxtəlif afişlərinin fonunda Aparıcının kadrarxası səsi:

Uzeyir bəyin opera və operettalarının böyük uğuru başqa Azərbaycan bəstəkarlarını da həvəsləndirdi. Üzeyirin böyük qardaşı Zülfüqar Hacıbəyli "Evliykən subay", "Əlli yaşında cavan" musiqili komediyalarını, "Aşıq Qərib" operasını yazır.

Müslüm Mağomayevi dirijor kimi əks etdirən sənədli kadrların fonunda Aparıcının kadrarxası səsi:

—İşlədiyi Lənkərandan Bakıya gələn Müslüm Maqomayev Üzeyir bəyin əsərlərinə dirijorluq edir, özü də "Şah İsmayıl"

operasını yazmağa başlayır.

İlk Azərbaycan bəstəkarlarının uğurlarını bir para adamların gözü götürmürdü.

Belələri özləri də xam xəyallara düşüb opera yazmağa cəhd edirdilər.

Sarabski (Üzeyir Hacıbəylinin mənzil-muzeyi qarşısında küçədə):

—Günlər görmüşük, İlahi. Hətta dəllək Ağəli də Üzeyir bəyin acığına "Əsli Kərəm" operası yazmışdı. Yadımdadır, Üzeyir bəy bizi evinə dəvət etdi.

Sarabski, Mirzağa Əliyev, Ağdamski Üzeyir bəyin mənzilində.

Üzeyir:

—Eşitmişəm dəllək Ağəli "Əsli Kərəm" operası yazıb, sizi də oynamağa dəvət edib… Xahiş edirəm mənə qəti sözünüzü deyin. İştirak edəcəksinizmi? Bilməliyəm: ya mən, ya dəllək.

Mirzağa Əliyev:

—Nə danışırsan Üzeyir bəy? Bisavad dəllək nə opera yazacaq.

Üzeyir:

—Afişlərdə ki, sizin adlarınızı yazıblar.

Sarabski (Kameraya, tamaşaçılara üz tutaraq):

—Biz dərhal qəzetə yazdıq ki, afişləri bizdən xəbərsiz vurublar, qəti surətdə bildirirk ki, Ağəliylə heç bir əlaqəmiz yoxdu və onun "operasında" iştirak etmək fikrimiz də yoxdu…

Ekranda o dövrün karikaturunu — "Kəlniyyət" jurnalında dərc olunmuş karikaturu görürük: İki "Əsli Kərəm" bir —biriylə cəng edir.

Bu karikatur dərc olunmuş jurnal Aparıcının əlindədir. Aparıcı:

—*Söhbətimizin ən ağır məqamına çatmışıq, ümumiyyətlə opera tariximizin ən qəmli səhifələridir bu… Qəsdən bu mətləbi uzadırdım, lakin bu barədə susmaq da olmaz. Üzeyir Hacıbəylinin və onun məsləkdaşlarının o dövrün mətbuatında necə təhqirlərə, yalanlara, böhtanlara məruz qalmaları haqqında danışmalıyıq.*

Neytral bir məkan. Divarda Üzeyir bəyi lağa qoyan karikatur. Karikaturun fonunda o dövrün qiyafələrində — şlyapalı, buxara papaqlı, silindrli, fəsli jurnalistlər.

1-ci jurnalist:

—Əgər ki, məsələn "Leyl və Məcnun"a Yevropa nəzərindən baxsaq, bu heç opera deyil…

2-ci jurnalist:

—"O olmasın, bu olsun" operettasında həyat həqiqətinə uyğun gələn heç bir şey yoxdur.

3-cü jurnalist:

—Bu əsərin müsəlman həyatına heç bir dəxli yoxdu. Üzeyir bəy onu Avropa həyatından götürüb. Avropalılar bu sayaq əsərlər yazır.

Aparıcı:

—Gah ona görə ittiham edirdilər ki, əsərləri Avropa əsərlərinə oxşamır, gah da ona görə ki, oxşayır…

4-cü jurnalist (az qala zarıyır):

—Elə ki, opera çıxdı, drama məhv oldu…

1-ci jurnalist:

—Bizim opera monopolistlərin əlinə keçib. Hər yerdə Hacıbəyovun qüsurlu əsərləri oynanılır. Musiqi çaldırıb ciblərini doldururlar.

Aparıcı:

—Həmin sözlər yazılarkən Üzeyir bəy bütün əsərlərinə müftə dirijorluq edirdi.

2-ci jurnalist:

—Bu əsərlər xalqa yabançıdır. Yeganə məqsəd cibişdanı doldurmaqdır...

Aparıcı:

—Fevralın iyirmisində "Əsli və Kərəm" Kars aclarının nəfinə oynanıldı. Müəllif də, artistlər də puldan imtina etdilər.

1-ci jurnalist:

—Üzeyir Qadjibekov bu əsərləri yazanda ancaq öz mənafeyini güdür, xalqı, milləti düşünmür…

Aparıcı:

—Martın beşində "O olmasın, bu olsun" Birinci cahan müharibəsində yaralanmış rus əsgərlərinin nəfinə oynandı. Aprelin doqquzunda isə yoxsul iranlıların nəfinə. Özü təhsil almağa gedə bilməyən Üzeyir bəy hər tamaşasının gəlirindən on beş faizini kasıb tələbələrə ayırırdı…

3-cü jurnalist:

—Bu gün Bakı teatrolarının birində məşhur bəstəkarımızın benefisi oldu. Cəmi-cümlətanı min beş yüz manat yığmaqdan ötrü benefis duzəltməyə dəyərdimi?

Aparıcı:

—Nə adətdi bu cənablarda özgəsinin pulunu saymaq? Üzeyir

bəyin bir azacıq pul qazanmaq cəhdinə tox cənablar harın-harın gülürdü… Niyə bir az pul qazanmaq istəyirdi bu illərdə Üzeyir bəy, niyə bu qədər əlləşirdi, çalışırdı, əzab çəkirdi: Yeganə arzusu o idi ki , böyük külfətini bir təhər təmin edib ozu oxumağa gedə bilsin.

4-cü jurnalist (zarıyır):

—Elə ki, opera çıxdı, drama batdı…

Aparıcı:

—Bu fikrə aid karikatur da var o dövrün mətbuatında.

Ekranda həmin karikatur fonunda Aparıcının kadrarxası səsi:

—Görürsüz operanı qadın kimi təsvir ediblər, Sarabski onun dizi üstündə oturub. Uçub dağılmış dram teatrının altında qalan isə Ərəblinskidir. O, qan qusur. Bu karikaturun murdarlığı bir də ondadır ki, Ərəblinski o vaxt doğrudan da vərəm idi, qan qusurdu, mualicə olunmağa isə vəsaiti yox idi…

Peterburqa sarı gedən qatar. Aparıcının kadrarxası səsi:

—1913-cü ildə Üzeyir bəy arzusunu həyata keçirə bildi. Peterburqa oxumağa getdi. Sarabski, Maqomayev, Terequlov danışdılar ki, bütün mövsüm boyu onun əsərlərini ifa edəcək və məbləğin yarısını Üzeyirə göndərəcəklər.

Ekranda yazı:

SANKT PETERBURQ 1913

Peterburqun mənzərələri. Üzeyirin kadrarxası səsi:

Peterburq Konservatoriyasının direktoru cənab Qlazunova.

Ali musiqi təhsili almaq məqsədilə məni Konservatoriyaya qəbul etmənizi xahiş edirəm. Peterburqda qalmağa yerim var, ünvanım: Yekaterina kanalı, ey 126. Üzeyir Hacıbəyov.

Peterburqda Üzeyirin kirayələdiyi otaq. Üzeyir məktub yazır. Kadrarxası səsini eşidirik:

—Əzizim Müslüm! Bəli, nəhayət mən Konservatoriyanın tələbəsiyəm. Harmoniya sinfinə daxil olmuşam. Bir ildən sonra bəstəkarlıq yaradıcılığı üçün lazım olan hər şeyi biləcəm: harmoniyanı, kontrapunktu, orkestrləşməni…

Kadr dəyişir. İndi bü məktubu oxuyan Müslümü görürük. Üzeyirin kadrarxası səsi :

—O zaman sənlə biz daha əsaslı, mütəşəkkil və maraqlı işə başlaya bilərik. Hər şənbə günü ən yaxşı orkestrləri dinləyirəm və Konservatoriyanın tələbəsi kimi opera teatrına gedirəm. Sabah Məleykəylə Qlazunovun idarə etdiyi simfonik konsertə gedəcəyik. .

Üzeyir bəy və Məleykə xanım Peterburqun küçələriylə addımlayır, Filarmoniyanın qarşısına gəlib içəri keçirlər.

Üzeyir Müslümə məktub yazır. Kadrarxası səsi:

—Əzizim Müslüm! Burda hər addım puldur. Sənə çox minnətdarıq ki, bizə yüz əlli manat göndərdin. Əzizim Müslüm! Bu səfər pulu poçtla göndər ki, teleqrafa artıq xərc çıxmasın. Fevralın beşində göndər, çünki ayın birinə heç pulumuz qalmayacaq.

Kadr dəyişir. Müslüm Üzeyirin məktubunu oxuyur. Üzeyirin kadrarxası səsi:

—Əzizim Müslüm! Bu il mən sakitcə oturub təhsilimlə və işimlə məşğul oluramsa bununçun sənə minnətdaram. Sən səmimi surətdə mənə kömək göstərirsən və bunun yolunda rahatlığını, sağlamlığını qurban verirsən. Sənin bu xəcalətindən çıxa biləcəyəmmi — bunu gələcək göstərər.

Kadr dəyişir. Üzeyir Müslümə məktubunu yazır. Üzeyirin kadrarxası səsi:

—Yadımdan çıxdı xahiş edim, pulu teleqrafla göndər, çünki tamam pulsuzlamışıq. Məleykə mənə axırıncı manatı göstərdi.

Aparıcı:

—Bir dəfə Məleykə xanım Bakıya gedib Peterburqa qayıdanda Üzeyir bəyin cibində bir qəpik də yoxmuş. Yağışlı bir günmüş. Üzeyir bəy qaloşlarını satıb Məleykə xanımı vağzaldan evə faytonla aparıb.

İlıq bir yaz günü. Məleykə və Üzeyir Peterburqun parklarında gəzirlər. Qlazunovun musiqisi səslənir. Qəflətən Üzeyir ağaclara baxıb fikrə dalır, xəyalında Şuşa mənzərələri canlanır, "Qarabağ bülbül"lərinin filmin əvvəllərində oxuduqları mahnı səslənməyə başlayır.

Sonra xəyalında başqa səhnələr, — uşaqlıqda Şuşada gördüyü arşınmalçı canlanır. Onun "arşın mal alan" çağırışları musiqiyə çevrilir.

Sarabski Üzeyirin məktubunu oxuyur. Üzeyirin kadrarxası səsi:

—Bəradərim Hüseynqulu! Mən dəxi bir tərəfdən dərs oxumaqda, bir tərəfdən də "Arşın mal alan" yazmaqdayam. Amma çox qəribə operetta olacaq… Mənim bu qədər əlləşməyim odur ki, gələcəkdə teatr işini elə bir hala salaq ki, nəinki təkcə Bakıda və ya Qafqazda, bəlkə hər yerdə, hər bir şəhərdə teatr vermək imkanımız olsun.

Aparıcı "Arşın mal alan"ın dünya şöhrətini əks etdirən afişlərin fonunda:

—Bu sözlər çin çıxdı. "Arşın mal alan"ın şöhrəti doğrudan da hər yeri, bütün dünyanı tutdu, bu operetta bütün qitələrdə oynandı, dəfələrlə ekranlaşdırıldı. İndi 45-ci ildə Bakıda çəkilmiş filmdən parçalara baxırsız. Əsgər rolunda SSRİ Xalq artisti Rəşid Behbudovu görür və dinləyirsiz…

"Arşın mal alan" filmindən (1945) fraqmentlər.

Aparıcı neytral məkanda o dövrün qəzet və jurnallarını vərəqləyir.

Aparıcı:

—"Kaspi" qəzeti yazırdı: bu operettanın böyük uğuru erməni operetta truppasının yaranmasına səbəb oldu. Bundan sonra başqa erməni operetta dəstələri də yarandı. Erməni dilindən başqa rus və gürcü dillərinə də tərcümə edilən bu əsər səhnədən düşmür. Az sonra "Arşın mal alan" Zaqafqaziya xalqlarının teatr aləmlərinin yeniləşməsində çox mühüm rol oynadı.

Ekranda rəssamın çəkdiyi şəkil: O vaxtkı Tiflis küçələrində "Arşın mal alan"ın reklamı. Aparıcının kadrarxası səsi:

—Bu operettanı görkəmli gürcü rejissoru Kote Marcanaşvili də tamaşaya qoymaq istəyirdi. Ölümü ərəfəsində yazdığı məktubda bu arzusunu bildirir və "Arşın mal alanı" əsl xəlqi və dahiyanə əsər adlandırır.

Aparıcı qəzeti qatlayıb bir qırağa qoyur.

—O dövrün mətbuatında çox qəribə yazılara da rast gəlirik. — Başqa bir qəzeti götürüb göstərir — Erməni qəzetlərindən biri yazırdı: "Arşın mal alan"ı erməni musiqisinin əsasında cənab Armenyan yazıb. Eşq olsun istedadlı Armenyana ki, erməni xalqının musiqisini dirçəldib. "Arşın mal alan" erməni operettalarının kraliçasıdır.

Aparıcı gülərək qəzeti bir tərəfə atır. Aparıcı:

—Buna nə deyəsən? Soruşan gərək, ermənicə "arşın mal alan" nə deməkdir və haçandan bəri erməni qadınları çadraya bürünüb sifətlərini gizlədiblər ki, evlənmək istəyən oğlan da arşınmalçı olub qapı-qapı düşsün, bəyəndiyi qızı axtarsın?

1-ci jurnalist:

—Bizim məşhur bəstəkar Üzeyir Qadjibekov ermənilərlə əlbir olub bütün səhnələri zəbt edibdir. İmza: Kələmbaş

2-jurnalist:

—Operettanın musiqisi zəifdir. İmza: Həyasız

3-ci jurnalist:

—"Arşın mal alan"da mənalı bir şey yoxdur. İmza: Kor Aşıq.

4-cü jurnalist:

—Elə ki, opera meydana çıxdı, drama batdı. İmza: Boşboğaz.

Aparıcı:

—Kələmbaş, Həyasız, Kor aşıq, Boşboğaz…Bir məsələdə haqlıdırlar, özlərinə çox dəqiq təxəllüslər seçiblər.

"Aşıq Qərib" operasının afişi yanında dayanmış Aparıcı:

—1916-cı ildə Üzeyir bəyin böyük qardaşı Zülfüqar Hacıbəylinin yazdığı "Aşıq Qərib" operasının premyerası oldu. Elə həmin il Müslüm Maqomayevin "Şah İsmayıl" operasının da premyerası olmalıydı, amma olmadı. Yəqin ki, Tağıyev teatrında baş vermiş yanğına görə. İkinci dəfə "Şah İsmayıl"ın premyerası üç il sonra — 1919-cu ildə elan olundu.

Tamaşa salonu. Səhnədə "Şah İsmayıl"ın dekorları quraşdırılır. Salonda Üzeyir və Müslim. Müslüm həyəcanla sıraların arasında vargəl edir. Üzeyir:

—Niyə belə həyəcanlanırsan Muslüm? Hər şey yaxşı olacaq.

Müslüm:

—Mənim bəxtim belədir Üzeyir, yenə bir şey mane olacaq. O səfərki kimi.

Keçib Üzeyirin yanında oturur. Gözlərini yumur. Xəyalında "Şah İsmayıl" operasından bir səhnəni canlandırır. SSRİ Xalq artisti Müslüm Maqomayevin ifasında Şah İsmayılın ariyası səslənir. Birdən ariya kəskin kəsilir, Mirzə Muxtarın səsi Müslümü xəyallarından ayırır. Mirzə Muxtar səhnədən:

— Nə olub? Niyə başlamırıq, kimi gözləyirik?

—Ərəblinskini.

Mirzə Muxtar:

—Ərəblinskini? Görürsüz, həmişə bizi danlayır ki, beş dəqiqə gecikibsiz, indi özü yarım saat yubanır.

Sarabski hövlnak salona daxil olur. Sarabski:

—Ərəblinskini öldürüblər…

Ərəblinskinin dəfn mərasimini əks etdirən fotonun fonunda Aparıcı:

—O gün Ərəblinskini qohumu Xalıq qonaq çağırıbmış. Araları yoxdu və Hüseyn getmək istəmirmiş. Amma Xalıq dilə tutub gətirib onu evinə. — Güllə səsi. — Arvadı özünü çatdıranda Ərəblinski artıq keçinibmiş.

Ərəblinskinin məzarı başında. Nöhə oxunur. Dostları bir-bir çıxış edir.

Sarabski:

—Hüseyn, həmişə gileylənərdin ki, artistlər vaxtında gəlmir. Bax, hamımız burdayıq, toplaşmışıq, səni gözləyirik. Qalx, məşqi başlayaq…

Zülfüqar Hacıbəyli:

—O ləyaqətli aktyor, gözəl rejissor, hamımızın əziz, mehriban dostu idi…

Üzeyir bəy:

—Hüseyn Ərəblinski bəxtsiz taleyinin son faciəvi rolunu oynayıb bizimlə həmişəlik vidalaşır. Əl çalmaq lazım deyil. O bizim alqışlarımıza cavab verməyəcək, yaralı başını əyməyəcək. Onun acı həyatının pərdəsi düşdü, bir də heç zaman qalxmayacaq.

Mirzə Muxtar birdən qəbrin üstünə yıxılır: — Gözlə məni Hüseyn —deyir. — lap tez yanına gələcəm.

Aparıcı Fəxri Xiyabanda. Danışdıqca Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Ərəblinski, Sarabski, Haqverdiyev, Şövkət xanım, Bülbül, Qurban Pirimovun məzarlarını, məzarüstü abidələrini görürük.

Aparıcının kadrarxası səsi:

—Sizə Üzeyir Hacıbəylinin həyat və yaradıcılıq yolunun başlanğıcından danışdıq, Azərbaycan musiqi teatrının şərəfli və çətin yolunu izlədik. Milli sənətin fədailərini gördüz. Onu da gördüz ki, onların başlarına nə oyunlar açıblar. Şövkət xanım Məmmədovanı öldürmək istəyirdilər. Hüseyn Ərəblinskini öldürdülər… Amma bununla bərabər xəyalən o uzaq illərə qayıdanda bunu yox, həmin fədailərin cəsarətli, fədakar həyatlarını düşünürsən. Onlar gələcəyə inamla yaşayırdılar, bu gələcəyin nəfəsini duyurdular və onları bu inam saxladı, bu inam qorudu.

Müasir Bakıda Üzeyir Hacıbəyov küçəsi, Fonda "Arşın mal alan"dan Əsgərin "Axtarıb tapdım səni" ariyası səslənir.

Aparıcı:

—İnqilabdan qabaqkı Azərbaycan sənətinin heç bir əsərində bu inam, bu ümid "Arşın mal alan"ın musiqisində olduğu kimi canlı deyil. "Arşın mal alan"ın musiqisi gənc adamın əsəridir, özünün və xalqının gələcəyinə inanan gəncin. Həyat eşqi dolu bir gəncin. Nə qədər işıq var bu musiqidə, nə qədər günəş var, bahar təravəti var…

Üzeyir Hacıbəyovu sovet dövründə əks etdirən xronika kadrları. Bu kadrların fonunda aparıcının kadrarxası səsi:

—Sovet hakimiyyətinin ilk günlərindən Üzeyir Hacıbəyli yeni mədəniyyətin quruculuğunda fəal iştirak edir. İlk musiqi məktəbi, çoxsəsli xor, ilk xalq çalğı alətləri orkesti təşkil edir, Bəstəkarlar İttifaqına, Konservatoriyaya, İncəsənət institutuna rəhbərlik edir. Azəbaycanın Dövlət himnini yaradır. 1937-ci ildə musiqi sənətimizin incisini — "Koroğlu" operasını yazdı.

"Koroğlu" operasından fraqment. Koroğlu rolunda SSRİ Xalq artisti Bülbül. Koroğlunun ariyası və xor səhnələri səslənir.

Aparıcı:

—Koroğlu rolunda — SSRİ Xalq artisti Bülbül.

Xronika kadrları: Kalinin Üzeyir Hacıbəyliyə və Bulbulə orden təqdim edir.

Bakıda Konservatoriyanın qarşısında Üzeyir Hacıbəylinin heykəli. Aparıcı heykəlin önünə çiçək qoyur.

Aparıcı:

—Hər il sentyabrın 18-də Üzeyir bəyin anadan olduğu gün biz bura gəlirik. Onun xatirəsini yad etmək üçün.

SSRİ Xalq artisti Niyazinin rəhbərlik etdiyi simfonik orkest "Çənlibel" xorunu ifa edir. Şostakoviçin kadrarxası səsi eşidilir: O, Üzeyir bəyin böyük sənətindən danışır. Aparıcının kadrarxası səsi:

—Danışan böyük sovet bəstəkarı Dmitri Şostakoviçdir.

Moskvada Sutunlu salonda Üzeyir Hacıbəylinin yubileyinə həsr olumuş təntənəli iclasın kinoxronikası. Qara Qarayev çıxış edir. Aparıcının kadrarxası səsi:

—Danışan böyük sovet bəstəkarı Qara Qarayevdir.

Niyazinin idarə etdiyi konsert indi də Şuşada davam edir. Bu konsertlərin lentə alınmış kino kadrları bizim filmin kadrlarıyla calanır. Şuşaya gələn orkestri dinləyən və müşahidə edənlər arasırnda filmimizin balaca Üzeyirini — onun uşaqlığını oynayan aktyoru da görürük.

Ekranda Üzeyir Hacıbəylinin özünün əks olunduğu sənədli kadrları görür və onun öz səsiylə dediyi sözləri eşidirik.

Üzeyir bəyin heykəli fonunda yazı:

FİLMİN SONU

1980-1981

CAVİD ÖMRÜ

kino-povest

Tam səssizlik içində ekranda yazı görünür:

HÜSEYN CAVİD ÖMRÜNÜN EPİZODLARI VƏ ƏSƏRLƏRİNİN MOTİVLƏRİ ƏSASINDA ÇƏKİLMİŞ BU FİLM BÖYÜK SƏNƏTKARIN MÜQƏDDƏS XATİRƏSİNƏ İTHAF OLUNUR

Yazıdan dərhal sonra şiddətli göy gurultusu eşidilir...ekranda ildırım, şimşək çaxır, od-alov görünür. 20-30-cu illər teatr üslubuna uyğun olaraq atəşin içindən İblis çıxır. İblisin qrimi, geyimi, qiyafəsi həmin illərdə bu rolu oynamış Abbas Mirzə Şərifzadənin əldə olan şəkillərinə bənzədilməlidir. İblis Tgah istehzalı və məğrur, gah çılğın və qorxunc qəhqəhələrləU monoloqunu söyləməyə başlayır:

İblis! O böyük ad nə qədər calibi-heyrət!
Hər ölkədə, hər dildə anılmaqda o şöhrət,
Hər qülbədə, kaşanədə, viranədə İblis!
Hər Kəbədə, bütxanədə, meyxanədə İblis.

İblisin monoloqu davam etdikcə ekranda müxtəlif kadrlar bir-birini əvəz edir: Kolizeydə şirlərin qabağına parçalanmaq üçün atılmış insanlar, inkvizisiya məhkəmələrinin qurbanları, tonqallarda yandırılan adamlar, İslam şəhidləri, Avropa orta əsr qravürlərində Mefistofel təsvirləri, Dantenin TCəhənnəmUinə illüstrasiyalar, Qoyyanın TMüharibənin dəhşətləriU ofortları, Şərq miniatürlərində, Şəki Xan sarayı freskalarında qanlı döyüş səhnələri, Vereşaginin insan kəllələri tablosu və s.

İblisin monoloqu davam edir:

Pəncəmdə dəmadəm əzilib qıvrılacaqsın,
Daim ayaq altında sönüb məhv olacaqsın.
Bənsiz də, əmin ol, sizə rəhbərlik edən var,
Qan püskürən, atəş savuran kinli krallar,

Şahlar, ulu xaqanlar, o çılğın dərəbəklər,
Altun və qadın düşgünü divanə bəbəklər.
Bin hiylə quran tülkü siyasilər, o hər an
Məzhəb çıqaran, yol ayıran xadimi-ədyan.

Monoloqun davamı zamanı ekranda sənədli kinokadrlar görünür, alman faşist konslagerləri və sovet ölüm düşərgələri, sürgün olunan, güllələnən adamlar, dustaqları daşıyan qatarlar, kütləvi qırğın səhnələri, ağlayan qadınlar, çağdaş dünyamızın amansız faktları — terror, o sıradan Azərbaycanda terror aktları və sairə. Monoloqun son hissəsi səslənən zaman isə — yuxarıdakı təsvirlərin arasında Leninin, Mussolininin, Hitlerin çıxışlarını əks etdirən sənədli kadrlar görünür.

Çində Maonun minlərlə heykəlciklərini əks etdirən kadrlar. Nürnberqdə svastika şəklində məşəlli nümayişlər. Moskvada Qızıl Meydanda paradlar. Pekində Maonun böyük əksi qarşısında sitayiş səhnələri və s. Ən axırda Stalinin sənədli kadrları və iki fotoşəkli görünür — birində o əlindəki tüfəngi, guya ki, zarafatla Qurultay nümayəndələrinə tuşlayıb, o birində əlini burnuna qoyub TşişU göstərir. Bu kadrlar üstündə İblisin monoloqu bitir:

Bən tərk edərəm sizləri nəmə lazım!
Hiçdən gələrək, hiçliyə olmaqdayım azim.
İblis nədir?
— Cümlə xəyanətlərə bais...
Ya hər kəsə xain olan insan nədir?
— İblis!..

Titrlər.

Titrlər qurtaran kimi Stalinin iri foto şəkli. Kamera geri çəkilir və görürük ki, bu şəkil divardan asılıb. Daxili İşlər Xalq Komissarlığında istintaq otağı. Stalinin şəklindən başqa divarlar bomboşdur. Otaqda iki adam var — müstəntiq və katib. Müstəntiqi və sonralar bir neçə personajı eyni aktyor oynamalıdır. Bu, İblisdir.

İki masa. Maskaların birinin üstündə gecə lampası, o birinin üstündə yazı makinası. Bir masanın arxasında müstəntiq, o birində yazar-katib əyləşib. Küncdəki tumboçkanın üstündə T-6 radio cihazı. Radiodan Stalinin səsi gəlir. Rus dilində səslənəcək bu mətni Stalinin danışıq tərzinə, aksentinə uyğun olaraq aktyor səsləndirməlidir:

Nadeyus, seyças vsem yasno, çto vrediteli i diversantı, kak bı oni

ne maskirovalis — kak trotskistı, tak i buxarintsı, davno uje ne predstavlyayut politiçeskoe napravlenie v raboçem dvijenii, oni prevratilis v bezprinsipnuyu i bezideynuyu bandu professionalnıx vrediteley, diversantov, şpionov i ubiys. Neobxodimo bespoşadno uniçtojat etix qospod, klassovıx vraqov proletariata, podlıx predateley Rodinı, iskorenit vsex vraqov trudovoqo naroda.

Müstəntiq və katib bu nitqi ayaq üstündə dinləyirlər. Nitqin sonunda radiodan gurultulu alqışlar, Tyaşasın yoldaş Stalin! Dahi rəhbərimiz böyük Stalinə eşq olsun, Urra! T və s. sədalar ucalır. Boş otaqda ikisi — müstəntiq və katib də əl çalır, bir-birinə baxıb: — Yaşasın böyük Stalin, Böyük Stalinə eşq olsun! — deyə təkrar edirlər. Radioda alqışlar kəsiləndə müstəntiq də oturmaq istəyir, amma katibin əl çaldığını görüb bir qədər də əl çalır.

Hər ikisinin əl çaldığı anın dayandırılmış kadrı (stop kadr) fonunda yazı:

7 iyun 1937

Hardasa, mücərrəd bir məkanda iri qum saatı. Qum dənələri yuxarıdan aşağı tökülür.

Ekranda yenə yazı görünür. Amma bu yazı vaxtilə bəzi səssiz filmlərdə olduğu kimi çərçivənin — venetkanın içindədir:

—QATİL DEYİLƏM, ALƏTİ QƏTLİM

—MƏZLUMDUR, ƏVƏT, OLSA DA ZALİM

TXƏYYAMU

İstintaq otağı. Müstəntiqin qarşısında kətildə Hüseyn Cavid əyləşmişdir. O, həbsxanada çəkilmiş şəkillərdə olduğu görkəmdədir — yorğun, bədbin. İztirab dolu gözlərində pensne yoxdur.

Müstəntiq:

—Adınız, familiyanız,

—Hüseyn Cavid.

Müstəntiq:

—Tam şəkildə.

—Hüseyn Abdulla oğlu Rəsizadə.

Katib makinada yazır. Bütün səhnə boyu makina tıqqıltısı eşidilir.

—Anadan olduğunuz tarix.

—24 oktyabr 1882.

—Harda anadan olmusunuz?

—Naxçıvanda.

Kamera Hüseyn Cavidin kədərli gözlərinə yaxınlaşır və lirik

musiqinin müşayiətilə biz onun xəyali baxışlarıyla Naxçıvan torpağının mənzərələrini görürük: İlanlı dağ, Batabat yaylağı, Xalxal meşəsi, Əshabi-Kəf, çiçəkləyən meyvə bağları.

Belə baxğçaların birində — indi Cavid muzeyi olan evin həyətində yeddi yaşlı bir uşaq top-top oynayır. Evin (indi muzey olan evin) eyvanından anası Ümmileyla onu çağırır:

—Hüseyn, Hüseyn, bura gəl! Sənə təzə köynək tikmişəm: Gey görək əyninə necə olur?

Hüseyn otağa girir. Anası qapını bağlayıb, təzə köynəyi göstərir:

—Al bunu gey, baxım — deyir.

Balaca Hüseyn əynindəki köynəyi çıxaran kimi anası əlindəki yun çubuğuyla onu döyməyə başlayır: — Sənə demədimmi molla məktəbinə getməlisən, həyətdə top-top oynayırsan.

Çubuq belini yandırdıqca Hüseyn qışqırmağa başlayır.

Anası: — Molla olmaq istəmirsən? Al gəldi.

Hüseyn: — Vurma, vurma, vallah, billah sabahdan molla məktəbinə gedəcəm.

Anası Hüseynin belindəki çubuq yerlərini sığallayır, onu öpür:

— Ağıllı balam, — deyir — al bu təzə köynəyini sabah məktəbə geyərsən — qapını açır.

Hüseyn cəld köhnə köynəyini götürüb otaqdan sıçrayır, qaçıb tut ağacına dırmaşır və oradan çığırır: — İstəyirsən yüz təzə köynək tik, döy, öldür, mən molla olmayacam , vəssalam.

Həyətə atası molla Abdulla və Hüseyndən dörd yaş böyük olan qardaşı Məhəmməd girirlər. Abdulla ağacın başındakı Hüseynə baxır:

— Sən niyə ilin bu vaxtında ağaca dırmaşmısan? — deyir.

Ümmileyla: — Molla məktəbinə getmək istəmir, əlimdən qaçıb ora çıxıb.

Abdulla (özünü göstərərək): — Bir evdə bir molla bəs deyil? Yox, mən Hüseyni Sidqinin məktəbinə göndərəcəm. Oxuyub alim olsun. Allah qismət eləsə onu İstanbula da yollayacam, əməlli-başlı təhsil alsın.

(Məhəmmədə): — İşdi-şayət, ömrüm çatmasa, Hüseyni İstanbulda sən oxutdurarsan, Məhəmməd...

İstanbulun mənzərələri, Əgər orda gedib çəkmək mümkün olmasa, əldə olan sənədli kadrlardan və köhnə fotolardan istifadə edərək İstanbulun əsrin əvvəllərindəki şəklini ekranda canlandırmaq olar. Fonda

qədim türk mahnısı səslənir:

Burası Muşdur,
yolu yoxuşdur,
Gedən gəlmiyor,
Əcəb nə işdir?
Bura Yəməndi,
Çölü çəməndi,
Gedən gəlmiyor,
Əcəb nədəndi?

Sanki xarab olmuş val kimi, bu sözlər bir neçə dəfə təkrar olunur: Tgedən gəlmiyor, gedən gəlmiyorU və birdən xırp kəsilir.

Müstəntiqin otağı.

Müstəntiq: — Türkiyəyə niyə getmişdiniz?

Cavid: — Ali təhsil almağa.

Müstəntiq: — Türkiyə hökumətindən hansı gizli tapşırıqlar almışdınız?

—Mənim Türkiyə hökuməti ilə heç bir əlaqəm olmayıb.

—Gizli tapşırıqları Türkiyə hökuməti sizə kimin vasitəsilə çatdırıb?

—Bir də deyirəm, heç vaxt, heç kəsdən heç bir gizli tapşırıq almamışam.

Müstəntiq masasının siyirtməsindən bir neçə fotoşəkil çıxarıb Cavidin qarşısına atır:

—Kimdi bu adamlar?

Cavid fotolara baxır.

—Eynəksiz tanıya bilmirəm — deyir — Həbs olunarkən eynəyimi aldılar.

Müstəntiq (katibə):

— Eynəyini gətirin.

Cavid müstəntiqə baxır, onun sifətini duman içində görür. Sonra başını qaldırıb divarda Stalinin şəklinə baxır, onu da duman içində görür, amma bu duman içində sanki Stalinin divardan asılmış şəkli başqa bir şəklinə çevrilir — əlini burnuna qoyub TşişU göstərdiyi şəkillə əvəz olunur.

Katib Cavidin pensnesini gətirir, Cavid pensneni taxıb şəkillərə baxır.

— İstanbulda çəkdirmişik bu şəkli. — deyir — Bu mənəm, bu Rza Tofiq bəydir, böyük şair, filosof , çox...

Mütsəntiq: — Dayan, dayan (katibə işarə verir, o yazdığı vərəqi makinadan çıxarıb müstəntiqə uzadır, müstəntiq baxır) — tak... Rza Tofiq... Türkiyədə müəlliminiz olub. Sizə hansı gizli tapşırıqlar verib?

—Nə gizli tapşırıq, canım, o mənə şeirdən, fəlsəfədən dərs deyirdi.

—Nu, eto mı vıyasnim (kaitbə) naydite mne delo (kağıza baxır) Riza Tofiqa. Bəs bu kimdir?

Cavid: — Rəhmətlik Abdulla Surdu. Çox parlaq ədəbiyyat adamı idi. Səd heyf, belə gənc ikən dünyadan getdi.

Müstəntiq: — Haçan ölüb?

Cavid: — 19-cu ildə.

Müstəntiq: — Jaxşı. Bəs bu kimdi?

Cavid diqqətlə baxır: — Hə, bu Bəkir Çobanzadədir.

Müstəntiq (sevincək) — Vot. Axır ki, iş açıldı, Pantürkist, panislamist, Krımdan bura şpiyonluq üçün göndərilib Çobanzadə. Burda kontr-revolyusyon təşkilat yaratmaq tapşırılıb ona. Bu təşkilatın üzvlərindən daha kimləri tanıyırsız?

Cavid: — Mənim heç vaxt, heç bir təşkilatla, nə revolyusyon, nə kontrrevolyusyon əlaqəm olmayıb.

Müstəntiq: Eyb etməz, mı eto eşe vıyasnim. İndidən hər şeyi boynunuza alsanız yaxşıdır.

Cavid: Nəyi boynuma almalıyam?

Müstəntiq: — Hər şeyi. Onsuz da gec-tez alacaqsınız.

Cavid başını qaldırıb Stalinin şəklinə baxır, indi də bu şəkil başqa cür görünür. Stalin əlindəki tüfəngi tuşlayıb nişan alır.

Müstəntiq: — Yaxşı, bu günlük bəsdir, gedin.

Cavid kamerada. Dəmir çarpayıda uzanıb. Kameranın qapısı açılır. Gözətçi: — Uzanmaq, yatmaq olmaz, oturun.

Cavid oturur, gözlərindəki kədər yavaş-yavaş işıqlı ifadəylə əvəz olunur, şairin xəyali baxışlarıyla TŞeyx SənanU tamaşasından səhnə görürük.

(Kursivlə verilən remarkalar və mətnlər Cavidindir).

Olduqca şairanə, cazibədar, behişti bir mənzərə görünür. Mələk qiyafətində olan Xumar:

Şeyx, gəl-gəl! Sevimli Sənan, gəl!
Sənə layiq deyil o yer, yüksəl!

Şeyx Sənan (şaşqın və həyəcanlı):
Ah, o cənnət pərisi, nazlı çiçək!
Bana yüksəl diyor gülümsəyərək.

Zəhra:

Söylə, Sənan, nə var?Nə oldu yenə?
Əcəba, kim göründü gözlərinə?

Şeyx Sənan:

Bax da gör, iştə cənnət, iştə mələk!

Zəhra:

Nerdə?

Şeyx Sənan:

Baq, dinlə, şimdi söyləyəcək.
(Zəhrada dərin bir heyrət)

Xumar (Şeyx Sənana):

Görünür gözlərində nuri-dəha,
Yüksəl, ey şeyx! Gəl, düşünmə daha!..

Şeyx Sənan:

Of, bəndən nə istiyorsun, get!
Bəndə can qalmamış, bir insaf et.

(Xumar qürur və istiğna ilə gedəcək olur, Şeyx Sənan böyük bir təlaş və nədamətlə)

Gediyor... ah... getmə, atma bəni!
Mərhəmət qıl, aman, unutma bəni!
Getdi, eyvah, getdi...

Zəhra:

Sənan, kim?

Şeyx Sənan *(Xumara)*:

Getmə, gəl, ah, nazənin mələgim!..

Xumar *(çəkilərək)*:

Qal, səlamətlə qal, böyük Sənan!

Həbsxana kamerasının dəmir qapıları xırçıltıyla açılır, gözətçi Cavidin qabağına alüminium kasada şorba qoyur.

Ekranda yazı:

20 avqust 1937, Gecə saat 3. 15

Müstəntiqin otağı, Əvvəlki kimi — müstəntiq, katib.

Müstəntiq: — Ailə vəziyyətiniz.

Cavid: — Evliyəm, Arvadım Müşkinaz Cavid, 1918-ci il, avqust ayında evlənmişik. İki övladım var.

Müstəntiq: — Paho, Bir ildən sonra yubileymiş ki... Evlənməyinizin iyirmi illiyini deyirəm.

Cavid (sərt): — Belə zarafatları öz tay-tuşlarınızla edin.

Müstəntiq bu sözlərin zəhmindən udqunur, papiros çıxarıb damağına qoyur, Cavidə də təklif edir, Cavid papirosu alır, müstəntiq kirbit çəkib odlayır.

Yenə də Cavidin gözləri və xəyalında canlanan səhnələr.

Naxçıvandakı evlərində bacısı Ümmi Səlimə 36 yaşlı Cavidə:

—Ay qardaş, axı evlənmək vaxtındır — deyir — Naxçıvana gəlmişkən, gəlsənə səni evləndirim?

Cavid (gülərək):

—Ay bacı, bu hansı zəmanədir ki, məni evləndirəsən? Mən əsərlərimdə azad məhəbbətdən dəm vururam, sən də ki... Heç TArşın mal alanUdakı tacir Əsgər də qızı görməmiş almaq istəmir. Bir de görüm, mənə almaq istədiyin qız kimdir. Nə bilirsən ki, mənim xoşuma gələcək. Ya da bəlkə o qız heç məni bəyənmədi. Dedi ki, dünya dağıla, mən ona ərə getmənəm. Onda necə olsun?

—Yox e, təki sən razı ol, qızın razılığı mənim boynuma.

—Axı kimdi o qız, gərək əvvəl onu görüm, sonrasına baxarıq.

—Yaxşı, buna da bir əncam çəkərik.

Kadr dəyişir və indi Cavidi evlərindəki iki böyük sandığın üstünə yığılmış yorğan-döşəyin dalında gizlənən görürük.

Ümmi Səlimə və gənc Müşkinaz söhbət edə-edə otağa daxil olur və qarşı tərəfdə otururlar, Müşkinaz, təbii ki, Cavidi görmür, Cavid isə onu yaxşı görür. Bu səhnə ancaq lirik musiqinin müşayiətiylə getməlidir.

Kadr dəyişir və artıq evlənmiş Cavidlə Müşkinazı görürük. Cavid:

—Mən hərdən-birdən cızma-qara eləyirəm — deyir. — Sənə savad öyrədəcəm. Gərək mənim ilk oxucum sən olasan.

Ekranda çərçivə içində yazı:

Hey fələk, keçdi zaman dalğa kibi,
Öylə bir dalğa ki, qorxunc, əsəbi.
Bir əsər qalmadı şən gənclikdən,
Kimsələr yox, nə gələn var, nə gedən...

"XƏYYAM"

İstintaq otağı.

Masanın üstündə xeyli qəzet var.

Müstəntiq (qəzetləri göstərərək): Yazıçı kolleqalarınız deyir ki, siz

pyesalarınızda pantürkizmi və dini təbliğ edirsiniz. Peyğəmbərdən, Tamerlandan yazırsınız (qarşısındakı kağızlara baxır). TŞeyx SənanU pyesanızda qardaş gürcü xalqını təhqir etmisiniz.

Cavid:

—Bu ağ yalandı. Mən "Şeyx Sənan"da bütün dinlərdən, təriqətlərdən üstün olan eşqi tərənnüm etmişəm,

Ekranda çərçivə içində yazı:

İŞTƏ GÖRDÜNMÜ DİN NƏLƏR DOĞURUR?
NƏ BƏLALAR, NƏ FİTNƏLƏR DOĞURUR?
DİN BİR OLSAYDI YER ÜZÜNDƏ ƏGƏR,
DAHA MƏSUD OLARDI CİNSİ-BƏŞƏR.
"ŞEYX SƏNAN"

Teatr səhnəsində TŞeyx SənanU tamaşası.

Abbas Mirzə Şərifzadə (təbii ki, onun obrazını yaradan müasir aktyor) Şeyx Sənan rolunda.

Şeyx Sənan:

İştə Qafqas! Səfalı bir məva!
Allah-Allah, nədir bu abü həva!?

(Təkrar dönərək Xumarı görüncə)

Ah, o, mütləq o!.. Gördüyüm röya!

(yaqlaşaraq)

İştə, nazəndə heykəli-sevda!

Xumar:

Söylə, kimsin?
Şeyx Sənan
Zavallı bir məftun...

Xumar:

Qaliba məcnun...

Papas (qaba bir qəhqəhə ilə):

Aşiq olmuş Xumara zənn edərim,

Şeyx Sənan (Xumara):

Söylə, ruhum, nə tez unutdun sən,
Bana Tgəl-gəl! T deyən nəvazişlə,
Əcəba sən deyilmisin? Söylə!..

Platon (heyrətlə, Şeyx Sənana):

Bu görüş oldu hanki məvada?

Şeyx Sənan:

Cecə röyada, ərşi-ələda
Papas (zəhrxənd ilə):
Şübhə yoq, şübhə yoq ki, məcnundur
Platon:
Görünür həp Xumara məftundur,
Şeyx Sənan:
Vətənim, cümlə niyyətim, Kəbəm,
Şimdi yalnız odur, o, vaz keçməm
Papas:
Şimdi isbat edib də gəl qandır!
Hiç mümkünmü isəvi bir qız,
Bir müsəlmana varsın? Anlatınız.
Şeyx Sənan:
Birsə həq, cümlə din də bir ... naçar,
Xalqı yalnız ayırmış azğınlar,
Hər kəs uymuş cihanda bir hissə...
(Papas şərab ilə dolu qədəhi Platondan alıb Şeyxə verir)
Papas:
İçiniz bu şərabı öylə isə.
Şeyx Sənan:
Zatən onsuz da sərxoşum ələn...
Papas (cibindən kiçik bir xaç çıxarıb Şeyxə verir):
Pək gözəl, şeyxim, al şu xaçı da as
Şeyx Sənan (alıb asaraq, yarım qəhqəhə ilə):
İbn Məryəm asıldı darə, fəqət
Onu təkrarə varmıdır hacət?
Bumu İsanın ərşə meracı?
Bən nəyəm şimdi? Canlı dar ağacı!

İstintaq otağı.
Müstəntiq:

—Vətəndaş Cavid, Şura hökuməti sizə imtiyazlar verib, ayda 350 manat maaşla instituta əməkdaş və məsləhətçi təyin edilmisiz, Bakı sovetinin fəxri üzvü seçilmisiniz, mükafat almısınız, yaxşı mənzil almısınız. Bunun əvəzində Şura hökumətinin əleyhinə yazılar yazırsınız?

—Mən heç vaxt Şura hökumətinin əleyhinə bircə söz də

yazmamışam.

Müstəntiq:

—Bircə söz də?

Cavid:

—Bəli, bircə söz də.

Müstəntiq siyirtməsindən iri bir qovluq çıxarır.

—Bunu bizə sizin kolleqanız — "cavan bolşevik" imzasıyla bir gənc dramaturq təqdim edib. Pyesalarınızdan sitatlardır (oxuyur):

Yetər çıldırdınız hökumət! — deyə
Evləri yıqdınız, Ədalət! — deyə.
Məzlumlar qanından badə sondunuz
Qarğa-quzğun kibi leşə qondunuz
Qanun deyə doğruluqdan caydınız
Xalqın namusunu hiçə saydınız
Aldıqları nəfəs — zəhərli ahlar
Qidasız çocuqlar ot yeyib yaşar
Söylə, öyündüyün ədalət bumu?
Hökumət dediyin rəzalət bumu.

TSiyavuşU pyesası, Bunu siz yazmısınız?

Cavid:

—Bəli, mən yazmışam.

—Kimi nəzərdə tutursunuz (səsini qaldırır) — "hökumət dediyin rəzalət"... nəyi nəzərdə tutursunuz?

Cavid:

—Necə nəyi? Söhbət uzaq əsrlərdən, İran—Turan savaşları dövründən gedir.

Müstəntiq:

—Turan... Elə Turan məsələsinə də gələcəyik (Əlindəki qovluğu varaqlayır). Aha, "İblis" pyesanız... (oxuyur)

Türk ordusu, ətrafa bu gün həmlə edərkən,
İranə və ya Qafqaza imdada gedərkən,
Rus ordusu durmaz, çəkilərkən önümüzdən — (kağızdan ayrılaraq) — kakoy pozor (yenə oxumağa davam edir)
Türk ordusu daim basaraq ölkələr almış,
Ən sonda siyasətdə basılmış da bunalmış
İdrakı sönük başçıların qəfləti ancaq
Etmiş, edəcək milləti həp əldə oyuncaq
Turana qılıncdan daha kəskin ulu qüvvət

Yalnız mədəniyyyət, mədəniyyət, mədəniyyət — (qovluğu bir qırağa qoyur) — nu, i tak dalee... Buna nə deyirsiz?

—Nə deyəcəm. Bəli, mən yazmışam və indi də düşünürəm ki, mədəniyyət qılıncdan güclüdür.

—Sözü dəyişməyin. Heç utanmırsız? Şura hökumətinin çörəyini yeyib, Türkiyəni təbliğ edirsiz.

—Mən heç kəsin çörəyini yemirəm, Ancaq, bax bu əllərimlə qazandığım çörəyi yeyirəm, Mən çernoraboçi də olmuşam, hanbal da işləyə bilərəm, fəqət heç vaxt mənliyimi satmaq, əsir olmaq istəməm.

Müstəntiq (istehzayla):

—Ona hələ baxarıq. (Yenidən qovluğu vərəqləyir, sonra oxuyur):

—"İnsan adını daşıyan ikiayaqlı həşarat pək qaba və pək səfil bir şey.. İnsanlar mərhəmət və məhəbbətdən ziyadə dəhşət və qüvvətə tapınırlar. Bən məğrurluğu əzmək üçün yaradılmış bir Allah bəlasiyam, tökdüyüm qanlar da yalnız həqq və ədalət naminədir".

Cavid başını qaldırıb Stalinin şəklinə baxır, Müstəntiq də qeyri-ixtiyarı şəklə baxır, amma cəld baxışlarını qaçıraraq oxumağa davam edir: "Allah bir olduğu kibi padşah da bir olmalı". Bu sözlər kimə aiddir?

Cavid:

—Təbii ki, Topal Teymura. Başqa kimə aid ola bilər ki...

Müstəntiq (öskürür):

—Əlbəttə, aydındır... Abbas Mirzə Şərifzadəylə hansı kontr-revalyusyon əlaqələriniz olub?

—Abbas Mirzə mənim əsərlərimdə baş rollarda çıxış edib, O sadə, çox sadə bir insandır, fəqət o sadəlikdə bir böyüklük var ki, onu hər adam başa düşməz. Onun istedadı yalnız sənət üfüqlərində parlar. Sənətkarın böyüklüyü yaşadığı mühitin mədəniyyəti ilə ölçülür, Abbas daha böyük mühitdə yaşasaydı, daha zəngin qüdrətlərə, daha parlaq şöhrətə malik olardı, Ona dərin və səmimi hörmət bəslərəm.

—Bu sözlərlə siz özünüz özünüzü ifşa etdiniz. Deməli, sovet mühiti sizə də, Abbas Mirzələrə də darlıq edir. Onunçün da siz osmanlılara arxalanır, dilinizdə oranın şairlərini təqlid edirsiniz, tematikanızı da Azərbaycandan yox, ordan alırsınız. O ki, qaldı Abbas Mirzə... (rəsmi tonla) Abbas Mirzə Şərifzadə alçaq İran cəsusu, vətən xaini və xalq düşməni kimi həbs edilib (Cavid əlləriylə üzünü qapayır). Bəli, sizin cinayətkar fəaliyyətinizin bu həlqəsi də qırılıb. İndi deyin görək, İran kəşfiyyatı Abbas Mirzənin vasitəsilə

sizə nə kimi tapşırıqlar verib?

Cavid əllərilə üzü qapalı halda susub durur.

Xəyalında Teatr tamaşası — "Şeyx Sənan"dan səhnə canlanır.

Abbas Mirzə Şərifzadə Şeyx Sənan rolunda,

Şeyx Sənan:

— Bizi məhv eyləməkmi məqsədiniz
Gediniz, haydı, dəf olub gediniz!..
Oyan artıq, Xumar, oyan, gedəlim,
Bu müləvvəs mühiti tərk edəlim.
Hər tərəfdən hücum edər əğyar,
Qalx oyan, nazənin Xumar, Xumar!
Bizə düşmandır iştə həp aləm
Xumar, insaf et, of! Qılma sitəm.
Qaçamazsın, xayır, xayır... hər an
Səni izlər şu dərbədər Sənan
Mərhəmət yoqmu? Ey böyük yaradan!
Ah, ədalət!

(Bu sırada səhnənin işığı çəkilir, ta ucda, ikinci pərdə qalxır, Xumar ilə Şeyx Sənanın qol-qola olaraq buludlar içində uçuşduqları görülür)

Səhnədəki iştirakçılar heyrətlə onlara baxır və xorla deyirlər:

İşgəncədən qurtuldular
Qeyb oldular, qeyb oldular,
Yüksəldilər, yüksəldilər.
Cənnətdə rahət buldular
Yüksəldilər, yüksəldilər,
Qeyb oldular, qeyb oldular...

Gurultulu alqışlar, dolu salon səhnə önünə çıxıb baş əyən aktyorları, Cavidi alqışlara qərq edir, ayaqları altına gül-çiçəklər atırlar.

Cavid Abbas Mirzəni qucaqlayıb bağrına basır.

—Təbrik edirəm, Abbas, bu gecə dəhşət idin.

Abbas Mirzə:

—Çox sağ olun Cavidcan.

Abbas Mirzə artıq adi paltarda teatrın arxa qapısından çıxıb faytona tərəf gedərkən onu gözləyən gənclər aktyoru əhatə edir, gül-çiçək dəstələri verirlər.

İstintaq otağı. İndi müstəntiq başqadır (Onu da həmin aktyor —

İblis — oynayır, amma qrim vasitəsilə tanınılmaz dərəcədə əvvəlki müstəntiqdən fərqləndirilib. Əvvəlkinin başı keçəl idisə, bunun saçı var, o, bığlı-saqqallı idisə, bunun üzü tüksüzdür. Birincidən fərqli olaraq, bu, eynəklidir).

Müstəntiqin qarşısında Abbas Mirzə Şərifzadə oturub.

Müstəntiq:

—Sizin İran konsuluyla hansı gizli cinayətkar əlaqəniz olub? Ondan hansı təlimatları almısınız?

Abbas Mirzə:

—Mənim İran konsuluyla heç bir gizli əlaqəm olmayıb, ondan heç bir təlimat almamışam,

—Səmimi deyilsiniz, nahaq bizdən gizlədirsiz, biz hər şeyi bilirik.

Masanın üstündəki zəngi basır. Mühafizəçinin müşayiətiylə aktyor daxil olur.

Müstəntiq *(Abbas Mirzəyə)*:

—Bu adamı tanıyırsınızmı?

Abbas Mirzə:

—Tanıyıram, Bizim teatrın aktyorlarındandır.

Müstəntiq *(aktyora)*:

—Bu adamı tanıyırsan?

—Əlbəttə, Abbas Mirzə Şərifzadədir.

—Onun İran konsuluyla əlaqələri haqqında nə deyə bilərsən?

—Abbas Mirzənin İran konsuluyla yaxın dostluq əlaqələri vardı, tez-tez görüşürdülər.

Abbas Mirzə:

—Yalandır.

Müstəntiq:

—Şahidin sözlərini kəsməyin, Davam et.

Aktyor:

—1936-cı ilin dekabr ayında məndən xahiş elədi ki, Ruhulla Axundovun *(udqunur)* ifşa olunmuş qəddar xalq düşməni Ruhulla Axundovun "Rusca-türkcə" lüğətini tapıb İran səfirinə çatdırım. Bunun müqabilində Abbas Mirzədən qiymətli hədiyyələr aldım. Mənə başqa tapşırıqlar da verirdi.

Abbas Mirzə:

—Yalandır.

Müstəntiq:

—Sus. Yoxsa sənlə başqa cür danışaram, Bura sənin teatrın

deyil ki, qızlar başına gül-çiçək səpsin. İrana qaçmış qardaşın Qulamrzayla nə əlaqələrin var?

—Heç bir əlaqəm yoxdur.

Müstəntiq siyirtməsindən bir məktub çıxarır:

—Bu məktub qardaşından deyil, almamısan?

—Ondandır, almışam.

—Bəs deyirdin heç bir əlaqəm yoxdur, Bu məktubda sənə nə təklif edirdi?

Abbas Mirzə:

—Məktub ki, əlinizdədir, oxuyub bilə bilərsiniz.

Müstəntiq ayağa sıçrayıb cır səslə bağırır:

—Məni təngə gətirmə. Nə yazmışdı məktubda?

—Məni İrana dəvət edirdi, orda yaşamağa.

—Niyə? Burda nəyin əysik idi? Hətta sənə — xalq düşməninə özün kimi xalq düşmənləri Xalq artisti adı da vermişdi. İranda nə itin azmışdı?

—Mən ki, getmədim.

—Gedə də bilməzdin, Amma burda qalıb əks-inqilabi təşkilatın üvzləriylə görüşməyə başladın. Yaxşısı budur özün boynuna al. Kimlər idi bu təşkilatın üzvləri?

—Mən heç bir əks-inqilabi təşkilatın üzvlərini tanımıram.

Müstəntiq *(isterik bir ədayla)*:

—Dedim ki, məni özümdən çıxartma.

Masasının siyirtməsindən rezin dəyənək çıxarıb Abbas Mirzəni döyməyə başlayır. Ağrıdan Abbas Mirzənin fəryadı ucalır. Müstəntiq dayanıb alnının tərini silir. Müstəntiq:

—Boynuna alırsan ki, sən və Ülvi Rəcəb Azərbaycan dilini osmanlaşdıraraq gənc artistləri düşmənçilik fəaliyyətinə cəlb etmisiniz (Rezin dəyənəklə vurur).

—Boynuna alırsan ki, qatı pantürkist Hüseyn Cavidin millətçi əsərlərində baş rolları oynarkən, bu əsərləri təbliğ edərkən xarici kəşfiyyatların tapşırıqlarını yerinə yetirmisən?

Abbas Mirzə susur, müstəntiq onu yenə döyür, aktyorun fəryadı eşidilir.

Hüseyn Cavidin kamerası. Bu fəryadlar, müxtəlif otaqlardan gələn iniltilər, bağırtılar, ağlayışlar eşidilir. Cavid bunları eşitməmək üçün qulaqlarını tutur.

İstintaq otağı. Pəhləvan cüssəli dörd zırpı cavan boksçu

əllərindəki mələfələri ləyəndə isladıb sıxır və bu mələfələrlə üz-gözü qana bulaşmış Abbas Mirzəni döyürlər. Döydükcə bir-birinə tərəf, otağın o küncündən bu küncünə, bu küncündən o küncünə itələyirlər.

Müstəntiq masasının arxasında oturub bu səhnəyə ləzzətlə tamaşa edir, çay içir, papiros çəkir. Abbas Mirzə içi qan dolu gözləriylə müstəntiqə baxır və bir an müstəntiq onun teatrda oynadığı İblis qiyafəsində, İblis şəklində görünür.

Mücərrəd məkanda qum saatı tərsinə çevrilir.

Ekranda yazı:

30 aprel 1916

O illərə xas olan dairəvi tumbada afiş. Afişdə Ərəb əlifbasıyla və altında rusca "Ölülər" sözləri yazılmışdır.

Teatrın səhnəsi, "Ölülər" tamaşasının finalı. Kefli İskəndər rolunda Mirzağa Əliyev.

İskəndər (adamlara): Gəlin, içəri gəlin, gəlin bura! Yavuq gəl. Sən də gəl! Mən ölüm hamınız gəlin! Bax belə. Keç! Sən də keç içəri. Di indi növbə mənimdi, qulaq asın, mən də bir -iki kəlmə söz danışım (İskəndər qızların pərdəsini çəkib qopardır, atır kənara, camaat utandığından başını aşağı salır, qızlar da utanıb üzlərini əllərriylə tuturlar və başlayırlar ağlamağa) Baxın! Yaxşı baxın! Diqqətnən baxın! Sizin tarixlərinizin kitabında bu, qan ilə yazılmış bir səhifədir. Sizdən sonra gələnlər bu kitabı vərəqləyib, bu səhifəni görəndə sizi yada salıb ucadan deyəcək: Tfu sizin üzünüzə! (Tüpürür camaata tərəf. Hamı başını aşağı salıb dinmir). Bağışlayın, Kefli İskəndər bir az biədəblik edir. Amma indi növbət mənimdi. Zamanı ki, ricət məsələsi ortaya qoyuldu və Şeyx Nəsrullah ölüləri diriltmək ixtiyarını qoydu sizin qabağınıza, siz ölən qardaşlarınızın, bacılarınızın və övrət-uşaqlarınızın dirilməyinə razı olmadınız. Niyə razı olmadınız? Ondan ötrü ki, arvadlarınızın hamısını yumruq altında öldürmüsünüz, ölən qardaşlarınızın arvadını almısınız, ölən dostlarınızın yetimlərinin malını yemisiniz. Razı olmadınız ki, dirilib gəlsinlər və sizin əməllərinizi görüb desinlər: Tfu sizin üzünüzə (camaat hamısı başını salır aşağı) Mənim adım Kefli İskəndərdir, bə sizin adınızı nə qoyaq? Ölülər! Və bizdən sonra gələnlər illər uzunu sizi yada salıb bir səslə deyəcəklər:

—Ölülər!

Gurultulu alqışlar altında aktyorlar səhnə önünə çıxıb baş əyirlər, Hüseyn Cavid, Sultan Məcid Qənizadə, Nəcəf bəy Vəzirov, Nəriman

Nərimanov, Üzeyir Hacıbəyli da səhnəyə çıxıb aktyorları təbrik edirlər, Mirzə Cəlil səhnəyə çıxanda alqış tufanı bütün salonu və səhnəni bürüyür.

Səhnə arxasında Hüseyn Cavid Mirzə Cəlili təbik edir: — "Ölülər"in hər təbəssümündə acı bir fəryad var, Mirzə — deyir. — Sizdə Qoqol ruhu yaşar.

Gənc Kazımoğlu (Seyid Hüseyn) onlara yanaşır: — Cavid əfəndi, qəzetimiz üçün tamaşa haqqında bir neçə söz söylərmisən?

Cavid:

—"Ölülər"də sənətkaranə bir dirilik, mahiranə bir incəlik var. "Ölülər" sənətcə nəsə, məalca da odur.

Teatrın foyesində Seyid Hüseyn bir-bir tanınmış ziyalılara yanaşır və onların dediklərini dəftərə yazır.

Seyid Hüseyn:

—Sultan Məcid əfəndi, Sizin fikriniz?

Sultan Məcid Qənizadə:

—Şeyx Nəsrullahın ölüləri diriltməsi yalansa da, "Ölülər"in ölü fikirləri diriltməsinə şübhə ola bilməz.

—Nəcəf bəy, sizin fikriniz?

Nəcəf bəy Vəzirov:

—"Ölülər" draması həyatdan alınmış, iqtidarla yazılmış tam təsir bəxş edən bir əsərdir.

—Doktor Nəriman?

Nəriman Nərimanov:

—Artıq dərəcədə məharətlə yazılmış, ideyası inqilabi bu drama müsəlman həyatında böyük rollar oynayacaqdır.

—Üzeyir bəy...

Üzeyir Hacıbəyli:

—"Ölülər", "Molla Nəsrəddin" kimi, baltanı dibindən vuran bir pyesdir.

Mücərrəd məkanda qum saatından qumlar tökülür.

Ekranda yazı:

Avqust 1914.

Çərçivədə yazı:

KƏSSƏ HƏR KİM TÖKÜLƏN QAN İZİNİ,
QURTARAN DAHİ ODUR YER ÜZÜNÜ.

O dövrün hərbi qiyafəsində zabit. Əlində durbin var, Durbini gözlərinə yaxınlaşdırır, Durbin "gözlərinin birində İblis, digərində Mələk görünür" ("İblis" pyesindən remarka).

Kadr arxasından İblisin monoloqu eşidilir (fonda top, güllə, atəş səsləri):

İblis:

Toplar veriyor aləmə dəhşət,
Dəhşət!.. Qopuyor sanki qiyamət,
Yağmur kibi göydən yağar atəş!
Atəş!.. Qaralar, dalğalar atəş...
Mələk (qadın səsi):
Ya Rəb, bu nə dəhşət, nə fəlakət?
Ya Rəb, bu nə vəhşət, nə zəlalət?
Yox kimsədə insafi mürüvvət,
İblisəmi uymuş bəşəriyyət?

İblis:

Dəryalara hökm etmədə tufan,
Səhraları sarsıtmada vulkan
Sellər kibi aqmaqda qızıl qan,
Canlar yağar, evlər yığar insan...

Mələk:

Ya Rəb, azacıq lütfü inayət!
Qəhr olmada artıq bəşəriyyət,
Başdan-başa həp yer yüzü vəhşət,
İblis ilə həmrəngi siyasət...

Kadr arxasında bu mətn səslənərkən müharibə səhnələrini — sənədli kadrları görürük. Birinci dünya müharibəsindən qalmış sənədli kadrlar, top atəşləri, bomba partlayışları, səngərdə əsgərlər, sifətlərə taxılmış əleyhqazlar, meyitlər, dağıdılmış şəhərlərin xərabələri və s.

Qum saatı.

Ekranda yazı:

28 mart 1918

İndiki İstiqlaliyyət küçəsində o vaxtkı "Təbriz" mehmanxanasını görürük — bu bina durur. Kiçik mehmanxana otaqlarının birində Hüseyn Cavid (o vaxt 36 yaşında), Abdulla Şaiq və Seyid Hüseyn. Cavid dostlarına TİblisUdən bir parça oxuyur:

Mən şimdi bir atəş, fəqət əvvəlcə mələkdim
Həp xaliqə təsbih idi, təhlil idi virdim

Çöldən atışma səsləri eşidilir, Cavid oxumasına ara verir. Hər üçü pəncərəyə yanaşıb baxırlar. Sakitlik çökərkən Cavid oxumağa davam edir:

Alçalmadı, yüksəldi fəqət şöhrətü şanım,
Allah ilə bir zikr edilir namü nişanım,

Atışma səsləri daha da şiddətli, həm də lap yaxından eşidilir.
Cavid əlindəki kağızları bir qırağa qoyur:
—Əfsus, əsər oxumaq vaxtı deyil.
Seyid Hüseyn:
—Əfəndilər, məncə bir an yubanmadan İrana getməliyik.
Şaiq:
—Ağa, nə yazıq, mənim oylə imkanım yox.
Cavid:
—Şaiq, amma indi hər ikiniz evlərinizə dönün, ailələrinizin yanına. Bu atışmadan çox əndişələnərlər çocuqlar.
Şaiq:
—Döğru söyləyirsən, getməmiz lazım.
Vidalaşıb çıxırlar. Atışma bir qədər səngiyir. Cavid masa arxasında yazmağa davam edir. Bir an kağızlardan ayrılıb başını qaldıranda xəyalən "İblis"in gələcək tamaşasından səhnələri təsəvvüründə canlandırır.
Skeletlərin rəqsi. Sonra çiynində əba, başında sərpuş, ağ saqqallı İblis görünür.
İblis *(məmnun qəhqəhələrlə)*:
Bir lövhə ki, iştə çok bəyəndim
Elxan:
Yahu, səni kim buraxdı?..
İblis (məğrur bir tövr ilə əlini köksünə qoyaraq)
Kəndim!
Arif (Elxana):
Bir mürşid o, sahibi kəramət (İblisin əlini öpər)
Xoş gəldin, aman nə mutlu saət!..
Rəna (dəxi öpər)
Yormuş sizi, şübhəsiz bu yollar

İblis (yarım qəhqəhə ilə)

Yox, zənn edərim ki, səhviniz var
Dağ, daş, uçurum, dəniz və orman
Əngəl olamaz önümdə bir an

Elxan:

Kimsən, əcəba, səndə ki var böylə məharət

İblis:

Bən heçlə doğan bir ulu qüvvət, ulu qüdrət.
Bir qüdrəti-külliyyə ki, aləm bana bədxah,
Dünyadə əgər varsa rəqibim, o da Allah!..
(qəhqəhə)
Həp din ilə, məzhəblə, siyasətlə cahanda
Həp fırtına qopmuşsa, əvət, bən varam onda.
Hər yerdə ki, vardır əzəmət, qəhr ilə dəhşət
Hakimdir o yerlərdə bu qarşındakı xiqlət
Röya kimi hər an olaraq zahirü qaib
Bən Şərqdə abid oluram, Qərbdə rahib.

Otağın qapısı şiddətlə döyülür. Cavid xəyallardan ayrılır, durub qapını açır.

Daşnak çetelərinin qiyafəsində zabit və üç-dörd əsgər otağa soxulur.

Daşnak zabit *(onu İblisi oynayan aktyor oynamalıdır)*:

—Sən kimsən?

—Hüseyn Cavid. Ədibəm. Siz kimsiniz?

Daşnak zabit (istehzayla):

—Ədib? — masanın üstündəki kağızları göstərir: — bunları sən yazmısan?

Cavid:

—Bəli.

Daşnak zabit:

—Dur geyin, gedək.

—Hara?

—Orda bilərsən. Tez ol.

Cavid paltosunu geyinən zaman daşnak masanın üstündəki kağızları qamarlayıb sobaya atır.

Cavid:

—Aman, nə edirsən? — kağızları daşnakın əlindən almaq istəyir, əsgərlər onu kənara dartırlar.

İri planla sobada yanan kağızlar və atəşin içindən həmin daşnak zabitin İblis qiyafəsində sifəti görünür, qəh-qəhələri eşidilir.

Əsgərlər tüfəng qundaqlarıyla Cavidi itələyirlər.

Cavid:

— Dığa, məni öldürəcəksən, elə burda öldür.

Əsgərlər hər iki tərəfdən onun qolundan tutub otaqdan çıxarırlar.

Əsgərlər mehmanxananın o biri otaqlarından Azəri türklərini küçəyə çıxarırlar.

Getmək istəməyib müqavimət göstərənləri elə burdaca atəşə tutub öldürürlər.

60-a qədər adam silahlı daşnak əsgərlərinin müşayiətiylə Bakı küçələriylə addımlayır. Hansı döngədəsə bir neçə adam qaçmaq istəyir, dərhal onları gülləbaran edib yerə sərirlər.

Adamlar addımladıqca ara-sıra güllə səsləri eşidilir və yerə sərilənləri görürük. Dəstə xeyli seyrəlib, yalnız beş-altı adam yolunu davam edir. Onların arasında Cavid də var. Ağır-ağır, fikirli-fikirli addımladıqca Cavidin xəyalında İblisdən səhnə canlanır:

Səhnədə Elxan, papas, növbətçi.

Elxan:

—Bu həriflər əcəba kim? Söylə!

Növbətçi:

—Bu papas ermənidir, vəqtilə
Ermənistana daşırmış qurşun,
Həm də İncil deyə!..

Elxan (istehzalı qəhqəhə ilə əlini onun omuzuna qoyaraq):

Ya!.. Eşq olsun,
Nerədən aldın o hissiyyatı,
Verdi İncilmi bu təlimatı?

Papas (xaç çəkərək):

Ah, suçum varsa da, əfv eylə məni.

Elxan:

Bəklə, dur, şimdi bulur haqq yerini.

Dəstədə indi yalnız iki-üç adam qalıb – o cümlədən Cavid.

Mailov (indiki opera) teatrının yanına gəlib içəri girirlər.

Qum saatı.

Ekranda yazı.

Oktyabr 1918

Abdulla Şaiq küçəylə gedir. Bir gənc oğlan həyəcanla ona

yanaşır:

—Şaiq əfəndi, Şaiq əfəndi, Hüseyn Cavidin ölüm xəbəri doğrumu?

Şaiq:

—Əstəğfürullah. Ağzını xeyirliyə aç.

Gənc (əlindəki qəzeti göstərərək) — Budur baxın, "Bəsirət" qəzeti yazır.

Şaiq:

—Yalandır. Elə bu gün Caviddən məktub almışam. O mənhus mart günlərində möcüzəylə xilas olub, Seyid Hüseynlə Təbrizə gedə biliblər, ordan da Naxçıvana keçib.

Qum saatı, belədən-belə, bir neçə dəfə çevrilir. Ekranda bir-birinin ardınca yazılar görünür:

1918, 1919, 1920

Sənədli kadrlar bir-birini əvəz edir. Cümhuriyyət dövründən qalmış sənədli kadrlar, fotoşəkillər. Parlaman və hökumət üzvləri, Gəncədə və Bakıda ilk müstəqil Azərbaycan respublikasının dövlət idarələri yerləşən binalar — Parlaman, Hökumət binaları. Üzlərində fərəh, sevinc olan insanlar. Kəskin musiqi akkorduyla qum saatı hələ qumla doluykən tərsinə çevrilir, ekrana qara rəng çökür və yazı görünür:

Aprel 1920

Çərçivədə yazı:

Var ikən əldə qaçmaq imkanı
Sovuşur həp hökumət ərkanı
Qüdrətin varsa çıx vuruş, çarpış!
Bəlli yox sizdə oylə bir cürət,
Burda yalnız igidlik istər, əvət.
Həpiniz sayğısız, rəzil, alçaq,
Həpiniz tülkü, tülküdən qorxaq.
İştə meydan! Ər ol, ya əz, ya əzil.
Ağlamaq istəsən, buyur məndil.
Başqa bir qurtuluş yox, ən eyi yol
Qaçmaq...

"KNYAZ"

Bu şer parçasının bir hissəsi yazılmayıb səslənə də bilər. Şerin fonunda sənədli kadrlar: XI ordunun Azərbaycana gəlməsi. Şərq

Xalqlarının Birinci Qurultayı, bu qurultayın ekzotik qiyafələrdə nümayəndələri. Avropa ölkələri rəhbərlərinin müqəvvalarının yandırılması və s. dövrə aid kadrlar. Ən səciyyəvi və ifadəli, dövrü dəqiq göstərən kadrlar seçilməlidir. Arxivlərdə belə kadrlar yetərincədir. Bu kadrlar mədəni həyatı göstərən kadrlara keçir — tamaşalar, afişlər, konsertlər və s.

Bakıda Birinci Türkoloji qurultaya aid kadrlar. Onların arasında Əlibəy Hüseynzadəni əks etdirən kadr.

Həmin qurultayda Hüseyn Cavidi əks etdirən — yazıçının yeganə kino kadrı. Kadr iriləşdirilir və durdurulur (stop kadr).

Dairəvi teatr afişası. Kamera ŞEYX SƏNAN elanını yaxınlaşdırır.

Cəfər Cabbarlının sənədli kadrları.

Keçmiş Tağıyev teatrı (indi Musiqili komediya teatrı) binasına tərəf gələn adamı görürük. Bu gənc Cəfər Cabbarlıdır.

Teatrın arxa qapısından içəri girmək istərkən tələşla o yan-bu yana boylanan Əlilini görür.

Cəfər:

—Yallah, Əlili — deyir — Niyə belə həyəcanlısan, xeyir ola?

Əlili:

—Salam, Cəfər. Bilirsən də, Şeyx Sənanı bir gün Abbas Mirzə, bir gün Ülvi oynayır. Bu gün Ülvinin nöbəsidir. Amma gəlib çıxmayıb, yəqin çaşdırıb, elə bilib Abbas oynayacaq. Abbas da çıxıb gedib bağa.

Cəfər:

—Darıxma, ikisindən birini Allah yetirər, Gəlməsələr, özüm oynaram.

Əlili:

—Sən elə zarafatından qalmırsan. Heç zarafatın yeridir? Tamaşaya yarım saat qalıb, Müdir, bilirsən, əzvayın biridir, mənim tükümü didəcək, o da didməsə, tamaşaçılar didəcək.

Cəfər:

—Dedim sənə darıxma. Ölməmişəm ki..

Əlili:

— Yəni sən rolu bilirsən ki?

Cəfər:

—Başdan axıracan əzbər. Mizanlar da hamısı gözümün qabağındadır. Nahaq yerə bu teatrda bitib qalmıram ki...

Əlili (saata baxır):

—Aman allah, iyirmi dəqiqə qaldı — birdən qəti şəkildə Cəfərə — yaxşı, keç qrimlən.

Qrim otağında Cəfər Cabbarlı Şeyx Sənan qiyafəsində qrimlənir. Birdən Ülvi Rəcəb Əlilinin müşayiətiylə otağa daxil olur.

Ülvi Rəcəb (gülə-gülə):

—Görəcəyimiz günlər varmış, Cəfər, deyəsən çörəyimizi əlimizdən almaq istəyirsən?

Cəfər:

—Harda qalmışdın?

—Elə bilirdim bu gün Abbas oynayır. Elə küçədən keçirdim ki, Əlili boğazımdan yapışdı.

Cəfər Şeyx Sənan paltarını çıxarır, qrimini silə-silə:

—Heyf, gəlib çıxdın, yoxsa bu axşam sənin də, Abbasın da xoruzunu qoltuğunuza verəcəkdim.

Səhnədə Ülvü Rəcəb Şeyx Sənan rolunda.

Şeyx Sənan:

Arkadaşlar! Bu parlayan günəşin,
Feyzi birdir cahanda hər kəs için
Türkü, hindü, ərəb, əcəm bilməz,
Nuru hər yanda artar, əksilməz,
Mənəvi bir günəş də var: nəvvar
O da İslam dinidir, parlar.
Parlar, afaqı nura qərq eylər
Həq, həqiqət nədirsə həp söylər,
Çox müqəddəsdir, işdə məqsədimiz,
Bunu lakin, saqın unutmayınız
Bir çox zalimnüma xəyanətkar
Dini — islamə rəxnə salmışlar
Xali-kainat halbuki bir...
İştə Quran və Kəbə həp birdir
Əhli — islama həp bu birliyi biz
Nəşru isbata qeyrət etməliyiz...

Alqışlar. Səhnənin yan tərəfindən Cəfər Cabbarlı və Əlili heyranlıqla Ülvinin oyununa baxırlar.

Qum saatında qumlar adi şəkildə yox, çox sürətlə tökülməyə başlayır.

Yazı:
12 sentyabr 1937
Çərçivədə yazı:

Xayır, Ən kəskin əlac iştə budur,
Yaşamaqdan daha xoşdur ölüm...

"İBLİS"

İstintaq otağı.

Abbas Mirzə yarıçılpaq , ayaqyalın, iti çərtilmiş karandaşların üstündə durub. Başına xüsusi duşdan hər an bir damla damır. İşgəncələrdən, əziyyət-iztirablardan sifəti tanınılmaz dərəcədə dəyişmişdir.

Müstəntiq:

—Boynuna alırsan ki, qatı xalq düşməni, pantürkist Hüseyn Cavidin millətçi, dini təbliğ edən əsərlərində baş rolları oynamaq tapşırığını sənə əks-inqilabçı təşkilat verib?

Abbas Mirzə (sonsuz iztirabla):

—Allah eşqinə, kəsin bu damlaları, beynimə sanki mismar çalırlar.

Müstəntiq:

—Boynuna alırsan?

Abbas Mirzə:

—Alıram... Boynuma alıram ki, Otello, Hamlet, Maqbet, Romeo rollarını oynarkən...

Müstəntiq:

—Şeyx Sənan, İblis...

Abbas Mirzə:

—Şeyx Sənan, İblis rollarını oynarkən əks-inqilabi tapşırıqları yerinə yetirmişəm.

Müstəntiq sevincək makinadan həmin "etiraf" yazılmış vərəqi çıxarır:

—Qol çək.

İki mühafizəçi Abbas Mirzənin iki tərəfdən qolundan tutub taqətsiz aktyoru masaya yaxınlaşdırırlar. Abbas Mirzə kağıza baxmadan qol çəkir.

Yarıçılpaq Abbas Mirzə NKVD zirzəmisində yalın divar qarşısında. Atəş açılır, aktyor yıxılır.

Abbas Mirzənin sənədli kadrları və real səsi. Atəş açılır və

A.M.Şərifzadə həmin yalın divar önündə, amma indi Hamlet rolunda güllələnir. Aktyorun başqa rollarda şəkilləri yalın divar önündə canlanır və Abbas Mirzə Şeyx Sənan, Otello, Maqbet, Elxan, Ferdinand, Siyavuş, Aydın, Knyaz rollarında güllələnir.

Abbas Mirzə İblis rolunda. Divara dirənmişdir. Atəş açılır, ancaq o yıxılmır, qəhqəhə çəkərək deyir:

Dərdə bax, millətə bax, niyyətə bax!
Ölülərdən ölülər feyz alacaq!

(qəhqəhələrlə son cümləni bir neçə dəfə təkrar edir: Ölülərdən ölülər feyz alacaq).

Qum saatı yenə kəlləmayallaq olur.

Ekranda yazı:

1922

Dairəvi afişdə: Cəfər Cabbarlı. "Oqtay Eloğlu"

Teatr səhnəsi, Səhnədə Oqtay və Tamara.

Oqtay:

—O tam başqa bir sözdür. Sonra zalım, yırtıcı bir hökmdar qarşısındasınız, əllərinizi qorxulu bir həyəcan içində uzatmış, bax, belə (göstərir) deyirsiniz. Söyləyin.

Tamara:

—Onun xabarı bala yoxdur.

Oqtay:

—Yenə bala. Belə ey, belə.

Tamara:

—Nu, bala je deyirəm. Bala, bala!

Oqtay:

—"Bala" eto rebyonok, "bəla" eto nesçastye, o "belə" znaçit tak.

Tamara:

—Oqtay, mən rolumu yaxşı öyrənmişəm, ancaq bir az sözlərini deyə bilmirəm.

Səhnə kənarında Cəfər Cabbarlı. Tamaşaya ordan baxır, Əlili gəlir.

—Cəfər, Cavid əfəndi də teatra gəlib. Müşkinaz xanımla tamaşaya baxır.

Cəfər (həyəcanla):

—Nə?

Əlili:

—Get, görüş.
Cəfər:
—Yox, yox, Əlili, sən get kənardan Cavid əfəndiyə bax. Gör tamaşa necə təsir edir ona...
Səhnədə Firəngiz və Oqtay.
Firəngiz:
—Ox, bu paltar sizə nə qədər yaraşır ki, Oqtay!
Oqtay:
—Çünki mən bunları geyəndə Oqtay olmuram.
Firəngiz:
—Heç unutmuram. Bir il bundan əvvəl ilk dəfə sizi bu paltarda görmüşəm. Ox, Oqtay, sizin sevdiyiniz olub Amaliya rolunda çıxmağı nə qədər arzu edərdim. Məni də alqışlardılar, fəqət atam! Heç qardaşım da razı olmaz. Mən Amaliyanın ölümünü çox sevirəm. İnsanın günahsız olaraq öz sevgilisi tərəfindən öldürülməsi!
Oqtay:
—Mən sizə heç bir zaman belə qaranlıq taleyi arzu etməzdim.
Firəngiz:
—Sözlərini də süd kimi əzbərləmişəm. Ox, atam! Vallah, mümkün olsaydı bu saat çıxıb oynardım.
Səhnə kənarında, Cəfər:
—Əlili, Əlili, Bura gəl.
Əlili (gəlir):
—Nədi?
Cəfər:
—Cavid əfəndi necə baxır əsərə, gülür, əl çalır, darıxır?
Əlili:
—İki dəfə lap bərk əl çaldı.
Səhnədə tamaşanın finalı.
Oqtay:
—Doğrudanmı, Azərbaycan qadınlığı sənətkar bir qız yetişdirə bilmir?
—Tamara:
—Yenə əsgi mahnıları başlamışsınız. Sanki bu xalq səhnədə adam deyildir.
Oqtay:
Tamara, sən daim yersiz hiddətlənirsən. Anla ki, bir gürcü qızı Tatyananı, ya mən Onegini oynaya bilərəm, fəqət bu, rus xalqının

bütün ruhunu, bütün incəliklərini əks etdirən bir Onegin, bir Tatyana ola bilməz, daha zəif bir rus aktrisası bir Tatyananı daha az zəhmətlə daha gözəl oynaya bilər.

Tamara:

—Bu on-on beş ildə bacardıq, yaratdıq, yenə Oqtay gəldi, biz bacarmadıq. Gəlsin bir azəbaycanlı aktrisası oynasın, pojaluysta! Çox deyərsən, heç oynamaram da.

Oqtay:

—Tamara, mən sərxoş da olsam, sözlərimi anlayıram.

Tamara:

—Pojaluysta! İndi ki, belədir, mən heç oynamıram (çıxıb gedir).

Tamaşaçıların səsləri:

Xalqı oynadırsınız! Başqası oynasın. Hamısı yalandır (qatışıq səslər) məhkəməyə cəlb edilməlidir...

Oqtay:

—Səfil xalq, nə bağırırsan! Səndə sənətkar bir qadın yox, varsansa yarat, yaratmırsansa sus, uzan öl!

(Bayaqdan bəri bir iztirab içində çırpınan Firəngiz çoşqun bir hissin təsiri altında bağırır)

Firəngiz:

—Mən bu rolu oynaram! Mən bu rola hazıram. Bu saat oynaya bilərəm!

Aslan:

—Firəngiz, sən haraya gedirsən?

Firəngiz:

—Mən artıq çocuq deyiləm. Artıq öz taleyimi özüm idarə edə bilərəm. Gəldim! Artıq arxam uçurumdur, geri dönə bilmərəm, çəkilin... Bu ananın doğma yavrusu mənəm, mən oynayacağam. (Səhnədə gurultulu alqışlar tamaşa salonundakı alqışlara qarışır).

Səhnədən səslər:

—Yaşasın ilk qaranquş! Ura! Yaşasın azad Azərbaycan sənəti! Ura! Yaşasın azad Azərbaycan qızı! Ura!

Tamaşa salonunda Hüseyn Cavid və Müşkinaz xanım əl çalırlar.

Əlili (səhnə kənarında Cəfərə):

—Cəfər, Allaha and olsun, hamıdan çox Cavid əfəndi əl çalırdı.

Cəfər məmnun gülümsəyir.

Ekranda yazı:

31 dekabr 1934

Cəfər Cabbarlının şəkli qara çərçivədə. Böyük dramaturqun dəfni.

Yas məclisində iştirak edənlər arasında Hüseyn Cavid və Əhməd Cavad. Molla Quran oxuyur. Cavid, papirosu barmağı arasında, kədərli xəyala dalmışdır. Dərindən köks ötürür, tez-tez eynəyini çıxarıb göz yaşını silir.

Cavid:

—Bəli, Cavad, dramaturgiyamızın parlaq ulduzu söndü.

Cavad:

—Bir təsəllimiz Cəfərin ölməz əsərləridir.

Cavid:

—Elədir. Bədbəxt Cəfər...

Həbsxanada kamera, Cavid çarpayıda oturub. Gözləri qapalıdır. Dodaqaltı yavaşdan pıçıldayır:

—Xoşbəxt Cəfər. Vaxtında getdin bu dünyadan. Yoxsa səni də bizim günümüzə qoyacaqdılar.

Kameranın qapısı açılır. Mühafizəçi:

—Vətəndaş Cavid, Müstəntiqin yanına...

İstintaq otağı.

Müstəntiq:

—Almaniyaya hansı gizli tapşırıqla getmişdiniz? Neçənci ildə? Orda müsavatçılardan kimlərlə görüşmüsünüz?

Cavid:

—1926-cı ildə Almaniyaya gözlərimi müalicə üçün getmişdim. Berlində, Badenbadendə olmuşam. Orda müsavatçılardan heç kimlə görüşməmişəm.

—Kim göndərmişdi sizi Almaniyaya?

—Şura hökuməti.

—Konkret olaraq kim?

Cavid:

—O vaxt maarif komissarı Mustafa Quliyev.

Müstəntiq:

—Aha, Mustafa Quliyev! Sizə məlumdurmu ki, Mustafa Quliyev xalq düşməni kimi ifşa olunub və həbs edilib?

Cavid:

—O sizin öz işinizdi.

Müstəntiq:

—Deməli, alman və yapon şipyonu Mustafa Quliyevlə əlaqədə olduğunuzu inkar etmirsiniz? Xaricdə olanda sizi gizli polisə

çağırıblarmı və harada?

Cavid:

—Xaricdə olarkən heç bir gizli polis tərəfindən çağrılmamışam.

Müstəntiq:

—Sizin cavablar səmimi deyil. Biz israr edirik ki, düzgün danışasınız.

Cavid:

—Cavablarım səmimidir.

Müstəntiq:

—Türkiyədə hansı pantürkistlərlə əlaqə saxlamısınız?

Cavid:

—Türkiyədə pantürkistlərdən heç kimlə əlaqə saxlamamışam.

Müstəntiq:

—Siz nahaq yerə öz pantürkist burjua millətçi mövqeyinizi istintaqdan gizlətməyə çalışırsınız. İstintaqa düzgün ifadələr vermək niyyətiniz varmı?

Cavid:

—Mən heç vaxt pantürkist və burjua millətçisi olmamışam.

Müstəntiq qabağındakı qəzetləri göstərir:

—Bax, burda sizin yazıçı kolleqalarınız bunun tam əksini deyirlər. Əgər pantürkist və bürjua millətçisi deyilsinizsə, türk üslubunda yazdığınız əsərlərin pantürkist və millətçi məzmununu nə ilə izah edirsiniz?

Cavid:

—Əsərlərimi Türkiyədə aldığım tərbiyəmin nəticəsi hesab edirəm.

Tağıyev teatrının qabağına fayton gəlir. İki adam düşüb teatrın qapısına tərəf gedirlər. Biri axsayır, o birinin bir gözü zədəlidir.

Teatrın müdiri onları qapıda qarşılayıb hökumət lojasına ötürür.

TTopal TeymurU tamaşasından səhnə.

Teymurun sarayı.

Divanbəyi:

—Yenə üsyan! Yenə azərbaycanlılar oğlunuz Miranşaha qarşı üsyan etmişlər.

Teymur (qızğınca):

—Ah, Miranşah, Miranşah! Oranı idarə edəcək sağlam və düşüncəli bir baş lazım. Heyhat ki, Miranşah kimi şaşqınlar o düşüncədən pək uzaqdırlar.

Şair:

Azərbaycan eşsiz bir cənnət bucağı, tükənməz bir sərvət ocağıdır. Lakin əfsus, minlərcə əfsus ki, Miranşahlar oyuncağıdır.

Hökumət lojasında mənalı baxışma.

Divanbəyi:

Məncə Azərbaycan xalqı yabançılara kölgə olmaqdan pək zövq alır və xarici təsirə daha çapuq qapılırlar.

Lojadakılar məzəmmətlə başlarını bulayırlar.

Teymur:

Ah, Yıldırım, Yıldırım! Topal Teymuru saymayanlar, kəndi əllərilə kəndilərinə məzar qazmış olurlar.

Başqa səhnə. Yıldırımın sarayı.

Orxan:

—Teymur Araz çayını keçmiş, Azərbaycana daxil olmuş. Əvət şimdi Qarabağın sərin yaylalarında, otlu-çiçəkli ovalarında istirahət və şənliklə məşğuldur.

Yıldırım:

—Ah, Teymur! Teymur! Mən sənin bu dərəcədə sayğısız olduğuna inanmazdım. Sivas kimi bir qələyi yandırıb havaya savurmaq sənin həddinmi? Ərtoğrul kimi bir övladımı əlimdən almaqmı? Nə böyük cəsarət! Xayır-xayır... Bu tikanlı zərbə, bu acı təhqir əsla unudulmaz. Ah, duyğusuz cəllad! Mən üzərimə gələn qocaman Səlib ordularını qəhr etdim, Fransa və Alman cəngavərlərini püskürtdüm, Lehistan, Avstriya və İtaliya əsgərlərini bir hücumda əzdim. Hətta qorxusuz Jan kimi məşhur bir qəhrəmanı belə heçə saydım. Şimdi Teymur kimi bir sərsərimi məni qorqudacaq?

(Pəncərəyə yaxlaşır, çobanı dinlər. Həzin və yaralı bir ah çəkərək) Çal! Çal!.. Əvət bəxtiyar çoban, çal! Nə Sivas kimi şəhrin əlindən getmiş, nə də Ərtoğrul kimi oğlun...

Alqışlar altında pərdə bağlanır.

Hökumət adamları teatr müdirinin otağında. Masanın üstündə meyvələr, şirniyyat. Teatrın müdiri qədəhlərinə konyak süzür.

Gözü zədəli:

—Bu pyesə kim icazə verib?

Müdir (qorxmuş halda):

—Ruhulla Axundov yoldaş.

Axsaq:

—Bəli. (Müdirə): Sən get.

Konyak içirlər.

Səhnə aparıcısı müdirdən soruşur:

—Üçüncü zəngi çalımmı?

Müdir:

—Dayan görüm,

Hökumət qonaqları olan otağa girir. Konyak şüşəsi artıq boşalmışdır.

Müdir:

— Çox üzr istəyirəm, son pərdəni başlaya bilərikmi?

Gözü zədəli əliylə işarə verir ki, başlaya bilərsiniz. Səndələyə-səndələyə otaqdan çıxırlar.

Səhnədə döyüş epizodları.

Teymur əsgərləriylə çadırda, əsir Yıldırımı gətirirlər.

Teymur:

Əcəba, məğrur Yıldırım nə düşünüyor?

Yıldırım:

Düşünəcək bir şey yox. Əvət, sən qalibsən. Lakin bu qələbə türk əqvamının deyil. Yalnız fürsət bəkləyən qonşu hökumətləri məmnun etdi (acı bir köks keçirdikdən sonra pək mütəəssir və şiddətli). Ah, daha doğrusu, islam aləmini başsız qoydu.

Teymur (iki-üç addım axsayaraq Yıldırıma doğru yürür, məğrur və gur səslə):

Heç maraq etmə, xaqanım! Sən kor bir abdal, mən də dəli bir topal! Əgər dünyanın zərrə qədər dəyəri olsaydı, yığın-yığın insanlara, ucu-bucağı yox məmləkətlərə sənin kimi kor, mənim kimi bir topal müsəllət olmazdı.

Pərdə enir. Alqışlar. Hökumət lojasındakı iki nəfər hirslə ayağa durub çıxırlar. Biri axsaya-axsaya gedir. O biri sağlam gözüylə teatr müdirinə qəzəbli baxışlarla baxır:

—Bizi əcəb tamaşaya dəvət etmisən — deyir.

Axsaq:

—Eyb etməz, bir əncam çəkərik.

***

Yazıçılar toplantısı. Kürsüdə birinci natiq.

Birinci natiq (İblisi oynayan aktyor):

—TTopal TeymurU ideyasız bir əsərdir. Əsər boş bir təsir buraxır, boşluğu, məzmunsuzluğu, bir şeyə yaramadığı dərhal gözə çarpır.

Salondan gənc TdramaturqunU replikası:

—Adı özünə çox uyğundur, sənətcə topaldır.

Kürsüdə başqa bir natiq — saqqallı münəqqid:

—Yoldaşlar, TTopal TeymurU ədəbiyyatımızda geriyə atılmış bir addımdırU demək azdır, Hüseyn Cavidə qatı burjua şairi, dağılmaqda olan dekadent burjua türk ədəbiyyatı nümayəndəsi, mistika əlamətləri daşıyan demək kafi deyil. TTopal TeymurU kimi irticaçı, əks-inqilabçı, şovinist əsəri bu qədər yüngülcə damğalamaqla keçinmək olmaz.

Cavid salonda, birinci sırada, əsasına dayanaraq oturub, danışanları səbrlə dinləyir. O sırada Əhməd Cavadı, Abdulla Şaiqi, Seyid Hüseyni görürük.

Kürsüdə ədəbiyyatşünas (Hənəfi Zeynallı):

—Cavid bir Şeyx Sənan yazıb, bir Uçurum açıb, bir Afət doğurub, bir İblis rəqs etdirir, bir Peyğəmbər yaratmağa qeyrət edir, bəlkə də şimdi bir Çingiz, yarın bir İskəndər, ertəsi gün də bir Lenin diriltməyə can atacaqdır.

Cavidin arxasında oturan yaşlı ədib:

—Bəli, mən bilirəm ki, Cavid Lenin haqqında böyük bir əsər yazmağa başlamışdır.

Kürsüdə filosof:

—Hüseyn Cavid üçün yolunu müəyyənləşdirmək zamanı çatmış və keçmişdir, Sənət sənət üçündür şüarı şuralar İttifaqında lüğətlərdən silindiyi halda, Cavid hələ də TYerə enməm, mən səma şairiyəmU təfəkkürüylə yaşayır. Qardaş millətlərin ona bənzər şairləri çoxdan öz yollarını müəyyənləşdirmişdir, Cavid isə yenə də Tmənim tanrım gözəllikdir, sevgidirU əqidəsinə qapanıb qalıb. Sanki bugünkü həyatımızın gözəlliklərini, bu günün əməkçi insanlarını, pambıqçılarını, neftçilərini görmür, Cavidin əsərlərində bir dəfə də olsun traktor sözünə rast gəlməzsiniz.

Natiq sözlərinə davam edir, lakin artıq biz onu eşitmirik. Kamera Cavidin sifətini yaxınlaşdırır və o dövrün gümrah entuziast marşlarının sədaları altında biz sənədli kinokadrları görürük. Nümayişə çıxan, üzlərində TfərəhU ifadəsi olan insanları, tarlalarda ThəvəsləU çalışan qadınları, fabrikdə mexaniki robotlar kimi eyni idman hərəkətləri edən işçiləri və s.

Yenidən yazıçılar iclasına qayıdırıq və kürsüdə gənc yazıçını görürük. Gənc yazıçı:

—Yoldaşlar, mən bilirəm ki, Cavid artıq səhvlərini dərk etmiş və bugünkü həyatdan, bügünkü qəhrəmanları əks etdirən yeni əsərlər verəcəyini vəd etmişdir. Şura Yazıçılar İttifaqı TOktyabrın 20 illiyiU adlı zərbəçi briqada təşkil etmişdir: Çəmənzəminli, Cavid, Süleyman Rüstəm, Seyid Hüseyn yoldaşlar 20 il içərisində neft, pambıq, mədəni inqilaba aid əsərlər yazacaqlar, Cavid (yanında oturan Abdulla Şaiqə, pıçıltıyla):

—O vaxta qədər ömrümüzü çürütməsələr...

Gənc yazıçı:

—Fəqət bu azdır. Biz Cavidə Tsəndən yetər, bizə azdırU deməliyik. "Səndən azdır, bizə kafi deyildir, ona görə də bizim istədiyimiz qədər verməlisən" deyirik. Buna çatmaq üçün Cavid bir qədər də Marksın, Engelsin, Leninin şah əsərlərini oxumalı və həyata açıq gözlə baxmalıdır.

Kürsüdə eynəkli natiq:

—Yoldaşlar, mən başa düşmürəm. Burda az qala Cavidi sosializm ölkəsinin şairi adlandırmaq kimi boş və mənasız çıxışlar edirlər. Çobanzadəyə görə, Hüseyn Cavid Azərbaycan temalarında yazmadığı üçün burjua yazıçısı imiş... Hüseyn Cavid həqiqətən kiçik burjua yazıçısıdır, Çobanzadə isə həqiqətən liberal bir münəqqiddir ki, özünə haqq-hesab vermədən sağa və sola yapışdırmakdadır. Əcəba, Cavid Azərbaycan həyatından yazsaydı, o kiçik burjua şairi olmaqdan xilas olurdumu? Bizcə bu cür düşünmək heç də doğru sayılmaz. Cavid haradan mövzu alırsa-alsın, o, şərt deyil, Əsas məsələ movzunun təhlili, qayənin sinfi mahiyyətindədir. Cavidin burjua ruhu və məfkurəsindədir. Deyirlər ki, Cavid guya TKnyazU əsəri yazmaqla inqilabı mövzuata yaxınlaşır, deyirlər ki, Cavid, nəhayət, bizim inqilab qatarımıza oturdu, amma nədənsə Hüseyn Cavid qatarımıza minməkçün qonşu, qardaş Gürcüstanı seçmişdir. Cavid dəli knyazdan dəli xanlara keçməlidir.

Salondan replika:

— "Knyaz" tamamilə xalturadır və arxivə atılmalıdır.

Başqa replika:

— Bəs necə olub ki, bu xaltura səhnəmizə yol tapıb? Qoy teatrın müdiri cavab versin.

Teatrın müdiri (o, əvvəlki epizoddan bizə tanışdır) qorxa-qorxa kürsüyə qalxır, dili dolaşa-dolaşa danışmağa başlayır:

—Qlavlitin müdiri Dondarov yoldaşın göstərişiylə "Knyaz"

tamaşası qəti surətdə qadağan edilmişdir. Biz artıq onu səhnədən atmışıq.

Yerdən replika:

—Bəs başqa əsərləri?

Əhməd Cavad (Cavidə, pıçıltıyla):

—İştah diş altındadır.

Gənc TdramaturqU:

—Söz istəyirəm — deyə kürsüyə doğru gedir və danışmağa başlayır:

—Mən bir gənc bolşevik kimi Cavid yoldaşın kobud siyasi səhvlərini bu gün deyil də, çoxdan ifşa edirəm. Böyük sənətkar dediyiniz bu adamın hər yeni əsəri əvvəlkindən də zəifdir. Mən vaxtilə yazmışdım ki, TŞeyx SənanU gözəl şerlə yazılmışdırsa da, məzmunca çox zəifdir. Pyesdəki tiplər olduqca solğundur. Pyes bütünlükdə genişləndirilmiş, bəzən tamamlanmamış süjet protokolu kimidir. Cavid bu tənqidimdən nəticə çıxardımı? Xayır, əsla... Əksinə, yeni-yeni əsərlər yazmaqla mənim kimi gənc bolşevik istedadların yolunu teatra bağladı. Gərəksə "İblis"i, gərəksə "Afət"i və yaxud "Uçurum"u, "Şeyda"sı zəif və səhnə üçün natamam əsərlərdir. Bu əsərlər "Şeyx Sənan"dan da zəifdirlər. Məsələn, "İblis"də İblis nədənsə ikinci pərdədə xidmətçi ərəb qiyafəsində, yaxud üçüncü pərdədə abid sifətində səhnəyə çıxır. Mən bunu başa düşmürəm.

Cavid:

—Mən onu baş üçün yazmışam, boş üçün yox.

Hay-küy qopur.

Sədrlik edən:

—Sakit, sakit, yoldaşlar. Hörmətli Cavid əfəndi, biz hamımız sizə böyük bir sənətkar kimi hörmət bəsləyirik. Mən şəxsən sizin romantikanızı çox sevirəm. Ancaq olmazmı bir az sadə yazasınız, hamı başa düşsün.

Cavid:

—"Yarəb, bəlayi eşq ilə qıl aşina məni". Necə yazaydı Füzüli, "Yoldaş, bəlayi eşq ilə qıl aşina məni?" (gülüş) Siz sadə yazın, mənim öz yolum, əz ədəbi təhsil və tərbiyəm var.

Sədrlik edən:

—Hər halda, biz həmişə sizi öz sıralarımızda görmək istəyirik və sizdən bugünkü gözəl həyatımızı, sovet adamının müsbət obrazını

tərənnüm edən əsərlər gözləyirik.

Cavid mənzilində, iş otağında, yazı masasının arxasında. Yazdığı pyesin adını (latın əlifbasıyla) oxuya bilirik: İBLİSİN İNTİQAMI

Cavid gah yazır, gah kağızdan ayrılıb xəyala dalır, gah durub var-gəl edir, papiros çəkir. Ekranda yazılmaqda olan TİblisinintiqamıU pyesinin bəzi fraqmentləri canlanır.

İblis:

—Kimdir bu gələn?

Birinci şeytan:

—Uzaq Şərqə, Yaponiyaya vardım, imperatorlar və generallar mühitində dolaşdım, bütün gözlərə və beyinlərə kin və intiqam alovları saçdım. Hamısı paylaşmaqda, ov bölüşməkdə şərikdirlər.

İkinci şeytan:

—Mən faşizm beşiyinə vardım, Roma generallarına qoşuldum, pərəstişkarımız Mussolini ilə görüşdüm, müqəddəs Papa ilə kral beynində yuva yapdım, bir kibritlə bütün başları alovlandırdım.

Üçüncü şeytan:

—İspaniya getdikcə qarışır. Ölkə və xalq ikiyə bölünmüş. Bir yanda cümhuriyyətçilər və inqilabçılar, bir yanda faşizm generalları ilə qiyamçılar. General Franko mənim göstərişlərimə tabedir.

Dördüncü şeytan:

—Mən Hitler Almaniyasını dolaşdım, özümüzə bir çox məsləkdaş qazandırdım. Ordakı əməkçilərdən başqa hər kəs qan-qan deyən qızmış canavar kimi dünyaya meydan oxuyurlar. Biz faşistlərə yardım etməsək, yanğın tez sönəcək.

İblis:

—Bu işlərdə cənab Trotski məndən daha mahirdir. Əməkçilər və işçilər arasında olmasa da, kapitalistlər və imperialistlər yanında az-çox nüfuzu var.

Cavid yazısından ayrılır, istehzayla gülümsəyir, başını bulayır və papiros yandırır. Bir qədər var-gəl edəndən sonra, dərin bir ah çəkərək yazısına davam edir. Ekranda TİblisinintiqamıUndan xəyali səhnələr canlanır.

Sovet nümayəndəsi (O dövrün xarakter sovet geyimində):

—Bizə aydındır ki, yer üzündə sülh istəyənlər müharibə tərəfdarlarından qüvvətlidir. Çünki onların arxasında hərbə qarşı kin və nifrət bəsləyən xalqlar durmuşdur. Bir çoxları təhlükəsizlikdən bəhs etdikləri halda, gecə-gündüz silahlanırlar. Dünyanın hər

bucağına ədavət toxumu səpməkdən utanmırlar. Biz buna baxmayaraq daha sarsılmaz bir qüvvətlə çalışmalıyıq. Bütün ölkələrə, bütün insanlara qurtuluş yolları göstərməliyik. O yol da ancaq siniflərin, dünya əməkçilərinin birləşməsilə olur. Hər ölkənin əzənləri və əzilənləri var. Bizim intiqam tək-tək insanların deyil, milyonların intiqamıdır. Faşizm generalları yeni bir yanğın, yeni bir müharibə hazırlarsa, əmək qəhrəmanlarımız bu həyasızlığa qarşı tamaşaçı qalmayacaq. Həm də döyüş səhnəsi inqilab yurdunda deyil, faşizm ölkələrində olacaqdır. Sülh düşmənlərinin bulanıq, qanlı dalğaları bizim hüdudun polad divarlarına çarpılıb qırılacaq, azğın orduları da er-gec sərab olmuş ümidlər kibi sarsılıb məhv olacaqdır! Yaşasın həqiqi sülh və əmək birliyi!

Cavid yazısından ayrılır, bir müddət fikirli-fikirli durur, sonra yazdıqlarının üstündən qələm çəkir və vərəqləri bir qırağa atır.

Çayından bir qurtum içir, masanın siyirtməsindən bir xeyli ağ kağız çıxarır və birinci səhifədə iri hərflərlə yazır: SƏYAVUŞ

Çərçivədə yazı:

İRAN XƏYANƏT VƏ HİYLƏ OCAĞI
TURAN İFTİRA VƏ DƏHŞƏT QUCAĞI
ÇİNƏ GETSƏM, ONLAR DAHA AMANSIZ
SARAY BÖCƏKLƏRİ YAŞARMI QANSIZ?
"SƏYAVUŞ"

"Səyavuş" tamaşasından səhnələr

Südabə:

—Səyavuş! Səyavuş! Küskünəm sana.

Səyavuş:

—Kəyan şahı nerdə? Sözüm var ona.

Südabə:

—Nə söz?

Səyavuş:

—Hərbə aid...

Sudabə:

—Şaşırdınmı sən?

Neçin qavğa sözü düşməz dilindən?
Cəlladmısan, səndə könül yoxmudur?

Səyavuş:

—Məndəmi?

Südabə:
—Öylə ya...
Səyavuş:
—Neçin?
Südabə (əli köksündə):
—Aman, dur!
Səbr edəməm qavğa sözü gəlincə
Səyavuş:
—Uca ruhlu ana, qəlbin nə incə...
Südabə:
—Bir yaşdayız, insaf edib baxsana,
Ana deyil, yalnız vurğunam sana (birdən-birə sarılır).
Səyavuş (şaşqın halda geri çəkilir):
Sən xəstəsən...
Südabə:
—Söylə, təbibim hanı?
Səyavuş:
—Səndə vardır azğın bir ərəb qanı.
Ehtiras alovu yaxmasın səni.
Südabə:
—Söndür o atəşi, sevindir məni!
Yoxsa o atəşdə kəndin yanarsın,
Məhv olurkən bu xoş günü anarsın.
Səyavuş:
—Ölümdən qorxmuyor Keykavus oğlu,
Xəyanət ləkəsi daha qorxulu!..
Sudabə (diz çökərək):
Bir busə ver bana
Səyavuş (qolundan tutub qaldırır):
Yetər bu zillət!
Südabə:
Sənin, həp varlığım sənin...
Səyavuş:
Rəzalət!
Südabə:
Gözəlliyə qarşı kordur gözlərin
Baq, eyi baq (sinəsini açar)
Səyavuş:

Əvət, gözəl hər yerin,
Lakin əfsus, mənim gözümdə çirkin!
Südabə:
Təhqir etsən belə buraxmam səni (sarılır).
Səyavuş (itələyər):
Çəkil, ehtirasın qara yelkəni!
Sən nəsin? Bir heç, bir şərəf xırsızı,
Vəhşi Suriyanın uğursuz qızı!
Südabə (incə ipək köynəyini yırtıb paralar, köksü tamamilə dışarı çıxar):
—Gözəlliyə qarşı kordur gözlərin (çılğınca bir ahəng ilə bağırır)
Sən xainsən, əvət, duyğusuz xain!
Yetişin, məni məhv etdi uğursuz xain.
Keykavus (səsə çıxar):
—Kimdir xain?
Südabə:
Oğlun!
Keykavus:
—Nə kirli təhqir!
Südabə:
TBabam nerdə?U — deyə gəlib söz atdı
Bana xəyanət əlini uzatdı,
Baq, iştə köynəyim!
Keykavus:
Əvət, bəllidir.
Südabə:
—Bu çirkin ləkədən xilas et bəni.
(hönkürtü ilə ağlayaraq pərdə arxasına keçər)

***

Yazıçılar toplantısı.
Kürsüdə natiq (İblis rolunu oynayan aktyor):
— İstanbulda nəşr olunun müsavat jurnalında Əhməd Cavadın şerlərinin çap olunması təbii haldır, Axı əski müsavatçı Əhməd Cavad hələ də tərk-silah olmayıb, Belə müsavat jurnalında yalnız onların məfkurə və məsləkinə uyğun olan TəsərlərU dərc oluna bilər. Əhməd Cavad həmişə müsavata xidmət etmişdir, indi də edir.
Gənc TdramaturqU:
—Mən bir gənc bolşevik kimi deməliyəm ki, biz Cavadı yaxşı

tanıyırıq. Biz hələ onun əsərlərini xalqımız qarşısında lazımı qədər ifşa etməmişik. 25-ci ildən bu adam ilə mübarizə edirik. Mən bir gənc bolşevik kimi...

Salondan yaşlı ədiblərdən biri:

—Gədə, bəyəm biz menşevik-zadıq? (gülüşmə)

Gənc TdramaturqU nitqini davam edir:

—TGöy-gölU hadisəsini də unutmamışıq, Əsən yellərlə Türkiyəyə salam göndərən Cavad indi İstanbulda çıxan müsavat jurnalından salamına cavab almışdır. İndi buyur, cənab Cavad, əməkçi xalqa cavab ver.

Əhməd Cavad (kürsüdən):

—TGöy-gölU şeri öz-özlüyündə lirik bir parça olduğundan, ümumiyyətlə, lirizmə məxsus bir səciyyə etibariylə ona müxtəlif mənalar verilə bilər. Lakin nə TGöy-gölUdə, nə də mətbuatda çıxan başqa yazılarımda, bilxassə 1924-cü ildən sonra, heç bir siyasi məqsəd tutduğum yox. Şerimin Türkiyəyə necə gedib çıxmasından da xəbərim yoxdur. Şerlərimdəki hüzn və üzüntü yalnız şəxsidir. Mən indi əsasən xırda şerlərdən böyük əsərlərə keçməyə qədəm qoymuşam. Ümidvaram özümü doğrulda bilsəm, ikinci TMoskvaU əsəri üzərində çalışacam. Mənim niyyətim belədir ki, Oktyabr inqilabının XX illiyinə kimi onu verim. Ona görə də bir çox yoldaşlar mənim haqqımda düzgün danışmırlar.

Eynəkli natiq:

—Xeyir, tamamilə düz danışırlar. Azərbaycan Proletar və Şura yazıçıları arasında sinfi düşmənçilik, xırda burjua təmayülləri və Əhməd Cavadların təsiri altına düşənlər ilə amansız mübarizə aparılmalıdır. Müşfiq də Türkiyə xırda burjua şairlərinin və Cavadla Cavidin təsirindən qurtarmayır... Əcəba, Cavadın şagirdi olan Müşfiq bunu etiraf edirmi? Müşfiq bizim ədəbiyyatımızda və şerimizdə ən inkişaf etmiş gənclərdən idi. Cavad Müşfiqin bu nüfuzundan istifadə edərək, eyni zamanda, öz əks-inqilabçı fikirlərini açıqdan-açığa buluna bilmədiyinə görə, Müşfiqin vasitəsilə, onun dilavər şerləri vasitəsilə yayırdı.

Müşfiq (salondan):

—Bu mənim adıma böhtandır.

Gənc TdramaturqU elə yerindəcə salondan şer oxuyur:

Bicliyi oldu əyan cümləyə Əhməd Cavadın
Yeridir sürgünə, ya salalar türməyə Əhməd Cavadı!

Yerdən replika:

—Cavid də ətrafında əksinqilabçı ruhlu gənc şairləri toplayır, onları müsavat ruhunda yetişdirir.

İclasın sədri:

—Yox, Hüseyn Cavid Əhməd Cavad deyildir. O, burjua məktəbini keçmiş böyük yazıçıdır, özünü yenidən qurması nə qədər çətin olsa da, hər halda müşahidə olunur. Onun TÖmər XəyyamU əsəri müsabiqədə mükafat almışdır. Bu, Cavid üçün müəyyən dərəcədə yenidən qurulmadır. Cavad mart hadisəsini, müsavat bayrağını mədh edir, Cavid isə öz-özlüyündə müsavatçı deyil. Biləks, müsavatçılar öz ağalıqları zamanı onu təqib edirdilər. O tapşırıqla yazmıram deyə müsavat hökumətinin himnini yaratmaqdan imtina etmişdir.

Səhnədə sədrin yanında oturan kitelli məsul partiya işçisi sədrin sözünü kəsərək:

—Bir dəqiqə, bir dəqiqə, dayanın. Əcəba, siz Hüseyn Cavidi inqilab epoxasının sənətkarımı hesab edirsiniz? Daha doğrusu, Cavidi bir sənətkar olaraq, zəmanəmizin irəlidə gedən, proqressiv, inqilaba yardım edə bilən sənətkarımı sayırsınız? Bu suala aydın və qəti cavab verin.

Sədr:

—Yox, yox... Cavid, əlbəttə, inqilab epoxasının şairi deyildir... Özü dərk etmədən müsavatçılara xidmət edir.

Məsul işçi:

—Bu başqa məsələ. Hər şeyi öz adıyla demək lazımdır. Biz Cavidlə komissarlıqda da söhbət etmişik. Niyə traktordan yazmırsan deyəndə, divardakı mənzərəni göstərib, bəs siz niyə bura traktor şəkli asmırsınız? — dedi. Cavid hələ də bu fikirdə israr edir ki, "ədəbiyyat başqa, siyasət və təbliğat başqadır". Biz bu fikirdə olanlarla amansız mübarizə aparacayıq.

Gurultulu alqışlar. O cümlədən sədr də bərkdən əl çalır.

Cavidin mənzili (Bakıda indi muzey olan mənzil).

Cavid, Cavad və Müşfiq.

Cavid:

—Bir də görürsən bir Triniçi durar, möizə başlar: Cavid kiçik burjua şairi kimi, Cavid xırda burjua ədibi kimi... Yəni mən baqqalların şairiyəm? Heç olmasa iri burjua şairi deyəydi (gülüşürlər). Bu həriflərin özlərinə bələd olsan görəcəksən ki, əlifi

beydən seçə bilməzlər, iki nəcib heyvanın yemini bölüşdürə bilməzlər.

Müşfiq:

—Cavid əfəndi, niyə təəccüblənirsiniz? Özünüz yazmamısınız ki, “ancaq vicdansızları bəslər dünya”?

Cavid:

—Hə... Yadımdan çıxıb, hansı əsərimdəndir bu?

Müşfiq:

—“Ana” pyesindən.

Cavad (Müşfiqə):

—Başqa gözəl sözü də var: Böyüklər kiçikləri böyük görmək istər, kiçiklər isə böyükləri kiçiltməklə təsəlli bulur.

Müşkinaz xanım çay gətirir.

Cavid:

—Vaxtsız qonaq kisəsindən yeyər, halbuki, siz qonaq deyilsiniz. Yaxşı, Müşkinaz, indi bunları nəyə qonaq edək?

Müşfiq:

—Şerə, Cavid əfəndi, şerə qonaq eləsəniz çox məmnun qalarıq, gözəl şerə həsrətik...

Cavid:

—Nə oxuyum axı sizə ki, xırda burjua ruhu olmasın?

Cavad:

—“Azər”dən.

Cavid kağızlarını vərəqləyib “Azər”dən oxumağa başlayır:

Bən yetişdim atəşlə su
Öpüşdüyü bir ölkədən,
İzliyorkən sevgi yolu
Acı duydum hər kölgədən
Bir yoqsulum, hər diləyim
Diz çökdürür zənginləri,
Bir arifim bilmədiyim
Aşar durur ənginləri
Bir aşiqim, feyz alırlar
Bəndən irfan çobanları,
Bir çobanım, qaval çalar,
İnlətirim vucdanları

Cavid kağızları bir qırağa qoyur.

Müşfiq əzbərdən “Azər”dən oxumağa başlayır:

Üsyan! Keçmişlərə, keçmişdəki adətlərə üsyan!
Hər yüzdə təhəkküm izi vardı
Üsyan!
Məbədlərə, qalpaqlara, çarşaflara üsyan!
Şaşqınlığa yoq zərrəcə imkan
Hər fəlsəfə, qanun dəyişirkən
Bir nöqtədə dursan da düşünsən
Məqbər yapacaqlar kəmiyindən
Üsyan!
Həp əsgi hürufata da üsyan!
Üsyan!
Həp köhnə xurufata da üsyan!

Cavid (təəccüblə):

—Sən bunu hardan bilirsən? "Azər" ki hələ çap olunmayıb?

Müşfiq:

—Yadınızda deyil, keçən ay Rəsulla sizə gəlmişdik, bu parçanı oxudunuz, yadımda qaldı.

Cavad:

—Müşfiqin yaddaşına söz ola bilməz. Yazıçılar İttifaqının üzvlərinin hamısı bir yerdə Müşfiq qədər şer əzbər bilmir.

Müşfiq (oxumağa davam edir):

Lazımsa cəhalətlə güləşmək
Bir çarə var:ancaq yeniləşmək
Onlardakı hümmət və mətanət
Qırbaclayacaq Şərqi nəhayət
Onlardakı qüdrət və məharət
Er-gec verəcək xalqa səadət
Onlar güləcək, yüksələcəklər
Həp yüksələcək, həp güləcəklər
Onlar güləcək, güldürəcəklər
Bizdən daha xoş gün görəcəklər

Cavad (dərindən köksünü ötürərək təkrar edir):

—Bizdən daha xoş gün görəcəklər. İnşallah.

Cavid:

—Öz şerlərindən oxu. Son şerlərindən.

Müşfiq (kədərli):

—Son şerlərim bir az bədbindir, Cavid əfəndi, qorxuram, sizi də

qəmləndirəm.

Cavid:

—Eyb etməz, Bizim elə bütün ömrümüz qəm-qüssə içində keçmədimi? Oxu.

Müşfiq şeri oxuduğu zaman mənzilin qapısı döyülür, on iki-on üç yaşlı Turan, əlində məktəb çantası dəhlizə girir. Ondan bir neçə yaş böyük Ərtoğrul əlini ağzına qoyaraq otağa işarə edir və hər ikisi ordan eşidilən şeri dinləməyə başlayırlar. Müşfiq şer oxuyur:

Ah, mən gündən-günə bu gözəlləşən
İşıqlı dünyadan necə əl çəkim?
Bu yerlə çarpışan, göylə əlləşən
Dostdan, aşinadan necə əl çəkim?

Həyat dedikləri bu keşməkeşdən,
Qəlbimdə, qanımda yanan atəşdən,
Gecədən, gündüzdən, aydan, günəşdən,
Bu əngin fəzadan necə əl çəkim?

Xəzan acısına edib təhəmmül ,
Gülün kölgəsində ötəndə bülbül,
— Həyat, həyat! — deyə çırpınır könül,
Könüldən, sevdadan necə əl çəkim?

Son misraları oxuyarkən Müşfiqin səsi titrəyir, böyük həyəcan içində şeri bitirir.

Cavad:

—Möhkəm ol, Müşfiq — deyir — Taleyimizə nə yazılıbsa, onu kişi kimi qarşılamalıyıq.

Cavid:

—Cavad, axı Müşfiqin vur-tut iyirmi səkkiz yaşı var,

Cavad durub otaqda gəzişərkən qapı ardında duran Ərtoğrulu görür:

—Ərtoğrul, sən niyə burda durmusan?

—Şeri dinləyirdim.

Cavid:

—İçəri niyə gəlmədin, oğlum?

—Mane olmaq istəmədim.

Cavad:

—Yoxsa sən də şair olmaq istəyirsən?

Müşfiq:

—Yazıq deyil? Bizim zamanada şair olmaq başını bəlaya soxmaqdır.

Cavid:

—Ərtoğrul bəstəkar olmaq istəyir. Musiqiyə çox həvəsi var. Düzdür, arabir şəkil də çəkir, amma daha çox musiqiyə meyllidir. Yaxşı, Cavad, hamımız şer oxuduq, növbə sənindir. Təzə şerlərindən oxu.

Cavad:

—Vallah, adamda şer yazmağa həvəs qoyublar ki. İndi ki deyirsiz, təzə yox, köhnə şerlərimdən birini oxuyum. Bu şeri burda da oxumasam, harda oxuyacam?

Bən hər yılda bir mayısa
Pək çox ümidlər bağlaram
Hər gələcək mayıs üçün
Neysan ağlar, bən ağlaram.

Sənsiz bir gül, ya bir şeir
Nerdən bəni məmnun edir?
Sorsa bir kəs dərdin nədir?
Soran ağlar, bən ağlaram.

Boş çıxarsa bunca əmək,
Babalarca bu nə demək?
Qədərmidir, yoxsa fələk?
Duyan ağlar, bən ağlaram.

Qapı döyülür. Otaqdakılar bir qədər həyəcanlanırlar. Cavid:

—Bu kim ola?

Turan qapını açır. Üzeyir bəy, Müslüm Maqomayev və Pənah Qasımov daxil olurlar.

Görüşürlər, Cavid:

—Xoş gəlmisiz Üzeyir bəy, Müslüm bəy, (Pənaha) sən də xoş gəlmisən, qonşu.

Pənah Qasımov:

—Bilmirəm, bu nə işdir, Cavid əfəndi? (Üzeyiri və Müslümü göstərir) Bacanaqlarım, guya ki, bizə qonaq gəliblər, amma elə gələn

kimi, keçək bir Cavid əfəndiyə baş çəkək deyirlər.

Cavad:

—Eşitməmisiniz, yeddi bacanaq yol gedirlər, deyirlər bir nəfər olsaydı, söhbət edərdik (gülüşürlər).

Pənah:

—Yox, biz o bacanaqlardan deyilik, çox mehribanıq.

Üzeyir:

—O qədər mehribanıq ki, mən dynyaya gələn il, gələn ay, gələn gün Müslüm də dünyaya gəldi.

Müslüm:

—Mən Qori seminariyasına getdim, sən də getdin.

Üzeyir:

—Mən opera yazdım, sən də yazdın, Hənəfi Terequlovun bacısını aldım, sən də o biri bacısını aldın.

Muslüm:

—Bəs onu niyə demirsən ki, TKoroğluU operasını mən yazmaq istəyirdim, sən yazdın (gülüşürlər).

Üzeyir:

—İndi də Cavid əfəndidən xahiş etmək istəyirdim ki, mənimçün libretto yazsın, məlum oldu ki, Müslüm də eyni xahişi edəcək.

Müslüm:

—Mən hələ neçə il bundan qabaq Cavid əfəndiyə demişdim ki, TİblisU operası yazmaq istəyirəm.

Üzeyir:

—Mən isə hələ 1912-ci ildə Tiflisdə Cavid əfəndidən xahiş etmişdim ki, mənimçün TŞeyx SənanU librettosu yazsın. Yadınızdadırmı, Cavid əfəndi?

Cavid:

—Yadımdadır.

Üzeyir:

—Onda gərək mənə verdiyiniz cavab da yadınızda olmuş ola.

Cavid:

—Nə demişdim ki...

Üzeyir:

—Sizə Şeyx Sənanın librettosunu vermək istədim, özüm yazmışdım. Dediniz , hələ oxuya bilmərəm, çünki mən də bu mövzuda pyes yazıram, sonra təsir altına düşərəm.

Cavid (gülür):

—Hə, hə, yadıma düşdü.

Üzeyir:

—İndi necə? Pyes yazmısınız, mənimçün bu mövzuda libretto da yaza bilərsiz.

Cavid:

—Sağlıq olsun.

Müslüm:

—Ancaq TİblisU librettosundan sonra.

Üzeyir:

—Mən razı, Özü də bilirəm ki, Müslüm artıq "İblis" üzərində əməlli-başlı işləyir, bir neçə parça hazırdır. Bəlkə çalasan?

Cavad:

—Lap yerinə düşər. Musiqi gözəl sənətdir, heç kəs deyə bilmir ki, bu musiqi xırda burjua müsiqisidir ya iri burjua (gülüşürlər).

Müslüm piano arxasına keçib "İblis" operasıyçün yazdığı parçanı çalır.

Opera teatrının qabağında qalabalıq, Afiş:

Üzeyir Hacıbəyov, "Koroğlu".

Bülbülün ifasında Koroğlunun ariyası (kino lenti var).

Alqışlar.

Səhnə arxasında Cavid və Müşkinaz xanım Üzeyir bəyi təbrik edirlər. Müslüm də burdadır. Cavid:

—Üzeyir bəy, sizi təbrik edirəm, bu gün böyük bayramdır. Coşğunluğu, bədii yenilikləri, parlaq xalq musiqisi ilə "Koroğlu" opera aləmində son dərəcə yüksək yer tutacaqdır.

Üzeyir:

—Çox sağ olun, Cavid əfəndi. İndi növbədə Şeyx Sənandır.

Müslüm:

—Cavid əfəndi, "İblis" yaddan çıxmasın, Sözümüz sözdür ha...

Cavid:

—Mən sözümdən qaçan adam deyiləm. Amma indi mən də bir Koroğlu üzərində işləyirəm. Kinofabrikanın sifarişiylə ssenari yazıram. Sağlıq olsun, onu bitirim...

Cavidin mənzili. Cavid paltoda mənzilə daxil olur. Əlində kiçik bir qutu var. Qutunu təbəssümlə Müşkinaz xanıma uzadır.

Müşkinaz:

—Bu nədir?

—Aç bax.

Müşkinaz qutunu açır, sırğaları görür.

—Ay Allah, bu hardandı?

Cavid:

—Dükandan. Bu sırğalardan xoşun gəlmirdi? Əhd eləmişdim ki, sənə alacam.

—Çox sağ ol, Amma o qədər xərcimiz var ki... Buna hardan pul tapdın?

—Tapdım da... (Paltosunu çıxarıb asır) Kinofabrika mənimlə müqavilə bağladı. "Koroğlu" ssenarisi üçün. Bü gün behini verdilər, gedib bu sırğaları aldım ki, sonra satarlar. Bir tax görüm.

Müşkinaz sırğaları taxır, Cavid məmnunluqla ona baxır.

Müşkinaz:

—Yaraşır?

—Yaraşır da sözdür? Əla...

Mir Cəfər Bağırovun iş kabineti. Daxili işlər komissarı onun qarşısında durub, əlində qoyluq var. Komissar:

—Fərəczadə yapon casusu olduğunu boynuna aldı.

Bağırov başını qaldırıb komissara baxır:

—Yapon casusu?

—Bəli, yoldaş Bağırov, keçən il nümayəndə heyətinin tərkibində Yaponiyaya getmişdi, orda yapon kəşfiyyatı onu verbovat eləyib, bir torba zəhər gətirib Xəzər dənizinə tökməliymiş.

Bağırov eynəyinin altından diqqətlə komissarı süzür:

—Deyən sənin başın xarab olub? Bundan ağıllı bir şey fikirləşə bilməmisiz?

—Özü etiraf etdi, yoldaş Bağırov, hər şeyi boynuna aldı,bütün ifadələrinə qol da çəkib.

—Əlbəttə, çəkəcək də... Sonra!

—Dünən İnturistdə neftçilər nahar edirmiş. Sizin sağlığınıza dost deyiləndə injiner Səfərov içməyib.

—O xalq düşməni Teymur Hüseynovun bacısı oğlu?

—Bəli.

—Yaxşı daha hansı məsələn var?

Komissar:

—Həbs olunacaq yazıçıların siyahısı.

Qovluğu Bağırovun qarşısına qoyub açır.

Bağırov (oxuyr):

—Əhməd Cavad...

Komissar:

—Əsgi musavatçı, millətçi, pantürkist, "Göy-göl" şeri...

Bağırov (onun sözünü kəsərək):

—Bilirəm, bilirəm... Mikayıl Müşfiq... O ki lap uşaqdır.

Komissar:

—Əhməd Cavadın güclü təsiri altındadır. Gözdən pərdə asmaq üçün Stalin yoldaş haqqında poema yazıb, amma əslində o Cavaddan da betər millətçi, türkçüdür... Gənclərə də pis, zərərli təsir edir. Çox populyardır, bu isə onu daha da təhlükəli edir, çox beyinləri zəhərləyə bilər.

Bağırov:

—Mənə siyasi savad dərsi demə.

Komissar:

—Üzr istəyirəm, yoldaş Bağırov, mən demək istəyirdim ki...

Bağırov kəskin şəkildə onun sözünü kəsir:

—Nə demək istədiyin məni maraqlandırmır (qarşısındakı vərəqə baxır) Hüseyn Cavid... Daha kim qaldı?

Komissar:

—Yoldaş Bağırov, moskvalı yoldaşlar bizi günahlandırır ki, yazıçılar arasında xalq düşmələrini ifşa etməkdə ləng tərpənirik.

Bağırov:

—Cavidin neçə yaşı var?

—Əlli beş.

Bağırov:

—Əlli beş — deyə təkrar edir, yerindən durub otaqda var-gəl etməyə başlayır. Komissar farağat dayanıb.

Bir qıraqda qoyulmuş radio cihazdan bayaqdan bəri yavaşcadan musiqi sədaları eşidilirdi. Birdən yeni bir musiqi parçası-muğam Bağırovun diqqətini çəkir, yanaşıb radionun səsini artırır. Xanəndə muğam üstündə qəzəl oxuyur. Bağırov bir müddət qulaq asandan sonra komissardan soruşur:

—Heç bilirsən bu kimin sözləridir?

—Xeyir, yoldaş Bağırov.

—Cavid haqqında sənəd gətirmisən, qol çəkim, elə bu vaxt radiodan onun sözlərini oxuyurlar.

Komissar cəld dəftərini çıxardır, divardakı saata baxıb nə isə qeyd edə-edə:

—Çox üzr istəyirəm, yoldaş Bağırov, teatrlara tapşırıq vermişik,

bütün əsərlərini səhnədən götürüblər, bu gün kinofabrikaya da tapşırıldı ki, Cavidlə müqaviləni ləğv etsinlər, amma radioya tapşırmağı unutmuşuq. Bu mənim günahımdı, bağışlayın. Oxuyan kimdir?

—Bunun sənə dəxli yoxdur.

Bağırov bir müddət fikirli-fikirli musiqini dinləyir, xəyalında filmimizdə əvvəldə gördüyümüz səhnə — "Şeyx Sənan" tamaşasından səhnə canlanır. Mir Cəfər özü də lojada oturub alqışlayanlara qoşulur.

Xəyali səhnədən real kabinetə qayıdırıq. Musiqi hələ davam edir. Bağırov eynəklərini çıxarb silir, sonra kəskin hərəkətlə radionu söndürür, masasının arxasına keçir, qovluqdakı siyahıya qol çəkir və qovluğu komissara verir

Komissar:

—Təşəkkür edirəm,yoldaş Bağırov. Gedə bilərəm?

—Get. Komissar qapıya tərəf gedərkən Bağırov: — Cavidə heç bir zor tətbiq edilməsin — deyir.

Komissar başıyla təsdiq edir və qapını açır. Bağırov:

—Dayan, Ailəsinə də toxunmayın.

TKoroğluUnun premyerası olan Opera teatrında indi iclas gedir. Mir Cəfər Bağırov danışır (Həm M.C.Bağırovun kino-kadrlarından və səsindən istifadə etməli, həm də aşağıdakı çıxışı onun rolunu ifa edəcək aktyorun vasitəsilə çatdırmalı):

—Xalq düşmənlərinin, yapon-alman trotskiçi ziyanxorların və casusların kökünü kəsməli! (Alqışlar). Bizim qazandıqlarımıza, doğma partiyamıza, sevimli və əziz Stalinimizə əl qaldırmaq istəyən hər bir kəsi amansızcasına məhv edərik (alqışlar). Uzun illər boyu çoxlu mədəni təşkişlatlarda qəddar xalq düşmənləri işləmişlər. Bir baxın Yazıçılar İttifaqında kimlər əyləşmişdi. Hazırda ifşa edilmiş Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Əli Nazım, Böyükağa Talıblı, Tağı Şahbazi, Əhməd Triniç... Vətən xainlərinə ölüm (alqışlar)! Sosializm qələbələrinin təşkilatçısı və ilhamverici qüvvəsi olan doğma, sevimli Stalinə eşq olsun (gurultulu alqışlar, hamı ayağa durur)!

Bəmbəyaz, ucsuz-bucaqsız qarlı çöl. Uzaqda qara paltolu, qara papaqlı kişi fiquru. Onu arxadan görürük, Müşkinaz xanım ayaqyalın, başaçıq, qar səhrasıyla bu fiqura tərəf getmək istəyir, amma sanki ayaqları müc olub qalıb, bir addım da ata bilmir. Ağzını

açıb çağırmaq istəyir, səsi çıxmır. Birdən uzaqdakı fiqur bizə tərəf çevrilir, indi iri planda bunun Cavid olduğunu görürük. Gözləri qapalıdır, sanki meyitdir. Müşkinaz xanım qışqırır və öz qışqırığına özü ayılır. Mürgü vurduğu divanda gözlərini açır.

Yazı masası arxasında çalışan Cavid bu qışqırığı eşidir, durub bu biri otağa keçir.

—Müşkinaz, nə olub?

Müşkinaz gözlərini silir:

—Heç, pis yuxu görürdüm.

Cavid:

—İndi ki durmusan, bir qəhvə hazırlasana.

—Bu saat.

Cavid otağında yazı masasının arxasında. Divar saatı gecə ikini vurur. O biri otaqda Ərtoğrul və Turan yatıblar. Müşkinaz mətbəxə keçib, qəhvə hazırlamaq istərkən, qapı şiddətlə döyülür.

Qorxmuş Müşkinaz xanım qapını açır. Üç nəfər NKVD işçisi daxil olur. Onlardan birini İblisi oynayan aktyor oynayır.

Qum saatında qum birdən-birə axıb tökülür.

Cavidin mənzili ələk-vələk edilmişdir. Kağızlar, fotoşəkillər, hətta kitablar ya yerə atılmış, ya da torbalara, çamadanlara doldurulmuşdur. Cavidin qabağındakı külqabı papiros kötükləriylə doludur. Yeni papiros yandırır.

Cavid:

—O nüsxələrdən hərəsindən iki-üç dənədi. Bəlkə qoyasız hərəsindən biri qalsın?

—Yox!

Cavid çiyinlərini çəkir.

Müşkinaz xanım bir qıraqda quruyub qalıb.

Zabit (Cavidə):

—Dəyişək və yatacaq götürün.

Cavid (Müşkinaza):

—Qara kostyumumu gətir.

Müşkinaz (yuxudan ayılmış kimi):

—Bəlkə təzə kostyumunu gətirim. O gün, TKoroğluUya geydiyini?

Cavid:

—Yox, bu günə o köhnə qara kostyum yaraşar.

NKVD işçiləri kitabları, kağızları doldurduqları torbaları,

çamadanları daşıyırlar. Cavid o biri otağa keçir, paltolu, papaqlı qayıdır, Müşkinaza:

—Darıxma, Müşkinaz, iki-üç gün çəkər. Qayıdaram. Mənim heç bir örtülü işim yoxdur, Görək nə soruşacaqlar.

O biri otağın qapısı açılır, Ərtoğrul:

—Baba, bu nədi belə? — yüyürüb atasını qucaqlayır, ağlamağa başlayır.

Cavid (onun başını sığallayır):

—Sakit ol, bala. Bir şey yoxdur. Nə də ola bilər axı? Kişi ağlamaz, sınar, əyilməz.

Cavid Müşkinazla, Ərtoğrulla görüşür:

—Turanı mənim əvəzimə öpərsiniz. İndi oyatmayın.

Gələnlərin müşayiətiylə otaqdan çıxır, Müşkinaz xanım hönkürüb ağlamağa başlayır, Ərtoğrul:

—Ana, yavaş... Turan oyanmasın.

Müşkinaz (göz yaşları içində):

—Yazıq kişi, heç qəhvəsini də içə bilmədi.

Hüseyn Cavidin ev-muzeyinin lövhəsi. Cavid NKVD işçilərinin müşayiətiylə məhz bu lövhənin yanından keçir (bu "priyom"dan "Qəm pəncərəsi" və "Üzeyir ömrü" filmlərində də istifadə olunub. Sanki tarixi hadisələr real məkanda, bu gün bəlli məkanda cərəyan edərək şərtiliyi təsdiqləyir).

Cavid və müşayiətçiləri qara maşına minirlər, maşın qaranlıq Bakı küçələriylə NKVD binasına tərəf sürətlə gedir.

Ekranda yazı:

4 iyun 1937-ci il. Gecə saat 3. 47

Üzərində "Əhməd Cavad bu evdə yaşamışdır" sözləri yazılmış lövhə. Bu binanın qapısından NKVD işçiləri Əhməd Cavadı çıxarıb qara maşına otuzdururlar. Maşın hərəkət edir.

Sürətlə gedən başqa bir qara maşının içində Müşfiq.

Gecə qaranlığına qərq olmuş binaların bəzi pəncərələrində qəfilcən işıq yanır, bəzilərində qəfilcən sönür.

Yazıçılar Birliyinin üçüncü mərtəbəsində repressiya qurbanları — Azərbaycan yazıçılarına həsr olunmuş "Gedənlər" barelyefi. Kamera barelyefdəki adları panorama edərkən ikiqat ekspozisiya vasitəsilə həmin adamların "cinayət" işindəki şəkillərini (anfas və profil) görürük və hər şəkil göründükcə atəş səsi eşidilir. Sonda Cavidin ev-muzeyindəki şəkil – "Repressiya olunmuş yazıçılar" tablosu...

Cavidin mənzilində üç nəfər NKVD işçisi əşyaları müsadirə edir, bir-bir mənzildən çıxarırlar.

Müşkinaz:

—Bunları niyə aparırsınız?

Gələnlərdən biri:

—Niyəsi sənə iki ay bundan qabaq məlumdur.

Boşalmış evi tərk edib gedirlər.

Turan çöl qapısını açıb , boylanır. Qarət olunmuş şeylərlə dolu maşın yola düşür, Turan otağa qayıdır və yemək masasının süfrəsini qaldırıb, gizli qalmış siyirtməni açır. Turan:

—Ana, buna bax. — Siyirtmədən çıxartdığı kağızları Müşkinaz xanıma göstərir — Nə yaxşı duyuq düşmədilər. Babanın əlyazmalarıdır (kağızlara baxır) "Xəyyam".

Müşkinaz:

—Gizlət onları, elə yerdə gizlət ki, heç kəs tapa bilməsin.

Turan:

—Bəlkə Pənah bəygildə...

—Nə danışırsan? Sənə demək istəmirdim, Pənahı da bu gecə aparıblar.

İstintaq otağı.

Müstəntiq və başı-gözü əzilmiş Pənah Qasımov.

Müstəntiq:

—Boynunuza alırsınızmı ki, siz türk-tatar xalqlarından ibarət müstəqil dövlət yaratmağı qarşısına məqsəd qoymuş təşkilatın üzvüsünüz?

Pənah:

—Mənim belə bir təşkilatdan xəbərim yoxdur.

Müstəntiq:

—İndi xəbərin olar.

Boksçular Pənahı döyməyə başlayırlar.

—Xəbərin oldu?

Pənah susur.

Müstəntiq (qovluğu açıb baxır):

—Siz xalq maarif komissarı olmusunuz, Mahmud Qaşqarinin lüğəti, Çobanzadənin "Türk-tatar dialektologiyası", "Türk dillərinin müqayisəli qrammatikası" və bu kimi pantürkist kitabların nəşrinə himayə edərkən nə məqsəd güdmüsünüz?

Pənah:

—Məgər Mahmud Qaşqarinin XI əsrdə yazılmış lüğəti pantürkist əsərdi? Ümimiyyətlə, lüğət-lüğətdir, lüğətin siyasətə nə dəxli var?

Müstəntiq:

—Nə dəxli olduğunu bu saat sənə izah edərlər (işarə edir, yenə döyməyə başlayırlar).

Müstəntiq:

—Hə, necəsən, cənab maarif naziri? (boksçulara) yaxşı, bəsdir. (Pənaha) Sizin bu pantürkist fəaliyyətiniz barədə ev qonşunuz Hüseyn Cavidlə nə kimi söhbətlər etmisiniz?

Pənah (güclə danışır):

—Bu barədə heç bir söhbətimiz olmayıb, Cavid bir dahidir. Amandır, onadamı belə işgəncə verirsiz? Tarix bunu sizə bağışlamaz.

Müstəntiq:

—Biz heç kəsə işgəncə vermirik, özlərini qeyri-səmimi aparanları səmimi olmağa məcbur edirik. O ki qaldı sizin dahiniz Cavidə... vaxtı gələndə onu da lazım olan kimi danışdıracayıq. Heç biriniz əlimizdən qurtulub burdan çıxa bilməyəcəksiniz, düşmən fəaliyyətinizi davam edə bilməyəcəksiniz.

Pənah (dodaqaltı):

—Təsəllilərin ən gözəli ölümdür.

Müstəntiq:

—Nə?

Pənah:

—Cavid əfəndinin sözləri yadıma düşdü.

Müstəntiq (katibə):

—Bu sözləri protokola qeyd et.

Cavidin mənzili. Qapı döyülür. Müşkinaz xanım açır. Əvvəlki epizodlardan bizə tanış olan teatr müdiri içəri girir.

Müşkinaz:

—Bıy, xoş gəlmisiniz, nə əcəb sizdən? Teatrda nə var, nə yox, Cavidin əsərlərini yəqin ki, çıxartmısınız səhnədən.

Müdir:

—Xəbərim yoxdur, mən qarışmam, mən indi kinofabrikanın müdiriyəm.

Müşkinaz:

—Keçin, əyləşin.

Müdir oturur, ətrafa göz gəzdirir. Hiss olunur ki, nə isə demək istəyir, amma ürək eləmir.

Müdir:

—Vallah, heç bilmirəm necə deyim? Məsələ ondadır ki, biz Cavid əfəndiylə. e. vətəndaş Cavidlə "Koroğlu" ssenarisi üçün müqavilə bağlamışdıq, beh də almışdı. İndi ortalıqda ssenari yoxdu, bu məbləğ mənim boynumda qalıb. Mən də ki... maaşa baxan adamam. Heç bilmirəm necə edim... Bəlkə o pulu qaytarasınız?

Müşkinaz:

—Bizim pulumuz hardandır?

Müdir:

—Nə bilim... e... evdən bir şey satasız bəlkə?

Müşkinaz:

—Evdə bir şey qalıb ki...

Müdir Müşkinazın qulaqlarındakı sırğalara baxır:

—Qəşəng sırğalardır.

Müşkinaz:

—Bunlara gözün düşüb?

—Yox, nəyimə lazım, mən bu işlərə qarışmam, amma o məbləğ də mənim boynumda qalıb (ətrafa boylana-boylana, yavaş səslə). Zamana pis zamanadı, mənim boğazımdan yapışacaqlar ki, bəs dövlətin pulunu vermisən, ortalıqda bir şey yox.

—Ortalıqda nə ola bilərdi ki... Cavid indi həbsdədir. İnşallah ordan çıxar, əsəri də yazıb verər.

—Onu kim gözləyəcək? Mənim boğazımdan yapışacaqlar, mənim də ailəm var (az qala ağlayır) maaşa baxan adamam...

Müşkinaz (sırğaları çıxarıb müdirə uzadır)

—Al, çıx get.

Müdir gizlədə bilmədiyi bir hərisliklə sırğaları alır, qapıya tərəf gedir, ətrafa boylanır, sonra pıçıltıyla Müşkinaz xanıma:

— Cavid əfəndi... dahi idi.

Sənədli kadrlar. Sürgünə göndərilən dəstə-dəstə adamlar, dustaqlarla dolu qatarlar...

Çərçivədə yazı:

TƏYYARƏ VERİN BİR UÇAYIM MƏN,
ALLAHI BULUB SİRR AÇAYIM MƏN.
YOX, YOX, O DA ÖLMÜŞ
ÖLMÜŞ DƏ FƏZALARDA GÖMÜLMÜŞ
"KNYAZ"

Cavidin mənzili, bir qrup inzibati işçi mənzildədir. Gələnlərdən biri:

—Elə bu gün mənzili boşaldıb köçməlisiniz.

Müşkinaz:

—Hara?

—Hara desələr ora.

Müşkinaz xanım və Turan birotaqlı balaca, qaranlıq, rütubətli mənzildə.

Ərtoğrul konservatoriyada Üzeyir bəyin sinfində, Üzeyir:

—Ərtoğul, Bülbül sənin nota aldığın xalq mahnılarını çox tərifləyirdi. Bu işi davam et.

—Mütləq davam edəcəm, Üzeyir bəy.

—Amma bəstəkarlıq işini də unutma, Təzə nə yazmısan?

—Bir-iki romans yazmışam, bir sonata.

Üzeyir:

— Çal görək.

Ərtoğrul çalır.

Küçələrdə yağış yağır.

Çərçivədə yazı:

HƏP TƏBİƏT, BƏŞƏRİYYƏT ZALIM
SÖYLƏ KİMDƏN DİLƏYİM MƏN İMDAD?
HƏP TƏBİƏT, BƏŞƏRİYYƏT CƏLLAD!..
"XƏYYAM"

Küçədə yağış yağır, Müşkinazgilin TtəzəU mənzillərinin tavanı damır.

Müşkinaz xanım otaqdan çıxır, damda oynayan qonşu uşağı — beş-altı yaşlı oğlana:

—Oğlum, orda atılıb-düşmə, qır çökür, evimiz damır.

Uşaq:

—Sən danışma, siz vraq narodsuz.

Uşağın anası evlərinin qapısını açır:

—Ay arvad, uşaqdan nə istəyirsən? Nə tez xəbər tutdunuz ki, burda boş ev var? Heç sağlıqla oturmayasan bu evdə, xeyir görməyəsən.

Müşkinaz:

—Bəyəm öz xoşumuzla gəlib oturmuşuq burda? Bir balaca pəncərəsi var...

Qonşu arvadın əri çıxır:

—O pəncərədən mənim evimin içi görünür. Onu bağlatdıracam.
—Onda biz lap işıqsız, havasız qalacayıq ki...
Qonşu:
—Sən hələ spasibo de ki, tamam hörmürəm.
—O da var?
—Qəneşnə.
Turan:
—Ana, gəl içəri.
Müşkinaz xanım və Turan otağa keçirlər. Müşkinaz:
—Xudaya, bu günümüzə də şükür...
Turan:
—Ay ana, sən də elə Allaha şükür edə-edə durmusan, bundan da pis günümüz olacaq yəni?
Müşkinaz:
—Elə demə, qızım, Allaha xoş getməz. Canımız sağ-salamat, Ərtoğrul kimi qardaşın var, inşallah, atan da yaxın zamanlarda qayıdar, haqq-ədalət yerini tapar.
Turan:
—Yəni sən buna inanırsan?
Müşkinaz:
—Əlbəttə, — nə isə yadına düşür, gülümsünür — qəneşnə.
Turan da ilk dəfə gülümsünür.
Ərtoğrul gəlir:
—Ana, Turan, hazırlaşın, baba Keşlədən məktub göndərib. Ayın birində görüş verəcəklər.
Dustaqxananın qəbul yeri. Tutulanların ailə üzvləri, hərəsinin əlində kiçik bağlama var. Gözətçi qapını açır:
—Müşkinaz Cavid — deyə çağırır.
Müşkinaz xanım, Ərtoğrul və Turan görüş otağına keçirlər.
Zabit (bağlamanı göstərir):
—Bu nədir?
Müşkinaz:
—Bir azacıq ayın-oyun.
—Açın.
Bağlamada bəzi yemək şeyləri. Mühafizəçi onların böyük bir hissəsini kənara qoyur.
—Müsadirə olunur — deyir.
Ərtoğrul:

—Niyə?
—Olmaz.
Müşkinaz xanım:
—Niyə olmaz axı?
Mühafizəçi:
—Elə bilirsən ərini bura kurorta gətiriblər? Dedim olmaz (bağlamanın içindəkilərin çox hissəsini bir kənara qoyur, az hissəsini göstərərək): bunları verə bilərsiniz.
Taxta skamyada oturub gözləyirlər. Növbətçilər Cavidi gətirir.
Qucaqlaşıb öpüşürlər.
Cavid:
—Nə yaxşı gəldiniz.
Müşkinaz arxalarında dayanıb onları güdən gözətçilərə baxır.
Cavid:
—Elə baxma, neyləsin, onun da vəzifəsi budur.
—Pənahı da apardılar, xəbərin var?
—Yox, amma Cavad kişi adam imiş. Danışılası iş deyil.
Müşkinaz:
—Allah qoysa çıxarsan, hamısını bircə-bircə danışarsan.
Cavid:
—Umulmaz umud. Yaxşı, ağlama, uşaqların da ürəyini xarab eləmə. Ərtoğrul, sən indi evin kişisisən, anandan, bacından muğayat ol. Diqqətin həmişə Turanın üstündə olsun. Dərslərindən də qalma. Sağlıq olsun, yenə görüşərik. Məktub yazmaq hüququm da var.
Turan:
—Baba, məktubu təzə ünvanımıza yaz, köçmüşük.
—Necə köçmüsünüz?
Müşkinaz (tələsik):
—Narahat olma, başqa, yaxşı mənzil veriblər.
—Nə qədər işlərim, arzularım vardı. “Xəyyam”ı bitirmişdim. Onu da apardılar.
Turan yalnız gözləriylə TyoxU işarəsi verir.
Turan:
—Elə bu gün Sevdayla görüşdüm. Sənə çoxlu salamı var, özü də salamatdır.
Cavid “Xəyyam”a işarə olunduğunu anlayaraq, Turanı öpür:
—Mənim ağıllı balam — deyir.
Gözətçi:

—Görüş vaxtı bitdi.

Cavid kamerasına aparılarkən dəhlizdə qol-qabırğası sındırılmış Pənahı iki mühafizəçi döyə-döyə, sürüyə-sürüyə aparırlar.

Cavid (onu güclə tanıyaraq):

—Pənah!

Gözətçi (Cavidə):

—Üzünü divara çevir, tez ol! — Cavidin üzünü divara tərəfə çevirirlər, Pənah ona baxır, amma tanımır.

Qum saatından qum yavaş-yavaş tökülür.

Ekranda yazı:

13 aprel 1938

Qəbul otağında Cavidlə Müşkinaz xanımın növbəti görüşü.

Cavid:

—Bəs uşaqlar?

Müşkinaz:

—Bu dəfə uşaqlara icazə vermədilər, amma nigaran qalma, hamısı yaxşıdır, Ərtoğrul dərslərindən ancaq əla alır, Üzeyir bəy ondan çox razıdır, Turan da əlaçıdır, İnşallah, sən də bu gün-sabah çıxarsan...

Cavid:

—Turan tibb məktəbinə girsin, uşaq həkimi olsun. Sən də, Ərtoğrul da Turandan muğayat olun. Ağıllı oğlumu, mehriban Turancığımı öp. Həyatınızı elə qurun ki, mənsiz yaşaya biləsiniz (pauza, bir qədər tərəddüddən sonra). Müşkinaz, bir yandan yaxşı ki, uşaqları buraxmayıblar. Onlar bilməsin, sənə deyirəm. Məni daha gözləməyin (pauza). Mələk kimi Pənahın qol-qabırğasını gözlərim qarşısında sındırdılar

Müşkinaz (qorxmuş):

—Dilim-ağzım qurusun, yoxsa sənə də...

—Yox, mənə hələ çırtma da vurmayıblar, yəqin göstəriş gəlməyib. Amma qandırdılar ki, Sibirə sürgün edəcəklər. Mən də bu yaşımda ordan çətin qayıdım. Uşaqlardan muğayat ol. Məndən nə desələr inanmayın.

Gözətçi:

—Görüş vaxtı bitdi (Cavidi aparır).

Cavid (qapıda):

—Uşaqlardan muğayat ol.

Müşkinaz, Turan, Ərtoğrul. Ərtoğrul Cavidin məktubunu oxuyur

(Cavidin səsiylə):

Sevgili Müşkinaz! İki gün sonra Daşkənddən Vladivostoka doğru hərəkət edəcəyik. Kefim yaxşıdır. Məndən tez-tez məktub gözləməyin. Sən də, Ərtoğrul da Turan xanımdan muğayat olun, heç yerə yalnız buraxmayın. Öpürəm. Hüseyn Cavid, 26 iyul 1939.

Qum saaatından vaxt axıb tökülür.

İndi də başqa bir məktubu Turan oxuyur (Cavidin səsiylə):

Əzizim Müşkinaz! Sənə və uşaqlara Vladivostokdan salam. Bura sentyabrın 22-də gəlib çatdıq. Burdan haçan, hara göndəriləcəyimiz bəlli deyil. Sağ-salamatam. Məktub yazmayın. Öpürəm. Cavid. 29 sentyabr 1939.

Sibirə gedən qatar. Tepluşka-vaqonda dustaqlar. Onların arasında Cavid də var. Dustaqlardan birinin ona diqqətlə baxdığını görür.Bir azdan həmin adam ona yanaşır. İndi dustaq şəklində, üzünü saç-saqqal basmış bu adam — müxtəlf qiyfələrdə, o cümədən müstəntiq kimi İblisi oynayan aktyor olmalıdır. Durub Cavidə yanaşır,

—Cavid əfəndi? — deyə soruşur

Cavid eynəyinin şüşələrini silib diqqətlə ona baxır.

—Azərbaycandansınız? — deyə soruşur.

—Məni tanımadınız?

Cavid yenə diqqətlə bu adamın üzünə baxır,

—Yox -deyir.

İblis-müstəntiq — dustaq:

—Elə tanımasanız yaxşıdır -deyə yerinə qayıdır.

Çərçivədə yazı:

HALBUKİ ÇOX UZAQDA
YURDUN, YUVAN, EŞQİN VAR
GÖVƏRÇİN YUVASINDA
YOLA DİKMİŞ GÖZ AĞLAR
“UÇURUM”

Qara radio reproduktordan Levitanın səsiylə Vətən müharibəsinin başlanması haqqında məlumat verilir.

Müşkinazgilin həyətində, Qonşu arvad, xüsusi əzazilliklə:

— Müşkinaz TxanımU. Gözün aydın — deyir.

Müşkinaz xanım həyəcanla qapıya çıxır.

Qonşu arvad:

—Oğlunu əsgərliyə çağırırlar. Qol çək ki, çağırış vərəqəsini almısan.

Konservatoriyada, Ərtoğrul hərbi paltarda Üzeyir bəyin kabinetində. Ərtoğrul:

—Hörmətli Üzeyir bəy, sabah əsgər gedirəm. Yeganə nigarançılığım anam və bacımın acınacaqlı halıdır. Rica edirəm, keçirdiyimiz səmimi dərs günləri və ümidli gələcək xatirinə, mümkün ola biləcək yardımınızı əsirgəməyin. Anam uşaq bağçalarında işləyə bilər. Bacım həm bağçada, həm maşinistqalıq, həm də ibtidai məktəbdə matematikadan, dildən dərs deyə bilər. Ən vacib məsələ çətin hallarda nəzər etmək, ürək vermək, mənəvi yardımdır.

Üzeyir Ərtoğrulu qucaqlayıb bağrına basır. Ərtoğrul vidalaşıb otaqdan çıxandan sonra Üzeyir bəy eynəyini çıxarıb gözlərini silir.

Bəmbəyaz qarlı çöl. Əvvəldə ekranda gördüyümüz yuxu təkrar olur. Qarlar içində uzaqda qara paltolu, qara papaqlı kişi fiquru... Başı açıq, ayağı yalın Müşkinaz xanım ona sarı getmək istəyir, gedə bilmir, qışqırmaq istəyir, qışqıra bilmir. Kişi üzünü bu tərəfə çevirəndə gözləri qapalı Cavidi, sanki onun meyitini görürük.

Müşkinaz xanım hövlnak ayılır və əliylə gecə lampasına toxunur. Lampa şüşəsi yerə düşüb sınır.

Ekranda yazı:

5 dekabr 1941-ci il.

Turan Ərtoğrulun məktubunu oxuyur (Ərtoğrulun səsi):

—Əziz bacım Turan, bir ədib söyləmiş ki, həyat insanlardan daha insafsızdır. Doğrudan da, belə imiş, Tale məni elə bir hala saldı ki, heç cəbhəyə də gedə bilmədim, vərəm bunu da mənə çox gördü. Üzeyir bəyin, Bülbül dayının sizə yardım etdiyini eşidəndə gözlərim doldu. Demək, mən xatirələrdə yaşayıram. Demək, dünya yaxşı insanlardan xali deyil. İmkan tapsan hər ikisinə mənim təşəkkürlərimi çatdır...

İndi hərbi qospitaldayam. Turan! Babanın sözlərini unutma: qırıl, lakin əyilmə. Çalış kimsə yaxın durmasın. Şəklini mənə göndər. Yeməyim yaxşıdır. Turan, məni ən çox düşündürən səni əhatə edən mühitdir, yoldaşların, sənin xarakter inkişafındır. Hər bir addımda çox ehtiyatlı ol. Mümkün qədər hamıdan kənar, soyuqqanlı.. Hamıya çoxlu salamlar. Məndən heç nigaran olmayın. Vəziyyətim yaxşıdır. Dedilər ki, ana bura gələsidir, əgər çətindirsə lazım deyil, gəlməsin. Qardaşın Ərtoğrul.

Ərtoğrul palatada, çarpayıda uzanıb. Xeyli arıqlayıb, rəngi qaçıb.

Həkimin muşayiətiylə Müşkinaz xanım palataya girir.

Ərtoğrul:

—Ana — deyə yerində dikəlir. Müşkinaz xanım onu öpmək istəyəndə, sifətini yana çevirir — Olmaz — deyir — həkim icazə vermir.

Həkim:

—Doğrudur. Xəstəylə öpüşmək hər ikinizə ziyan verə bilər.

Ərtoğrul:

—Turan necədir?

—Lap yaxşı. Dərslərindən ayrıla bilmədi, odur ki, gəlmədi... Çoxlu salamı var.

—Sağ olsun.

Müşkinaz Ərtoğulun əlindəki kitabı görür.

—Nə oxuyursan?

Ərtoğrul:

—TŞeyx SənanU. Bir müsafir gətirmişdi.

—Az oxu bunları.

—Üzeyir bəy babamla "Şeyx Sənan" operası yazmaq istəyirdi. İkicə ay pianonun qabağında otursam TŞeyx SənanUı hazır edərəm. Çox demirəm, iki-üç dəfə dirijorluq edim, sonra...

Müşkinaz:

—Sənə belə sözlər yaraşmır. Dözümlü ol. Bir az səbrin olsun. Sağalıb duracaqsan, inşallah, o vaxta dava qurtarar. Atan da qayıdar, sən də "Şeyx Sənan"ı tamamlarsan, ilk tamaşaya təzə paltar tikdirəcəm.

Ərtoğrul:

—Ay ana, sən danışanda dünya elə gözəlləşir ki...

—Dünya elə gözəldir bala, onu pis günə qoyan bəzi insanlardı...

Qum saatından vaxt axır. Ekranda yazı:

Oktyabr 1943

Çoban tütəyinin qəmli sədaları altında çərçivədə yazı:

ÇAL, BƏXTƏVƏR ÇOBAN, ÇAL, NƏ SİVAS KİMİ ŞƏHRİN ƏLİNDƏN GETMİŞ, NƏ DƏ ƏRTOĞRUL KİMİ OĞLUN...

"TOPAL TEYMUR"

Müşkinaz xanımın iki dəfə gördüyü yuxu yenə təkrar olunur. Qarlı çöl. Uzaqda insan fiquru. Amma bu dəfə insan üzünü bizə tərəf

çevirəndə görürük ki, bu — Ərtoğruldur. Gözləri qapalı, üzü ağappaq.

Müşkinaz xanım qışqırıb yuxudan oyanır.

Ərtoğrul tabutda. Bu kədərli səhnənin fotosu var. Foto real kadrlara keçir. Müşkinaz xanımın, Turanın, arvadların ağlaşmasını eşidirik.

Ağlaşma birdən-birə salyut səsləriylə, təntənəli marşlarla əvəz olunur, ekranda yazı görünür:

9 may 1945

Qələbə gününün sevincini (Moskvada və Bakıda) əks etdirən sənədli kadrlar,.. Axşam atəşfəşanlıq,..

Müşkinazgilin mənzili. Qapı döyülür və nimdaş paltarda bir kişi daxil olur. Biz çətinliklə onun simasında bizim filmdə İblisi oynayan aktyoru tanıyırıq.

Naməlum adam (son dərəcə mehriban):

—Salam, Müşkinaz xanım.

—Əleykəssalam. Xeyir ola, kimsiniz?

Naməlum adam ətrafa boylanır:

—Burda başqa adam yoxdur ki?

—Bu boyda balaca otaqda daha kim ola bilər? Nədir ki?

—Sizə bir yaxşı xəbər gətirmişəm, amma özünüzü ələ alın.

Müşkinaz (həyəcanla):

—Nə xəbər?

Naməlum adam (lap yavaş səslə):

—Kişi gəlir.

—Hansı kişi?

—Necə hansı kişi,.. (lap yavaş səslə) Cavid əfəndi.

Müşkinaz xanım diksinir:

—Bismillah rəhmani rəhim — deyir — bu nə sözdür?

—Doğru sözdür. Bakıdan keçib Tiflis tərəfə gedəcək, amma bir saat burda qalacaq, Sizinlə görüşməsinə icazə veriblər.

—Nə danışırsan? Bəs özü niyə bir şey yazmır? Neçə ildir, ondan bir əlcə məktub almamışıq.

—Yaza bilmirdi. Bilirsiz, gözləri daha da zəifləyib. Neçə il onunla bir barakda qalmışam. İki həftədir buraxıblar məni. İnşallah, onu da buraxarlar. Mənim bura gəldiyimi bilən olmasın. Amma sabah axşam saat 7-də Rostov qatarını qarşılayın. Onuncu vaqon.

Dəmir yol vağzalı. Müşkinaz xanım, Turan və Abdulla Şaiq qatarı

gözləyirlər.

Qatar gəlir, sərnişinlər bir-bir qatardan düşür.

Müşkinaz, Turan, Şaiq gözləyir, gözləyir, gələnlərin üzünə baxırlar.

Vaqonlar tamam boşalıb. Boş qatar geriyə — depoya gedir. Müşkinaz xanım, Turan daş heykəllər kimi donub qalıblar. Şaiq dəsmal çıxarıb göz yaşlarını silir.

Naməlum adam, indi tamam başqa qiyafədə, onları kənardan müşahidə edir.

Mir Cəfər Bağırovun kabineti. Daxili işlər naziri məlumatı onun masasının üstünə qoyur.

Bağırov:

—Cavid gəlir... Bunu kim çıxardıb?

Nazir:

—Profilaktik tədbir kimi gördük bunu. Cəmiyyətin reaksiyasını öyrənmək üçün.

Bağırov:

—Başınızdan böyük qələtlər edirsiz. Kim verib sizə bu tapşırığı, bunun mənası nədir? Kim çıxmışdı qatarın qarşısına?

Nazir (masanın üstündəki kağızı göstərərək):

—Raportda hamısı yazılıb. Arvadı, qızı, bir də Abdulla Şaiq.

Bağırov gözucu raporta baxır:

—O qocaya nə düşüb vağzala gedir? Cavid gəlir, gəlir də... Hardan gəlir, Məkkədən gəlir, Kərbəladan gəlir? Biz də hələ bu Şaiqi deputat eləmişdik. (Nazirə) Yaxşı, gedə bilərsən.

Nazir çıxır, Bağırov masa üstündəki karandaşları götürüb əlində sıxa-sıxa otaqda var-gəl edir və divarda Stalinin şəklinə baxır.

Qum saatından qum tökülür, yalnız son damlaları qalıb. Sonra saat çevrilir və ekranda yazı görünür:

5 mart 1953-cu il.

Radiodan diktor Stalinin vəfatı xəbərini verir.

Stalinin ölümüylə bağlı sənədli kadrlar. İnsanların tabutun yanından keçməsi, ağlaşma, dəfn və s.

Ekranda yazı:

1956

Mir Cəfər Bağırovun məhkəməsi.

Mir Cəfər Bağırov son sözünü deyir:

—Heç kəsdən əfv diləməyəcəm. (Səhnədə tillə vuran “cinayət”

qovluqlarını göstərir) — Xırtdəyəcən qan içindəyəm.

Məhkumlar kürsüsündə, yanında oturanları göstərir — Bunlar mənim zəncirli itlərim idi — Sumbatov, Borşov, Qriqoryan, Markaryan... Bunların əməllərinə göz yummuşam. Bunlara inanaraq təhlükəsizlik orqanlarını onlara etibar etmişəm, Xalqım qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, məni şaqqalamaq, parça-parça etmək lazımdır...

Qum saatından vaxt axır. Ekranda yazı:

21 oktyabr 1982-ci il, gündüz saat 14. 30.

Üç azərbaycanlı qarlı Sibir çölündə buz bağlamış torpağı qazırlar.

Nəhayət, tabut görünür. Tabutu açırlar (Təbii, ekranda açılmış tabutun içi görünməyəcək. Bəlkə yalnız didik-didik olmuş sırıqlını tanıyacağıq). Tabutu qəbirdən çıxarıb torpağın üstünə qoyurlar. Məzarın qırağında sıralanan əsgərlər yaylım atəşi açırlar.

Təyyarə Bakıya uçur.

Sənədli kadrlar: Cavidin nəşinin təyyarə meydanında qarşılanması. Turan xanımın sənədli kadrları.

Xan sarayında, sonra Əlyazmalar fondunda tabutun qoyulması, vidalaşma mərasimi. Ekranda yazı:

"Ölüm başqalarını ayırırkən, bizi birləşdirmiş oldu"

"Afət"

Bu yazıdan dərhal sonra Naxçıvanda Cavidin məqbərəsinin içi. Əvvəl məqbərənin içində Hüseyn Cavidin, Müşkinaz xanımın, Ərtoğrulun və Turanın adları yazılmış daşı, sonra çöldən məqbərənin xarici görünüşünü görürük.

Məqbərənin açılışına aid sənədli kadrlar.

Heydər Əliyev Cavidin böyüklüyü haqqında danışır.

Filmi Cavidin əlimizdə olan son əsəri, sağlığında heç vaxt tamaşaya qoyulmayan və Turan xanımın qeyrəti sayəsində üzə çıxarılan TXəyyamU pyesindən parçayla tamamlayırıq.

TXəyyamUdan.

Xəyyam (səhnə qiyafəsində görünür):
Gəldin də, neçin pənbə buludlar kimi axdın,
Bilməm, niyə getdin, niyə döndün, niyə baxdın,
Şimşək kimi çaxdın da, neçin könlümü yaxdın,
Bilməm, niyə getdin, niyə döndün, niyə baxdın?

Bu monoloq Mehdi Məmmədovun ifasında səslənərkən (lenti,

gərək ki, durur) ekranda filmimizin bəzi epizodlarını təkrar görürük.

Çərçivədə yazı:

ƏSRİNİN ÖKSÜZÜDÜR DAHİLƏR
"XƏYYAM"

Cavan, üzü fərəh, sevinc dolu Hüseyn Cavid cənnət kimi bir gül baxçasında oturub xanəndəni dinləyir.

Hər sözü aydın tələffüz edən xanəndənin səsini eşidirik:

Beş gün ömrün neçə əfsanəsi var,
Eşqi var, badəsi, peymanəsi var,
Sonu həsrətlə bitərkən, əfsus,
Yenə dünya dolu pərvanəsi var.

Bakıda Cavidin əzəmətli heykəli fonunda "Filmin sonu" sözləri yazılır.

2004
Bakı.

GECƏ İŞIQLARI
(Ssenari)

Gülək dənizdən qəfilcə qopub gəldi, çimərlikdəki günlükləri qopartdı, eyvandakı həsir kürsüləri çevirdi, sahildəki skamyalara bolluca qum ələdi.

Gecə-gündüz əsdi. Günlərin bir günü qəfil qopduğu kimi qəfil də kəsdi. Dəniz öz yatağına çəkildi, qumlar sakitləşdi, narın-narın titrəyən günlüklər get-gedə hərəkətsizləşdi. Qapılar, pəncərələr, darvazalar susdu.

Çimərliyin ən uzaq planında iki nəfər bir-birinə tərəf gəlirdi. Müxtəlif səmtlərdən get-gedə yaxınlaşdılar, amma rast gəldikləri vaxt sanki bir-birini görmürmüş kimi ayaq saxlamadılar, salamlaşmadılar, görüşmədilər. Ötüb əks istiqamətlərdə uzaqlaşdılar. Bu fonda filmin titrləri yazıldı.

Payız gəlmişdi. Səssizlik, sakitlik də payız dincliyi, payız sükutu idi. Çimərlikdə atılıb qalmış ayrı-ayrı şeylər-boş şüşələr, qarpız qabıqları, deşilmiş topun parçaları, voleybol toru və s. keçib getmiş səsli-küylü yay günlərindən nişanə idi.

Bağ evinin qapı-pəncərələri mismarlanıb. Pəncərələrdən hansısa, görünür, yaxşı mıxlanmayıb, tərpənib çırıldayır. Alaqapıdan iri bir qıfıl asılıb. Alaqapının qabağına hasar dalındakı ağacdan sarı yarpaqlar tökülüb.

Çimərlik də bomboşdur, haradansa çox uzaqdan elektrik qatarının fit səsi və təkərlər altında titrəyən relslərin uğultusu eşidilir. Qatar uzaqlaşır, səslər uzaqlaşır... Uzandıqca uzanan adamsız sahil. Adamsız? Yox, haradasa uzaqlarda insan fiqurları görünür — balıqçılar qayıqlarını dənizə itələyirlər. O biri səmtdə də bir neçə qadın fiquru görünür. Sahilin dənizə keçdiyi yerdə onlar əlvan xalılar döşəyib — sabunla, gilabı ilə yuyur, yalın ayaqları ilə sürtürlər, Balaça çoban quzusunu dənizdə çimizdirir. Sahilin başqa bir səmtində ilxıçı bir dəstə atı dənizdə yuyundurur. Amma bütün bunları çox uzaqdan gördüyümüz üçün ekran tamamilə sakit, səssizdir, yalnız arabir uzaq fit səsləri eşidilir, onlar da uzaqlaşır, əriyib itirlər.

Qəfildən dəhşətli bir hay-küylə ekranda kadr dəyişir və biz

stadionun işıq tablosunu görürük. Tabloda hesab: 2:1. Alqışlar, qışqırıqlar, fit səsləri. Camaatı, stadionu görmürük. Yalnız tablo...

Müasir böyük şəhər, hündür evlər, gen pəncərələr — şüşə-betonun parıltısı.

İdman şərhçisinin səsi eşidilərkən biz belə müasir binalardan birinə daxil oluruq, uzun dəhlizlərdən keçib geniş işıqlı bir otağa giririk. İndi şərhçinin gümrah səsi otaqdakı reproduktordan eşidilir:

—Beləliklə oyunun axırına iki dəqiqə qalır. Qonağlar son dəfə hücuma keçərək hesabı bərabərləşdirməyə çalışırlar. İndicə hakimin final fiti səslənəcəkdir.

Otaqda idarənin əməkdaşları maraqla futbol reportajını dinləyirlər. Şərhçinin səsi eşidilməz olur. İşçilərin replikaları, futbol haqqında rəyləri, mübahisələri, sevincləri və s. qatma-qarışıq sözlər, cümlə qırıqları şəklində eşidilir. Kamera bir anlığa mübahisə edənlərdən ayrılır, pəncərədən şəhər küçələrini göstərir və yenidən əvvəlki görüm nöqtəsinə qayıdarkən biz otağı bomboş görürük. Səslər də susub-işçilərin səsi, reproduktorun səsi... Yalnız iri divar saatının çıqqıltısı eşidilir. Divar saatında 6-ya beş dəqiqə qalıb. Amma sükut çökmüş otaqda biz divar saatının çıqqıltısından başqa bir səs, hənirti də duyuruq. Kamera diqqətimizi otağın lap güncündə əyləşmiş və bayaqkı futbol mübahisələrinə qarışmayan Səftər dayıya çəkir. İşçilər çıxıb gedib, amma Səftər dayı hələ də öz masasının arxasındadır. Onun başı kağız-kuğuzun üzərinə əyilib, sayğacda nə isə hesablayır. Barmağını dili ilə isladıb qalın mühasib dəftərini vərəqləyir. Sonra başını qaldırıb divar saatına baxır, tələsmədən kağız-kuğuzunu yığışdırır, seyfə qoyur, seyfini bağlayır, bir-bir masasının siyirtmələrini də açarla kilidləyir, otaqdan çıxır, qapını örtür, qıfıllayır və aramla dəhlizdən keçib idarənin pilləkənləri ilə düşməyə başlayır. Fərqinə varmadığı mexaniki bir vərdiş halını almış adəti üzrə ürəyində pillələri saya-saya düşür. Üçüncüdən ikinci mərtəbəyəçən on yeddi pillə ndi. İkincidən birinciyəcən on səkkiz pillə...

Səftər dayının kadr arxası səsi: — 17, o da 18, 35, 35 o da 3719, elər... yox, 35-in 3719-a dəxli yoxdur. 3719 təxmini hesablamanın balansıdır. 4012 olmalıdır. Deməli, 293 manat çatmır. Görəsən harda səhv ediblər. Keçən kvartalda 145 manat səhv etmişdilər. 145 ya 147? yox 147. Bəs niyə 145 dedim?

Skleroz məni bir təhər eləyib. Pensiya vaxtın çatıb Səftər. Yox

hələ iki ilin var. Daha doğrusu, bir il 9 ay. Yaxud 21 ay, 21 ay neçə gündür? Neçə belə gün? Deməli, yanvar otuz bir, fevral gələn il 29-dandır, mart... Bəsdir Səftər, sənin lap başın xarab olub. Neynirsən bu mənasız hesablamalarla beynini yorub. Bəsdir. Yaxşı, deməli, balans 3719 manat, əskiyi... Əşi, çəhənnəm olsun balans da, əskiyi də. Saat 3-dür. Dördə beş dəqiqə işləyib. İş günu qurtardı. Bu gün şənbədir. Sabah bazar. Bazar ertəsinə qədər bütün balansı, planı, prixodu, rasxodu, bütün rəqəmləri unut. Unut ki, mühasibsən.

Bazar ertəsi səhər saat 9-da yenə başlayarsan mühasibliyə. İndi bəsdir. Bir dənə rəqəm yadına salma. Yaxşı, oldu. Elə bil beynimə qalaq-qalaq rəqəm yığıblar, rəqəmlər başımda elə bil tillə vurub. At hamısını. Adamlara, küçəyə bax.

Adamlı, maşınlı, səs-küylü, hərəkətli küçə. Adamlar qəzet kiosku qarşısında dayanıblar, su içir, papiros alır, trolleybus gözləyirlər. Səftər dayı küçəni keçib gündə nahara gəldiyi balaca darısqal yeməkxanaya girir. Hər gün oturduğu güncdəki stolun arxasına keçir.

Görünür masanın dalından indicə durmuşdular: üstü kiminsə artıqları ilə dolu idi. Bulaşıq boşqabdakı kotletin qalıqlarına papiros götükləri basılmışdı. Süfrəyə pivə dağılmışdı.

Səftər dayı mexaniki bir hərəkətlə cığara kağızında çap olunmuş yeməklərin siyahısını götürdü.

Dərhal da kənara qoydu; nə yeyəcəyini də bilirdi, yeməklərin qiymətlərini də. Borş, kotlet, kompot, bir şüşə "İstisu". Borş 35 qəpik, kotlet vermişel ilə 42 qəpik, on beş qəpik kompot, iyirmi qəpik "İstisu", on qəpik çörək. Cəmisi bir manat otuz qəpik, beş on qəpik az, ya beş on qəpik çox, deməli, ayda...

Öz—özünə:

—"Səftər, — dedi, — yenə rəqəmlər? Bəsdir kişi, at bu rəqəmləri beynindən".

Kimsə musiqi avtomatına pul atdı-mahnı səslənməyə başladı.

Xidmətçi gəlib masanın üstünü yığışdırdı. Süfrəni çırpdı. Çevirib o biri üzünü saldı. Bu üzü də ləkəli idi. Amma bu ləkələr qalıb qartımış ləkələr idi, hopub solmuşdular, o biri üzdəki kimi təzə deyildi.

Səftər dayı sifarişini elədi. İncəvara tez gətirdilər.

Kadrarxası səsi: "Borş dadlıdır. Bir az duzu çatmır. Ya bəlkə mən şor yeyənəm. Əlbəttə, Minanın yeməklərinə çatmaz, amma hər halda".

Səftər dayı köksünü ötürdü. "Yaxşı yumşaq ətdir, — deyə düşündü. — Lap qoca malıdır. Mənim kimi dişsiz qocalar üçündür".

Kotleti yeyib qurtardı, ağzını siləndə şıqqıltı ilə yerə nə isə düşdü. Səftər dayı baxıb "bəli, bu da belə getdi", — dedi, — əyilib düyməni götürdü, döş cibinə qoydu.

Ağ parusin pencəyinin yeddi düyməsi vardı. Yuxarıdan ikinci, üçüncü və beşincisi düşmüşdü. İndi də yeddincisi düşdü.

Kompotu içə bilmədi. Pis təmi vardı. Özü də bulaşıq suyuna oxşayırdı.

Daxili səsi:

"Gərək gedəm özümə diş qayırtdıram. Bu dal dişimi də gərək çəkdirəm. Hərdənbir yaman zoqquldayır. Gərək mütləq gedəm. Deyirəm, deyirəm, amma heç getmirəm. Elə günü günə satıram. Eh, heç adamın başı açılır ki... Gərək evin damına da qır saldıram. Yoxsa yenə damacaq. Damanda adamın bütün ovqatı təlx olur. Gərək bütün otaqlara ləyənlər, vedrələr boşqab-qazan, bankalar düzəsən. Hərəsindən də bir cür səs çıxır.

Mis ləyənə damcılayanda bir səs çıxır, vedrəyə başqa, qazana başqa, boşqaba başqa... Kap, kap, kap... Çap, çap, çap... Pap, pap, pap...

Dünyada üç şey adamı lap zinhara yetirir: çəkmən sıxa, dişin ağrıya, evin dama".

Səftər dayı küçəyə çıxdı, addımladı. "Bəli, Səftər kişi, — deyə daxili səsi eşidildi, — evin damır, dişlərin də tökulüb, düymələrin də bir—bir duşür, vaxtdır kişi. Bəsdir dünyanın səfasını çəkdin. Deyəsən əcəli qapının dalında bir az çox gözlədirsən axı..."

—Yox, vallah, — deyə yenə də daxilən öz-özünə cavab verdi. — Əçəldən qaçmıram. Ölümdən də qorxmuram. Məndən əskik adamları aparmayıb ki... Tay-tuşumun da çoxu ordadır.

Küçə radiosundan qəzetlər üçün oxunulan mətn eşidilirdi:

—Təkrar edirə.m. Kolxoz və sovxozlarımız bu il... dövlətə... planda nəzərdə tutulmuş... təkrar edirəm, kolxoz və sovxozlarımız bu il dövlətə planda nəzərdə tutulmuş 1200 ton əvəzinə 1897 ton taxıl, 90 ton əvəzinə 105 ton barama, 370 min əvəzinə 379 min yumurta, 222 ton əvəzinə 226 ton yun satmışlar, təkrar edirəm, 1200 ton əvəzinə...

Səftər dayı:

—Gedim bir arvada baş çəkim, — deyə düşündü — cümə axşamı

olmasa da... Yaman könlümə düşüb.

Səftər Sabunçu vağzalına gəldi. Mexaniki məlumat cihazına yanaşdı. Düyməni basdı. Cihaz paslı bir səslə lazımi qatarların gedib-gəlmə vaxtını dedi.

(Kadrarxası mahnı səslənir).

Qatar, gəncliyimə apararmısan
Keçmiş ünvanları axtararmısan
Bircə gün, bircə an geri dönəydim
Zamanın hökmünü sındırarmısan

Qatar, gəncliyimə apararmısan
Ötən illərimi qaytararmısan
Bu kədər, bü həsrət öldürdü məni
Məni bu həsrətdən qurtararmısan

Sayqaçda rəqəmlər ötdü yaşımı
İllər də yollar tək geridə qaldı
Saçları ağarmış bəyaz başımı
Arxaya baxmağa qaldırarmısan

Qatar, gəncliyimə apararmısan
İtən sevgiləri arayarmısan
Zaman qürbətinə düşdüm nə düşdüm…
Məni öz yaxtıma çatdırarmısan

Elektrik qatarı Abşeronla şütüyürdü.

Səftər qatardan düşüb qumlu kənd yolu ilə qəbiristanlığa tərəf gedlr.

Kənd qəbiristanlığı. Qəbirlərin üstünə, aralarına xəzəl səpələnib.

Səftər dayı xəzəlləri tapdalaya-tapdalaya qəbirlərin arası ilə arvadının son məskəninə tərəf addımlamağa başladı. həmişəki kimi yenə də qəbirlərin üstündəki yazıları oxuyurdu.

Əsgər Teymurov. 1905-1957.

Tofiq Babayev 1927-1946.

Kadrarxası səsi:

—"Adlar və rəqəmlər. Adlar və rəqəmlər. Yəni bu rəqəmləri bura yazmaq vacibdir. Yə'ni adamdan elə bu iki şey qalır. Adı və bu iki tarix. Axı, niyə belə? Axı, əslinə qalsa bu yazıların adamın şəxsən özünə dəxli də yoxdur. Adını özu qoymayıb, familini də həmçinin,

təvəllüdü, ölümü da özündən asılı deyil. Olmaz ki, bura adamın şəxsən özünə dəxli olan şeylər yazsınlar, məsələn kim idi, bu dünyada nə iş görüb, nə iş qoyub gedib, ya məsələn, tutalım xasiyyəti necə idi. Kimə nə yaxşılığı, nə pisliyi keçib. Övladı olub, yoxsa yox, ələndən sonra kimi qalıb? Yoxsa quru rəqəmlərdən nə çıxsın".

Ekranda qəbir daşları:

Faiq Mərdanov 1912—1959

Bəhman Salayev 1938—1965

Səftər dayı qeyri—ixtiyari rəqəmləri toplamağa başladı.

Kadrarxası səsi: 1912+1959 = 3871. Yox, burda toplamaq düz olmaz, çıxmaq lazımdır. 1959—1912 = 47. Deməli, biçarə Faiq Mərdanov 47 il ömr sürüb. 1965-1938=27. Vay, bədbəxt Bəhman Salayev, 27 yaş yaşayıb. 27 yaşında ölüb. Görəsən nədən ölüb?

Əşi, əcəl göznən-qaş arasındadır. Deməli, belə çıxır ki, adam əcəlin qurduğu tələlərdən bir-bir qaçıb qurtarır ki, bura, bu son mənzilə gəlib çıxa bilsin. Yüz cür təsadüfi ölümdən qorunur ki, özünü axırdakı, labüd ölümə yetirsin.

Deyir qoca bir səyyah gəlib qürbət ölkəyə çıxır. Qəbiristanlığa gedir. Görür qəbirlərin üstündə adamların yaşları yazılıb. Hamısı da bir yaş, çoxu beş yaş. Özü kimi piranə bir kişiyə rast gəlib soruşur ki, bəs bu nə olan işdi? Sizin camaat hamısı yəni görpə yaşında tələf olub? Qoca deyir ki, xeyr a, məsələ başqadır, məsələ ondadır ki, biz burda həmin bu adamların xoşbəxt yaşadıqları vaxtı yazmışıq. Qalan günlərini, illərini ömürdən saymırıq. Onda səyyah da deyir ki, bəs mənim də ömrümün axırına az qalıb. bu gün sabah öləcəm, vəsiyyət eləyirəm ki, məni də elə burda basdırın, qəbrimin üstündə də yazın ki, bəs bu adam elə" anadan ölü doğulub.

Minanın qəbirinə çatdı.

Minəvvər Mədət qızı 1909-1965

Özünü saxlaya bilmədi. Qəhərləndi, ağladı. Daxili səsi:

—Axı, sən söz vermişdin... söz vermişdin ki, kövrəlməyəcəksən. Yadıma düşdü... Yadıma düşdü, yazıq Minanın yuxuda danışmağı... Niyə belə vəfasız çıxdın ay arvad, məni bu qoca yaşımda kimə tapşırıb getdin?

Cibindən dəsmalını çıxartdı, eynəyini götürdü, gözlərini sildi. Bir müddət sakit dayandı. Sonra çevrilib getdi.

Bakı vağzalında qatardan düşdü. Daxili səsi: — "Vağzal qiyamət yerdir. Gələnlər, gedənlər! Heç yerdə o qədər deyib-gülən görmək

olmaz. Aerodrom da elədir. Amma aerodrom uzaqdır".

Vağzalın təzə keçidindən perrona çıxdı. Birinci və ikinci perron bomboş idi. Üçüncü perronda çoxlu adam vardı. Bəziləri əllərində iri gül dəstələri tutmuşdular.

İri lövhədə qatarların gəlib-getmə cədvəli asılmışdı. 11.30... 16.45... 19.05. Rəqəmlər, rəqəmlər...

Reproduktordan səs eşidildi:

—Moskvadan gələn 20 nömrəli qatar 3-cü yola qəbul olunur.

Perrondakılar hərəkətə gəldilər. Parovozun səsi eşidildi. Burnu göründü. Vaqonlar bir-bir ötdülər, 4, 5, 6, 7...

Yük xidmətçiləri vaqonlara tərəf yüyürdülər. Yaxalarındakı nömrələr zınqrov kimi atılıb-düşür, bərq vurub parıldayırdı: 15, 52, 38, 40...

Səftər dayı çevrilib pillələrlə aşağı düşdü, vağzalın qarşısındakı meydana çıxdı. İzdihamlı, səs-küylü küçəylə yavaş-yavaş gedirdi.

Bankın tanış binasının yanından keçərkən düşündü: heç evə getməyim gəlmir. Gecəyə hələ gör e nə qədər var. "İndi bank bağlıdır, işləmir, içindəki bütün rəqəmlər də yatıb. İstiqrazlardakı, pullardakı; növbənöv mühasibat kağızlarındakı rəqəmlər hamısı yatıb. Torpağa səpilmiş toxumlar kimi səssiz, sakit uyuyurlar. Həftənin birinci günü oyanacaq, qalxacaq, cücərəcəklər".

Küçədəki qəzet lövhəsinin qabağında ayaq saxladı. Qəzetin dördüncü səhifəsinə elə bil yuxarıdan aşağıyadək rəqəm səpələnmişdi, istiqraz cədvəli çap olunmuşdu.

3... 5... 6... 9... rəqəmlər, rəqəmlər, rəqəmlər, Uduşlar. Korpeşmançılıq.

Səftər dayı düşündü: bunlar nədi ki, adicə quru rəqəmlər, amma bax məsələn, 3 altıdan yox 7-dən sonra gələndə kiminsə bəxti gülür, kiminsə hıçqırığı içində qalır. Bu rəqəmləri belə yox, belə düzsən kimsə umsuq olur, kimisə bir xal yandırır, amma başqa birisinin birdən-birə kefini duruldur.

Küçə saatına baxdı. Saatın əqrəbləri sınıb içinə tökülmüşdü. Elə bil saatın içi vaxtın xarabalığı idi.

Əqrəbsiz saata baxanda adam nədənsə eymənirdi, adamda nə isə anlaşılmaz, müdhiş və vahiməli bir hiss oyanırdı. Elə bil burunsuz bir sifət görürsən.

Saatın yalnız rəqəmləri qalmışdı: 1, 2, 3, 4. 5, 6, 7, 8, 9, 10, 11, 12.

Birdən Səftər dayıya elə gəldi ki, küçədəki adamlar da rəqəmlərə oxşayır. Küçənin bütün səsləri qəfilcən susdu, dondu. Səsi: "Bax o dar kəmər bağlamış kök arvad 8-ə oxşayır, o iri başlı kişi 9-a, hamilə arvad 6-ya oxşayır. Uzun dimdikli papaq geymiş oğlan 7-yə bənzəyir. O tərəfdən iki arıq, kəkilli oğlan gəlir-11. Başqa bir arıq oğlan yumru-matan bir arvadla yanaşı addımlayır-10".

Səftər dayı öz-özünə güldü: "Yox, deyəsən bu gün mənim lap yəqin başım xarab olub. Yaxşısı budur, nə qədər gec deyil, gedim evə".

Küçə yenidən hərəkətə gəldi. Səslər eşidildi. Yağış çisələməyə başladı.

Açarı çıxarıb qapısını açdı. İşığı yandırdı. Keçib tavanın daman yerinin altına ləyən qoydu. Çayniki su ilə doldurub odun üstünə qoydu:

Divardakı təqvimə yanaşdı, diqqətlə baxdı.

5 iyun, 1965. Şənbə.

Günün çıxması saat 3.15 dəqiqə,

batması 21.07 dəqiqə.

"Pah atonnan! — deyə düşündü — zalım uşağı günü də cədvələ salıblar. Batıb çıxmasını hesablayıblar, hər şeyi, hər şeyi, inventara salıblar, günü, ayı, göydə neçə ulduz var, hamısını. O gün biri danışırdı, deyir siçanları, taxtabitiləri, birələri də hesablayıblar. Hansı şəhərdə neçə siçan, neçə taxtabiti, neçə birə var, hamısını hesablayıb, inventara salıblar. Pah atonnan, a kişilər..."

Səftər dayı diksindi. Çoxdan bəri otağında eşitmədiyi bir səs eşitdi — zəng səsi.

Evində telefonu vardı, amma lazımsız bir qutu kimi bir qıraqda atılıb qalmışdı. Yuxuya getmiş tənbəl, qara pişik kimi səssiz-səmirsiz, kirimişcə xumarlanırdı. İndi isə zəngi-zəngə calayırdı. Kim ola?

Dəstəyi götürdü.

—Allo!

—Aydını çağırın, pojaluysta!

—Hara zəng eləyirsən qızım?

—Ağayevgilin evi deyil?

—Xeyr, bala, Atayevin evidir.

—Oh, bağışlayın. Asdı. Du, du, du, du, du.

Səftər də telefonun çəngəlini basdı. Amma dəstək əlində qaldı.

Nədənsə onda qəribə bir həvəs oyanmışdı. Kimləsə telefonla danışmaq istəyirdi. Elə bil ancaq indi ağlına gəlmişdi ki, telefonu var və bu telefonla danışmaq olar. "Kimə zəng eləyim görəsən".

Dəstəyi yerinə qoydu. Telefonun altındakı masanın pərçim olmuş siyirtməsini açdı, oradan tozlu mixəyi bir dəftər çıxartdı. Dəftəri açdı.

Elə birinci səhifədəcə Minanın xəttini görüb kövrəldi. A. hərfində Minanın xətti ilə "Atayev Səftər" sözləri və onların telefon nömrəsi yazılmışdı: 93-15-20.

Səftər dayı: — "Mina yazığın xəttidir. Yazıq həmişə zarafatla üç şahı, bir abbası deyərdi.

İkinci səhifəni açdı.

B. hərfində Babanın telefonu yazılmışdı. Daxili səsi: "Yazıq Baba. Davadan qayıtmadı. Elə bil lap Baba üçün deyiblər ki,

Sən ki, bir od yalovdun

Necə yatdın yerdə sən?

Şir, pələng kimi oğlan idi, yazıq".

V. hərfində iki ad yazılmışdı: "Validə". Validə Minanın kiçik bacısıdır. İki ildir əri ilə Şəkiyə köçüb gediblər".

Q. hərfində yazılmış ad bərk-bərk qaralanmışdı.

E. hərfi boş idi.

İ. "İdris". "Maşallah İdris. Məndən üç yaş böyükdür, amma turp kimidir. Həmişə dağda-daşda. İndi də eşitmişəm Zaqatala tərəflərdə qazıntı aparır. Bu telefonu niyə çəkdirib bilmirəm. Heç vaxt Bakıda tapılmırlar, nə özü, nə arvadı. "Geoloq babayam, — deyir, — şəhərdə nə işim var? Mənimki dağdı, daşdı". Bəlkə indi mənim bəxtimdən şəhərdə ola?! Qoy bir zəng eləyim".

Dəstəyi götürüb nömrəni yığdı. Uzun zaman aralı siqnallara qulaq asdı. "Hardan olacaq? İndi görəsən hansı dağda, hansı meşədə çadır qurub oturub".

R.Rəhim. "Yox, bala Rəhim indi böyük adamdır. Əli böyüklərin ətəyindədir. Zəng eləyəcəyəm, deyəcək görəsən nə işi düşüb. Bir də ki, yəqin heç bu nömrə də düz deyil. Axı, böyük adamlar vəzifəyə keçən kimi o saat telefonlarını dəyişirlər".

Səftər səhifələri çevirir və ekranda tez-tez bir-birini əzəz edən köhnə fotoqrafiyaları görürük-sanki köhnə ailə albomuna baxırıq. Ayrı-ayrı, dəstə-dəstə adamlar. Eyni zamanda səslər qatma-qarışığı eşidirik — ayrı-ayrı sözlər, yarımçıq cümlələr, replikalar, musiqi

qırıqları, maşın siqnal səsləri, efir uğultusu-hənirti, pıçıltı, qədəh cingiltisi, gülüş, — ötüb keçmiş bir ömrün çoxdan unudulub itmiş səsləri — bir anlığa yenidən yaddaşa qayıdırdı. Sonra fotolar da solğunlaşıb ağardı, səslər də uzaqlaşıb itdi. Və tam bir sükut içində Səftər dayı dəftərin son vərəqini çevirdi.

Səftər dayı aramla, ehmallıca son səhifəni açdı.

Y. səhifəsində "Yaşar" sözü yazılmışdı, amma nədənsə telefonunu yazmaq unudulmuşdu. Telefon nömrəsi yox idi — elə yalın-yalxı Yaşar. Səftər: Yaşar, Yaşar? Görəsən bu hansı Yaşardır?

Dəftəri qapadı və birdən gözü arxa cilddə yenə Minanın xəttinə sataşdı. Mina iri çap hərfləri ilə

YANĞIN 01

MİLİS 02

TƏCİLİ YARDIM 03

yazmışdı

Səftər dayı öz-özünə gülümsünüb dəstəyi qaldırdı.

Sıfırı çəkdi, əlini birə uzatdı, birdən dayandı. Səsi: "Yox balam yanğın idarəsi ilə zarafat eləmək olmaz. Adamın atasını yandırarlar. Hər halda telefonu lap yəqin kəsdirərlər".

İstəmirdi ki, telefonunu kəssinlər. Dinməsə də qoy bir qıraqda durub qalsın.

Necə olsa hayandır.

Səsi:

"02-lə də zarafat etmək olmaz. 03-nən də.

Bəs 04? Görəsən 04 telefon varmı? Görəsən haradır? Bəlkə bu nömrəni yığıb elə belə danışmaq olar! Səni sorğu-suala tutmadan iki-üç kəlmə xoş söz deyərlər, hal-əhval tutarlar, kefini soruşarlar, ürək-dirək verərlər?".

Səftər dayı 04 yığdı. Telefondan heç bir səs çıxmadı. Nə uzun siqnallar, nə də qısa! heç bir səs gəlmədi. Sanki bu mövcud olmayan bir ərazi idi.

05 çəkdi. Yenə səs çıxmadı.

06 da hay vermədi.

07-də tez-tez qısa siqnallar eşidildi. Məşğul idi. 08 də məşğul idi.

Səftər dayı son nömrəni, 09 çəkdi və dəstəkdə dərhal səs eşidib özünü itirdi, karıxıb:

—Salaməleyküm, Səftərdir, — dedi. Quru bir səs eşidildi:

—Kim? Familinizi aydın deyin.

—Famili?.. Atayev. Atayev Səftər.

—Ünvanı.

—Mirzə Fətəli 45.

—Gözləyin.

Məsələ Səftərə sonra çatdı. Başa düşdü ki, məlumat bürosuna zəng eləyib, arvad da elə bilib bu telefon nömrəsini istəyir.

Onu gülmək tutdu, amma dəstəyi asmadı. Dəstəkdən səs gəldi:

—93-15-20. Səftər:

—Lap düzdür, — dedi — üç şahı, bir abbası. Ancaq qız onun sözlərini eşitmədi. Dəstəyi qoymuşdu. Səftər dayı da dəstəyi qoydu. Pıqqıldayıb guldü. Birdən düşündü: "Görəsən adam öz telefonu ilə öz nömrəseinə zəng eləsə nə olar? Görək".

Dəstəyi götürüb nömrəni çəkdi. 93-15-20...

Tələsik, aramsız, kəsik siqnallar eşidilməyə başladı.

—Du, du, du, du, du, du... Səftər dayı:

—Məşğuldur, danışır — dedi, güldü, sonra nədənsə bir az tutulan kimi oldu.

Dinləməyə başladı. Bir xeyli qulaq asdı.

Dəstəkdən zəhlətökən bir ardıcıllıqla səslər eşidildi: du, du, du, du, du...

Elə bu ritmdə tavandan ləyənə damcılar düşürdü: Kap, kap, kap, kap...

Birdən Səftər dayı yerindən sıçradı, telefonun dəstəyini atdı, dəstək yerə düşdü və Səftər dayı çaynikin altını keçirib, otağın işığını söndürüb, qapını açıb çölə çıxdığı müddətdə telefonun dəstəyindən: du, du, du — səsləri və ləyənə düşən damcıların kap, kap, kap səsləri bir-birini tamamlayırdı.

Səftər dayı küçəyə çıxdı. Bakının gur küçələrinə deyil, adamsız, dar, qaranlıq bir küçəsinə düşdü yolu. Küçə sakitlik idi. Ətraf sükuta qərq olmuşdu və bu sükutda yalnız Səftər dayının addım səsləri eşidilirdi. Qəfildən, kimsə yavaşcadan Səftər dayını səslədi. Səs xırıltılı idi, şübhəsiz ki, onun sahibi çoxdanın papiros çəkəni idi.

—Ellim!

Səftər dayı ayaq saxladı. Səkidə mağazanın qabağında gecə qarovulçusu əyləşmişdi. Səftəri o çağırırdı.

Səftər dayı çevrilib baxdı:

—Bəli — dedi.

—Kibritin olmaz? —Yoxumdur.

Qarovulçu təəccüblə başını yellədi. Əlindəki "Kazbek" qutusunu açıb hazır saxlamışdı.

—İşə bax e, — dedi, — kibrit yadımdan çıxıb evdə qalıb. İndi bütün gecəni papirossuz burda neyləyəcəyəm. Adətkərdə olasan, qalasan belə, adamın bağrı çatlayar.

—Bir adamdan istə də.

—Kimdən istəyəcəm? Budey elə biri sən, istədim, yoxundur. Bu andıra qalmış kuçədən də gecədə bir adam gecə ya keçməyə. Mən də buranı qoyub gedə bilmirəm axı... Nə isə... işim oldu əngəl. Bütün gecəni əziyyət çəkəcəm.

Hiss olunurdu ki, qarovulçu kibritdən, papiros çəkməkdən savayı müsahib də axtarırdı, darıxırdı, kiminləsə söhbət eləmək istəyirdi. Səftər dayı çiyinlərini çəkdi, keçib getdi, arxadan hələ də qarovulçunun səsi eşidilirdi:

—Andırı həmişə bu cibimə qoyardım e... bilmirəm necə oldu...

Səs uzaqlaşıb getdi. Səftər dayı küçənin o başına çatdı. Birdən onu yenə də çağırdılar.

—Əmi!

Səftər dayı dayandı.

Gənc bir oğlan — o yəqin ki, haradansa şən bir məclisdən gəlir— kefi ala buludda idi — Səftərə yanaşdı.

—Əmi, — dedi, — papirosunuz olmaz? Papirosum qurtarıb. Qalmışam belə.

Səftər dayı:

—Yoxumdur, — dedi, — bir qədərdən sonra. — Doğrudan yoxumdur, — deyə təkrar etdi, — olsaydı məmnuniyyətlə...

Oğlan:

—Yoxdur, yoxdur da — canınız sağ olsun, — dedi və ondan aralandı.

Səftər də bir neçə addım atdı, birdən ağlına bir fikir gəldi, dayandı.

—Oğul — deyə çağırdı. Qaranlıqda oğlanın səsi eşidildi:

—Bəli.

Səftər dayı ona tərəf qayıdaraq:

—Kibritin necə? Kibritin var? — deyə xəbər aldı. Oğlan da qaranlıqdan çıxaraq:

—Kibritim var, amma papirosum... — deyə sözə başladı.

—Bax orada, — deyə Səftər dayı onun sözünü kəsdi, — o tində,

dükanın qabağında qarovulçu oturub.

—Aha.

—Onun papirosu var, kibriti yoxdur. Get onun yanına.

Oğlan bir müddət təəccüblə Səftər dayıya baxdı sonra:

—Zarafat edirsiniz? — dedi.

—Zarafat niyə, a bala. Doğru sözümdür. Get ora, odey bax o tinin başında oturub.

—Sağ olun, — oğlan çevrildi və iti addımlarla uzaqlaşdı. Qaranlıqda əriyib yox oldu, yalnız addım səsləri eşidilirdi, onlar da uzaqlaşıb itdi.

Səftər dayı başını bulayıb yoluna davam etdi, bir neçə addım atıb yenidən dayandı, çevrilib arxaya baxdı.

Küçə qapqaranlıq zülmət içində idi.

Sonra küçənin lap o başında, uzaqda kibrit alışıb söndü və iki papiros odu közərməyə başladı. Qaranlıqda bu iki közərtidən başqa heç bir şey görünmürdü. İki papiros uzun zaman közərdi görünür, iki nəfər gecənin bu çağında yalnız papiros çəkmək imkanı deyil, həm də söhbətləşmək imkanı tapmışdılar.

Səftər dayı bir müddət fikirli-fikirli közərtilərə baxdı. Sonra gülümsündü və aramla bu gecə işıqlarına tərəf getməyə başladı. Kadr arxasında mahnı səslənməyə başladı:

Papirosum yana-yana,
Çatdım dosta hayana.
Getsəm də mən ha yana,
Rast gələcəm insana.

Əlini ver əlimə, insan oğlu,
Yolumuzdan çəkilsin qaranlıq, nigaranlıq.
Əlinin istisindən
Güc alsın ümidimiz,
insan övladıyıq biz.

Tənhalıq yaman.
Bir gün də,
bircə an da
yalqız olmasın insan.
Əlini ver əlimə,
Keçək ömür yolunu

insan nəfəsi duyaq.

Bax bu pənçərələrdə
Gör nə gur yanır işıq.
Bütün işıqları biz —
İnsanlar Yandırmışıq.

Bir müddətdən sonra küçənin gecənin göz-gözü görməyən zülmət qaranlığında iki papiros közərtisinin yanında üçüncü bir papirosda közərməyə başladı.

Qaranlıqda bu üç papirosun işığı hələ uzun müddət görünürdü.

Kamera bu küçədən aralandı və böyük şəhərin saysız-heszbsız sayrışan işıqlarını seyr etməyə başladıq.

1975

DAŞ SAATIN SƏSİ

(Sənədli filmin ssenarisi)

Daş saat. Donub dayanmış, daşlaşmış vaxt. Uzaq keçmişlərin daşa dönmüş yadigarları.

Xalqımızın sözü var: "Daş olsaydım əriyərdim, torpaq idim dayandım". Daşlar torpaqdan yaranır və son ucda insan kimi də torpağa qayıdır, ovulub dağılır, yerə qarışır, itib gedirlər.

Ancaq daşlar da var ki, bizə uzaq keçmişlərin səsini çatdırır.

Azərbaycanın torpağı ən qədim insan məskənlərindəndir. Azərbaycanda milyon il bundan qabaq yaşamış insanların daş yadigarları, misilsiz sənət örnəkləri hifz olunub.

Qadim insan məskənləri ilə, yurd yerləri ilə bağlı nə qədər əfsanə, rəvayət var. Bura Naxçıvandakı məşhur Əshabi-Kəfdir. Azərbaycanın ən qəribə, ən ecazkar guşələrindən biridir. Bqlkə də Əshabi-Kəflə bağlı qəribə əfsanələr buranın qəribə təbiətindən doğub.

Bir rəvayətə görə yolları gecəyə düşən səyyahlar kahada qalmalı olurlar. Yıxılıb yatırlar. Günorta vaxtı oyanarkən səyyahlardan biri yemək dalınca gedir, gedib öz doğma şəhərinə, hətta öz evinə çatır, amma heç kəsi tapmır. Məlum olur ki, üç yüz əlli il keçmişdir. Səyyahlar həmin kahada üç yüz əlli il yatıblarmış. İşi belə görəndə onlar dua edirlər ki, vaxt qürbətinə düşməmək üçün əbədi yuxuya getsinlər. Bu zaman dağlar ağız-ağıza qovuşur, səyyahlar həmişəlik içəridə qalırlar. Bura da o gündən Əshabi-Kəf adlanır.

Təbii mağaralara pənah aparan, qayalar arasında sığınacaq axtaran insan yavaş-yavaş daşın dilini öyrənməyə başlayır. Daşı-daş üstə qoyub divarlar, hasarlar tikir, soyuqdan, sazaqdan qorunur. Atını, itini bağlamaq üçün qayalar qırağında dəlik-deşik açır.

Bura Qobustandır. On min il bundan qabaq insanlar burda məskən salmış, ov etmiş, yaşamışdır.

İlk sözünü də insan daşlara demiş, qayalara danışmışdır. Qədim insan onu əhatə edən dünyanı, ovunu, silahını, gözəllik anlayışını bu rəsmlərdə əks edir.

Qobustan qaya rəsmləri ibtidai dövrün zəngin və nadir həyat səlnaməsidir.

Qədim yallı rəqsi... öküzlər... keçilər...

Yaxşı, bəs başında antenaya bənzər bir şey gəzdirən bu adamın şəkli nəyi ifadə edir?

Bəs bu qayıqlar hara üzür?

Mavi Xəzərim başqa bir sahilində, Abşeron ərazisində də qiymətli qaya və daş rəsmləri çox idi. Onların bir qismini bizə dəniz qoruyub saxlamışdır. Suyun səthi qalxan zaman bu qaya şəkilləri Xəzərin altında hifz olunub qalmışdır.

Abşeron təsvirləri Qobustan rəsmlərini xatırlatsa da, onlardan fərqlidirlər. Alimlər bu təsvirləri qədim mərasimlərlə bağlayırlar. Görəsən qədim insan əsrlərin, min illərin o tayından bizə, bu günün adamlarına nə xəbər göndərir, bu qəribə kompozisiyalarla, bu sirli sehirli rəsmlərlə bizə hansı fikrini, hansı duyğusunu çatdırmaq istəyir?

Göy dəniz, Mavi Xəzər. İndi isə gəlin dəniz səthindən dörd min kilometr yüksəkdə olan zirvələrə, yayda-qışda qarı əriməyən Gəmiqaya dağına çıxaq.

Gəmiqayanın özü də, rəsmləri də min bir əfsanə ilə bağlıdır. Rəvayət var: Guya Nuh peyğəmbər məşhur tufan vaxtı gəmisini məhz bu dağlarda saxlayıb. Ona görə bura Gəmiqaya adlanır. Rəvayət rəvayətdir, əfsanə-əfsanə. Amma bax bu şəkillər əfsanə deyil. Bunlar bizim günlərəcən gəlib çatmış həqiqətdir, sənət həqiqəti.

İlk örnəkləri qaya rəsmləri olan təsviri sənətimiz əsrlər keçdikcə memarlıq abidələrini bəzəməyə başlayır. Ağdaşda Xatun türbəsi üzərində çəkilmiş şəkillər Qobustandan, Gəmiqayadan gələn bir sənət ənənəsinin davamı deyilmi?

İnsanlar kimi şəkillərin də taleyi bəzən qəribə və gözlənilməz olur. Çox qədim dövrdə üzərində şəkil çəkilmiş rəsmli daş neçə-neçə əsrlərdən sonra tikilmiş keçmiş kənd evinin divarlarına hörülmüşdür. Muzey salonunda tablo kimi bu şəkil də sərgi yerini həmin evin içində tapmışdır.

Urud kəndinin qədim rəsmləri bizə uzaq keçmişlərdzn söz açır, həyat və ölüm haqqında ardıcıl bir hekayət nəql edir. Doğuluş, sevgi, ailə, ölüm.

Urud qəbiristanlığındakı məzar sənduqələri, insan ömrünün bütün əsas mərhələlərini əks etdirən bütöv bir dastandır.

Üç min il qabaq Naxçıvanda salınmış şəhərin divar daşları... Bu

tikili sənət nümunələri ilə həmahəng olan tunc dövrünə aiddir.

Neçə-neçə belə şəhərlərin xarabalıqlarından tapılmış tunc dövrü yadigarları. Onlar respublikamızın və ölkəmizin ən məşhur muzeylərində saxlanılır.

Qədim heykəltəraşlığın başqa nümunələri isə başqa bir muzeydədir. Açıq səma altındakı muzeydə. Bu "muzeyin" salonları Azərbaycanın muxtəlif rayonlarındadır: Kəlbəcərdə, Laçında, Naxçıvanda, Lerikdə. Əsrlərdən bəri xalqımız qoçu müqəddəs saymış, ona bərəkət, bolluq rəmzi kimi baxmışdır.

At isə ta qədimlərdən igidlik, hünər simvolu olub.

Muxtəlif heykəllər — müxtəlif hisslər aşılayır.

Bəzi qoçlar, atlar qəmli-qəmli, həzin-həzin durublar. Bəziləri qüvvətli, əzəmətlidir. Döyüşə hazır dayanıb.

Hər yerin öz sənət məktəbi olub. Təbii şəraitinə uyğun, mənzərəsinə bağlı.

Qədim insan bəzən gördüklərini yox, görmədiklərini də təsvir etməyə çalışıb, əcaib məxluqların surətlərini yaradıb. İnsan qədimdən bəri öz surətini də daşda əks etdirməyə can atıb. Məşhur Bayıl Daşlarında həkk olunmuş insan sifətləri buna örnəkdir.

Naxçıvan muzeyində saxlanan insan "başı".

Ağdamın Bəy Əhmədli kəndi. Üç metr hündürlüyündə heykəl. Bəzi tarixçilər bu heykəli büt sayır.

Başqa bir büt — heykəl.

Şamaxıda tapılmış insan fiqurları. Bu daşlaşmış sifətlərə baxanda müdrik Dədə Qorqud sözləri yada düşür: "hanı dediyim bəy ərənlər, dunya mənim deyənlər? Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı. Gəlimli, gedimli dünya, son ucu ölümlü dünya". Qəbir daşları sanki ayaq üstə həlak olmuş qoşunu xatırladır.

Qəbiristanlıq dünyanın kədərli guşəsidir.

Amma Sofi Həmid qəbiristanlığı belə deyil. Bura dünyanın ən əlvan məzarlığıdır. Burada qəmli yerin şux boyaları insanı ölüm barədə deyil, həyat barədə düşünməyə çağırır. Bu rənglər, bu sadə şəkillər dil açıb deyir ki, dünyadan insanlar gedir, amma insanlıq getməz, insanlıq qalar, həyat qalar, boyaları ilə, çalarlarıyla alışıb yanan rəngarəng bir dünya qalar. Bu qəbiristanlığa baxanda həyatın faniliyi, ömrün puçluğu haqqında deyil, dünyanın əbədi gözəlliyi, boyalar bayramı, sənət sevinci haqqında düşünürsən. Bu da Sofi Həmid pirindəki ağ dəvə:

Dəvələr düzdə qaldı,
Yukü Təbrizdə qaldı,
Karvan yola düzəldi,
Ağ dəvə bizdə qaldı.

Daş saatın səsi gəlir. Daş saat işləyir. Vaxt daşdan gözəllik yaratmış sənətkarların əməlini keçmişdən gələcəyə aparır…

DƏDƏ QORQUD DÜHASI

(üç hissəli sənədli filmin ssenarisi)

"Kitabi Dədəm Qorqud" və dastan haqqında araşdırmaların müxtəlif illərdə və müxtəlif dillərdə nəşrlərindən ibarət kollajın fonunda filmin titrləri gedir.

Nizami muzeyinin fasadı — Azərbaycan ədəbiyyatının klassiklərinin heykəlləri. Muzeyin içinə giririk. Dədə Qorquda həsr olunmuş otaqda, stendlərin önündə Aparıcı dayanıb. Bayaq kollajda gördüyümüz nəşrlərdən birini — "Kitabi Dədəm Qorqudu" götürür, açır, oxumağa başlayır.

—Xanım hey!

Sonra aparıcı üzünü kameraya tutub danışmağa başlayır:

—"Kitabi Dədəm Qorqud" bu sözlərlə başlanır. Bu gün bizimlə bizim dildə danışan Azərbaycan ədəbiyyatı bu sözlərlə başlanır.

Hər hansı xalq — ədəbi irsi nə qədər zəngin olsa da bir ya iki əsas kitaba, təməl kitaba, Ana kitaba malikdir. Belə Baş kitab xalqın varlığını ən dolğun və bitkin şəkildə əks etdirir, millətin mənliyini, mənşəyini və məskənini təsdiq edir. Xalqın həyat tərzi, güzəranı, ədəb-ərkan qaydaları, milli xarakterin ruhu və dərin mahiyyəti belə əsərlərdə tam ifadə olunur. Azərbaycan xalqının şah əsəri, Ana kitabı Dədə Qorqud dastanıdır. Türk xalqlarının Şekspir səviyyəsində dramaturqu, Tolstoy ya Balzak miqyasında romançısı yoxdur. Amma ingilislərin, rusların, fransızların da TDədə QorqudU əzəmətində dastanları yoxdur.

Drezden şəhərinin ümumi panoramı, bir neçə küçəsi, məşhur yerləri, Drezden qalareyası. Sonra kamera Drezden kitabxanasını göstərir, Kitabxananın içinə girir və "Kitabi Dədəm Qorqud"un saxlandığı yeri görürük.

Aparıcı:

Bu gün əlimizdə "Kitabi Dədəm Qorqud"un iki əlyazması var:

Drezden və Vatikan kitabxanalarında saxlanılan əlyazmaları. Drezden əlyazması daha qədim, daha mükəmməldir. Vatikan nüsxəsi altı boydan ibarətdirsə, Drezden nüsxəsi On iki boydan-fəsildən ibarətdir.

İri planla əlyazmanın bir səhvəsi göstərilir. Aparıcı:

—Drezden əlyazmasının bir özəlliyi də ondadır ki, burada boyların adlarından başqa mətndəki şerlər — söyləmələr də qırmızı başlıqla verilir. Bu da dastanın tamamən şerlə, yaxud bütünlüklə nəsrlə yazılması mübahisələrə birdəfəlik son qoyur.

Aparıcı əlyazmasından aşağıdakı sətirləri oxuyur:

"Rəsul əleyhissəlam zamanına yaxın Bayat boyundan Qorqud ata deyərlər, bir ər qopdu. Oğuzun ol kişi tamam bilicisiydi" — Bu sözlərdən aydın görünür ki, Oğuz elinin müdrik bilicisi, Dədə Qorqud Həzrət Məhəmməd peyğəmbərin zamanına yaxın, yəni VII əsrdə yaşamışdır. Əlbəttə "Kitabi Dədə Qorqud"da əksini tapmış bir çox motivlər, rəvayətlər, daha qədim vaxtlara, çox-çox əvvəlki əsrlərə, hətta, yunan mifolojisi dövrünə gedib çıxır. "Kitabi Dədəm Qorqud" əlyazmasını Drezden kitabxanasında aşkar edən və onun haqqında ilk məlumatı verən alman şərqşünası Dits Oğuz dastanının Homerin "İliada" və "Odisseya"sından daha qədim olduğunu iddia edirdi.

Homerin poemalarına çəkilmiş illüstrasiyalar — tək gözlü personaj Polifem. Dədə Qorquda çəkilməli illüstrasiyalar —Təpəgöz.

Aparıcı:

—Doğrudan da Homerin tək gözlü Polifem adlı personajının sərgüzəştləri ilə "Kitabi Dədəm Qorqud"dakı Təpəgöz süjeti heyratamiz şəkildə bir-birinə yaxındır.

Aparıcı Nizami muzeyində "Kitabi Dədəm Qorqud" nəşrlərindən birini açır. "Burada Dədə Qorqud"da keçən yer adlarının xəritəsi verilmişdir. Bu xəritə əsasən Azərbaycan ərazisini, amma həm də Gürcüstanın, Şərqi Anadolunun, Şimali İran və İraqın Ermənistanın türklər-oğuzlar yaşayan ərazilərini əhatə edən xəritədir. Kamera yer adlarının üstünə yeriyir:

Dərbənd, Gəncə, Bərdə, Əlincə qala, Bayburt, Trapezund,

Trabzon və başqa yer adlarını oxuyuruq. Kadr arxasından Aparıcının səsini eşidirik:

—Dastanı rus dilinə çevrilmiş akademik Bartold, habelə Yakubovski, İnostrantsev, Jirmunski, Kononov, Xalıq Koroğlu kimi məşhur türkoloqlar, Orxan Şaiq Gökyay, Məhərrəm Ergin kimi görkəmli Türkiyə qorqudşünasları, Həmid Araslı, Dəmirçizadə, Təhmasib kimi tanınmış Azərbaycan alimləri TDadə QorqudU dastanının məhz Qafqaz mühitində, Azərbaycan da yarandığını tutarlı subutlarla əsaslandırmışlar...

Ekranda Azərbaycanın müxtəlif yerləri canlanır. Dərbənd, Bərdə, Naxçıvan, Gəncə, Mərəzə (Diri Baba piri), qədim qalalar və onların xarabaları olan başqa yerlər: — Qəbələ, Xaraba Gilan, Çıraq qala, Gələsən görəsən qalası, Niyal və Gülüstan qalaları.

Türkiyənin Bayburt şəhərinin.

Bu kadrları Aparıcının kadrarxası səsi müşayiət edir:

—Dastan qəhrəmanlarından Bamsı Beyrəyin on altı il dustaq qaldığı Bayburt qalası. Rəvayətə görə Dədə Qorqudun əfsanəvi məzarı da buradır, üstü götürülüb.

Bayburtda Dədə Qorqudun "məzarını" görürük. Aparıcı:

—Hər bir əfsanəvi sima kimi Dədə Qorqudla bağlı çoxlu rəvayətlər var. Onun qəbrini də müxtəlif yerlərdə, — Türkiyənin Bayburt şəhərində, Orta Asiyada, Qazaxıstanda nişan verirlər. Azərbaycanı, Qafqazı gəzmiş XVII əsrin məhşur alman səyyahı Adam Oleariyə isə Dədə Qorqudun qəbrini Dərbənddə göstərmişlər. Eyni əsrin türk səyyahı Övliya Çələbi hətta Dərbənddə Dədə Qorqudun məzarını ziyarət etmişdir. "Kitabi Dədəm Qorqud,"un personajlarından biri — Bəkdüz Əmən dastanda deyildiyi kimi Məhəmməd peyğəmbərlə görüşübmüş. Bəkdüz Əmən real tarixi şəxsiyyət kimi təsbit olunan ərəb sərkərdəsi Səlman Farisi ilə bağlıdır. İslam uğrunda döyüşmüş və şəhid olmuş Səlman Farisinin qəbri Dərbəndin Qırxlar qəbiristanlığındadır.

Ekranda Dərbəndin Qırxlar qəbiristanlığı. Sonra Mərəzədə Diri Baba piri.

Aparıcı:

—Adam Oleari Mərəzə yaxınlığında Diri Baba pirindən də söz açır. Diri Babayla bağlı rəvayət Dədə Qorqud obrazının bəzi cəhətləriylə oxşardır...

Ekranda Bərdənin, Gəncənin, Naxçıvanda Əlincə qalanın pəncərələri...

Aparıcı:

—Bərdə, Gəncə, Əlincə qala — Azərbaycanın bütün bu yer adları "Kitabi Dədəm Qorqud"da əks olunub. Dastandakı hadisələr Gürcüstanın Azərbaycan türkləri yaşadığı sahələrində, habelə indi Ermənistan adlanan ölkənin dədə-babadan oğuz yurdları olan torpaqlarında cərəyan edir.

Ekranda sənədli kadrlar: Ermənistandan didərgin salınan Azərilər.

Aparıcı:

—Nə yazıq ki, Qarabağa erməni təcavüzü başlanandan bəri yüz minlərlə Azərbaycan türkü vəhşicəsinə dədə-baba yurdlarından qovuldular, illər boyu qaçqın çadırlarında ağır həyat sürməyə məcbur oldular.

Qaçqın çadır şəhərciklərindən mənzərələr.

Ekranda dumanlı dağlar, qoyun sürüləri, çobanlar. Aparıcının kadrarxası səsi:

—Hər dəfə yolum dağlara düşəndə elə bilirəm ki, Dədə Qorqud dünyasındayam. Kitabların Dədə Qorqud dünyasında yox, dumanıyla, yağışıyla, nənəqurşağıyla, boymədərəni, qantəpəri, çobanyastığı, quzuqulağı, yemliyi, qırxbuğumuyla, əvəliyiylə, qoyunuyla, keçisiylə, "südü, pendiri, qaymağı bol, qarla yağmur yağanda çaxmaqlı, qaranlıq axşam olanda qayğılı çobanlarıylaU ulu babalarımızın min illər bundan öncə həmin bu dağlarımızda keçən həyatlarından xəbər verən Dədə Qorqud dünyasına dalıram.

Aparıcının yuxaradıki sözlərinə uyğun kadrlar — dağlarda yaşayan çobanların məişətinə aid səhnələr. Alaçıqlar, dəyələr, muxurular, sürülər, çoban itləri…Motal papaqlı, çomaqlı çobanlar..

Aparıcı:

"Kitabi Dədəm Qorqud"un Azərbaycan tarixi üçün ən böyük xidməti və əhəmiyyəti onlan ibarətdlir ki,doğma dilimizdə danışan

xalqımızın öz doğma torpaqlarında neçə min illər boyu yaşadığını təsdiq edir.Qədim əcdadlarımızın — oğuzların dil, adət-ənənə, həyat tərzi ilə bugünkü varlığımızın nə qədər yaxın və doğma olduğunu göstərir. Oğuzlar Türkyiyə və Azəri türklərinin, türkmənlərin əcdadlarıdır, odur ki,dil baxımından,coğrafi məkan baxımından "Kitabi Dədəm Qorqud"un daha çox Azərbaycana aid olması bu dastana heç də Türkiyə və türkmən ədəbiyyatının ümumi qaynağı kimi yanaşmağa əngəl törətmir. Dədə Qorqud ümumiyyətlə bir çox türk xalqlarının ağız ədəbiyyatında, əfsanə və rəvayətlərində,zehniyyatında, mənəviyyatında, mifolojisində, gen yaddaşında mühüm yer tutan bir obrazdır. Bu da təbiidir,çünki türk xalqlarının gökləri birdir. Baxın, uzaq Tuvada tapılmış çoz qədim daş balballarla — Azərbaycanda, Şamaxının Xınıslı kəndində aşkar edilmiş əsgi heykəllər necə də bir-birinə bənzəyir.Eyni üslub,eyni tipajlar…

Aparıcının sözləri səslənərkən ekranda Xınıslıdakı daş bütləri və Tuvadakı heykəlləri (onların şəkilləri albomlarda var) görürük. Bu heykəllərin bir-birinə nə qədər yaxın olduğu aşkardır.

Çağdaş Azərbaycan həyatından müxtəlif səpgili kadrlar — insanlar iş başında, gəzintidə, ailədə.İdmanla məşğul olan, dərs oxuyan, toylarda, bayramlarda şadlanan adamların — qocaların, cavanların, uşaqların görüntüləri fonunda Aparıcının kadrarxası səsi:

—Öz doğma torpaqlarında dinc həyatla yaşayan, işləyən, çalışan, sevinən, şadlanan, qayğılanan xalqımız min illər bundan qabaqkı Dədə Qorqud qəhrəmanları kimi yüz cür bəlalarla da üzləşməli oldular.

"Dədə Qorqud" bədii filmindən kadrlar — düşmənlərin Qazanın obasına basqın etdikləri, çadırları yandırdıqları, hər yeri viran qoyduğu səhnələr — çağdaş sənədli kadrlarla calanır — Şuşanın uçurulmuş, dağılmış evləri, xarabalıqlar, Xocalı faciəsi, Bakıda 90-cı ilin qanlı Yanvar gecəsi — tank tırtılları altında əzilmiş insanlar, maşınlar, güllələbaran edilmiş evlər. Meyitlər, meyitlər, meyitlər… Ağlayan analar… Qara yanvar şəhidlərinin izdahamlı dəfn mərasimi.

Aparıcı:

—Neçə əsrlər, min illər öncəki kimi xalqımız ana yurdunun, doğma torpaqlarının, ləyaqət və şərəfinin müdafiəsinə qalxdı.

Azadlıq meydanında izdihamlı mitinq.

"Dədə Qorqud" filmindən kadr: Dədə Qorqud rolunda Həsən Məmmədovun dediyi sözlər:

"Bu meydanda çox ər qırıldı, az ər qaldı. Qoy az ərlər çox olsun, qoy Azərlər çoxalsın. Torpağın yurd, vətən olması üçün iki şərt lazımdır. Biri odur ki, gərək bu torpağı əkəsən, becərəsən, birisi də odur ki, gərək bu torpağı yağılardan qoruyasan. O torpağı ki, qoruya bilmədin, onu əkib becərməyə dəyməz. O torpağı ki, əkib-becərmədin, onu qorumağa dəyməz"…

Bu sözlərdən və səhnələrdən sonra yenə də Azərbaycanın müasir həyatına aid sənədli kadrları görürük — müxtəlif sahələrdə çalışan adamları — tarlalarda, zavodlarda, elmi laboratoriyalarda, ali və orta məktəblərdə… Ayrıca kadrlar kimi silahlı qüvvələrimizin, ordumuzun döyüşçülərini, onların təlimlərini görürük. Atəşkəs xəttindən kadrlar: Azərbaycan ərazisinə tuşlanmış top lülələri, raketlər. Azər-baycan tərəfində duran əsgərin mətin baxışları…

Dədə Qorqud yubiley komissiyasının iclası və iclasda dastanın əhəmiyyəti haqqında Prezident Heydər Əliyevin çıxışı.

Parisdə YUNESKO-nun iqəmətgahında "Kitabi Dədəm Qorqud"un 1300 illiyinə həsr olunmuş təntənələr. Elmi simpozium, sərgi, bədii hissə.

YÜNESKO-nun Baş katibi Frederik Mayorun, fransız alimi Lüi Bazenin, türk alimi Ə.B.Ercilasunun çıxışları. Konsertdə türk aşığı Reyhaninin, Qazax akınının, Azərbaycan artistlərinin ifaları. Fransızların ifasında Dədə Qorqud dastanından bir parça.

Aparıcı:

—YUNESKO-nun qərarıyla "Kitabi Dədəm Qorqud"un 1300 illiyi bütün dünyada qeyd olunur. Dastan dünyanın əsas dillərinə — rus və ingilis, fars və fransız, alman və italyan, serb və latış dillərinə çevrilib. Qoca Qorqud muxtəif millətlərə barışdan və dostluqdan, igidlikdən və vətənsevərlikdən, məhəbbətdən və etibardan danışır. Öz xalqını birliyə çağırır.

Aparıcının əlində bir neçə ox var.

Aparıcı:

—Rəvayətlərdən birində deyilir ki, Dədə Qorqud Oğuz igidlərini yanına çağırıb hərəsinə bir ox verir, bu oxları sındırın — deyir. İgidlər asanlıqla oxları sındırırlar.

Ekranda aparıcı oxlardan birini sındırır.

Aparıcı:

—Sonra bir neçə oxu bir-birinə bağlayıb — sındırın — deyir. Sındıra bilmirlər.

Aparıcı da bir neçə oxu bir yerdə tutub sındırmaq istəyir. Bacarmır.

Aparıcı:

—Dədə Qorqud: Gördünüzmü — deyir — Bir olsaz, sizi heç kəs sındıra bilməz. Güc birlikdədir. Bizi ancaq bir-birimizdən ayırıb, parçalayıb, bölüb məğlub edə bilərlər. Bir olsaq — yenilməzik.

Xalqın birliyini göstərən sənədli kadrlar…

Bakıda Respublika sarayında Dədə Qorqudun 1300 illiyinə həsr olunmuş təntənəli yığıncaq.

Salonda türk dövlətlərinin liderləri, nümayəndə heyətləri, çox sayda qonaq…

Səhnədə Türk xalqlarının məşhur sənətkarları — Nizami, Yunis İmrə, Nəsimi, Xətai, Füzuli, Vaqif, Məxdumqulu, Abay, Sabir Dədə Qorqudun pişvazına gəliblər.

1999

NƏSİMİ
(sənədli filmin ssenarisi)

Uca bir təpənin başında insan dayanıb. Qürub çağıdır. Adam çox uzaqdadır, biz onun nə sifətini, nə qiyafəsini, nədə geyimini seçə bilirik. Yalnız siluetini görürük.

Təpənin ətəyindən uzandıqca-uzanan, göz işlədikcə işləyən bir düzəngah başlayır.

Təpənin başında dayanmış adam əllərini qaldırıb kimisə haraylayır. Onun səsini eşidirik. Bu səs dağa-daşa düşüb əks-səda verir. Təpə başında dayanmış adam şer oxuyub kimisə haraylayır, kimisə çağırır. Bu dəsdə acı, ümidsiz bir fəryad var:

Canımı yandırdı şövqün, ey nigarım hardasan?
Gözlərim nuri, iki aləmdə varım, hardasan?

Bu səda, "hardasan", "hardasan" kəlməsi, sanki dağa-daşa toxunub əks-səda kimi qayıdır, dəfə-dəfə səslənir.

Bağrımı qan eylədi acı fərağın, gəl, iriş
Ey şərabi-kövsərim, getməz xumarım, hardasan?

Kamera zəhmli dağları, əbədi donmuş qayaları, təpələri, yamacları göstərir, elə bil canlı insan səsi bu cansız təbiət parçalarının sərtliyinə toxunub çilik-çilik olur, yalnız bir söz, bir rədif qırılıb yerə düşür: "hardasan?, "hardasan", "hardasan?"...

Səbrimi yağmaladı şövqün, qərarım qalmadı,
Ey mənim aramım, ey səbr qərarım, hardasan?

Əks-sədanın qaytardığı sonuncu "hardasan"lar susandan sonra bir müddət sükut çökür. Bura qədər şer yüksək bir ehtirasla, fəryadın, harayın zilində oxunurdu. İndi elə bil haray çəkən öz harayından yoruldu, cavab alacağına gümanını itirdi, çağırışından usandı. Şerin ardını o yorğun, pıçıltılı bir səslə oxuyur, qəzəl ümidsizliyin, cavabsızlığın bəmində səslənir:

Bad ilən göndər saçın buyun mənə hər sübhdən
Sanki yandı, keçdi həddən intizarım, hardasan?
Səndən ayrı könlümə yoxdur vəfalı yaru dost

Qəzəli oxuyan dayanır, nəfəsini dərir, köksünü ötürür, sonra bayaqkı çılğınlıqla, ehtirasla, var səsiylə son misranı haray çəkir.

Ey cəfasız, hüsnü-kamil yadigarım, hardasan?

Buludlar onun səsinə səs verir. Musiqi səslənir, sonra aparıcının sözlərini eşidirik:

—On dördüncü əsrin payız axşamında bax bu zirvənin başında bir adam dayanmışdı. Hardasan, hardasan, deyə o kimisə səsləyirdi, harayına cavab almırdı. Bəlkə də o bu zirvədə, bu təpədə yox, o birində dayanmışdı... Bəlkə axşam deyildi, səhər idi, payız deyildi, bahardı bəlkə... Bəlkə onun heç bu dağlara yolu düşməyibmiş, bəlkə şeirlərini bərkdən oxumağı sevməzmiş. Kimi çağırdığını, kimi harayladığını da bilmirik: itirdiyi sevgilisinimi, puça çıxmış ümidlərinimi, ötüb keçmiş bir daha qayıtmayacaq gəncliyinimi? Bircə onu bilirik ki, bu səs, bu haray, bu susmaz Nəsimi fəryadı altı yüz ilin ağlı-qaralı, qanlı-qadalı günlərini yarıb bizə gəlib çatmışdır.

Şirvan torpağı: yollar, körpulər, tikililər, düzlər, çöllər, ağaclar.

Aparıcı:

—Qədim Şirvan torpağı. Altı əsr bundan qabaq bu yollar belə deyildi. Nə bu körpülər vardı, nə bu tikililər. Heç bu ağaclar da yox idi, onların ən qocası olsa olsa 100-150 yaşındadır.

Dağlar, düzəngah, çay, bulaq.

Aparıcı:

—Ancaq bu dağlar vardı, bax bu düzəngah da beləcə uzanıb gedərdi. Bu çay da vardı. Bəlkə hətta bu bulaq da. Külək beləcə əsirdi, amma bu külək XIV əsr ağaclarını, budaqlarını titrədirdi. Nəsimi gözünü bu torpaqda açmış, dağları, ağacları, bulaqları, dunyanı ilk dəfə bu torpaqda — Şirvan torpağında görmuşdü. İndi bizim gördüyümüz bu dağlara onun gözləri də baxmış, həmin bu külək onu da üşütmüşdü. 600 ildən bəri yer üzündə çox şey dəyişib. Dağlardan, səmadan, günəşdən başqa. Bir də insan hisslərindən, insan duyğularından başqa.

Orta əsr şərq miniatürçü rəssamların çəkdiyi müxtəlif şəkillər: qədim cəngavərlər, gözəl, incə qızlar, vüsala yetmiş aşiqlər.

Aparıcı:

—600 il bundan qabaq da insanlar sevir, iztirab çəkir, kədərlənir, ümid bəsləyir, ümidlərini itirirdilər. Rəssamlar bu hissləri, bu insanları, altı əsr bundan qabaqkı həyatı fırçaya alır, şairlər eşqi, vüsalı, gözəl yarı vəsf edirdilər.

Miniatürlər bir-birini əvəz etdikcə Nəsiminin şeiri səslənir:

KİŞİ SƏSİ:

Ləblərin qəndinə şəkər dedilər
Cani-şirinə gör nələr dedilər.
Dedilər kim, dəhanı yoxdur onun
Bixəbərlər əcəb xəbər dedilər.

Yüzünü məndən nihan etmək dilərsən, etmə gəl
Gözlərim yaşın rəvan etmək dilərsən, etmə gəl!
Çünki eşqin məskənidir könlümün viranəsi,
Həsrətə onu məkan etmək dilərsən, etmə gəl!

Aparıcı:

—Altı əsr ərzində müəyyən sözlər qocalıb ölür, dildən çıxır. Yeni sözlər, ifadələr doğulur. Ancaq dil qalır. Nəsiminin böyük tarixi fədakarlığı onda idi ki, o doğma ana dilində, Azarbaycan dilində yazırdı. Altı yüz ilin başı üstündən o bu günə, bizə hamımızın anladığımız, başa düşdüyümüz, bizə doğma və munis olan bir dildə müraciət edir:

Düşdü yenə dəli könül gözlərinin xəyalinə
Kim nə bilir bu könlümün fikri nədir, xəyalı nə?
Al ilə ala gözlərin aldatdı aldı könlümü
Alını gör nə al edər, kimsə irişməz alına
Sirrini ol qara bəyin yanağı şərh edər, vəli,
Can nola gər fəda ola yanağına və xalına.
Bahar mənzərələri.

Aparıcı:

—Altı yüz il qabaq yaşamış şair baharda oyanan torpağı görəndə, qışın buz buxovlarından azad olub baş qaldıran otları, çiçəkləri görəndə keçirdiyi hisslər sanki bugünkü insanın duyğularıdır.

Nəsiminin "Bahariyyə" şeiri səslənir:

Bahar oldu və açıldı yüzündən pərdə gülzarın
İrişdi qönçənin dövrü, zamanı qalmadı xarın
Fərəhdən qönçənin gülgün yanağı güldü, açıldı
Ki, mənzuri yenə güldür çəməndə bulbülü-zarın,
Boyaçı bir imiş çünkim bu ənvarın, bu əzharın
Bu gün bazar edər gülşən çəməndən, laləvü güldən
Qənimət gör ki, beş gündür tamaşaçı bu bazarın.

Lalədən alışıb yanan çöllər, sıx meşələr, şaqraq şəlalələr, aydın

biludsuz səma, bulaqlar, budaqlarda ötən quşlar...

Təbiət səsləri — yarpaqların, otların xışıltısı, şəlalənin, çayın səsi bülbülun cəh-cəhinə qatışır. Qəfilcən ayrı səslər eşidilməyə başlayır. Bu səs hələ uzaqdan gəlir, lakin onun mudhiş və məşum ritmi sanki bu bahar sakitliyinə, dincliyinə, ahənginə qənim kəsilib — bu səs yaxınlaşan atların nal səsidir.

Böyuk bir süvari dəstə ekranın bu başından o başına çapır, biz ayrı-ayrı atlıları, onların qiyafəsini görmürük, seçmirik. Baş gicəllədən bir surətlə belədən-belə keçən bu qoşun qara bir yel kimi, dəhşətli bir tozanaq, qasırğa kimi ekranı tutqun rəngə boyayır, ağaclardan, otlardan. çiçəklərdən əsər-əlamət qalmır. Atlıların əllərində məşəllər də var. At nallarının səsi uzaqlaşır. İndi ekranda başqa bir mənzərə canlanır, meşələr od tutub yanır, otlar, çiçəklər tapdaq altında əzilmişdir.

Biz qədim Azərbaycan şəhərlərinin — Qəbələnin Örən qalanın, Şamaxının xarabalarını görürük.

Uçub dağılmış divarlar, şüşəsiz pəncərələr, yerlə-yeksan olmuş binalar, bir də daşlar, daşlar, daşlar.

Aparıcı hüznlə danışır:

—İstilaçı ordular Azərbaycanı talayıb keçirdilər. Qəsbkarlar insanlara, bahara, həyata qənim kəsilmişdilər. Dünyaya açılan Nəsimi gözləri müxtəlif əlvan çiçəkləri, qönçələri, gülləri gördü. Fəqət bu gözlər dağıdılmış şəhərləri, talanmış evləri, söndürülmüş ocaqları da görməli oldu. Toxtamış qarətlərini, Teymurləng qəddarlığını, insan iztirablarını, dünyanın acısını da görməli oldu.

Nəsimi qəzəli səslənir:

Dil bazarçısı yalandır, varmazam bazarına
Kerçək olmaz dil, inanmazam iqrarına.
Varı möhnətdir cahanın, nə umarsan ey könül
Lənət olsun bu cahanə, həm cahanın varına!

Xaraba qalmış evlərin, şəhərlərin fonunda ağlaşma səsi eşidilir. Qadınlar ağı deyir, hıçqırırlar.

Sonra yenə Nəsiminin şeiri səslənir:

Dünya duracaq yer deyil, ey can səfər eylə
Aldanma onun alına, ondan həzər eylə.
Bir halə qərar eyləmə əyyam keçər ömür,
Ey əhli-nəzər, bax da bu halə, nəzər eylə!

Gecədir. Xarabalıqlar, çöllər, dağlar, qayalar qaranlığa qərq olub.

Aparıcı:

—Orta əsrlərin zülmət qaranlığında, qanlı müharibələr, amansız istilalar, talanlar və qarətlər dövründə iztirab çəkən insan bir təsəlli, bir pənah axtarırdı.

Gecənin qaranlığına qərq olmuş səma fonunda əzəmətli bir məscid binasının silueti — gümbəz, minarələr. Minarənin başında müəzzin əzan çəkir.

Aparıcı:

—İslam dini insanları mutiliyə, şükrana, təvəkkülə çağırır, bu dunyadakı iztirabların əvəzində o dünyada cənnət vəd edirdi.

Aparıcı

—Dövrün açıq fikirli, düşünən insanları bu mütiliyə dözə bilmir, bu zehni əsarətlə barışmaq istəmirdilər. Lakin o dövrdə dini itaətə, ruhani köləliyə qarşı üsyan yalnız dinin öz daxilində, öz çərçivəsində mümkün idi. Gah sufilik, gah mütəzalilik, gah ismaililik adıyla meydana çıxan müxtəlif islam təriqətləri dar qəliblərdə çabalayan insan təfəkkürünün çırpıntıları idi.

Əzan səsi güclənir.

Aparıcı:

—Din "şəkkakə lənət" deyirdi. Düşünmədən, anlamadan. dərk, etmədən yalnız inanmalı, səcdə qılmalı, şükr eləməliydin. Üsyankar insan şüuru barışmaq, susmaq, tabe olmaq istəmirdi. İslam dini daxilində vəhdət-vücud-panteizm fəlsəfəsi yaranırdı. X əsrdə "Ənəlhəq" — Allah mənəmU deyən sufi şair Həllac Mənsur dara çəkildi. XIV əsrdə hürufilik təriqətinin əsasını qoymuş Fəzlullah Nəimi Teymurləngin oğlu Miranşah tərəfindən edam edildi.

Ekranda miniatürsayaq stilizə edilmiş faciəvi şəkillər. Edam səhnələri. Bu şəkillər Avropa tarixinin qanlı səhifələrini — inkvizisiya işgəncələrini, yanğın gecələrini əks etdirən qravürlərlə tamamlana bilər; cəhalət cinayətləri Qərbdə də, Şərqdə də az olmayıb.

Aparıcı:

—Orta əsrlərin cəhalət zülmətində əqidəsi uğrunda ölümə getmiş Cordano Brunolar, Yan Quslar, Həllac Mənsurların sırasında bir böyük insanın da adı var: İmadəddin Nəsimi.

Nəsiminin muasir rəssamlar tərəfindən çəkilmiş xəyali rəsmləri. Aparıcı:

— Nəsimi Həllac Mənsurun iztirablı ölümündən xəbərdar idi. Fəzlullah Nəiminin faciəli aqibətini bilirdi. Lakin o da bu yolun yolçusu, fədaisi, mücahidi oldu.

Nəsiminin şeiri səslənir:

Bulmuşam həqqi, ənəlhəq söylərəm
Həq mənəm, həq məndədir, həq söylərəm.
Uçsuz-buçaqsız səhrayla dəvə karvanı gedir.

Aparıcı:

—Azad fikrin, açıq sözün bahası qan bahasıydı. Mənsur dara çəkildi, Fəzlullah edam olundu, Nəsimi vətənindən didərgin düşdü.

Dəvə karvanı yoluna davam edir. Dəvə karvanının ləngərli ritmində ekranda yalnız səhra deyil, şairin əbədi tərk etdiyi Şirvan torpağı, doğma Aəprbaycan keçir, qədim qalalar, bürclər, saraylar, körpülər keçir. Bakıdakı Qız qalası, Naxçıvandakı Əlincə qala, Atabəy və Atababa məqbərələri, Sınıq körpü, Xudafərin körpüsü. Dəvə karvanı qədim bir qəbiristanlığın yanından keçir.

Aparıcı:

—Nəsimi qədim Şirvandan, doğma Azərbaycan torpağından, baba ocağından ayrılırdı. Bu qədim qalalardan, məqbərələrdən, çöllərdən, dağlardan ayrılırdı. Əcdadının yatdığı bu qəbirlərdən ayrılırdı.

Təpə başında qara çadraya bürünmüş yeddi qadının silueti. Onlar uzaqlaşan karvan səmtinə baxır, bayatı çağırırlar. Zil və yanıqlı səslər dağlardan, daşlardan əks-sədalarla qayıdır. Bu qadınlar sanki vətənin — Azərbaycanın rəmzidir.

BİRİNCİ QADIN:

Karvan yola düzülür
Xumar gözlər süzülür
Necə qan ağlamayım
Əlim səndən üzülür.

İKİNCİ QADIN:

Mən aşiq qala məndə
Bürc məndə, qala məndə
Qorxuram düşəm öləm
Həsrətin qala məndə.

ÜÇÜNCÜ QADIN:

Dağların yağışından
Təngindən, axışından

Bu gediş ömürlükdür,
Duymuşam baxışından.

DÖRDÜNCÜ QADIN:

Qızıl gül olmayaydı
Saralıb solmayaydı
Bir ayrılıq, bir ölüm
Heç biri olmayaydı.

BEŞİNCİ QADIN:

Bu yoldan ötən yaxşıdır
Geyməyə kətan yaxşıdır
Gəzməyə qürbət ellər
Ölməyə vətən yaxşıdır.

ALTINCI QADIN:

Gəl məni fağır ağla!
Kimsəm yox, sağır ağla!
Çıx dağların başına
Adımı çağır ağla!

YEDDİNCİ QADIN:

Əziziyəm söz deməkdən
Yoruldum söz deməkdən
Nə sən yoldan yoruldun
Nə mən yol gözləməkdən.

Karvan uzaqlaşdıqca dağ başında dayanmış qadınlar kiçilir, görünməz olur.

İndi dəvə karvanı Ərəbistan səhralarını andıran ekzotik mənzərələr fonunda, qədim və zəngin qəsrlər, saraylar, karvansaralar fonunda gedir.

Aparıcı:

—Nəsimi qürbətdə çox dolandı, Türkiyədə, Suriyada yaşadı. Həqiqəti, həyatı, qadın gözəlliyini, məhəbbəti tərənnüm etdi. Onun ən nikbin şeirlərində, həyat eşqiylə dolu qəzəllərində belə bir hüzn, bir nakamlıq, sınıqlıq duyulurdu. Bəlkə bu acı, intizar əbədi tərk edilmiş, yasaq olunmuş vətənin həsrəti idi. Bəlkə o yarına müraciət edərkən belə itirilmiş yurdunu düşünürdü.

Nəsiminin şeiri səslənir:

Yanaram eşqindən, axar gözlərimdən yaşlar,

Firqatin dərdi çıxardı ürəyimdən başlar.
Müdəi tən edibən başıma qaxar eşqini,
Sınığa vacib deyildir bunca atmaq daşlar.

Taqətim taq oldu, yandım, keçdi ömrüm ah ilə,
Dərdimə darman nə dersiz, neyləyim, yoldaşlar?

Ekranda payız mənzərələri, yarpaq tökümü, çılpaq ağaclar, boz səma, külək.

Aparıcı:

—Nəsimi öz ölkəsindən canını xilas etmək üçun qaçmamışdı. Onun getdiyi ölkələrdə cəhalət zülməti daha qatı, dini təəssübkeşlər daha amansız, şəriət qanunları və ehkamları daha sərt idi. Nəsiminin məramı başqa idi. O tapındığı hürufilik əqidəsini, vəhdət-vücud fəlsəfəsini yaymaq istəyirdi. Mənsurun, Fəzlullahın aqibəti Nəsimiyə də düçar oldu. O, Hələbdə ələ keçdi.

Hələb şəhərinin müasir mənzərələri.

Aparıcı:

—Budur Hələb, bugünkü Hələb, Suriyanın ikinci mərkəzi, müasir küçəli, müasir evli, müasir şəhər. 600 il bundan öncə burada baş vermiş façiənin izləri çoxdan itib sovulub. Yalnız nəsildən nəslə keçən yaddaş xəzinələrində əfsanələr, rəvayətlər qalıb, bir də qədim əlyazmalarındakı sənədlər, faktlar...

Ərəb əlifbasıyla yazılmış qədim əlyazmaları vərəqlənir. həmin əlyazmalarından biri ərəbcə oxunmağa başlanır, ərəb dili arxa plana keçir, aparıcı mətnin azərbaycancaya tərcüməsini oxuyur.

—Hələbin canişini Yaşbəkin dövründə Nəsimi ədalət evində ittiham edilmiş və öldürülmüşdür. İbn Şankaş əl Hənəfi şəhərin qazilərinin və alimlərimin qarşısında Nəsimini ittiham etməyə başladı. Vəkilin müavini İbn Şankaşa dedi ki, əgər sən dediklərini isbat etməsən sənin özünü öldürəcəyik. Nəsimi isə kəlmeyi-şəhadətdən başqa heç nə demədi və ittihamları rədd etdi. Yaşbək dedi: mən onu öldürürəm, sultan mənə əmr vermişdir ki, onu agah edim. Sultana xəbər verildi, sonra sultanın əmri gəldi ki, dərisi soyulsun, yeddi gün Hələbdə tamaşaya qoyulsun və hamıya məlum edilsin.

Əzəmətiylə, ehtişamıyla adamı sıxan böyük bir sarayın içi.

Biz sanki bu sarayın adamsız otaqlarından keçirik, bir-bir açılan

qapılardan içəri daxil oluruq. Pilləkanlarla qalxırıq.

Aparıcı:

—Rəvayətə görə Nəsiminin dərisi soyularkən ruhanilərdən biri deyir:

—Bu elə bir kafirdir ki, bir damla qanı hara düşsə kəsib atmaq lazımdır. Bu zaman şairin qanından bir parça həmin ruhaninin barmağına sıçrayır. Camaat ondan barmağının kəsilməsini tələb edir. Zahid qorxub sözündən imtina edir. Bu zaman al qan içində can verən Nəsiminin səsi ucalır. Bu səs altı yüz ildən keçib bizə gəlib çatmışdır:

Zahidin bir barmağın kəssən dönüb haqdan qaçar
Gör bu gerçək aşiqi sərpa soyarlar, ağrımaz.
Şəha, mehrindənmidir, ya aşinalıqdanmıdır
Cismimi sər ta qədəm min gəz yararlar, ağrımaz.
Zahidin əfsanəsindən soydular nahəq məni
Həqq bilir səndən, şəha, sahib nəzərlər ağrımaz.
Şişəmi çün daşa çaldım, haqqı izhar eylədim
Haqq bilir, bir zərrə neştərdən damarlar ağrımaz.
Soyun ey murdar sallaxlar Nəsiminin tənini
Bunca namərdi görün, bir ər qıyarlar ağrımaz.

Yenidən Nəsimi haqqında məlumat olan əlyazmaları vərəqlənir. Yenə ərəbcə mətn eşidilir, sonra bu mətn ikinci plana keçir və tərcüməsi oxunur.

—Nəsimi Hələbdə öldürülmüşdür. Bu adam kafir və allahsız idi. Onun sözlərindən və işlərindən allah bizi saxlasın...

Dağ başında dayanmış çadralı qadınlar bayatı çağırırlar.

BİRİNCİ QADIN:

Bu dağlar ulu dağlar
Çeşməli sulu dağlar
Burda bir qərib ölüb
Göy kişnər, bulud ağlar.

İKİNCİ QADIN:

Burdan bir atlı getdi
Atın oynatdı getdi.
Gün kimi işıq saçdı
Ay kimi batdı getdi.

ÜÇÜNCÜ QADIN:

Apardılar gülümü
Eylədilər zülümü
Nə qoydular danışam
Nə kəsdilər dilimi.

DÖRDÜNCÜ QADIN:

Yatmış idim oyandım
Dərdə, qəmə boyandım
Daş olsaydım ərirdim
Torpaq idim dayandım.

BEŞİNCİ QADIN:

Əl dəymə yazığam mən
Ürəyi qazığam mən
Mən ölsəm sənə qurban
Sən ölmə, yazığam mən.

ALTINCI QADIN:

Bu dağda ozan ağlar
Dərd qəmin yazan ağlar
Qürbətdə can verənin
Qəbrini qazan ağlar.

YEDDİNCİ QADIN:

Dağlara dolu düşər
Qar yağar, dolu düşər.
Qəbrim yol üstə qazın
Anamın yolu düşər.

Aparıcı:

—*Qəbrini yol üstündə qazmadılar, Nasiminin. Amma şairin anası, vətəni Azərbaycan oğlunun məzarını arayıb tapdı... Şairin ölümündən altı əsr sonra Azərbaycan nümayəndələri Hələbə gəldilar, böyük Nəsiminin məzarı başına əklillər qoydular.*

Müasir Hələb. Nəsiminin məzarı olan məhəllə.

Aparıcı: — *Budur Nəsiminin türbəsi.*

Türbənin divarında Azərbaycan dilində yazı:

Üzüldük dönmədik mərdanəlikdən
Xudayə belədir hübbi-səmimi
Kəsafətdən çıxıb olduq bəhəqqə
Gülüstani-ilahinin Nəsimi.

Aparıcı:

—Nəsiminin qəbri qürbətdə, Hələbdədir, səsi, sözü, adı, şöhrəti doğma vətəni Azərbaycanda, bütün dünyada... Nəsimi cahanı gəzir. Böyük sənətkarlar nə öz dövrlərinə sığışırlar, nə donub qalmış ehkamların sərt qəliblərinə, nə də dar, qaranlıq məzarlarına. Onların məskəni bütün dövrlər, bütün ölkələr, bütün qəlblərdir. Bütün cahandır.

Filmin ilk kadrlarının təkrarı kimi görunən kadr. Dağ başında tək dayanmış adamın silueti görünür. Ancaq indi günün başqa vaxtıdır. Qürub çağı yox, səhər erkəndir. Dan yeri sökülür. Üfüqdən gunəş qalxır.

Dağların, çöllərin üzərinə əzəmətli, möhtəşəm bir səs yayılır:

Məndə sığar iki cahan, mən bu cahana sığmazam.
Gövhəri laməkan mənəm, kovni-məkana sığmazam.
Can ilə həm cahan mənəm, dəhr ilə həm zaman mənəm
Gör bu lətifəyi ki, mən dəhrü-zəmanə sığmazam.
Zərrə mənəm, günəş mənəm, çaharla pəncü-şeş mənəm
Surəti gör bəyan ilə, çünki bəyanə sığmazam.
Gərçi bugün Nəsimiyəm, haşimiyəm, qüreyşiyəm.
Məndən uludur ayətim, ayətə-şanə sığmazam.
Məndə sığar iki cahan, mən bu cahana sığmazam.

AŞIQ GÖRDÜYÜNÜ ÇAĞIRAR

(Sənədli filmin ssenarisi)

Dağlara çən düşmüşdü. Amma narın dumanın içində hər halda dağların siluetlərini sezmək, seçmək olurdu. Duman içindən bir səs gəlirdi: Saz səsi. Sazda "Dilqəmi" havası çalınırdı.

Qol-budaqlı şah tut ağacının kölgəsinə xeyli adam toplaşmışdı. Toplaşanlar dövrələmə oturub aşığı gözləyirdilər. Aşıq dağdan arana endikcə duman da seyrəlirdi. Nəhayət o, dumanın içindən çıxıb tut aqacının altında toplaşmış məclisə tərəf addımladı.

Aşıq artıq meydana girmişdi. Dinləyənlərin arasında ahılı da vardı, cavanı da, kişisi də, qadını da. Dövran bu aşığın dövranıydı.

Ekranda bu sözlər yazılır:

"Bir baxın bizim aşıqlar toylarda oxuyanda onlara qulaq asanlara. Bu zaman bu qulaq asanlar elə hala gəlirlər ki... ətini kəssən də xəbəri olmaz, elə ki sonra toy qurtardı. aşıqlar evinə getdi, beş-on uşaq gecə və gündüz küçələrdə gəzəndə aşıqdan eşitdiyi qafiyələri oxuya-oxuya gəzirlər...

Həsən bəy Zərdabi 1906".

Zərdabinin sözlərinə uyğun olaraq aşığın indicə ifa etdiyi havanı özünəməxsus bir tərzdə oxuya-oxuya qaçışan uşaqları görürük. Xususi şövq ilə oxuyan bir uşağın surəti stop-kadra keçir və bu fonda, aşıq musiqisinin müşayiətilə filmin titrləri yazılır.

Titrlər qurtaran zaman biz həmin yeri — yəni tut ağacının altını boşalmış, adamsız görürük. Tut ağacının bir budağı quruyub, qırılıb kənara əyilib.

İki nəfər gəlib həmin budağı arıtlayır, mişarlayır, maşına yükləyib aparır.

Bu fonda diktorun səsi eşidilir:

—Barıyla insanların ağzını şirin edən, gen kölgəsiylə neçə-neçə məclisləri yola verən şah tut quruyub qoparılanda da adamlara son töhfəsini verir — ən gözəl sazlar məhz tut ağacından düzəldilir.

Musiqi alətləri emalatxanasında tut ağacından düzəldilən muxtəlif sazları görürük. Əvvəlcə iş prosesini — sazın yonulmasını, tellərin çəkilməsini və s. görürük. Sonra kamera bizə yan-yana düzülmüş üç sazı — iri, orta və kiçik sazı göstərir. Diktor:

—Aşıq musiqisinin çalğı aləti — saz üç növdür — böyuk saz, buna ana saz da deyilir, tavar saz, bir də cürə saz — buna qoltuq sazı da deyirlər.

Ekranda gördüyümüz gilas ağacının fonunda diktor öz sözünü davam etdirir:

—Əgər sazı tut ağacından düzəldirdilərsə, təzanəsini gilas ağacından düzəldirdilər.

Yenə də emalatxanada gilas ağacından düzəldilmiş təzanələri görürük.

Aşıq ana sazı götürüb sinəsinə basır, sağ əlinə götürduyü təzanəylə telləri dilləndirir və Ədalət Nəsibovun ifasında "Ruhani" havası səslənməyə başlayır.

Diktor:

—Sazın əcdadı qədim Qopuz olan kimi, aşıqların ulu babaları varsaqlar, ozanlar olan kimi, adı tarixlərdə qalmış el sənətkarlarımızın — Qurbaninin, Abbas Tufarqanlının, Koroğlunun, Sarı Aşığın. Aşıq Qəribin, Yanıq Kərəmin, Aşıq Valehin, Xəstə Qasımın, Aşıq Pərinin, Molla Cümanın, Aşıq Alının, Aşıq Ələsgərin də böyuk ustadı Dədə Qorqud olub — yurdun mudrik bilicisi, ağsaqqalı, əli qopuzlu ozanı — Dədə Qorqud...

Davam edən "Ruhani"nin fonunda "Dədə Qorqud" və "Daş saatın səsi" filmlərindən kadrlar görüruk: daş-insan büt heykəlləri ayrı düzümdə, ayrı ardıcıllıqda, ayrı montajda gözlərimiz qarşısından keçir və nəhayət biz "Dədə Qorqud" filmində artist Həsən Məmmədovun yaratdığı Dədə Qorqudu görürük. Qoca ozan qaya dibinə sığınıb oturub və biz onun səsini eşitdikcə — daş heykəllər bir də ekranda canlanır. Dədə Qorqud:

—Hanı dediyim o bəy ərənlər, dünya mənim deyənlər? Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı? Gəlimli, gedimli dünya, son ucu ölümlü dünya...

Diktor:

—Azərbaycanda bütün məzarlar üzü cənuba, qibləyədir. Bircə Sarı Aşığın qəbirindən başqa. Aşıq üzü sevgilisi Yaxşıya tərəf basdırılmasını özü vəsiyyət edib:

Tər təni tər sinə qoy,
Yaxşını Qibləsinə,
Aşığı tərsinə qoy.

Musiqi dəyişir, indi qəhrəmanlıq, döyüş havası — "Cəngi" çalınır

və ekranda "Dədə Qorqud" və yaxud başqa filmlərdən alınmış savaş səhnələrini, at çapma, qılınc oynatma səhnələrini görürük. Bu başqa filmlərdən alınma qısametrajlı kadrlar məxsusi bizim film üçün çəkilmiş kadrlarla qaynayıb qarışmalıdır. Bu epizodda hifz olunmuş qədim qalalar çəkilməlidir. Naxçıvanla Əlincə qalası, Dəvəçidə Çıraq qala, Şuşada Əsgəran qalası. Şamaxıda Gülüstan qalası, İstisuda Şamil qalası, Şəkidə Gələsən-Görəsən qalası, Lahıcda Niyal qalası, Qazaxda Didian qalası, Abşeron qalaları və b. (Bu qalaların hamısını çəkmək imkanı olmasa da, heç olmasa bir neçəsini göstərmək mütləq lazımdır). Bu təsviri materialın fonunda "Cəngi" və başqa Koroğlu havacatları səslənir, eyni zamanda diktorun səsini eşidirik:

—Müdrik Dədə Qorqud qaynaqlarından gələn nəsihətlər, ibrətamiz kəlamlar, ustadnamələrlə bərabər aşıq sənətimizdə kökü yenə də Dədə Qorquda bağlı qəhrəmanlıq, igidlik şeirləri, döyüş cəngiləri, Koroğlu havacatları, Qaçaq Nəbi mahnıları da var...

Ekranda cıdıra çıxmış cins atları görürük. "Misri Koroğlu", "Cəngi Koroğlu", "Koroğlu gözəlləməsi" və s. münasib aşıq havalarının fonunda şeir səslənir:

Qıratı gətirdim cövlana indi
Varsa igidlərin meydana gəlsin!..,
Görsün mən dəlinin indi gücünü,
Boyansın əndamı al qana, gəlsin!
Qorxum yox paşadan, sultandan, xandan,
Gəlsin mənəm deyən, keçərdim sandan,
Ərlər daldalanıb qorxmasın qandan,
At sürsün, qovğaya mərdanə gəlsin!...
Koroğlu əyilməz yağıya, yada,
Mərdin əskik olmaz başından qada,
Nərələr çəkərəm mən bu dünyada,
Göstərrəm məhşəri düşmana, gəlsin!...

Koroğluyla bağlı aşıq havaları Üzeyir Hacıbəyovun "Koroğlu" operasından "Aşıqsayağı" ariyaya keçir. Ekranda "Koroğlu" operasının afişasını, Üzeyir Hacıbəyovun fotolarını, ya da sənədli kinokadrlarını görüruk. Bulbülü Koroğlu rolunda görür və ariyasından bir parçanı dinləyirik. Bu fonda diktorun səsi gəlir:

—Qoç Koroğlu qəhrəman idi, igid idi, xalqın havadarı idi, amma Koroğlu həm də ala gözlü Nigarını zərif bir məhəbbətlə sevən aşıq

idi. Kim bilir, Koroğluyçun hansı daha üstün idi. — Misri qılıncmı, telli sazmı?

Yenə də bayaqkı məclisi — tut ağacının altında toplanmış adamları görürük. Meydanı dolaşan aşıq indi də "Yanıq Kərəmi" havasında "Əsli və Kərəm"dən oxuyur. Onu dinləyənlərin içində gözəl çöhrəli gənc oğlanı və qızı görürük. Aşıq dastandan bir parçanı nəsrlə söyləyən zaman biz gah onun özünü, gah məclisdəkiləri, gah da Nizami muzeyində saxlanılan — Əsli və Kərəmə həsr olunmuş illüstrasiyaları görürük. Bu illüstrasiyalardan biri Kərəmin eşq odundan alışıb yandığı səhnəni təsvir edir.

Bu illüstrasiyadan həqiqi oda — çöldə qalanmış hündür tonqala keçə bilərik. Sazda "Yanıq Kərəmi" səsləndikcə, aşıq qədim hekayətini danışdıqca tonqal da get-gedə yanıb qurtarır, nəhayət sönür, külü sovrulur və biz iki qəbiri — Kərəmlə Əslinin qəbrini və bu iki qəbrin arasından çıxmış qaratikan kolunu — Qara Keşişin rəmzini görürük...

Diktorun səsi:

—Bu torpaqdan çox ustad aşıqlar keçib gedib, özləri yerin altına köçsə də sözləri, söhbətləri, məhəbbətləri yer üzündə insanlara bir soraq kimi qalıb. Qoşmalarda, gəraylılarda, təcnislərdə, müxəmməslərdə, müssəddəslərdə, divanilərdə, gözəlləmələrdə böyük aşıqlar yalnız öz adlarını deyil, sevgilərinin, butalarının adlarını da əbədiləşdiriblər. Qoşa adlar yaddaşlarda, könüllərdə əbədi həkk olunub. Əsli və Kərəm, Qərib və Şahsənəm, Tahir və Zöhrə, Abbas və Gülgəz, Valeh və Zərnigar, Aşıq Ələsgər və Səhnəbanı... Bircə Molla Cuma yarının adını gizli saxlayıb, ona İsmi Pünhan deyə müraciət edib.

Gül-gülü, çiçək-çiçəyi çağıran çəmənlikdə gənc gözəl bir qız çiçək dərir. Həzin saz havasının fonunda Qurbaninin məşhur şeri səslənir:

Başına döndüyüm ay qəşəng pəri,
Adətdir dərərlər yaz bənövşəni!
Ağ, nazik əlinlə bir dəstə bağla,
Tər buxaq altına düz bənövşəni.
Qurbani der: könlüm bundan sayrıdır,
Nə etmişəm yarım məndən ayrıdır?
Ayrılıqmı çəkib boynu əyridir?
Heç yerdə görmədim düz bənövşəni.

Həmin gənc qız başqa bir qiyafədə, belində səhəng çeşmə

başında dayanıb, növbə gözləyir, növbəsi çatanda səhəngini doldurur, oğrun-oğrun kənara baxır, gülümsünür və bütün bu müddətdə şer səslənir:

Çərşənbə günündə, çeşmə başında,
Gözüm bir alagöz xanıma düşdü.
Atdı müjgan oxun keçdi sinəmdən,
Nazu-qamzələri qanıma düşdü.
İşarət elədim, dərdimi bildi,
Gördum həm gözəldi, həm əhli-dildi.
Başını buladı, gözündən güldü,
Güləndə qadası canıma düşdü.
Ələsgərəm, hər elmdən halıyam,
Gözəl, sən dərdlisən, mən yaralıyam.
Dedi, nişanlıyam, özgə malıyam,
Sındı qol-qanadım yanıma düşdü.

Gözəl məlul-məlul başını bulayıb çevrilib gedir və o uzaqlaşdıqca başqa aşıq şeiri səslənir:

Yar yanında günahkaram,
Doğru sözüm yalan oldu.
Yürüş etdi qəm ləşkəri,
Könlüm evi talan oldu
Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım, döndü közə,
Keçən sözü çəkmə üzə,
Keçən keçdi, olan oldu.

Yenə də bayaq tut ağacının altında gördüyümüz məclisi görürük. Yenə meydanda həmin aşığı görürük. Və dinləyicilər arasında aşıqların söz qoşduqları həmin o gözəl qızı da görürük. O indi müasir qiyafədədir, amma başında örpəyi də var və aşığın sözlərinə uyğun olaraq qoşmanın müəyyən yerində utancaq gülümsünərək yaşmaqlanır. Gah aşığı, gah o qızı, gah da bütün məclisi görür və qoşmanı eşidirik:

Başına döndüyüm toy adamları,
Siz də deyin, taza gəlin oynasın,
Adını demirəm, eldən ayıbdır,
Qəmzəsi bağrımı dələn oynasın. ..
Duman gəldi uca dağı bürüdü.
Yar qəhri çəkməkdən canım çürüdü,

Bu məclisdə əyləşənin biridi,
Yaşmağın altından gülən oynasın.
Şəmkirli Hüseynəm, elərəm fəqan,
Yaş yerinə didələrim tökər qan,
Həm gəlindir, həm gözəldir, həm cavan,
Məni bu dərdlərə salan oynasın…

"Aşıq Ələsgər" filmindən aşıq Talıbı, aşıq Şəmkiri göstərən kadrlar cavan aşıqları əks etmiş kadrlarla canlanır və diktorun səsi eşidilir:

—Aşıq sənəti əsrdən əsrə, nəsildən nəs ilə şifahi keçən bir sənətdir. Ustad aşıq cığalı təcnislərin, qıfılbəndlərin, dodaqdəyməzlərin, hərbə-zorbaların sirlərini, yüzdən artıq saz havacatını, məclis aparmağı, dastan söyləməyi, qaravəlli danışmağı, deyişmədə zəfər çalmağı öyrədərmiş... Amma aşıq sənətində ustad-şəyird münasibəti yalnız tədris, öyrətmə deyildi, həm də ustadın öz sənətini gələcəyə ötürmək, əbədiləşdirmək, hafizələrdə, yaddaşlarda əbədi yaşatmaq cəhdi idi... Məhz buna görə də yazıya, nota alınmamış aşıq sözləri, saz havaları neçə əsri adlayıb bizim dövrə gəlib çıxıbdır...

Yenə də dağları duman bürüyüb. Yenə də əzəmətli dağ mənzərələri fonunda Ələsgərin qoşması səslənir:

Bahar fəsli yaz ayları gələndə,
Süsənli, sünbüllü, lalalı dağlar!
Yoxsulu, ərbabı, şahı, gədanı,
Tutmaz bir-birindən aralı dağlar.
Kəkotu, qırxbuğum, qaymaqçiçəyi,
Bənövşə, qantəpər, qızlar örpəyi,
Qoyun mələşməsi, çoban tütəyi,
Çəkir uzaqlara xəyalı, dağlar!
Gahdan çiskin tökər, gah duman eylər,
Gah gəlib-gedəni peşiman eylər,
Gahdan qeyzə gələr, nahaq qan eylər,
Qüdrətdən səngərli, qalalı dağlar!

Duman içindən eşidilən saz səsi yavaş-yavaş yaxınlaşır, nəhayət qoca aşıq dumandan çıxır, əlindəki sazı yaxındakı uşağa verir:

—Di bundan sonra özün çala-çala get, — deyir, — mən də eşidim, arxayın olum.

Uşaq sazı götürür, addımlayır, dumana girib, yavaş-yavaş yox olur.

Qoca aşıq onun ardınca baxır və birdən duman içindən sazın səsi eşidilməyə başlayır. Səs get-gedə uzaqlaşır, itir…

Qoca aşığı, dağları, çağlayan çeşmələri görürük...

BU — SƏTTAR BƏHLULZADƏDİR

(iki hissəli televiziya filminin ssenarisi)

Şimaldan, Xəzər sahili boyu qatar gəlir. Qatar pəncərəsindən ətraf mənzərələri görürük. Böyük Qafqaz sıra dağlarının qarlı zirvələri, Xəzərin mavi suları, Abşeronun sərt lövhələri bir-birini əvəz edir.

Film boyu qadın və kişi səslərini eşidirik, amma sonacan bu səslərin sahiblərini görmürük.

Qadın səsi:

—Bu dəniz…bu səma…buludlar…pərən-pərən sərgərdan buludlar…bir də bu dağlar…bu qar papaqlı dağlar… bu əbrişim xiyabani…bu atılıb unudulmuş yol. Harasa aparan, hardasa itən bu yol…bu aram axarlı çay, bir qədər qüssəli çay…və bu dəniz… qağayılar…bu dağlar…bu dəniz…bu ağaclar…bu səma… Harda görmüşəm mən bütün bunları, harda? Axı mən heç zaman buralarda olmamışam. Bəs niyə bu mənzərələr mənə belə munis, doğmadır. Bax bu dağlar…bu dəniz, səma…qağayılar…. Mən bunları harda görmüşəm, axı harda?

Kişi səsi:

—Bəlkə sən bütün bunları yuxuda görmüsən, bəlkə bütün bunlar sənin yuxundur?

Qadın səsi:

—Yox, bu yuxu deyil. İndicə yadıma salacam. İndicə düşəcək yadıma… Bu saat xatırlayacam…

Qatar irəliləyir. Vaqon pəncərələri ardından bir-birindən füsünkar mənzərələr ötüb keçir. Birdən…

…Kəskin piano akkordlarının müşayiətiylə ekranda ani bir yaddaş qığılcımı kimi Səttar Bəhlulzadənin tablolarından biri işıqlanıb sönür. Başqa bir tablo. Başqası, başqası…Bu tablolar ekranda hələ ki, çox qalmırlar. İrəlidə onları diqqətlə və uzun-uzadı görəcəyik. Hələlik isə bu tablolar yaddaşda qəflətən alışıb sönən bir xatirə, assosiasiya, anım tək bir saniyəlik ekranda görünüb itir. Bu tablolarla bayaqdan bəri gördüyümüz real mənzərələr arasında bir oxşarlıq var. Amma eyniyyət yoxdur. Bu tablolar təbiətin real lövhələrindən doğub. Lakin onları olduğu kimi təkrarlamır. Qadın səsi:

—Yadıma düşdü…düşdü yadıma…Mən bu dağları, bu dənizi Moskvada görmüşəm…bəlkə də Praqada…ya Tbilisidə…

Kişi səsi:

—Dağlar səyahət etmir… dəniz də həmçinin…

Qadın səsi:

—Amma bu dağlar, bu ağaclar, bu meşə Moskvadaydı, ya Leninqradda… Bəlkə də Kiyevdə. Mən onları xatırlayıram… Mən onları müxtəlif şəhələrdə görmüşəm…Bu dağları, dənizi, yolu, çayı.. bax həmin bu vadini, bu bağları…Bu Səttar Bəhlulzadədir.

Titr: BU — SƏTTAR BƏHLULZADƏDİR.

Böyük salon. Yüksək ağ divar…Salonda adamlar. Divarda Səttar Bəhlulzadənin müxtəlif rəssamlər tərəfindən çəkilmiş portretləri asılmışdır. Bir tərəfdə büstləri nümayiş etdirilir.

Kişi səsi:

—Bəli, bu — Səttar Bəhlulzadədir. Bax, Səttarın bu şəklini Tağı Tağıyev çəkib, bu şəklini Salam Salamzadə… Bu işin müəllifi Neçitaylodur, bu işinsə Həsənağa Ələkbərov. Bu Toğrul Nərimanbəyovun əsəridir. Bu büstləri isə Fuad Əbdürrəhmanov, Sabsay, Ömər Eldarov, Elmira Hüseynova yaradıb. Bunlar hamısı — Səttardır.

Qadın səsi:

—Hər şəkildə də ayrı Səttar, başqa Səttar, bənzərsiz Səttar. Bu işlərin hansı daha dəqiqdir? Mən zahiri bənzəyişi demirəm. Səttarın mahiyyətini, daxili aləmini bu sənətkarların hansı daha düzgün aça bilib? Səttar hansıdır?

Kişi səsi:

—Bilmirəm. Bunu demək çətindir. Səttar bu portretlərin hamısına bənzəyir və heç birinə bənzəmir. Hətta bax bu fotosuna belə. Onun surətini yaradanların hamısı öz Səttarını yaradıb. Hər sənətkar ona öz gözüylə baxıb. Özünün gördüyü kimi görüb Səttarı.

Qadın səsi

—Bəziləri hətta belə görüb onu.

S.Bəhlulzadənin Həsən Haqverdiyev və başqaları tərəfindən çəkilmiş dostluq şarjları.

Kişi səsi:

—Səttar özü isə özünü bax belə görür.

S.Bəhlulzadənin avtoportreti.

Kamera panorama edərək S.Bəhlulzadənin portretlərini seyr edir.

Sonra biz həmin portretləri müxtəlif montaj haçalanmalarında görürük. Ritm tezləşir və uyğun musiqi müşayəti fonunda ekranda S.Bəhlulzadənin heykəl, rəngkar və qrafik portretləri bir-birini təqib edərək dəyişir. Simli akkordla bütün bu hərəkət birdən qırılır, ekran foto-portretin üstündə donub qalır.

Qadın səsi:

—Sən Səttarla tanışsan?

Kişi səsi:

—Tanışam. Tez-tez görürəm onu. Sərgi salonlarında, tamaşalarda, bəzən küçədə… Emalatxanasında da olmuşam. Amma Səttar haqqında düşünəndə həmişə yadıma bir mənzərə düşür. Bir dəfə onu dəniz sahilində gördüm.

Abşeronda dəniz sahili. Payız günü. Qumlar və qayalar. Boz dəniz, tutqun göy… Bəhlulzadə dizlərini qolları arasına alıb qayaların birinin üstündə oturub dənizə baxır. Onun yanında nə etüdnik, nə fırça, nə rəng, nə kağız var. Bir sözlə, rəssama aid olan əşyalardan heç biri yoxdur. Sanki adi bir insan qayanın üstündə oturub dənizə baxır, fikrə dalıb. Səttarı emalatxanasında, yaradıcılıq prosesində yalnız filmin sonunda göstərəcəyik.

Adətən rəssamlara həsr olunmuş filmlərdə onların şəkil çəkmələri nümayiş etdirilir. Biz də Səttarı yaradıcılıq prosesində göstərmək istəyirik, amma bu proses yalnız molbert arxasında durduğu saatlar, dəqiqələr deyil. Onun yaradıcılıq prosesi Azərbaycan torpağını qarış-qarış gəzdiyi, gördüyü mənzərələrdən duyğulandığı, ilhamlandığı, qidalandığı anlardır. Sonra bütün bu təəssüratı kətana, kartona ya kağıza keçirmək — işin ikinci mərhələsidir.

Səttarın qəribə, heç kəsə bənzəməyən obrazı da sanki təbiətin canlı bir parçasıdır. Tutqun payız günündə, adamsız sahildə, boz qayanın üstündə oturan, saçları gümüşü, sifəti kül rəngli rəssam sanki özü də təbiət lövhəsidir.

Səttar qayalardan düşüb dəniz sahiliylə gedir, ləpədöyən boyu addımlayaraq uzaqlaşır, get-gedə kiçilir, gözdən itir və ekranda yalnız qumlar, dəniz və səma qalır…

Kişi səsi:

—Mən səni Səttarın anadan olduğu evə aparmaq istəyirəm. Əmirhacıyana.

Ekranda Abşeron mənzərələri.

Kişi səsi:

—Abşeron mənzərələrinə diqqət elə. Səttar bu mənzərələri çox işləyib.

Əmirhacıyan kəndindəyik. Kəndin köhnə küçələrindən , burdakı tarixi abidələrin, XVII əsr məscidinn qarşısından keçir, ikimərtəbəli evin qabağında dayanırıq.

Kişi səsi:

—Səttar Bəhlulzadə 1909-cu ildə həmin bax bu evdə dünyaya gəlib.

Evin içinə daxil oluruq, otaqları, həyəti gəzirik. Otaqda foto albomu vərəqləyirik. Səttarın müxtəlif illərdə çəkdirdiyi fotoşəkillər.

Qadın:

—Necə də qəmli gözləri var.

Kişi səsi:

—Elədir, amma Səttar bu kədərli, qəmli-qüssəli gözlərlə dünyaya baxıb dünyanı əlvan, rəngarəng, gözəl görürdü.

Səttarın "Azərbaycan nağılı" və başqa əlvan şəkilləri ekranda göstərilir.

Sonra yenə vərəqlənən fotoalbom, Səttarın 18-20 yaşlarında çəkdirdiyi foto.

Kişi səsi:

—18 yaşında kənddən Bakıya köçüb və rəssamlıq texnikumuna daxil olub. 1933-cü ilə qədər Əzim Əzimzadəylə birlikdə "Kommunist" qəzetində əməkdaşlıq edib. 1933-cü ildə Moskvaya gedib rəssamlıq institutuna girib.

Qadın səsi:

—Yəqin ki, rus və fransız mənzərə rəsmləriylə də yaxından ilk dəfə Moskvada tanış olub. Levitan, Kuindji, Kamil Koro, impressionistlər— Mone, Sisley, Pisarro, Renuar, Van-Qoq, Sezan…

Kişi səsi:

—Səttar bu böyük sənətkarların əsərlərini sevə-sevə öyrənib, təcrubəli müəllimlərin rəhbərliyi altınla inadla çalışıb. Amma bizim milli rəssamlıq ənənələrini də unutmayıb. Orta əsr miniatürçüləri, Behzad, Ağa Mirək, Sultan Məhəmmədin zərif işləri, XX əsrdə Bəhruz Kəngərlinin akvarelləri Səttarçun həmişə əvəziz ilham mənbəyi olub…

Bu sözlər səslənərkən ekranda adları çəkilən rəssamların (Azərbaycan, fransız, rus rəssamlarının) əsərlərini görürük.

Kişi səsi:

—Təhsil illərində Səttar hələ bilmirdi ki, o özü məhz mənzərə janrında işləyəcək. Onun ilk işlərinə diqqət verin. Bu Səttarın diplom işidir—"Babək üsyanı".

Ekranda həmin tablo.

Qadın:

—Heç təsəvvür edə bilməzdim ki, bu Səttarın işidir.

Kişi səsi:

—Bəli çətin inanırsan ki, bu tablo Səttar Bəhlulzadənin fırçasından çıxıb. Bu da o dövrün başqa bir işi. 1945-ci ildə çəkib. "Qubalı Fətəli xanın portreti".

Ekranda həmin tablo. Fətəli xan portretinin arxa planında mənzərə diqqətimizi çəkir.

Qadın səsi:

—Diqqət elə, şəklin bax bu hissəsində artıq Bəhlulzadə üslubu hiss olunur.

Kişi səsi:

—İndi ilk sırf mənzərə rəsmlərinə baxaq. "Səhər erkən" rəssamın ilk təbiət lövhələrindəndir. Bu isə "Salyut" şəklidir, onu 47-ci ildə çəkib.

Böyük bir salonda S. Bəhlulzadənin adları çəkilən işləri asılmışdır. Kamera bizi o biri salona keçirir və divardan asılimış üç işi görürük. "Qudyalçay vadisi", "Qudyalçay sahili", "Qız bənövşəyə gedən yol".

Qadın səsi:

—Qudyalçay vadisi… Bu iş mənim yaxşı yadımdadır, onu Moskvada sərgidə görmüşdüm.

Kişi səsi:

—Praqada da nümayiş etdirilib. Tbilisidə Bəhlulzadənin fərdi sərgisində asılıb. Bu üç Quba mənzərəsi Bəhlulzadə yaradıcılığında tam yeni bir dövrün başlanğıcı oldu, onu Azərbaycan təbiətinin nəğməkarı kimi tanıtdı.

Kamera Bəhlulzadənin başqa şəkillərinə doğru yönəlir.

Qadın səsi:

—Səttar Bəhlulzadənin son işlərinə baxanda, mənə elə gəlir ki, bu mənzərələri iti gedən bir qatarın pəncərəsindən seyr edirəm. Amma bax bu "Qız bənövşəyə gedən yola" baxanda mənim özüm də sanki bu yolla piyada gedirəm. Ya da arabada. Cırıltılı bir arabada.

Ekranda "Qız bənövşəyə gedən yol" tablosu. Kamera sanki

büdrəyə-büdrəyə bu yolla araba hərəkəti ritmində gedir və biz araba cırıltısını eşidirik.

Ekranda "Əbədi işıqlar" tablosu və səslər — dəniz səsi, qağayıların çığırtısı.

Qadın səsi:

—Bu şəklə baxanda qağayıların çığırtısını, ləpələrin səsini eşidirəm.

Kamera panorama edir və biz divardan asılmış tabloları uzun-uzun seyr edirik. "Quba mənzərəsi", "Nağıl", "Xəzər axşamı", "Tut ağacları", "Payız düşdü", "Kəpəzin göz yaşı".

Kişi səsi:

—Bu tablolara baxanda musiqi eşidirsən. Həzin musiqi…

Bəhlulzadənin bu işlərini nəzərdən keçirdiyimiz vaxt xalq musiqisi — muğamlar səslənir.

Geniş bir salona keçirik. Bu salon sanki güllü-çiçəkli bağçadır. Bəhlulzadənin çiçəkləmiş ağaclara, bağlara həsr etdiyi tabloları… "Əmsər bağları" , "Bağlar arasında", "Heyva çiçək açanda", "Bülbüllü bahar", "Çiçəklənən torpaq", "Yaşıl xəli" — müxtəlif çiçək natürmortları.

Qadın səsi:

—Əfsus ki, ekranda ətirləri, qoxuları vermək mümkün olmur. Bu otağa girəndə adam təbiətin bahar ətirlərini, çiçəklərin güllərin rayihəsini duyur.

Yenə də qatar gedir. İndi o geri gedir. Azərbaycan mənzərələri arxada qalır.

Qadın səsi:

—Mən geri dönürəm. Bu dağlar, ağaclar, yollar, dəniz burda qalır. Sən haqlısan, dostum, dağlar səyahət etmir. Ancaq mən bu qarlı dağları, bu mavi dənizi, qağayıları, çiçəklənən bağları müxtəlif ölkələrdə, qitələrdə görəcəm. Görəcəm və tanyacam. Tanıyacam və deyəcəm: Bu — Azərbaycandır. Bu — Səttar Bəhlulzadədir.

Nəhayət Səttarı öz emalatxanasında, şəkil çəkən görürük. O şəkli şüşə üzərində çəkir və şüşəyə yeni rənglər vurduqca şüşə arxasındakı sifəti get-gedə görünməz olur, sonra şüşəni büsbütün tutmuş rənglər arxasında itir. Rəssamı artıq görmürük. Çəkdiyi şəkli görürük.

1969

P. S.

Nə yazıq ki, Səttar Bəhlulzadənin ən əhatəli, ən dolğun sənədli kadrları yalnız onun sağlığında çəkilən bu filmdə qalıb. Film çəkilərkən onun söhbətlərini də lentə almışdıq. Əvvəlcədən ssenariyə daxil edilməmiş bu söhbətləri — rəssamın öz səsiylə ifadə olunmuş fikirlərini — indi bu mətnə əlavə edirəm.

Səttar Bəhlulzadə:

Adam var qədim qablar yığır... Mən daşlar yığıram. Azərbacanın elə bir guşəsi yoxdur ki, orda olmamış olum və Azərbaycanın hər guşəsindən daşlar toplamışam. O daşları necə bir qiymətli daş yox, necə bir xalqımın torpağının koloritini, dağlarımın formasını ifadə edən daşlar kimi sevib götürüb gəlirəm.

Emalatxanam çox səliqəlidr. Emalatxanada şeylər mənə maneçilik eləməsinlər gərək. Ona görə ki, mən işləyən zaman biri görürsən ki, bu yandan ayağımın altında qala bilər. Ö biri bu yandan mənə mane ola bilər, ona görə mən emalatxanamı həmişə artıq şeylərlən təmizləyirəm və artıq olan şeyləri bir kənara qoyuram.

Anamın otağıdır. Bu otaq elə necə var idi, elə də qalır. Mənim otağımdır. Bura mənim anadan olduğum evdir. Bu da mənim vətənim Əmirhacıyan kəndidir. Mən Azərbaycanın çox yerlərini gəzmişəm — Quba, Qusar, Lənkəran, Naxçıvan, Qarabağ, Şamaxı. Bunların hərəsinin özünə görə gözəlliyi var, ondan başqa, mənə elə gəlir ki, Azərbaycanın bu yerlərinin hərəsinin özünə görə obrazları var. Məsəl üçün Quba mənzərəsi — əzəmətli dağlar, meyvə bağları, əsrarəngiz buludlar, dumanlar… Muğan düzənlik, ucsuz-bucaqsız üfüqlər… Naxçıvanın isə bambaşqa mənzərəsi var, bambaşqa obrazı var. Naxçıvan mənzərələri, Naxçıvan torpağı özlüyündə rəngarəngdir, o mənada ki, dağlar biri sarıdı, biri bənövşəyidi. Orada olan dağlar heç də Quba, Öusar dağlarına bənzəmir. Bu dağlar — monumental Quba dağları—burda olan dağlar isə həm monumentaldır, həm də incədir. Onlara baxanda həmişə Azərbaycanın miniatür rəssamlarının əsərləri düşür yadıma. Mənə elə gəlir ki, bu Ağa Mirəyin, Sultan Məhəmmədin dağlarıdır.

BU — CAVADDIR
(Telefilmin ədəbi ssenarisi)

Xəstəxana palatası. Hər yan ağappaqdır — ağ divarlar, ağ çarpayı, ağ tumboçka.

Çarpayıda rəssam uzanıb. Bənizi ağappaqdır, gözləri bağlıdır.

Bu kadrların musiqi müşayiəti Fərəc Qarayevin atası Qara Qarayeva həsr etdiyi "Vida simfoniyasının" fraqmentləri ola bilər. Simfoniyada xəstəliyin səs fonu əks olunub — təcili yardım maşınının sirenası damara yeridilən qan damcılarının yeknəsək səsi, həyəcanlı bir sükut və bu sükut içində ürək döyüntüsü eşidilir.

Rəssamın kadrarxası monoloqunu eşidirik:

—İnfarkt, reanimasiyadayam. Yanvar. Palatamın pəncərələrini Apşeronun cilovsuz rüzgarları döyür. Gecələr çöldə külək ağlayır və hayğırır, elə bil uşüyüb donmuş kabusdur. Bu dəli rüzgarın fəryadı və şikayətləri altında ad günümü qarşılayıram. Altmış yaşımı. Ağlıma cürbəcür fikirlər gəlir.

Kamera panoram edərək palatadakı əşyaları bir-bir göstərir: dərman şüşələri, həblər, iynələr, hava balıncı. Rəssamın çarpayısından bir qədər aralı arvadı oturub. Fikirlidir. Rəssamın monoloqu davam edir, aramla danışır, səsi zəifdir:

—Heç kəs məni yoluxmur. Hamı məni unudub, atıb. Yalnız arvadım, sanki yol azmış mələk kimi, gecə-gündüz yanımdadır, məni qoruyur ki, əcəl məni birdən-birə cəhənnəmə vasil eləməsin... Ölümdən qorxmuram. Nəyindən qorxacam ki? Əsərlərimdə min dəfə ölmüşəm, bir dəfə həyatda ölməyə nə var? Bax bu nimdaş xəstəxanada yatıram. Heç kəsə lazım deyiləmmiş. Amma şikayət etmirəm, yox. Mən xoşbəxt idim. Heç bir vaxt və heç bir yerdə vicdanıma xilaf çıxmadım. İstədiyim kimi yaşadım, istədiyim kimi yaratdım.

Rəssam gözlərini açır və bizə, tamaşaçılara müraciət edir:

Həyatı anlamaq üçün, ona heyran olmaq lazımdır. Gərək ki, bunu Nəsimi deyib,.

Filmin adı yazılır:" BU — CAVADDIR" və titrlər gedir.

***

Abşeronun təbiəti Azərbaycanın bugün başqa bölgələrinin

təbiətindən çox fərqlidir. Qupquru, çadar-çadar olmuş torpaq, tək-tük kol-kos, küləklərin qıc etdiyi əncir ağacları, zəhmli qayalar. Amma Abşeronun bu xəsis gözəlliyinin öz məlahəti var — qayaları döyəcləyən ləpələr, sapsarı, narın, kəhraba qumlar, üzüm salxımları. Alçaq barılar, əhəngli ağ evlərin damlarındakı dəvə belini xatırladan bacalar...

Rəssam Abşeron kəndinin küçələriylə addımlayır — əlində kiçik etüd çantası var. Bu kənd rəssamın daimi yaşayış yeri Buzovnada ola bilər, çox sevdiyi Pirşağı ya Fatmayidə — əsas Abşeron qəsəbələrinin səciyyəvi mənzərəsini canlandlırmaqdır. Sanki bu mənzərəni rəssamın gözləriylə görürük. Bu fonda rəssamın səsi eşidilir:

—İnfarktdan sonra, hələ çox zəifəm. Bu halda uşaqlığımdan mənə məhrəm olan Abşeron kəndlərini gəzirəm. Nədənsə ölüm haqqında düşünurəm, elə bil tələsirəm ki, müəyyən niyyətlərimi həyata keçirim. Mənə elə gəlir ki, bu niyyətlərimi bütün ömrüm boyu çalışsamda, hələ ki, yerinə yetirə bilməmişəm. Bu məni incidir, ürəyimi parçalayır. Bu niyyətlər, bu fikirlər doğrulmalıdır, mənim bütün şübhələrimə, tərəddüdlərimə son qoymalı, ruhumu sakitləşdirməlidir.

Rəssam qayaların üstündə oturub şəkil çəkməyə başlayır. Biz hələ çəkdiyi şəkli görmürük, yalnız iş prosesini izləyir və rəssamın səsini eşidirik:

—Bu duyğular qəlbimə uşaqlığımın ayaqyalın çağında babamın Fatmayıdakı bağında ora-bura qaçarkən yol tapıblar. Onlar ayaqlarımı yandıran qızmar qumlardan varlığıma daxil oldular, günəşin odlu şüalarıyla ruhumu oyatdılar, mənimlə birlikdə böyüdülər, şüurumda möhkəm yer saldılar və mən bu hissləri bütün həyatım boyu yaşatdım.

İndi biz ekranda Rəssamın çəkdiyi Abşeron mənzərələrini görürük, amma gözümüz qarşısında çəkdiyi şəkli deyil, uzaq gənclik illərində yaratdığı peyzajları — bu əsərlər, realist plandadırlar, müəllifin o vaxtkı duyumunu əks etdirirlər.

Bu şəkillərin fonunda rəssamın səsi eşidilir:

—Nostalji? Qəribsəmə? Bəlkə də.. Heç nə bu duyğularımı söndurə bilmədi, bu hisslər içimi gəmirir, eyni zamanda məni öz həqiqiliyinə inandırırdılar. Və mən anladım — bu mənim taleyimdi. Günəşin səxavəti mənim daxili dünyamı açmağa yardım edir.

Rəssamlıq sənəti — ümumiyyətlə vəhydir. Mən özümdə yenilməz gücün, sarsılmaz ruhun olduğunu hiss edirdim, özümə sonsuz inamım vardı. Mən dəli kimi işləyirdim, rənglərin fəsadıyla insanın gözlərini qamaşdıran şəkillər çəkirdim. İndi isə güclə ayaq üstündə dura bilirəm və Allaha yalvarıram ki, son işlərimi bitirməyə mənə möhlət versin...

Yenə ekranda Abşeron mənzərələrini görür və rəssamın səsini eşidirik:

—Mənimçün Abşeron da, ona bitişik Qobustan da müqəddəs yerlərdir. Ancaq ona görə yox ki, burada mən ilk dəfə səmanı görmüşəm. Həm də ona görə ki, bu nisbətən kiçik ərazidə hər şey var — dağlar, dəniz, səhra, əsrlərin dərinliyindən gələn ehramlar... Qızıl Nohur, üstü əlvan şəkilli, qeyri-adi formalı məzar daşları — onlar qədim Meksika sənətiylə səsləşir. Onlar ümid doğurur və ölümdən sonra da həyatın olduğuna inanırsan.

Ekranda Qobustan yaxınlığındakı məşhur Sofi Həmid qəbiristanlığı — rəngbərəng şəkilli məzar daşları. Rəssamın səsi:

—Bu həyatdan başqa da həyat varmı? Hardasa başqa dünyalarda şüurlu həyat varmı? Və başqa dunyaların özləri belə mövcuddularmı? Hər şey şərtidir.

Sofi Həmid qəbiristanlığının real mənzərəsi və məzarüstü şəkillər Cavadın işləriylə — fantastik, mifoloji süjetləri olan şəkilləriylə əvəz edilir. Rəssamın monoloqu davam edir:

—Görünən və görünməz aləm. Bizim duyub dərk edə bildiyimiz dünya və yalnız təxəyyülümüz, fantaziyamızla canlandıra bildiyimiz dünya... Lap bizim nağıllarımızda olduğu kimi — kəsilmiş kəllə danışır, insanlar daşa ya quşa çevrilir, güləndə ağızlarından gül tökülür. Bəlkə də biz bu dünyaya ayrı bir biçimdə qayıdırıq — yağış, çiçək, daş şəklində. Bəzən bizə elə gəlir ki, iradəmizin əksinə hərəkət edirik, əslində bu haçansa ayrı şəkildə mövcud olan varlığımızın yaddaşıdır bizi bu sayaq davranmağa məcbur edir.

Dəniz sahili. Kamera bu mənzərəni bir qədər irreal şəkildə əks etdirir. Rəssamın səsi:

Uzun müddət eyni bir yuxunu görürdüm: Uşaqlığımı keçirdiyim dəniz sahili, sahildə silsilə dağlar, halbuki əslində orda belə dağlar yox idi. Bu yaxınlarda hardasa oxudum ki, demə bu yerdə haçansa, çox-çox qədimlərdə Xəzərin iki sahilini birləşdirən dağ silsiləsi varmış. Bəlkə də bax bu qədim mənzərəni əvvəlki varlıqlarımın

birində görmüşəmmiş, yaxud mənim əcdadlarım görübmuş və bu mənim qan yaddaşımda hifz olub qalıb.

Ekranda rəssam Tofiq Cavadovun şəkilləri bir-birini əvəz edir. Rəssamın (Çavadın) səsi:

—Bu mənim kiçik qardaşım Tofiq Cavadovun işləridir. Mən bu işini ilk dəfə görəndə, ürəyimə nə isə təlaşlı bir şey damdı. Çox qorxdum və başa düşdüm ki, ailəmizi nə isə bir faciə gözləyir. Sonralar mən bu işi "Rekviyem" adlandırdım.

Tofiq Cavadovun "Rekviyem" şəklinin üstünə sürətlə elektroqatar gəlir. Qışqırıq səsi eşidilir, sonra Tofiq Cavadovun qara haşiyə içində fotoşəklini görürük. Rəssamın (Cavadın) səsi:

—On gündən sonra Tofiq elektroqatarın altına düşüb həlak oldu.

Rəssam iri tut ağacının altında dayanıb, bu ağaç Tofiq Cavadovun çəkdiyi şah tutu xatırladır. Rəssamın (Cavadın) səsi:

Həyatın tapmacaları çoxdur, biz onların cavabını daxili dünyamızın dərinliklərində axtarırıq. Eynən Pasxa adasındakı heykəllər kimi, axı onlar da göyə baxa-baxa həm də öz daxili dünyalarına dalıblar. Biz təbiətdən uzaqlaşmışıq, onun dilini unutmuşuq, kor kimi gəzirik. Bunu Bosx yaxşı təsvir edib. Bu barədə vaxtilə hələ Ekkleziastda var...

O gecə heç cür yuxulaya bilmirdim, yatağımda ora-bura qurcuxurdum. Ürəyimə daman önduyum sanki elektrotok kimi məni çalırdı, kimsə elə bil qulağıma: "ölüm, ölüm"— deyə pıçıldayırdı. Sən demə elə bu vaxt qardaşım qanına qəltan olub can verirmiş.

Qobustan qayaları. Rəssam qayalar arasında gəzir, qayaüstü rəsmlərə baxır, dəftərinə onların surətlərini köçürür. Kamera ayrı-ayrı qaya rəsmlərini iri planda göstərir, ətrafa panorama edir. Rəssamın səsi:

—56 ya 57-ci il idi. Mən sənətdə eynən bəşəriyyət başladığı kimi işləməyə başladım — lap əvvəldən — paleolit, neolit, mezolit. Bu niyyət məni Qobustana, qaya rəsmlərinə gətirdi. Rəsmlər çox xoşuma gəldi. Mən ibtidai insanların bundan daha kamil rəsmlərinin də reproduksiyalarını görmüşdüm — orda heyvanlar daha dəhşətli görünürdü. Amma bu yer özü-özlüyündə sənət əsəri idi. Ən müxtəlif formalarda dağlar, tarixin keşməkeşlərində çevrilmiş, parçalanmış qayalar...

Qobustan qaya rəsmləri kinoörtüm (naplıv) vasitəsilə Cavadın işlərinə keçir. Rəssamın səsi:

—Mən öz işlərimdə bu qayaların ruhunu, onların qudrətli formalarını və dinamizmini, gucünü ifadə etməyə çalışırdım. Bu yerlərin təbiətinin mahiyyətini dərk etmək, buranın sirrini açmaq istəyirdim. Mənimçün təbiət həmişə varlığın ilkin mahiyyətidir. İbtidai dövr rəssamını qınayırdım ki, nədən o, bu imkanlardan istifadə etməyib. Vaxt keçdikcə onu anladım və ona bəraət qazandırdım. Qobustanın ibtidai rəssamları çox sonralar yaranmış sənətin — orta əsrlərin miniatür sənətinin plastikasının, obrazlılığının, kompozisiya ritminin əsasını qoymuşdur.

Ekranda neolit dövrünün sənət örnəkləri, Azərbaycan da arxeoloji qazıntılar zamanı tapılmış nümunələr. Rəssamın səsi:

—Neolit dövrünün sənəti mənə böyük təsir bağışladı. Azərbaycanda bu sənətin gözəl numunələri tapılıb. Daşdan məharətlə istifadə edərək, onu mücərrədləşdirərək və mistikayla aşılayaraq neolit dövrünün rəssamı obrazı dahiyanə şəkildə ifadə edə bilib. Maraqlıdır ki, ümumiləşdirmələrə nə qədər önəm versələr də, o rəssamlar qadın bəzək-düzəyini, hətta kosmetikasını da unutmurdular. Onlar monumental formalara dekorativlik elementləri gətirir və ornament vasitəsilə ritual mənaları olan əfsunlu işarələr yaradırdılar.

Rəssamın son sözləri gah qədim sənət örnəklərinin, gah da onun öz işlərinin fonunda səslənir. Öz işlərində əfsunlu işarələr və ritual obrazlarıyla bağlı fraqmentlər diqqətimizi çəkir.

Ekranda Azərbaycanın qədim heykəltaraşlıq nümunələri — açıq səma altında bütlər, qoçlar, atlar. Rəssamın səsi:

—Qogen Şərq sənətinə yaxşı bələd idi və gənc heykəltəraşlara məsləhət görurdü ki, örnək kimi məhz Şərq heykəltəraşlarına müraciət etsinlər. Qədim yunan heykəltəraşlığının yanlış yolla keçdiyini duşünürdü.

Ekranda müxtəlif dövrlərin, müxtəlif xalqların çeşidli janrlarda yaranmış sənət nümunələri. Rəssam da məhz onlardan danışır:

—Sibir şamanlarının geyimləri həyat və ölum haqqında daha artıq informasiya daşıyır, nəinki bəzi realistik şəkillər. Şərqin miniatürlərinin, naxışlarının, xalçalarının əlvanlığı insanın düşüncəsini, dünyaduyumunu azad edir, dünyaların çoxluğu haqqında təsəvvür yaradır, gözümüzü kosmik məkana, sonsuzluğa açır və şüurumuzu varlığı dərk etmək cəhətdən genişləndirir.

Ekranda Sezanın işləri. Rəssamın səsi:

—Gəncliyimdə Sezanın alovlu pərəstişkarıydım. Sezan məni böyük sənətə daxil edirdi. Onun sistemində mən rəngin, formanın və məkanın yaxşı təşkil edilmiş tənasübünü tapdım.

Rəssamın emalatxanasındayıq. İndi o söhbətini kadr arxasından deyil, birbaşa bizə, tamaşaçılara müraciətlə davam edir:

—O illərdə impressionistlərin əsərlərini nümayiş etdirmirdilər. Leninqradda mən Ermitajın o vaxtkı müdirinin yanına gəldim və dedim: Sezanı mənə göstər, yoxsa səni öldürəcəm — gülür — Sezanı göstərdi mənə. 36 altı il sonra Ermitajın indiki mudiri Piatrovski Bakıya gələrkən onunla görüşdüm. Vaxtı dar olduğundan mənim emalatxanama gələ bilmədi. Mən ona yalnız işlərimin slaydlarını göstərdim. O həyəcanlandı və dedi: Nahaq yerə o vaxtkı Ermitajın divarlarını dağıtmırdınız ki... Demə mənim o vaxtkı müdirə dediyim sözlər, Ermitajda ağızdan ağıza gəzirmiş. Rəhmətlik akademik Alpatov mənim işlərimi görəndə soruşdu: — harda təhsil almısınız? — Ermitajda — dedim. — Bəli, doğrudan da, yaxşı məktəbdir — dedi — və bu hiss olunur.

Rəssamın emalatxanasında onun işlərini seyr edirik. Sonra bu kadrlar Afrika heykəllərinin reproduksiyaları ilə əvəz olunur. Rəssam şərh edir:

—1955-ci ildə ilk dəfə Afrika heykəllərinin reproduksiyalarını gördum. İndiyə qədər görmədiyim plastika, tənasübsüzlük, ekspressiya, müxtəlif materialların qarışığı —ağac, ot çəngəsi, əsl saç, şüşə, sümük, parça — bütün bunların vəhdəti məni öz mistikasıyla sarsıtdı. Benin tunc heykəllərinin qadın obrazları — onların dəmbərə gözləri. Elə bil bu dəmbərə gözlərdən onlar öz cismani varlıqlarından çıxıb azad olmaq, kosmosa uçmaq istəyirlər. Leninqradda, Dünya etnoqrafiya muzeyində mən okeaniya heykəllərinə, Sibir masqalarına, şaman döşlüklərinə, Birmanın üç metrlik rəngli bütlərinə, İranın, Hindistanın, İndoneziyanın rəsm əsərlərinə, Tibetin ikonalarına, Acantanın freskalarına bələd oldum.

Ekranda adı çəkilən sənət örnəklərinin reproduksiyaları.

Rəssam:

—Bütün bunlar məni sarsıtdı, ovsunladı, təəssüratdan başım gicəlləndi. Mən min il gözlədiyim Rəng Dünyasına düşmüşdüm. Akvarel, kağız aldım və günlərlə surətlərini çıxardım, 100 vərəq vatman işlədim.

Buzovna. Rəssam açıq havada işləyir. Kadrarxası səsi eşidilir:

—Bakıya qayıtdıtdan sonra Buzovnada məskən saldım. Burda dəniz sahilində tək-tənha on il yaşadım. Qarşımda yeni bir dünya açılmışdı və mən köhnə dünyayla vidalaşmalıydım. Tədricən bütün əski işlərimi məhv etdim, yandırdım. Onları tələf etdiyimçün təəssüflənmirəm. Bu barədə sonra deyəcəm. Məni böyuk ehtiraslar çuğlayırdı və daimi rahatsızlığımın, maskimalizmimin, barışmazlığımın səbəbi də bu idi. Özümə təsəlli verərək Van-Qoqun sözlərini xatırlayırdım: Rəssam həm müqəddəs varlıqdır, həm də quduz it. Buzovnada böyük tablolarda qadın obrazları yaradırdım, formalara qətran tökürdüm. Rəngkarlıqda nitroemaldan istifadə edirdim, bəzən qumlu qabarıq təsvirlər yaradır və boşluqları bitumla doldururdum, işlərimə qəmbər, ağac, metal əlavə edirdim, bəzən sement heykəllər düzəldirdim. Bu mücərrədləşmiş sənət idi, amma Avropanın mücərrəd sənətiylə veç bir əlaqəsi yoxdu. Mənim əsərlərim təbiət qoynunda yaranırdı, açıq səma altında yaranırdı, monumental formalarda idi, ətli-qanlı rəng ömrünə malikdi. Səd heyf ki, bu işlər tələf oldular, cəmi-cümlətanı ikisi, üçü qalıb. Ordan bura köçərkən relyefin ağırlığı altında lövhələr çatladı, bəzilərinin boyaları tköküldü, bəzilərinin rənglərini bitum uddu. Bəzilərini də basdırdıq, çox ağır idilər, qaldırmaq mümkün deyildi. Mənim daimi pulsuzluğum bu işlərin məhvinə səbəb oldu. Xəritə düzəldib basdırdığımız yerləri qeyd etdim, amma bu xəritəni itirdim. Bu xəritəni tapan olsa, işlərimi də tapacaq.

Ekranda rəssamın şəkilləri. Kadrarxası səsini eşidirik:

—Gənclikdə biz maksimalist oluruq. Hər şeyi əhatə etmək istəyirik. Həyatın müxtəlif cəhətlərini qəbul etməmək də gəncliyə xasdır. Dünyada çox şey bizə ədalətsiz görünür və biz buna üsyan edirik. Amma illər keçdikcə biz həyatın müdrikliyini dərk edirik, başa düşməyə başlayırıq ki, dunya naqis deyil, naqis bizim şüurumuzdur.

Qürub çağı Rəssam sahildə addımlayır və səsini eşidirik:

—Mən təbiətin qoynunda yaşayırdım, günəş şüalarına qovuşur və günəşin ziyasını rəsmlərimdə əks etdirməyə çalışırdım. Bütün enerji ehtiyatımı əsərlərimə verdim. Amma onlar kimə lazımmış? Mənim əsərlərimi anlamırlar. Ən dəhşətlisi odur ki, heç anlamaq da istəmirlər. Onlara sənətdə pəhriz yeməkləri gərəkdir. Özləri özlərini belə başa düşmürlər. Dünyanı da anlamırlar.

Ekranda bir-birinin ardınca Cavad Mircavadovun çəkdiyi şəkilləri

görürük.

Sonra yenə natura. Bol günəşli bir gün. Kənd yolu. Uzaqda bir araba görünür və təpələrin arxasında itir. Rəssamın kadrarxası səsi:

—Uşaqlıqda bir yay günü babam və qardaşımla kəndə getmişdik. İsti bir gün idi, qızmar günəş altında xeyli yol getdik və birdən yolun üstünə düzülmüş qarpızları və qovunları gördük.

Ekranda — kənd yolunun üstünə düzülmüş qarpızlar, qovunlar. Rəssamın səsi:

—Çox təəccüb qaldım, bu çölün düzündə qarpızlar, qovunlar hardan peyda oldu? Babam izah etdi ki, arabaçı bizi uzaqdan görüb və uşaqları sevindirmək üçün bu ərmağanı bizim üçün qoyub. Düz deyirlər ki, yaxşı ya pis xalq yoxdur. Amma mən tozlu yolda bu qarpızları, qovunları xatırlayanda xalqımla qürur duyuram. Xalqım indi məni qəbul etmirsə, bu keçici bir məqamdır. Leonarda da Vinçi deyir ki, illər, minilliklər ötəcək, bizdən heç nə qalmayacaq, ancaq əfsanələr qalacaq. Əgər belədirsə qoy Prometey əfsanəsi qalsın, ruhunu şeytana satmış Faustun əfsanəsi yox.

Rəssamın sifətində xoş bir təbəssüm var. Bu kadr donub qalır və bu fonda yazılar gedir:

Mircavadovun işləri mənimçün gözlənilməz kəşf oldu. İndiyə qədər rəssamlıqda tragizmin və demonizmin belə şiddətli ifadəsini görməmişdim. Onu qiymətləndirə biləcəyikmi? Şəxsən mən elə düşünürəm ki, bu əsərlərin ümumittifaq və beynəlxalq sərgilərə yol açmasına çalışmalıyıq. Belə bir rəssamın tanınmaz qalmasına imkan vermək olmaz.

ÇINGIZ AYTMATOV

Cavad — böyük gücə, qüdrətli nəfəsə malik olan rəssamdır. Onun ustad əli möhkəm və inamlıdır, coşğun temperamenti, əyilməz xarakteri var. Bütün bunlar böyük istedaddan xəbər verir və diqqətəlayiqdir.

MIXAIL ALPATOV, akademik.

Təəccüblüdür ki, uzun illər boyu bizim respublikaların birində görkəmli bir ustad yaşayır, səmərəli yaradır və öz günahı olmadan sovet sənətşünaslığının diqqətindən kənarda qalıb. Elə hesab edirəm ki, Mircavadovun yaradıcılığıyla təcili surətdə Bakı, Moskva və xarici ölkərin tamaşaçılarını tanış etmək lazımdır.

D.SARABYANOV, sənətşünaslıq doktoru, Moskva Dövlət Universitetinin professoru.

Sonda ekranda daha bir yazı görünür:

1987-Cİ İLİN YANVARINDA BAKIDA 64 YAŞLI RƏSSAM CAVAD MİRCAVADOVUN İLK FƏRDİ SƏRGİSİ AÇILDI.

Qeyd: Ssenaridə Cavad Mircavadovun söylədiyi fikirlər onun vaxtilə mənə verdiyi qeydlərindən və mənimlə söhbətlərindən alınmışdır. Filmin rejissoru ssenarimi tamam başqa yozumda işlədi. Məhz elə buna görə də böyük rəssamın sənət və həyat haqqında düşüncələrini olduğu kimi əks etdirən bu ssenarini çapa verməyi lazım bilirəm.

Müəllif

“ANAPLA ÜZ-ÜZƏ” TELEVİZİYA FİLMİNDƏ YAZIÇININ DANIŞDIQLARI

(bu danışıqlar bəzi yerlərdə filmin rejissoru Ramiz Həsənoğlunun verdiyi suallara cavab şəklindədir)

Buzovna bağında. 17 oktyabr 1989-cu il.

ANAR: İlk yazımı 14 yaşında Amerika həyatından Şuşada yazmışam. Bu pyes idi. Amma ilk hekayələrim bu bağda yazılıb. "Bayram həsrətində", "Taksi və vaxt", "Nisbət nəzəriyyəsi", "Ürəyim ağrayır". 30 il bundan əvvəl 1959-cu ildə yazılmışdır.

"Nisbət nəzəriyyəsi", "Ürəyim ağrayır" yalnız 30-cu ildən sonra 89-cu ildə "Sandıq hekayələri" başlığıyla çap olundu. 3 hekayə çap elətdirdim. Biri də o vaxtı yazılmışdı. Bağda yox, Moskvada. "İztirabın vicdanı". İndi mən o hekayələri oxuyanda görürəm ki, onlarda o dövrün izi var, həm də bu dövrlə səsləşir. "Ürəyim ağrıyır" hekayəsində dilimizin ağır vəziyyətindən doğan acı hisslər ifadə olunub. "İztirabın vicdanı" Stalin dövrünün repressiyalarına aiddir. Yəni o vaxt bizi bu mövzular düşündürürdü, həyəcanlandırırdı. Sonrakı illərdə bu temalar demək olar ki, qadağan olundu. Bu temalarda əsərlər yazılmadı və yalnız indi onları təzədən çap etməyə imkan oldu. Amma bu tək mövzu məsələsi deyil. 60-cı illərin axırlarında ədəbiyyata gələn nəsil XX qurultaydan sonra gələn nəsil idi. Bu qurultaydan sonrakı abı-havanın içində ədəbiyyata gəlmiş nəsili idi. Bilirsiz ki, bu qurultayda. Stalin dövrü haqqında həqiqətlər deyildi. Bizim keçmişin o ağır, faciəli səhnələri açıldı, kəskin və həqiqi söz deyildi. Bizim nəslin yetkinlik dövrü 56-cı ildə qurtardı. O ilin hadisələri zamanı mən universitetin birinci kursunda oxuyurdum. O ilin hadisələrini xəyalıma gətirəndə fikirləşirəm ki, XX qurultay o vaxt oldu, Macarıstan hadisələri də o il oldu. Fadeyev həmin il intihar elədi, Səməd Vurğun o il vəfat etdi. Elə bil bir dövr qurtardı, başqa dövr başladı. İctimai həyatda bizim nəslin yetkinlik dövrü, yeniyetməlik dövrü bu il qurtardı. Gənclik dövrümüz 1968-ci ildə Çexoslovakiya hadisələri zamanı 68-ci ilin avqustunda qurtardığı kimi. Dediyim 3 hekayəni götürsəm, hərəsinin bir üslub

xüsusiyyətləri vardır. Bu üslub xüsusiyyəti həm bizim yaşımızla uyğundur, həm də 60-cı illərin ədəbi zövqləri, ədəbi abı-havası ilə. Məsələ bundadır ki, təzə başlayan yazıçı istəsə də, istəməsə də hansı yazıçınınsa təsiri altına düşür, bəzən onu açıqdan-açığa yamsılayır, bəzən özü də duymadan onun təsiri ilə yazıb-yaradır. Demək olar ki, 60-cılar nəslinin bütün nümayəndələrinə olmasa da böyük qisminə, o cümlədən rus yazıçılarına da aiddir, dünya ədəbiyyatını götürəndə Heminqueynin təsiri böyük idi. Qısa cümlələr, teleqraf üslubu, sözaltı mənalar — padtekst deyirlər ona… Heminqueynin məşhur fikrini bilirsiniz. Deyir ki, ədəbi əsər aysberq kimi olmalıdır. Üzdə yalnız bir hissəsi görünür, əsas dərinliyi suyun altında görünməz qalır. Bax, biz də, birini açıq yamsılayaraq, birinin təsiri altına düşərək, birindən faydalanaraq bu üslubdan istifadə eləyirdik. O dövrün başqa böyük kumiri — Dostoyevski idi. Biz onu sanki yenidən açırdıq, çünki Stalin dövründə o da az qala yarı qadağan olunmuşdu. Hər halda geniş çap olunmurdu. "İztirabın vicdanı" hekayəsini oxuyanda mən bu gün Dostayevskinin çox böyük təsirini görürəm. Nəhayət birinci növbədə bizim üçün, mənim qələm dostlarım üçün ən böyük məktəb əlbəttə Cəlil Məmmədquluzadə məktəbidir. Çünki bu bizim ədəbiyyatın milli kökləridir və yenə də bu 3 hekayədən birini götürsək "Ürəyim ağrayır" hekayəsi demək olar tamamilə Cəlil Məmmədquluzadə üslubunda, hətta Cəlil Məmmədquluzadə dilində, onun özünəməxsus sintaksisindən faydalanaraq yazılmışdır. Ona görə bu hekayəni bu gün oxuyanda həm üslub, həm məzmun etibarilə o dövrləri xatırlayıram. O hekayələrin mayası, bu bağdan alınıb, bəziləri bu bağda yazılıb, bəziləri bu bağda düşünülüb, burada fikrimə gəlib, başqa yerdə yazsam da hər halda onların da kökü bu bağ ilə bağlıdır. Bu bağda isti yay günlərində məclislər olurdu. Dəniz yaxın idi. Dənizdə çimməyi, futbol oynamağı çox sevirdim. Amma mən indi düşünürəm ki, o vaxt mən 17, 18, 19 yaşlarında bir gənc, hər halda vaxt da tapırdım, həvəs də tapırdım, istək də tapırdım ki, yazı-pozuyla məşğul olum.

Göyçayda, ata evində.

"Ata yurdu" — bu sözün dərin mənası var. Göyçaya gələndə bu sözün dərin mənasını daha aydın hiss edirəm. Burada bizim nəslin

babalarımın — ulu babalarımın ruhunu duyuram. Göyçay özü cavan şəhərdir. Amma bu ətraf — köhnə Ərəş mahalı Azərbaycan xalqının qədimdən bəri məskun olduğu yerlərdir. Burada hətta yer adlarında, kənd adlarında qədimilik əks olunub. Bayat kəndi var. Bu ad "Dədə-Qorqud"da keçir. "Dədə-Qorqud" özü də Bayat boyundandır. Füzuli, rəvayətə görə, Bayat boyundandır. Bərgüşad kəndi var ki, rəvayətə görə Həbibi, Füzulinin ustadı, həmən bu kənddəndir. Xalaç kəndi var. Bura yaxın İsmayıllıda Quşencə kəndi var. Bu tərəflərin rayon mərkəzlərini götürün — Ağdaş, Ağsu, Göyçay, Ucar — hamısı sırf türk — Azərbaycan adlarıdır. Bizim nəslimiz Çiyni kəndindəndir. Hazırda o Ucar rayonunun kəndidir.

Mənim babamın ulu babası Məmmədxan adlı mülkədar olub, bizim familiyamız onun adı ilə bağlıdır. Məmmədxanlılar məhz bu Çiyni kəndindəndir.

Uşaqlıqda nənələrim mənə nağıl danışardı. "KoroğluU dastanını mənə anam oxuyardı. Bunlarla bir sırada bizim ailədə nənələrimdən, xüsusilə ata nənəmdən ailəmizə aid əfsanələr, rəvayətlər eşidərdim. Onlar da bu nağıllar qədər maraqlı idi. Bu rəvayətlərdən biri bizim soy adımızın, nəslimizin, familiyamızın əsasını qoyan Məmmədxanla bağlıdır. Məmmədxan rəvayətə görə çox mərd, qoçaq bir adam olub. Həm də əzazil, zabitəli, hətta mən deyərdim ki, zalım adam olub. Qoçaqlığına dəlalət edən əfsanələrdən, söhbətlərdən, rəvayətlərdən biri belədir. Burada, Göyçayın yanında bir "Bərk dərə" adlı yer vardır. Orada həmişə quldurlar, qaçaqlar çox olub. Yaylağa gedənləri, köç edənləri soyarmışlar. Bura aran yerləri idi.

İsti yay gecələrində yaylağa köçərkən "Bərk dərə"dən köç geçəndə Məmmədxan olmayanğa da köç edən adamlar bərkdən danışarlarmış bir-biri ilə. Deyirlərmiş: Məmmədxan, qurban olum, qılıncını yuxarı qaldır, ucunu daş aparar. Məmmədxan guya atın belindədir. Uzun qılıncı var və bunun ucunu daş apara bilərmiş. Bunu ona görə də deyirlərmiş ki, quldurlar, qaçaqlar Məmmədxanın adını eşidib qorxsunlar, çəkinsinlər. Onlara təcavüz eləməsinlər. Məmmədxan çar qoşunlarına müqavimət göstərib, bu cür rəvayətlər var, ailədə bu cür söhbətləri eşitmişəm.

Məmmədxanın Azərbaycan tarixinə daxil olmuş Şirvan xanı Mustafa xanla münasibətləri haqqında da ailəmizdə söz-söhbətlər olurdu. Məmmədxan kiçik feodol olsada məğrur insan kimi daha böyük feodal, nüfuzlu Mustafa xana baş əyməyib, onunla ədavəti

olub. Mustafa xan ona bata bilməyib.

Məmmədxanın başqa güclü düşmənləri də olub. Onun evinə basqın edirlər. Onu tapa bilmirlər, o qədər hirslənirlər ki, başlayırlar qovaq ağacını qılınclamağa. Ondan sonra o nəslin adı "Qovaqçapanlar nəsli adlanır. Bu rəvayətlər haqqında atam öz tərcümeyi-halında yazır ki, Məmmədxan və ondan sonrakı bu ailə düşmənçiliyi (onlara müddəilər deyirlər) qan düşmənçiliyinin əksini görmək istəyirsiz, N.B.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərini oxuyun, çünki orada olan hadisələr demək olar ki, bu hadisələrə çox yaxın, buna bənzər hadisələrdir. Məmmədxanın oğulları və nəvələri olur, onun nəticəsi mənim babam Mirzə İbrahimdir ki, dinc peşə sahibi olub, mirzə olub, mirzəliklə, yazı yazmaqla çörək qazanıb, amma onun xasiyyətində də bir mərdlik, dönməzlik varmış. O da öz dövrünə görə ətraf mühitə qarşı müqavimət göstərən adam imiş. Təsəvvür edin ki, Azərbaycanın bir əyalət şəhərində böyük qızını Gürcüstanda, Tiflisdə "Müqəddəs Nina" məktəbində oxutdurub. Evinə Rusiyadan, Peterburqdan, Moskvadan jurnallar alarmış. Azərbaycandan da "Molla Nəsrəddin" kimi açıq fikirli jurnalı yazdırıbmış. Ona görə əqidəsi etibarı ilə bu ailə babı və bəhayi olmadıqlarına baxmayaraq onlara hətta bəhayi deyirlərmiş.

Bir detal da maraqlıdır, onu nənəm həmişə danışardı. Hərdən İbrahim deyirdi ki, gedirəm Gəncəyə məsləhətə Ələkbər bəyin yanına və yalnız sonralar atam-anam evlənəndən sonra belə bir güman, belə bir fərziyyə var ki, həmən bu Ələkbər bəy Gəncədə Nigar Rəfibəylinin babası Ələkbər bəy imiş. Çünki o zaman ən nüfuzlu adamlar onun yanına məsləhətə gələrlərmiş. Deməli babam, ana babamın yanına məsləhətə gələrmiş. Babam Mirzə İbrahim 15-ci ildə vəfat edib. Atam o vaxt 5-6 yaşında olduğundan xatirinə çox dumanlı gəlirdi. Atam deyərdi, yadıma gəlir, ala gözləri var idi. Amma 5 yaşında uşağın yadında nə qala bilərdi. Babam vəfat edəndən sonra ailəni atamın dayısı Məmmədhüseyn Rzayev saxlayıb. Ona görə də atam familiyasını Rzayev götürübdür.

Qəribə paradoksdur ki, atamdan əvvəl onun üç bacısı olub. Biri körpə ikən vəfat edib. Amma ikisi Kübra xanım və Sara xanım atamdan böyükdülər və dördüncü övladı oğlan olanda babam çox sevinib ki, nəhayət onun familiyasını davam etdirən adam gəldi. Amma sonra atamı dayısı saxladığı üçün Rzayev familiyasını götürüb. Mən də əsl familiyamı yox, Məmmədxanlı familiyasını yox,

Rzayev familiyasını daşıyıram. Atamın arzusu idi ki, mən əsl familiyamızı — Məmmədxanlı familiyasını götürüm. Müyəssər olmadı. Çünki üzv olduğum bütün ittifaqlar, təşkilatlarda bu familiyayla gedirəm. Nə isə, uzun məsələdir. Amma indi nəvəm olub. Atası, anası, yəni oğlum Tural, onun xanımı Sevinc uşağın adını Rəsul qoyublar. Mən arzu edərdim ki, onun familiyası Məmmədxanlı olsun. Bizim bu qədim familiyanı, şərəfli familyanı davam etdirən olsun. Atamın 34-cü ildə yazdığı bir şeri var. "Sümüklər" adlı şer. O vaxtkı dildə — 34-cü ildə çıxanda "Kəmiklər" adı ilə çıxıb. İndi biz sümüklər deyirik. Bu şerdə misralar var ki, sümüklər bəndləndi, sümüklər kəməndləndi, sümüklər qoymadı irəli, hara getdimsə ağzımdan vurdular ki, sən xan nəvəsisən, hara getdimsə babalarımla məni ittiham elədilər və orada belə bir misralar da var ki, "xan nəvəsi ola-ola, ərizə verəsən komsomola", yəni bu təzyiqi atam ömrü boyu duyub, onun o ulu babası kiçik bir feodal olduğuna baxmayaraq onun zabitəsi, adının vahiməsi bizim dövrə qədər gəlib çatıb.

Bilmirəm bəlkə qəribə gələ bilər, hətta qeyri-təvazökar gələ bilər ki, mən bu qədər babalarımdan danışıram. Amma məsələ onların şəxsiyyətində deyil, mən başa düşürəm ki, onların nöqsanları da olub, naqis cəhətləri də olub. Bunlar hamısı öz yerində. Amma onlardan danışıramsa varislik nöqteyi-nəzərindən yox.

Bir yazıçı kimi marağım onunla əlaqədardır ki, mən onların simasında Azərbaycan tarixinin müxtəlif mərhələlərində iştirak etmiş adamları görürəm. XIX əsrdə Azərbaycanın Rusiyaya qatılması, XX əsrin əvvəllərində maarifçilik hərəkatı, 1918-ci ilin hadisələri, 20-ci ilin hadisələri — mən onların taleyində bütün bunların izlərini görürəm və ona görə də onların şəxsiyyətinə məndə bu qədər maraq var. Bayaq dedim ki, ata babam Gəncəyə Ələkbər bəylə məsləhətləşməyə gedirmiş. İndi biz də qismət olsa Gəncəyə getsək, orada ana tərəfdən nəslimiz haqqında, Rəfibəylilər nəsli haqqında danışaram.

Gəncədə Ələkbər bəyin bir oğlu varmış — mənim babam Xudadat bəy Rəfibəyli. Avropada — Rusiyada təhsil alan ilk azərbaycanlı həkimlərdən biridir — Xarkov Tibb institutunu qurtarıb, 1903-cü ildə Gəncəyə qayıdıb. Cərrah-xirurq kimi. Və ömrünün sonuna qədər, yəni 20-ci ilə qədər cərrahlıq fəaliyyətini davam etdirib, heç bir partiya, heç bir firqəyə daxil deyilmiş, amma

nüfuzlu bir adam kimi Azərbaycan cümhuriyyəti yarananda onun səhiyyə naziri olub. Sonra Gəncə qubernatoru olub, Gəncənin qubernatoru olmaq isə o zaman Azərbaycanın yarısını idarə eləmək deməkdi. Çünki iki quberniya vardı: Bakı quberniyası və Gəncə quberniyası. 20-ci ildə Sovet hakimiyyəti qurulanda Gəncə bolşevikləri gəliblər bunun yanına ki, sən hakimiyyəti təhvil verməlisən. Bu da böyük məmmuniyyətlə hakimiyyəti təhvil verib. Yəni möhürü və sairəni ki, "mən yenə də sevimli peşəmlə — həkimlik peşəmlə məşğul olacağam" — deyib. Amma təəssüf ki, bu ona nəsib olmayıb. Onu tutublar. Və bunu tutub aparan zaman böyük nüfuzu olduğu üçün camaat xilas eləməyə çalışıb. Amma Xudadat bəy deyib ki, nəbada əsgərlərə hücum eləyəsiz və məni xilas edəsiniz. Çünki qan tökülər. Mənim heç bir günahım yoxdur, məni aparacaqlar, dindirəcəklər, danışdıracaqlar, sonra yəqin buraxacaqlar. Onu Bakıya gətirirlər və Xəzər adalarının birində güllələyirlər…

…Bir dəfə uzaq bir yerdə mən Dədə Qorqud haqqında məruzə eləyirdim. Dastanın adı rusca tərcümədə "Kniqa moeqo Deda Qorquda"dır… bir nəfər mənə yanaşdı ki, "Dədə Qorqud sizin babanızdır?" Mən cavab verdim ki, bəli, babamdır. Mən Dədə Qorqudu da öz ulu babam hesab eləyirəm, Füzulini də, Xətaini də, Zərdabini də, Nərimanovu da, Mirzə Cəlili də, Üzeyir Hacıbəyovu da mənəvi babalarım sayıram. Və bacardıqca bu nəvəlik borcumu verməyə çalışıram…

Buzovna bağında. 28 avqust 1989-cu il

Bu bağ — Abşeronun şimalında, Xəzərin lap sahilində — Buzovnada yerləşən bu bağ mənim üçün nədir? Həyatımın böyük bir hissəsi və bəlkə də ən gözəl bir hissəsi. Çünki uşaqlıqla bağlı hissəsi, qayğısız günlərlə bağlı hissəsi, atamla, anamla bağlı hissəsi bu bağda qalıb. 50 ildir bu bağa gəlirik. Mənim yadımdadır, bura ilk dəfə gəldiyimiz — bağın o tərəfində də bir ev vardı, sonra bu tərəfində bir uçuq ev vardı… bu evin özü birmərtəbəli, uçuq bir evdi. Atam yavaş-yavaş ikinci mərtəbəni tikməyə başladı, otaqları genişləndirdi, sonra yuxarıda taxta eyvanı düzəltdi… bu bağ bizim ailənin taleyilə bağlıdır, həm də mənim üçün bir yay duyumu var burda, əbədi bir yay duyumu… Əlbəttə ayrı vaxtlarda da gəlirdik bura, bəzən payızda gəlirdik, yazda da gəlirdik. Amma yaşadığımız əsas dövr yay idi, ona

görə də, deyirəm də, mənim bu bağnan bağlı anımlarım, xatirələrim, duyumlarım həmişə bir yay əhval-ruhiyyəsindədir, bir yay ovqatındadır. Qayğısız, gündüzlər səması açıq, bol günəşli, isti, bəzən qızmar isti… əvvəllər ağcaqanadlar yox idi, sonra ağcaqanadlar da əmələ gəldi… gecələri ağcaqanadlı, ulduzlu, dənizin səsi gələn bir bağ və mən şəhərdə böyüdüyüm üçün, necə deyərlər, şəhər uşağı olduğum üçün, asfaltın üstündə böyüdüyüm üçün bu bağ həm də məni təbiətlə bağlayan bir yer idi, torpaqnan bağlayan bir yer idi. Təbiətin dəyişməsi, payızda ağacların yarpaqlarının tökülməsi, yazda yaşıl don geyinməsi, üzümün, əncirin yetişməsi, ayın axırında, iyunun əvvəlində tutun dəyməsi, bir sözlə, təbiətin bu dövrü, bu dəyişməsi… bunu mən əyani surətdə bu bağda görürdüm. May ayında tutun dəyməsi bizim üçün böyük sevinc idi. İyunda burda ilk dəfə tut yeyərdik, sonra yavaş-yavaş üzümlər dəyirdi, birinci pirşiraz bütün üzümlərdən əvvəl dəyirdi, sonra kişmişi üzüm, şanı, qara şanı, ağ şanı, sarıgilə… indi bu bağda üzümlüklər də tələf olub gedib. Amma o vaxt bağın yaxşı üzümü vardı və mən məhrəm bir adamı itirən kimi bu bağda iki ağacı itirmişəm. Bax o tərəfdə — indi orda Ənvər Məmmədxanlının bağıdır, orda böyük bir tut ağacı var idi. Biz o tut ağacının həmişə başına dırmaşardıq, onu silkələyərdik, aşağıda süfrə tuturlardı, tut tökülürdü. Sonra o qurudu. Deyirlər ki, guya bir mərdiməzar qonşu gəlib, əhəng töküb dibinə, bilmirəm indi bu nə dərəcədə belədi, amma hər halda o böyük tut qurudu və ikinci tut da burdakıydı, siz də görmüşdünüz onu, son illər biz bu tutun altında yığışırdıq, onun kölgəsində yığışırdıq… dırmaşırdıq o ağaca, o da qurudu. Mənə belə izah elədilər, bunun qurumağının səbəbi odur ki, Abşeronda tut ağaclarının kökü gedir dərinə, hardasa bir yerdə duzlu suya çıtır onun təsiriylə quruyur, hər halda indi səbəbi nə olsa da onun qurumağı da… bizi məyus elədi. Bu yay gəldik gördük ki, artıq quruyub… Birinci illər bura biz gəlirdik, atamın ailəsi, özü də onda bütün bu sahə bizim idi — bu tərəf də, o tərəf də… sonra dedilər ki, bu sahə çox böyükdür, ona görə bu sahənin yarısını yazıçı Əvəz Sadığa — "Kirpi" jurnalının ilk redaktoru, yazıçı-jurnalist Əvəz Sadığa verdilər… Biz ailəliklə dostluq eləyirdik, onun oğlu Azər, kürəkəni o biri Azər (oğlu Azər Sadıxov skripka müəllimidir, kürəkəni Azər Rzayev məşhur bəstəkardır), qızları vardı. Əvəz əminin — Gülər, Gülarə, Gülnar, Gülyaz… Gəlib-gedişimiz vardı. Burda birlikdə uşaqlıqda oğlanlarla voleybol oynayırdıq, futbol

oynayırdıq, axşamlar kart oynayırdıq, bir sözlə, bütün yay ayları o ailə ilə bağlıydı. Sonra … bu hissəni də atam Ənvər Məmmədxanlıya — əmisi oğlu, xalası oğlu Ənvər Məmmədxanlıya verdi və o da burda bax o evini tikdi. Yayda o da gəlirdi. Yayda bir növ bura bir klub olurdu, atamın da dostları çoxuydu, Ənvər müəllimin də, Əvəz Sadığa da qonaqlar gəlirdi və o qonaqlar da hamısı burda toplaşırdı. Bu bağda kimlər olmayıb?... Yazıçılar, jurnalistlər, sənət adamları, alimlər, müxtəlif adamlar, hələ qohum-qardaşı demirəm. Qohum-qardaş demək olar ki, hər şənbə, hər bazar gələrlərdi bura… Bu söhbətlər, bu ünsiyyət… bu da mənim həyatımın gözəl, munis xatirələridir.

Bəlkə haçansa mən, ya başqa bir adam bu bağın sırf yaradıcılıq baxımından tarixini yazacaq ki, 4 yazıçı, Rəsul Rza, Nigar Rəfibəyli, Ənvər Məmmədxanlı, o tərəfdə Əvəz Sadıq və necə deyərlər, təzə başlayan, həvəskar mən… bir çox yazılarımız məhz burda yaranıb… Atamın bir çox şerləri burda yaranıb, nəinki burda yaranıb, buraynan bağlıdır. Bax elə ağcaqanadlar haqqında… mənim yadımdadır, biz bu dəniz sahilinə gedəndə Buzovna ilə Mərdəkan arasında bataqlıq kimi bir yer vardı… birinci ağcaqanadlar orda əmələ gəldi. Orda onun kökünü kəsmədilər.

…Ağcaqanadlar ordan yayılmağa başladılar Buzovnaya, Mərdəkana, Şüvəlana, hətta indi Bakıya da gəlib çıxıblar. O vaxt atamın bir satirik şeri vardı. Özü də o şer məhz "Kirpi" jurnalında çap olunmuşdu, həmən bu ağcaqanadlar haqqında… bu ağcaqanadlarla bağlı bir başqa şeri da var atamın. O da burda yazılıb. Onun tarixçəsini mən danışmaq istəyirəm. Amerikanlıların ilk dəfə aya düşməsi haqqındadır bu şer. Armstronq, Oldrin, bir də Kollinz ilk insanlardı ki, ayaqları aya dəydi… Onu deyim ki, bu tema atama çox maraqlı görünürdü və Qaqarin uçanda, ilk insan kosmosa uçanda ona də şer yazmışdı və çox sevinclə, fərəhlə bu hadisəni vəsf eləmişdi. Amerikanların aya düşməsi də onu çox maraqlandırırdı və bu barədə də onun şeri var. Amma orda bir qəribə misralar var… İndi onları açıb bilərəm, təəssüf ki, indi bizim mətbuat da bunları yazır ki, dünyada yalnız iki ölkə — Sovet İttifaqı və Çin Xalq Respublikası ilk insanın aya düşmək kadrlarını translə eləmədi. Bütün dünya bunu göstərdi, çünki bu bütün dünyanın nailiyyətiydi, tək Amerikanın nailiyyəti deyil, necə ki, Qaqarinin uçuşu da bütün dünyanın nailiyyətidir, bu da… bütün dünya bunu maraqla izləyirdi

və yalnız bizim televiziya — sovet televiziyası qısa bir məlumat verdi, göstərmədi. Atamın şeri də bu cür qurtarır ki, … insan oğlu aya belə qədəm basdı, hayıf mığmığalar buna baxmağa qoymadı. Yəni burda mığmığalarla assosiasiya var. Doğrudan da Buzovnada mığmağalar çox idi, amma bu mığmığalar beyinsiz senzorlar, beyinsiz redaktorlar, beyinsiz ideologiya işçiləriydi ki, bütün dünyanın malı olan bu hadisəni sovet xalqından gizlətdilər, insanları qoymadılar ki, tarixin mühüm bir səhifəsini, vacib bir səhifəsini əyani surətdə görək. İndi bu yadıma düşən şeylərdir, bir çox başqa şerlərini, başqa pyeslərini də bu bağda yazıbdır, o "Görüş" pyesini də burda yazırdı, sonra bir "Qanun" pyesi var, onu da Buzovnada işləyirdi. Anamın təəssüf ki, işləməyə burda o qədər imkanı yox idi, çünki mən onu dəfələrlə demişəm ürək ağrısıynan yazmışam ki, onun vaxtının çoxusu bizə, ailəyə qulluq eləməyə, evə, xörək bişirməyə, bizim qayğımıza qalmağa, bir söznən ev işlərinə gedirdi və ona görə yaradıcılıqnan məşğul olmağa və o cümlədən bağda da yaradıcılıqnan məşğul olmağa vaxtı çox az qalırdı, hələ bağımız qonaqlı-qaralı bir yer idi, o gələnlərin də qayğısına qalmaq lazım idi, onları da qonaqpərvərliklə qəbul eləmək lazım idi, filan, ona görə də mən heç yadıma sala bilmirəm ki, anam burda hansı şeirləri yazıb və yaradıcılıqla məşğul olub… Mənim bir neçə hekayəm burda yazılıb — ilk hekayələrim burda yazılmağından başqa burda da oxunub… Həmən o burda yığışdığımız məclislərdə… atama, Ənvər müəllimə, anama… Bax bu iki bağın arasında — orda qamışlıq vardı, indi bir az qalıb, amma o vaxt çox belə gur idi bu qamışlıq… yadımdadır biz orda qarğıları kəsirdik, atam da ondan səbət toxuyurdu. Sonra o səbətin altına üzüm yarpaqları qoyurlardı, üstünə üzüm, əncir qohumlara, tanışlara, qonşulara pay göndərirlərdi… Atam çox yaxşı səbət toxuya bilirdi. Bu vərdiş ona uşaqlığından qalmışdı. Uşaqlığında o, belə səbət toxuyurmuş, bu səbətləri satırlarmış və ailəsinə kömək eləyirmiş… Orda əncir ağacları vardı… İndi onlar da qalmayıb, əvvəl varəncir dəyərdi, yayın əvvəllərində, səhər şehli əncirləri… yadımdadır nə qədər… həvəsiyirdik onları yığmağa… daha nədən danışaq, Ramiz.

30.08.1989

…Bilirsiniz də belə bir söz var… şair deyir ki, adam özü

haqqında deyəndə ki, mən şairəm, yazıçıyam, bu bir az qeyri-təvazökar səslənir, bu eyni şeydi ki, deyəsən mən yaxşı adamam, yəni demək ki, mən yazıçıyam və yazıçılığa necə başladım — mənim üçün burda bir qeyri-təvazökarlıq var, amma hər halda bu peşəyə mən necə gəldim… o barədə danışa bilərəm.. çox vaxt oxucularla görüşlərdə belə sual verirlər və mən hələ də bu sualın cavabını bilmirəm. Sual isə bundan ibarətdir ki, "Siz ədəbi ailədə, yazıçılar ailəsində dünyaya gəlməsəydiniz yazıçı olardınız, yoxsa yox?" Mən bu sualın cavabını bilmirəm, doğrusu. Bəlkə də mən bir həkim ailəsində dünyaya gəlsəydim həkim olardım, fəhlə ailəsində dünyaya gəlsəydim fəhlə, kəndçi ailəsində kəndçi, müəllim ailəsində müəllim və bəlkə də yazıçı olmağımın, yəni ədəbiyyat sahəsində çalışmağımın səbəbi odur ki, məhz yazıçı ailəsində dünyaya gəlmişəm. Uşaqlıqdan ədəbi söhbətlər mühitində, kitablar mühitində, ədəbiyyatla bağlı məsələlər mühitində və ədəbi iclaslar, disputlar, mübahisələr, zövqlərin münaqişəsi mühitində böyümüşəm. Bəlkə bütün uşaqlığım bu şəraitdə keçdiyinə görə, atamın, anamın yazıçı olduğunu görüb həvəsləndiyimə görə yazıçı olmuşam, ola bilsin. Bəlkə də yox. Bu suala cavab yoxdur, çətindi demək… Amma bu iş… bu peşəyə maraq uşaqlıqdan olmasına baxmayaraq, haçan təsdiq olundu? Bu təxminən 51-ci, 52-ci il idi, yox dəqiq 52-ci il… Şuşada dincəlirdik… Şuşaya getməyimiz… faciəvi hadisələrlə bağlı idi. O illəri dalbadal bibim Turə vəfat elədi — cavan yaşında və onun fərağına, onun xiffətinə dözməyib bir ildən sonra nənəm Məryəm xanım rəhmətə getdi. Yadımdadır ki, bütün ili nənəm ağladı və qızının yasını tutdu. Bundan sonra atamı bu kədərli fikirlərdən ayırmaq üçün qərara gəldik ki, Şuşaya gedək, Şuşada bir az bu şeyləri bəlkəm unutsun. Ümumiyyətlə Şuşa haqqında mən sonra danışaram. Şuşa mənim üçün həm ən çox fərəhləndiyim, çox sevdiyim bir yer idi, həm də belə gətirib ki, həmişə ora müəyyən dərəcədə kədərli xatirələrlə də bağlanıb… Şuşada Üzeyir Hacıbəyov filmini çəkəndə atamın, anamın vəfatı elədiyi il idi — 81-ci il… Şuşaya birinci gəlişimiz də dediyim kimi bu ailə itkilərimizlə bağlı idi. Nənəmi çox istəyirdim, onun xiffətini çəkirdim, həm də darıxırdım. Şəhər mühitində böyümüş yeniyetmə Şuşada nədisə darıxırdı… İndi mən Şuşanın gözəlliyinə valehəm və ən böyük xoşbəxtlıyim o olardı ki, Şuşada çox yaşaya biləm. Amma o zaman Şuşada darıxırdım, təbiət də məni cəlb eləmirdi, bu gözəllikləri də

duya bilmirdim və Bakıya can atırdım. Atam da görürdü ki, mən də darıxıram, bacım da, məndən 5 yaş kiçik bacım Fidan da… biz özümüzə bir yer tapa bilmirdik və atam yəqin ki, bizim başımızı qatmaq üçün məsləhət gördü ki, heç olmasa burda gördüyünüz mənzərələr haqqında, oynadığınız uşaqlar haqqında, eşitdiyiniz sözlər haqqında bir şey yazın ki, belə yol qeydləri kimi bir şeymi, xatirə kimi bir şeymi (halbuki uşağın nə xatirəsi olar bilər)… Təəssüratınızı yazın və bir ay biz burdayıq, başınızı bunnan qatın. Və mən (indi deyə bilmərəm nə cür oldu, hansı impulslardan doğuldu) Şuşa xatirələrini yox, Amerika həyatından bir pyes yazdım. O pyes indiyə qədər durur, çox sadəlövh bir pyesdir, o dövrün Amerika həyatını bizim sovet təbliğatı necə göstərirdisə təxminən bu təbliğatdan doğulmuş bir əsərdi. Bir istedadlı bəstəkar olur, amma yaşaya, dolana bilmir, ailəsini saxlaya bilmir, sonra bu gedir, kütləvi sənət yoluna düşür və bundan sonra əsərləri reklam olunur… sənətinə xəyanət eləyir, sənətinə xəyanət elədiyi üçün sevimli arvadı da onu atıb gedir. Çox sadəlövh, çox bəsit və dayaz melodramaydı bu… O vaxt mənim 13-14 yaşım vardı. Amma mən bu pyesi bir günə yazıb qurtardım, özü də yazıb qurtarana qədər demirdim ki, nə yazıram, heç kəsin ağlına gəlməzdi ki, mən bu mövzuda bir şey yazıram. Şuşada istirahət evində, çəmənlikdə bir stol qoymuşduq axşamlar çay içərdik, söhbət eləyərdik… mən dedim ki, bir şey qurtarmışam və başladım onu oxumağa. İndi də öz cəsarətimə təəccüblənirəm ki, demək 13-14 yaşında uşaq Amerika həyatından pyes yazır və hər halda tənınmış yazıçılara (atam-anam olsalar da) əsərini təqdim eləmək cəsarətini duyur… Amma bunu oxudum, çox diqqətlə qulaq asdılar və oxuyub qurtarandan sonra gördüm ki, atamın ala gözlərində qəribə bir işıq var. İndiyə qədər üzünün ifadəsi yadımdadır. Bu həm təəssüf hissiydi, bəlkə də bir fərəh hissiydi, həm bir sevinc idi, həm də bir təəccüb idi. Və bütün bu hisslərin nəticəsində onun bir kəlmə sözü oldu ki, "heç nə… sən də yazıçı oldun!.."

Mənə bax bu sözü dedi. Mən ömrüm boyu bu sözü yadımda saxladım və bu dəqiqə mənim taleyim həll olundu… Yəni mən bu gündən sonra bildim ki, yazıçı olmuşam, ya olmamışam, necə yazıçıyam — yaxşı, pis — bunlar hamısı başqa söhbətlərdi, amma peşə seçməyim, taleyimin həll olunması, müqəddəratımın həll olunması, bax bu dəqiqələr baş verdi — 13-14 yaşında. Yəni bu

gündən, bu dəqiqədən sonra mən bildim ki, ancaq ədəbiyyatla məşğul olacağam… O pyes, rus demişkən, çox "naivnıy", çox sadəlövh bir şey olsa da, görünür atam onda bir şey tutmuşdu ki, bu qəti hökmü verdi. Onu deyim ki, onun məktublarında da, sonrakı söhbətlərində də (mən bu barədə həmişə açıq yazıram, deyirəm) həmişə çox tələbkar olub mənim yazılarıma və heç bir vaxt hiss eləməmişəm ki, o, məsəlçün nə isə tərifli bir söz desin yazılarımla bağlı, ya bir şişirtmə olsun, çünki bəzən olur görürsən mənim özümə də bu xasdır, bəzən görürsən bizim övladlarımızın gördüyü işlər bizim gözümüzdə daha böyük görünür, və bu barədə biz fəxrlə danışırıq, amma mən atama bir də ona görə minnətdaram ki, heç bir vaxt məndə o illüziya yaratmayıb, hansı əsərimi isə tərifləməklə qoltuğuma qarpız verməyib… belə şeylər olmayıb və bir dəfə (indi daha açıq danışıram bu şeyləri, buna görə məni bağışlayarsınız)… ancaq bir dəfə son illərində mənim bir yazım vardı… onu anam oxumuşdu… sonra anam mənə dedi ki, (anamın xoşuna gəlmişdi) Rəsula da bu barədə dedim ki, Anarın belə bir yazısı var və çox yaxşı yazıdır (anam belə dedi) və Rəsul dedi ki, "Anar nə yazır, yaxşı yazır". Bax bu mənim özümə deməmdiyi, amma anam vasitəsilə mənə verdiyi qiymət mənim üçün çox əzizdir, çünki özümə o, heç bir vaxt belə sözlər demirdi. Nə isə.. Demək Şuşada bu hadisə başladı. Atamın məktubu var. "Sizsiz"də vermişəm onu… mən "Sizsiz"i tez-tez təkrar eləyirəm, çünki bu bir növ tək onlara həsr olunmuş əsər deyil, həm də mənim uşaqlıq, gənclik və hətta yaşlı vaxtımın bir növ salnaməsidir, bu filmdə danışdığım bir çox məsələlər də artıq orda qeyd olunub, yəni orda artıq bunların əksləri var. Ona görə tez-tez bu əsərdən sitat gətirirəm. Demək mənə yazdığı məktub… hansı ali məktəbə daxil olmağım barədədir. Bəzi oxucu belə hesab eləyər ki, burda həll olunur ki, yazıçı olum, yoxsa yox… Amma bu məktubu diqqətlə oxusanız, diqqətlə baxsaz görərsiz ki, atamda bu məsələ şübhə doğurmur, yəni mənim ədəbiyyat yoluyla gedəcəyimə, yazı yazacağıma onun şübhəsi yoxdu. Amma onun fikri beləydi ki, mən başqa bir peşəyə yiyələnsəm, xüsusilə texniki peşələrə yiyələnsəm, bunun yazıçı kimi də işimə xeyri ola bilər ki, mən yeni bir həyat sahəsini öyrənərəm, yeni həyat sahəsini mənimsəyərəm. Yəni bizim ailədən uzaq olan (bizim ailə ədəbiyyat-ədəbiyyatçılar ailəsidir), kənar bir sahənin adamları ilə təmasın mənə gələcək həyat təcrübəm üçün də, yazıçı təcrübəm üçün də xeyirli olar. Bu nöqteyi-nəzərdən o

mənə məsləhət görürdü ki, geologiyamı, fizikayamı, başqa texniki sahəyəmi gedim və yəqin ki, o haqlı idi. İndi başa düşürəm ki, əlbəttə mən başqa bir peşəni mənimsəsəydim, bu cəhətdən həyat təcrübəm artıq olardı. Mən orta məktəbdə riyaziyyatdan yaxşı oxuyurdum (ən çox sevdiyim dərs də riyaziyyat və coğrafiya idi). Amma buna baxmayaraq məni ali məktəbdə riyaziyyat, fizika, bir sözlə dəqiq elmlər və dəqiq peşələr, mühəndislik peşəsi — filan… cəlb eləmirdi. Və nəticə etibarıyla belə oldu ki, mən universitetin, bizim Azərbaycan universitetinin filologiya fakültəsinə, yəni yenə də ədəbiyyatla bağlı bir sahəyə getməli oldum.

30 avqust, 1989

…Professionalizm, peşəkarlıq çox mürəkkəb məsələdir. Ona görə bunun nəzəri aspektləri də var, təcrübəsi də var, bu barədə saatlarla danışmaq olar. Amma mən bir analogiyaynan, bir metaforaynan bu barədə demək istəyirəm… məsəlçün şahmat oyunu… Biz hamımız, az-çox şahmat oynayırıq. Mən də oynayıram şahmat. Çox adam şahmat oynayır, ancaq sən yalnız usta səviyyəsində (master, sonra qrossmeyster də var), bəli sən şahmatda usta səviyyəsinə, ya da hətta birinci razryad səviyyəsinə çatanda başa düşürsən ki, sən şahmatı hələ çox zəif oynayırsan… Yenə o vaxt kı, peşəkarlığı mənimsəyirsən, ancaq onda bu peşənin bütün mürəkkəbliyi, bütün zənginliyi sənin üçün açılır və başa düşürsən ki, sən bu sahənin hələ şagirdisən. Mən bunu çox müşahidə eləmişəm yazıçılarda. O yazıçı ki, talantı da azdı, zəifdir, mütailəsi də zəngin deyil, kasıbdır, o özünü çox böyük yazıçı sayır. Və mütaliə artdıqca, peşəkarlıq artdıqca, bu sənətin dərinliyinə getdikcə başa düşürsən ki, bu sənətin qrossmeysteri Tolstoydu, Dostoyevskidir, Balzakdı, Cəlil Məmmədquluzadədi, Füzulidi, Şekspirdi, Puşkindi və… onlarla sənin aranda böyük bir distansiya var. Bunu qavramaq üçün burda tək cəsarət yox, elə acı şeylər var ki, onları qavramaq üçün doğrudan da cəsarət lazımdır, kişilik lazımdı ki, özün haqqında da bu həqiqəti dərk edə və deyə biləsən. Amma… cəsarətdən çox, həm də bu peşəkarlığın məğzini anlamaq vacibdir. Başa düşürsən ki, bu peşə nədir… Nədən ibarətdir bu peşə… Mən isə belə deyə bilərəm ki, məsələn ilk hekayələrimdən biri ilk çap elətdirdiyim hekayələrimdən

biri "Keçən ilin son gecəsi"dir ki, mən indi də onu bütün kitablarıma salıram. Ona görə yox ki, o belə gözəl hekayədir. Amma elə hesab edirəm ki, sonrakı hekayələrim — çox sonra yazdığım hekayələr — ondan üstün deyillər. Yəni bu hekayəni yazanda mənim müəyyən səviyyəm var (bu ortadır, aşağıdır, yüksəkdir — o başqa söhbətdir)… Məni ədəbiyyatda nə maraqlandırırdı? Yazılarımı səthi oxuyanda yəqin ki, bir eksperimentçi, axtarışda olan yazıçı təsiri bağışlamıram. Amma mənim bütün yazılarım eksperimentdir. O cəhətdən eksperimentdir ki, mən ədəbiyyatın müxtəlif formalarında və janrlarında yazaraq müxtəlif formalarını və janrlarını mənimsəmək istəmişəm. Psixoloji hekayələr, lirik hekayələr, sonra satirik sikl— "Molla Nəsrəddin", sonra fantastik əsər — "Əlaqə", sonra yarıdedektiv — məhkəmə oçerki — "Gecə yarısında hadisə", sonra dramaturgiya, sonra kino, esseistika, publisistika… Mən bütün bu janrların (ümumiyyətlə tək ədəbiyyatın yox, çünki daha geniş götürsək, bu həm də teatra, kinoya, televiziya, radioya, publisistikaya aiddir) — sənətin müxtəlif formalarının imkanlarını özümçün açmaq istəmişəm. Peşəkarlıq yolunda bu mənimçün çox vacib bir vəzifədir… bunu mən bilərəkdən qarşıma qoyuram. Bir də hər mövzu, hər mətləb öz janrını, formasını tələb edir. Tutalım "Dədə Qorqud" filminin ssenarisini yazmışamsa mən bu uşaqlıqdan valeh olduğum xalq dastanını ilk növbədə kinoda görürdüm. Roman kimi yox, hətta pyes kimi yox, məhz kino kimi — mənim gözümdə dastan kino əsəri kimi canlanırdı, ordakı o genişlik, o səhralarda çapan atlar, o səhralarda qurulan alaçıqlar, ümumiyyətlə bu çöl həyatı, natura həyatı, yəni kinonu götürsək, orda pavilyon, interyer həyatı yoxdu, orda hər şey açıq səma altındadır. Bax bu açıq səma altında… açıq səma duyumunu də ən çox və ən dəqiq mənə elə gəlir ki, kino verə bilərdi. Ona görə mən "Dədə Qorqud" temasını başlayanda, birinci kinodan başladım… Amma… kinonun ssenarisini yaza-yaza məndə bir həvəs oyandı ki, bu "Dədə Qorqud" haqqında düşündüklərimi yarıesseist, yarıpublisist, yarıelmi, yarıtənqidi — yəni yarı deyəndə bütün bunların qarışığından olan bir formada da mənimsəyim və ona görə də "Dədə Qorqud dünyası" adında essem yarandı. Mirzə Cəlilin yaradıcılığına varmaq, onun həyatını (həyatı da yaradıcılığı qədər maraqlıdır), yaradıcılığını anlamaq… Yəni buna elmi, elmi deyəndə mən sırf elmi iş yazmıram, elə tədqiqat işi ki, gedib onun əsərlərini, əsərləri haqqında yazılanları, özünün yazdığı xatirələri — bunların

hamısını, təhlil eləmək, anlamaq, qavramaq, dərk etməkdən ibarət olsun — bu janrda "Anlamaq dərdi" essesi yarandı. Amma eyni zamanda mən bu temanı bir səhnə əsəri kimi, Cəlil Məmmədquluzadənin həyatını və yaradıcılığını (həyatıynan yaradıcılığı mənimçün bağlıdır) səhnə və kino vasitələriynən açmaq istədim. Birinci televiziya filmi yarandı — Ramizin rejissurasıynan — "Dindirir əsr bizi" tamaşası, sonra "Sizi deyib gəlmişəm" teatr tamaşası Əzizbəyov teatrında qoyuldu, sonra Şəki teatrında və nəhayət film, onu mən özüm çəkdim ("Qəm pəncərəsi") ikiseriyalı film. Bununla da mənimçün Cəlil Məmmədquluzadə teması bitmir, çünki bu temanı açmaq üçün (Cəlil Məmmədquluzadə temasını deyəndə mən geniş götürürəm, tək bir yazıçının həyatı yox — ümumiyyətlə epoxa)… onunçün mən bu temanı, bu mövzunu, bu mövzuda son sözümü demək üçün nəsr şəklində — romanmı olacaq, "məşhur adamların həyatı" seriyasındanmı bir yazımı, bilmərəm… nə cür deyim sizə… bir essevari bioqrafiyamı olacaq, romanlaşdırılmış bioqrafiyamı — hər halda bu janrda da, bu formada də Cəlil Məmmədquluzadə temasında bir şey yaratmaq istəyirəm, yazmaq istəyirəm. Dediyim olur ki, eyni mövzuları müxtəlif janrlarda, sənətin müxtəlif növlərində mənimsəmək, özünçün anlamaq, dərk etmək — bu da bir növ mənim şəxsi eksperimentçiliyimdir və bu da mənimçün peşəkarlığa yiyələnmək formasıdır…

…Burda bir neçə məsələ var, Ramiz… Konkret olaraq kino… mənim kinoda fəaliyyətim. Mən indi ssenari kursların da oxumuşam, ssenari yazmışam, başqa rejissorlar çəkiblər və onların içində yaxşı filmlər də var, məsələn, Arif Babayevin çəkdiyi "Gün keçdi" filmi — indi də, hətta indi bəlkəm o vaxt çəkildiyi vaxtından daha maraqla baxılır, bir ovqat var orda, bir əhval-ruhiyə var — filan… Amma onlar mənim… hətta Arif kimi bir rejissorun bu gözəl filmini, bəlkə mənim yazdığımdan da gözəl çəkdiyi filmi, hər halda tam mənada öz filmim saymıram. Əgər kinoda işləyəcəkdimsə, o vaxt filmi öz filmim saya bilərəm ki, bunu mən tək ssenarist kimi yox, rejissor kimi də yaradım. Kinoda əsas rejissordur. Bilirsən, ssenari nə cür olursa, olsun, filmin əsas müəllifi rejissordur. Və mən peşiman deyiləm ki, "Dantenin yubileyi"ni biz Gülbənizlə bir yerdə çəkmişik — bu, şərikli malımızdır. Amma iki film ki, mən çəkmişəm — "Qəm pəncərəsi" və TÜzeyir Hacıbəyov. Uzun ömrün akkordları" — tam

mənim öz filmlərimdir. Peşiman deyiləm ki, bunları etmişəm. Xeyli vaxt sərf etmişəm. Şübhəsiz, Azərbaycan kinosunda məndən peşəkar, məndən istedadlı, məndən yaxşı tutalım lap 5, 10, 15 rejissor var. 15 bir az çoxdur, 10 da çoxdur, amma 5 nəfər məndən peşəkarı var. Amma o filmləri məndən başqa heç birisi çəkə bilməzdi. Nəyə görə? Cəlil Məmmədquluzadə temasında bundan da gözəl film çəkilə bilərdi. Üzeyir temasında bundan da gözəl film çəkilə bilər. Amma o cür ki, düşünmüşdüm o filmləri, (yəni bu filmlər essedirlər) yalnız mən çəkə bilərdim. Xüsusilə TÜzeyir" filmində həm sənədli materiala mənim münasibətimi, həm televiziya janrının xüsusiyyətlərini ehtiva etmək — o cür yalnız mən çəkə bilərdim. Orada vaxtla manipulyasiya var. Vaxtla oynamaq — geriyə qayıtmaq, vaxtı saxlamaq, komentariya etmək filan — bütün bunlar mənimdir — mənim anladığım televiziya janrı var. Mən o ssenarini ancaq özüm üçün yazmışdım. Çünki o ssenarini götürüb başqa rejissor çəksəydi, tamam başqa film alına bilərdi. Yenə təkrar eləyirəm — bəlkə daha yaxşı, bəlkə daha pis, amma mən istəyən film olmazdı. "Qəm pəncərəsi" filmi də eyni cür. Tutaq ki, başlayaq lap aktyorlardan. Dostumuz Vaqif Həsənovu Xudayar bəyə çəkmək istədiyimdə hamı təəccüblənmişdi. Xudayar bəy tamam başqa cür təsəvvür olunurdu. Amma mən onu o cür görürdüm və indi də Xudayar bəyi o cür görürəm. Mən demirəm ki, Vaqif o rolu ideal oynayıb. Halbuki mənim üçün çox məqbuldur, amma mənim təsəvvürümdə "Danabaş kəndini" oxuyanda mənim gördüyüm Xudayar bəy məhz o cür obrazdır. Kök, yekəburun, ağzıəyri, zəhmli filan bir obraz yox, məhz bu cür, içində, daxilində qurumuş (o cür ki, yaradır Vaqif o obrazı, mənim də xahişim o idi ki, o cür yaratsın)… içindən çürümüş bir adam obrazı... Həmçinin Məmmədhəsən əmi də mənim üçün Həsən Məmmədov idi və s. və s. Mərahim də uçitel Həsənovdur ki var. Yəni onu deyirəm ki, məsələn, başqa rejissor başqa aktyorlarla işləyə bilər, başqa cür qura bilərdi.

Əlbəttə mənim üçün ən çətin janr nəsrdir. Kinonun bax bu qədər qalmaqalı var, təşkilati çətinlikləri, maliyyə çətinlikləri, nə bilim, maşın vaxtında gəlmədi, plyonka vaxtında gəlmədi, bunu məndən yaxşı bilirsən, amma hər halda evdə sakit oturub bax, bu yazı masasının arxasında, bu çırağın işığında nəsr yazmaq mənim üçün kino çəkməkdən min dəfə daha çətin bir sənətdir. Elə bir sənətdir ki, orda bir sənsən, bir Allah, bir də bütün varlığın. Təkbətək qalırsan

kağıznan… Bu ən çətin mübarizə, ən çətin yoldur. Və bununla məşğul olmaq üçün gərək bütün dünyadan təcrid olasan. Mən şəxsən o adamlara qibtə edirəm ki, bu gün bir saat vaxtı var, oturub romanının bir fəslini yazır, sonra gedib başqa işlərlə məşğul olur, sonra axşam gəlib romanının ikinci fəslini yazır. Mən bunu bacarmıram. İri nəsr əsəri yazmaq üçün gərək bir aymı, iki aymı, üç aymı tamam dünyadan ayrılam. Və ona görə də mənim irihəcmli nəsr əsərlərim o qədər də çox deyil. Nisbətən azdır… Sonda yenə də deyirəm. Mən təkrarı sevmirəm. Məsələn, tutalım hekayəm var, bilirsiniz, "Mən sən, o və telefon". O hekayə çıxanda (Moskvada "Nedelya"da çıxdı) dərhal mənə başladılar məktublar yazmağa. "Mosfilm" təklif elədi, sonra "Mosfilmdə" çox zəif bir film də çəkdilər. Mərkəzi Moskva Televiziyasında ekranlaşdırdılar, bir çox Avropa dillərində çıxdı, filan… Yəni şöhrət gətirdi, yayıldı, populyar oldu. Amma mən istəməzdim ki, bunu bacara bilsəm də, beş dənə də "Telefon" yazım. Yaxud "Altıncı mərtəbə" romanı da çox populyar oldu. Bunu davam etdirib iki dənə də, üç dənə də bu səpkidə roman yazmaq istəməzdim. Mən həmişə hər əsərimdən sonra (əgər uğurlu olursa belə) başqa bir şey axtarmaq, başqa bir sahəni mənimsəmək, başqa bir şeyi kəşf eləmək fikriynən işləmişəm.

***

…O söhbətimizə qayıdaraq deyə bilərəm ki, bəzən məni (sən düz deyirsən) elə məni istəyənlər də vaxt israfçılığında ittiham eləyirlər. Deyirlər ki, mən vaxtımı israf eləyirəm, müxtəlif işlərlə məşğul oluram… Onu deyə bilərəm ki, son iki ilə qədər heç bir şeyə — elədiyim işlərin heç birinə — heyfsilənmirəm, mən onu vaxt israfçılığı hesab eləmirəm. Hətta radioda işlədiyim dövrdə "Axşam görüşləri" verilişi vardı, sonra "Qobustan" jurnalına ömrümün 19 ilini həsr elədim, teatrda, kinoda işlədim, heç birini vaxt israfçılığı saymıram. Halbuki məsələn, tələbkarlıqla yanaşanda, əlbəttə, belə düşünmək olar ki, bunun əvəzində oturub, bir roman da, iki roman da artıq yazmaq olardı. Yeganə mən nəyi təbiətimə zidd hesab eləyirəm, o da mənim son iki ildəki həyatım ki, bayaq Zeynal onu dedi… Mən Yazıçılar İttifaqının rəhbəri olmaq üçün dünyaya gəlməmişəm, deputat olmaq üçün dünyaya gəlməmişəm və çox təəssüf edirəm ki, hadisələr, həyatın axarı, taleyim belə gətirdi ki, məni maraqlandırmayan işlərlə məşğul olmalı oldum və bu iki ilimi mən həyatımın itirilmiş illəri hesab edirəm. İndi, düzdür, bəlkəm mən

çalışdım, kiməsə nədəsə kömək elədim, onu bilən bilər.. nə isə hansı məsələlərisə həll elədim (reklama üçün demirəm)… bu iki ildə Yazıçılar İttifaqında xeyli iş görülüb — həm adamların məişətinin düzəlməsi üçün, həm onların işlə təmin olunması üçün, həm ümumiyyətlə ədəbiyyat üçün xeyli işlər görülüb və mən buna görə xəcalət çəkmirəm… Amma bu mənim həyatımdan qoparılmış, ömrümdən qoparılmış illərdi… Mən bu işdən zövq almıram. Mən bu işi… necə deyirlər, həyatımın nəinki mənası, heç belə… əhəmiyyətli səhifəsi də hesab etmirəm! Xüsusilə indiki dövrdə ki, siyasət belə bu işlərə qarışır… mən siyasət adamı deyiləm, mən bunu boynuma alıram, mən… yuxarının vaxtıyla dediyimiz kimi, aparatın diktəsiynən hərəkət eləməyi sevmirəm və eləməmişəm, demək olar ki, eləməmişəm, çünki tamam özünü təmizə çıxarmaq düz deyil… hamımız insanıq, hardasa güzəştə getməli də olmuşuq, amma hər halda mənim vicdanım təmizdir ki, mən diktəynən, yuxarının diktəsiynən — aparatın diktəsiynən yazmamışam da, yaşamamışam da, yaratmamışam da. Və indi də mən mitinqlərin diktəsiylə yaşamaq istəmirəm… yəni mənim üçün bu eyni cür diktatdır — yuxarıdan olan diktat ya aşağıdan olan diktat. Mən nəyə görə deyirəm, çünki mənə çoxlu məktublar gəlir, zənglər, iradlar olur, "filan sözü niyə demədiz?" Danışırsan, "niyə danışdın?", danışmırsan — "niyə susdun?", yazırsan — "niyə belə yazmadın — belə yazmaq lazımdır", yazmırsan — "niyə yazmadın?" — hər adam elə bilir ki, məndən yaxşı bilir nə eləyəcəyimi və nə eləməli olduğumu… Tutalım desəm ki, bu gün ayın səkkizidir, deyəcəklər: bəs niyə dünən demədin ki, ayın yeddisidir?... Mən elə diktatı qəbul eləmirəm. Mən hər bir məsləhətə qulaq asmağa hazıram, hər bir ağıllı sözü eşitməyə hazıram, amma mənə diktə eləyəndə ki, bax, sən bu cür hərəkət eləməlisən, burda bunu deməlisən, orda bunu deməməlisən, burda belə şey eləmisən — o məni sıxır, məni bezdirir və mən bu şeydən uzaq olmaq istəyirəm… Təəssüf ki, mən indi bir çıxışsızlıq hiss eləyirəm ki, bu vəziyyətdən, mənimçün şəxsən çətin olan vəziyyətdən necə çıxacam?... Çünki mən vətəndaşam, xalqımın mənafeyini qorumağa hazıram, nə lazımsa eləməyə hazıram, amma öz üsullarımnan, yəni mənə xas olan, mənim bacardığım vasitələrnən, mənin bacarmadığım və bacarmaq istəmədiyim vasitələrnən yox! Bu bəlkə də mənim son illər ən böyük həyat dramamdır ki, sənlə bu barədə söhbət eləmişik. Məni, çox

pəjmürdə eləyən, pərişan eləyən bax bu problemlərdir!...

…Mənə yaxşılıq eləyən çox adamın adını çəkmək istərdim… yaxşılıq eləmək nəyi hesab eləyirəm — mən elə hesab eləmirəm ki, tutaq biri mənə konkret yaxşılıq eləyibsə o məhz mənə yaxşılıq eləyən adamdı — Yox! Ona qalsa mən belə hesab eləyirəm ki, mənə ən böyük yaxşılığı eləyən Cəlil Məmmədquluzadədir! Onunla görüşə bilməzdik, filan, amma mənimçün ən böyük yaxşılığı Cəlil Məmmədquluzadə eləyib, çünki mənim rastlaşdığım problemlər, demək olar ki, onun vaxtındakı problemlərlə eynidir, və o bu problemlərə elə müdrik cavablar tapıb ki, mən o cavablardan bu gün də faydalanıram… mənə o təsəllidir, mənə köməkdir, mənə o arxadır. Bax bu milli məsələləri, avamlıq, cəhalətlə işıq arasında toqquşmanı, yazıçı vicdanını, daxili vicdanını o dərindən dərinə dərk və ifadə etmişdi, deyirdi sözünü o adamlara denən ki, səni eşitməsinlər! Bu söz mənimçün bir deviz ola bilər — həyat devizi ola bilər və bəlkə də həyat devizidir. Ona görə də mən, təbii, ailəmi demək istəmirəm ki, birinci minnətdarlığım anama və atamadır. Amma mən, məsəlçün Qara Qarayevə minnətdaram ki, mənim bütün gəncliyim onun musiqisinin sevdasıynan keçib. Üzeyir Hacıbəyova minnətdaram ki, onun musiqisi mənə həmişə təsəlli verib… Sabirə — böyük şair Sabirə, Nazim Hikmətə, müxtəlif adamlara, sənətçilərə minnətdaram, məsələn, Toğrul Nərimanbəyova minnətdaram. O, ömründə mənə heç bir yaxşılıq eləməyib, (əlbəttə portretlərimi çəkdiyini, əsərimə illüstrasiya çəkdiyini unutmuram), bəlkə mən ona daha çox yaxşılıq eləmişəm. Amma onun yaradıcılığı, onun varlığı, o cür adamın olması, belə bir insanın mənim müasirim və dostum olmağı mənim üçün ən böyük yaxşılıqdır. Mən yaxşılığı bu cür başa düşürəm. Pisliyə qalanda, mənim heç yadımda deyil vallah ki, kim mənə nə pislik eləyib,… özü bilər…

Bir qəribə paradoks da var… ya yazan adamçün, ümumiyyətlə sənətlə məşğul olan adamçün, hər halda mənimçün belədir, həm yüksək sənət əsərləri impuls olur, həm zəif əsərlər… Bax zəif əsərləri oxuyanda da impuls ola bilər… həmişə yox, əlbəttə… amma elə şey olur ki, bax, məsələn, mən bir zəif şeirmi oxuyanda, bir zəif hekayəmi oxuyanda, zəif bir pyes görəndə məndə nə isə bir qıcıqlanma əmələ gəlir, elə bil sənət üçün qısqanıram… qısqanıram ki, axı bu mövzuda, yaxud bu barədə daha yaxşı yazmaq olar, əsl sənət sözünü demək olar. Amma bu adam elə bil təhqir eləyir sənəti,

məndə sənəti qorumaq meyli əmələ gəlir ki, öz bacarığım, öz imkanım daxilində sənəti belə bayağılıqdan qorumaq istəyirəm… Və mən sizə belə bir fakt deyə bilərəm, bir nəfər… adını çəkməyəcəyəm, bizim dramaturq — şairlərdən biri məni pyesinə dəvət eləmişdi. Getdim onun pyesinə baxdım. Bütün pyes şeirlə gedirdi və taqqatarak şeirlər, mənasız söz yığını adamın qulağını dəyənək kimi döyürdü. Və inanın ki, literaturşina deyilən şey deyil, ibarəbazlıq deyil, doğrudan olan faktdır. O gecə mən ordan gələndə elə bil çəkiclə beynimi döyürlərdi… Gəldim və yuxuma Nazim Hikmətin şeiri girdi. Yuxuma şeir girdi!.. Yuxumda elə bil… kimsə başladı oxumağa… O Nazimin məşhur şeiri var. "Bu gün bazar, məni həyətə çıxardılar, ilk dəfə göy üzünün bu qədər uzaq, bu qədər mavi olduğundan şaşaraq durdum, qımıldanmadan. Bu an nə hürriyyət, nə qarım. Günəş… Mən… Bəxtiyarım…" Yəni bu misralar o türmədə olan adamın birdən havaya çıxarılması, həyətə çıxarılması, səmanı görməsi və bu sarsıntının gücündən hürriyyət, yəni azadlıq ki, onun uğrundakı mübarizəyə görə düşüb ora… qarısı, yəni arvadının həsrətini çəkir, məhbəsin içində daim azadlıq haqqında düşünür, qarısı haqqında düşünür, amma bu həyətə çıxanda, bu məhbəsin o rutubətindən havaya çıxanda, səmanı görəndə — bu zaman o, hər şeyi unudur, bax balaca şeirdə… yaxud Nazimin başqa misraları var, nəğmə də var — o deyir ki, "qarlı qayın ormanında yürüyorum gecə yarı.. əfkarlıyam, əfkarlıyam, ver əlini harda əlin?..." dalı yadımda deyil, sonra axırda belə gəlir ki, "ulduzlarmı, məmləkətmi, gəncliyimmi daha uzaq?.." bax… bütün bu qarlı qayın ormanının, rus meşəsinin təsviri, qış vaxtı, bu adamın təkliyi, o meşəynən getməsi, ulduzları görməsi və eyni zamanla düşünməsi ki, bu dəqiqə ulduzlar da onunçün məmləkəti qədər (yəni yasaq olunmuş vətəni qədər — Türkiyə qədər uzaqdır və gəncliyi qədər (o, gəncliyindən də ayrılmış) uzaqdır və bu 3 misra, 5 misra, bu şeir… bax o taqqatarak pyesdən sonra, mənimçün susuzluqdan sonra bir udum təmiz su idi. Pis sənətlə rastlaşanda yaxşı sənətin qədrini və siqlətini, onun əhəmiyyətini, böyüklüyünü, müqəddəsliyini daha yaxşı duyursan və çalışırsan ki, öz bacarığın daxilində bu yaxşı sənətə xidmət eləyəsən!

Şəkidə. 4 sentyabr 1989

…Şəkidə gənc aktyorların oynadıqları bu tamaşaya baxıram, çox qabaqlar yazdığım hekayənin əsasındadır bu tamaşa — "Yaxşı padşahın nağılı" hekayəsi və cürbəcür fikirlər gəlir başıma.

Əvvəlan, Şəkiylə bağlı fikirlər, Şəki teatrıynan bağlı fikirlər. Şəki teatrı ilə mənim çox xoş xatirələrim bağlıdır. Vaxtilə bizim çox istedadlı və geniş fantaziyalı rejissorumuz Vaqif Abbasov burda mənim "Adamın adamı" pyesimi qoymuşdu. Bu elə bir dövr idi ki, satira, xüsusilə kəskin satira çətin səhnələrə yol tapırdı və Vaqifin cəsarəti, şəkililərin rəğbəti bu tamaşanı yaratdı. Sonra Vaqif tamaşanı Bakıya da gətirdi. Sonra burda "Şəhərin yay günləri" də qoyulub tamaşaya. Və indi tamamilə gözlənilməz halda gənc kollektiv rejissor Fərman başda olmaqla, baş rolun ifaçısı Vahabla bir yerdə bu tamaşanı oynayırlar. Mən bu tamaşaya baxdıqca, həm bu teatr xatirələrini düşünürdüm, həm də həmən bu tamaşanın mövzusu haqqında ki, bu mövzu hekayədən gəlir və bu mövzu totalitarizm haqqındadır. Ona görə yox ki, bu tamaşaya burda — Şəkidə, Şəkinin bu qədim karvansarasında baxıram, yalnız ona görə yox. Bir də Şəkinin bütün tarixi keçir gözümün qabağından, həmən o "gələrsən-görərsən" qalası da, həmən o "xan sarayı" da.

Şəki xan sarayının döyüş səhnələrini əks etdirən bu divar rəsmlərinə baxanda adam ikili hiss keçirir: bir yandan kəsilmiş başlar, axıdılan qanlar, yaralı insanlar, tələf olmuş döyüşçülər, o biri tərəfdən də bütün bunları əks etdirən sənətin ecazı, sənətin sehri. Və müstəbidliyin, despotizmin, totalitarizmin mahiyyəti haqqında düşünürsən burda. Hakimi mütləqlər, hökmdarlar uzun əba da geyinə bilərlər, şinel də, frenc də, müxtəlif əsrlərdə də, müxtəlif cəmiyyətlərdə də yaşaya bilərlər, amma onların mahiyyəti dəyişmir. Bu mahiyyətsə insana, insanlığa qənim mahiyyətdir…

…O elə bilir ki, insanları xoşbəxt eləyir, amma insanları daraq dişləri kimi eyniləşdirmək onları elə birinci növbədə bədbəxt eləməkdir. İnsanın fərdini, hər bir fərdi bir-birindən ayırmamaq, bütün fərdləri eyni boyda-eyni biçimdə görmək, eyni hisslərlə yaşayan, eyni fikirlərlə yaşayan, eyni cür duyan, danışan, davranan adamlar kimi görmək, bu bütün totalitar rejimlərə xas olan bir cəhətdir və bu əsərdə heç bir konkret prototip olmadan — hərəsindən

bir xal, bir işarə var…

Dəfələrlə demişəm, bir də təkrar edim! Bizim nəslin yeniyetməlik çağı 56-cı ildə qurtardı, — XX qurultay, Macarıstan hadisələri, gəncliyimiz 68-ci ilin avqustunda Sovet tankları və 5 ölkənin qoşunları Çexoslovakiya, Praqaya girib "Praqa baharının" oyatdığı hərəkatı yatırdığı zaman qurtardı. Və bu çətin ildə 1989-cu ildə mən və mənim nəslimdən çox adamların sevincləri varsa, bu sevinclər onunla bağlıdır ki, biz həmin hadisələrin təkzibini, yenidən qiymətləndirilməsini gördük. Və onu deyim ki, bu hadisələr müəyyən dərəcədə Azərbaycanla da bağlıdır. Çünki bu model ki, Əfqanıstanda, ondan qabaq Çexoslovakiyada, ondan qabaq Macarıstanda həyata keçirildi, yəni bu model ondan ibarətdir ki, həmin ölkələrin xaricində bir hökumət təşkil olunur, bu hökumət başqa ölkənin qoşunlarını ölkəyə dəvət edir… Qoşunlar daxil olur və bu hökumət iş başına gəlir. Bu model ilk dəfə Zaqafqaziya respublikalarında, ilk dəfə də Azərbaycanda tətbiq edilib…

Müharibə vaxtı Krım tatarları sürgün olunduğu kimi Stalin — Beriya — Mikoyan dəstəsinin azərbaycanlıları da sürgün eləmək fikri vardı. Və bu fikrin həyata keçməməsi bizim bu gün sizinlə öz vətənimizdə, öz dilimizdə danışmağımız deməkdir. Bu fikir həyata keçsəydi — harda olacaydıq, ümumiyyətlə olacaymıydıq — məlum deyil… Diktatorlara bəzən bəraət qazandırırlar ki, onların vaxtında nə isə tikilib, nə isə qurulub, nə isə maddi abidələr yaranıb. Amma heç kəs onu hesablamır ki, bu maddi yaranmışlarnan bərabər, nə qədər mənəvi itkilər olub, nə qədər insanlar mütiyə çevrilib, nə qədər insanlar kölə psixologiyasına alışıblar, nə qədər insanların mənəviyyatı, mənliyi tapdanıb. Və bu elə bir hissdir ki, yəni bu mənəviyyatın, ləyaqətin tapdanması elə bir hissdir ki, bu genetik keçir, yəni mənəviyyatı tapdalanan nəsildə də hələ bu qorxu yaşayır, hələ bu vahimə yaşayır, bu totalitarizmin acı təzyiqi nəsildən-nəslə keçərək insanları mütiləşdirir, insanların qol-qanadını qırır, insanların şüurunu, fantaziyasını pərçim eləyir, sıxır, əzir. "Yaxşı padşahın nağılı"nda da məhz vaxtilə belə bir totalitarizmin nümunəsini göstərmək istəyirdik. Bu "yaxşı padşah", bu sözdə əlbəttə, bir ironiya var, bu "yaxşı padşah" axmaq da deyil, bəlkə əzazil də görünmür, bəlkə hətta simpatiya da doğura bilir və nəhayət, onun bir cəhəti də var ki, tənhadır, çünki diktatorlar özləri heç bir vaxt xoşbəxt olmurlar, insanlardan qorxurlar, insanlardan şübhələnirlər, insanlara inanmırlar və ona görə də bədbəxtliyi

bədbəxt elədiklərindən də artıq dərəcədə duyurlar. Bax mənim TyaxşıpadşahımU da belədir. Heç bir konkret prototip olmadan (bəzən məndən soruşurlar burda bəzi cəhətləriynən ki, — arvadını itirib, tək qalmış diktator bəlkə Stalini xatırladır, bəlkə hansı cəhətləriyləsə, nə bilim, Hitleri, Frankonku, Mussolinini, Pinoçeti — dünyada olmuş nə qədər diktatorlar var — Çan-Kay-Şini), kimi deyirsiz xatırlada bilər, hərəsindən bəlkəm bir xal, bir işarə var.

Hətta deyim ki, onu biz diktator adlandırmırıq, amma o da totalitarizmin bir məhsulu idi — rəhmətlik Brejnev, — bu hekayəni yazanda, əlbəttə, mən Brejnevi nəzərdə tutmamışdım, amma Brejnevin öz hərəkəti gətirib bir növ onu hekayənin qəhrəmanına bənzətdi. Yəni Brejnev də bədii əsərlər yazmağa başladı — bədii-publisist əsərlər — "Kiçik torpaq", "Xam torpaq" və "Dirçəliş". Məndə də yaxşı padşah birdən şair olmaq eşqinə düşür. Mən, doğrusu, heç bir konkret adamı nəzərdə tutmurdum, amma iş elə gətirdi ki, hekayənin taleyi bir az da qəlizləşdi, bir az da çətinləşdi ki, ona da bilavasitə "allyuziyalar" deyirlər, allyuziyalar oyada bilərdi ki, bu məhz Brejnevi nəzərdə tutub. Halbuki, mən təkrar edirəm; onu mən nəzərdə tutmamışdım.

Hekayənin taleyi belə oldu ki, bəzən senzura ən adi sözə, ən xırda bir eyhama "bunun dalında nə məna var?" — deyə şübhə ilə yanaşdığı halda, bunu Azərbaycan senzurası sərbəstliklə buraxdı. Düzü, çıxandan sonra mən bildim eşitdim ki, bundan "danoslar" verən olubdur (cürbəcür idarələrə, ədəbiyyata bilavasitə dəxli olmayan idarələrə). Bunun haqqında söz-söhbət də olub, qeybət də olub, amma hər halda bu çap olunub, mənimçün də əsas o idi ki, bu çap olunsun. Moskvada çap olunması isə çox yubandı. "Drujba narodov"a mən təqdim eləmişdim. Orda mənə rəğbət bəsləyən bir qadın vardı — Şilovseva, — indi yaşlı qadındır, təqaüdə çıxıb. O, mənə dedi ki, biz də çap eləmirik, heç kəsə də göstərmə bunu, çünki sənə çox zərəri dəyə bilər". Təxminən 70-ci illərin əvvəliydi. O vaxt "Nedelya"ya da mən vermişdim və "Nedelya"da Anatoli Makarov adında çox yaxşı bir jurnalist işləyirdi, indi o, "Nedelya"da işləmir, o da mənə dedi ki, "hekayəni bəyənirəm, amma indi bunun vaxtı deyil". Və sonra, bütün bu hadisələrdən sonra yenidənqurma, aşkarlıq dövründə bir gün götürdüm bunu poçtla elə-belə göndərdim "Nedelya"ya (Makarov hələ də işləyirdi orda). Ona bir məktub yazdım ki, "vaxtilə demişdiniz ki, "vaxtı hələ gəlməyib, bəlkə indi

vaxtı gəlib". Mənə cavab vermədi. İki həftədən sonra isə "Nedelya"nı açdım gördüm ki, hekayə orda çap olunub rus dilində. İndi Moskvada çıxan kitabıma da daxil olub bu hekayə və səhnədə də bunu görürük — cavan aktyorların ifasında, — çox həvəslə oynayırlar, çox plastik bir tamaşadır, quruluşdur. Mənim xoşuma gəldi…

Bakıda kitab evində görüş və sual-cavab

Sual: Xalqın və ayrı-ayrı şəxsiyyətlərin münasibəti necə olmalıdır?

Cavab: Mənim fikrimcə, xalqın ruhunu, varlığını, tarixdə mənliyini ifadə eləyən ayrı-ayrı böyük şəxsiyyətlərdir… işıqlı fikir daşıyıcıları… Bir də kütlə, o da elə bir şeydir ki, onun haqqında Cəlil Məmmədquluzadə vaxtilə deyirdi (o təzyiqi vaxtilə o da hiss elədiyi üçün deyirdi ki) "müsəlman yazıçısı avama xoş gəlməyən söz yazmasa işi keçməz!" Bax o avam məfhumu ki, var, avam məfhumu ilə biz, təəssüf ki, axır vaxtlar daha çox üz-üzə gəlməli oluruq".

Sual: Ən çox müvəffəqiyyətsiz saydığınız əsəriniz?

Cavab: Mən çətinlik çəkərdim bu suala cavab verməyə. Deyə bilmərəm ki, məsələn, hansı əsərimdə müvəffəq ola bilməmişəm. Müvəffəq olduğum əsərin də adını isə heç çəkə bilmərəm. Çünki özüm bilmirəm ki, hansı əsərimdə daha çox müvəffəq olmuşam.

Sual: Əgər birdən işıqlar sönsəydi, bura toplaşanlar görünməz olsaydılar və Siz, Anar müəllim, bu salonda özünüzlə təkbətək qalsaydınız etirafa nə tapardınız? Bu birinci sual. Və nəhayət ikinci sual: Dindar olub məscidə, kilsəyə və yaxud sinaqoqa getsəydiniz hansı günahlarınızın bağışlanmasını istərdiniz?

Cavab: Birinci suala cavab verərdim ki, etirafdan əvvəl montyor axtarardım ki, gəlib işıqları yandırsın. Çünki insanın etirafı üçün fiziki işığın olub-olmaması vacib deyil. İnsan həmişə öz daxiliylədir, istəyir adamların içində olanda, istəyir tək olanda, istəyir qaranlıqda, istəyir işıqda, istəyir gecə, istəyir gündüz. O ki, qaldı günahlar… O qədər günahlarım var ki, heç bir məscid, sinaqoq və kilsə tab gətirməzdi yəqin ki… Günah… nə bilim, vallah… Fikirləşəndə ki, günahım nədir, Məşədi İbadın sözü yadıma düşür: bir günahım varsa o da günahsızlığımdır.

Moskvada 28 sentyabr 1989

…Moskva mənim üçün yalnız böyük bir şəhər deyil, həm də ayrı-ayrı evlərdir. Və elə küçələr var ki, bunlarla çox xatirələr bağlıdır. Belə küçələrdən biri də Vorovski küçəsidir. Moskvanın ən gözəl küçələrindən biri. Vaxtilə sakit bir küçəydi, indi hay-küylü küçədir. Bu küçənin o başında "Sovetski pisatel" nəşriyyatı yerləşir… orda mənim də, başqa bizim yazıçılarımızın da kitabları nəşr olunur… və bütün bu yazıçılar bu nəşriyyata gələndə o binanın qabağında bir lövhə görürlər ki, həmin bu binada vaxtilə Azərbaycanın böyük oğlu Nəriman Nərimanov yaşamışdır və işləmişdir… Vorovski küçəsinin bu başında, yəni Vosstanie meydanına çıxan hissəsində üzbəüz iki bina var. Və hər iki binayla mənim taleyim çox bağlıdır. Mən, necə deyərlər, bu küçəni bir neçə dəfə həyatımda o tərəfə bu tərəfə keçmişəm… Əvvəl bu tərəfindən başlayım ki, bu tərəfində "Drujba narodov" jurnalının redaksiyası yerləşir. Yazıçılar İttifaqının həyətində. Və mənim ilk hekayələrim, ilk povestim "Ağ liman", sonra "Əlaqə" povestim, onlarla məqaləm, hekayəm burda çap olunmuşdur, yəni rus oxucusu məni az-çox tanıyırsa ilk növbədə həmin bu jurnala minnətdaram. "Drujba narodov" jurnalına! Bu ilk hekayələr çıxandan sonra mən bu küçənin — Vorovski küçəsinin bu tərəfindən o tərəfinə keçdim… Kino evi — bizim ssenari kursları burda yerləşirdi. İki il mən burda təhsil almışam… O dövrdə sovet paytaxtında belə bir həyatın olacağı bizim ağlımıza da gəlməzdi, məsələn, bir müddət keçəcək və belə bir həyat və o həyatın rəmzi olan Arbat küçəsi olacaq…

Amma, məsələn, bugünkü Arbatı (o vaxt Moskvada təsəvvür eləmək olmazdı bugünkü Arbatı), mən geniş mənada götürürəm, o vaxtkı Arbat Okucavanın Arbatıydı. Okucavanın, bilirsiniz, şeiri var ki, "Ax, Arbat, moy Arbat, tı moe oteçestvo", yəni o küçəni vətən kimi götürür (Moskvanın sakit küçələrindən biriydi)… Amma bugünkü Arbat, bir növ sərbəstliyin rəmzidir. Rəssamlar, çıxışlar… cürbəcür rok qrupları, nə bilim, bir sözlə, bu küçə qaynayır, bu küçənin həyatı… O dövrdə sovet paytaxtında belə bir həyatın olacağı bizim ağlımıza da gəlməzdi, təsəvvür etməzdik bir müddət keçəcək və belə bir həyat və o həyatın rəmzi olan Arbat küçəsi olacaq. Mən bu rəngarəngliyə, bu əlvanlığa, həyatın daha maraqlı olmasına sevinirəm. Amma bir şeyi mən heç vaxt unutmaq istəmirəm ki, sərbəstlik, azadlıq hər zaman məsuliyyətlə bərabər addımlamalıdır. Məsuliyyətsiz azadlıq yoxdur. O yerdə ki, məsuliyyət

hissi yoxdur, o yerdə ki, eee… sərbəstliyə (mən demirəm ki, sərbəstliyi sıxan, sərbəstliyi məhdudlaşdıran), amma sərbəstliyin özünü məsuliyyətlə birləşdirən bir məqam yoxdur, onun nəticələri də məlum deyil ki, nə cür ola bilər… Bu cəhətdən Arbatı bir rəmz kimi götürsək, Arbatın əlvanlığını, maraqlı həyatını, rəngarəngliyini salamlayıram, amma bir növ o Okudcavanın dediyi Arbat ki (o sakit Moskva küçəsi) ənənələri olan, öz tarixi olan, öz ab-havası olan o küçə haqqında da bir qəribsəmək, bir nostalji hissi keçirirəm.

62-ci ildə mən Moskvaya Ali ssenari kurslarında oxumağa gəldim. Azərbaycandan mən və Maqsud İbrahimbəyov, Moskvadan indi məşhur rejissor, məşhur ssenariçi Yuri Klepikov, Fridrix Qorenşteyn, belə bir yazıçı vardı, məşhur yazıçılar indi… Leninqraddan İlya Averbax, sonra Anatoli Nayman, Yevgeni Reyn, Moskvadan Mark Rozovski, sonra o teatr rejissoru oldu. Ukraynadan İvan Draç, Belorusiyadan — Ales Adamoviç, Gürcüstandan Amiran Çiçinadze və Erlom Axvlediani, Armen Zurabov, Qırğızıstandan Mar Bayciyev, Moldaviyadan Vlad İovitse, bir sözlə, bütün respublikalardan gənc qüvvələr bura toplaşmışdı. Və bu kurslar elə bir vaxtda işə başladılar ki, XX qurultaydan sonra başlanan Xruşov siyasəti — liberallaşmaq, demokratikləşmək… bu siyasətin son dalğasında bu müdavimlər bura yığılışdılar. Çünki elə həmin ilin dekabrında Xruşşov Manejə gəldi və mücərrədçi abstraksionist rəssamları kəskin tənqid elədi və bu tənqid sonra ədəbiyyata da keçdi, ədəbiyyatı da sıxmağa başladılar, mətbuatı da və s. Və biz öz aramızda danışırdıq ki, Moskvada belə olanda, gör bizim respublikalarda bu nə cür reaksiya verəcəkdir. Belə bir zarafat var: Moskvada dırnağı tutanda — respublikalarda barmaqları kəsməyə başlayırlar. Bax belə bir atmosfera, doğrudan da təsdiq olundu, respublikalarda da sənət sahəsində çox mühafizəkar, mürtəce hadisələr oldu və s. Amma biz hər halda, o son dalğanın axarında gəlmişdik və bu kurslar şəxsən mənə çox şey verdi. Əvvəla burda çox maraqlı mühazirələr oxuyarlardı, sovet kinosunun ən görkəmli xadimləri, məsələn, Tarkovski gəlib bizimlə görüş keçirirdi. O vaxt məşhur rejissor idi. Çüxray — o gəlirdi. Gerasimov, Pıryev, Yutkeviç, Romm, başqa ədəbiyyat xadimlərindən Şklovskiy, məsələn o yalnız mühazirə oxumurdu, həm də Mayakovski haqqında, Pasternak haqqında xatirələr danışırdı. İrakli Andaronikov ki, sonralar televiziyada göstərdiyi səhnələri ilk dəfə bizim kurslarda

eləyirdi. Bunun çox böyük əhəmiyyəti vardı. Filmlərin çox böyük əhəmiyyəti vardı ki, biz görmədiyimiz filmlərə — həm sovet, həm də xarici filmlərə lal kinodan tutmuş bu günə qədər, Çaplindən, tutalım Feliniyə qədər, Antonioya qədər bütün bu filmlərə, o zaman qadağan olunmuş Xutsiyevin filminə, "İliç zastavası"filminə, biz burda baxırdıq, görürdük. Bu mühazirələrlə, filmlərlə yanaşı üçüncü və bəlkə də daha böyük (mənim üçün şəxsən) əhəmiyyəti olan məsələ bu idi ki, o müxtəlif respublikadan gələn adamlar — gənclər bizə öz xalqlarının nəfəsini gətirmişdilər. Bir-birimizə öz xalqlarımızın səsini gətirmişdik. Mən başqa respublikalar haqqında nə bilirdim? Ancaq onların ədəbiyyatından, mətbuatından oxuduqlarımı. Amma burada rəsmi məlumatları yox, canlı insanların canlı şəhadətlərini eşidirdim. İndi Moldovada, tutalım Pribaltikada gedən proseslərin kökünü biz artıq o zaman bilirdik-hansı problemlər var ki, həmin problemlər bu gün faş olunur, geniş bu barədə danışılır. İqtisadi problemlər, milli problemlər, tarixə aid problemlər, dil, əlifba, və s. bax bütün bu söhbətlər o vaxt ölkənin nəbzini duymağa (mənə şəxsən) kömək elədi. Mənə də, bizim hamımıza da. Çünki hamımız bir-birimizlə ürək sözlərimizi, ən gizli sirlərimizi bölüşürdük. Bir yaxşı dostluq ab-havası vardı, bir yaxşı məhrəmlik ab-havası vardı ki, biz aramızda bir ziddiyyət görmürdük. Əksinə, eyni amalın yolunda, amma müxtəlif xalqların dərdi-sərini bölüşmək və dərdi-sərindən danışmaq və müxtəlif yollar axtarmaq. Bu idi xas olan bizim münasibətlərə. O vaxtkı Moskvayla indiki Moskvanı müqayisə eləyəndə mən ümumi cəhətlər də görürəm. Moskva həmişə bizim ölkənin mənəvi mərkəzidir, mədəni mərkəzidir. Buranın muzeyləri, teatrı, burda yaşayan adamlarla görüşlər adamı həmişə zənginləşdirir. Amma o dövrdə hər şey mən deməzdim ki, daha sakit idi, amma hər halda, indiki əsəb gərginliyi yox idi. Bir-birini eşitməmək, bir-birinə qarşı hiddət hissi, bir-birinə qəzəb hissi — bax onlar yox idi. Nə isə bir ümumi dərdləri axtarmaq, ümumi dərdlərə ümumi çarə tapmaq — bu daha çox xas idi o ilki, o illərdəki Moskvanın ab-havası üçün. İndiki qədər cəsarətli adamlar da vardı, cəsarətli çıxışlar da vardı, maraqlı fikirlər də vardı, amma bax dözümsüzlük yoxuydu. Dözümsüzlük… indiki dözümsüzlük var ki, heç kəs heç kəsin sözünü eşitmək istəmir, heç kəs heç kəsin kitabını oxumur — bu bütün ölkəyə də aiddir, Moskvaya da aiddir — bu o zaman yox idi və mən çox təəssüf edirəm ki, Moskvanın o xasiyyəti, o xüsusiyyətini

itirmək qorxusu var, itiririk biz bunu…

Biz kurslarda oxuyanda bir anket paylamışdılar. O cümlədən belə bir sual vardı ki, "Ən çox sevdiyiniz beş şəhərin adını çəkin". Mən yazdım: Bakı, Moskva, İstanbul, Paris, Şuşa!

…Şuşa mənim üçün elə məskəndir ki, mən ora gələndə elə bil təmizlənirəm, saflaşıram. Nə isə ülvi bir aləmə qovuşuram. Və düşünəndə ki, bu şəhər Azərbaycan tarixinin neçə şanlı səhifələrinin şahidi olub — bu şəhərin təbii gözəlliyinə bir az da vurulursan! Təbiət, tarix Şuşadan heç bir şey əsirgəməyib. Və mənə elə gəlir ki, Üzeyir kimi bir dahi ancaq Şuşada yetişə bilərdi…

Bakı. Cəlil Məmmədquluzadənin mənzilində.

…Bu mənzil hər bir azərbaycanlı üçün müqəddəs bir yerdir. Amma bu məbədə gələndə, mən şəxsən, ən acı hisslər keçirirəm. Cəlil Məmmədquluzadənin burda keçirdiyi son günlər… Yəni yadıma düşür Həmidə xanımın yazdığı xatirələr ki, o, son günləri ölüm haqqında düşünürdü, təklik içində çabalayırdı, anlaşılmazlıq içində boğulurdu və oturub kamança çalırdı… Həzin-həzin kamança çalırdı… Həmidə xanım yazır ki, soyuq günlərin birində gördüm Mirzə Cəlil əlyazmalarını sobaya atıb yandırır. Mən başa düşürdüm ki, bu qiymətli, sonsuz dərəcədə qiymətli əlyazmalarıdır, tarix üçün, ədəbiyyat üçün. Dedim niyə yandırırsan? Dedi: çünki evdə sobanı qalamağa ayrı heç bir şey qalmayıb. Bunları yandırdı və bunları yandırandan sonra məmnun-məmnun gülümsündü və dedi ki, indi uşaqlar istidə yatacaqdır, yoxsa soyuq idi. Oğlanlarını nəzərdə tuturdu — Midhəti və Ənvəri… Amma mən düşünürəm ki, bu sobanın istisinə biz də qızınırıq, bu gün də qızınırıq və bu sobanın alovu heç bir vaxt sönmür… sönməyəcək də!...

…Və Mirzə Cəlillə bağlı belə bir hissi mən Nehrəm kəndində də keçirirdim. Nehrəm kəndində onun vaxtilə dərs dediyi məktəbdə (indi də məktəbdir)…. İsti vaxt idi, payız idi, uşaqlar oynayırdılar. Sonra müəllimlərdən biri gəlib divardan asılmış zəngi çalmağa başladı və şagirdlər siniflərə doluşdular. Müəllim dedi ki, bu həmin o vaxtdan qalan zəngdir. Cəlil Məmmədquluzadə burda dərs deyəndə də bu zəngi çalırdı. Mən düşündüm ki, (bayaq soba haqqında dediyim kimi) bu zəng də bizi oyadan zəngdir… Cəlil Məmmədquluzadədən bu günə qədər onun səsi kəsilmir.

…Bu makina, bu da ağ kağız… Buna baxanda mən yazılmamış əsərlərimi yox, yazılmışları da fikirləşirəm. Çünki məndə bəzən belə hiss olur ki, mən o yazdığım yazıların qəhrəmanlarına qarşı bir növ etibarsız olmuşam, bir növ etinasız olmuşam, yəni onların taleyini izləməmişəm. 10 il, 15 il bundan qabaq… qırılıb onların taleyi, yəni qırılıb o mənada ki, bir nöqtə qoymuşam onların taleyində, amma həmin adamların, həmin personajların həyatları davam edir axı… Mənim üçün onlar dirilər arasında kimidir. 80-ci illərdə, bizim günlərdə hansı mərhələlərdən keçiblər — bunu mən izləyə bilməmişəm və mən izləməsəm heç kəs izləyə bilməz, çünki bu mənim qəhrəmanlarımdır. Onların taleyini yalnız mən izləməliyəm. Və mən düşünürəm ki, bax bizim bu günlərdə məsələn, "Şəhərin yay günləri"nin baş qəhrəmanı Qiyas yenə də bəlkə təklikdə mübarizə aparacaqdı, necə o dövrdə durğunluq dövrünə qarşı mübarizə aparırdı, bu gün də o çox güman ki, yenə tək qalacaqdı. Daxili bütövlüyü, heç bir kompromisə, güzəştə getməməsi yenə də ona çətinlik törədəcəkdi. Mənə elə gəlir ki, "Şəhərin yay günləri" pyesinin qəhrəmanı Qiyas bu günlərin arzusu ilə yaşayırdı. O düşünürdü ki, məhz bu günlər gələndə o, həyatda öz yerini, öz qiymətini daha dəqiq alacaq, onun istədikləri gəlib çıxacaq. Amma mən Qiyası bu günlərdə yenə dramatik fiqur kimi görürəm, bir dramatik personaj kimi görürəm. Mən onu arxayınlaşmış, istədiyinə nail olmuş və buna görə də sakitləşmiş adam kimi yox, yenə bu hadisələrin içində görürəm. Bəlkə də o "durğunluq" dövrü ki deyirik, — o zaman Qiyas bu "durğunluq" dövrünə qarşı mübarizə edirdi, — o "durğunluq" dövrünü yaradanlar, ola bilsin, indi qabağa çıxıb yenə də Qiyası ittiham eləmiş olsunlar. Yəni Qiyas yenə də təklikdə qalmış olsan. Çünki gözümüz qarşısında gördüklərimizdən bu nəticəni çıxarmaq olur. Görünür çox vaxt yaxşı adamların işi pis, pis adamların işi yaxşı olur.

"Macal"ın qəhrəmanı Fuadın o dövrdə karyerası sırf "məmurluq", "bürokratizm" sisteminin içindəydi. Bu gün isə bürokratizmlə mübarizəyə başlardı. Amma yenə də karyera ehtirasları ilə, yenə də vəzifə həvəsi ilə, yenə də mənsəb istəyi ilə… Nemət nə qabağa düşərdi, nə geri qalardı. Onda olan obıvatellik xisləti var ki, o hər dövrdə sakit, öz həyatını yaşayacaq idi…

Amma, əksinə, tutalım, "Ağ liman"ın qəhrəmanlarından biri. 37-ci ildə adamları satan Dadaş yenə işin çəmini tapıb, çox alovlu nitqlər söyləyəcəkdi, hətta o satdıqları adamlar haqqında xatirələr yazacaqdı və danışacaqdı… Feyzulla Kəbirlinski bir uğursuz aktyor kimi təqaüdə çıxıb xatirələrlə yaşayacaqdı. Təhminə yaşaya bilməzdi. O, orda, elə o dövrdə həlak olur, orda qalmalıydı, çünki o dövrün riyakarlığı ilə barışmadığı kimi, indikiynən də barışmazdı. Və bu qəhrəmanlar haqqında düşünəndə mən bunları yaradan haqqında da, yəni özüm haqqında düşünürəm. Və anlamaq istəyirəm ki, tutalım, 66-cı ildəki mən ("Molla Nəsrəddin — 66" əsərimin tarixini müqayisə götürürəm) və 89-cu ilin müəllifi — bu iki Anarın arasında fərq nədən ibarətdir? "Molla Nəsrəddin — 66"nı yazanda mənim 28 yaşım vardı, illüziyalarım daha çox idi, ədəbiyyatın, sənətin, satirik sözün nəyisə dəyişə biləcəyinə, dəyişə bilmək qüdrətinə inamın, ehtimalın daha artıq idi. İndi bütün bunlara inamın, etiqadım daha azdı.. itkilərim daha çoxdur, illuziyalarım daha azdı…

…Əlbəttə, ədəbiyyatın rolu gələcəkdə də, indi də mübarizə eləməkdir, amma indi (bəlkə də bu yaşnan əlaqədardı) başıma bir fikir gəlir ki, həyat dəyişdikcə yaxşılaşmır, durulmur, problemlər gəlir və o ümidlərnən ki, biz o vaxt yaşayırdıq, o ümidlərin çoxusu, təəssüf ki, bu gün puça çıxmışdır.

Amma bununla bərabər, yenə də mən bu bədbin nöqtə ilə, bu bədbin sonluqla fikrimi yekunlaşdırmaq istəməzdim, çünki necə ki, əkinçi, necə ki, kəndçi quraqlıq da olsa, təbii fəlakətlər də gəlsə, zəhmətinin bəhrəsini görməsə də hər halda hər il həmin işi yenidən başlayır, yenidən torpağa ümidnən, bərəkətə ümidnən, məhsula ümidnən öz əbədi işini görür, eləcə mənəvi sahədə çalışan adamlar da bədbinlik hissinə qapılmamalı və nəticəsini düşünmədən, aqibətini düşünmədən, əməyinin hədər və puç olacağını düşünmədən həmişə, gündəlik ağır zəhmətinə qatlaşmalıdır.

Onu deyə bilərəm ki, mən bütün ömrüm boyu bir əsər yazmışam: müxtəlf janrlarda olsa da, müxtəlif fakturada olsa da, müxtəlif dövrlərə hətta xitab eləsə də bu eyni bir əsərdir, insanların mənəviyyatı, insan və zaman, insanın zaman qarşısında həm acizliyi, həm gücü, insanın zamana müqaviməti və insanın son nəticədə qalib çıxması haqqında əsər.

FİLMLƏR HAQQINDA MƏLUMATLAR

ANARIN SSENARİ MÜƏLLİIFİ VƏ BƏZİLƏRİNİN QURULUŞÇU RECİSSORU OLDUĞU BƏDİİ FİLMLƏR (Bütün bədii filmlər Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında çəkilmişlər)

TORPAQ, DƏNİZ, OD, SƏMA

1969. Quruluşçu rejissor Şamil Mahmudbəyov, operator Rasim İsmayılov, rəssam Nadir Zeynalov, bəstəkar Rauf Hacıyev, rollarda İsmayıl Osmanlı, Ələddin Abbasov, Tamara Kokova, Fidan Qasımova və b.

GECƏ İŞIQLARI

1972. İki hissəli bədii film. Anarın rejissor diplom işi. Ssenari və quruluşçu rejissor Anar. Operator Zaur Məhərrəmov, bəstəkar Emin Sabitoğlu. Baş rolda Sadıq Hüseynov.

GÜN KEÇDİ

1973. Quruluşçu rejissor Arif Babayev, operator Rasim İsmayılov, rəssam Elbəy Rzaquliyev, bəstəkar Emin Sabitoğlu. Flora Kərimovanın ifasında mahnının mətni Vaqif Səmədoğlunundur. Baş rollardla Həsən Məmmədov, Leyla Şıxlinskaya.

DƏDƏ QORQUD (Svet poqasşix kostrov) (ilk iki seriyalı Azərbaycan filmi)

1975. Quruluşçu rejissor Tofiq Tağızadə, operator Rasim İsmayılov, rəssam Nadir Zeynalov, freskalar rəssam Toğrul Nərimanbəyovundur, bəstəkar Emin Sabitoğlu. Mahnıları Yalçın Rzazadə ifa edir. Rəqslərin quruluşu — Maqsud Məmmədov, Rəfiqə Axundova. Rollarda Həsən Məmmədov (Dədə Qorqud rolunda), Haşım Qadoyev, Qiya Toxadze, Şəfiqə Məmmədova, Rasim Balayev, Leyla Şıxlinskaya, İnara Quliyeva, Hamlet Qurbanov, Elçin Məmmədov, Əli Haqverdiyev, Fərhad Yusifov, Dilarə Yusifova, Əfrasiyab Məmmədov və b. Məsləhətçi akademik Həmid Araslı, Rasim Əfəndi.

DANTENİN YUBİLEYİ

1977. Quruluşçu rejissorlar Gülbəniz Əzimzadə, Anar, operator Rafiq Qəmbərov, rəssam Rafis İsmayılov, bəstəkar Emin Sabitoğlu. Mahnıların mətni Aleksandr Blokundur. Rollarda Həsən Turabov. Zərnigar Agakişiyeva, Elçin Məmmədov, Vaqif Həsənov (İbrahimoğlu), Alagöz Salahova, Oqtay Mirqasımov, Rafael Dadaşov, Hacı İsmayılov və b.

ÜZEYİR ÖMRÜ (Akkordı dolqoy jizni)

1981. Quruluşçu rejissor Anar, operator Zaur Məhərrəmov, rəssam Rafis İsmayılov. Rollarda Hüseynağa Atakişiyev (Üzeyir rolunda), Tofiq Mirzəyev, Mikayıl Mirzəyev, Mikayıl Kərimov, Həmidə Ömərova, Nəcibə Məlikova, Şahmar Ələkbərov, Əli Zeynalov, Firəngiz Şərifova, Yaşar Nuri, Qədir Rüstəmov, Rüstəm Rüstəmov, Aydın Əzimov, Ramiz Quliyev, Maya İskəndərova, Yalçın Əfəndiyev (balaca Üzeyir rolunda) və b. Məsləhətçi Niyazi, musiqi redaktoru Nazım Əliverdibəyov (Mərkəzi Televiziyanın sifarişi ilə çəkilib, Moskva Televiziyasının Birinci proqramıyla ilk dəfə 1982-ci il sentyabrın 29-da nümayiş etdirilib).

KEÇƏN İLİN SON GECƏSİ

1983. Quruluşçu rejissor Gülbəniz Əzimzadə, Şahmar Ələkbərov, operator Valeri Kərimov, rəssam Mais Ağabəyov, bəstəkar Aqşın Əlizadə. Rollarda Elmira Şabanova, Maya İskəndərova, Ayan Mirqasımova, Kamil Zöhrabov, Elman Allahverdiyev və b. (Mərkəzi Televiziyanın sifarişi ilə çəkilib)

QƏM PƏNCƏRƏSİ

1987. Quruluşçu rejissor Anar, operator Hüseyn Mehdiyev, rəssamlar Elbəy Rzaquliyev, Rafiq Nəsirov, bəstəkar Cavanşir Quliyev. Mahnıları Zülfiyyə Xanbabayeva ifa edir. Rollarda Həsən Turabov (Mirzə Cəlil rolunda), Həsən Məmmədov (Məmmədhəsən əmi rolunda), Elmira Şabanova, Nəsibə Zeynalova, Leyla Şıxlinskaya, Fəxrəddin Manafov, Zərnigar Ağakişiyeva, Vaqif Həsənov (İbrahimoğlu), Mərahim Fərzəlibəyov, Rafiq Əliyev, Yaşar Nuri, Ramiz Əzizbəyli, Mirzə Babayev, Ələsgər Məmmədoğl, Arif Quliyev və b. Məsləhətçi Abbas Zamanov

İMTAHAN

1988.Quruluşçu rejissorlar Gülbəniz Əzimzadə, operator Rəşid Nağıvev,rəssam Şamil Nəcəfzadə, bəstəkar Azər Dadaşov. Rollarda Hamlet Xanızadə, Səfurə İbrahimova, Fuad Poladov, Rafiq Atakişiyev. (Mərkəzi Televiziyanın sifarişi ilə çəkilib)

ƏLAQƏ

1989. Quruluşçu rejissor Cahangir Zeynalov, operator Kənan Məmmədov, bəstəkar Firəngiz Əlizadə, rəssam Kamran Zeynallı, rollarda İlqar Həsənov, Rafiq Əliyev, Fikrət Məmmədov, Alya Abdullayeva

TƏHMİNƏ

1993. Quruluşçu rejissor Rasim Ocaqov, operator Kənan Məmməlov, rəssam Rafis İsmayılov, bəstəkar Emin Sabitoğlu. Mahnının mətni Anarındır. Mahnını Rafiq Babayev ifa edir. Rollarda Meral Konrat, Fəxrəddin Manafov, Həsən Məmmədov, Zərnigar Ağakişiyeva, Tofiq Mirzəyev, Həsən Turabov, Məlik Dadaşov, Elmira Şabanova, Larisa Xələfova və b.

OTEL OTAĞI

1996. Quruluşçu rejissor Rasim Ocaqov, operator Kənan Məmmədov, rəssamlar Rafis İsmayılov, Rafiq Nəsirov, musiqi Tomazo Albinioninin və Emin Sabitoğlunundur. Rollarla Fəxrəddin Manafov, Zemfira Nərimanova, Muxtar Maniyev, Vaqif Həsənov (İbrahimoğlu), Rasim Balayev, Kamal Xudaverdiyev, Arifə Heydərova, Ayan Mirqasımova və b.

CAVİD ÖMRÜ (İBLİS)

2006. Mədəniyyət və turizm Nazirliyinin Dövlət sifarişiylə "Yeni dalğa" prodüsser Mərkəzi tərəfindən "Azərbaycanfilm" kinostudiyasının texniki bazasında çəkilir.

Filmin bədii rəhbəri Anar. Quruluşçu recissor Ramiz Həsənoğlu, operator İsrafil Ağazadə, rəssam Adil Azay, bəstəkar Cavanşir Quliyev. Cavid rolunda Rasim Babayev, İblis rolunda Məmməd Səfa, rollarda Ramiz Novruzov, Dilarə Əhmədova, Bəxtiyar Xanızadə, Vüsal Murtuzəliyev və b.

ANARIN ƏSƏRLƏRİ ƏSASINDA ÇƏKİLMİŞ BƏDİİ FİLMLƏR

HƏR AXŞAM ON BİRDƏ (KAJDIY VEÇER V ODİNNADÜATĞ) 1968. "Mosfilm" kinostudiyası. (Anarın "Mən, sən, o və telefon" hekayəsi əsasında. Ssenari Edvard Radzinski,quruluşçu rejissor Samson Samsonov, operator A.Petritski, rəssam İ.Lukaşeviç, bəstəkar Y.Artemyev. Baş rollarda Marqarita Volodina, Mixail Nojkin.

BEŞ MƏRTƏBƏLİ EVİN ALTINCI MƏRTƏBƏSİ

1996. (Anarın eyni adlı romanı əsasında) "Sabah" studiyası. Ssenari Elxan Cəfərov, rejissorlar Elxan Cəfərov, Ülviyyə Könül, operator İsrafil, bəstəkar Cavanşir Quliyev. Rollarda Sənubər İskəndərova, Elxan Cəfərov, Fuad Poladov, Aleksandr Şarovski və b.

AKTYORUN ƏSGİSİ

2004 (Anarın "Dantenin yubileyi" povesti əsasında).

TRT. Türkiyə. Ssenari Atilla Engin,quruluşçu rejissor Feyzi Tuna, operator Koksan Kolkal, bəstəkar İlyas Mirzəyev, rollarda Fərhan Şensoy, Suna Kesgin, Rasim Öztəkin və b.

(2005-ci il yanvarın 17-də TRT 1 kanalıyla göstərilib)

TİLSİM

2004 (Anarın "Vahimə" hekayəsi əsasında) Ssenari və quruluşçu rejissor Kamran Qasımov, operator Yuri Varnovski, rəssam Əsəd Əsədov. Rollarda Muxtar İbadov, Lalə Mustafayeva, Fərqanə Quliyeva, Rəzzaq Məmmədov,

ANARIN SSENARİLƏRİ ƏSASINDA ÇƏKİLMİŞ SƏNƏDLİ FİLMLƏR

DƏNİZ

1965 (ssenari Maqsud İbahimbəyovla birlikdə yazılıb. Rejissor Oqtay Mirqasımov, operatorlar Zaur Məhərrəmov, Tofiq Sultanov, Boris Vlasov, bəstəkar Emin Mahmudov (Sabitoğlu).

QOBUSTAN

1967. (Ssenari Oqtay Mirqasımovla birlikdə yazılıb. Rejissor

O.Mirqasımov, operator Zaur Məhərrəmov, bəstəkar Fərəc Qarayev)

NƏSİMİ
1971. Rejissor Xamis Muradov, operator Əlihüseyn Hüseynov, bəstəkar Əziz Əzizov

AŞIQ GÖRDÜYÜN ÇAĞIRAR (AŞIQLAR)
1983. rejissor Xamis Muradov, operator Köçəri Məmmədov.

DAŞ SAATIN SƏSİ
1985. Rejissor Nicat Bəkirzadə, operator Zaur Məhərrəmov, bəstəkar Cavanşir Quliyev.
Dədə Qorqud dühası. 1999. Rejissorlar Oqtay Mirqasımov, Rasim İsmayılov.

MOZALAN (Süjet: "Dağ dağa rast gəlməz") (rejissor Oqtay Mirqasımov)

ANARIN SSENARİSİ ƏSASINDA ÇƏKİLMİŞ TELEVİZİYA FİLMLƏRİ

BU — SƏTTAR BƏHLULZADƏDİR
1969. Azərbaycantelefilm. Rejissor Ramiz Axundov, operator Nəriman Şıxəliyev, bəstəkar Aqşın Əlizadə (ilk Azərbaycan rəngli televiziya filmi).

BU — MİRCAVADDIR (rəssam Cavad Mircavadov haqqında) 1987. Azərbaycantelefilm. Rejissor Böyükağa Məmmədov, operator Cabbar Məmmədov.

QƏDİM GƏNCƏ, YENİ GƏNCƏ
rejissor Arif Qaziyev.

DƏDƏ QORQUD OĞUZNAMƏLƏRİ (televiziya serialı) 1-ci və 2-ci seriyalar çəkildi.
Quruluşçu rejissor Ramiz Həsənoğlu. Dədə Qorqud rolunda Rasim Balayev.

BASATIN İGİDLİYİ (cizgi filmi)

1988. Azərbaycantelefilm. Rejissor — operator Vaqif Behbudov, rəssam Vaqif Məmmədov, bəstəkar Rafiq Babayev.

ANARLA ÜZ-ÜZƏ

1988. Mərkəzi Televiziyanın sifarişi ilə Anar haqqınla çəkilmiş iki hissəli sənədli film. Azərbaycantelefilm. Ssenari Zeynal Məmmədov, rejissor Ramiz Mirzəyev (Həsənoğlu), operator Adil, bəstəkar Cavanşir Quliyev. Bəstəkarın ifasında səslənən mahnının sözləri Rəsul Rzanındır.

Anar ssenari müəllifi Alla Axundovanın və rejissor Eldar Quliyevin "Var olun qızlar" bədii filmində (1973) rejissor rolunda, habelə aktyorluq diplom işi kimi "Yığıncaq" (1972) (M.C.Məmmədquluzadənin pyesi əsasında) filmində kəndli rolunda çəkilmişdir.

TBu günlərdə ABA telekanalı ilə çıxış edən kinoşünas Ayaz Salayev belə bir versiya irəli sürdü ki, amerikalı rejissor Tom Herns TSizə məktub varU filminin ssenarisini yazıçı Anarın TMən, Sən, o və telefonU əsəri əsasında qurub. Kinoşünasın bu fikrə gəlməsinə adıçəkilən hekayənin Amerikada çap olunması da əsas verirU

T525-ci qəzetU 7 oktyabr 1999

QEYD

Bu cildə Anarın ssenarilərinin yalnız bir qismi daxil edilmişdir. Əvvəlki cildlərdə dərc olunmuş hekayələr, povestlər, roman və dramlar əssasında yazılmış ssenarilər, o cümlədən "Gün keçdi" filminin "Gürcü familiyası" hekayəsi əsasında yazılmış ssenarisi, "Dantenin yubileyi" filminin eyni adlı povest əsasında, "Keçən ilin son gecəsi" filminin eyni adlı pyes əsasında, "İmtahan" filminin "Şəhərin yay günləri" pyesi əsasında, "Əlaqə" filminin eyni adlı povest əsasında, "Təhminə" filminin "Beş mərtəbəli evin altıncı mərtəbəsi" romanı əsasında, "Otel otağı" filminin eyni adlı povest əsasında yazılmış ssenariləri, habelə "Macal" povesti əsasında yazılmış (hələ çəkilməmiş) eyni adlı ssenari bu cildə daxil edilmədi.

TƏRCÜMƏLƏR

Ardıcıl olaraq tərcüməylə məşğul olmamışam. 1961-ci ildə böyük hind yazıçısı Rabindranat Taqorun yubileyi münasibətilə Azərnəşr onun "Bağban" adlı kiçik kitabını buraxdı. Kitabı rəhmətlik Araz Dadaşzadəylə mən çevirmişdik. Əsərlərimin 6-cı cildinin bu bölümünə həmin kitabdan öz tərcümələrimi daxil edirəm.

Daha sonra tanınmış rejissorumuz Tofiq Kazımovun təklifiylə Şekspirin "Fırtına" pyesini tərcümə etdim və pyesin Akademik Dövlət Dram teatrında quruluşunu Tofiq müəllim verdi. Bu tərcümə Əsərlərimin 5-ci cildində dərc olunub. Radioda işlədiyim zaman ingilis dramaturqu Bernard Şounun "Avqust iş başındadır" birpərdəlik pyesini, Amerika yazıçısı Selincerin və alman yazıçısı Borherdin hekayələrini çevirdim. Efirdə səslənən bu tərcümələri heç yerdə nəşr etdirmədim və onların mətnləri qalmayıb.

Bu cildə saldığım mətnləri isə müxtəlif vaxtlarda çevirmişəm. Taqorun və A.M.Matutenin yazılarından başqa heç biri indiycən çap olunmayıb. Dediyim kimi, bu mətnləri müxtəlif vaxtlarda özümçün çevirirdim. Məqsəd fərqli epoxaların bir-birindən çox fərqli dil, üslub, təhkiyə vasitələrinin dilimizdə necə səslənməsini, hər cəhətdən bizdən çox uzaq yazıların Azərbaycan türkcəsində ifadə edilməsi üçün dilimizin hansı imkanlara malik olduğunu müəyyənləşdirmək idi. Əlbəttə yazıların mövzusu, mənası da önəmli idi. Tərcümə üçün mənə bu ya digər cəhətdən maraqlı və əhəmiyyətli görünən mətnləri seçirdim. Bu mətnlər sırasında bir çox baxımdan mənə müəyyən təsir göstərmiş üç fəlsəfi cərəyana — Sufizmə, Zen-buddizmə və Ekzistensializmə aid olan parçaların özəl yeri var.

Oxuculara ilk dəfə təqdim olunan bu mətnlərdən yalnız ikisi haqqında bir az ətraflı danışmaq istərdim — bu bölmədə verilən ilk və son nəsr mətnlərini nəzərdə tuturam. İlk mətn dünyanın ən qədim mədəniyyəti sayılan (eramızdan əvvəl III-IV minilliklər) Şumer-Akkad ədəbiyyatının nümunəsi -"Həyatın mənası haqda sahibiylə qulun söhbəti" dialoqudur. Yaxşı xatırlayıram ki, 20-21 yaşında bu mətni oxuyanda mənə çox maraqlı görünmüşdü və elə o vaxt (ya bəlkə bir az sonra) dialoqu çevirmişdim.

Bəzən yazıçıya bu ya başqa təsiri yalnız zahiri əlamətlərdə

axtarırlar. "Ağ liman" povestimin finalında qırmızı gəmilərdən danışıldığı üçün bəziləri dərhal bunu rus yazıçısı Aleksandr Qrinin "Al yelkənlər" povestinin təsiriylə bağladılar. Mən isə təəssuf ki, nə o zaman, nə də indinin özünəcən Qrinin bu məşhur əsərini oxumamışam.

Əlbəttə hər bir yazıçı hansısa başqa ədəbi əsərin təsirini duyur. Əgər mənim yazılarımda mütləq kiminsə təsirini axtarırlarsa özüm onlara bələdçilik edə bilərəm. Altmışıncı illərin birinci yarısında yazdığım ilk hekayələrimdə bəzi ədiblərin təsirini danmıram. Elə həmin I cildə daxil olan hekayələr arasında "İztirabın vicdanı" hekayəsində Dostoyevski, "Bayram həsrətində" Çexov, "Könlümüzün gecəsi", "Sabah biz ayıq olacayıq" hekayələrində Heminquey (özəlliklə onun "Nə isə bitdi" və "Üs günlük tutqun hava" hekayələri) "Dağınıq vərəqlər"də yapon yazıçısı Akutakava, "Ürəyim ağrıyır" hekayəsində Mirzə Cəlil Məmmədquluzadə üslublarının təsiri aydın görünür. Mirzə Cəlilin üslub yox, mahiyyəti etibariylə təsirini "Molla Nəsrəddin — 66" satirik hekayələr silsiləsində də duymaq olar. (Bu silsiləyə daxil olan "Bir stəkan su" və "Dağ dağa rast gəlməz" hekayələrində isə Mirzə Cəlildən başqa Mixail Zoşşenkonun da bəzi uslub xüsusiyyətlərini sezmək olar).

Yazı-pozumun sonrakı mərhələlərində mənə elə gəlir ki, kiminsə bir başa təsirindən çıxa bildim. Amma daha sonrakı illərdə yazdığım "Dantenin yubileyi"ndə İtaliya rejissoru Federiko Fellininin "Yol" filminin, "Əlaqə" povestində Kafkanın, "Beş mərtəbəli evin altıncı mərtəbəsi"ndə Marsel Prustun təsirini süjet oxşarlığı, personajlar baxımıdan deyil, dolayı və daha dərin qatlarda — ümumi ruh, mühtəva müstəvisində görmək olar.

Fellininin adını əbəs yerə çəkmədim, çünki bu rejissorun sənəti mənə bir çox nasirlərin yaradıcılığından daha yaxındır və onun bir fikri də burda qaldırılan məsələ baxımından çox mühümdür. Fellini ona kimin təsir etdiyi barədə suala belə cavab verir:

"Coysun mənə necə təsir etdiyini soruşmayın, məcbur etməyin ki, Coysu oxumadığımı boynuma alım. Məsələ ondadır ki, bu ya digər müəllifi oxumağa ehtiyac yoxdur. Qoy bu lap Coys kimi çağdaş mədəniyyətə böyük təsir göstərmiş yazıçı olsun. Sən Coysun təsirini yalnız onun yazılarıyla tanışlıqda deyil, çağdaş jurnalların tərtibatından başlayıb insanların rəftarına, davranışına, qadın-kişi münasibətlərinə qədər, söhbətlərdən, ünsiyyətdən, ifadələrdən tutmuş gənc bir qızın geyiminədək hər şeydə, hər an, hər yerdə görürsən,

müasir dünyanın ən muxtəlif bəlirləriylə üzləşirsən.

Əlbəttə, məsələn Paolo Pazolini kimi dünyada hər şeyi oxumaq və bilmək yaxşıdır. Amma əgər sənət həqiqidirsə o yalnız bir başa yox, dolayı yolla da təsir göstərir. Mən deyərdim ki, həqiqi sənət dəyərləri sanki elə havada mövcuddur, şəhərlərin görkəmində, təbiət mənzərələrinə baxışda özünü biruzə verir. Həqiqi sənət meyarları sənin özünün insanlarla, həyatla münasibətlərinin açarıdır. Yəni bu mənada çağdaş dünyada varsansa hansısa həqiqi sənət əsəri bu ya digər şəkildə sənə öz təsirini göstərəcəkU.

Ümumi fikirlərdən bu yazımın əvvəlində işarə vuduğum konkret fakta keçirəm. 21-22 yaşındaykən yazdığım "Nisbət nəzəriyyəsi" hekayəsi, qəribə görünsə də, məhz dediyim qədim Şumer-Akkad mətninin təsiriylə yazılıb. O vaxt mənim nə relyativizm fəlsəfi baxışlarından, nə hər şeyin nisbi olması haqqında nəzəriyyələrdən xəbərim vardı, amma "Sahibiylə qulun söhbəti" mənimçün məhz bu baxımdan "kəşf" idi və hekayəmdə mən bu "kəşfimi" başqa bir dövrün — çağdaş zamanın məişət materialı əsasında ifadə etməyə çalışmışdım.

Mətnlər bölməsinə daxil olan son yazı haqqında da bir neçə söz demək istəyirəm — ispan yazıçısı Anna Mariya Matutenin essesi barədə. 1926-cı ildə doğulmuş Anna Mariya Matute totalitar Franko rejimi dövründə yetişmiş və bu rejimlə barışmayan yazıçılardandır. Matute yalnız özünün deyil, onun kimi bu mənəvi basqılar, qadağalar mühitində yaşamağa məcbur olan və onun kimi duyan, düşünən çağdaşlarının dünya duyumunu — "Biz ona görə yazmağa başladıq ki, narazıydıq" başlıqlı essesində ifadə etmişdi. Esseylə rus dilində tanış olarkən mən bu dünyagörüşünün, bu hisslərin, bu baxışların bizə — sovet dönəmində yaşayan və daxili narazılıqlarını oxucusuna çatdırmağa çalışan 60-cılara nə qədər yaxın olduğuna, o mühitin və şəraitin bizə nə qədər tanış və uyğun gəldiyinə mat qaldım. Yazını dilimizə çevirdim və tərcüməm "Azərbaycan" jurnalında (1980 №2) dərc olundu. O vaxt mənə elə gəlirdi ki, bu yazının bizə nə qədər uyğun olduğunun heç kəs fərqinə varmadı. Çox-çox illər sonra, dünya, quruluş, siyasət, şərait, mühit, dəyərlər kökündən dəyişəndən sonra "Azərbaycan" jurnalında (2005 №1) bir yazını oxuyanda yenə mat qaldım. Nə yazıq ki, çox erkən dünyasını dəyişmiş istedadlı araşdırıçı və tənqidçi Zemfira Əsədullayevanın "Atalar və oğullar" məqaləsində belə bir parça vardı:

"Vaxtilə "Azərbaycan" jurnalında faşist Franko rejimi dövrünün

görkəmli yazarı Anna Mariya Matutenin maraqlı bir yazısı dərc olunmuşdu. Həmin məqaləni dilimizə çevirib, yazar haqqında qısa məlumatla birgə bizə təqdim edən isə Anar idi. Məqalədə təsvir olunan mühit elə o zaman bizə yaman tanış gələcəkdi və fikirləşəcəkdik ki, yəqin Anar bu məqaləni bizlərə boş yerə təqdim etməyib. Məqalədə təsvir olunan dövr süqutu labüd kommunist rejimi dövrünün bir başqa üzü deyildimi? Məqalənin çap olunduğu dövrdə isə biz hələ də tariximizin və ədəbiyyatımızın sovetləşmiş dövrünü yaşayırdıq. Və o dövrün İspaniyadakı faşist rejiminin süqutu dövrü ilə nə qədər oxşar cəhətləri olduğu göz qabağındaydi. O zaman isə bunu ancaq beləcə, dolayısı ilə söyləmək mümkün idi. Çünki azad düşüncə, fikir və əqidə sərbəstliyi Anarın təmsil etdiyi ədəbi nəslin də arzu və ümidlərində yaşayırdı. O arzu və ümidləri gerçəkləşdirmək vəzifəsinin məhz onların üzərinə düşdüyünü qeyri-ixtiyarı da olsa dərk edirdilər. Elə ona görə də 60-cı illərdə Azərbaycan ədəbiyyatında öz yerini tapan Anar imzası sadəcə daşıdığı adın ilkinliyi ilə yox, həm də üzərinə düşən o vəzifənin zamanında dərki ilə oxucuya yeni nəsə deyirdi. Anna Mariya Matute "Biz ona görə yazmağa başladıq ki, narazıydıq" -demişdi.

"Biz — o vaxtın gəncliyi ətrafımızı sarmış riyakarlıq, saxtakarlıq, yalan, nadanlıq, cəhalət, anlaşılmazlıq mühitində, hər azad düşüncənin boğulduğu bir şəraitdə yaşayırdıq, nəfəs alırdıq, daha doğrusu nəfəs almağa çalışırdıq" — Anarın bu sözləri həmin o ispan yazarının fikirlərinin davamı kimi səslənirdi.

Azadlıq ehtirası, haqsızlıqlara, ədalətsizliyə qarşı barışmazlıq bütün dövrlərdə, dünyanın bütün ölkələrindəki fikir və əqidə adamlarını birləşdirən dəyişməz mənəvi amillərdir. Onlarsız zamanı qabaqlamaq yəqin ki, çətin olardı. Zamanı qabaqladıqları üçün də onlara addımbaşı etiraz edəcəkdilər. Onlar da etiraz edəcəkdi. Bu etiraz yazdıqları hər kəlmədə, hər böyük və kiçik həcmli əsərdə hiss olunacaqdı. "Biz ona görə yazmağa başladıq ki, narazıydıq" fikri onların da ədəbiyyata gəlişi səbəbini ifadə edə bilərdi. Amma onların ədəbiyyata gəlişi özü bir zərurət idi. Zərurətsə zamanla labüd olandır. Ona görə də Anar və onunla bərabər 60-cı illərdə ədəbiyyata, sənətə gələnlər yazmaya bilməzdilər".

Mənim haqqımda da xoş sözlər olan bu yazıdan belə böyük parça gətirdiyim üçün oxucu məndən inciməsin. Mənimçün bü sözlər, həm də dünyadan vaxtsız getmiş bir həssas qələm sahibinin sözləri çox dəyərlidir. Deməli heç bir təşəbbüs hədər deyilmiş, heç bir iş boş

yerə görülmürmüş, heç nə əks-sədasız qalmırmış. Torpağa atılmış toxumlar cücərib baş qaldırdığı kimi beyinlərə səpilən fikirlər də zamanında yetişəcəkmiş. 25 il bundan qabaq dərc olunmuş bir tərcümə də kiminçünsə — qoy lap bir ya iki nəfər düşünən insan olsun — təsirsiz qalmayıb, dolayı yolla olsa da çatdırmaq istədiyim fikirlər, hisslər, mənəvi ismarışlar ünvanına çatıb. Zemfira Əsədullayevanın xatirəsini hörmətlə anır, Uca Tanrıdan ona rəhmət diləyirəm.

5 yanvar 2006

QƏDİM ŞUMER — AKKAD MƏTNİ
HƏYATIN MƏNASI HAQDA
SAHİBİYLƏ QULUN SÖHBƏTİ

(eramızdan əvvəl I-II minillik)

—Qul! Mənə xidmət etməyə hazır ol!

—Bəli, sahibim, bəli

—Yola çıxırıq. Atları yəhərlə. Saraya gedirəm.

—Get, sahibim, get, səni uğur gözləyir. Şah sənə xəzinə bəxş edəcək. Səni əfv edəcək.

—Yox, qul, yox. Mən saraya getməyəcəm.

—Getmə, sahibim, getmə! Şah səni uzaqlara göndərəcək, bilinməz-görünməz bir yerə yollayacaq, gecə-gündüz sənə əzab verəcək.

—Qul, mənə xidmət etməyə hazır ol! Su gətir, əllərimi yu! Ziyafət düzəldəcəm. Kef çəkəcəm.

—Ziyafət düzəlt, sahibim, kef çək. Qonaqlıq verən öz qəlbini sevindirir, Allaha da xoş gəlir.

—Yox, yox, qul, mən ziyafət düzəltməyəcəm

—Ziyafət düzəltmə, sahibim, kef çəkmə, içki içmək insana yaraşmaz.

—Qul, mənə xidmət etməyə hazır ol. Mən ev tikmək istəyirəm, düşmənimi izləmək istəyirəm.

—Ev tik, sahibim, ev tik. Düşmənini izlə.

—Qul, mən ev tikmək istəmirəm.

—Ev tikmə, sahibim. Ev tikən atasının evini dağıdır.

—Qul, mən üsyan etmək istəyirəm.

—Üsyan et, sahibim, üsyan et. Üsyan etməsən taleyin necə olacaq? Düşərgənçün hardan azuqə tapacaqsan?

—Qul, mən üsyan etmək istəmirəm.

—Etmə, sahibim. etmə. Usyan edəni ya öldürür ya tutub məhbəsə atır, gözlərini çıxarırlar.

—Qul! Məni ittiham edənə cavab vermək istəmirəm.

—Cavab vermə, sahibim, cavab vermə. Yoxsa xilas ola bilməzsən.

—Qul, mən ittihamlar qarşısında susmaq istəmirəm.

—Susma sahibim, susma, sussan sənə daha ağır cəza verəcəklər.

—Qul, qadın sevmək istəyirəm.

—Sev, sahibim sev, qadın sevən dərdi-qəmi unudur.

—Qul, mən qadın sevmək istəmirəm.

—Sevmə. sahibim, sevmə. Qadın ovçunun özü üçün qurulan tələdir. Qadın — sevənin boğazını kəsən iti xəncərdir.

—Qul, mən Allaha qurban kəsmək istəyirəm.

—Kəs, sahibim, kəs. Allahı üçün qurban kəsənin qəlbi sevinclə dolur.

—Qul, mən Allahıma qurban kəsmək istəmirəm.

—Kəsmə, sahibim, kəsmə. Elə bilirsən qurban kəsməklə Allahın sənə istədiyini verəcək?

—Qul, xalqıma ərzaq paylamaq istəyirəm.

—Payla, sahibim, payla. Xalqına ruzu verən adamın qazancı da çox olur.

—Qul! Xalqıma ərzaq paylamaq istəmirəm.

—Paylama, sahibim, paylama. Borc vermək — məhəbbət kimidir. Qazancı isə oğlu olmaq kimidi. Sənin payladığın ərzaqın qazancını mənimsəyəcək, səni də lənətləyəcəklər. Taxılını yeyib səni məhv edəcəklər.

—Qul! Ölkəmə xeyir vermək istəyirəm.

—Ver, sahibim, ver, ölkəsinə xeyir gətirənə, Allah Marduk da əvəzini verəcək.

—Qul, mən, ölkəmə xeyir vermək istəmirəm.

—Vermə, sahibim, vermə. Tar-mar olmuş şəhərlərin uca yerinə çıx bax, yaşayıb ölmüş insanların kəllə sümuklərinə tamaşa et. Kim bilir onlardan hansı ölkəsinə xeyir verib, hansı verməyib?

—Qul, de mənə, yaxşı olan nədir, pis olan nədir?

—Sahibim, mənim də, sənin də boynumuzu qırıb bizi çaya atsalar yaxşıdır. Kimdir elə böyük ki, göy üzünü tutsun, kimdir elə böyük ki, yer üzünü tutsun?

—Qul, səni öldürmək istəyirəm ki, məndən qabaq gedəsən.

—Sahibim, sən də məndən sonra cəmisi üç gün ömür sürəcəksən.

Tərcüməçinin qeydi: Akademik V.V.Struvenin rus dilinə çevirisində "Xrestomatiya po istorii Drevneqo Vostoka (Moskva, 1963) kitabında dərc olunmuş bu mətnin müqqədiməsində deyilir ki, onun mənası iri maqnatlarla mübarizədir (?). Məncə bu mətnin

mənası maqnatlarla mübarizə deyil, heç qulun sahibin hər sözünə mütiliklə razı olması da deyil. Eyni bir mətləbə iki zidd qütbdən yanaşılması daha önəmlidir. Təsadüfi deyil ki, bu mətnin başqa bir adı "Müdriklik məsləhəti" və bir adı da "Bədbin dialoq"dur. Araşdırıcılar onu İncildəki məşhur "Ekkleziast" kitabının qaynağı sayır.

PLATON (ƏFLATUN)

Qədim yunan filosofu. Eramızdan əvvəl IV əsr

FEDR

Dialoqdan fraqment

İştirakçılar: Sokrat, Fedr

SOKRAT. Əziz dost, məni bağışla. Mən axı hər şeylə maraqlanıram. Bu şəhərdə isə nəinki insanlar, ağaclar belə mənə heç nə öyrətmək istəmir. Amma indi ki, bura gəlmişik, mən uzanım, sən də rahat əyləş və oxumağa başla.

FEDR. Yaxşı. Qulaq as.

"Mənim işlərimdən xəbərin var. Bir-birimizlə dil tapsaq faydalı olar. Sənə aşiq olmamağım buna əngəl deyil. Əksinə, aşiqlərin ehtirası sönəndən sonra peşman olurlar ki, sevgililəri üçün xeyirli iş görüblər. Aşiq olmayanlar, biganələr isə heç vaxt hərəkətlərinin altını çəkmir.

Bundan başqa sevgililər götür-qoy edirlər, — bu eşqin sayəsində nə itirib, nə qazanıblar. Biganələr isə heç kəsi günahlandırmır, sevgilisinə: — sən mənim işlərimə mane oldun — demir, yaxud sənin ucbatından qohum-qardaşla aram dəydi söyləmir. Əlbəttə, sevənləri yüksək dəyərləndirməliyik ki, sevgiləri uğrunda hamıyla ləj düşməyə razıdırlar. Yalnız və yalnız sevgililərinə sözlə, əməllə xidmət etmək istəyirlər — amma düzmü yalanmı söylədikərini təyin etmək çətindir. Axı sonra başqa birisinə aşiq olanda əvvəlki sevgilisini yamanlayacaqlar. Ümumiyyətlə bu sevgi bəlasına mübtəla olanları mühakimə etmək düz deyil, çünki bu doğrudan da bir xəstəlikdir, Sevənlər özləri də etiraf edir ki, onlar ağıllarını itirir, xəstələnirlər, özlərini ələ ala, idarə edə bilmirlər. Sonra ağılları başlarına gələndə xəstəykən etdiklərinə haqq qazandıra bilmirlər.

Sevgililər arasından ən layiqlisini seçirsənsə seçimin böyük olmayacaq. Amma bütün başqa insanların içindən seçməli olsan seçimin çox geniş olacaq.

Əgər düşünürsən ki, eşqindən hər kəs agah olacaq və səni qınayacaq, bu zaman bir gör nə baş verir: sevgililər elə zənn edir ki, onların bu xoşbəxtlik dəmlərini başqaları da yaşayır və deməli hissləri hədər deyilmiş. Biganələr isə insanların sevgi münasibətlərindən daha üstün

olan bir yolu seçirlər.

Çox vaxt sevgililəri müşaiət edənlər də olur. Bəzən də iki nəfərin mehriban söhbət etdiyini görən tək elə güman edirlər ki, onlar bir-birinə meyl edir. Bu meyl ya artıq yaranıb, yaxud da yaranacaq. Biganələr isə belə hallara düşmür, onlar bir-biriylə mehriban söhbət edəndə də hamı bilir ki, bunlar sadəcə dostdurlar, söhbətləri də müəyyən bir işlə bağlıdır.

Əgər sən dostluğun daimi olmadığından qorxursansa, axı başqa münasibətlərdə də ayrılıq məqamı gələndə hər iki tərəf bədbəxt olur. Sevgi sənincün çox önəmli imişsə, ən çox ağrıyan da sən olacaqsan. Bax elə buna görə də sevgidə çox ehtiyatlı olmaq gərəkdir. Sevgililər hər şeydən xoflanır, onlara elə gəlir ki, hər şey onların zərərinədir. Odur ki, sevdiklərinin başqalarıyla ünsiyyətdə olmalarını istəmirlər. Qorxurlar ki, varlı onları varıyla, savadlı ağlıyla üstələyə bilər, bir sözlə, hər hansı üstünlüyü ola biləcək hər kəsi özləriyçün təhlükəli rəqib sayırlar. Səni də belə adamlarla salam-kalamı kəsməyə məcbur edərək dostsuz, əhbabsız qoyurlar. Yox, sən bu qadağalara məhəl qoymasan sevgilinlə aranızda çat əmələ gələcək. Heç vaxt aşiq olmayanlar isə əksinə, qılıqlı adamları xoşlayır, insanlarla ünsiyyətdə olmağı xeyirli sayır. Adamayovuşmazları bəyənmirlər. Odur ki, bizim münasibətlərimiz nəticəsində sən düşmən yox, dost qazanacaqsan.

Sevənlərin çoxunu xasiyyətinə və başqa cəhətlərinə bələd olmadan qabaq, əvvəl-əvvəl bədən cəlb edir. İstəklərinə çatandan sonra da dost olaraq qala biləcəklərmi? Əvvəlcədən dost olan biganələr isə istəklərinə çatandan, ləzzət alandan sonra da elə qabaqkı kimi dost olaraq qalırlar və xatirələr bu dostluğu daha da möhkəmləndirir.

Məhəbbət insanı çox şeyə ayrı gözlə baxmağa məcbur edir. Eşqi uğursuz olanı hər şey incidir, halbuki bu iş başqalarına heç bir əzab vermir. Xoşbəxt olan isə elə şeylərdən zövq alır ki, başqası üçün bu heç də zövq mənbəyi deyil. Odur ki, aşiq olanları qısqanmaqdansa, onlara gərək yazığımız gələ.

Yadında saxla, üstəlik dostları da aşiq olanları təngə gətirir, elə bilirlər ki, onlar başlarını bəlaya salıblar. Biganələrlə isə heç kəsin işi yoxdur.

Bəlkə sən soruşacaqsan, mən yəni bütün biganələrlə xoş rəftar etməyə çağırıram? Yox, amma axı elə aşiq olanlar da bütün

sevgililərə rəğbət bəsləməyi tövsiyyə etmir ki… "

Düşünürəm ki, oxuduqlarım bəs edər, əlavə olunası ya aydın olmayan məsələlər varsa buyur, soruş, Sokrat, səncə bu əsər necədi: Hər şey çox gözəl ifadə olunub, deyilmi?

SOKRAT. Əladır dostum, mən heyran oldum. Səbəbi də sənsən, Fedr. Mən sənin bu əsəri necə oxumağına diqqət edirdim. Elə ləzzətlə oxuyurdun ki, mən də sənlə bərabər məftun olurdum. Həm də axı bu məsələləri sən məndən qat-qat yaxşı bilirsən.

FEDR. Deyəsən zarafat edirsən.

SOKRAT. Yox, sənə elə gəlir. Mən ciddi deyirəm. Sənin oxumağından mən də cuşa gəldim. İndi də sən məni dinlə və sus. Bəlkə danışdığım zaman başımın üstündə müqəddəs halə də əmələ gəldi.

FEDR. Doğrudur.

SOKRAT. Günah səndədir. Amma qulaq as, yoxsa bu vəhy keçib gedə bilər. Beləliklə sevənlərə, ya biganə olanlara qulluq göstərənlər faydamı, zərərmi gətirə bilər. Ləzzətin əsiri olanlar, zövq-səfayə aludə olanlar çalışacaq ki, sevdiklərini də öz istəklərinə uyğun hala salsın. Bu xəstəliyə düçar olanlarda hər bir maneə ya onlardan güclü hər şey dəhşətli nifrət hissi doğurur. Hətta sevdiyinin də nədəsə ondan üstün olmasını, ya ən azı ona bərabər, ona tay olmasını istəməz. İstər ki, sevgilisi köməksiz, aciz, müti olsun. Savadsız alimdən, qorxaq cəsurdan, pəltək bəlağətlidən zəifdir. Bax, sevgili də sevdiyində məhz bu zəif cəhətləri qabartmağa çalışır ki, öz üstünlüyünü qoruyub saxlasın.

Bu halda belə o yenə də qısqanmaya bilməz. Qısqandığı üçün də sevgilisinin başqalarla ünsiyyətdə olmasını istəmir. Hətta bu ünsiyyətin onun özünə faydası varsa belə onu yaxın qoymur. Ünsiyyət sevgilisini ucalda bilər, buna yol vermir, qorxur ki, ucalmış sevgilisi ona yuxarıdan aşağı baxar. Sevgilisini aşağılamaq üçün hər üsula əl atmağa hazırdır, təki sevdiyi bütün başqa insanlara nifrət bəsləsin, bircə onun özünə həmişə heyran baxışlarla baxsın. Bundan zərər çəksə də belə olsun. Deməli, bu sayaq aşiq sevgilisinə faydalı yoldaş ola bilməz.

Bir məsələ də var. Nə qədər ki, aşiq sevir, o zəhlətökəndir, hamını eşqiylə də, qısqanclığıyla da zinhara gətirir. Elə ki, sevgi keçib gedir, o, xəyanətkara çevrilir, bol-bol verdiyi vədləri unudur. Ehtiras sönəndən sonra onun hər hərəkətinə ağlı nəzarət edir, sevgilisi isə

onun dəyişdiyini görsə də, səbəbini dərk edə bilmir. Axı bu elə həmin adamdır. Özü də utanır etiraf etsin ki, indi artıq tamamilə başqa adam olub, əvvəlki çılğınlığının təsiri altında vəd etdiyi şeyləri necə yerinə yetirəcəyini bilmir.

FEDR. Gedək, yaman istidir.

SOKRAT. Getməzdən əvvəl dua etməyəkmi?

FEDR. Mütləq.

SOKRAT. Əziz allah Pan və bu yerlərin başqa allahları, elə edin ki, daxilən gözəl olum. Daxilimlə zahirim dost olsun. Daha nə istəyim Fedr. Məncə yetər.

FEDR. Məni də bu duaya qoş. Dostların hər şeyi ümimi olmalıdır.

SOKRAT. Gedək.

DHAMMAPADA (Fəzilət yolu)

"Dhammapada" bizim eradan əvvəl III ya IV əsrdə Hindistanda pali dilində yaranmış buddist ədəbi abidəsidir. "Dhamma" sözü yol, qanun, təlim kimi, "pada" sözü fəzilət, yaxşılıq, comərdlik kimi tərcümə oluna bilər. Əsərin mətni çeşidli mövzularda kəlamlardan ibarətdir. Onlardan bəzilərini dilimizə tərcümə etdim.

"O məni təhqir etdi, vurdu, mənə qalib gəldi, məni soydu". Bu fikirləri içində saxlayan adamın kini-nifrəti azalmır. Belə fikirləri ürəyində saxlamayan adamın kini-nifrəti bitir. Bu dünyada heç vaxt nifrət nifrətlə bitib tükənmir, o yalnız nifrətin yox olmasıyla yoxa çıxır. Əbədi dhamma (yol, təlim-tərcüməçi) — budur.

Müdrik insan ciddiyyətiylə yüngülməcazlığı qovduğu zaman müdrikliyin zirvəsinə ucalır və oradan xəstəliyi kədər olan bəşəriyyəti seyr edir. Dağ başında duran adam aranda durana baxdığı kimi, ağıllı insan, ağılsıza baxdığı kimi.

Əgər səyahətə çıxmış adam özünə tay ya özündən daha üstün insanla rastlaşmırsa, elə tək-tənha qalsa yaxşıdır. Axmaqla dostluq mümkün deyil.

Çox az insan qarşıdaki sahilə çıxa bilər. Əksəriyyət elə bu sahildə çabalaya-çabalaya qalır.

Əgər birisi döyüşdə min adama min dəfə qalib gəlibsə, başqa birisi yalnız özü özünə zəfər çalıbsa — məhz odur döyüşün ən böyük qalibi.

Gerçəkdən də daima istəklərini məhdüdlaşdıraraq yaşayan, özü-özünü ram etməyi bacaran insanın qələbəsi başqasına qələbə çalmışın zəfərindən daha yaxşıdır.

Allahın özü də belə insanın qələbəsini məğlubiyyətə çevirə bilməz.

Əgər insan bir yaxşılıq edibsə, bununla kifayətlənməsin. Yenə və yenə yaxşılıq etsin. Yaxşılığın çoxalması sevinc gətirir.

Əgər əlin yaralanmayıbsa zəhəri ovcunda tuta bilərsən. Zəhər — yarası olmayan adama zərər verməz. Özü pislik etməyənə pislik yaxın düşməz.

Çoban sürünü otlağa apardığı kimi qocalıq və ölüm də diri insanları harasa aparır.

Şübhələrini yenə bilməyən adamı heç nə təmizliyə çıxara bilməz.

Cahan od içində yanarkən bu nə gülüşdür, bu nə sevincdir? Zülmət içində olanlar, nədən işığı aramırsız?

Bir özünə bax, qüsürlü cisminə bax, xəstə, cürbəcür fikirlərlə dop-dolu vücuduna bax — nə müəyyənlik var səndə, nə daimilik.

Yorulmuş bədən xəstəliklər yuvasıdır — get-gedə çürüyür, axı ömrün sonu ölümdür. Bu qala sümüklərdən qurulub, ətlə-qanla suvarılıb — təməlinə qocalıq və ölüm, yalan və riyakarlıq qoyulub.

Mən müxtəlif doğuşların sansarasından *(dəyişmələr dünyası, insanın bir neçə dəfə müxtəlif şəkillərdə doğulması haqqında buddust termini — tərcüməçi)* keçərkən evin qurucusunu axtarır, amma tapa bilmirdim. Yenidən və yenidən doğulmaq — kədərli şeydir.

Hey, evin qurucusu, görürsən? Sən bir də yenidən ev tikə bilməyəcəksən. Bütün tikinti alətlərin itib-batıb. Zəka əşyalardan xilas yolunda istəklərin məhvinə nail olub,

Gəncliklərində halal yaşamayanlar, heç nəyə nail olmayanlar, sınmış oxlar kimi atılıb qalır, yalnız keçmişi xatırlayaraq kökslərini ötürürlər.

Pis və özünə zərər gətirən işləri eləmək asandır. Amma yaxşı və xeyirli işlər görmək həddən ziyadə çətindir.

Dünyaya ilğım kimi baxanları Ölüm şahı görmür.

Xeyirxah əməllə günahları yuyan şəxs dünyanı işıqlandırır, buludların arasından çıxan ay kimi.

Dünya kordur, dünyada çox az adam hər şeyi aydın görür. Tordan xilas olan quş kimi ancaq tək-tük adamlar göylərə ucala bilir.

Hansı çığırla aparacaqsız onu — yolsuzu, çığırsızı, Nurlanmışı *(Nurlanmış deyəndə Qautama Budda nəzərdə tutulur- tərcüməçi)*, bütün göy sferalarına hakim olanı, qələbəsi heç vaxt məğlubiyyətə çevrilməyəni, qocalığı artıq bu dünyada davam etməyəni?

İnsan olmaq çətindir, ölərilərin həyatı çətindir. Nurlanmışın doğuluşu zordur. Qələbədən nifrət doğulur. Məğlub olmuş dərd içində yaşayır. Qələbədən və məğlubiyyətdən imtina edən xoşbəxt və rahat ömür sürür.

Ehtirasdan güclü atəş yoxdur. Nifrətdən amansız bəla yoxdur. Bədəndən böyük bədbəxtlik yoxdur. Rahatlığa, dincliyə bərabər bəxtiyarlıq yoxdur.

Xeyirxah iş görməyin, çünki sonra xeyirdən ayrılmaq ağırdır. Xeyirxahlığa ya bədxahlığa aludə olmayın — onda əl-qolunuzu bağlayan kəməndlər də olmayacaq.

Kiməsə xoş münasibətindən kədər yaranır, qorxu yaranır. Belə münasibət yoxdursa, kədər, qorxu hardan olacaq? Kiməsə mehrini salmaqdan kədər doğulur, qorxu doğulur. Mehrdən azadsansa kədərin, qorxun hardan olacaq?

Kiməsə bağlanırsansa kədər doğulur, qorxu doğulur. Bundan azadsansa kədər hardan olacaq, qorxu hardan olacaq? Ehtirasdan kədər doğulur, qorxu doğulur, ehtirasdan xilas oldunsa kədər hardan olacaq, qorxu hardan olacaq?

İstəkdən kədər doğulur, qorxu doğulur, istəklərin yoxdursa, kədərin, qorxun da yoxdur.

Bu dünyadan gedən insanı o dünyada xeyirxah işləri qarşılayar — yaxınları uzaq səfərdən qayıdan qohumlarını qarşılayan kimi…

Qoy qəzəbdən imtina etsin, özündənrazılıqdan əl çəksin. Ada və formaya aludə olmayanların başına heç bir bəla gəlmir.

Qəzəbə qəzəblənməməklə, şərə xeyirlə, xəsisliyə səxavətlə, yalana həqiqətlə qalib gəlmək olar.

Qəzəbə təslim olma, həqiqəti de. Əgər lap kiçik bir şey istəyirlərsə səndən — əsirgəmə. Bu üç şərtə əməl etməklə Allahlara yaxınlaşmaq mümkündür.

Olmayıb, olmayacaq və indi də yoxdur elə bir adam ki yalnız qınağa yaxud yalnız tərifə layiq olsun.

Budur bax, ömrün sona çatdı, amma nə evin var, nə də yol üçün ehtiyat azuqən.

Mütəmadiən, yavaş-yavaş müdrük insan öz üzərinə qonmuş çirki, pası təmizləməlidir, zərgər gümüşü cilalayan kimi.

Həyasız, kəmfürsət, pozqun üçün yaşamaq asandır. Təvazökar, həmişə təmizlik axtaran, vicdanı ləkəsiz olan üçün yaşamaq çətindir.

İnsan başqasına öz əqidəsinə uyğun olaraq nə qədər lazım bilirsə azuqə verir. Kiminsə yeməsinə, içməsinə paxıllıq edən nə gecə, nə gündüz rahatlıq tapmayacaq.

Daima özgəsinin günahlarını güdən adam həmişə əsəbidir, hisslərini cilovlaya bilmir.

Göylərdə yol yoxdur, bizim dışımızda tərkidünyalıq yoxdur. İnsanlar illüziyalarda təsəlli tapırlar, müdriklər illüziyalardan xalidir.

Durmaq yeri gələndə durmayan, gənc və cüclü çağında belə tənbəl, iradəsiz və fikri əzilmiş insan müdriklik yolunu tapa bilməz.

Həqiqətən düşünməklə müdriklik yaranır, düşünməmək — müdrikliyin məhvidir. Həyatın və həyatın məhvinin bu ikili yolunu

tanı.

Bir ağacı yox, meşəni kəsmək. Meşədən qorxu yaranır. Meşəni qırıb azad olacaqsınız.

Erkəyin qadın istəyi lap cüzi olsa belə yox olmayıbsa — onun fikri buxovludur, ana südü əmən dana kimi.

Nə övlad, nə ata, nə qohumlar əcəlin yaxaladığı insana yardım edə bilməz. Ən yaxın adamlar belə ölüm qarşısında acizdir.

Əgər xırda səadətdən imtina edib böyük səadəti görürsənsə, müdrik insan böyük səadəti seçir.

Özgəsinin arvadına tamah salan dəyyus dörd şeyə məhkumdur: şərəfsizliyə, rahatsızlığa, ittihama və sonda cəhənnəmə. İqbalı da uğursuzdur, qorxan adam qısa sürən məhəbbət macərasına görə ağır cəzalandırılır.

Bir şey etməlisənsə, et. İradən möhkəm olsun. Tərəddüdlər içində qalan səyyah ancaq tozanaq qaldırır.

Etmədiyin iş pis etdiyin işdən yaxşıdır. Axı pis etdiyin iş sonralar sənə əziyyət verir. Amma yaxşı gördüyün iş üçün peşmançılıq çəkmirsən.

İçdən və çöldən qorunan sərhəd şəhəri kimi özünü qoru.

Çox insan-çürükdür, mən də təhqirlərə dözəcəm, döyüşdə ox yarasına dözən fil kimi.

Axmaqla dostluq etməkdənsə tənha qalmaq yaxşıdır.

İstəklərin əsiri olan insanlar qorxmuş dovşan kimi o yan bu yana qaçırlar. Əlləri-qolları bağlı halda yenidən və yenidən iztirablarına qovuşurlar, istəklərdən, ehtiraslardan azaddırlar, amma yenə də istəklər meşəsinə can atırlar. Baxın, bu adam — azaddır, amma boyunduruğa girmək istəyir.

Yaşamaq axınını yarıb keçərkən keçmişdən imtina et, gələcəkdən imtina et, onların arasındakından da vaz keç. Ağlın azaddırsa, nə olur olsun, yenə doğuluşa və qocalığa düçar olmayacaqsan.

O, kamilliyə çatdı, qorxusuzdur, istəkləri yoxdur, varlığın tikanlarını məvh etdi, indiki cismi (bədəni) sonuncudur. Mən qalib gəldim, hər şeyi bilirəm. Bütün dhammapadalarda ləkəsizəm. Mən hər şeydən imtina etdim, istəklərimi məhv etdim və azad oldum. Özüm özümdən dərs aldımsa, kimi müəllimim saya bilərəm?

Var-dövlət ağılsızı öldürür. Var-dövlət istəyiylə o özünü məhv edir, başqalarını məhv edən kimi.

Ay axmaq, dağınıq saçlar nəyinə gərəkdir? Dəri geyimlərin sənə

nə xeyri var? Axı cəngəllik sənin öz içindədir, sənsə zahiri görünüşünü düşünürsən.

Mən istəkləri olmayanı, biliklər sahəsində şübhələrdən qurtulanı və ölümsüzlüyə çatanı brahman sayıram (brahman — ali silkin nümayəndəsi — tərcüməçi).

Mən kobud ifadələr işlətmədən, heç kəsi incitmədən həqiqəti söyləyəni brahman sayıram.

Mən günahsız ola-ola bütün ittihamlara, cəzalara, əzablara dözəni brahman sayıram. Onun səbri — gücdür, gücü — qoşuna bərabərdir.

Mən həyəcanlanmış insanların içində həyəcansız qalanı, çomağa əl atanların içində sakit davrananı, dünyaya bağlılar arasında hər cür bağlardan azad olanı brahman sayıram.

Mən öz əvvəlki həyatını biləni, göyü və cəhənnəmi görəni, biliyin kamillik zirvəsinə yetəni, doğuluşların məhvinə nail olanı, nə etmək mümkünsə edəni brahman sayıram.

HİND MƏTNLƏRİ

(Professor Maks Müllerin "Şri Ramakrişna. Həyatı və təlimi" (Moskva 1913-ci il)kitabından)

"Samniazin" — sözün hərfi mənasında hər şeydən vaz keçmək, bütün dünyəvi bağlardan və istəklərdən imtina etmək anlamındadır. "Bxaqavatgita" kitabında oxuyuruq: "Samniazin o adamdır ki, heç nəyə, heç kimə nifrət etmir, heç nəyi, heç kəsi sevmir"

YOQA-nın dörd üsulu var: 1.Mantra-yoqa məlum sözün dönə-dönə təkrar olunmasıdır. 2.Laya-yoqa bütün fikirlərimizin bir şeyə ya bu şeyin ideyasına yönəldilməsi, bu şeylə vəhdətdə qovuşmaqdır. 3.Raca-yoqa nəfəsini saxlamaq yoluyla ağla nəzərət etməkdir. Məlumdur ki, insan bir şeyə mat qalanda nəfəsi kəsilir, bundan belə nəticə çıxarılır ki, nəfəsini saxlamaq diqqətini bir yerə toplamaqdır. 4.Xatxa-yoqa bədənin ümumi vəziyyətiylə məşğul olmaqdır. O da bədənin müxtəlif ünsürlərini, məsələn gözləri bir nöqtəyə, əksərən burnun ucuna zilləməklə fikri toplayıb toparlamaqdır.

Bütün bunlar Yoqa-sutralarda müfəssəl təsvir olunub. İnduist istilahların çağdaş Avropa dillərinə çevrilməsinin çətinliyindən danışan professor M. Müller qeyd edir ki, hind fəlsəfəsinin ATMAN anlayışını adətən QƏLB kimi çevirirlər. Amma iş ondadır ki, hind təfəkkürünə görə ATMAN bütün ehtiraslardan, hisslərdən azaddır. Qərb təfəkküründə QƏLB isə əksinə bütün ehtirasların, hisslərin cəm olduğu yerdir.

RAMAKRİŞNANIN KƏLAMLARINDAN

Ramakrişnadan soruşurlar: — Nədən hamı kimi sən də evlənmirsən? Ramakrişna cavab verir: Allahlardan biri, Səma qoşunlarının sərkərdəsi Kartikeyya bir dəfə pişiyi cırmaqlayır. Evinə qayıdanda görür ki, anasının üzündə cırmaq yeri var. Bu eybəcər cırmaq yeri hardandı? — deyə soruşanda, anası: — Bu sənin əməlindir — deyir — unutmusan ki, bü gün səhər pişiyi cırmaqlamısan. Dünyada hər şey əlaqədardır. Sən kimi vursan — məni vurursan. Kartikeyya təəccüb edir və bundan sonra qərar verir ki, heç vaxt evlənməyəcək. Axı kimi alsaydı, anası olacaqdı. Mən, Ramakrişna da o Allah kimiyəm, hər qadında ilahi anamı görürəm.

Yaxşı ailədən ismətli qadını görəndə mən İlahi Ananı görürəm, pəncərələri qabağında biabırçı görkəmdə oturan əxlaqsız qadınları

görəndə də İlahi Ananı, amma başqa şəkildə görürəm.

Birisi on dörd illik ağır zəhmətdən sonra suyun üstüylə qurunun üstüymüş kimi addımlamağı öyrənir. Sevincək müəlliminin yanına gəlib hünərindən danışır. Müəllimi: Ay biçarə — deyir — başqaları qayıqçıya beş-on qəpik verib çayın o tayına keçə bilir, sən isə ömrünün on dörd ilini buna sərf eləmisən.

Ramakrişnanın bir tələbəsi başqalarının fikirlərini oxumağı öyrənir, müəlliminə bu barədə xəbər verir. Ramakrişna: — Ayıb deyilmi, vaxtını belə boş şeylərə sərf edirsən — deyir.

Birisi çayın o biri tayına keçmək istəyirdi. Müdrik insan ona bir amulet verir və deyir ki, bu amuletlə çayı keçəcəksən. Adam amuleti alıb çayın üstüylə — sanki quru yerdə gedər kimi addımlamağa başlayır. Çayın ortasına çatanda marağını üstələyə bilmir, qərara gəlir ki, amuleti açıb baxsın, görsün içində nə var. Amuletin içində yalnız kağız parçası vardı və orada bircə söz yazılmışdı: Rama. Adam təəccüb etdi: Elə bu? Ürəyində bu sözləri deyən kimi batmağa başladı,

Yalnız inam möcüzə yaratmağa qadirdir. Çünki inam — həyatdır, şübhə — ölüm.

(Bu rəvayət bizim Qız qalası haqqında əfsanələrin biriylə səsləşir — tərcüməçi)

Bütün miflərdən, bütün müqəddəs mətnlərdən bir şey aydın olur ki, İnsan necə varsa elədir. Bu fikir Adəm və Həvva əfsanəsində də ifadə olunub.

Ağıl da, bədən də daima dəyişir, amma əbədi ruh dəyişmir — yalnız məhdud olan şey başqalaşa bilər. Mənim bədənim hərəkət edə bilər, sizin bədəniniz hərəkət edə bilər, kainatın hər zərrəsi daima hərəkətdədir, amma bütünlükdə kainat hərəkətsizdir. Hərəkət şərtidir, mən masaya nisbətdə hərəkət edirəm, hər bir atom başqa atomlara nisbətdə hərəkət edir. Bəs sonsuz kainat tam halında nəyə nisbətdə hərəkət edə bilər?

Ancaq öz həyatını dünyanın həyatıyla, başqalarının həyatıyla üzvüləşdirən yaşayır. Bədənimizi həyatımızın mərkəzi sayanda, cılız maraqlarımızla yaşayanda, biz yaşamırıq, ölürük.

Ölüm qorxusunu da o zaman duyuruq.

İnsan ölüm xofuna yalnız o zaman qalib gələ bilər ki, aydın bir həqiqəti dərk etsin: nə qədər ki, bü dünyada ən azı bir insan yaşayır, o, özü də yaşayır.

Bütün dəyişikliklərdə pis adam yaxşı, heyvan insan olur və s. Ruh isə dəyişmir. Dünya dəyişir. Ruh isə təcəlli olunur.

Niyə görə hər bir xalq, cəmiyyətin hər hansa bir vəziyyətində İnsan kamilliyin ideal təcəssümünü həm Allahda, həm İnsanda arayır. Ona görə ki, bütün ali cəhətlər insanda da var. Bu sizin ürəyinizdədir, amma siz bunu dərk etmirsiniz, elə düşünürsünüz ki, bu sizdən dışarıda olan bir qüvvədir. Elə bir qüvvə ki, bəşəriyyətin həyatını o idarə edir.

Şəfqət, insanlara məhəbbət dünyanın əsasıdır. "Mən" və dünya bir vəhdətdir. Belə olmasaydı mən nəyə görə başqalarına yaxşılıq edərdim? İnsanları xeyirxahlığa sövq edən qarşılıqlı rəğbət, birlik, eyniyyət duyğularıdır. Hər bir insan onu da dərk edir ki, fədakarlıq — mənəviyyatın təməlidir. Fədakarlıq isə hər bir ötəri təzahurlərdən uzaq olmaqdır, özünəməftunluqdan uzaq olmaqdır, özünü ayrıca bir fərd kimi deyil, insanlığın bir zərrəsi kimi qəbul etməkdir. "Mən" anlayışı keçən dövrlərin aldanışlarındandır.

Həqiqət cəmiyyət qarısında baş əymir, cəmiyyət həqiqət

qarşısında baş əyməlidir. Ya baş əyməli, ya məhv olmalıdır.

SVAMİ VİVEKANANDA
YARANIŞIN HİMNİ

Kütlə — biçimsiz, adsız, rəngsiz,
Keçmişsiz, gələcəksiz, zamansız
Məkansız, heç nəsiz
Hətta inkarın səsi belə susub…
Oradan səbəbiyyat çayı axır
İşıqlı arzu şəklində
Dalğaları əbədi mahnı oxuyur:
"Mən varam, , mən varam". .
O, (Brahma) dünyanın günəşidir,
Biz onun şüalarıyıq.
Yox! O həm günəş. həm də onun şüalarıdır.

SUFİZM

Sufizm (Təsəvvüf) — İslam təfəkkürünün, İslam mədəniyyətinin mühüm və ayrılmaz tərkib hissəsidir. Şərqin Əl Qəzali, Əl Ərəbi, Həllac Mənsur, Fəzlullah Nəimi kimi mütəfəkkirləri, Həkim Sənai, Ömər Xəyyam, Gəncəli Nizami, Əttar, Hafiz, Sədi Şirazi, Şəms Təbrizi, Cəlaləddin Rumi, Yunis İmrə, Nəsimi, Cami, Nəvai, Füzuli kimi dahi şairləri bu ya digər dərəcədə sufizmin ideoloqları olmuş ya onun güclü təsiri altında yazıb yaratmışlar. Hürufilik, Bektaşilik, Nəqşbəndlik və bir sıra başqa təriqətlər də sufizmdən bəhrələnmişlər. Hətta məlamətiyyələrin təlimində süfizm ifrat şəklə də düşmüşdür. Məlamətiyyə təliminə tapınanlar cəmiyyətin ikrahını, nifrətini qazanmağı qarşılarına məqsəd qoyurdular. Onların şüarı "İkraha ikrah idi".

Sufizmin əsas fəlsəfi təməli Vəhdət-vücud (panteizm) anlayışıdır.

"Əzəldən mənim və sənin qəlbin bir idi, mənim olmağın və sənin olmağın, mənim qeybim və sənin qeybin — bir idi. Mənim və Sənin demək də düz deyil. Aramızda Sən və Mən yox idi. Mən — Mən deyiləm, Sən — Sən deyilsən, amma Sən də Mən deyiləm. Mən eyni zamanda Mənəm və Sənsən. Sən eyni zamanda Sənsən və Mənəm"

Yunis İmrə də:

Məni məndə demə məndə deyiləm
Bir Mən vardır məndə məndən içəri — deyirdi.

1.Qəribədir ki, təsəvvüfün ciddi çağdaş araşdırıcısı Seyid İdris Şah "Sufizm" kitabında Cəlaləddin Ruminin mürşidi Şəms Təbrizini şəxs deyil "Təbrizin günəşi" bədii təşbeh kimi anlamışdır.

İnsanın Allahla vəhdətdə olması fikri ən qısa şəkildə "Ən -əl-həqq" ("Həqq mənəm, Həqq məndədir") düsturuyla ifadə olunur. Bu inancı təbliğ edənlər amansız təqib olunurdu. Həllac Mənsur, Fəzlullah Nəimi, İmadəddin Nəsimi işgəncəli surətdə edam olunmuşlar.

Sufizm yalnız dini və fəlsəfi fikrə, poeziyaya deyil, sənətin başqa

növlərinə, o cümlədən musiqiyə ciddi təsir göstərmişdir — Mövlana törənlərində ifa olunan səmaları, dərviş rəqslərini yada salmaq yetər.

Bir çox alimlərin rəyincə "sufizm" anlayışı dərvişlərin geyindikləri qaba yün əbadan —"suf"dan əmələ gəlmişdir.

VIII əsrdə İraq və Suriyada meydana çıxmış sufizm — İranda doğulmuş, sonra Bağdadda dərs demiş Əl Qəzalinin (XII) nəzəri əsərləriylə dini baxımdan məqbul sayılmış, həm sünnülər, həm şiələr tərəfindən qəbul olunmuşdur. Qərb alimlərinin İslamın rasionalistləri adlandırdıqları mütəzalilər hər şeyin yalnız ağılla, idrakla dərk olunması fikrinin üstündə dururdular. Onlara qarşı Əl Qəzali qəlbin həqiqətini müdafiə edirdi. Onun düşüncəsinə görə dünyada bir çox şeyi yalnız ağılla başa düşmək. izah etmək mümkün deyil. Çox şeyi fəhmlə, intuisiyayla duymaq, qəlbin qəfil işığında görmək olar. Bu baxımdan sufizm — Zen fəlsəfəsinin — "insan həqiqəti birdən-birə, qəfildən dərk edir" — müddəasına yaxındır. Bu Əl Qəzalinin öz taleyndə də əks olunub. Bugünkü terminlərə müraciət etsək Bağdad Universitetində (mədrəsəsində) kafedra mudiri, professor kimi çalışan, mötəbər bir alim kimi cəmiyyətdə nüfuz sahibi olan Əl Qəzaliyə günlərin bir günündə vəhy gəlir, qəfilcən həqiqət açılır və o hər şeydən — vəzifəsindən, işindən, cəmiyyətdəki mövqeyindən vaz keçir.

Əl Qəzalinin İslam fikri tarixində xüsusi xidməti ondadır ki, o mütəzalilərin də, sufilərin də düşüncələrini Ortadoksal islam ehkamları çərçivəsinə sala bilib. Buna görə o, "İslamın dayağı" ləğəbini qazanıb.

Mütəzalilərə siyasi təqiblərdən daha ağır zərbəni IX əsrin məşhur mütəffəkkiri Əl Əşhari vurub. Rəvayətə görə o, mütəzali Cubbaninin tələbəsi olub. Bir dərs zamanı müəllimini belə bir sual qarşısında qoyur:

"Üç qardaş varmış. Biri müqəddəs insan, övliya kimi yaşayıb ölür, ikincisi cani kimi ömür sürüb ölür. Üçüncüsü isə elə lap körpə yaşında vəfat edir. O dünyada bunların aqibəti necə olacaq?

Cubbani asanlıqla cavab verir: — Aydındır ki, müqəddəs cənnətə, cani cəhənnəmə gedəcək, körpə isə cənnətlə cəhənnəmin arasında qalacaq.

Onda Əl Əşari başqa bir sual verir: — Yaxşı, bəs körpə yaşında ölən Allahdan xəbər alsa ki, niyə mən elə tifil çağımda vəfat etdim, niyə imkan vermədin ki, mən də yaşayıb xeyirli işlər görüm, cavab

nə olacaq?

Cubbani arxayın gülümsünərək buna da cavab verir: Allah bilirmiş ki, bu uşaq böyüyüb pis işlər tutacaq, cani, qatil olacaq, ona görə də Əzrayıl onun canını elə körpəykən alır

Əl Əşari: —Çox əcəb — deyir — bəs onda günahkar kimi cəhənnəm odunda yanan cani çığır-bağır qaldırmazmı ki, əgər mənim qatil, cani olacağımı əvvəlcədən bilirdinsə onda niyə elə mənim də körpəlikdəcə canımı almadın?

Bu məntiqə cavab tapmayıb özünü itirən Cubbani: Sənin dediklərin şeytan əməlidir — deyir. Mükalimədə qalib çıxmış Əl Əşari isə: Gördünmü müəllim, nəzəriyyələrində belə həvəslə vəsf etdiyin əqlin məntiqli suallara cavab tapa bimir".

Ömər Xəyyamın müasiri Əl Turqai 1111-ci ildə belə bir xəbərdarlıq edir: "Ey insan! Dünyanın sirrləri qarşısında sus, çünki sükut səhvlərdən xilas olmaq deməkdir. Özünü qoru ki, günlərin bir günü elədiklərinin hamısının mənasız olduğunu anlamayasan".

Təsəvvüf nəzəriyyəçilərinin fikrinə görə sufi həyatını hər yerdə və hər vaxt yaşamaq olar. Bu həyat tərki-dünyalıq tələb etmir və dini ehkamlara riayət olunmasını qarşıya məqsəd qoymur. Bu cəhətiylə də sufizm Zen təliminə çox yaxındır. Zen də öz müridlərindən insanların arasında yaşayıb heç nəylə özünü fərqləndirməməyə çağırır. Süfinin həyatı bütün bəşəriyyətin həyatıyla həmahəngdir. Ona görə də sufizmi sırf Şərq təlimi adlandırmaq düz deyil. Sufizm fəlsəfəsinin son iki əsrin Qərb təfəkkürünə və sənətinə də güclü təsiri var.

Hələ XIII əsrdə Mövlanə Cəlaləddin Ruminin məşhur sözləri bu gün üçün necə də önəmlidir:

GƏL. YENƏ GƏL. HƏR NƏ İSƏN OYLƏCƏ YENƏ GƏL. KAFİRSƏN, ATƏŞPƏRƏSTSƏN, BÜTPƏRƏSTSƏN, YENƏ GƏL. BİZİM QAPIMIZ ÜMİDSİZLİK QAPISI DEYİL. YÜZ KƏRƏ TÖVBƏ ETMİSƏNSƏ. YUZ KƏRƏ DƏ TÖVBƏNİ POZMUSANSA YENƏ GƏL…

Sufizmin yayılmasında İslamın ən böyük xidməti dözümsüzlüyə qarşı çıxmasıdır. Başqa dinlərin və uyqarlıqların (sivilizasiyaların) üzvülüyünü qəbul etməsidir. Sufilər dinlərin müxtəlifliyini əsas saymırlar. Onlara görə dinin yeganə məqsədi Haqqa çatmaqdır — "Nə qədər insan varsa, Haqqa da o qədər yol var" deyərək başqa inanclara böyük hörmətlə yanaşırlar.

Gerçəkdən də başqa dinlərdən fərqli olaraq İslam iddia edir ki, həqiqət — öz inkişafında muəyyən mərhələyə çatmış hər bir insana açıla bilər.

Cəlaləddin Rumi yazırdı:

"Mən xaçı gördüm və xaçpərəstlərin araşında oldum. O, (Həqq nəzərdə tutulur — tərcüməçi) çarmıxda yox idi. Mən induistlərin və buddaçıların məbədlərində oldum, ordada ONUN izini bulmadım. Herata və Qəndəhərə çatdım. Axtardım. Nə yuxarıda, nə aşağıda O, yox idi. Qaf dağına qədər getdim. Orda yalnız Ənqa quşunu gördüm. Kəbəyə getdim, orda da yox idi. ONUN barəsində İbn Sinadan xəbər aldım, amma O, İbn Sina fəlsəfəsindən də yüksəkdə idi. O zaman qəlbimin içinə baxdım. ONU orda gördüm. O, başqa heç yerdə yox idi"

Təsəvvüfün bu dini dözümlülüyü İslamın bəzi ifrat cərəyanlarını bu dinin mahiyyətindən doğulduğunu iddia edənlərə ən tutarlı cavabdır. XIX əsrdə İranda olmuş bir avropalı qeyd edir ki, bu ölkəyə gələn xaçpərəst özüylə qab-qacaq gətirməlidir, çünki heç bir yerli sakin ona öz qab-qacağını verib murdar etmək istəməyəcək. Bu avropalı hətta İranın o vaxtkı xarici işlər naziri Mirzə Seyyid xan haqqında yazır — bu adam avropalıya nəzər saldıqdan sonra gedib gözlərini yuyur ki, murdar olmasın.

İslam heç də yeni din olduğunu iddia etmir, o yalnız böyük dinlər zəncirinin son həlqəsi olduğunu bildirir. Məhəmmədi son peyğəbmər hesab edən İslam — artıq yeni böyük bir dinin yaranmayacağını da irəli sürürdü və İslamın yaranmasından sonra keçən əsrlər bu fikrin tam doğru olduğunu sübut etdi. Çağdaş dünyada Zərdüşt, Budda, Musa, İsa, Məhəmməd səviyyəsində yeni bir dinin əsasını qoyacaq peyğəmbəri təsəvvür etmək qeyri-mümkündür.

İddia edilir ki, süfizm, (belə adlanmasa da) — düşüncə tərzi kimi İslamdan hələ çox qabaqlar da mövcud imiş. Süfizm dünyagörüşündə İnsanın təkamülü dörd mərhələdən keçir — Şəriət, Təriqət, Mərifət, Həqiqət…

Sufizm düşüncəsini və həyat tərzini qəbul edən çağdaş insanlar üçün Freydin və Yunqun psixoloji təcrubəsində heç bir yenilik yoxdur. Əl Qəzalinin 900 il bundan qabaq yazdığı "Səadətin əlkimyası" risaləsində cinsi həyat haqqında dedikləri sübut edir ki, Freydin bu sahədə çox sonralar gəldiyi nəticələrə müsəlman mütəfəkkirləri yaxşı bələd imişlər.

Sufizmin çağdaş tədqiqatçısı Avropa alimi Karl. V.Ernest Orta əsr təsəvvüf mütəfəkkirlərinin mətnlərinə əsaslanaraq Sufizmin tərifini belə verir:

Sufizm nümunəvi davranışın qapısı və layəqətsiz rəftara nifrətdir.

Sufizmə görə Allah sizi özünüzçün ölməyə çağırır ki, onun içində yaşayasınız.

Sufizm vəhdətdir, onu heç nə dəyişə bilməz və o, heç nəyi dəyişə bilməz.

Sufinin nişanəsi odur ki, o varlı ola-ola özünü kasıb, hakimiyyəti ola-ola özünü müti, şöhrəti ola-ola özünü adsız-sansız sayır.

Sufizm o deməkdir ki, sənin heç nəyin yoxdur və sən heç kəsin, heç nəyin deyilsən.

Sufizm o deməkdir ki, qəlbini Allaha tapşırmaq bütün başqa əməllərdən üstündür.

Sufizm mənəvi dəyərləri mənimsəyir və maddi dəyərlərə biganədir.

Sufizm — əgər Haqq onu qovsa belə, Haqqın qarşısında diz çökməkdir.

Sufizm elə bir haldır ki, bütün insana xas durumlar yox olur.

Sufizm göz qamaşdıran şimşəkdir.

Süfizmin əsas tələblərindən biri budur ki, onun fəlsəfəsinə tapınan insan zahirən başqalarından heç nəylə seçilməməlidir. *(Bu da Zen fəlsəfəsinə yaxındır — A)*. Onun əsas məqsədi daxili kamilləşmədir. Amma başqalarının bundan xəbəri olmamalıdır. Onun qəlbindəkilərin hamısı sirrdir və bu sirrlər tək bir Allaha bəllidir. Zahirdə isə başqaları, hətta onu günahkar sayırsa, ona nifrət bəsləyir və təhqir edirlərsə, buna sevinməlidir. Çünki bu doğru yolla getdiyinin göstəricisidir. Axı tarix boyu bütün peyğəmbərlər və müqəddəslər də hər cür təqiblərə və təhqirlərə məruz qalıblar.

Bəzi sufi mütəfəkkir və şairlərdən etdiyim çevirmələr Qoldsiqerin "Leksii ob İslame", Y.Bertelsin "Sufizm i sufiyskaya literatura", İdris Şahın "Sufizm", Karl V.Ernestin "Sufizm" kitablarında dərc edilmiş mətnlərdən götürülmüşdür:

Mənasız işlərlə məşğul olan bəşəriyyət qəflət yuxusundadır, başqa bir aləmdə yaşayır. Bundan qurtulmağa inam — ancaq vərdişdir, din deyil. Belə "din" ağılsızdır. Yol Adamlarının *("yol adamları" deyəndə sufilər nəzərdə tutulur — tərcüməçi)* qarşısında boş-boş danışmaqdan əl çəkin, ondansa özünüzə qalib gəlin. Əgər siz

gerçəklik önündə tərs, kəlləmayallaq dayanmışsınızsa, sizin biliklərniz və dininiz ifrata varıb. İnsan özü özünü toruna salır. Yol Adamı bu torları qırıb çıxır.

SƏNAİ. 1131-Cİ İLDƏ YAZDIĞI "DIVARLA ƏHATƏ OLUNMUŞ HƏQIQƏT BAĞI" KITABINDAN

Kənd küçəsində dörd nəfər görüşür: fars, türk, ərəb və yunan. Bir yerdə səfər ediblər, indi o dördünün bir yerdə bir manatı qalıb. Bilmirlər onu nəyə xərcləsinlər, Fars: — Mən ənqur almaq istərdim —deyir. Türk: — Mən üzüm almaq istərdim. Ərəb: — Mən — innab —deyir. Yünan: — Yox, biz stafil alacayıq — deyir. Çox dil bilən birisi yanlarından keçərkən bu söhbəti eşidir. O — pulu mənə verin — deyir. mən hamının istəyini yerinə yetirəcəm. Əvvəl ona inanmırlar, amma sonra bir manatı verirlər. Adam gedib dükandan dörd salxım üzüm alıb gətirir. Fars: — mənim istədiyim ənqur — deyir. Türk: — bü mənim istədiyim üzümdür. Ərəb: — sağ olsun, mənə innab gətirib — deyir, Yunan söhbətə qarışır: — mənim dilimdə bu stafil adlanır.

Hamısı razı qalır və anlayırlar ki, eyni bir şeyi istəyirmişlər, ancaq dil fərqləri bir-birini anlamağa imkan verməyib. Mətnə görə bir-birini anlamayan səyyahlar adi adamlardır, onların məsələsini həll edən isə Sufidir.

Başqa bir mətn belədir:

Nəsrəddin padşahın hüzurunda olarkən hökmdar gileylənir ki, təbəələrinin hamısı yalançıdır. Nəsrəddin: — Qibleyi-aləm, həqiqət müxtəlif cür olur — deyir. Bununla razılaşmayan şah qərar verir: — Mən məcbur edəcəm ki, insanlar yalan danışmasın. Qoy düz danışmağa vərdiş eləsinlər. Səhərisi gün carçı elan edir ki, şəhərə girən hər kəs zabitin sualına doğru cavab verməlidir. Nəsrəddin kənardan şəhərə girərkən zabit ondan soruşur: Hara gedirsən? Düzünü de, yoxsa səni asacaqlar.

Nəsrəddin: — Mən gedirəm ki, məni bax o dar ağacından assınlar.

Zabit: — Mən sənə inanmıram — deyir. Nəsrəddin: — Çox gözəl — deyə cavab verir. — Əgər yalan demişəmsə məni asmalısan.

Zabit: — Onda belə çıxacaq ki, sən düz deyirsənmiş — deyir.

Nəsrəddin cavab verir: — Bəli, sizin həqiqətiniz bax budur.

Bu lətifədə sufi alimləri Həqiqət anlayışının şərtiliyini görürlər. Həqiqət saydığımız çox vaxt şəraitdən, situasiyadan asılıdır.

Əttaf haqqında

Böyük sufi şairi Firudiddin Əttarın süfizmə tapınması tarixçəsi də çox maraqlıdır, Dövlət Şah "Şairlərin qısa tərcümeyi-halı" adlı klasskik əsərində Əttara aid əhvalatı real hadisə kimi deyil, alqoriya, məcaz kimi şərh edir. Əttar ləğəbiylə *(ətriyyat, dərman satan anlamında, bəzən kimyaçı kimi də tərcümə edilir — tərcüməçi)* tanınan bu məşhur İran şairi bir gün öz dükanında əyləşib alver edirmiş.

Birdən dükanın qarşısında bir sufi dərviş peyda olur və yaş dolu gözlərlə Əttarı süzməyə başlayır. Əttar onu qovur. Dərviş: — Bu köynəkdən başqa mənim heç nəyim yoxdur, —deyir — getməyim də asandır. Amma sən bu var-dövlətdən necə ayrılacaqsan? Məni qovmaqdansa yola hazırlaş *(Axirət dunyasına yol nəzərdə tutulur — tərcüməçi).*

Əttar onu təkrar qovanda dərviş: Mən istəsəm nəinki burdan, bu dünyadan da gedə bilərəm— deyir. Əttar rişxəndlə: — Necə? — deyə soruşur. Dərviş: — bax belə — deyə dükanın qarşısında uzanır və … ölür.

Əttar bu hadisədən o qədər sarsılır ki, dükanını da, işini-peşəsini də atıb sufi icmasına qoşulur.

"Əlində şam tutmuş uşaqdan soruşdum: — Bu işıq hardandır?

Uşaq dərhal şamı üfürüb söndürdü, sonra mənə cavab verdi: Sən de görüm bu işıq harda yox oldu, onda mən də sənə deyərəm ki, o hardan idi".

Bəsrəli Həsən

ƏL QƏZALİ
(1058-1111)

İran filosofu, sufizmin nəzəriyyəçisi

"İNAM ELMİNİN DİRÇƏLİŞİ " kitabından:

Bilik — bilik sahibinin doğru hərəkət etməsini təmin edən vasitədir. Şübhə həqiqət yoludur: şübhə etməyən — görmür, görməyən —anlamır, anlamayan kor olur və hər zaman yanılır.

Bu elmin sirrləri kitabın səhifələrində ifadə oluna bilməz, çünki bilginlər deyib: İlahi hökmünün sirrlərini açmaq — inamsızlıqdır, bidətdir.

Ona görə də sirr — varlıqdır, varlığın surətidir, varlıqda mövcud olandır. Amma əgər varlıqda nə isə başqa bir şey də mövcuddursa, onda sanki varlığın özü də yoxdur. O, yalnız içində mövcud olan üçün var. Buna misal — parıldayan güzgüdür. Axı güzgünün də rəngi yoxdur, onun rəngi onda əks olunanın rəngidir. Şüşə qab də eləcə: o içindəkinin rəngini əks etdirir, onun rəngi içinə dolanın rəngidir. Özünün surəti yoxdur, onun surəti müxtəlif şəkilləri və rəngləri qəbul etməsidir. Şair demişkən

Qədəh də gözəldir, şərab da gözəl
Biri o birinə elə qovuşub
Sanki şərab qədəhsiz də qırmızı
Qədəh şərabsız da al qırmızıdır.

Əgər bir insan ömründə qadın görməyib və qadınla cinsi əlaqənin nə olduğunu bilmirsə şəhvani yuxu görən zaman ehtiras odu duyacaq, amma bilməcək ki, bu cinsi əlaqə istəyidir və bu alovu söndürə biləcək qadın haqqında da təsəvvürü olmayacaq. Bax eynən bu sayaq insan qəlbində Axirət dünyasına, onun ləzzətlərinə həvəs var. Bu ləzzət cənnət bağları haqda ona verilən vədlərdir. Amma bu vədlərdən onun təsəvvüründə canlana bilənlər yalnız adlar və sözlərdir. Necə ki, bayaqkı örnəkdə qadından və cinsi əlaqədən bixəbər insançün bunlar yalnız söz, anlayışdır. Odur ki, sözlər onu qüssələndirir, amma cəhaləti və bu dünyaya uymağı ucbatından nə üçün qüssələndiyini dərk edə bilmir. Suda boğulan və nə yolla xilas olacağını bilməyən adam kimi o da, çaş-baş qalır, özünü itirir, həyəcanlanır. Belə halların tam həqiqətini anlamaq, illah da onları

təsvir etmək mümkün deyil. Vəcdin, ekstazın ifadə oluna bilən və ifadə oluna bilməyən tərəfləri var.

Allah bilgilərin hamısına vaqifdir və dünyada baş verənlərin hamısından agahdır — torpaqdan göylərin ən uca nöqtəsinəcən hər şeydən xəbərdardır. Yerdə ya göydə bir zərrə toz da onun diqqətindən yayınmır. O, gecə vaxtı qaya üstündə qarışqanın hərəkətini də görür, havanın ən xəfif ehtizazını, tərpənişini də duyur. O, ən pünhan, ən gizli şeyləri bilir. İnsan qəlbinin ən dəruni güşələrini, özü özündən gizlətdiyi düşüncələri belə izləyir. Hər şeydən əvvəl onu bilməliyik ki, Allah özü haqqında da, öz böyüklüyü haqqında da hər şeyi bilir. Bu da qəribə deyil, çünki mələklər haqqında həqiqəti mələklər bilir. Peyğəmbərlər haqqında həqiqəti Peyğəmbər bilir. Alimlər haqqında həqiqəti alimlər bilir. Hətta qarışqalar və milçəklər də özləri haqqında hər şeyi özləri bilir. Amma insanın özü haqqında həqiqi bilgisi yoxdur. Biz özümüzə yalnız dolayı yolla, əməllərimizə, qəlbimizdəkilərə verilən qiymət vasitəsilə bələd oluruq, amma bu hələ öz mahiyyətimizi dərk etmək deyil. İnsan yalnız Allahın mahiyyətinin böyüklüyünü heç vaxt dərk edə bilməyəcəyini anlayan zaman kamilliyə çatır. Onun əsas məqsədi də elə budur.

İBN HƏZM
(XI əsr ərəb mütəfəkkiri)

"GÖYƏRÇİN HƏMAYİLİ"

(İbn Həzm İspaniyanın fəthindən sonra 994-cü ildə Kordova şəhərində anadan olmuşdur.)

Məhəbbət — əvvəl-əvvəl zarafatdır, amma sonucda çox ciddi işdir. Onun cəhətləri o qədər incə və lətifdir ki, əsl mahiyyətini təsvir etmək çətindir. Din də məhəbbəti inkar etmir, çünki qəlblər qadir, böyük Allahın əlindədir və bir çox mömin xəlifələr və imamlar da seviblər.

İnsanlar məhəbbətin məğzi haqqında çox mübahisə edir, uzun-uzun danışırlar. Mənim fikrim belədir ki, sevgiyə səbəb — burdakı varlıqda bir-birindən ayrılmış qəlblərin yüksək aləmdə bir-birinə qovuşmasıdır.

O ki, qaldı eşqin çox vaxt zahiri gözəllikdən pərvəriş tapmasına, bu da təbiidir — qəlb həmişə gözəlliyə can atır və kamil surətlərə aludə olur. Gözəlliklə rastlaşanda qəlb ona diqqət verməyə başlayır, özünə yaxın cəhətləri görəndə qovuşmaq istəyi oyanır və həqiqi məhəbbət yaranır. Amma əgər qəlb bu gözəlliyin arxasında özünə məhrəm, yaxın olan heç bir şey duymursa zahiri görünüşə heyranlıq sevgiyə çevrilmir, eləcə ehtiras olaraq qalır.

Məhəbbət insanı əldən salan xəstəlikdir, amma onun dərmanı, əlacı da elə özündədir. Bu şirin xəstəlikdir, arzu olunan azardır, xəstə bu xəstəlikdən sağalmaq, əzab çəkən əzablardan qurtulmaq istəmir.

Səmimi sevən insan yemək yeyərkən birdən sevgilisini xatırlayırsa tikə boğazında qalır. Eləcə də şən söhbət edən aşiq qəflətən sevgilisini yada salıb birdən-birə dalğınlaşır, tutulur, susur.

Yuxusuzluq aşiqlərə xas olan mərəzdir və təsadüfi deyil ki, şairlər aşıq-məşuqları ulduzların çobanı adlandırır.

Mən ulduzları otarıram — hərəkətsiz ulduzları da, axan ulduzları da…

Sanki bu ulduzlar və bu gecə — ehtirasın özüdür — zülmət içində birdən-birə mənim qəlbimdə alışıb yanırlar.

Göz yaşları da eşqin əlamətlərindəndir. Amma insanlar fərqli

olduğu kimi, onların ağlamaqları da bir-birinə oxşamır. Gözündən sel kimi yaş axan adamlar da var, amma göz yaşı qurumuş insanlara da rast gəlirsən. Elə bil baxışları donub qalıb. Mən məhz belələrindən biriyəm. Ağır dərdlərə düçar olanda hiss edirəm ki, sanki ürəyim partlayır, dilim söz tutmur, nəfəsim kəsilir, boğuluram, amma baxışlarım donub qalıb — nadir halda bir gilə yaş axır gözlərimdən.

Məhəbbət macəralarında gözün, baxışın mühüm yeri var. Gözlərin min oyunundan yalnız bir neçəsini təsvir edəcəm: bir gözün qıyılması nəyisə qadağan etməkdir, kirpiklərini qapamaq — razılıq deməkdir, üzün uzadı baxmaq həsrət və intizar, yerə baxmaq sevinc əlamətidir. Göz bəbəyinin yuxarı qalxması təhlükədən xəbər verir, bəbəklərin bir tərəfə əyilməsi və tələsik geri dönməsi kimisə nişan verm ədir. Gözlərin başqa oyunlarını yalnız görməklə dərk etmək olar.

Göz qasidi əvəz edir və baxışlarla çox şeyə nail olmaq mümkündür. Göz qəlbin qapısıdır — dörd hissdən göz ən itisi və düzüdür. Göz — qəlbin kəşfiyyatçısı və bələdçisidir, düz yola çıxaran qlavuzdur. Göz həm də qəlbin aynasadır. Göz mahiyyəti etibarilə elə güzgüdür, o göylərə ucala bilir, məsafələri qət etdiyinə görə deyil, məsafələri əhatə edə bildiyinə görə. Duyğuların heç biri buna qadir deyil.

Qışqıran adamı əvvəl görürsən, sonra eşidirsən, halbuki bu eyni zamanda baş verir. Deməli göz hər şeyi qulaqdan daha tez qavrayır.

Aşiq olanların məktublaşmaları da təbiidir. Bir aşiq tanıyırdım, məhəbbət məktubları yazanda mürəkkəbə göz yaşlarını damızdırırdı, amma bunun müqabilində məşuqəsi mürəkkəbi tüpürcəkləriylə qarışdırırdı.

Bir aşiq də iddia edirdi ki, bıçaqla əlini kəsib, məktubu qanıyla yazıb. Mən bu məktubu quruyandan sonra gördüm və əmin oldum ki, o qanla deyil, qırmızı lakla yazılıb.

Sevişən zaman ən ilginc məsələlərdən biri bir sevənin o birinə tam tabe olmasıdır. Öz xislətini zorlamaq bahasına belə sevgilisinin bütün istəklərinə ram olur. Kobud adam — mülayim, həlim insan —sərt, iradəli — iradəsiz, iradəsiz iradəli, ağır adam —yüngülməcaz, küt — zəkalı, zəkalı — küt olur.

Bəzən sevgili məhəbbət gileylərindən xoşlanmır, o zaman aşiq dərdi-qəmini içinə salır, birüzə vermir. Aşiqi yalançı da ola bilir. Sevgilisi onu etmədiyi şeylərdə suçlarkən olmayan günahlarını

boynuna alır, təki sevgilisinin sözlərinə zidd çıxmasın.

Onun gözəlliyi sanki onu görənlərin ah-naləsindən yaranıb.

Hər bir dinin öz keyfiyyəti var, İslamın keyfiyyəti — utancaqlıqdır.

Boylu olan ərəb qadınından soruşurlar: qarnının içində nə var? Cavab verir: döşəyin, balışın yaxınlığı və zülmət…

Məhəbbətdən böyük bəla varmı? Ölümdən güclüdür o, çünki onun ucbatından ölüm arzulayırsan.

Dostlarımdan birini sevgilisi bıçaqla yaralamışdı. Dostum yara yerini öpür və ağlayırdı.

Başqa birisini də görmüşdüm. Sevgilisinə deyirdi: Mənə söz ver və aldat! — O yalnız vəddən təsəlli tapırdı, əməl olunmayacaq vəddən.

Mən istərdim ki, ürəyimi bıçaqla yarsınlar, səni ora qoysunlar və köksümü bağlasınlar, həmişəliik orda qalasan, nə qədər mən sağam içimdə yaşayasan, ölərkən də meyitimlə bir yerdə qəbrimin qaranlığına qərq olasan.

Bir qadın haqqında eşitmişdim: əriylə xoşbəxt həyat sürürkən, birdən başına müsibət gəlir. Əri ölür. Dərddən özünə yer tapmayan arvadı neçə gecə ərinin meyiti ilə bir yorğan-döşəkdə yatır. Ölənə qədər də bu itkinin dərdiylə qovrulur.

Ölümdən betər ayrılıq da var. Bəzən ayrılığın səbəbi bir-birindən bezmək, doymaqdır. Haçansa hər şeydən bezmək, doymaq insan təbiətinə əzəldən xas olan cəhətdir. Ayrılığın başqa bir səbəbi bir-birindən soyumaq, başqasına meyl etməkdir. Bir para ayrılıqların səbəbi isə nifrət, ikrah, qisas hissləridir.

Ayrılıq müvəqqəti də ola bilər.

Dava-dalaşla ayrılmaqdan pis nə var? Amma ayrılığın xofu birdən-birə dalaşanları ayıldır və onlar dərk edirlər ki, bütün qarşılıqlı iradlar boş şeymiş, davadan sonra barışın ayrı ləzzəti varmış.

Yaxınlıqdan sonra ayrılıq — dəhşətdir, ayrılıqdan sonra yaxınlıq —səadətdir.

Ayrılıq — Ölümün bacısıdır — deyirlər. Yox, Ölüm — Ayrılığın bacısıdır.

Birini tanıyırdım, sevgilisiylə vidalaşmağa gəlmişdi, amma gördü ki, o çıxıb gedib. Bir müddət sevgilisinin izi qalmış yerdə dayandı, sonra getdi, yenə qayıtdı, qəm dəryasına batmış, sifəti dəyişmişdi.

Cəmisi bir neçə gün keçdi, xəstələndi və öldü —Allah rəhmət eləsin!

Ayrılıqların ən acısı ölüm ayrılığıdır, bu artıq son ayrılıqdır, dəyişməz, yenidən görüşüləcəyinə ümid olmayan ayrılıqdır. Hər bir ayrılıq zamanı düşünürsən ki, bu hələ son deyil, ümidini itirmə, gedən ölməyibsə qayıda bilər. Amma ölüm — hər şeyin sonu, hər görüş, hər barış ümidinin axırıdır. Mən də bu acını duymuş insanlardan biriyəm. Biz bir-birimizi eyni atəşlə sevirdik. Amma tale mənə də aman vermədi, günlərin-gecələrin axarı onu məndən aldı — torpaqla qəbir daşı arasında Üçüncü oldu. Onu itirdiyim vaxt iyirmi yaşındaydım, o məndən də gənc idi, bakirəliyini mənə bəxş etmişdi. Ondan sonra həyatım heç zaman mənə xoş olmadı, onu unuda bilmədim, başqa qadınla yaxın ola bilmədim. Onun eşqi ona qədər olanların hamısını silib apardı, ondan sonra olacaqların hamısını yasaqladı. Yalnız xatirələr torpağa kömülmüş ehtirası oyadır, keçmişləri yaddaşa qaytarır, əski eşq günlərinə, solmuş əfsanələrə, itmiş illərə qayıdıram.

İndi mənə deyirlər — o, uzaqlardadır. Cavab verirəm — yetər ki, onunla eyni Vaxtda yaşamışıq. Bizim vərdiş etdiyimiz Vaxt, Zaman — saatlar keçməsinin, gecə-gündüz dəyişməsinin, fəsillərin başqalaşmasının şərti adlarıdır. Həqiqi vaxt isə bütün bunların fövqündədir və sevgilim bu əbədi vaxtın içində daima baqidir.

Buddizmin bir təriqəti kimi Hindistanda yaranmış Zen oradan Çinə, Çindən Yaponiyaya keçərək bu ölkələrin dini əqidələrinin, mənəviyyatının və mədəniyyətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. X1X əsrin sonu XX əsrdə Zen fəlsəfəsi Qərb təfəkkür tərzinə, ABŞ və Avropa ədəbyyatına, incəsənətinə də güclü təsir göstərmişdir. Zen fəlsəfəsinin çağdaş dövrdə ən mötəbər araşdırıcısı D.Sudzuki iddia edir ki, Zen bizə əqli təhlil baxımından heç bir şey öyrətmir və rəftarımızda hər hansı təlimi təlqin etmir, odur ki, Zeni qəbul edənlər düşüncələrində, davranışlarında tam sərbəstdirlər. Zenin heç bir müqəddəs kitabı və doqmatları, simvolları da yoxdur. Zen yalnız yol göstərir. O buddizmlə qohumdur, amma buddizmin mətnlərdə ifadə olunmuş ehkamlarını puç sayır. Zen — nihilizm də deyil.

Zeni digər buddist fəlsəfi məktəblərindən fərqləndirən üç cəhət var: 1.Zen ənənəsi şifahi şəkildə müəllimdən şagirdə ötürülür. 2.Zen təlimin yazılı qaynaqlarını rədd edir. 3.Zen bir başa şəxsi mənimsəmə metodunu tətbiq edir.

Zen dindirmi? Sözün geniş anlamında Zen din deyil və Allahı, yaxud Allahları, bütləri də yoxdur. Amma bu o demək deyil ki, Zen Allahı inkar edir. Zen düşüncəsinə görə insanların bərabərliyi hər şeyə aiddir — istedadlıyla istedadsız, güclüylə gücsüz, varlıyla kasıb bərabərdilər. Zen mətnlərinin birində deyilir ki, dünyada ən qiymətli şey ölü it leşi sayıla bilər, çünki onun qiymətini müəyyənləşdirmək qeyri-mümkündür. Başqa bir mətndə İmperatorun qonşu dövlətin başçısına at bağışlamasından söhbət gedir. Qoca mehtəri çağırırlar ki, tövlədən ən yaxşı atı seçsin. Qoca mehtər deyir ki, mən qocalmışam, amma çox zəkalı bir şagirdim var, ona tapşır, atı o seçsin. Şagirdi imperatorun hüzuruna gəlib: — o qara köhləni seçdim — deyir. Atı gətirirlər məlum olur ki, bu ağ madyandır. İmperator qəzəblənir (Lap bizim "KOROĞLU" dastanında Alı kişinin əhvalatı yada düşür) İmperator qoca mehtərə: Sənin tərifli şagirdin budur? — deyir — atın cinsini tanımır, rəngini ayıra bilmir? Qoca mehtər: — Mən bilirdim ki, o mahir at tanıyan olacaq, amma bu qədər mahir olacağını təsəvvür eləmirdim. Çünki o zahiri əlamətlərə məhəl qoymadan məğzi, mahiyyəti görür. Seçdiyi at çaparkən iz qoymur, ayağının altından toz qalxmır, sanki uçur. Əsas da budur, qalan

əlamətlərin — rəngin, cinsin bir elə önəmi yoxdur.

Gələcək xoşbəxtlik naminə indi yaşayan insanların əzab çəkməsi fikri Zen əxlaqına kökündən ziddir, Zen düşüncəsinə görə insan etdiyi yaxşılığın əvəzini güdməməlidir. Yəni Zen düşüncəsi — bizim "Balığı at dəryaya, BALIQ BİLMƏSƏ DƏ XALIQ BİLƏR" fikrindən üstündür. Çünki gördüyümüz işin Xalıq tərəfindən qiymətləndirilməsi fikri yenə də hərəkətimizin təmannalı oldüğünü göstərir. Zen təfəkküründə isə edilən yaxşılıqların əvəzinin Xalıq tərəfindən belə veriləcəyi təmənnası yoxdur.

Biz "Tək əldən səs çıxmaz" — deyirik, Zen bu məsələyə də başqa cür yanaşır: "Cüt əlin alqışlarını hamı eşidir, tək əlin alqışını kim eşidər?"

Müxtəlif Zen mətnlərindən çevirdiyim parçaları DAYETSU SUDZUKİNİN "Zen-buddizm" və VON KYU-KİM-in Ensiklopediya dzen" kitablarından götürmüşəm.

Lyan sülaləsinin banisi Çin imperatoru U-di Zen vaizindən xəbər alır:

Mən hakimiyyətə gələndən sonra o qədər məbəd tikmişəm, o qədər müqəddəs kitabın üzünü köçürtdürmüşəm ki, saymaqla qurtarmaq olmaz. Mənim xidmətlərimi necə qiymətləndirərsən? Vaiz:

— Heç bir xidmətin yoxdur — deyir.

—Niyə?

—Bunlar hamısı xırda işlərdir və dünyaya yenidən gəlişində bu xeyirxah işlər üçün səmalarda doğulacaqsan. Ona görə də sənin gördüyün işlər təmənnasız deyil. Bədəndən düşən kölgə kimi bunlar da hər an yoxa çıxa bilər

İmperator:

—Bəs onda əsl qiymətə layiq olan nədir? — deyə soruşur. — Təmizliyə və müdrikliyə o zaman malik olursan ki, sonuncu nurlanma zamanı cismin və mənin boş və rahatdır. Amma fani dünyada bu xidmətlərə nail olmaq mümkün deyil. — Müqəddəsliyin əsas amili nədir?

— Ancaq boşluq var, heç bir müqəddəslik yoxdur.

İmperator: —Bəs onda mənim qarşımda duran kimdir? — deyə soruşanda vaiz:

— Bunu mən də bilmirəm — deyir.

QƏDİM ÇİN FƏLSƏFİ MƏTNLƏRİNDƏN

DAO təliminin əsasını qoyan Lao Szı sayılır. Bu filosofun adı çincədən "Qoca ustad (yaxud "Qoca filosof" kimi çevrilir, odur ki, Lao Szı onun adı yox, rəsmi titulu hesab edilə bilər. Güman olunur ki, o, məşhur Konfutsinin yaşlı müasiridir, amma daha əvvəllər yaşadığı da fərz edilir. Onun yaratdığı Dao təlimində Dao — Yol anlamına gəlir. Yəni təbiət qanunlarını dərk etmək, onun qanunauyğunluqlarını anlamaq yolu. Dao təliminin varlıq fəlsəfəsində iki qüvvə var — İN və YAN. İn qara rəngi, Yan — ağ rəngi təcəssüm etidirir. İN qadın, YAN kişi başlanğıcıdır. İN və YAN vəhdət təşkil edir, biri olmadan o biri mümkün deyil. Onlar bir-birinə qovuşur, bir-birinə keçir. İN-də kişi əlamətləri, YAN-da qadın əlamətləri var. Əgər Zərdüşt dinində Hörmüz və Əhriman bir-birinə düşmən olan iki zidd qüvvədirsə, DAO fəlsəfəsində bu Xeyir-Şər dualizmi yoxdur. Bu təlimə görə varlığın iki müxtəlif cəhəti — Dağın günəşli və kölgəli tərəfləri, yer və göy, qadın və kişi başlanğıcı bir-birinə qarşı durmur, bir-birini tamamlayır.

DAO MƏTNLƏRİNDƏN TƏRCÜMƏLƏR

Əgər kiminsə istedadını öyməsələr insanlar arasında rəqabət olmaz. Əgər nadir əşyaları yüksək qiymətləndirməsələr oğurluq olmaz, əgər insanlar ehtiras oyadan şeyləri görməzsə ürəkləri titrəməz, həyəcanlanmaz. Odur ki, dövləti müdrik şəxs idarə edərsə o, insanların qəlbini boşaldıb qarnını doydurmalıdır, iradələrini zəiflədib sümüklərini möhkəmləndirməlidir. O, daima can atmalıdır ki, xalqın nə biliyi olsun, nə istəyi. Bilgililər də hərəkət edə bilməsin. O, bilimsizliyə arxalanır və hər şeyi idarə edir.

Qədimlərdə Yolla *(Həqiqət yolu nəzərdə tutulur*) gedə bilənlər, xalqı maarifləndirmirdilər, əksinə onu cəhalətdə saxlamağa çalışırdılar. Xalq çox şey biləndə onu idarə etmək çətindir. Odur ki, dövləti idarə edərkən maarifə arxalanan hökmdar öz dövlətinə zərər vurur. Bunun əksini edənsə dövlətinə xeyir gətirir. Belə hökmdar hamıya örnək ola bilər…

Bir dəfə Çjuan Çjou yuxusunda görür ki, kəpənək olub. O şən-şən qanad çalırdı, sevincək, xoşbəxt idi və bilmirdi ki, Çjoudur. Yuxudan

oyananda isə təəccüb qaldı ki, o, Çjoudur. Və artıq bilmirdi — Çjoumu yuxusunda görmüşdü kəpənək olduğunu, , ya kəpənəkmi yuxusunda görmüşdü ki, Çjoudur. Axı Çjou və kəpənək ayrı-ayrı məxluqlardır. Ya bəlkə bu — elə dəyişmədir.

(Bu parçayla tanış olarkən Frans Kafkanın "Dəyişmə" hekayəsini necə xatırlamayasan? Yəni bu mövzu — bir məxluqun başqasına ya başqasının bir ünsürünə çevrilməsi müxtəlif — alleqorik, satirik, sürrealist təfsirdə dünya ədəbiyyatının bir çox nümunələrində — Qoqolun "Burun"undan İoneskonun "Kərkədan"ına qədər öz əksini tapıb — tərcüməçinin qeydi).

Tilov ona görə lazımdır ki, balıq tutasan, Balığı tutandan sonra tilovu unudurlar. Tələ ona görə lazımdır ki, dovşanı tutasan, dovşanı tutanlan sonra tələni unudurlar. Sözlər ona görə lazımdır ki, fikri tutasan. Fikri tutandan sonra sözləri unudurlar. Sözləri unudan adamı haradan tapım ki, onunla söhbət eləyim?

Çjou Szı ölüm ayağında idi. Tələbələri ona təntənəli dəfn mərasimi keçirmək istəyirdilər.

Çjou: — Bu nəyə gərəkdir —dedi — Tabutum — torpaq, türbəm — səma olacaq, bütün canlılar isə mənim matəm mərasimimdə iştirak edəcək. Məgər dəfnimə hər şey hazır deyilmi?

Tələbələri dedi:

—Qorxuruq ki, qarğa-quzğun meyitinizi didsin.

Çjou cavab verdi:

—Yer üzündə qarğa-quzğun didəcək, yerin altında qarışqalar, cücülər daraşacaq. Məni birilərindən alıb o birilərə verməyə nə hacət?

SEY SONAQON
(XI əsr yapon qadın yazıçısı)

BALIŞ YANINDAN QEYDLƏR

(Əsərin rusca adı — "Zapiski u izqolovya" —"Baş tərəfdən qeydlər" kimi də çevrilə bilər)

Yazda ən gözəl vaxt — şəfəq çağıdır.

Dağların ağaran zirvələri yavaş-yavaş aşkarlanan saatda zərif bənövşəyi buludların göy üzündə süzməsi nə gözəldir.

Yayda ən gözəl vaxt — gecədir. Aylı gecənin nə qədər gözəl olmasını hamı bilir. Amma orda-burda uçuşan işıldaquşlarla aysız gecələr də gözəldir. Hətta çiskin yağış yağırsa belə gözəldir.

Payızda — alatoranlıq vaxtı gözəldir. Axşam günəşinin parlaq şüaları dağlara düşəndə, quşlar yuvalarına iki-bir üç-bir uçanda, onların uçuşunda xüsusi gözəllik var. Ondan da gözəl durna qatarıdır, göydə durnalar olduqlarından çox kiçik görünür.

Günəş qürub edən vaxt açı küləyin uğultusu, cırcıramaların səsi nə qədər qüssəvericidir.

Qışda — səhərin erkən çağı gözəldir. Yeri örtən qarın gözəlliyini təsvir etmək mümkün deyil. Ağappaq qar yağanda, qırov düşəndə, çox soyuq havada, ayazda odun qalayıb ocaq başında oturmaq, heç yerə getməmək nə gözəldir. Gündüz hava isinir və ocağın küllərinə baxmaq insanı kədərli fikirlərə qərq edir.

İNSANI HƏYƏCANLANDIRAN NƏDİR?

Sərçənin öz balalarına yem verməyinə baxmaq, oynayan uşaqların yanından keçmək, tək başına uzanıb sandal çubuqlarının rayihəsini duymaq, Çindən gətirdiyin güzgünün azacıq tutulduğunu görmək, tanış cəngavərin yanınıza gəlmək üçün izn istəməsini eşitmək, saçlarını yuyub, üzünə pudra çəkib, təzə paltar geymək və paltardan gələn ətir qoxusunu hiss etmək. Bütün bunlar çox gözəldir. Bu an sizi görə biləcək heç bir kəs olmasa da…

Gecə heç kəsi gözləmədiyin vaxt yağış damlalarının və küləyin səsindən diksinmək…

XATİRƏ KİMİ ƏZİZ OLAN NƏDİR?

Əməgöməcinin qurumuş çiçəkləri… oyuncaq qab-qacaq… Yasəmən rəngli ya al qırmızı yarpaqlar —onları haçansa kitabın səhifələri arasına qoymuş və unutmuşdun. Haçansa sənə əziz olan adamın unudulmuş məktubunu qəfilcən tapmaq. Həm də elə bir vaxtında ki, yağış yağır və sən qüssələnirsən, Keçən ilki yelpic. Aylı gecə…

İHARA SAYKAKU
XVII əsr yapon yazıçısı

"EŞQƏ QURŞANAN BEŞ QADIN" KİTABINDAN

Yaz vaxtı dəniz sakitdir. Zəngin gəmilər dalğalar üstündə balış üstündəymiş kimi yırğalanırlar. (Bəlkə elə var-dövlət haqqında yuxular da bu gəmilərlə üzüb gəlir)

Böyük, hay-küylü liman. İdzumi soyadlı dövlətli adam da burda yaşayırdı. İşi yaxşı gedirdi, evində də bir ehtiyacı-filanı yoxdu. Üstəlik oğlu Seydzyuro da gözəllər gözəliydi. Qadınlar onunçün sino gedirdilər, dəli-divanəydilər və Seydzyuro on dörd yaşına çatar çatmaz eşq macəralarına girişdi. Bu şəhərdəki yetmiş səkkiz yüngülməcaz qadından bircəciyi də qalmadı ki, onunla yaxından tanış olmasın. Məhəbbət andları yığılmış həmayillərinin sayı-hesabı yoxdu, tutulmuş dırnaqlar daha mücrüyə sığmırdı, kəsilmiş qara saçlardan yoğun hörük hörmək olardı, gündə aldığı məktublar yekə bir təpə boyda yığılmışdı.

Seydzyuro bütün bu məhəbbət nişanələrini bir yerə yığıb üstündə "Məhəbbət ambarı" sözlərini yazmışdı.

Bu yüngüllük cəzalandırılmaya bilməzdi. İnsanlar başını bulayır və deyirdilər:

—Axırı onu varislikdən məhrum edəcəklər.

Amma bu yoldan çəkilmək də asan deyildi.

Bu arada Minaqava adlı yüngül əxlaqlı bir qadınla yaxınlaşdı. Bu qeyri-adi məhəbbət idi, bir-birlərinin yolunda canlarını belə əsirgəməzdilər. Qeybətləri, qınaqları eynlərinə almırdılar. Gündüzün günorta çağında çıraq yandırırdılar. Halbuki heç aylı gecələrdə də çırağa ehtiyac yoxdu. Pəncərələri qapadıb eyş-işrətə başlayırdılar, özləriyçün "əbədi gecə ölkəsi" yaradırdılar. Kef məclislərinə təlxəkləri də cəlb edirdilər, məcbur edirdilər ki, təlxəklər gecə keşikçisinin toxmağının tıqqıltısını yaxud yarasa səsini yamsılasın. Özləri də buddist motivlərinə ədəbsiz mahnılar oxuyurdular. Gündüzlərini də, gecələrini də bu sayaq əyləncələrlə keçiridilər. Bir dəfə elan etdilər ki. "Çılpaqlar adasında" yaşayırlar. Guya ki, belə bir ada xəritələrdə də göstərilib. Bundan sonra məclislərində iştirak edən

bütün ayağı sürüşkən qadınları soyundururdular, lütlərin utanmaqlarından zövq alırdılar.

Onların arasında yüksək dərəcəli fahişə də vardı və o soyunan zaman gündəyməzində dəmrovu gördülər, indiyəcən onu hamıdan gizlədə bilmişdi. Dəmrovu görən kimi "sən diri İlahəsənmiş" — deyə qarşısında diz çöküb sitayiş etməyə başladılar. Amma bir müddət sonra bu əyləncələrdən bıkdılar. Lüt-ətcəbala qadın əndamları hər ikisinin pisini vurdu.

Və elə bu dəm gözlənilməz halda evə Seydzyuronun atası girdi, onun qəzəbinin həddi-hüdudu yoxdu.

Seydzyurogilin öz eyblərini örtüb gizlətməyə macalları da olmamışdı.

Seydzyuro yalvarmağa başladı:

—Bağışlayın, bu bir daha təkrar olunmayacaq — desə də atası qulaq asmadı və hirslə çıxıb getdi.

Minaqava ağlamağa başladı, başqa qadınlar da ona qoşuldu. Vəziyyət çox qəlizdi. Heç nə eləmək mümkün deyildi. Yalnız təlxəklərdən biri zarafatından qalmadı: Çılpaq kişi də yüngül qadından ağır gələr — dedi — Kefini pozma cənab Seydzyuro.

Ümumi pərişanlıq içində də bu sözlərə güldülər, elə bil bu zarafat içkinin məzəsiydi. Seydzyuro və Minaqava yenidən içməyə başladılar və axırda hər şeyi unutdular.

Amma onlara münasibət kökündən dəyişdi. Nahar vaxtıydı, amma heç kəs onlara xidmət etmək istəmirdi. Yüngül qadınlar da bir-bir çıxıb getdilər. Həyat belədir, yalnız cibimizdə küllü pul olanda hamı qulluğumuzda durur.

Minaqavanın taleyi üçün bu daha ağır idi. Hamı gedəndən sonra hönkürüb ağladı. Seydzyuro da qəm dəryasına batdı və hətta intihar etmək qərarına gəldi. Bircə ondan qorxurdu ki, Minaqava: — Mən də — desin.

Bu fikirlərə qapılarkən Minaqava onun üzünün ifadəsinə diqqət edib dedi:

—Görürəm ki, siz intihar etmək fikrindəsiniz. Bu ağılsız işdir. Əslində mən də sizin dalınızca getmək istərdim, amma nə etməli, həyat şirin şeydir. Mənim peşəm belədir ki, hisslərim müvəqqətidir. Odur ki, nə oldu, oldu, hər şey yuxu kimi keçib getdi. Bu bizim əlaqələrimizin də sonudur.

Bu sözlərlə durub otaqdan çıxdı.

Sedzyuro bunu gözləmirdi… Doğrudur yüngül qadındır, amma münasibətləri belə birdən-birə qırmaq… Yox, adi qadın belə hərəkət etməzdi. Bu fikirlərlə o da burdan getmək istədi.

Bu vaxt Minaqava ağ yas geyimi geyinib Seydzyuroya sarıldı:

—Həyatınıza son qoymadan hara gedirsiz? — dedi — Əgər intihar etmək istəyirsinizsə yubanmayın.

Bunu deyib iki ülgüc çıxardı.

Seydzyuro sevindi, amma elə bu dəm adamlar içəri girib onları bir-birindən ayırdı. Minaqava sahibinin yanına qayıtmalı idi. Seydzyuro isə məbədə aparıldı.

—Qoy dualarıyla İdzumi ailəsinin üstündən bu ləkəni təmizləsin — dedilər.

O vaxt Seydzyuronun on doqquz yaşı vardı. Heyf, çox heyf ki, o qalan ömrünü rahib kimi yaşamağa məhkum edilmişdi.

COVANNİ BOKKAÇÇO
XIV əsr italyan yazıçısı

"DEKAMERON"dan bir parça

İgid cəngavər, markiz Monferat səlib yürüşündə iştirak etmək üçün başqa xaçpərəstlərlə uzaq ölkələrə vuruşmağa yollanmışdı. Onun şücaəti haqqında xəbər kral Filippə çatanda kimsə onu da əlavə etmişdi ki, ikinci belə ər-arvad yer üzündə tapılmaz. Markiz ən qoçaq, qorxu bilməyən cəngavər, arvadı isə dünyada ən gözəl və ləyaqətli qadındır. Bu sözlər Fransa Kralına elə təsir göstərdi ki, ömründə markizanı görməsə də bir an içində min qəlbdən bir qəlbə ona aşiq oldu, ürəyində ehtiras alovu alışdı. Kral dərhal muradına çatmaq istədi. Markizin uzaqlarda olması da bir fürsət idi. Beləliklə markizaya ismarış yolladı ki, onlara qonaq gəlmək istəyir.

Ağıllı və tədbirli qadın olan markiza cavab göndərdi ki, Kralın təşrif gətirməsi onlarçün böyük şərəfdir. Bir tərəfdən də fikirləşdi ki, nədən Kral onlara məhz bu vaxt, əri səfərdə olanda qonaq gəlmək istəyir. Belə zənn etdi ki, yəqin gözəlliyi haqqında soraq Krala da çatıb və onun məqsədi aydın oldu. Zənnində yanılmamışdı. Kralı layiqincə qəbul etmək qərarına gəldi, hər cür təamlar hazırlanmasını tapşırdı, Amma şərt qoydu ki, bütün xörəklər toyuq ətindən olsun. Dörd həndəvərdə nə qədər toyuq varsa hamısını kəsib yemək hazırladılar.

Müəyyən olunmuş gün Kral gəlib çıxdı və markiza onu dəbdəbəylə qarşıladı. Markizanı görəndə Kral anladı ki, qadın onun təsəvvür etdiyindən də qat-qat gözəl və cazibədardır. Süfrəyə yemək-içmək gəldi. Masa üstündə tez-tez dəyişən təamlardan və bahalı şərablardan cuşa gələn Kral markizaya aşiqanə nəzərlərlə baxırdı. Xörəklər bir-birini əvəz edirdi, nəhayət Kral fərqinə vardı ki, hamısı toyuqdan hazırlanmış yeməklərdir. Kral bilirdi ki, bu tərəflərdə hər cür quş, heyvan olur. Süfrə üstündə yalnız toyuq təamları olmasından təəccübləndiyini gizlətmədi, işvəkar bir təbəssümlə markizaya baxaraq: — Markiza — dedi, — məgər sizin burda ancaq toyuqlarınız var, heç xoruzunuz yoxdur?

Markiza Kralın eyhamını başa düşdü və qərara gəldi ki, bu mukalimə ona istədiyini deməyə fürsət verir: — Əlahəzrət — dedi —

xoruzlarımız var, toyuqlarmız da onları bəyənir, özgə xoruzlara ehtiyac duymurlar.

Kral arif adam idi. Bu sözlərdən dərhal nəticə çıxardı. Başa düşdü ki, bu sayaq qadını tovlamaq boşunadır, onu zorla, güclə ələ keçirmək mümkün deyil. Yaxşısı budur ki, markizadan rədd cavabı almadan üzü sulu vidalaşıb yola düzəlsin. Nahar qurtaran kimi Kral markizaya əla qəbul üçün təşəkkur etdi və gəlişinin pis məqsədini biruzə verməmək üçün gecələmədən tələsik yola çıxdı.

MİŞEL MONTEN (1533-1592)
fransız filosofu

ESSELƏR

(XVI əsrin məşhur fransız mütəfəkkiri Mişel Montenın üç cildlik "ESSE" əsərinin janr adını rus dilinə "OPITI", Türkiyə türkcəsinə "DENEME" kimi çevirirlər. Məncə "ESSE" janrının Azərbaycan türkcəsində daha dəqiq adı "DÜŞÜNCƏLƏR"dir)

Birinci kitabdan

BİRİNCİ FƏSİLDƏN ("Müxtəlif vasitələrlə eyni məqsədə çatmaq mümkündür")

Bavariya hersoqu Velfi mühasirəyə alan imperator III Konrad heç bir güzəştə getmək istəmədi. Mühasirəyə alınmışlar ən biabırçı və alçaldıcı şərtləri qəbul etməyə hazır olsalar da İmperator yalnız ona razılıq verdi ki, şəhərin içində qalan nəcabətli xanımlar qaladan piyada çıxsınlar. Onların namuslarına təcavüz olunmayacağına və özləriylə üstlərində götürəcəkləri heç bir şeyə toxunulmayacağına zəmanət verilirdi. Bu şərtdən istifadə edən xanımlar ərlərini, uşaqlarını və hersoqun özünü çiyinlərinə alıb qaladan çıxdılar. Onların bu cəsarətli, nəcib və fədakar hərəkəti imperatora elə böyük təsir göstərib ki, o, riqqətlənib ağlayıb. Məğlub etdiyi hersoqa barışmaz və ölümcül düşmənçiliyinin alovu sönüb və o vaxtdan həmin hersoqla da, onun təbəələriylə də daha insani rəftar etməyə başlayıb.

İKİNCİ FƏSİLDƏN ("Matəm haqqında")

Matəm ovqatına aludə olanlardan deyiləm. Bütün dünya bu duyğuya xüsusi ehtiram və sayğıyla yanaşsa da, mən bu hissi sevmirəm və ona hörmət bəsləmirəm. Stoiklər də müdriklərə məsləhət edirdilər ki, bu hissə qapılmasınlar.

Belə bir rəvayət var: Misir şahı Psammenit döyüşdə yenilib İran şahı Kəmbizə əsir duşur. Əsir düşmüş qızını kəniz qiyafəsində görən zaman əyanları ağlayıb sızlarkən Psammenit baxışlarını yerə tikib hərəkətsiz dayanıbmış. Oğlunun edam olunduğunu görəndə də dinməz-söyləməz, sakit durub qalır. Amma az sonra dostlarından

birini edama apararkən Misir şahı fəryad qoparır, başına döyür. Kəmbiz bunun səbəbini soruşanda Psammenit belə cavab verir: — "Çünki yalnız aldığım bu son zərbəni göz yaşlarıyla soyutmaq olar. İki əvvəlki dərdimi isə ifadə edə biləcək vasitə yoxdur".

Burada bir qədim rəssamı da yada salmaq yerinə düşər, İfiqeniyanın qurban kəsilməsi səhnəsini təsvir edərkən rəssam bu günahsız qızın faciəsinə ağlayan insanların sifətlərini çəkir və ustalığının zirvəsinə ucalır. Amma qızın atasının sifətini çəkilməmiş qoyur, Bununla rəssam demək istəyir: dərdin elə həddi var ki, onu sözlə ya fırçayla ifadə etmək mümkün deyil.

Şairlərin yaratdıqları bir təşbeh də bununla bağlıdır: Niobeya əvvəcə yeddi oğlunu, sonra yeddi qızını itirərək qayaya çevrilir. Bununla şairlər demək istəyir ki, çəkilməz dərd insanı nəinki müc edir, dilini-ağzını qapayır, o hətta dönüb daşa, qayaya çevrilir.

Qəlbimizi ən dözülməz dərd, ağrı çuğlayanda dilimiz tutulur, dinib-danışa bilmirik, hisslərimizi harayla, fəryadla ifadə eməkdən acizik. Belə anlarda insanın qəlbi yalnız dərin sükuta qərq olur. Sözlə deyilən, başqalarıyla bölüşülən, hamıya yerli-yataqlı danışılan dərd dərin və səmimi ağrı deyil. Əsl ağrının dili laldır.

ON DÖRDÜNCÜ FƏSİLDƏN ("Bizim Xeyri və Şəri qavramağımız onları necə təsəvvür etməyimizdən asılıdır)"

Qədim yunan kəlamına körə insanlara daha çox müəyyən şeylər yox, onlar haqqında özlərinin yaratdıqları təsəvvürlər əzab verir. Əgər kimsə ədalətin həmişə və hər yerdə məhz belə olduğunu təyin edə bilsəydi insanın qisməti çox yüngülləşərdi. Biz nəyisə şər və iztirab adlandırırıqsa, bunlar şər və iztirab olmaqdan daha çox bizim şər və iztirab haqqında təsəvvürlərimizdir.

Ölümü, kasıblığı və iztirabı ən amansız düşmənlərimiz bilirik. Amma biri ölümü bütün dəhşətli şeylərdən ən dəhşətlisi sayırsa, başqa birisiyçün ölüm həyatın əzablarından xilas olmaqdır, bütün dərd-bəlalarımızdan bir dəfəlik azad olmaq yoludur. Bəziləri ölümü qorxu və həyəcan içində gözləyirsə, başqaları ölümü həyatdan artıq sevinclə qarşılamağa hazırdır. Çətin həyat sürmüş sadə adamlar bir çox hallarda ölüm qarşısında iradə və təmkin nümayiş etdirirlər, sanki varlıqlarında belə böyük bir dəyişikliyin olacağının fərqində deyillər. Arxayınlıqla vəsiyyətlərini edirlər, yaxınlarıyla vidalaşırlar, hətta zarafatlaşırlar, yaxud Sokrat kimi ölüm ayağında dostlarının sağlığına badə qaldırırlar.

Ölümə məhkum olunmuşlardan biri cəlladlarından xahiş edir ki, onu edam yerinə bu küçəylə yox, o biri küçəylə aparsınlar: "Axı bu küçədə borclu qaldığım baqqala rast gələ bilərəm". Başqa birisi cəllada deyir ki, məni asarkən boynuma toxunma qıdığım gələr. Bir ölümə məhkum olunmuş da keşişin: elə bu axşam yeməyini xilaskarımız İsa Məsihlə yeyəcəksən — sözlərinə qarşı — onda o şam yeməyinə özün get — deyib — mən oruc tutmuşam.

Birisi də dara çəkilməkdən əvvəl su istəyib. Amma kuzədən əvvəlcə cəlladın içdiyini görüb imtina edir — yoluxucu xəstəlikdən qorxuram — deyir.

Pikardiyalı haqqında belə bir əhvalat danışırlar. Edam olunacaq adama təklif edirlər ki, fahişəylə evlənsin, onda onu əfv edərlər. Məhkum olunmuş adam qadına baxıb: Məni asmanız yaxşıdır — deyir — bu arvad ki, topaldır.

Kitablardan bilirik ki, XI Lüdoviq Arras şəhərini fəth edərkən, şəhər sakinlərinin bir çoxu "Yaşasın kral!" deməkdənsə edam olunmağı tərcih ediblər.

ON SƏKKİZİNCi FƏSİLDƏN ("Qorxu haqqında")

Qorxu çox vaxt ayrı-ayrı fərdlərin də, böyük insan kütlələrinin də iradələrini müc edir. Döyüşdə məğlub olan imperator Feofilin matı-qutu quruyur, iflic vəziyyətə, hər şeyə qarşı tamamilə biganə və laqeyd hala düşür. Onun sərkərdələrindən Manuel imperatorun çiyinlərindən yapışıb silkələyir: — İndicə mənim ardımca döyüşə getməsən səni öldürəcəm—deyir— ölüm əsir düşməkdən üstündür.

Qorxunun elə bir son həddi var ki, onun, yəni qorxunun təsiriylə cəsarətli olursan. Hanniballa döyüşdə məğlub olan romalıların on min nəfərə qədər piyadası panik içində qaçıb qurtulmağa çalışır. Amma qaçarkən düşmənin sıralarına həmlə edir və mat qalmış karfagenliləri pərən-pərən salır.

Qədim yunanlar qorxunun elə bir növünü ayırırdılar ki, o, insanın şüurundan asılı deyil. Onların fikrincə belə qorxu heç bir səbəbi olmadan əmələ gəlir və göylərin təlqin etdiyi hissdir. Bəzən bu qorxu bütün xalqı, ordunu bürüyür. Belə bir qorxu dalğası karfagenlilərin başına gəlib. Şəhərin sakinləri evlərindən küçələrə axışıb, qorxudan bir-birinin üstünə hücum çəkib, bir-birini yaralayıb, öldürüblər. Bütün şəhərdən həyəcanlı səslər, dəhşətli bağırtılar eşidilirmiş. Yunanlar belə qorxunu panik adlandırırdılar.

ON DOQQUZUNCU FƏSİLDƏN ("İnsan ölməyincə onun

xoşbəxt olub olmadığını təyin etmək mümkün deyil")

Uşaqlar da padşah Krez haqqında rəvayəti bilirlər. Kir tərəfindən əsir alınan Krez edam qabağı " Ah, Salon, Salon" —deyib. Bunun nə demək olduğunu soruşanda Krez: — Bir vaxt Salon mənə demişdi ki, səadət insanın üzünə nə qədər gülsə də, adamın son günü gəlməmiş xoşbəxt olub olmadığını müəyyənləşdirmək olmaz.

Biz də Salonun bu müdrik tövsiyyəsinə qulaq asmalıyıq. Amma bu filosofa görə taleyin bəxşişlərinin və zərbələrinin xoşbəxtliyə ya bədbəxtliyə heç bir dəxli yoxdur. İqtidar, qüdrət, vəzifə isə əhəmiyyətsiz təsadüflərdir. Salon hər şeyə daha dərindən baxırdı və ona görə də insanın bəxtiyar ömür sürüb sürməməsinin yalnız onun yaşamının son günündə bəlli olacağını deyirdi. İnsan oyunçu həyat adlanan bu pyesin son pərdəsini necə oynayacaqsa — hər şey onda məlum olacaq.

Tarixdən elə şəxsiyyətlər tanıyırıq ki, ölümləriylə yaxşı ya pis ad qazanaraq həyatlarına yekun vurublar. Pompeyin qayınatası Sipion ölümüylə bədnam adına bəraət qazandıra bildi. Epaminonddan xəbər alırlar, onun özündən və başqa iki filosofdan hansı daha üstündür? Cavab verir ki, bunu müəyyənləşdirmək üçün gözləmək lazımdır, görək hər birimiz ölüm saatımızı necə qarşılayacayıq.

İnsanlar tanıyırdım ki, həyatları boyu heç bir əməlləriylə qazana bilmədikəri şöhrəti, adı-sanı ölümləriylə qazandılar.

Özgələrinin ömürlərini dəyərləndirərkən mən həmişə bu ömürlərin sonunu nəzərdən qaçırmıram və ən böyük istəyim odur ki, öz həyatım da layiqli şəkildə — yəni sakit və səssiz-küysüz tamamlansın.

İYİRMİNCİ FƏSİL (filosofluq etmək — ölməyə hazır olmaq dərsləridir)

Siseron deyirdi ki, filosofluq etmək özünü ölümə hazırlamaq deməkdir. Qısası müdrüklüyün və bütün düşüncələrin əsas məğzi bizi ölümdən qorxmamağa alışdırmaqdır, Dünyada hamı razılaşar ki, ömrün əsas məqsədi — həyatdan ləzzət almaqdır. Bunun əksi olan müddəa: “Həyatın məqsədi iztirab çəkməkdir” kimi səslənirsə, bununla kim razılaşar? "Həyatın ləzzəti" ifadəsi kimlərisə qıcıqlandıra bilər. Amma "həyatın ləzzəti" deyəndə mən ölümə nifrəti, daha doğusu ölümü saya salmamağı da nəzərdə tuturam.

Əgər bizdən asılı olmayaraq həyatın son duracağı ölümdürsə, bu fikir niyə bizi dəhşətə gətirməlidir? Nə etmək olar ki, bu fikirdən

titrətməli kimi titrəyib əsməyəsən? Nadan adamların bu sarıdan qəbul etdikləri dərman ölümü büsbütün unutmaq, onun barəsində düşünməməkdir. Amma belə korluq insana yox, heyvana xasdır.

Bəzi insanlar da nəinki ölüm haqqına düşünməkdən, onun adını belə çəkməkdən qorxub çəkinirlər. Romalıların dilində ölüm sözü onları çox pəjmürdə etdiyi üçün, əvəzində başqa ifadələrə üstünlük verirdilər, "o öldü" yerinə "onun həyatı bitdi" deyirdilər. Bu ifadədə "həyat" sözünün işlənməsi sanki bir təsəlli idi.

STENDAL
(1783—1842)
Fransız yazıçısı

MƏHƏBBƏT HAQQINDA

Hər təzahürü gözəllik möhürünü daşıyan bu ehtirası özüm-özümə aydınlaşdırmaq istəyirəm. Məncə dörd cür məhəbbət var: 1.Sevgi — ehtiras 2.Sevgi — meyl etmə. 3.Fiziki məhəbbət 4.Şöhrət gətirən məhəbbət

İnsanın təbiətinə xas olan fiziki zövq hamıya bəllidir, amma incə və həssas qəlblər ona ikinci dərəcəli şey kimi baxır. Bəzi ismətli və incə qadınların heç fiziki zövqdən xəbərləri yoxdur. Əgər buna nail olursalar belə məhəbbətdən aldıqları zövq cismani zövqü kölgədə qoyur.

Qəlbdə eşq necə yaranır? Birinci heyranlıq hissi baş qaldırır. İnsan düşünür: onu öpmək, onun sənə busə verməsi nə böyük səadət olardı. Ümid də belə yaranır. Bu məhəbbətin siftəsidir. Amma əgər aşiq səbirsizlik göstərirsə, yaxud özündən müştəbehdirsə laqeydliklə, soyuqluqla, ya hətta qəzəbli münasibətlə, Fransada isə yüngül rişxəndlə qarşılaşacaq. O zaman aşiq belə yaxın zənn etdliyi səadətin mümkünlüyünə şübhə edəcək.

Aşiq üç hiss arasında dolaşıb qalır: 1.Sevdiyi qadın kamillik təcəssümüdür. 2.O məni sevir 3.Bu məhəbbət necə sübut oluna bilər?

Ən ağır məqam odur ki, aşiq bu məhəbbət haqqında yanlış qənaətə gəldiyini anlayır və bütün ümidləri darmadağın olur. Amma zərrə qədər ümid də məhəbbətin yaranmasına səbəb ola bilər. Çox tezliklə bu ümid puç ola bilər, lakin məhəbbət artıq doğulub, mövcuddur. Ümid dağıla da bilər, məhəbbət isə baqi qalır.

Qadınlar elə öz nəvazişləriylə tora düşürlər. Arzularının iyirmisindən on doqquzu sevgiylə bağlı olduğu üçün yaxınlıq məqamlarından sonra fikirlərini məşğul edən yalnız elə bu olur. İsmət, məsumluq adətlərinə uyğun olmayan hərəkətlərinə öz gözlərində bəraət qazandırmaq istəyirlər. Yaxınlıq anlarına qədər məşuqunun bayağı cəhdlərdən uzaq olduğunu düşünən qadın bu anlardan sonra şübhələnməyə başlayır, görür ki, istəklisi ancaq elə

buna can atırmış — qələbələrinin siyahısına bir ad əlavə etməyə çalışırmış və onu da düşünür ki, daha imtina etməyə bir şeyi qalmayıb. Qadına elə gəlir ki, bu işdən sonra o məlakədən kənizə çevrilib. Hissi və əqli durumu aldığı ləzzətlərin anımlarıyla daha da şiddətlənir. Bu anların nadir və keçici olması duyğularını bir az da gücləndirir. Vaxtını tikiş tikməklə keçirən qadın bu dəmlər yalnız öz istəklisi haqqında düşünür, halbuki istəklisi hardasa at belində çapır, ya döyüşdə çarpışır, hər halda tamam başqa bir aləmdə, tamam başqa duyğularla yaşayır. Yaxud kişi saatlarla masasının arxasında oturub bütün fikri-zikri yazısında olduğu vaxt, qadın yaşadığı məhəbbət saatlarının xatirələrinə və gələcək görüşlərin fantaziyalarına qapılır.

Məhəbbətdə kişi qəlbin gizli əzablarına məhkum olursa, qadınları ətrafdakıların istehzaları təqib edir. İctimai rəy qadınlar üçün daha əhəmiyyətlidir, nəinki kişilərçün. Ona görə də qadınlar daha çox inamsızdır. Onlarda məhəbbətin oyanması daha ləngdir, daha kövrək, daha qərarsızdır. Sevgilisiylə görüş zamanı qadın tələsik düşünür — eşqin ləzzətinə tabe olsun-olmasın, eyni zamanda sevgilisinin yaxınlıq istəyi onu ürküdür və bütün zövq-səfadan vaz keçib özünü qorumağa çalışır. Uzun müddət muradına çatmamaq erkəyi alçaldır, qadını əksinə şərəfləndirir.

Sevən qadın bir il ərzində sevgilisinə cəmisi on-on beş söz deyə bilər, fəqət görüşdükləri hər dəqiqəni, onu təsadüfən küçədə ya teatrda gördüyünü, yaxud iki dəfə birlikdə nahar etmələrini, birgə gəzintilərini bütün təfərrüatıyla hər zaman yaddaşında yaşadır.

Əlbəttə gözəllik məhəbbətin oyanması üçün şərtdir. Çirkinlik məhəbbətə maneə ola bilər. Amma bəzən çox da gözəl olmayan qadın kişinin qəlbində elə bir sevgi oyada bilər ki, o həqiqi gözəlliyin nə olduğunu unudar və yalnız sevdiyini gözəl sayar.

Qəlbin qəribə cəhətləri var. Görürsən sevdiyin insan onu əhatə edən mühitə özünün malik olduğu gözəllikdən də artıq gözəllik bəxş edə bilir. Sevgilinlə görüşdüyün uzaq bir şəhər haqqında düşünərkən biz sevgilinin özüylə görüşdən daha artıq zövq və ləzzət alırıq. Eşq arzularının hesabı olmur. Mən fikir vermişəm ki, yaxşı bir romanı hər iki-üç ildən bir yenidən zövqlə oxuya bilirəm. Eyni ləzzətlə sevdiyim musiqini də dönə-dönə dinləyə bilərəm. Amma gərək yaddaşım yardımçı olmasın, onları sanki bu müsiqi ya bu romanla ilk dəfə tanış olur kimi qavrayım.

Vaxtilə sevdiyin və nə səbəbdənsə ayrıldığın qadınla yeni görüş

də bax beləcə hissləri yenidən oyada bilər.

Ən güclü ehtiras zamanı da insanda belə bir hiss doğula bilər ki, guya o artıq sevmir, sevgidən usanıb, bezib. Sevgilisi haqqında düşünərkən ləzzət almır, onu ən çox incidən isə odur ki, buna görə əzab da çəkmir. İçində duyduğu boşluq ən ağır dərddir.

Bu gün axşam musiqi dinlərkən dərk etdim ki, bu melodiyalar sevdiyin insanla keçirdiyin anlar kimi sənə bəxtiyarlıq bəxş etməyə qadirdir. Musiqiyə aludəçilik məhəbbət arzularına bənzəyir. İncə və kədərli motiv fikrimizi məhz eşq aləminə çəkir.

Rəsmi toy mərasimində gənc gəlin qorxu və utancaqlıq hissi keçirir, onunçün az tanıdığı bir erkəklə əridirsə belə-bir yatağa girmək, uzaqdan da olsa çoxdan tanıdığı bir şəxslə yaxınlıqdan daha çətindir.

Məhəbbət uyqarlığın (sivilizasiyanın) möcüzəsidir. Vəhşi ya barbar xalqlarda yalnız cinsi əlaqə var. Bu əlaqə həyadan məhrumdur. Həya fantaziyanı oyadır və məhəbbətə həyat verir.

Həyatları boyu qadınlar kişilərin vacib saydıqları mövzularda söhbətlərini eşidirlər — maliyyə qazancları, hərbi uğurları, dueldə öldürülən rəqiblər, qisas almaq hadisələri və s. Məğrur qəlbli qadınlar anlayr ki, bütün bunlar onlarçün əlçatmaz şeylərdir, onu da bilirlər ki, öz qəlbləri daha yüksək, daha ülvi hisslərlə çırpınır. Amma hər halda ən vecsiz kişilər də bir-birinə qadınlara etdiklərindən qat-qat artıq hörmət edir.

Bir çox hallarda qadınlar kişilərdən daha cəsurdırlar. Özəlliklə sevən qadın sevgilisi naminə heç bir təhlükəni vecinə almaz.

Məhəbbət münasibətlərinin ilkin çağında ən böyük səadət sevdiyin qadının sənə əl uzatmasıdır. Əsl məhəbbətdə cinsi yaxınlıqdan daha böyük zövq yaxınlıq ərəfəsindəki bu sonuncu addımdır.

Özü haqqında xatirələr yaşatmayan xoşbəxtlik — xoşbəxtlik deyil.

Ən böyük əbləhlik yaxın dostuna məhəbbət macəralarını danışmaqdır. Dostun anlayır ki, sənin danışdığın ləzzətlərə heç vaxt nail ola bilməyəcək və ona görə də qısqanclıq hissi keçirir. Qadınlarda bu hiss daha da güclüdür. O biri tərəfdən eşq bəlasına mübtəla olanlarda öz hallarını başqalarına danışmaq bir ehtiyacdır.

Qısqanclıq hissi məhəbbətin qənimidir. Sevdiyinizin başqa birisinə üstünlük verməsi qəlbinizə sancılan xəncərdir. Belə hallarda

insan əqlini itirməyə qədər çılğınlaşa bilər. Rəqibinin xoşbəxtliyini olduğundan artıq şişirdirsən, eyni zamanda hələ ümidini itirmədiyin üçün daha çox əzab çəkirsən.

Əgər sevgiliniz sizi tərk edibsə səbəbi odur ki, sizə çox arxayınmış, onun qəlbində sizi itirmək qorxusunu özünüz yox etmisiniz.

Məhəbbətin özülündə nə dərəcədə fiziki ləzzət durursa, o dərəcədə bu məhəbbət keçəri ola bilər. Bir-birini sevən iki insanın duyğuları heç vaxt eyni cür olmur. Ehtiraslı məhəbbət ərzində müxtəlif dövrlər olur ki, birində sevgililərdən biri, digərində başqası daha artıq sevir.

Qısqanclıq — qısqanclığa əsas verməyən qadını təhqir edir, amma eyni zamanda məhəbbətin sübutu kimi ona xoş da gələ bilər. Fransada məşhur bir lətifə var: aşnası madam Sommerini başqa bir kişiylə "cinayət başında" yaxalayanda qadın açıq aydın məsələni inkar edir. Aşnası özündən çıxanda isə: Mən görürəm ki, sən daha məni sevmirsən — deyir — gözünlə gördüyünə mənim sənə dediyimdən daha çox inanırsan.

Napoleonun hələ gənc general olduğu vaxt sevgi cəhdlərini rədd edən bir qadın ona: — General — deyir — qadın sizin yalnız arvadınız ya bacınız ola bilər.

Müxtəlif millətlərin məhəbbət anlayışları, sevgi davranışları da müxtəlifdir. Fransada fahişələr çox cazibədar, İspaniyada çox eybəcərdirlər. Fransada onlar erkəklərə namuslu qadınlardan az zövq bəxş etmir, əlbəttə söhbət məhəbbətsiz zövqdən gedir. Öz ölkəsini yaxşı tanıyan bir fransız: — Fransada böyük ehtiraslar da, böyük insanlar da nadir olur — deyib.

İtaliyanın xoşbəxtliyi ondadır ki, bu ölkə hər bir anın səadətiylə yaşayır. İtaliyanın üstünlüyü açıq səma altında qayğısız yaşayışıdır. Bu insanları gözəlliyin bütün şəkillərinə qarşı həssas edir. Burda roman və ümumiyyətlə kitab oxumurlar, bu da fantaziyaya təkan verir. Bir də italyanlarda insan qəlbinə məhəbbət həyəcanları qədər təsir edən musiqiyə heyranlıq var. Burda hamı məhəbbətlə məşğuldur, özü də Fransadakı kimi gizlində yox, açıq açığına. Burda qadının əri oynaşının ən yaxın dostudur.

İngilis ərinin isə qüruru ondadır ki, arvadında şöhrətpərəstlik duyğuları oyada bilsin. İngiltərədə dəbə, modaya uyuşmaq borc kimidir. Fransada isə bu ləzzətdir.

İspan xalqında mən Orta əsrlərin canlı nümayəndələrini görürəm. Gözəl Əndəlis qızlarının yerişləri lətif və incədir, qara məxmər paltarlarının kəsiyindən görünən topuqları, sifətlərinin bəyazlığı, qara gözlərində ehtirasın bütün çalarları haqqında çox danışmaq olar.

Avstriya qadınları çox təmkinli və sakitdirlər. Məhəbbət onlarçün bir tapınaqdır və əgər bir qadın tutalım bir fransıza aşiq olursa bütün varlığıyla onu sevir. Yüngül qadınlar hər yerdə var, amma ümumiyyətlə venalılar daha etibarlıdırlar. Etibardan danışanda mən onların özləri seçdlikləri aşnalarına sadiq olduqlarını nəzərdə tuturam, çünki Venada da ərlər hər yerdə olduqları kimidir.

Həqiqi məhəbbət örnəklərini və onun vətənini bədəvi ərəblərin çadırında axtarmaq lazımdır. Bir ərəbdən soruşurlar: Sən hansı qəbilədənsən? Cavab verir:

—Mən sevişərkən ölənlərdənəm. —Deməli sən Əzra qəbiləsindənsən.

Bir ərəb Əzra qəbiləsindən olana deyir: — Siz — Bəni—Əzra qəbiləsi elə düşünürsünüz ki, sevişərkən ölmək nəcib ölümdür, amma əslində bu zəiflik və axmaqlıqdlır. Əzra qəbiləsindən olan gənc deyir: — Əgər sən bizim qadınları —onların uzun kirpiklərlə örtülmüş iri qara gözlərini, ox kimi sancan alt kirpiklərini, onların siyah dodaqları arasından gülüş zamanı ağaran dişlərini bir dəfə də görmüş olsaydın belə danışmazdın.

Bir müsəlman xaçpərəst qıza aşiq olur. Səfər zamanı xəstələnir və onu müşayət edən dostuna: mənim ömrüm bitir — deyir — bu dünyada daha sevgilimi görə bilməyəcəm. O dünyada onu görmək üçün xaçpərəstliyi qəbul edib ölürəm. Belə də edir. Dostu vətənə qayıdıb xaçpərəst qıza bunu danışanda o da: Mən bu dunyada daha sevgilimi görməyəcəm — deyir — o dünyada ona qovuşmaq üçün İslamı qəbul edirəm.

HENRİX HAYNE
(*1797-1856)*
alman yazıçısı

İDEYALAR

Qadın gözəl idi və kişi onu sevirdi. Kişi gözəl deyildi və qadın onu sevmirdi.

Köhnə pyesdən

Madam, bu köhnə pyesdən xəbəriniz varmı? Gözəl pyesdir, bir az qüssəli olsa da… Haçansa mən bu tamaşada baş rolu oynayırdım və bütün xanımlar ağlayırdı. Yalnız bir xanım ağlamırdı, gözündən bir damla yaş çıxmırdı — müsibət də elə bu idi.

Ah, o bir gilə göz yaşı. Hələ də xatirələrimdə o məni incidir. İblis mənim ruhumu məhv etmək istəyəndə qulağıma bir şərqi oxuyur — həmin o bir gilə göz yaşı haqqında şərqi. Amma melodiyası daha da acıdır. Belə musiqini yalnız cəhənnəmdə eşitmək olar.

Cənnət haqqında təsəvvürünüz var, madam, axı ərdəsiniz. Amma cəhənnəm haqqında heç bir təsəvvürünüz yoxdur, madam. Olsa olsa cəhənnəmi "Don Juan" tamaşasında gördüynüz kimi təsəvvür edirsiniz. Sizcə qadınları tovlayan bu adamı cəhənnəm odunda nə qədər yandırsalar da azdır. Düzdür, bizim teatr işçiləri səhnədə cəhənnəmi canlandırmaq üçün atəşdən, barıtdan, işıq effektlərindən istifadə o qədər edirlər ki, mömin xaçpərəstlərin zövqünü oxşasınlar. Amma əslində cəhənnəm teatr müdirlərinin düşündüklərindən də dəhşətlidir. Yəqin bunu bilsəydilər bu qədər səfeh pyeslər oynamazdılar. Mən özüm bir dəfə yay tətillərində cəhənnəmə düşəndə gördüm ki, bu istiyə dözmək mümkün deyil. Heç ağlınıza gəlməz ki, cəhənnəm necə müdhiş bir yerdir, madam. Axı ordan rəsmi xəbər gətirən çox azdır. Deyirlər guya ki, cəhənnəmdə günahkarlara əziyyət vermək üçün burda çap olunan kitabları oxudurlar. Amma bu doğru deyil, Belə ağır işgəncə heç İblisin də ağlına gəlməz.

Sizi inandırıram madam, o dəhşətli istinin, hər tərəfdən qulaq batıran fəryad, ahü-fəğan səslərinin içində də tökülməmiş göz yaşı haqqında melodıya eşidilirdi.

Madam, adətən intihardan qabaq monoloq söyləyirlər. İnsanların

çoxu Hamletin "Olum ya ölüm" monoloqundan istifadə edir. Bu uğurlu parçadır və mən məmnuniyyətlə intihar qabağı onu oxuyardım, amma məsələ ondadır ki, özüm də faciələr yazmışam. Məsələn elə ölməz "Əlmənsur" faciəsini. Orada da intihar edənlər var və özümə düşmən deyiləm ki, öz yazılarım ola ola başqasınınkini, lap elə qoy Şekspir olsun, sitat gətirim.

Amma hər halda intihardan qabaq monoloq söyləmək adəti xeyirli işdir, heç olmasa beyninə çaxacağın güllənin vaxtını bir az yubadırsan. Mən də ölüm qabağı hansı monoloqu söyləyəcəyimi düşünərək San Jovannı küçəsinin tinində dayanmışdım və ölümə məhkum olduğum məqamda qəfilcən Onu gördüm.

Əynində mavi ipək paltar, başında al qırmızı şlyapa vardı. Bir an mənə baxdı, bu baxış ölümə qalib gələn və həyat bəxş edən baxış idi. Bir baxışla məni ölümdən qurtardı və mən onun qarşısında sanki yenidən doğulmuş kimi durdum. Gözəlliyi günəş işığıyla gözlərimi qamaşdırdı, keçib getdi və məni həyata qaytardı.

Həyatımı qaytardı, mən yaşayıram, əsas da budur. Qoy başqaları özlərinə təskinlik versin ki, sevgililəri məzarlarının üstünə çələng qoyacaq və göz yaşı tökəcək.

Ah, qadınlar! Gülün mənə, ələ salın, rədd edin, amma həyatımı əlimdən almayın. Həyat elə şıltaqcasına gözəl, yaşamaq elə şux dəlilikdir ki…

Həyat sərxoş allahın yuxusudur. Bu allah allahlar ziyafətindən ayrılıb hansısa tənha ulduzda uzanıb uyuyur. Özü də bilmir ki, bu an gördüyü yuxularla bir dünya yaradır. Bu dünya əlvan və qəribədir. İliada, Əflatun, Marafon döyüşü, Musa, Venera, Strasburq kilsəsi, fransız inqilabı, Hegel, gəmilər və s. Allahın yaradıcı yuxusunda ayrı-ayrı maraqlı fikirlərdir. Amma məqam gələndə Allah oyanacaq, yuxulu gözlərini ovuşduracaq, gülümsünəcək və o zaman bizim dünya izsiz-soraqsız əriyib gedəcək. Heç olmayıbmış kimi.

Amma mənim nə işimə. Mən ki, indi yaşayıram. Əgər mən kiminsə yuxusunun bir obrazıyamsa, hər halda bu da soyuq, qaranlıq, nəfəssiz ölüm yoxluğundan yaxşıdır.

Həyat — dünyanın ən böyük feyzi, ölüm ən pis yamanlığıdır.

Mən o qədər duellərə çıxmışam ki, haqqım var deyim: Allaha şükür, hələ sağam. Damarlarımda al qan axır, ayaqlarım altında torpaq titrəyir, eşqdən vəcdə gəlib ağacları və mərmər heykəlləri qucaqlayıram, onlar mənim ağuşumda canlanır.

Amma gün gələcək, damarlarımdakı atəş sönəcək, ürəyimi qış şaxtası bürüyəcək, gözlərim dumanlanacaq. Çürümüş tabutlarda yatanlar dostlarım olacaq. Mən tək qalacam, biçinçinin biçməyi unutduğu son sümbül kimi. Ətrafımda, öz istəkləri, öz niyyətləri olan yeni nəsil əmələ gələcək. Təəccüb içində yeni adlar və yeni nəğmələr eşidəcəm, köhnə adlar unudulacaq. Mən özüm də unudulacam. Bəlkə kimsə məni hörmətlə, kimsə həqarətlə xatırlayacaq. Qırmızıyanaq cavanlar yanıma gələcək, arfamı mənə uzadacaq və "bəsdir tənbəl qoca — deyəcəklər. — Öz gəncliyinin xülyaları haqqında köhnə mahnılarını oxusana!"

Arfanı götürüb çalacam, əski sevinclərim və kədərlərim yenidən oyanacaq, duman çəkiləcək və ölü gözlərdə göz yaşları çiçək açacaq. Köksümdə bahar çağlayacaq, yenidən çayın mavi sularını, mərmər sarayları, gözəl qadınların çöhrələrini görəcək, yenidən Brenta gülü haqqında mahnı oxuyacam.

Bu mənim son mahnım olacaq. Qəbrimə hansı ağacınsa kölgəsi düşəcək. İstərdim ki, bu palma olsun, amma axı şimalda palma bitmir. Çox güman ki, qəbrim üstündə cökə ağacı bitəcək. Yay axşamları onun kölgəliyində aşıq—məşuqlar oturub pıçıldaşacaqlar. Onlar elə xoşbəxt olacaq ki, heç məzarın üstündəki yazıya fikir verməyəcəklər. Çox sonralar, aşiq məşuqəsini itirəndən sonra bu qəbrin yanına gəlib xatirələrə dalacaq, ağlayacaq və uzun uzadı məzar daşına baxıb nəhayət yazıya diqqət edəcək. "Mərhum Brenta gülünü sevirdi" sözlərirni oxuyacaq.

Uşaqlıqda eşitmişdim ki, bir heykəltəraş heykəlini bitirən zaman dəhşət içində anlayır ki, əsəri tamamlamaq üçün metalı çatmayacaq. Bundan agah olan şəhərlilər onun yardımına gəlirlər, cümüş qaşıqlarını gətirirlər. Mən bu heykəlin önündə durub düşünürdüm, görəsən bu işə nə qədər gümüş qaşıq sərf olunub. Onu da hesablayırdım ki, bü gümüş qaşıqları pula çevirsən nə qədər alma kətəsi almaq olardı. O vaxt alma kətələrinin dəlisiydim.

Alman senzorları….....
.....çox kütdülər.

Madam, ideyalar barəsində təsəvvürünüz varmı? Dərzim mənə kostyum tikərkən: — bu pencəyin ideyası belədir" —dedi. Paltaryuyan qadın gileylənirdi: — keşiş qızımın başına elə ideyalar

yeridib ki, qızın ağlı çaşıb. Arabaçı deyinirdi: —bu nə əcaib ideyadır. Mən soruşanda ki, onun fikrincə ideya nədir, narazı halda: — İdeya — ideyadır da — deyə mırtıldadı. Sonra əlavə etdi — İnsanın başına gələn axmaq fikirlərdir ideya.

Mən də bu örnəklərə əsaslanaraq kitabımın adını "İdeyalar" qoydum. Kitabın da, müəllifin də adının heç bir əhəmiyyəti yoxdur. Mən şöhrətpərəst deyiləm, madam.

Amma mənim o qədər yaxşı mövzularım var ki, gərək onları yazmağa tənbəllik eləməyim. Nə qədər ki, mənim qəlbim sevgiylə doludur, ətrafımdakıların isə başında boşluq var — mövzu sarıdan kasadlıq çəkməyəcəm. Nə vaxtacan dünyada gözəl qadınlar var qəlbim həmişə sevgiylə çırpınacaq. Birindən soyuyan kimi dərhal başqasına aşiq olacam. Fransada krallar heç vaxt ölmədiyi kimi (Kral öldü, yaşasın kral!), mən də "Sevgi öldü, yaşasın sevgi" şüarıyla yaşayacam.

Növbənöv axmaqlar da heç vədə ölüb qurtarmayacaq, çünki müdriklik təkdir və onun müəyyən hüdudları var, axmaqlıq isə min cürdür və onun heç bir sərhədi yoxdur. Hətta düz deyiblər ki, dünyada axmaqlar insanlardan çoxdur.

Bəxtim gətirib, bizim zamanada axmaqların bolluğudur, amma mən yaxşı sahibkar kimi onlardan xəsisliklə istifadə edirəm. Eşitdim ki, marallarımdan *(tərcümədə Ə.Haqverdiyevin ifadəsindən ona görə istifadə edirəm ki, məhz bu söz mətnə uyğun gəlir, yerinə düşür — tərcüməçinin qeydi)* bəli, marallarımdan biri deyib: O, yəni mən, görəsən qocalanda nədən yazacaq? Heç nigaran qalmasın, elə tək bir o maralın axmaqlığı ömrümün axırına qədər mənə mövzu verməyə bəs edər.

Madam, insan başına güllə çaxmaq istəyəndə buna nə qədər desən səbəb tapa bilər. Amma özü bu səbəbin həqiqiliyini dərk edirmi? Məsələ bax bundadır. Son nəfəsimizə qədər özümüz özümüzlə komediya oynayırıq. Biz hətta öz iztirablarımızı belə maskalayırıq, ürək yarasından ölləndə də diş ağrısından şikayətlənirik.

Madam, siz diş ağrısının əlacını bilirsinizmi? Mənim diş ağrım ürəyimdədir. Bu çox ağır xəstəlikdir və onun əlacı bir neçə qram qurğuşun ya Berntold Şvartsın icad etdiyi zəhər tozudur.

İztirab qurd kimi ürəyimi hey gəmirir, gəmirirdi. Bu dərdə beşikdən mübtəla olmuşam və anam nənnidə mənə layla çalanda iztirablarıma da layla çalırmış. İztirab mənimlə birgə yuxuya gedir,

mənimlə birgə oyanırdı.

Mən böyüdükcə iztirabım da böyüyürdü və nəhayət elə iri oldu ki, ürəyimi parçaladı.

Eh, madam, ondansa gəlin xoş şeylərdən danışaq, toy paltarından, maskaraddan, kefdən və əyləncədən, tralalla, tralalla, tralalla…

FRİDRİX NİTSŞE
(1844-1900)
alman filosofu

ZƏRDÜŞT BELƏ DEYƏRDİ

(HAMI ÜÇÜN VƏ HEÇ KİM ÜÇÜN OLMAYAN KİTAB)

Zərdüştün (Zaratustranın) müqəddiməsi

Fövqəlbəşər və son insan haqqında

Zərdüştün otuz yaşı tamam olanda vətənini və vətənin gölünü tərk etdi, dağlara çəkildi. Burada o öz ruhundan və tənhalığından zövq alırdı və on il ərzində səadətindən usanmadı. Amma nəhayət qəlbi dəyişdi və bir səhər dan söküləndə durub üzünü günəşə tutdu, dedi:

—Ey böyük çıraq! Əgəb işıqlandırdıqların olmasaydı sənin səadətinin nə mənası vardı. On ildir öz işığını mağaramın üstünə salırsan və bundan usanardın, əgər mən olmasaydım, mənim qartalım və mənim ilanım olmasaydı.

Amma biz hər səhər səni gözləyirdik, səni qəbul edirdik və sənə xeyir-dua verirdik.

Bax! Həddən ziyadə bal toplayan arı kimi mən də öz müdrikliyimdən doymuşam. Mənə sarı uzanan əllərə ehtiyacım var.

Müdriklər dəliliklərinə sevinənəcən, kasıblar sərvətlərindən xoşlananacan mən bəxşişlər verəcəm. Buna görə aşağılara enməliyəm. Sən hər axşam etdiyin tək mən də dənizə dalmalıyam, sənin kimi işığımı dünyanın o biri tərəfinə aparmalıyam.

Yanlarına getmək istədiyim insanlar dediyi kimi mən sənin tək qürub etməliyəm.

Ən böyük xoşbəxtliyə də qısqanmadan baxıb sakit göz! Mənə xeyir-dua ver!

Dağılıan kuzəyə xeyir-dua ver ki, içindəki qızılı maye tökülsün və hər tərəfə sənin işığını yaysın.

Bax, bu kuzə yenə də boşalmaq istəyir və Zərdüşt yenidən insan olmaq istəyir.

Zərdüştün qürubu belə başladı.

Zərdüşt dağdan tək düşdü. Heç kəs çıxmadı rastına. Amma meşəyə girən zaman qəfilcən qarşısında bir qocanı gördü. Qoca müqəddəs komasını tərk etmişdi ki, ormanda meyvə kökləri axtarsın.

Qoca Zərdüştə belə deyirdi:

—Bu qərib mənə tanışdır. Neçə il qabaq burdan keçib. Adına Zərdüşt deyirlər. Heç dəyişməyib.

O zaman yükünü dağlara daşıyardın. Yandıranın cəzasından qorxmursan yəni? Bəli, Zərdüştü tanıdım. Baxışları safdır, dilində nifrət yoxdur. Bəlkə buna görə də elə yeriyir, elə bil rəqs edir.

Zərdüşt dəyişib, körpə uşaq olub Zərdüşt. Zərdüşt, oyanıb yatanlar arasında nə axtarırsan? Dəniz içindəymiş kimi tənhalıqda yaşayırdın, dəniz də səni yırğalayırdı. İndi nədi, quruya çıxmaq istəyirsən? Yenə öz bədənini özün daşımaq istəyirsən?

Zərdüşt cavab verdi:—Mən insanları sevirəm.

Qoca: — Məgər mən də bu səbəbdən meşəyə, səhraya çəkilmədimmi? — dedi — Məgər mən də insanları həddən artıq çox sevmirdimmi? İndi mən allahı sevirəm. İnsanları daha sevmirəm. İnsan mənimçün qeyri kamildir. İnsana sevgi məni öldürərdi.

Zərdüşt dedi:

—Mən məhəbbətdən də danışırdım. Mən insanlara hədiyyə gətirirəm.

Qoca:

—Onlara heç nə vermə — dedi. — Ondansa onlardan nə isə al və özünlə apar, onlar üçün də, sənin özün üçün də bu daha yaxşı olar. Əgər hökmən insanlara bir şey vermək istəyirsənsə kiçik bir sədəqə ver, özü də məcbur elə ki, yalvarıb alsınlar.

Zərdüşt:

—Yox — dedi — mən sədəqə paylamıram. Mən o qədər kasıb deyiləm ki, sədəqə paylayım.

Qoca Zərdüştün sözlərinə gülməyə başladı və dedi:

—Onda çalış ki, sənin sərvətini, xəzinəni alsınlar. Onlar tərki-dünyalara inanmırlar, inanmırlar ki, biz almağa yox, verməyə gəlirik.

Küçədə addımlarımızın səsi onlara eyni cür gəlir. Gecə vaxtı, şəfəqdən, günün çıxmasından çox-çox qabaq yataqlarında küçəylə gedən adamın addım səslərini eşidirlərsə, görəsən hansı oğrudur, gecənin bu vaxtı ova çıxıb — deyə düşünürlər. Getmə insanların yanına, meşədə qal. Ondansa heyvanların yanına get. Niyə mənim kimi olmaq istəmirsən — ayıların içində ayı, quşların arasında quşam.

Zərdüşt:

—Bəs meşədə sənin işin nədir? — deyə soruşdu.

—Mahnılar qoşur və oxuyuram. Mahnı qoşanda gülürəm, ağlayıram, burnumun altında nə isə deyib Allahı mədh edirəm.

Oxumaqla, ağlamaqla, gülməklə və mızıldanmaqla mən allahı, mənim allahımı mədh edirəm. De görüm sən bizə nə gətirmisən.

Bu sözləri eşidən Zərdüşt qocanın qulağına sarı əyildi:

—Mən sizə nə gətirə bilərəm ki… Qoyun tez çıxıb gedim ki, sizdən bir şey alası olmayım.

Bax beləcə hərəsi bir tərəfə getdi. Qoca və Zərdüşt bir-birindən balaca uşaqlar kimi gülə-gülə ayrıldılar.

Amma Zərdüşt tək qalanda ürəyində belə deyirdi: "Bu mümkündürmü? Bu qoca meşədə hələ eşitməyib ki, allah ölüb".

Meşədən çıxıb yaxınlıqdakı şəhərə girəndə Zərdüşt bazar meydanına yığışmış izdaham gördü. Onlara deyilibmiş ki, kəndirbaz çıxış edəcək. Zərdüşt izdahama belə deyirdi:

"Mən sizə fövqəlinsandan danışıram. İnsan elə bir varlıqdır ki, ondan üstün olmaq gərəkdir. İnsandan üstün olmaq üçün siz nə etmisiniz? İnsan üçün meymun nədir? Gülməli və biabırçı bir məxluq. Bax bu cür insan da fövqəlbəşər üçün gülməli və eybəcər görünür. Siz həşəratdan insana qədər ucalmısınız, amma hələ də həşərat əlamətləri çoxdur sizdə, Bir vaxt meymun olmusunuz, elə indinin özündə də insan bəzi meymunlardan daha çox meymundur. Ən müdriklərniz belə bitkiylə kabus arasında qeyri-ahəngdar, qeyri-müəyyən formadırlar. Baxın, mən sizə fövqəlbəşəri göstərəcəm.

Fövqəlbəşər — dünyanın mənasıdır. Qoy sizin iradəniz də desin, kaş fövqəlbəşər dünyanın mənası olsun. Sizə and verirəm, qardaşlarım, yerdən ucalara ümid bəsləyənlərə inanmayın. Onlar sizi zəhərləyirlər. Bunu bilsələr də, bilməsələr də.

Onlar həyata nifrət edirlər, özləri ölür, özləri özlərini zəhərləyir. Ö, torpaq da belələrindən bıkıb usanıb. Qoy məhv olsunlar —deyir.

Əvvələr allaha küfr etmək küfrlərin ən dəhşətlisi idi. Amma allah öldü və onunla bu küfr edənlər də öldü. İndi torpağa küfr etmək — ən dəhşətli cinayətdir. Həyatın mənasından daha artıq dərkolunmazın mahiyyətinə səcdə qılmaq da cinayətdir.

Gerçəkdən də insan — çirkab axınıdır. Gərək dəniz olasan ki, bu axını öz bətninə qəbul edib təmiz qalasan. Baxın mən fövqəlbəşərdən danışıram — o — dənizdir, bu dənizdə sizin böyük həqarətiniz bata bilər.

İnsanlar içində olmaq heyvanlar arasında olmaqdan daha təhlükəli

imiş. Zərdüşt meşədəki qocanın sözlərini xatırladı. Əgər mən də ilan kimi müdrik ola bilsəydim — deyə düşündü. Mən mümkünsüz bir şey istəyirəm, istəyirəm ki, müdrikliyim qururumla birlikdə addımlasın. Əgər haçansa müdrikliyim uçub getsə, qururum da, dəliliyim də onunla bir yerdə getsinlər.

Zərdüştün qürubu belə başladı.

Mən meşəni sevirəm. Şəhərlərdə yaşamaq çətindir. Orada ehtiraslı adamlar çoxdur. Ehtiraslı qadının arzusu olmaqdansa qatilin əlinə keçmək yaxşıdır. Baxın bu erkəklərə, gözlərindən görürsən ki, dünyada qadınla yatmaqdan yaxşı heç nə bilmirlər. Ah, əgər heç olmasa heyvanlar qədər kamil olaydılar. Heyvanlar məsumdur.

Məgər mən deyirəm ki, hisslərinizi boğun. Mən hisslərinizin günahsız olduğunu məsləhət edirəm. Məsumluq da məsləhət eləmirəm, Bəzilərində məsumluq — comərdlik, bəzilərində pozqunluqdur.

Məsumluğa gülənlər də var, xəbər alırlar: Nədir bu məsumluq dediyiniz?

Məsumluq — dəlilik deyilmi? Amma bu dəlilik bizə gəldi, biz bu dəliliyə gəlmədik.

Biz bu qonağa qəlbimizdə yer verdik. İndi o bizim qəlbimizdə yaşayır, nə qədər qalmaq istərsə o qədər qalsın.

Zərdüşt belə deyərdi.

MARK TVEN
(1835-1910)
amerikan yazıçısı

TENNESSİ ŞTATINDA CURNALİSTLİK

Həkim məsləhət gördü ki, cənuba gedim, oranın iqlimi səhhətimə yaxşı təsir edər. Tennessi ştatına gəlib "Səhər şəfəqi və Conson dairəsinin Döyüş çağırışı" qəzetində redaktor köməkçisi vəzifəsinə işə düzəldim. Mən redaksiyaya gələndə redaktor üç ayaqlı stulda oturub ayaqlarını masanın üstünə qoymuşdu. 1848-ci ilin dəbinə uyğun kostyum geymişdi, siqar çəkirdi, söz axtaran zaman əliylə saçlarını qarışdırırdı, odur ki, zülfləri çox pərişan halda idi. Mənə ilk tapşırığı belə oldu ki, bir küncə yığılmış son qəzetləri vərəqləyim və çap olunanlar əsasında icmal yazım. Qəzetlərlə tanış olub "Tennessi mətbuatının ruhu" adlı belə bir icmal yazdım:

"Görünür ki, "Həftəlik zəlzələ" qəzetinin redaksiyasına dəmiryolu kompaniyasının işi haqqında düzgün olmayan məlumat çatdırıblar. Şübhə etmirik ki, "Zəlzələ" qəzetindəki centlmenlər bu xırda yanlışa təkzib verəcəklər. "İldırım və Şimşək" qəzetinin istedadlı redaktoru Con Blossom dünən şəhərimizə gəlib, Van-Börenin yanında qalır. "Haray-həşir" qəzetindən hörmətli həmkarımız Van Venterin seçilməməsi haqqında səhv xəbərə, görünür inanıbmış, yəqin ki, bu səhvini tezliklə düzəldər"

Yazımı redaktora təqdim etdim. Vərəqləri tələsik gözdən keçirib qaş-qabağını salladı.

Sonra yerindən sıçrayıb:

—Aman allah, — dedi — doğrudanmı elə düşünürsünüz ki, mən bu heyvanlarla bu dildə danışıram. Elə bilirsiniz ki, bu yazınızı oxuyanda oxucularımızın ürəyi bulanmayacaq? Qələmi bura verin görüm.

Ömrümdə görməmişdim ki, qələm kağızı belə hiddətlə cırmaqlasın, felləri, isimləri bu cür alt-üst eləsin. Yazının hələ ortasına çatmamışdı ki, pəncərədən güllə atdılar və mənim sağ qulağımın fasonu bir balaca dəyişdi.

Redaktor:

—Aha, bu "Vulkan" qəzetindən dəyyus Smitdir, mən onu dünən gözləyirdim.

Cəld kəmərindən tapancasını çıxarıb pəncərədən çölə atəş açdı. Güllə Smitin dizinə dəydi və o yıxıldı. Ona görə də yaxşı nişan ala bilmədi. İkinci dəfə atəş açarkən heç bir dəxli olmayan kənar adamı yaraladı. Kənar adam mən idim. Düzdür, cəmi-cümlətanı bircə barmağımı itirdim.

Bundan sonra Baş redaktor yenə mətndə düzəlişlər və ixtisarlar etməyə başladı. Bu işi bitirməmişdi ki, buxar borusundan otağa qumbara düşdü, partladı və soba darmadağın oldu. Ayrı bir ziyan dəymədi. Əlbəttə mənim iki dişimin düşdüyünü nəzərə almasaq.

Baş redaktor təəssüflə: — Heyf — dedi — soba tamam dağıldı. Amma eyb etməz. Bu istidə soba nəyimizə gərəkdir. Mən bilirəm bunu edən kimdi. Yaxasını əlimdən qurtara bilməyəcək. İndi oxuyun, görün belə şeyləri necə yazmaq lazımdır.

Mən əlyazmamı götürdüm. Mətni o günə qoymuşdu ki, onu heç doğma anası da tanımazdı. Düzəlişlər etdiyi yazı belə şəklə düşmüşdü:

"Həftəlik Zəlzələ" qəzetinin fırıldaq, yalan ustaları görünür yenə də bizim nəcib xalqımızın başını qatıqlamaq istəyir, səhifələrini alçaq iftiralarla və kobud böhtanlarla doldururlar. Onların yazdıqlarını yalnız başında beyin yerinə xəşil olanlar yaza bilər. Qoy sözlərini geri götürsünlər, yoxsa dedikləri boğazlarında qalacaq, çürük cəmdəklərini çoxdan layiq olduqları şallaqdan qurtara bilməyəcəklər. "İldırım və Şimşək" qəzetinin redaktoru uzunqulaq Brüssom yenə şəhərimizə gəlib və Van Brünenin böyür başında sülənir. "Haray-həşir" qəzetinin çoxdan ağlını itirmiş başıboş müxbiri yazır ki, guya Van Venter seçilməyib. Jurnalistin ülvü amalı həqiqət toxumları səpmək, ictimai əxlaq və mənəviyyatın keşiyində durmaq, oxucuları maarifləndirmək və tərbiyələndirmək, mərhəmətli və nəzakətli olmaqdır. Bu yaramaz alçaqlar isə yalnız yalan, böhtan, təhqir və söyüş ifraz etməklə məşğuldurlar. Onlar söz yazmırlar, söz qusurlar.

Vərdiş etdikləri idiotizmlə belə yazılar yazan boşboğazların cavabını vaxtında verməsən qudurarlar" .

Oxuyub bitirdiyimi görən Baş rehaktor:

—Bax belə yazmaq lazımdır — dedi — duzlu, istiotlu, bibərli, acı… Artıq-əskik söz işlətmədən. Sizin süddü-sıyıq yazınızdan isə

oxucuları yuxu basar.

Elə bu an çöldən atılan iri bir kərpic gurultuyla pəncərədən içəri düşdü. Doğrusu kərpic otağa yox, mənim belimə düşdü. Hiss etdim ki, deyəsən mən burda artıq adamam.

Redaktor dedi:

—Hə, yəqin polkovnikdir. Üç gündür onu gözləyirəm. İndicə özü də təşrif buyuracaq.

Elə ağzından bu söz çıxmışdı ki, qapıda polkovnik göründü, əlində iri bir tapanca vardı.

Polkovnik:

—Ser — dedi — deyəsən mən qarşımda bu murdar qəzeti redaktə edən qorxaq əclafı görürəm.

Redaktor:

—Tamamilə doğrudur — dedi — buyurun əyləşin, yavaş, ehtiyatlı olun, bu stulun bir qıçı yoxdur. Deyəsən siz alçaq yalançı, polkonik Blezerskaytsınız?

—Tamamilə doğrudur, ser. Mən gəldim sizinlə bir balaca haqq-hesab çəkim. Əgər boşsunuzsa elə indicə başlayaq.

—Əlimdə işim var, "Amerikada mənəvi və intellektual tərəqqi" məqaləsini bitirməliyəm, amma, zərər yoxdur, tələsik iş leyil. Başlayaq.

Hər iki tapancadan eyni zamanda atəş açıldı. Redaktor bir çəngə saçını, mən isə o biri qulağımın yarısını itirdim. Polkovnik çiynindən yaralandı. Yenə atəş açdılar. Bu səfər rəqiblərin heç birinə ziyan dəymədi, amma hansınınsa gülləsi budumun içində qaldı. Üçüncü atəş zamanı hər ikisi yüngülcə yaralandılar, mənimsə topuğum şikəst oldu. Dedim ki, bu hörmətli centlmenlərin şəxsi işidir və mənim burda qalıb onların mübahisələrinə müdaxilə etməyim yaxşı deyil. Hər ikisi dedi ki, yox. yox, onlara əsla mane olmuram və israrla təkid etdilər ki, getməyim.

Tapancalarını yenidən doldurduqları zaman seçkilər haqqında, bü ilin məhsul yığımı haqqında söhbət edirdilər. Mən də yaralarımı sarıyırdım. Tapançalarını dolduran kimi dərhal yenidən atəşfəşanlığa başladılar və bircə güllə də hədər getmədi, çovumadı. Altı güllədən beşi mənim əndamımda qaldı. Altıncı güllə isə polkovniki ölümcül yaraladı. Polkovnik zarafatından qalmadı, əfsus ki, dedi, sizinlə vidalaşmalıyam. Şəhərdə işim var. Tabut düzəldənin ünvanını soruşub getdi.

Redaktor mənə sarı baxıb dedi:

—Nahar vaxtı qonaq gözləyirəm, onları qarşılamağa hazırlaşmalıyam. Mən indi gedirəm, siz, zəhmət olmasa korrekturanı oxuyun və gələn qonaqları qəbul edin.

Cons üçdə gələcək, onu şallaqlayın. Qilspay yəqin ki, daha əvvəl gələr, onu pəncərədən bayıra atın. Ferqüsson dörddə gələcək, gülləni çaxın təpəsinə. Bu günlük gərək ki, elə budu. Boş vaxtınız qalsa polislər haqqında bir zorba yazı yazın, təpələrindən vurun o haramzadaların. Baş inspektorun dədəsinə od qoyun. Hə, şallaq şüşənin altında, tapanca, güllələr və barıt masanın siyirtməsindədir. Bint, pambıq və yod dolabın içindədir. Əgər başınıza bir iş gəlsə Lansetin yanına gedin — cərrahdır, alt mərtəbədə olur, biz onun elanlarını müftə çap edirik.

Redaktor getdi. Nə edəcəyimi bimirdim. Üç saat bir an kimi keçdi. Gilspay gəldi və məni pencərədən atdı. Consu şallaqlamaq istəyirdim ki, şallağı əlimdən alıb özümü şallaqladı. Siyahıda olmayan naməlum müsafir isə başımı yardı. Elə bil himə bənd imişlər kimi gözləri hədəqəsindən çıxmış bir sürü qəzetçi, siyasətçi, iş adamı, oxucu, başkəsən, daha nə bilim kim üstümə cumdu. Tapancalarından atəş açır, çığırıb-bağırır, məni təpikləyir, döyürdülər. Xoşbəxtlikdən elə bu vaxt redaktor gəlib çıxdı. Başında böyük bir dəstə vardı — öz adamları, tərəfdarları, heyranları. Bir dava, mərəkə qopdu, gəl görəsən.

Atəş açan kim, xəncəl-bıçaqla bir-birini yortan kim, kəllə atan kim, partlayış törədən kim… Hələ bir-birini pəncərədən bayıra vızıldadanları demirəm.

Beş dəqiqədən sonra sakitlik çökdü və otaqda yalnız qanına qəltan olmuş ikimiz — mən və baş redaktor qaldıq.

Redaktor dedi:

Bir azdan alışacaqsınız, vərdiş edəndən sonra bu iş xoşunuza gələcək.

—Yox, —dedim — üzr istəyirəm. Bəlkə bir müddətdən sonra mən də sizin kimi yazmağı öyrəndim, amma belə yazmağın bir çətinliyi var, hər an sənə mane olurlar, işindən ayırırlar. Pəncərədən bayıra atılandan sonra yazmaq lap zor olur. Mən cənuba gəlmişdim ki, müalicə olunum. Amma Tennessi də jurnalistlik çox qaynar iş imiş. Mənlik deyil.

Bir-birimizlə çox mehriban vidalaşdıq və mən dərhal xəstəxanaya

yola düşdüm.

ANTON ÇEXOV
(1860-1904)
rus yazıçısı

ŞİKAYƏT KİTABI

Bu kitab dəmiryol stansiyasında məxsusi onun üçün qurulmuş dolabda saxlanır. Dolabın açarı stansiya jandarmındadır, amma əslində heç açar-filan gərək deyil, dolab həmişə açıqdır. Kitabı açın və oxuyun:

"Hörmətli cənab, qələminin gücünü yoxlayırsan?"

Bu yazının altında uzunburun bir sifət çəkilib, təpəsində buynuzları da var. Şəklin altında belə yazılıb:

"Mən portretəm, sən şəkil. Sən heyvansan, get, çəkil. Mən sənin sifətinəm".

"Bu stansiyaya yaxınlaşanda və pəncərədən təbiətin seyrinə dalanda papağım başımdan uçdu. İ.Yarmonkin"

"Kim yazıb gərək baxaq, oxuyuram mən axmaq".

"İddialar masasının rəisi Kolovreyev bunu əbədi xatirə üçün yazdı"

"Müdiriyyətə şikayətimi çatdırıram o səbəbdən ki, konduktor Kuçkina mənim arvadıma qarşı kobudluq etdi. Neçin ki, arvadım heç də hay-küy qoparmırdı, əksinə çalışırdı ki, hər şey sakitliklə ötüşsün. Eləcə də jandarm Klyatvindən şikayətim var, hansı ki, kobud şəkildə mənim çiynimdən yapışdı. Mən Andrey İvanoviç İşşeyevin malikanəsində oluram, hansı ki, mənim tərbiyəmə yaxşı bələddir. Kontorçu Samoluçşev".

"Nikandrov sosialistdir".

"Biabırçı hərəkətinin (üstündən xətt çəkilib) təzə təsiri altında olaraq (xətt çəkilib) bu stansiyadan keçərkən mən çox qəzəbləndim ki, (üstündən xətt çəkilib) gözümün qabağında bu biabırçı hadisə baş verdi, bu da bizim dəmir yollarımızda baş verən qanunsuzluqların (bundan sonra hamısının üstündən xətt çəkilib, bir sonda imza qalıb) Kursk gimnaziyasının 7-ci sinif şagirdi Aleksey ZudyevU.

"Qatarın yola düşməsini gözlərkən mən stansiya rəisinin sifətinə baxdım və çox narazı qaldım. Qoy bunu hamı bilsin. Həmişə kefi

kök olan kənd adamı"

"Mən bilirəm bunu kim yazıb. Bunu M. D. yazıb"

"Cənablar! Telsovski fırıldaqçıdır!"

"Jandarmanın arvadı dünən bufetçi Kostkayla çayın qırağına getmişdilər. Allah xeyir versin. Jandarm, kefini pozma!"

"Bu stansiyadan keçərkən və ac olmağım səbəbiylə fikirləşdim ki, bir şey yeyim, amma ətsiz yemək tapa bilmədim. Keşiş Duxov"

"Qabağına nə qoyurlar, ye!"

"Dəri portsiqarı tapan kassada Andrey Yeqorıça versin"

"Məni işdən qovurlar, güya mən pyaniskayam, odur ki, elan edirəm, siz hamınız oğru və dələduzsunuz. Teleqrafçı Kozmodemyanski"

"Xeyirli işlər tutun"

"Katinka, mən səni dəlicəsinə sevirəm"

"Xahiş elirəm Şikayət kitabına dəxli olmayan şeylər yazmayasız. Stansiya rəisini əvəz edən 7-ci İvanov"

"Yeddinci olsan da sarsağın birisən".

RABİNDRANAT TAQOR
(*1861-1941)*
Hind yazıçısı

"BAĞBAN" kitabından

Mən dinclik nədir, bilmirəm. Uzaqlarda olanın həsrətindəyəm. Qəlbim dumanlı uzaqların kənarına toxunmaq arzusundan üzülür.

Ah, böyük Ora, ah, sənin neyinin zil çağırış səsi!

Mən unuduram, mən daima unuduram ki, qanadlarım yoxdur, bura əbədilik bağlanmışam.

Mən yanıram, gözlərimi yumuram, yad ölkədə qəribəm.

Sənin nəfəsin qulağıma müşgül ümidlər pıçıldayaraq mənə gəlib çatır.

Sənin dilin öz dilim qədər mənə yaxındır.

Ah, əlçatmaz uzaqlar, ah, neyin zil çağırış səsi!

Mən unuduram, həmişə unuduram ki, yolu bilmirəm, unuduram ki, qanadlı köhlənim yoxdur.

Mən hər şeyə biganəyəm, öz xəyalımla səyahət edirəm.

Yorucu saatların günəşli çağlarında, zümrüd rəngli səmada sən möhtəşəm xəyal kimi zühur edirsən. Ah, son hədd, ah, neyin zil çağırış səsi!

Mən unuduram, daima unuduram ki, tənha yaşadığım evin bütün qapıları bağlıdır.

***

O hər gün gəlir, gedir.

Dostum, get və hörüklərimdən ona bir çiçək ver.

Bunu kim göndərib deyə sorsa, yalvarıram, adımı ona bildirmə, axı o yalnız gəlir, gedir.

O, ağacın altında, yerdə oturur.

Dostum bu yerə güllər, yarpaqlar səpələ.

Gözləri kədərlidir və mənim də könlümü kədərləndirir.

O, qəlbindəkiləri demir, yalnız gəlir, gedir.

***

O qız iti addımlarla yanımdan keçəndə, paltarının ətəyi mənə toxundu. Könlün gizli adasından baharın ilıq nəfəsi gəldi. Bu ani

toxunuş məni ehtizaza gətirdi, bu titrəyiş küləyin sovurduğu çiçək ləçəyi kimi dərhal qeyb oldu.

Bu ehtizaz onun bədəninin ahı kimi, qəlbinin pıçıltısı kimi ürəyimə düşdü.

***

Mənim xəyallar səmamda axan axşam buludusan.

Daima səni rəngdən rəngə salır, eşqimin intizarıyla şəklini dəyişirəm. Mənimsən, bütünlüklə mənimsən, mənim sonsuz xəyallarımın sakinisən.

İstəklərimin atəşində ayaqların qızılgül təkidir, sən mənim qürub nəğmələrimin biçinçisisən. İztirabımın şərabından dodaqların şəhvət acısı almışdır. Sən mənimsən, tamamilə mənimsən, mənim tənha xəyallarımın sakinisən.

Ey mənim baxışımın dərinliyində yaşayan Varlıq, ehtirasımın kölgəsi gözlərini kədərləndirmişdir.

Səni tutub nəğmələrimin toruna salmışam, sevgilim.

Mənimsən, bütünlüklə mənimsən, mənim sonsuz xəyallarımın sakinisən.

***

Qəlbim səhra quşudur, fəzasını gözlərində tapmışdır. Gözlərin səhərin beşiyidir, gözlərin ulduz kəhkəşanıdır.

Nəğmələrim onların dərinliklərində itir. Qoy yalnız bu fəzada, onun intəhasız boşluğunda pərvaz edim. Qoy yalnız onun buludlarını parçalayım, onun günəş parıltısında qanadlarımı açım.

***

Məni səni sevirəm, əzizim, sevgimi əfv et.

Yolunu azmış quş təkin tutulmuşam.

Ürəyim titrəyəndə örtüyü düşdü, üstü açıldı. Şəfqətinlə ört onu, əzizim, sevgimi əfv et. Məni sevə bilmirsənsə, əzizim, iztirabımı əfv et. Mənə tərs-tərs baxma. Öz küncümə çəkilib qaranlıqda əyləşərəm.

Əllərimlə çılpaq həyamı örtərəm.

Üzünü məndən çevir. əzizim, iztirablarımı əfv et. Əgər məni sevirsənsə sevincimi əfv et. Könlümü səadət axını apararkən, bu fəlakətli hicranıma gülmə. Öz taxtıma çıxıb, sənə, məhəbbətimin müstəbidinə hökm edərkən, bir ilahə kimi sənə rəhm edəcəm, o zaman mənim qürurum qarşısında əyil, əzizim, sevincimi əfv et.

***

Sən gedəndə günorta idi.

Günəş göydə parlayırdı.

Sən gedəndə mən işimi qurtarıb tək-tənha eyvanda əyləşmişdim. Şiddətli külək uzaq tarlaların ətrini gətirirdi.

Kölgəliklərdə göyərçinlər aramsız civildəşir, otağımda arı vızıldayır, uzaq çöllərin xəbərlərini mənə yetirirdilər. Kənd günorta bürküsü içində mürgü döyürdü. Yol boş idi.

Bəzən yarpaqların xışıltısı eşidilirdi, sonra hər yer sükuta qərq olurdu. Mən səmaya baxırdım və lacivərd göylərdə bir adın hərflərini görürdüm. Bu adı mən kənd günorta bürküsündə mürgüləyəndə bilmişdim. Saçlarımı hörməyi unutmuşdum. Yungül meh onları yanağımda oynadırdı.

Kölgəli sahillər arasında çay sakit-sakit axırdı. Ağ tənbəl buludlar hərəkətsizdi.

Saçımı hörməyi unutmuşdum. Sən gedəndə günorta idi. Yolların tozu istiydi, tarlaların nəfəsi qızmardı. Göyərçinlər sıx yarpaqlar arasında civildəşirdi. Sən gedəndə mən tək-tənha eyvanda oturmuşdum.

"GİTANCALİ" KİTABINDAN

O yerdə ki, fikir qorxusuzdur və məğrur başlar ucadır,
O yerdə ki, bilik azaddır,
O yerdə ki, dünya sədlərlə hücrələrə bölünməyib,
O yerdə ki, sözlər həqiqətin dərinliklərindən gəlir,
O yerdə ki, istək öz əllərini kamilliyə uzadır,
O yerdə ki, zəkanın işıqlı axını qumların bəhərsiz və ölü səhrasında dolaşır,
O yerdə ki, zəka yüksək qayələr və işlərə doğru yönəlib
Ölkəm bax o yerlərdə — azadlıq fəzalarında oyansın.

***

Dünyayla vidalaşmaq dəmi gələndə son sözlərim bu olsun: Mənim gördüklərim misilsizdi. Mən bu işıqlı nəhrlə açılan lotosun pünhan ləzzətini duydum və bəxtiyar oldum — qoy bu mənim son sözüm olsun.

Formaların nəhayətsiz dəyişikliyində mən də iştirak etdim və mən forma bilməyən bir varlığın sifətini gördüm.

Duyulmaz bir varlığın toxunuşundan bütün bədənim, bütün əzalarım ehtizaza gəldi və əgər aqibət mütləqdirsə, nə etməli — qoy bu mənim son sözlərim olsun.

"KÖÇƏN QUŞLAR" KİTABINDAN

Yayın köçən quşları uçub pəncərəmin önünə gəlirlər, onlar öz nəğmələrini oxumaq, sonra da uzaqlara uçmaq üçün gəlirlər. Nəğməsiz xəzan yarpaqları isə titrəyir, torpağa tökülür, ah çəkib mənimlə qalır.

Günəş hanı? — deyə göz yaşları axıdırsansa ulduzları görməyəcəksən.

Qəlbimin kədərinə rahatlıq sinir, sakitləşmiş ağacların altına axşam sinən kimi.

Sənin kim olduğunu görmürəm, gördüyüm ancaq sənin kölgəndir.

Var olmağım mənimçün əbədi möcüzədir. Həyat da elə budur.

Sularda balıq susur, torpaqda heyvan böyürür, göylərdə quş ötür. İnsansa özündə dənizin sükutunu da, torpağın hay-küyünü də, göylərin nəğmələrini də yaşadır.

Balta sapını ağacdan istədi. Ağac verdi.

Su qabda şəffaf, dənizdə tünd olur. Kiçik həqiqətlərin sözləri aydındır, böyük həqiqətlərin sükutu böyükdür.

Axşam səması mənimçündür — pəncərə… yandırılmış çıraq. Kimsə məni gözləyir.

Adamlar amansızdır, lakin İnsan mərhəmətlidir.

Ürkək fikirlər, məndən qorxmayın, mən — şairəm.

Yalan güc ola bilər, amma heç vaxt həqiqət ola bilməz.

Həqiqət özünə qarşı elə bir tufan qaldırır ki, bu tufan onun toxumlarını hər yana səpələyir.

Qoy son sözlərim bu olsun: Sənin eşqinə inanıram.

ZİQMUND FREYD
(1856-1939)
Avstriya alimi, psixiatr-həkim,
psixoanalizin banisi

MÜHARİBƏ MÜTLƏQDİRMİ?
ALBERT EYNŞTEYNƏ MƏKTUB

Vena, sentyabr, 1932

Əziz cənab Eynşteyn!

Biləndə ki, mənə Sizi maraqlandıran və rəyinizcə başqalarının da diqqətini çəkməyə layiq olan bir mövzunun müzakirəsində iştirak etməyi təklif edirsiniz, dərhal razılaşdım. Elə düşünürdüm ki, seçdiyiniz mövzuya hər birimiz — fizik ya psixoloq, bu gün nail olduğumuz biliklər səviyyəsindən yanaşa bilər və beləliklə hərəmiz bir tərəfdən yola çıxsaq da eyni bir nöqtədə görüşə bilərik. Amma düzü, məsələnin qoyuluşu məni təəccübləndirdi: Bəşəriyyətin müharibənin dəhşətli təhlükəsindən xilas olunması üçün nə etmək lazımdır? İlk anda özümün (az qala deyəcəkdim hamımızın) bu məsələdə səriştəsizliyimizdən qorxdum, axı müharibənin olub olmamasını praktik cəhətdən dövlət xadimləri həll edir. Daha sonra anladım ki, siz məsələni alim-fizik kimi yox, humanist dünyagörüşlü insan kimi qoyursunuz. Onu da düşündüm ki, məndən konkret təkliflər gözləmirlər, mən yalnız müharibənin qarşısını almaq problemini psixoloq kimi dəyərləndirməliyəm.

Siz sözünüzə hüquq və hakimiyyətin münasibətindən başlayırsız. Yəqin ki, bizim araşdırmamız üçün bu dəqiq başlanğıcdır. Amma olarmı mən "hakimiyyət" sözünü daha sərt "güc" sözüylə əvəz edim. Çünki bu gün bir-birinə qarşı duran Hüquq və Gücdür. Hüququn gücdən yarandığını isbat etmək çətin deyil. Əgər bu işin qaynaqlarına müraciət etsək, lap əvvəllərə getsək problemin mahiyyətini görərik. Bağışlayın ki, indi mən hamıya məlum olan və hamının qəbul etdiyi məsələlərdən danışacam. Belə görünməsin ki, nə isə təzə bir şey deyirəm, amma toxunduğumuz mövzu bunları deməyi məcbur edir.

Prinsipial məsələ odur ki, insanlar arasında konfliktlər, maraqların toqquşması Güc vasitəsiylə həll olunur. Bütün canlılar aləmində

belədir və insan özünü bu aləmdən ayırmamalıdır. İnsanlarda buna fikirlərin konflikti əlavə olunur. Amma bu daha sonrakı dövrün qəlizliyidir. Əvvəllər, ilkəl dövrdə insan ordasında yalnız əzələlərin gücü kimə nəyin məxsüs olacağını və kimin iradəsinin qalib gələcəyini müəyyənləşdirirdi. Az sonra əzələlərin gücünə hücum ya müdafiə alətlərinin istifadə olunması da əlavə edilir. Kimin silahı daha mükəmməldirsə və kim bu silahdan daha ustalıqla istifadə edə bilirsə o qalib gəlir. Silah meydana çıxandan bəri zəka üstünlüyü əzələ üstünlüyündən daha önəmli olmağa başlayır. Amma toqquşmanın son məqsədi elə əvvəlki kimi qalır. Rəqiblərdən biri aldığı zədələr nəticəsində və gücünün zəiflədiyi üçün iddialarından da, mübarizədən də əl çəkməli olur. Məqsədin son həddi düşmənin tamamilə yox edilməsi, yəni öldürülməsidir. Bunun əhəmiyyəti ondadır ki, düşmən daha heç vaxt qisas ala bilməyəcək və onun taleyi belə fikrə düşə biləcək bütün başqaları üçün də görk olacaq. Bundan başqa düşmənin qətli insana xas olan instinktiv qəddarlıq meyli ilə də bağlıdır ki, bu barədə sonralar danışacam. Amma düşməni öldürmək istəyinə qarşı başqa bir fikir də əmələ gəlir — öldürməkdənsə həyatını saxlayıb onu özün üçün qul kimi iştifadə edə bilərsən. Bu halda düşməni yenməyinlə, qul kimi işlətməyinlə qürur duyursan, amma eyni zamanda təhlükəsizliyinə xələl gəlir, axı həyatını saxlamış düşmənin qisas, intiqam həvəsi də qalır.

Mən ibtidai dövrün münasibətlərini bu cür görürəm. Onu da bilirik ki, bu münasibətlər tarixi inkişaf boyu müəyyən təbəddülata uğrayır. Yol Gücdən Hüquqa doğru yüksəlir, amma bu yol özü necədir? Fərq ancaq ondadır ki, ayrı fərdin gücü cəmiyyətin, dövlətin gücüylə əvəz olunur. Cəmiyyət özünü qorumaq üçün təşkilatlanmalıdır, qanunlar çıxarmalıdır, təhlükəli qiyamların qarşısını almaq üçün bu qanunlara nəzarət edən orqanlar yaratmalı və lazım gələndə onların vasitəsiylə güc tətbiq etməlidir. Bu sayaq maraqların eyniyyəti nəticəsində hisslərin birliyi və birlik hissi yaranır ki, bu da ən real müdafiə qalasıdır.

Eyni bir cəmiyyətdə də bir-biriylə ziddiyyət təşkil edən qüvvələr var və onların konfliktini də Güc vasitəsiylə həll etmək lazım gəlir. Amma cəmiyyətin içində bir-biriylə konfliktə girən insanları xarici təhlükə yenidən birləşdirir, axı onlar eyni ərazidə yaşayan, eyni xalqın, eyni dövlətin nümayəndələridir və öz aralarında nə qədər ziddiyyət olsa da xarici Gücün qarşısında birlik nümayiş

etdirməlidirlər. Bəşər tarixi daima ayrı-ayrı qəbilələr, xalqlar, imperiyalar arasında toqquşmalardan xəbər verir və bu toqquşmalar həmişə müharibələrlə tamamlanır. Müharibələr də yenilən tərəfin qarət olunması, tamamilə qula çevrilməsiylə nəticələnir. Bu sayaq müharibələrin tarixi nəticələri də müxtəlif olur. Bəzi təcavüzkar savaşlar yenilmiş xalqa yalnız müsibətlər gətirir, bəzi davaların nəticəsi isə daha kamil, daha iri və deməli yaşama imkanları daha güclü olan dövlətlər yaradır. Qədim Roma imperiyası buna örnəkdir. Fransız krallarının sərhəd əraziləri öz dövlətlərinə qatmaq istəyi Fransanın yaranmasına — sülhsevər, çiçəklənən və birləşmiş ölkənin yaranmasına səbəb oldu.

Çağdaş dövrümüzə müraciət etsək bu kiçik icmalımızdan bəlli olan eyni nəticələrə gələcəyik. Müharibələrin qarşısı yalnız o zaman alına bilər ki, insanlar, xalqlar, dövlətlər birləşib Mərkəzi hakimiyyət yaratsınlar və bu hakimiyyət bütün konfliktlər haqqında Hüquq əsasında qərar verə biləcək son mərhələ olsun. Bunun üçün iki şərt lazımdır. Birincisi belə bir orqanın yaranması, ikincisi onun yetərincə güclü olması. Bü şərtlərdən biri olmadan onun uğuru mümkün deyil. Millətlər Liqası belə bir təşkilat kimi nəzərdə tutulmuşdu, amma ikinci şərtə əməl olunmadığı üçün bir şey edə bilmədi.

İndi mən Sizin dediklərinizdən biri üstündə də dayanmaq və ona şərh vermək istəyirəm. Siz təccüblənirsiniz ki, insanlar çox asanlıqla müharibə isteriyasına qapılarlar və belə güman edirsiniz ki, hansısa nifrət və dağıdıcı instinkt onları müharibələrə sövq edir. Tamamilə haqlısınız. Biz insanda belə bir meylin olduğuna inanırıq və son illər bu instinktin zahiri bəlirlərini öyrənməyə çalışırıq. İzn verin psixoanalizin çoxlu təcrübə və şübhələrdən sonra gəldiyi nəticələrin bir qismiylə Sizi tanış edim. Bizim fikrimizcə insanın iki meyli olur: biri qoruyucu və birləşdirici — biz bu meyli erotik adlandırırıq. Platonun "Ziyafət"də bu sözü işlətdliyi mənada. Bunu geniş anlamda seksuallıq kimi də dəyərləndirmək olar. İkinci meyl isə aqressiv, destruktiv, dağıdıcı meyldir. Görürsünüz ki, əslində söhbət məlum qarşıdurmanın — Məhəbbət və Nifrət qarşıdurmasının nəzəri əsaslandırılmasından gedir. Ancaq gəlin bu qarşıdurmanı Xeyir və Şər qarşıdurması kimi qiymətləndirməyə tələsməyək. Bu iki meylin ikisi də lazımdır, onların əlaqəsi və toqquşması həyatın rəhnidir. Bunlar bir-biriylə sıx bağlıdır və bir-birini tamamlayır. Məsələn özünüqoruma instinkti təbiəti etibarilə erotik instinktdir, amma

həyata keçməsi üçün aqressivlik tələb edir. Əgər mənim fikirlərimi izləməkdə davam etmək istəyirsinizsə bir şeyə də diqqət edin. İnsanların hərəkətlərində bu iki meyldən ancaq çılxa birinə rast gəlmək olmur, bu ya digər dərəcədə hər ikisi vəhdət təşkil edir — eros və dağıdıcılıq.

Mənə elə gəlir ki, müharibə təhlükəsinin aradan qalxması məsələsindən danışmaqdansa Sizin vaxtınızı öz nəzəriyyələrimlə aldım. Amma hər halda yenə də dağıdıcılıq meyli üstündə bir azacıq durmaq istərdim. Bəzi müşahidələr nəticəsində belə bir nəticəyə gəldim ki, bu dağıdıcılıq meyli hər bir insanın içində var və onun son məqsədi həyatı yenidən cansız materiyaya çevirməkdir. Bu meyli tam haqla ölüm meyli adlandıra bilərik, erotik meyl isə təbii ki, həyat meylidir. Bütün deyilənlərdən belə nəticə çıxarmaq olar ki, nə qədər calışsaq da insanı aqressiv meyllərdən xilas etmək mümkün deyil. Məsələ ancaq bu cür qoyula bilər ki, bu aqressivliyi tamamilə aradan götürə bilməsək belə, onu uzaqlara yönəltmək olar. Elə sahələrə ki, müharibələrlə nəticələnməsin. Müharibəyə meyl dağıdıcılıq instinktiylə yaranırsa ona qarşı erotik meyli qoymaq olar.

Görürsünüzmü, çağdaş problemlərdən uzaq nəzəriyyəçidən bu məsələlərlə bağlı bir fayda almaq çətindir. Nədən biz müharibəyə bu qədər nifrət edirik? Axı müharibənin bioloji əsasları var, praktik olaraq onun qarşısını almaq qeyri-mümkündür. Məsələni belə qoyduğuma görə dəhşətə gəlməyin. Nə qədər ki, dünyada varlılar və kasıblar var, nə qədər ki, başqa millətləri məhv etmək istəyən millətlər var, həmin bu məhvi planlaşdırılan millətlər də silahlı müqavimətə hazır olmalıdırlar. Amma biz bu məqamda dayanıb durmaq istəmirik. Mənim fikrim ayrıdır: Məncə biz müharibəyə ona görə nifrət edirik ki, pasifistik. Təbiətimiz etibarilə pasifistik. Başqalarının da pasifist olacağını çoxmu gözləməliyik? Bunu demək çətindir, amma bu xam xəyal da deyil. Pasifist mövqeyin get-gedə daha geniş yayılmasına səbəb əvvəla mədəniyyətin təsiri, ikincisi gələcək müharibələrin dəhşətlərindən qorxu hissidir. Bəlkə də buna görə yaxın zamanlarda müharibələrə son qoyulacaq. Bu hansı yolla olacaq, indidən deyə bilmərik, amma bir şeyi qəti bilirik — mədəni inkişafa xidmət edən hər şey müharibələrin əleyhinə işləyir.

Mən Sizi ürəklən salamlayıram və əgər mülahizələrim Sizi təmin etmirsə, məni bağışlamanızı xahiş edirəm.

Sizin Ziqmund Freyd.

MARSEL PRUST
(1871-1922)
fransız yazıçısı

"İTMİŞ VAXTIN SORAĞINDA" romanlar silsiləsindən
"SVAN TƏRƏFİ" romanından bir parça.

—Cənab, saat səkkizdir, dəllək də gözləyir, Dedim ki, bir saatdan sonra gəlsin.

Amma bu kəlmələr Svanı bürüyən yuxu dalğalarının içinə girərək onun şüuruna — şüa suyla dolu qabın dibinə sınaraq çatdığı kimi çatdı. Eynən o cür oyanışından bir neçə an əvvəl eşitdiyi zəng səsi də yuxulu şüurunun dərinliklərində iri bir çan kimi gürladı və Svanın xəyalında yanğın səhnəsini canlandırdı. Onun qapalı gözlərində canlanan bu dekorlar gözlərini açan kimi uçub dağıldı və bu an son dəfə dəniz dalğalarının uğultusunu eşitdi, bu uğultu da get-gedə daha uzaq və boğuq gəlirdi. Əlini yanaqlarına çəkdi. Qupquruydular. Amma soyuq suyun təmasını və duz dadını hələ də duyurdu. Durdu, geyindi. Dəlləyə demişdi ki, tez gəlsin. Çünki babama onun yanına — Kombreyə gəlmək niyyətində olduğunu yazmışdı. Bu istək Svanda xanım Kambremerin bu şəhərcikdə bir neçə gün qalacağını biləndən sonra oyanmışdı.

Bu gənc çöhrənin gözəlliyi haqqınla xatirələr kənddəki malikanə haqqında anımlarla qaynayıb-qarışdı. Neçə vaxt idı ki, o malikanədə olmamışdı. Bu fikir ona cazibəli göründü və axır ki, bir neçə günlüyə Parisi tərk etmək qərarına gəldi. Bizi müəyyən adamlarla rastlaşdıran təsadüflər sonralar onlara aşiq olacağımız zamanlarla eyni vaxta düşmür. Bu görüşlər sevgimizin başlanmasından əvvələ də təsadüf edə bilər və sevgimiz bitəndən sonra təkrar yaşanıla bilər. Ona görə də həyatımıza belə bir adamın ilk dəfə daxil olması, sonralar ona aşiq olarkən bizimçün xüsusi əhəmiyyət kəsb edir. Sanki bu bir önduyum, ürəyə dammaqmış. Bax beləcə Svan Odettanı ilk dəfə teatrda gördüyünü və bu ilk axşamda onu bir daha görə biləcəyini düşünməməsini yada saldı. İndi də xanım Sent-Evertgildə, general de Froberi xanım Kambremerlə tanış etdiyini xatırlayırdı. Həyatımızın maraqları o qədər çoxcəhətlidir ki, eyni bir hadisə bizim hələ

mövcud olmayan xoşbəxtliyimizin əsasını qoyur yaxud da bizi gələcək iztirablara qərq edir.

Əlbəttə bu Svanın başına xanım Sent-Evertgildə yox, başqa bir yerdə də gələ bilərdi. Kim bilir, bəlkə o axşam başqa bir yerdə olsaydı sonralar onun bəxtinə tamamilə ayrı sevinclər, ayrı bəlalar düşərdi və o, bunları labüd sayardı. Amma Svan xanım Sent Evertgildəydi və orada baş verənlər ona mütləq baş verməli olan hadisələr kimi gəlirdi. Ona elə gəlirdi ki, bu bir qismət idi — yəni o gecə xanım Sent-Evertgilə getmək qərarı qaçılmaz bir qəzavü-qədər idi. Svanın şüuru eləydi ki, həyatın təklif etdiyi zənginliklərə heyran olurdu, ona görə də hər hansı bir məsələnin üstündə çox dura bilmirdi. Məsələn, təyin edə bilmirdi ki, ən çox istədiyi nədir. Hələ güman edə bilmədiyi ləzzətlərin — bu ləzzətlərin rüşeymi o vaxt baş qaldırırdı və bir-biriylə zəncir kimi bağlanan hadisələrin dəqiq ardıcıllığını müəyyənləşdirmək çətin idi.

Amma bir saat sonra dəlləyə göstəriş verirdi, saçlarını elə darasın ki, qatarda pəjmürdə olmasınlar və elə bu zaman Svan yenidən yuxusu haqqında düşünməyə başladı. Odettanı elə aydın görmüşdü ki, sanki o lap yaxında, yanında idi — onun solğun sifətini, həddən artıq arıq çiyinlərini, gözlərinin altındakı halələri — bütün bunları Odettanı sevdiyi uzun müddətdə, bir-birini əvəz edən nəvaziş məqamlarında sanki unutmuşdu, Odettanın zahiri görünüşündən aldığı ilk təəssüratı unutmuşdu. Bu zahiri cəhətlərini əlaqələrinin ilk günlərindən unutmuşdu və indi yuxudaykən yaddaşı Odettanın cizgilərini tam dəqiqliyiylə onun xatirələrinə qaytarırdı. Bədbəxtliyin daşını atdıqdan bəri əvvəllər ona xas olan kobudluqla öz özünə fikirləşdi: Bir bax, ömrümün ən gözəl illərini bu qadına qurban verdim, hətta onun dərdindən ölmək istəyirdim, eşqindən dəli olurdum. Halbuki bu qadını heç də bəyənmirdim, o, heç də mənim zövqümə uyğun deyildi.

CEYMS COYS
(1882-1941)
irland yazıçısı

"Cakomo Coys" adlanan və bir neçə parçasını çevirdiyimiz bu mətni Ceyms Coys "Uliss" və başqa böyük romanlarının üslubunda, xırda və lakonik formada, ekspromt və eksperiment kimi qələmə alıb. Parçalar ani və çox vaxt məntiqi izahı, bağlılığı olmayan təəssüratlar toplusudur.

Kim? Ətirli dərilərin fonunda solğun sifət. Hərəkətləri utancaq və əsəbidir. Lornetlə baxır. Ah çəkir, gülür, kirpiklərini qaldırır.

Dikdaban çəkmələri daş pilləkənləri döyəcləyir. Qəsr içi soyuqdur. Kobud dəmir fənərlər bürc pillələrin dönüşlərini işıqlandırır. Daşları döyəcləyən dikdaban çəkmələr. Tanış və xoş səs.

Orada, aşağıda kimsə cənabınızla danışmaq istəyir.

O heç vaxt asqırmır. Nitq forması? Az sözlə çox şey demək.

Qızıma bağışladığı çiçək. Kövrək hədiyyə, kövrək hədiyyə edən, gövrək şəffaf körpə.

Paduya dənizlərdən uzaqlardadır. Yarı yolun dincliyi, gecə, zülmət. Tarix Erbe meydanında ay işığında mürgü döyür. Çay qırağındakı qaranlıq qapılarda əxlaqsızların gözləri əyyaşları axtarır. Beş franka beş ləzzət. Qaranlıq duyğular dalğası, yenə, yenə, yenə …

Gözlərim qaranlıqda heç nə görmür, heç nə görmür

Gözlərim qaranlıqda heç nə görmür, sevgilim.

Yenə. Daha lazım deyil. Qaranlıq məhəbbət, qaranlıq intizar. Daha lazım deyil. Zülmət.

Gecənin və tutqun havanın içindən dumanlara bürünmüş təpəyə baxıram. Duman heysiz agaclardan asılıb. Yataq otağında işıq. O, teatra hazırlaşır. Güzgüdə kabuslar… Şamlar! Şamlar!

Əzizim, gecə yarısı, konsertdən sonra San Migel küçəsiylə qalxarkən nəvazişlə bu sözləri pıçıldayıram. Bəsdir Ceyms, Dublin küçələrində gecələr addımlarkən başqa bir adı pıçıldayan sən deyilmidin?

Müqəddəs çölün torpağında yəhudilərin meyitləri uzadılıb, çürüyürlər… Onun soydaşlarının qəbirləri burdadır, qara qəbir daşı,

ümidsiz sükut. Məni bura ziyilli Meysen gətirib. Özü orada ağacların arxasında arvadının məzarı yanında başı açıq dayanıb. Arvadı intihar edib və hamı təəccüb qalıb ki, onunla bir yataqda yatan qadının axırı niyə belə olub. Soydaşlarının qəbirləri və onun özünün qəbri — qara daş, ümidsiz sükut. Bircə addım. Ölmə!

Qollarını qaldırır, qara paltarını arxadan düymələmək istəyir. Bacarmır. Sakitcə mənə baxır. Mən kömək etmək üçün əlimi qaldırıram, onun qolları aşağı düşür. Mən paltarının hörümçək toru kimi zərif kənarlarından tuturam, düymələyirəm, donunun kəsiyindən qıvraq bədənini görürəm. Narıncı alt paltarı çiyinlərindən sürüşüb düşür, çılpaq bədəni balıq pulları kimi sayrışır. Soyuq barmaqların yüngül təması…Təmas…Təmas…

Xidmətçi qadın deyir ki, o yazığı tələsik xəstəxanaya aparmalı oldular, biçarə çox əziyyət çəkirdi, ağrıyırdı. Mən boşalmış evdən çıxıb gedirəm. Qəhər məni boğur. Yox, bu ola bilməz. Bax beləcə, birdən-birə, mənə bir şey demədən, bir dəfə baxmadan… Yox, yox… Mənim axmaq səadətim məni belə aldada bilməz.

Cərrahiyyə əməliyyatı ediblər. Cərrahın bıçağı onun bətninə girib və qarnında çapıq yeri qalıb. Mən onun ceyran gözü kimi gözəl, qara, qəmli gözlərini görürəm. Ağır yaradır ey şəhvət hərisi Allah!

Yenə də öz kürsüsündə, pəncərə qabağında, dilində şux sözlər, dodağında şən gülüş. Quş tufandan sonra civildəyir, xoşbəxtdir. Səfeh elə bilir ki, o sərsəri hökmdarın çaynağından qurtulub.

Bədənin ətri yoxdur. Qoxusuz çiçək.

Sifəti tutqun və ölüdür. Nəm saçları bir-birinə qarışıb. Dodaqları dodaqlarıma yapışır, hiss edirəm ki, köksünü ötürür, öpür…

—Niyə?

—Çünki əks halda sizi daha görə bilmərəm. Torpaq sürüşməsi — fəza, əsrlər, ulduz yağmuru və uzaqlaşan səma — sükut, ümidsiz səssizlik, qeyb olmanın səssizliyi. — Onun səssizliyi.

Xarabalıq, çılpaq divarlar. Tutqun gün işığı. Uzun qara royal — ölü musiqi. Qadın şlyapası, al qırmızı gül və bükülü çətir — onun nişanəsi…

FRANS KAFKA
(1883-1924)
Avstriya yazıçısı

PRİTÇALAR

DAĞLARDA GƏZINTI

Mən səssiz: — bilmirəm — dedim — axı bilmirəm. Madam ki, heç kəs getmir, deməli heç kim getmir. Mən heç kəsə pislik etməmişəm, mənə də heç kəs pislik etməyib, amma kimsə mənə yardım göstərmək də istəmir. Heç kəs, heç kəs. Olsun. Heç Kəs mənə kömək etməyəcək, amma bu Heç Kəslə mənə çox xoş olardı, Bu Heç Kəslərlə məmnuniyyətlə gəzintiyə çıxardım. Hara? Əlbəttə dağlara. Gör nə qədərdirlər, hamısı bir-biriylə xosunlaşır, əlləri, ayaqları bir-birinə sarmaşır, çarpazlaşır, hamısı yerində sayır. Təbii ki, hamısı frakdadırlar. Bax beləcə gedirik. Aramızda bir boşluq tapan kimi külək ora soxulur. Dağlarda insan elə azad nəfəs alır ki. Qəribədir, hələ ölmürük.

AĞACLAR

Biz qışda kəsilmiş ağaclar kimiyik. Adama elə gəlir ki, onlar qarın üstünə sürüşüb yıxılıblar, yüngülcə toxunsan yerindən tərpənəcəklər. Yox, onları yerindən dəbərtmək mümkün deyil, donub torpağa yapışıblar. Amma bəlkə bu da elə bir təsəvvürdür.

QONŞU KƏND

Yadımdadır, babam deyirdi: Həyat nə qısaymış. Ötüb keçən günlərimi xatırlayanda təəccüb qalıram. Başa düşə bilmirəm ki, gənc bir oğlan qonşu kəndə at belində getməyə necə cəsarət edibmiş. Hələ başına bir iş gəlməsi bir yana dursun, amma elə arxayın həyat da qonşu kəndə getməyə bəs eləməz axı.

DƏMIR YOLU SƏRNIŞINLƏRI.

Əgər bizə adi gözlə baxsan, biz uzun dəmir yolu tunelində qəzaya uğramış qatarın sərnişinləri kimiyik. Özü də bu tunelin elə yeridir ki, əvvəlindəki işıq da artıq görünmür, qarşıdakı işıq da. Hətta bu tunelin başlanğıcı və sonu olmasına da inanmırsan. Ətrafında isə ya

qorxudan, ya tələşdən eybəcərləşmiş idbar sifətləri görürsən.

Burada "neyləyim?" və "niyə mən bunu etməliyəm?" suallarını verirlər.

SANÇO PANSO HAQQINDA HƏQIQƏT

Axşam saatlarında ya gecələr onu cəngavər romanlarıyla əyləndirən Sanço Panso neçə-neçə illərdən sonra Don Kixot adlandırdığı şeytanını özündən uzaqlaşdıra bildi və bu şeytan bir-birinin ardınca sərsəri hərəkətlər etməyə başladı. Amma bunlardan heç kəsə zərər dəymir. Azad insan olan Sanço Panso görünür məsuliyyət hissi duyduğuna görə Don Kixotu bütün sərgüzəştlərində müşayiət edir və bunu lazımlı və maraqlı iş hesab edir.

PROMETEY

Prometey haqqında dörd əfsanə var. Birinci əfsanəyə görə o Allahları insanlara satıb, ona görə də Qafqaz dağlarında zəncirlənib və Allahların göndərdikləri qartallar onun bağrını didir.

İkinci əfsanəyə görə qartalların dimdiklədikləri Prometey xilas olmaq üçün özünü get-gedə daha dərindən qayaya pərçim edir və axırda tamamilə qayaya qarışıb onunla bütövləşir.

Üçüncü əfsanəyə görə min illər keçdikdən sonra bu xəyanəti Allahlar da unudur, qartallar da, Prometeyin özü də.

Dördüncü əfsanəyə görə bu sonsuzluqdan hər kəs yorulub usanır — Allahlar da yorulur, qartallar da… yara da yorğunluqdan qapanıb…

Ancaq izahsız qayalar qalıb. Əfsanə izahsızı izah etməyə çalışır. Mayasında həqiqət olsa da əfsanə istər-istəməz izahsızlığa gəlib çıxır.

KÖRPÜ

Mən soyuq və möhkəm idim, mən yarğan üstündən salınmış körpüydüm. Bu tərəfdə torpağa ayaq barmaqlarım girmişdi, o tərəfdə əllərim.

Pencəyimin ətəkləri böyürlərimdə yellənirdi. Aşağıda çay axırdı, orda forellər vardı. Bu körpüdən bircə turist də keçməmişdi. Axı o hələ xəritələrə salınmamışdı. Mən uzanıb gözləyirdim, gözləməyə məcbur idim. Körpü ancaq uçandan sonra körpü sayılır.

Bu bir dəfə axşamüstü baş verdi — ya birinci axşam idi, ya

mininci, yadımda deyil. Fikirlərim həmişə pərakəndə olub. Bir axşam çayın səsi daha boğuq gəldi və mən insan addımlarını duydum. Öz-özümə: — Körpü sənə etibar edəni saxla, qoru — dedim… Onun halay-valay vuran addımlarını düzəlt, nə bacarırsan elə. Dağlar Allahı kimi onu o biri tərəfə at, xilas et.

O yanaşdı, əsasının dəmir ucuylə məni döyəclədi, ağrıdım, ətəklərimi yığışdırdı, dəmir uclu əsasını bətnimə sancdı. Sonra var gücüylə bədənimin üstünə tullandı. Ağrıdan titrədim. Kim idi bu: Uşaq? Kabus? Quldur? İntihar etmək istəyən? Ya məni dağıtmaq istəyən? Çevrilib onu görmək istədim. Körpü çevrilmir. Çevrilə bilmədiyimçün uçub töküldüm. Uçub dağıldım və çay dibindən həmişə belə nəvazişlə baxan daşlar məni xürd-xəşil etdilər.

GECƏ VAXTI

Gecəyə qərq olmaq. Bəzən başını aşağı salıb fikirlərə qərq olduğun kimi bütün varlığınla gecəyə qərq olmaq. Ətrafdakı adamlar yatıb. Kiçik komediya, özünü aldatmadır bu ki, guya onlar evlərində möhkəm çarpayılarında, möhkəm, etibarlı tavan altında, yorğan-döşəklərində uyuyurlar. Əslində onlar hamısı bir yerdədir, haçansa bir yerdə olduqları məkanda —boş səhrada, açıq səma altındakı düşərgədə, saysız-hesabsız insanlar, bütöv bir ordu, bütöv bir xalq — başları üstündə soyuq göylər, ayaqlarının altında soyuq torpaq, durduqları yerdəcə yuxulayıblar, başlarının altına dirsəklərini qoyub rahat nəfəs alırlar. Sənsə yatmamısan, oyaqsan, Sən keşikçisən və başqa keşikçiləri görmək üçün yanındakı ocaqdan götürdüyün kösövü yelləyirsən. Bəs niyə sən oyaqsan? Axı kimsə keşik çəkməlidir. Kimsə oyaq qalmalıdır axı…

AKUTAQAVA RYUNOSKE
(1892-1927)
yapon yazıçısı

"İDİOTUN HƏYATI" ndan

DÖVR

Bu — kitab dükanının ikinci mərtəbəsində baş verdi. İyirmi yaşlı gənc kitab rəflərinin qarşısında durub yeni kitablara baxırdı, Mopassan, Bodler, Strindberq, İbsen, Şou, Tolstoy…

Bu arada axşam düşdü. Amma o, həvəslə kitabları seyr edirdi. Qarşısında yalnız kitablar deyildi, "əsrin sonuydu". Nitsşe, Verlen, Qonkur qardaşları, Dostoyevski, Hauptman, Flober…

Alatoranlıqda kitabların adlarını güclə seçirdi. Get-gedə kitablar da tamamilə qaranlığa qərq oldu. Nəhayət bu işdən yoruldu. Pilləkənlə aşağı düşmək istədi. Bu an düz başının üstündə işıq yandı. O yuxarıdan aşağı — birinci mərtəbədə kitablar arasında dolaşan alıcılara və satıcılara baxdı. Burdan çox kiçik görünürdülər. Özü də nədənsə miskin görkəmləri vardı.

—İnsan həyatı Bodlerin bir misrasına dəyməz.

Bir müddət yuxarıdan aşağı —onlara baxdı. Beləydilər…

ŞƏKIL

Qəfilcən… Doğrudan da qəfilcən oldu bu. Bir kitab dükanının vitrinləri qarşısında durub Van—Qoqun albomuna baxırdı və birdən, qəfilcən şəklin ona nə demək istədiyini anladı. Əlbəttə bu köçürtmə (reproduksiya) idi. Amma reproduksiyalarda belə təbiətin saf təravəti duyulurdu.

Bu şəkillərə görə dünyanı ayrı cür görürdü. Van Qoqun əsərlərinin təsiriylə son vaxtlar ağac budaqlarının əyri-üyrülüyünə, qadın yanaqlarının yuvarlaqlığına diqqət etməyə başlamışdı. Bir yağışlı payız axşamı şəhər kənarında dəmiryolu körpüsünün altından keçirdi. Körpünün yanında araba dayanmışdı. Buradan keçəndə hiss etdi ki, kimsə, elə həmin yerdən daha əvvəllər keçib. Kim? Soruqmağa dəyməzdi. Bu peyzajı ondan qabaq qulağı kəsilmiş, dodaqlarında qəlyan olan hollandiyalı görmüşdü.

NIKAH

Toylarının ertəsi günü arvadını məzəmmət elədi. "Gərək artıq xərc çəkməyəydik". Amma bu onun sözləri deyildi, xalasının sözləriydi: Arvadına de!.

Arvadı üzr istədi. Ondan da, xalasından da. Üzrü onunçün aldığı və sarı nərgizlər qoyduğu vazın yanında istədi.

AY

Otelin pilləkənlərində təsadüfən ona rast gəldi. Adama elə gəlirdi ki, hətta gündüz vaxtı onun sifətini ay işıqlandırır. Bundan əvvəl heç vaxt görüşməmişdilər. Amma onu baxışlarıyla yola salarkən əvvəllər içində heç vaxt hiss etmədiyi bir həsrəti duydu…

QADIN

Hava qaranlıqlaşırdı. O, meydanla addımlayırdı. Bir az həyəcanlıydı. Gümüşü səmanın fonunda böyük binaların işıqlı pəncərələri parlayırdı.

O səkinin qırağında dayanıb qadını gözləyirdi. Beş dəqiqədən sonra qadın ona yanaşdı. Qadın elə bil arıqlamışdı. Qadın ona baxdı: "Yaman yorulmuşam" — dedi və gülümsədi. Onlar alaqaranlıq meydanla çiyin-çiyinə gedirdilər. Bu ilk dəfəydi. Bu qadınla bir yerdə olmaq naminə o hər şeydən keçərdi.

Avtomobilə minəndə qadın diqqətlə ona baxdı və soruşdu: — Peşman deyilsiniz ki? O səmimi qəlbdən: — Yox — dedi. Qadın onun əlini sıxdı və dedi: — Mən də peşman deyiləm, amma… Qadının sifətinə sanki ay işığı düşmüşdü.

YAĞIŞ

O çarpayıda uzanıb qadınla müxtəlitf şeylərdən söhbət edirdi. Yataq otağının pəncərələri ardında yağış yağırdı. Güllər bu yağışın altında yəqin ki, çürüyəcəklər. Qadının sifətinə sanki yenə də ay işığı düşürdü. Amma qadınla söhbət onu darıxdırırdı. Üzü qoyulu uzanıb tələsmədən papiros yandırdı və xatırladı ki, yeddi ildir günlərini bu qadınla keçirir.

"Onu sevirəmmi?" — deyə öz-özündən soruşdu. Həmişə özü-özünü müayinə edə bilirdisə də, hər halda cavab gözlənilməz oldu: — Hələ də sevirəm.

KÜLƏK

Yağış insana təsəlli verir, qəlbinə məlhəm qoyur, ürəyini sakitləşdirir. İnsanı kədərləndirən yağış deyil, küləkdir. Qəfilcən haradan coşub gəlir, əsib qəfilcən hara gedir, harada doğulur bilmirik, hey əsə-əsə adamı qüssələndirir.

Külək keçəri insan həyatının səsidir. Onun hardan gəlib hara getdiyini bilməyən insan qəmlənir.

Hələ çox qədim zamanlarda deyiblər: Xəzan çağının qüssəsi, yazın kədəri, sərin axşamın qəmi, payız qürublarının həsrəti — hamısı küləklərdə cəm olub.

XƏSTƏLIK

Yuxusuzluğa düçar olmuşdu. Bir yandan da heysizləşirdi. Hər həkim bir diaqnoz qoyurdu. Amma xəstəliyinin səbəbini bircə özü bilirdi. Bu utanmaq hissiydi. Həm utanır, həm də qorxurdu. Ondan qorxurdu — nifrət etdiyi cəmiyyətdən.

Bir tutqun, adamın ürəyini sıxan payız günü damağında siqar kafenin küncündə oturduğu zaman qramofondan axan musiqini eşitdi. Bu musiqi qəlbinin ən dərin güşələrinə sirayət edirdi. Gözlədi ki, qurtarsın. Durub qramafona yanaşdı, valın yazısına baxdı. Motsart "Sehirli fleyta".

Dərhal hər şeyi anladı.

"Qaydalara asi çıxan Motsart də şübhəsiz əzab çəkib. Amma mənim qədər yox".

Başını aşağı salıb yenidən öz masasının yanına qayıtdı.

GECƏ

Gecə bir də gəldi. Fırtınalı dənizin üzərində köpüklü dalğalar ağarırdı. Belə bir səma altında o arvadıyla ikinci dəfə evləndi. Sevinirdilər. Amma həm də əzab çəkirdilər. Üç övladları da onlarla bərabər dənizin üzərində çaxan şimşəklərə baxırdı. Qadını uşaqlardan birinin əlindən tutmuşdu, göz yaşlarını güclə saxlayırdı.

—Deyəsən orda qayıq görünür.

—Bəli.

—Dor ağacı sınmış qayıq.

ÖLÜM

Tək yatdığından istifadə edərək kəmərilə pəncərə

barmaqlıqlarından özünü asmaq istədi. Kəməri boğazına keçirəndən sonrasa ölümdən qorxdu. Amma ölüm dəqiqələrində əzablardan çəkindiyi üçün yox. Qərara gəldi ki, sınaqdan keçirsin, boğulma müddətini saatın dəqiqələriylə ölçsün.

Azacıq əzabdan sonra yavaş-yavaş yoxluğa qərq olmağa başladı. Bir addım da ata bilsə ölümün ağuşuna düşəcək. Saatın əqrəblərinə baxdı, gördü ki, bütün əzab-əziyyəti cəmi-cümlətanı bir dəqiqə və iyirmi saniyə çəkib.

Pəncərə qaranlığa qərq olmuşdu. Qaranlıqda xoruz səsi eşidildi.

DIVAN

"Divan" qəlbinə yeni güc gətirdi. Bu indiyə qədər tanımadığı "Şərq Hötesi" idi. Xeyrin və Şərin o tayında dayanmış Höteni görür və ona paxıllıq edirdi. Şair Höte onun nəzərlərində Həzrət İsadan da yüksəkdə durmuşdu. Bu şairin qəlbində yalnız Akropol və Qolqofa yer almırdı. Ərəbistanın qızıl gülləri də açılmışdı. Əgər onun ardınca getməyə gücü çatsaydı… "Divan"ı oxuyub bitirdi və həyəcanı səngidi, amma özü-özünə həqarətlə baxırdı. Həyatın xədimi olduğuna görə.

MƏĞLUBIYYƏT

Qələm tutan əlləri titrəyirdi. Ağzı tüpürcəklənirdi. o, 8 veronal qəbul edib yuxuya gedəndən sonra ayılanda şüuru açıq idi. Ancaq şüuru yarım saat, uzağı bir saat belə açıq olurdu. Həyatı alatoranlıqda keçirdi. Elə bil tiyəsi sınmış qılınca dirsəklənmişdi.

MİXAİL ZOŞŞENKO
(1895-1958)
rus yazıçısı

"MAVİ KİTAB"dan

M.Qorkiyə
Əziz Aleksey Maksimoviç!
İki il bundan qabaq məktubunuzda mənə məsləhət görmüşdünüz ki, insanlıq tarixi haqqında gülməli və satirik bir kitab yazım.
Təklif etdiyiniz mövzunu tam şəkildə qaldırmağa gücüm və məharətim çatmazdı. Mən yalnız insan münasibətlərinin qısa tarixini yaza bildim. İzn verin Aleksey Maksimoviç, mənim bu "Mavi kitab"ımı sizə ithaf edim.
Sizi ürəkdən sevən Mixail Zoşşenko
Yanvar 1934 Leninqrad

Heç bir zaman şuxluğumuzdan qalmamışıq. On beş ildir ki, bacardığımız qədər gülməli və əyləncəli əhvalatlar danışaraq camaatımızı bir xeyli şənləndiririk. Yazılarımızda ancaq istədiklərini görürlər, onları qayğılandıracaq ciddi və ibrətamiz bir şey görmürlər.

Biz də bundan xeyli məmnun oluruq. Bu gün də insanların cürbəcür hərəkətləri və hissləri haqqında məzəli bir kitab yazmaq qərarına gəldik. Amma indiki həyatımızdan söhbət açmaqdan əvvəl keçmiş günlərdən bir para əhvalatlar danışmaq istədik.

Diletant və nadan kimi tarix səhifələrini vərəqlədikcə gördük ki, ən qəribə işlər çox az səbəblərdən törəyir. Gördük ki, tarixdə ən böyük rolu pul, məhəbbət, məkr, uğursuzluq və bir para başqa səbəblər oynayıb. Elə irəlidə bu barədə danışacayıq.

Beləliklə birinci bölümə — Pullar bölümünə girişirik.

Tarixdən bu barədə bildiklərimizi bir-bir sadalayıb zəhlənizi tökmək istəmirik. Önsuz da hər şey aydındır. Bircə onu deyək ki, pul qamarlamaq həvəsi hörmətli bəşəriyyəti sarsıdan ən güclü ehtiraslardandı. Və bu güclü ehtirası dövlət çox vədə öz xırda məqsədləri üçün çox əla istifadə edə bilir. Məsələn dövlət canisini tutmaq gərək olanda onun başına məzənnə qoyurlar. Tarixin az qala hər səhifəsində bu ya digər kəlləyə qoyulan məzənnəni görürük.

Roma diktatoru Sulla (eramızdan əvvəl 83-cü il) hakimiyyəti ələ keçirəndən sonra rəqibi və düşməni Marinin bütün tərəfdarlarını məhv etmək əmri verib. Həyata və insan xislətinə yaxşı bələd olan Sulla heç kəsin canını qurtara bilməməsi üçün hər baş üçün çox yüksək qiymət qoyubmuş. Elan edib ki, hər bir qətlə yetirilənçün on iki dinar (yəni qızıl pulla beş min) məbləğində mükafat verəcək.

Bu yüksək qiymət vətəndaşları elə cuşa gətirib ki, qatillər dəqiqə başı Sullanın evinə gəlib kəsilmiş başları təqdim edirmişlər.

Təxminən təsəvvür edirik ki, bu necə baş verirmiş.

Məsələn, qatil ehmallıca qapını döyüb yavaş səslə:

—Bağışlayın — deyir — başları burda qəbul edirlər?

Yalın ayaqlarına sandalya keçirmiş cənab Sulla kürsüdə oturub məlahətli ariyaları zümzümə edərək məhkumların siyahısını nəzərdən keçirir və adların yanına quş qoyurmuş.

Qul içəri girib məlumat verir:

—Yenə gələn var… Baş gətirib. Qəbul edəcəksiz?

—Çağır gəlsin.

Əlində qiymətli hədiyyəni tutan qatil içəri girir.

Sulla:

—Dur görüm — deyir — Bu nədi gətirmisən?

—Nə olacaq, başdı da…

—Görürəm başdı, amma kimin başıdı? Kimin başını mənə soxuşdurmaq istəyirsən?

—Başdı da, özünüz əmr vermədiz?

—Axı bu baş mənim siyahımda yoxdu. Kimin başıdı bu? Cənab katib, zəhmət olmasa bir siyahıya bax, gör bu baş orda var?

—Görünür kiminsə kənar adamın başıdı. Məlum deyil kimin başıdı, amma görünür hansı bir kişininsə başını gətirib.

Qatil utana-utana üzr istəyir:

—Bağışlayın… Deməli çaşdırmışam… Tələsikdə səhv də ola bilər, neyləməli? — qoltuğundan başqa bir baş çıxarır — onda bax bunu alın. Bu yəqin lazım olan başdır. Senatorun başıdır.

—Hə, bu başqa məsələ —Sulla siyahıdakı adın qarşısına quş qoyur. — Qoy bura başı. Bu birini isə apar at. Nahaq kəsmisən…

—Bağışlayın, əlimə bu keçdi.

—Əlimə keçdi… İş belə getsə hərə bir baş kəsib gətirəcək. Bu qədər pulu mən hardan tapacam .

Qatil pulunu alıb və lazımsız başı götürüb gedir.

Bir sözlə üç-dörd həftə ərzində Sullaya iki mindən artıq baş gətiriblər…

Amma yarım əsr sonra (bizim eradan əvvəl 43-cü il) kəsilmiş başların məzəndəsi elə sıçrayıb qalxdı ki, dünyasında belə şey olmamışdı.

Yuli Sezar öldürüləndən sonra Roma konsulu Mark Antoni üç yüz senatoru və iki min atlını qətlə məhkum edib. Sulla kimi o da elan edib ki, siyahıdakıları ən qısa müddətdə öldürənlərə çox yüksək məbləğdə pul veriləcək.

Doğrudan da qiymət çox yüksək qoyulmuşdu — iyirmi beş min dinar (səkkiz min manat). Sahiblərini öldürən qullara ancaq üç min dinar boyun olunurduki, çoxda qudurmasınlar, həddlərini bilsinlər.

Bundan sonra nə baş verdiyini təsəvvür etmək çətindir. Oğullar atalarını öldürürdülər, arvadlar yatan yerdə ərlərinin başını kəsirdilər. Borclular küçədə borc aldıqları adamları tutub məhv edirdilər. Qullar da geri qalmırdı, sahiblərinin canlarını alırdılar. Küçələrdən qan su yerinə axırdı, axı qiymətlər çox yüksək idi. Əgər dövlət axır ki, buna son qoymasaydı millət bir-birini qırıb qurtaracaqdı.

Amma tarix bundan da yüksək məbləğdən xəbər verir. Romanın ən böyük natiqi Siseronun başının məzənnəsi əlli min dinar imiş.

Onun kəsilmiş başı təntənəylə masanın üstünə qoyulubmuş. Mark Antoninin quduz arvadı Siseronun dilinə sancaq batırıb : "İndi qoy danışsın" — deyib.

Amma pul bir yana dursun, təbiətin bizə bəxş etdiyi duyğulardan ən başlıcası məhəbbətdi. Hər halda ölüm ayağında böyük təəssüf hissiylə ayrıldığımız duyğulardan ən vacibi sevgidi. Fransız şairi Müsse deyir ki, bütün başqa hisslər eşqin yanında cılızdı. Belə deyəndə əlbəttə bir az hissə qapılıb, daha doğrusu lap ağ eləyib. Həm də, axı bunu fransız deyir, fransızlar da ki, məhəbbətçün sino gedənlərdəndi. Müsse də yəqin ki, arvadbazın biriymiş, odur ki, ağzına gələni danışıb. Deyirlər ki, bu fransızlar axşamlar bulvara çıxanda gözəl qızlardan başqa heç nə görmür, özü də onları "cücələr" adlandırırlar.

Gəlin yenə də tarixin dərinliklərinə dalaq. Məsələn belə məzəli bir əhvalatı yada salaq. Bu əhvalat çox xoşuma gəlir, çünki səciyyəvidir. İvan Qroznının (Qorxunc İvanın) dövrünə aiddir.

O vaxt Rusiyaya Almaniyadan bir hersoq gəlibmiş —Qolştinski.

Məlum deyil ki, bu zat Almaniyada nə işlə məşğul olurmuş. Rusiyaya gəlməkdə isə məqsədi siyasi mülahizələrə görə IV İvanın qardaşı qızıyla evlənmək imiş.

Əlqərəz gəlib çıxır. Yəqin ki, bər-bəzəkli, güman ki, ipək şalvarda… Bantlar, lentlər, filan… Böyründə şpaqası. Belə qırmızısifət, sarı bığlı… Olsun ki, içki düşkünü, naqqal…

Bəli, gəlir Rusiyaya, əvvəlcədən hər şey razılaşdırıldığıyçün dərhal toy günü təyin olunur.

Yəqin ki, mərəkə başlanır. Ana-bacılar ora-bura qaçışır. Toyuqdan, çücədən, donuzdan filan kəsirlər. Gəlini hamama aparırlar. Təzə bəy gəlinin atasıyla oturub araq istemal edir. Özü də yəqin basıb kəsir — bağ belə, bostan belə… yəni ki, bizim Almaniyada… biz hersoqlar… filan-peşməkan.

Və gözlənilmədən çox kədərli hadisə baş verir. Gəlin qəfilcən ölür. Demə yazıq biçarə hamamdan çıxanda soyuqlayıb, sətlcəm olub, üç gün içində canını tapşırıb.

Təzə bəyin təbii ki, halı pərişan olur, axı filan qədər xərci çıxıb. Əli ətəyindən uzun öz Almaniyasına qayıtmaq istəyir. Baş tutmamuş təzə qohumlarıyla vidalaşarkən birdən ona deyirlər:

—Yoldaş hersoq, getməyə tələsmə. Bəxtin gətirib ki, bizim bir qızımız da var. Ölənin bacısı. Düzdür ondan böyükdür, sifətcə də … o söz… amma axı siz də basa-basa Almaniyadan o boyda yol gəlmisiz, əli ətəyindən uzun qayıtmayacaqsan ki… Bax da…

Hersoq:

—Day nəyə baxacam — deyir — bunu əvvəlcədən deyəydiz də. Əlbəttə razıyam, gətirin görüm qızı.

Bir söz, matəm qurtarar-qurtarmaz toy dəsgahı başlayır.

***

Başqa bir hadisə də İranda baş verir.

Məşhur Kirin oğlu Kəmbiz Misir fironu II Amazisin (eramızdan əvvəl 529-cu il) qızına elçi salır. Özü də qızı görmədən elçi göndərir. Çünki o vaxt İrandan Misirə getmək asan iş deyildi. Gərək bu səfərə neçə ay sərf eləyəydin.

Amma Kəmbiz eşitmişdi ki, Misir fironunun qızı qeyri-adi gözəlliyə malikdi.

Beləliklə dədəsi dünyanın yarısını tutmuş İran şahı Misrə elçilərini göndərir.

Yeganə qızını çox sevən firon onu uzaq diyara buraxmaq

istəmirdi. O biri tərəfdən də qüdrətli İran hökmdarını narazı salmaqdan qorxurdu. Əlqərəz belə bir fənd işlədir — ən gözəl kənizlərindən birini öz qızı adıyla İrana göndərir.

Tarixdən bəllidir ki, Kəmbiz bu qızla evlənib çox xoşbəxt yaşayırmış. Qızı çox sevirmiş, amma təsadüfən bir gün yalan açılanda amansızlıqla arvadını öldürür və qoşunun toplayıb Misrə hücuma keçir.

Biz bu hadisəni belə təsəvvür edirik. Demək ki, Kəmbizlə arvadı təxtin üstündə əyləşib mazaqlaşırlar — rahat lükum yeyir, şərbət içir və s. Gombul bir fars da başlarının üstündə dayanıb yelpic yellədir ki, şirniyyata milçək qonmasın.

İran şahı Kəmbiz bir-iki stəkan şerri-brendi içib sevgi dolu gözlərlə arvadını süzür, ona cürbəcür şirin sözlər deyir, tutalım, bax belə: Ah, mənim misirli gözəlçəm, Misirdə nə var, nə yox? Dədən firon yəqin səni çox əzizləyib, lap ərköyün böyüdüb, həmi… Düzdür də, sənin kimi şirin-şəkər qızı necə əzizləməyəsən? Elə mən də səni görən kimi bir qəlbdən min qəlbə aşiq oldum. Duruşunla, yerişinlə əsl şah qızısan.

Bu zaman qız ya öz qadın cazibəsinə çox arxayın olub, ya onun qadın qəlbində nə isə baş verib, kim bilir, hər halda gülə-gülə: — İşə bax — deyir — fironun qızı indi Misirdə oturub özüyçün. İran şahı da məni sevir — adicə kənizi. Gör məhəbbətin gücü nə yaman şeymiş… Kişilərin ağlını başından alır.

Bundan sonrakı səhnəni təsəvvür edəndə adamın tükü biz-biz olur.

Yəqin ki, Kəmbiz heyvan kimi böyürüb. Bir tuman-köynəkdə sıçrayıb taxtından qalxır. Bir şap-şupu ayağından düşür. Dodaqları ağarır, əlləri titrəyir, dizləri bükülür.

Fars dilində:

—Necə? — deyir. — Bir də təkrar elə görüm, nə dedin? Cənab nazirlər, tez bu dələduzu həbs edin.

Nazirlər qaçıb gəlir, Ah, ah, ay aman, belə də iş olar? Sakit olun əlahəzrət, baxın məstləriniz də düşüb, hökmdara yaraşmaz bu.

Amma şah heç cür sakit ola bilmir, heç belə təhqir olar? Hökmdarın heysiyyətini bu dərəcədə alçaltmaq olar?

Axşam bədbəxt kənizin başını kəsəndən sonra Kəmbiz uzun müddət nazirləriylə məsləhətləşib. Əl-qol ataraq otaqda var-gəl edib, yaman həyəcanlıymış.

—Bu Misir fironu nə oğraş adammış — deyirmiş.

Nazirlər də köks ötürüb başlarını bulayır, amma gizlicə bir-birinə göz vururmuşlar.

—İndi, cənab nazirlər, belə təhqirdən sonra mən neyləməliyəm? Bu dəyyusun üstünə qoşun çəkim yəni?

—Olar əlahəzrət.

—Amma o it oğlu it çox uzaqdadır axı. Misir… Afrika… Gərək bir il yol gedəsən… Özü də gavar dəvə belində. Ağırdı…

—Eyb etməz, əlahəzrət… Qoşunun hamısı olmasa da bir hissəsi gedib çatar…

Kəmbiz heç cür sakit ola bilmirdi:

—Mən də onu oxşayırdım, tumarlayırdım… Elə bilirdim ki fironun qızıdı, sevdim onu, sən demə… başqa adammış… Nədi, cənab nazirlər, yəni mənə it dəyib ki, o firon qurumsaq qızını mənə layir bilmədi. Çox matahmış… Köpək oğlu, gör nə pəsməndə mal göndərib mənə…

Xarici işlər naziri gülüşünü içində boğaraq ciddi səslə:

—Əsas odur ki, əlahəzrət bütün dünyada biabır olmuşuq.

—İş bundadır da. Yaxşı mən neyləyim indi?

—Pis odur ki, əlahəzrət, bu tarixə düşəcək. Yəni İran… Kəmbiz… gör ona kənizi necə soxuşdurublar.

—Sən də it oğlu it, niyə mənim qanımı daha da qaraldırsan? Gedin qoşunu yığın. Misiri yer üzündən silək gərək.

Bir sözlə Kəmbiz qoşunuyla birlikdə Misirə yola düşdü, çatıb bu ölkəni yerlə-yeksan etdi. Amma firon Amazis bu vaxt artıq dünyasını dəyişmişdi. Onun qardaşı oğlu Psemattix aqibətinin necə olacağını yaxşı bildiyi üçün vaxtında intihar edibmiş.

O ki, qaldı fironun gülməşəkər qızına, tarix onun barəsində heç bir məlumat vermir…

ERNEST HEMİNQUEY
(1899-1961)
Amerika yazıçısı

NƏSƏ BİTDİ
hekayə

On ildən sonra zavoddan heç nə qalmamışdı, bataqlıq kollarının arasından yalnız əhənglənmiş ağ bünövrənin qalıqları görünürdü. Niklə Marcori qayıqla bu bataqlığın yanından üzüb keçirdilər.

Onlar kanalın lap qırağında balıq tuturdular. Qayıqdan torları suya buraxaraq gecə ora forellərin düşəcəyini gözləyirdilər.

Marcori:

—Bu da bizim xarabalıqlar — dedi

Avar çəkə-çəkə Nik çönüb yaşıl kolların arasından ağ daşlara baxdı.

—Hə, onlardır — dedi.

Marcori:

—Burda zavod olan vaxt yadına gəlir? — dedi

Nik:

—Belə… bir az — dedi.

Marcori:

—Adama elə gəlir ki, bu qədim bir qəsrin xarabalığıdır — dedi.

Nik cavab vermədi. Qayıq sahilə yaxın üzürdü. Nəhayət zavodun xarabalığı gözdən itdi.

Nik:

—Tora düşmürlər — dedi.

Marcori:

—Hə — dedi — düşmürlər — gözünü tordan çəkmirdi. Söhbət edəndə də çəkmirdi. Balıq tutmağı sevirdi. Niklə balıq tutmağı sevirdi.

Qayığın lap yanında böyük forel göründü. Nik sağ avarı çəkdi, qayığı elə döndərdi ki, balığa daha yaxın olsun. Başqa bir iri forel də göründü. Forellər də ova çıxmışdı. Xırda balıqları udurdular.

Qayığı sürüb sahilə çıxdılar. Tora bir-iki balıq düşmüşdü. Nik onların başını kəsdi, Marcori soymağa başladı. Marcori birdən:

—Nik, sənə nə olub? — dedi.

Nik ocaq qalayırdı.

—Bilmirəm — dedi.

Ocaq alışdı, Marcori qayıqdan adyal gətirib saldı. Axşam mehi tüstünü göl tərəfə aparırdı.

Marcori adyalın üstündə oturdu. Arxası gölə idi. Nik gəlib onun yanında oturdu. Hava hələ qaralmamışdı. Marcori zəmbildən yemək çıxartdı.

Nik:

—Mən yemək istəmirəm — dedi.

—Bir şey ye, Nik.

Nik:

—Yaxşı, ver — dedi.

Onlar sükut içində yeyirdilər və ocağın suya düşən şölələrinə baxırdılar.

Nik:

—Bu gecə ay çıxacaq — dedi. Bilirdi ki, təpələrin ardından ay qalxmaqdadır.

Marcori xoşbəxt səslə:

—Bilirəm — dedi.

Nik:

—Sən hər şeyi bilirsən — dedi.

—Bəsdi, Nik. Sən allah belə olma.

Nik:

—Mən neyləyə bilərəm — dedi. — Sən hər şeyi bilirsən. Hər şeyi. Bəla bundadır. Özün də bunu gözəl bilirsən.

Marcori heç nə demədi.

Nik:

—Hər şeyi sənə öyrətmişəm — dedi. —Hər şeyi bilirsən. Bilmədiyin bir şey qalıb?

Marcori:

—Bəsdi, qurtar — dedi. — Bax, ay çıxır.

Onlar adyalın üstündə oturub bir-birinə toxunmurdular, ayın çıxmasına baxırdılar.

Marcori:

—Gic-gic bəhanələr uydurmaq lazım deyil. Düzünü de, nə olub sənə?

—Bilmirəm.

—Yox, bilirsən.
—Yox, bilmirəm.
—Düzünü de görüm.
Nik hələ də təpələrin ardından qalxan aya baxırdı.
—Darıxıram — dedi.
Marcoriyə baxmağa qorxurdu. Marcori arxasını ona çevirmişdi. Marcorinin belinə baxırdı.
—Darıxıram, yaman darıxıram.
Marcori susurdu. Nik yenə:
—İçimdə belə bir hiss var ki, guya nə isə qırılıb qopub —dedi. — Bilmirəm Marcori, heç bilmirəm sənə nə deyim.
O, hələ də Marcorinin belinə baxırdı.
Marcori:
—Sevmək də səni darıxdırır? — dedi
Nik:
—Hə—dedi. Marcori ayağa durdu. Nik başını qolları arasına alıb otumuşdu.
Marcori:
—Mən qayıqla gedirəm — dedi. — Sən piyada gələ bilərsən.
Nik:
—Yaxşı — dedi — Dayan, sənə kömək edim.
Marcori:
—Lazım deyil — dedi.
Qayıq ayın işıqlandırdığı sularla üzürdü. Nik qayıdıb ocağın yanında, adyalın üstündə üzüqoylu uzandı. Marcorinin avar çəkməsini eşidirdi.
Xeyli zaman belə uzandı. Sonra Billin gəldiyini eşitdi. Bill ocağa yaxınlaşdı. Bill:
—Nədi, getdi? — dedi.
Nik başını qaldırmadan:
—Hə — dedi.
—Dava qaldırdı?
—Yox, heç bir dava-dalaş olmadı.
—Yaxşı sən özün necəsən?
—Bill, çıx get. Get bir yerdə gəz.
Bill zənbildən çörək götürdü və torlara baxmağa getdi.

ÜÇ GÜN PİS HAVA

hekayə

Üç gün idi hava korlanmışdı, Nikgildə Billə içirdilər.

Nik stəkanı qaldırıb:

—Nəyin sağlığına içək?— dedi.

Bill:

—Gəl balıq tutmağın sağlığına içək — dedi.

Nik:

—Yaxşı — dedi — centlmenlər, yaşasın balıq ovu.

İçdilər. Bill:

—Ağıllı iş gördün — dedi

—Nə iş?

—Marcoriylə ayrılmağını deyirəm.

—Hə, elədir.

—Ayrılmasaydınız gərək işləyib pul yığaydın ki, evlənə biləsən.

Nik susurdu.

Bill:

—Evləndinmi — hər şey bitir. Day heç bir ümid qalmır. Evli kişiləri görmüsən?

Nik susurdu.

—Onların elə tox, evli görkəmi var ki. İşləri bitib.

Nik:

—Elədir — dedi.

Bill:

—Bu işi bitirməsəydin indi sənlə belə otura bilməzdik.

Nik:

—Neyləməliydim? Birdən hər şey bitdi.

—Bitdi — bitdi, canın sağ olsun. Əsas odur ki, hər şey bitdi.

Nik:

—Mənim ucbatımdan.

Bill:

—Bu vacib deyil. Vacib deyil kimin ucbatından.

Nik:

—Düz deyirsən — dedi.

Bill:

—O hamıya deyirdi ki, nişanlısız — dedi.

Nik:

—Biz nişanlanmamışdıq — dedi.
—Bəs evlənmək istəmirdiz?
—İstəyirdik, Amma nişanlanmamışdıq.
—Onda nə fərqi var?
Nik:
—Bilmirəm, hər halda fərqi var. Yaxşı, gəl içib sərxoş olaq.
Bill:
—Əməlli başlı içək e… — dedi.
Nik:
—İçək, — dedi — sonra da gedək çayda çimək.
Nik stəkanı başına çəkdi:
—Ona yazığım gəlir — dedi, — amma mən neyləyə bilərdim. Elə bil birdən nəsə bitdi… Amma nahaq sənlə bu barədə danışıram.
Bill:
—Sən danışmırdın ki, dedi — mən başladım. Vəssalam. Daha heç vaxt bu barədə danışmayaq, yoxsa yenə başlarsan.
Bu fikir Nikin heç ağlına gəlməmişdi. Ona elə gəlirdi ki, hər şey birdəfəlik həll olunub. Amma demə… hər halda bu barədə düşünmək olar. Elə bil bir az yüngülləşdi.
—Əlbəttə — dedi — hər bir şey ola bilər.
Bill:
—Özünü ələ al — dedi.
Nikin kefi düzəlmişdi. Heç nə bitməyib. Şənbə günü şəhərə, onuni yanına gedəcək. Həmişə bir baba yolu qoymaq lazımdır.
Bill:
—Gəl tüfəngləri götürək ova çıxaq.
Tüfəngləri, patronları götürdülər, geyinib çıxdılar.
Külək Nikin bütün sərxoşluğunu sovurub apardı. Amma fikirləşirdi ki, şənbə günü şəhərə gedə bilər. Bunu ehtiyatda saxlamaq gərəkdir.

HORXE LÜİS BORHES
Argentina yazıçısı

"ALEF" kitabından

Bir gecə (bəlkə də gündüz) — gecəylə gündüzün nə təfavütü var — yuxuda gördüm ki, zindanımın döşəməsində qum dənəciyi əmələ gəlib. Buna fikir vermədən yenə yuxuya qərq oldum. Yuxuda gördüm ki, guya oyanmışam və döşəmədə iki qum danəciyi var. Yenə yatdım və yuxu gördüm ki, dənəciklər üç oldu. Bu davam etdikcə dənəciklər çoxalırdı və nəhayət qumlar kameramı elə doldurdu ki, onların altında qaldım, nəfəsim kəsildi. Basa düşdüm ki, hələ də yuxudayam və bütün iradəmi toplayıb ayıldım. Amma oyanmağım da məni xilas etmədi, qumlar elə hey axışırdı. Kimsə qulağımın dibində dedi: Sən tamam ayılmamısan, əvvəlki yuxuya görə ayılmısan, o yuxu da başqa bir yuxunun içindədir və bu sonsuza qədər davam edəcək — qum dənəciklərinin sayı qədər. Çıxdığın yolun sonu yoxdur, həqiqətən ayılmamışdan öləcəksən.

Hiss etdim ki. ölürəm. Ağzıma qum dolmuşdu, amma hər halda qışqıra bildim: Yuxuda gördüyüm qumlar məni öldürə bilməz, yuxudan yaranan yuxular olmur.

Düşən işıqdan oyandım. Qaranlıq tavanda işıqlı dairə görünürdü. Mən məhbəs keşikçisinin sifətini, deşikdən sallanmış kəndiri, əti və su qabını gördüm.

İnsan yavaş-yavaş taleyinin görkəmini alır, öz şəraitiylə qovuşur. Mən qisasçıydım, Allahın kahiniydim, amma hər şeydən əvvəl məhbusdum. Yuxuların çıxılmaz labirintindən türməyə qayıtdım, evimə qayıdan kimi. Məhbəsimə şükür etdim, tavandan açılmış işıq dairəsinə şükür etdim, öz sısqa bədənimə şükür etdim, qaranlığa və daşlara şükür etdim.

O zaman elə bir iş baş verdi ki, onu heç zaman unutmayacam. Amma sözlə ifadə də edə bilməyəcəm. Mən Allahla və kainatla qovuşdum (əgər bunlar eyni şey deyilsə). Ekstazı, vəcdi simvollarla, rəmzlərlə ifadə etmək olmur. Biri Allahı işıqda, biri qılıncda, biri gül ləçəklərində görə bilər. Mən çox yüksək bir çərx gördüm. Qarşımda da deyildi, arxamda da deyildi, yanımda da deyildi. O, hər yerdə idi.

Çərx oddan və sudan ibarətdi, mən onun sonsuzluğunu görürdüm. Onun içində bütün olmuşlar, olanlar və olacaqlar yerləşirdi. Bütün səbəblər və nəticələr onun içindəydi və bir dəfə ona baxmaq kifayət edirdi ki, hər şeyi, sonsuzluğu belə dərk edəsən.

Ah, idrak sevinci, sən təxəyyül və duyğu sevincindən daha üstünsən. Mən kainatı gördüm və onun gizli mənasını anladım. Mən Zamanın başlanğıcını gördüm. Dəryalardan püskürüb qalxan dağları gördüm, bətnləri torpaq olan ilk insanları gördüm, onları parçalayan quduz yırtıcıları gördüm. Allahların arxasında dayanan sifətigörünməz Allahı gördüm.

Mən pələng dərisində yazılanların mənasını başa düşdüm. Bu yazı on dörd bir-biriylə bağlı olmayan sözdən ibarət idi (Ya bəlkə bizə elə gəlir ki, bunlar bir-biriylə bağlı deyil). Bu sözləri tələffüz etsəydim qüdrətli ola bilərdim. Bu sözləri desəydim qaranlıq məhbəsim də yox olardı, gecə gündüzə çevrilərdi, gəncliyim qayıdardı, pələng Alvaradonu parçalayar, müqəddəs xəncər ispanların bağrına sancılar, piramidalar kül içindən bərpa olunar, imperiya yenidən dirçələrdi. Gəmisi on dörd söz və mən, Tsinakan, vaxtilə Moktesimaya tabe olan torpaqlara sahib çıxardım. Amma bilirdim ki, bu sözləri tələffüz etməyəcəm, çünki onda Tsinakanı unutmuş olardım.

Qoy bu sirr də mənimlə birgə ölsün. Kainatı görən, onun sirrlərini dərk edən insanların miskin sevinc və bəlalarının qaydına qalmayacaq. Qoy bu insan lap onun özü olsun. Daha doğrusu özü imiş, indi buna laqeyddir. Ona görə də mən bu sözləri demirəm, qaranlıq zindanda qalıram.

CAN POL SARTR
fransız yazıçısı, filosofu

EKZİSTENSİALİZM — HUMANİZMDİR

Mən ekzistensializmi onun ünvanına söylənən bəzi iradlardan müdafiə etmək istərdim. İlk öncə ekzistensializmi onda günahlandırırlar ki, o, ümidsizliyə çağırır: yəni, bütün problemlər həllolunmazdırsa, dünyada heç bir hərəkətin də mənası yoxdur. Beləliklə guya ki, ekzistensializm seyrçi fəlsəfədir, bu isə ancaq burjua fəlsəfəsinə xas olan — israfçılıqdır. Bu iradlar əsasən kommunistlər tərəfindən irəli sürülür.

O biri tərəfdən bizi günahlandırırlar ki, biz insanın alçaqlığını vurğulayırıq, hər yerdə çirkin, qaranlıq, çiriş şeyləri qabardaraq gözəlliklərdən üz döndəririk, insan təbiətinin müsbət cəhətlərinə göz yumuruq. Məsələn katolitsizm mövqeyində dayanan xanım Mersye bizi təqsirləndirir ki, körpənin təbəssümünü unutmuşuq. Bunlar da, onlar da bizə irad tuturlar — biz, guya insanların həmrəyliyini unutmuşuq, insana təcrid olunmuş məxluq kimi baxırıq. Kommunistlər bunun səbəbini də deyir, guya, ekzistensialistlər subyektivlikdən çıxış edirlər. Dekartın "Mən düşünürəm, demək varam" disturunu rəhbər tuturlar, yəni insan özünü tək başına dərk edir. Kommunistlərin fikrincə bu bizi həmrəylik ideyasından uzaqlaşdırır. O biri tərəfdən katoliklər bizi onda da suçlayırlar ki, gerçəkliyi və insan hərəkətlərini danırıq, Allahın tapşırıqlarına və əbədi dəyərlərə məhəl qoymayaraq özbaşınalığa imkan yaradırıq, yəni hərə istədiyini edə bilər və heç kəs başqasının baxışlarına və hərəkətlərinə qiymət verməməlidir.

Bütün bu ittihamlara cavab verməyə çalışacam. Ona görə də bu balaca mətni "Ekzistensializm — humanizmdir" adlandırdım. Çoxları yəqin təəccüb qalacaq ki, mən humanizmdən danışıram. Amma gəlin görək mən bu sözü necə anlayıram. Hər halda bu başdan razılaşaq ki, ekzistensializm insan həyatını təsdiq edən bir təlimdir. Ekzistensializmə görə hər bir həqiqət və hər bir hərəkət müəyyən mühitlə bağlıdır.

Əsas irad ondan ibarətdir ki, biz həyatın pis üzünü göstərməyə

çalışırıq. Mənə danışırdılar ki, bu yaxınlarda bir qadın kobud ifadə işlədəndən sonra, üzr istəyib: deyəsən mən də ekzistensialist oluram — deyib. Deməli ekzistensializmi ayıb bir şey sayırlar.

Bir cəhət də var. "Ekzistensializm" sözünü işlədənlərin çoxu bu sözün mənasını izah edə bilməz. Çünki bu söz indi elə dəbə düşüb ki, hətta musiqiçiləri və rəssamları da ekzistensialist adlandırırlar. Söz indi çox geniş anlam qazanıb, odur ki, mahiyyət etibarilə daha heç bir məna daşımır. İndi sürrealizm kimi yeni avanqard bir cərəyan olmadığı vaxtda sensasiyaya aludə olanlar ekzistensializm fəlsəfəsinə üz tutur. Ancaq bu mənada ekzistesializm onlara heç cür faydalı ola bilməz.

Ekzistensializm ciddi təlimdir və hay-küy vasitəsiylə məşhur olmağa can atmır. O, əsasən mütəxəssislər və filosoflar üçündür. Buna baxmyaraq hər halda onun tərifini də vermək olar.

İşin bir çətinliyi də ondadır ki, ekzistensializmin iki növü var — birinci növ xristian ekzistensialistləridir ki, bunlara mən Yaspersi və katolisizmə tapınan Qabriel Marseli aid edirəm. İkinci ateist ekzistensialistlərdir ki, bunların arasında Haydeqqer və fransız ekzistensialistləri, o cümlədən mən özüm də varam.

Hər iki cərəyanı birləşdirən yalnız bir fikirdir ki, varlıq mahiyyətdən daha əvvəldir. Bunu necə başa düşmək olar:

İnsan əliylə yaradılmış hər hansı əşyanı, məsələn kitabı ya kağız bıçağını götürək. Bunları düzəldən peşəkar əvvəl-əvvəl bu əşyaların müəyyən anlayışına riayət edir. Beləliklə kitab ya bıçaq müəyyən üsulla istehsal olunmuş və müəyyən məqsədə xidmət edən əşyalardı. Bıçağın nəyə lazım olduğunu bilməyən adamın bıçaq qayırmasını təsəvvür etmək olmaz.

Biz Yaradanı, Allahı təsəvvürümüzdə canlandıranda onu ən yüksək səviyyəli peşəkar usta kimi düşünürük. Hansı fəlsəfi təlimi götürürsünüz götürün — Dekartımı, Leybnitsimi, hamısında nəzərdə tutulur ki, iradə əlin dalınca gedir, yəni əvvəl fikirdə yaranan şey sonra əmələ keçir. Allah da yaradanda nəyi ya kimi yaratdığını əla təsəvvür edirmiş. Beləliklə Allahın şüurunda "İnsan" anlayışı peşəkar üstanın şüurunda "bıçaq" anlayışının analojisidir. Allah da, peşəkar usta kimi insanı yaradarkən niyyətinə və vasitələrinə arxalanır.

XVIII əsrdə filosofların ateizmi Allah anlayışını aradan götürdü, amma onlar belə insan mahiyyətinin onun tarixi varlığından əvvəl olduğunu inkar edə bilmədilər. Bu ideyanı biz Didrodan, Volterdən

başlayaraq bütün filosoflarda müşahidə edirik. Hətta Kantda belə. İnsan insana xas olan təbiətə malikdir. Bütün insanlar belədir. Bu isə o deməkdir ki, hər bir ayrı fərd ümumi "insan" anlayışının özəl təzahürüdür. Bu ümumilikdən Kantın çıxardığı nəticə belədir ki, meşələrdə yaşayan təbii insan da, burjua da eyni ümumi xüsusiyyətlərə malikdir. Deməli burda da insan mahiyyəti onun təbiətdə müşahidə etdiyimiz tarixi varlığından daha əzəldir.

Mənim təmsil olunduğum ateist ekzistensializm daha ardıcıldır. Biz deyirik ki, əgər hətta Allah yoxdursa belə varlıq var, varlıq mahiyyətdən əvvəldi. Bu nə deməkdir?

Bu o deməkdir ki, insan əvvəlcə var olur, dünyaya gəlir, ancaq bundan sonra onun mahiyyəti müəyyənləşir. Ekzistensializmə görə insanı ona görə təyin etmək olmur ki, o əvvəl-əvvəl heç nədir. O yalnız sonralar insan olur, özü də özünü necə yaradırsa elə insan olur. Beləliklə heç bir insan təbiəti yoxdur, təbiəti yaradan Allah da yoxdur. İnsan var olur və o, özünün təsəvvür etdiyi kimi yox, olmaq istədiyi kimidir.

Ekzistensializmin birinci prinsipi budur. Beləliklə ilk növbədə ekzistensializm hər insana onun varlığını verir və necə olmağının bütün məsuliyyətini də onun öz çiyinlərinə qoyur.

Amma biz "insan məsuliyyət daşıyır" deyəndə bu o demək deyil ki, yalnız öz fərdi üçün məsuliyyət daşıyır. O bütün insanlarçün cavabdehdir.

Dostoyevski bir vaxt yazmışdı ki, "əgər Allah yoxsa, deməli hər şey etmək olar". Bu ekzistensializmin də çıxış nöqtəsidir. Doğrudan da Allah yoxsa, hər şey eləmək olar, ona görə də insan ATILMIŞDIR, nə öz içində, nə özundən kənarda heç bir dayağı yoxdur. Hər şeydən əvvəl onun bəraəti yoxdur. Əgər doğrudan da varlıq mahiyyətdən qabaqdırsa insan təbiətinə isnad etməklə heç nəyi anlamaq olmaz.

O biri tərəfdən Allah yoxdursa, deməli heç bir əxlaqi dəyərlər də yoxdur və hərəkətlərimizi tənzim edəcək göstərişlər də yoxdur. Beləliklə nə qarşımızda, nə arxamızda —işıqlı dəyərlər səltənətində bəraətimiz, üzrümüz var. Tənhayıq və bağışlanmazıq. Bax məhz bunu mən: "İnsan azad olmağa məhkumdur" sözləriylə ifadə edirəm.

İnsan məhkumdur, çünki özü özünü doğmayıb, azaddır, ona görə ki, bu dunyaya atılandan sonra hər bir hərəkətinə cavabdehdir.

Dekart deyirdi: dünyaya qalib cəlməkdən əvvəl özünə qalib

gəlməlisən.

Özünü öz sənət əsərində ifadə etdiyindən kənarda heç bir dahi yoxdur. Marsel Prustun dühası — onun əsərləridir, Rasinin dühası — onun bir sıra faciələrindədir və bunlardan başqa heç yerdə yoxdur. "Rasin bir faciə də yaza bilərdi" deməyin nə mənası var ki, bu faciəni yazmayıb. İnsan öz həyatıyla yaşayır, öz surətini yaradır və bu surətdən başqa heç nəyi yoxdur. Əlbəttə həyatda uğur qazana bilməyənlərçün bu çox amansız hökmdür. Amma insanlar onu da başa düşməlidir ki, ancaq varlıq var, arzular, ümidlər insanı yalnız yalan yuxuların əsiri edir.

Pikassonun şəkillərini müzakirə edərkən, demirik ki, bu nədir? Yaxşı başa düşürük ki, şəkil çəkərkən o, özünü yaradır, özü necə varsa, elə yaradır və əsərlərinin külliyatına onun öz həyatı da daxildir

Əxlaq məsələsi də belədir. Sənətlə əxlaq arasında ümumi cəhət odur ki, hər ikisində yaradıcılıq və kəşf var, Biz qabaqcadan nə etməli olacağımızı təyin edə bilmərik. Yenə təkrar edək ki, insan özü özünü yaradır, bu ya digər əxlaq ülgüsünü seçərkən o, özünü müəyyənləşdirir. Biz də onu bu ya başqa mövqe tutmasıyla bağlı dəyərləndirə bilərik.

Deyirlər ki, biz başqasını mühakimə edə bilmərik. Bu həm doğrudur, həm də yox. Doğrudur ona görə ki, bir insan tam səmimiyyətlə və aydın şüurla öz xətt hərəkətini seçəndə ona başqa xətt hərəkəti təklif etmək olmaz. Amma digər tərəfdən sənin bu hərəkətə münasibətin sənin özünün də varlığını müəyyənləşdirir axı.

Mənə məsələnin qoyuluşunu da irad tuturdular: Doğrudanmı ekzistensializmi humanizm sayırsınız? "Humanizm" sözünü iki tam müxtəlif anlamda başa düşmək olar.

Humanizm nəzəriyyəsi insanı son məqsəd və ən böyük dəyər kimi qiymətləndirir.

Amma humanizmi başqa cür də anlamaq mümkündür. İnsan daimi dəyər deyil, o, yalnız daima özünü yarada-yarada və itirə-itirə insan olur. Ekzistensializm də bax bu anlamda humanizmdir.

Bu mülahizələrdən aydın olur ki, bizə qarşı iradlar çox haqsızdır. Ekzistensializm ardıcıl ateizmdən nəticələr çıxarmaq təşəbbüsüdür. O heç də insanı ümidsizlik girdabına atmır. Amma xristianlar etdiyi kimi hər bir bidəti ümidsizlik sayacaqlarsa onda ilkin ümidsizlik təbiətin özündən doğur. Ekzistensializm "Allahın yoxluğunu" isbat etməyə cəhd eləmir, özünü buna sübut axtarmağa xərcləmir. O başqa

şey deyir: Əgər Allah varsa da, bu heç nəyi dəyişmir, İnsan bu halda da özü özünü yaradır. Bu bizim nöqtəyi-nəzərimizdir. Bu o demək deyil ki, biz Allaha inanırıq. Məsələ bunda deyil. İnsan özü-özünü tanımalıdır və əmin olmalıdır ki, əgər Allahın varlığı subut olunsa belə heç kəs insanın özünü özündən xilas edə bilməz. Bu mənada ekzistensializm — nikbinlikdir, hərəkətə, işə, əmələ təhrik edən təlimdir. Və xristianlar da öz ümidsizliklərini bizə sırımağa çalışaraq bizi ümidsizlər adlandıra bilər.

ALBER KAMYU
(1913-1960)
fransız yazıçısı, filosofu

SİZİF MİFİ
"Absurd haqqında esse"dən parçalar

ABSURD VƏ INTIHAR

Yalnız bir ciddi fəlsəfi problem var — intihar problemi. Yaşamağa dəyərmi dəyməzmi, bu suala cavab vermək fəlsəfənin fundamental sorğusuna cavab verməkdir. Bütün başqa məsələlər dünyanın üçmü ölçüsü var, şüur doqquz yaxud on iki kateqoriyalarımı rəhbər tutur və s. ikinci dərəcəli məsələlərdir. Oyunun şərtləri budur. İlk öncə bu suala cavab verməlisən. Əgər Nitsşenin istədiyi kimi "hörmətə layiq filosof özü də örnək olmalıdır" fikrini əsas götürsək bu sualın cavabından asılı olaraq müəyyən hərəkətlər edilməlidir. Bunu qəlbən hiss edirsən, amma şüurda aydınlaşması üçün məsələnin mahiyyətinə varmalısan. Cəmiyyətin bu işdə elə bir rolu yoxdur.

Qərardan sonra edilən hərəkətlərə görə qiymət verilməlidir. Mən heç vaxt kiminsə fəlsəfi nəzəriyyə ucbatından öldüyünü görməmişəm. Qaliley elmi həqiqətin dəyərini bilirdi, amma həyatı təhlükəyə düşən kimi asanlıqla ondan imtina etdi. Hardasa haqlıydı. Bu həqiqətçün tonqalda yanmağa dəyməzdi. — Yer günəşin başına hərlənir ya günəş yerin — nə fərqi var? Boş sualdır. Amma o biri tərəfdən də nə qədər insanın intihar etdiyini görürük, onlara görə həyat — yaşamağa dəyməz. Həyatlarının təməlini təşkil edən ideyalar ya xülyalar uğrunda ölməyə hazır olanları da tanıyıram (deməli yaşamalarının səbəbi ölmələrinin də səbəbi ola bilər). Ona görə də həyatın mənası haqqında sualı mən bütün suallardan ən vacibi sayıram. Bu suala nə cavab verəsən?

İntihar həmişə ictimai fenomen kimi qavranılırdı. Biz isə əksinə, intiharı fərdin düşüncəsiylə bağlayırıq. İntihar niyyəti qəlbin səszizliyində baş qaldırır. Bəlkə insan özü bunu hiss etmir. Amma günlərin bir günü başına güllə çaxır ya özünü suya atır. Özünü öldürənlərdən biri haqqında deyirdilər ki, beş il əvvəl qızını itirib və

bu faciə onu daxilən çürüdüb. Daha dəqiq söz tapmaq çətindir. Bir fikir ya hiss səni çürütməyə başladımı, gec-tez axırına çıxacaq. Qurd qəlbi içdən gəmirir.

İntiharın səbəbləri çoxdur. Ən çox aşkarda olanlar — əsaslarından deyil. Son məqam demək olar ki, həmişə bir tükdən asılı olur. Məsələn o gün köhnə dostu onunla bir az soyuq salamlaşıbsa günahkar odur. Daha doğrusu intihar edənin içində yığılan acılara son damlanı həmin dostu əlavə edib və sonluğu yaxınlaşdırıb.

Bizi həyatın xülyalarından ayıran o izaholunmaz hiss nədir? İzah edə bildiyimiz, hətta lap pis başa düşə bildiyimiz dünya bizə tanışdı. Amma dünya bir də bizi xülyalardan məhrum edirsə, həm də dərk edilməzdirsə, insan yabançılaşır. İnsan həmişəlik qovulur, çünki itirilmiş vətənini də daha xatırlamır, gələcək cənnətə də ümidi qalmır. Əslinə qalsa absurd hissi elə budur — insanla həyatı arasında, aktyorla dekorlar arasında çat yarğana çevrilir.

Mənim essemin niyyəti budur — absurdla intihar arasında əlaqəni, intiharın absurdun nəticəsi olmadığını araşdırmaq.

Varlığın absurdluğu insan hərəkətlərinə rəhbərlik etməlidir. Bu vəziyyətdən çıxış yolu nədədir? Sual çox asan görünür, amma asan sualların cavabları çox vaxt asan olmur. Yəni intihar ərəfəsində insanı düşündürən sualın — həyatın, özəlliklə onun öz ömrünün mənası varmı — sualının cəmisi iki cavabı olmalıdır: hə və yox. Amma bu məsələnin çox asan həlli olardı. Bu suallara ömürləri boyu cavab tapa bilməyənlər də var. Mən rişxənd eləmirəm. İnsanların əksəriyyəti belədir. Elələri də var ki, "yox" cavabı verib "hə" cavabı veriblərmiş kimi yaşamağa davam edir. Və əksinə intihar edənlər çox vaxt əmindilər ki, həyatın mənası var. Bu ziddiyyətlər daima qarşımıza çıxır.

Həyatın naqisliyi, absurd olması onun mənasızlığınımı sübut edir? Həyatın absurdluğundan qaçmaqmı gərəkdir? Hara? Ümidə ya intihara? Absurd mütləqmi intiharla nəticələnir? Bu problemlərin ilkidir.

SİZİF MİFİ

Allahlar Sizifi hündür bir dağa daş daşımağa məhkum etmişdilər. Daşı zirvəyə çatdıran kimi o sürüşüb yenidən dağın ətəyinə düşürdü və Sizif bu ağır işə yenidən başlayırdı. Allahlar belə sayırdı ki,

mənasız və məqsədsiz zəhmət — ən ağır cəzadır.

Homerə görə Sizif müdrüklərin müdrüyü imiş. Başqa bir qaynağa görə o, quldurluq da edirmiş. Məncə burda ziddiyyət yoxdur.

Cəhənnəmə düşməyinin səbəbləri haqqında da müxtəlif rəylər var. Deyirlər ki, Sizif ölümün özünü tutub əl-ayağını qandallayıb. Cəhənnəmin sahibi Pluton cəhənnəmin boşaldığını görüb müharibə allahını Sizifin üstünə göndərir və ölümü onun əlindən xilas edir. Onu da danışırlar ki, Sizif arvadının sədaqətini yoxlamaq üçün ölən zaman meyitinin basdırılmamasını, meydanda qoyulmasını ona vəsiyyət edib. Arvad vəsiyyətə əməl edəndə isə Sizif bu işin necə də insana yaraşmayan itaətkarlıq olduğuna görə o dünyada Plutondan icazə istəyir ki, bu dünyaya qayıdıb arvadını cəzalandırsın. Amma icazəni alıb dünyaya qayıdandan sonra suyu, günəşi, daşların istisini və dənizi yenidən görüb kölgələr aləminə, cəhənnəmə qayıtmaq istəməyib. Allahlar nə qədər xəbərdarlıq etsələr, nə qədər ismarış göndərsələr də xeyri olmayıb. Sizif bir körfəzin sahilində məskən salıb, — dəniz uğuldayan, torpaq gülümsünən bu güşədə. Nəhayət Merkuri özü gəlir, Sizifin yaxasından yapışır, dartıb cəhənnəmə aparır və burda o daş məsələsi başlayır.

Bütün bunlardan aylın olur ki, Sizif absurd qəhrəmandır. Ehtiraslarında da, iztirablarında da absurdun simvoludur. Allahları saymaması, ölümə nifrət etməsi, həyat eşqi onu görünməmiş əzablara düçar edir. Mənasız bir işə məhkum olur —ağır daşın dağın başında durmayacağını bilə-bilə onu yenə və yenə ora qaldırmaq… Aşağı düşən daşı yenidən, yenidən zirvəyə daşımaq… Cəza məqsədə çatıb. Sizif dağ başına qalxır, daşın yenidən aşağı düşməsini seyr edir. Məni bax bu məqam maraqlandırır. Onun yorğun-arğın sifəti daşdan fərqlənmir. Mən bu insanı ağır, amma möhkəm addımlarla aşağı düşən görürəm, o əbədi bitməyəcək iztirablarına tərəf addımlayır. Amma bu an şüuru da ona qayıdır. Dağ başından ətəyinə enərkən o öz taleyindən ucadadır. Daşıdığı daşdan möhkəmdir.

Bu faciəvi mifdir, ona görə ki, mifin qəhrəmanı şüura maliklir. Əgər hər addımda onu bu əzabın sonu gözləsəydi, bu necə cəza olardı? Bügünün fəhləsi də ömrünü belə yaşayır və onun da taleyi bu cür faciəvidir. Amma Sizif yalnız şüuru oyanan zaman faciəsini duyur. Allahların proletarı Sizif gücsüz və qiyamçıdır, cəzasının əbədiliyini bilir, dağın ətəyinə enərkən bunu düşünür. Taleyini bilməsi qələbəsinə çevrilir. Qismətini saya salmamaqla ona qalib

gəlir.

Bu ətəklərə enmə iztirabdırsa, sevinc də ola bilər. Mən yenə də daşın dalınca aşağılara enən Sizifi təsəvvürümdə canlandırıram. Əvvəlcə iztirab çəkib, yaddaşında dünyanın obrazlarını yaşadırkən, qəlbi səadət arzularıyla çırpınırkən Sizif kədərlənir — bu daşın qələbəsidir, daşın özüdür. Kədərin ağır yükünü daşımaq çətindir. Hefsiman bağındakı kədər də belədir. Amma bizi yıxan həqiqətləri tanıdığımız zaman onlar geri çəkilir. Beləcə Edip öz taleyini biləndən sonra onunla barışır. Faciə və onun faciə kimi dərk olunması eyni vaxtda, bir yerdə başlanır. Kor olmuş ümidsiz Edip elə o anlardaca anlayır ki, onu dünyayla yalnız incə qız əli bağlayır. Elə o zaman məğrur danışmağa başlayır: Bütün bəlalarına rəğmən, sinni çox olsa da qəlbinin genişliyi "hər şey yaxşıdır" deməyə məcbur edir. Sofoklun Edipi də Dostoyevskinin Kirillovu kimi bizə absurd zəfərin disturunu verir. Antik müdriklik çağdaş qəhrəmanlıqla birləşir.

Absurdu kəşf edən həmişə səadət dərsliyi yazmaq fikrinə düşür. "Niyə, belə dar yolla gedirik?" Amma dünya yeganədir, səadət və absurd eyni yerin törəməsidir. Onlar ayrılmazdır. Səadətin yalnız absurdun kəşflərindən doğulduğunu söyləmək səhv olardı. Elə də ola bilər ki, absurd hissi səadətdən doğulur. Edip: Elə bilirəm ki, hər şey yaxşıdır — deyir və bu ilahi sözlərdir. Bu sözlər insanın sərt və son kainatından səslənir. Onlar öyrədir ki, bu hələ hamısı deyil, hələ hər şey bitib tükənməyib. Onlar bu dünyadan mənasız iztirablara meyl edən Allahı qovurlar. Onlar taleyi insanın öz əlinə verirlər, insanların öz aralarında həll etməli olduqları məsələ sayırlar. Sizifin sakit sevinci bundadır. Bu tale onundur. Daş onun varı-yoxudur. Beləcə absurd insan öz iztirablarını seyr edərək bütləri susdurur. Birdən birə susan kainatda minlərlə gözəl səsin pıçıltıları eşidilir, yerdən qalxan səslərin. Bu dünyanın bütün obrazlarının şüursuz və sirli çağırışıdır. Qələbənin üzü və astarı belədir. Kölgəsiz günəş olmur, gecəni də tanımaq gərəkdir. Absurd insan "Hə" — deyir və onun cəhdlərinin sonu yoxdur. Əgər şəxsi taleyi varsa, bu da göylərin iradəsi deyil. Qədər insanın özünün ona necə yanaşmasından asılıdır — ona baş əyir və saya salmır. Qalan məsələlərdə özünü günlərinin hakimi hesab edir. Sezilən bir an içinlə insan geri qanrılıb keçmiş həyatına baxarkən Sizif də daşını və öz taleyinə çevrilmiş mənasız işlərin ardıcıllığını seyr edir. Bunu özü yaradıb, yaddaşı bunları bir vəhdətdə birləşdirib və ölümlə tamamlayıb. Bütün insan əməllərinin

insan tərəfindən yarandığına inanan, gecənin sonsuz olduğunu bilən kor qoca yoluna davam edir. Daş yenidən dığırlanıb aşağı düşür.

Mən Sizifdən dağın ətəklərində ayrılıram. Yük həmişə tapılar. Sizif Allahları inkar edən və daşları yerindən dəbərdən etibarı təlqin edir. O da hesab edir ki, hər şey yaxşıdır. İndən bəri sahibsiz qalmış bu kainat ona qısır və boş gəlmir.

Daşın hər qəlpəsi onunçün bütöv bir aləmdir. Dağın zirvəsinə qalxmaq insanın qəlbini doldura bilər. Sizif özünü xoşbəxt hesab etməlidir.

ANNA MARİYA MATUTE
İspan yazıçısı

Hələ faşist Franko quruluşunun son süqut dövründə yeni ispan ədəbiyyatının istedadlı gənc nümayəndələri öz etiraz səslərini qaldırmış və bütün dünyada şöhrət qazanmışdılar. Faşist quruluşunun boğucu mühiti hər cür azad fikrə qənim kəsilsə də, gənc ispan yazıçıları mənsub olduqları xalqın həyatı, problemləri, taleyi haqqında həqiqəti deməyə bu ya digər dərəcədə nail olurdular. Onların bir çoxunun kitabları Franko İspaniyasında qadağan edilmişdi. Bu yazıçıların bəziləri İspaniyadan kənarda, mühacirətdə yaşayır və əsərlərini də başqa ölkələrdə nəşr etdirirdilər. Azadlıq və həqiqət ideallarına sadiq qalmış bir ədəbiyyatı məhz bu gənc ədəbi nəslin nümayəndələri təmsil edirdilər. Sovet oxucusuna Xuan Qoytisolonun, Armanda Lopes Salinasın, Antonio Ferresin və başqalarının adı tanışdır. Bu yazıçılar nəslinə Anna Mariya Matute də mənsubdur.

Antifaşist demokratik əqidələrə malik olan yazıçının romanları və hekayələri bizim ölkədə də geniş oxucu kütləsinə tanışdır. Anna Mariya Matutenin rus dilində "Ölü oğullar" (1967), "Əsgərlər gecə ağlayır" (1969), "İlk xatirələr"(1977) kitabları, habelə, dövrü mətbuatda və müasir ispan novellaları antologiyasında bir sıra hekayələri, şerləri, məqalələri çap olunmuşdur. Məqalələrin birində A.M.Matute ehtiras və yanğı ilə faşist Franko dövründə mütərəqqi ispan ədəbiyyatının gənc nəslinin (A.M.Matutenin mənsub olduğu nəslin) azad düşüncə, fikir sərbəstliyi, insan ləyaqəti uğrunda çətin mübarizəsindən, öz həmyaşlarının ağrılarından, əzablarından, ümid və arzularından söz açır. Bu mülahizələrlə oxucularımızı tanış etmək istəyirik (Tərcüməçinin qeydi. 1980).

"BİZ ONA GÖRƏ YAZMAĞA BAŞLADIQ Kİ, NARAZIYDIQ…"

Mənsub olduğum yazıçılar nəslini bütünlüklə, bütün mürəkkəbliyi və əhəmiyyəti ilə əhatə etməyi qarşıma məqsəd qoymuram. Həm də "nəsil" məvhumunun özü çox qeyri-müəyyən anlayışdır, bu anlayışı müxtəlif cür yozmaq olar.

Mən ancaq yaxşı tanıdığım bir dəstə ispan yazıçısı haqqında danışa bilərəm. Bu dəstə sayca kiçik olsa da, siqləti böyükdür. Mən onlarla birlikdə yaşamış, mübarizə etmiş, ümid bəsləmişəm. Bizi dostluq və qardaşlıq hissləri bağlayıb. Mən nə tənqidçiyəm, nə tədqiqatçı, onları mühakimə edə bilmərəm. Onlar mənə çox yaxındır. Mən özüm də onlardan biriyəm. Mənim məqsədim amansız vətəndaş müharibəsi illərində və bu müharibədən sonra böyüyüb yetkinləşmiş bir dəstə oğlan və qız haqqında söhbət açmaqdır. Mən bu yazıçılardan danışmaq üçün onların uşaqlıq illərinə qayıtmalıyam. Uşaqlıq bizi daima təqib edir və yazdığım bütün əsərlərdə bunu görə bilərsiniz. O gün — 1936-cı ilin 18 iyulunda bizim səkkiz-on yaşımız vardı. Vətəndaş müharibəsi ağır bir yara idi. Bizim nəslin yazıçı həyatının sağalmaz yarası… Biz uşaq idik, bir qədər ürkək, narahat və hər şeyə maraq göstərən tamaşaçılar idik. Qarşımızda isə böyüklərin faciəsi oynanılırdı. 1936-cı ilin 18 iyulundan dünya gözlərimiz qarşısında dəyişməyə başladı. Bizə sabit görünən varlıq birdən-birə parçalandı. Biz — bir dəstə uşaq eyvanlardan, pərdəli pəncərələrin arxasından ürkək-ürkək, heyran-heyran küçələrə, silahlı adamlara baxırdıq. Onları indiyədək görməmişdik. Bu əsəbi adamların sifətlərində aclıq və nifrət izləri vardı. Onların tüfəng və pulemyotları varlı evlərinə tərəf tuşlanmışdı. Əvvəllərdən bizə yaxşı və pis deyə təqdim edilən şeylər, indi şübhə doğururdu. Həqiqət, ədalət harda idi? Onları bizə kim göstərəcək? Bütün bu suallar dəyişməz, sabit, məntiqli görünən keçmiş dünyaya ittihamnamə kimi səslənirdi. Radionun səsi gecə sükutunu parçalayırdı. Mikrofonlar qarşısında kişilər, qadınlar sanki eyni bir sözü tələffüz etməkdə bəhsə girmişdilər, Bu söz bizim üçün təzə və anlaşılmaz idi. Bu — "azadlıq" — "hürriyyət" sözü idi. Mütəhərrik, amansız, titrək həqiqi həyat gözlərimiz qarşısında açıldı. Və dərhal bizim qarşımızda yüzlərlə sual durdu, Nə üçün? Nəyə görə? Nə səbəbdən? Biz anladıq

ki, dünyada aclıq mövcuddur, bərabərsizlik mövcuddur. Habelə eqoizm, qorxu, zülm və ölüm mövcuddur. İnqilabın və müharibənin tətatümə gətirdiyi şəhərlərin həyatı külək kimi pəncərələrimizdən içəri dolurdu. Müharibə qurtardı və biz böyüdük. Yeni bir dövr başlandı. Biz təzə həyat dərsləri aldıq. Biz pıçıltılı, xısın danışıqlar və boğuq qışqırıqlar mühitinə düşdük. Biz başqa bir vahiməni, başqa bir nigarançılığı duyduq. Nəhəng, qeyri-müəyyən bir sükutu əski parçası kimi min-min ağıza, gözə, qulağa və nəhayət şüura tıxayırdılar. Biz sükut səhrasının içinə pərakəndə dağılmış cavanlar idik. Zülmət və yalanlar, aldanışlar və uydurmalar dünyasında həqiqətə yol tapmaq üçün, narazılığımızı, ümidlərimizi və cavabsız suallarımızı aləmə bağırmaq üçün yazırdıq. Biz yalnız sükutla və laqeydliklə üzləşirdik. Ətrafımızdakı bütün dünya gözlərini yummuş, qulaqlarını bağlamışdı. O, nə bərk danışırdı, nə yavaş. O, yalnız kütküt eyni şeyi təkrar edirdi. Ancaq biz axtarırdıq. Liman rayonlarında, şəhər kənarında, kəndlərdə və qəsəbələrdə biz xalqımızın nəbzini və qəlbini axtarırdıq. Bizə onun sözləri lazım idi. Əgər bir şeyi inadla axtarırsansa, mütləq tapacaqsan. Bizim yetişdiyimiz vaxt ispan ədəbiyyatının ən ağır günləri idi. İspan romanı cürbəcür mürəkkəb hisslərin təsviri ilə məşğul idi. Romançılar müharibə mövzusuna müraciət edəndə yalnız təntənəli və təmtəraqlı ədayla danışırdılar. Mələklərin iblislər üzərində əbədi qələbəsindən dəm vururdular. Bizim uşaqlıq nağıllarımızda olduğu kimi yenə də yaxşılar mütləq pislərə üstün gəlirdi. Biz romanı yeni əsaslar üzərində qurmağa başladıq. Müharibədən danışarkən biz onu nə "müqəddəs qiyam", nə də "zəfər yürüşü" adlandırırdıq. Biz onu "vətəndaş müharibəsi" adlandırırdıq. "Vətəndaş" sözü dərhal qadağan olundu. Gərək "müqəddəs qiyam" ya da "zəfər yürüşü" deyəydin. Bizim kitablarımızdan "hürriyyət" sözü kənar edildi. O dövr ispan ədəbiyyatı üçün müəyyən yasaq mövzular vardı. Bu yasaqların nəticəsində belə çıxırdı ki, guya İspaniyada heç kəs intihar etmir, ailədə ər ya arvad heç vaxt bir-birinə vəfasız çıxmır. Senzura bu cəhətdən sayıq idi. Biz belə kəsif havalı mühitdə yazmağa başladıq. On səkkiz, iyirmi yaşımız vardı. Çətin idi. Beş-on il ərzində biz hələ "pis uşaqlar" sayılırdıq. Vaxt keçdikcə biz də düzələcəkdik, düzəlməliydik. Ancaq bizimlə bir qədər sərt davranmaq lazımdı. Biz mübarizə aparırdıq. Bizim ən dəhşətli düşmənimiz tənqid deyildi, hətta senzura da deyildi. Ən amansız düşmənimiz bizi əhatə edən

laqeydlik, etinasızlıq, biganəlik idi. Ymumiyyətlə, ədəbi və hər növ intellektual, zehni fəaliyyətə həqarətlə baxılırdı. Heç kəs ədəbiyyatla maraqlanmırdı. Lakin biz yazmaq istəyirdik. Nə qazanc xatirinə. nə məşğuliyyət naminə. İfşa etmək, təəccüblənmək və suallar vermək üçün yazmaq istəyirdik. Yadımdadır necə yazırdıq. Yadımdadır qadağan olunmuş kitabları necə kəşf edirdik. Bukinistlərin tozlu dükanlarında indiyəcən bilmədiyimiz adları və ədəbi cərəyanları açırdıq. Bizi yalnız sükut, səssizlik əhatə edirdi. Amma biz artıq öz həyat məqsədimizi tapmışdıq. Başımızda rədd, qadağa divarlarını sökməyə hazırdıq. Senzura kitablarımızı çarmıxa çəkirdi. İdeyalarımızı pərdələnmiş bir şəkildə ifadə etmək üçün dolayı yollar və cığırlar axtarırdıq. Bu axtarışlar şüurumuzu gərginləşdirir, qurudurdu. Bizdə tənqid yox idi. Ortabab tənqidin biganə və laqeyd nümayəndələri anlamadığı və dərk etməyi bacarmadığı hər ədəbi hadisəyə "ekzistensializm" adı verirdi. Biz isə dönə-dönə müharibə illərinə qayıdırdıq. Axı, müharibə mövzusu bizim üçün birdən açılıb həyatı bizə göstərən və yenidən qapanan yeganə pəncərə idi. Biz yalnız onun uzaq əks-sədasını eşidirdik. Hürriyyət və insan azadlığı kimi sözlər bizim əsərlərdən pozulurdu, kitablarımızdan çıxarılırdı. Ancaq pəncərədən bizə yavaş-yavaş yeni adlar, fikirlər süzülməyə başlayırdı. Axı bizim nəsil ədəbiyyatsız böyümüş bir nəsildi. Onu deyim ki, Dostoyevskinin bütün əsərləri, "Anna Karenina", Balzakın romanları qadağan olunmuşdu. Müasir Fransa, İtaliya, Amerika yazıçılarını oxumaq qanunsuz hərəkət sayılırdı. Bizim öz ispan yazıçılarımızın əksəriyyətinin kitabları qadağan olunmuşdu, senzuranın izn verdiyi kitablar belə təhrif olunur və dəyişdirilirdi. Bizim gənclər mənəvi axtarışlardan uzaq idi. Onlar yalnız futbol həvəsləri ilə yaşayır, yalnız idmanla maraqlanırdılar. Gənclik nə ədəbiyyatdan danışırdı, nə siyasətdən. Gənclik bu sözlərin mənasını belə başa düşmürdü. Yadımladır biz bir-birimizi korlar kimi axtarır və tapırdıq. Bizim məsləkdaş axtarışlarımız, qardaşlığımız, ehtiraslı yığıncaqlarımız — hamısı, hamısı sükut səhrasının içində idi. Biz sanki yox idik. Bizi oxuyan az idi. Oxuyanlar da ya məzəmmət, ya da rişxənd edirdilər. Biz çətin uşaqlar idik. Modda idik. Ətrafımızda keçilməz sərhədlər vardı. Fransaya getmək xülya, yuxu idi. Piraneyləri aşmaq xoşbəxt bir macəra idi. Qadağan olunmuş kitabı almaq cəsarət tələb edirdi. Biz bu sükut içində bağırır və yalnız öz səsimizin əks-sədasını eşidirdik. İndiki nəsil bizim o vaxtkı

həsrətimizi bilmir. Rəsmi senzuradan daha ağır, başqa bir senzura vardı. Bizim hekayələri oxuyan bəzi adamlar redaksiyalara belə məktublar yazırdılar:

"Belə xoşagəlməz yazıçıları jurnalınızın səhifələrində çap etməyin. Mən evimə qayıdıb qəhvə içirəm. Ancaq sizin jurnalın səhifələrini vərəqləyəndə başqalarının aclığı, kasıblığı mənim evimə də daxil olur. Mən bütün bu şeyləri bilmək istəmirəm. Mən rahat yaşamaq istəyirəm".

Bəli, belə oxucular da vardı, Bizə hücum edirdilər, əsərlərimizi oxumağı qadağan edirdilər. Amma bütün bunlar bizim əzmimizi daha da qüvvətləndirirdi. Çünki biz mövcud idik. Biz laqeydliyi və arxayınçılığı sarsıtmışdıq. Biz nə isə deyirdik, nə isə qışqırırdıq və yavaş-yavaş bizi dinləməyə başlayırdılar. Ətrafımıza baxıb camaatın yavaş-yavaş qəflət yuxusundan oyandığını görürdük. Müharibə yaraları bütün tənziflərə baxmayaraq açıq qalmışdı. Bu yaralar xatırladırdı ki, "yaxşılar" — "pislər" məvhumu yalandır. Əslində heç bilmirdik yaxşı kimdir, pis kimdir. Ancaq bunu bilmək imkanı yaranmışdı. Cavan yazıçılar uydurma fərdlərdən deyil, real adamlardan, hər gün küçədə gördüyümüz, həyatın çətinlikləri ilə çarpışan adamlardan yazmağa başladılar. Bizim yazıçılarda açıq maraq, qorxmazlıq və ədalət eşqi oyandı. İspan romanı unudulmuş və arxivlərə təhvil verilmiş problemlər üzərində düşünməyə başladı. Biz məzmun haqqında düşünməyə başladıq. Yazıçı dostlarımın romanlarının birinin qəhrəmanı deyir:

—Biz yalan dünyasında yaşayırdıq. Bütöv bizim varlığımız saxtakarlıqdı. Biz mühitimizin yalanına, riyakarlığına, laqeydliyinə qarşı mübarizəyə başladıq. Biz ona görə yazmağa başladıq ki, narazıydıq. Məhz buna görə də müharibədən neçə il sonra biz yenə də o illərdən yazırıq. Çünki biz nə uyumuşuq, nə də təslim olmuşuq. Biz nə kor, nə də ölüyük. Biz yazırıq, çünki bizim əsərlərimiz etiraz formalarından biridir. Nə qədər ki, biz sağıq, nə qədər ki, qüvvələrimiz var, biz istismara, riyakarlığa və ədalətsizliyə qarşı mübarizə aparacayıq.

Ön söz və tərcümə vaxtilə "Azərbaycan" jurnalında (№2, 1980-ci il) dərc olunmuşdu.

ŞEİRLƏR
(sərbəst tərcümələr)

ŞEİR TƏRCÜMƏLƏRİM HAQQINDA BİR NEÇƏ SÖZ.

Vaxtilə dörd rus şairindən — Blokdan, Pasternakdan, Mayakovskidən, Yesenindən etdiyim on şerin tərcüməsi dövrü mətbuatda dərc olunmuşdu, ayrıca kitab kimi çıxmışdı. Həmin şerlərin əksəriyyəti dilimizə ilk dəfə çevrilirdi. Pasternak isə ümumiyyətlə Azərbaycan türkcəsinə ilk dəfə tərcümə olunmuşdu. Amma mənim tərcümələrim, o cümlədən rus poeziyasından tərcümələrim tək bunlardan ibarət deyildi. Müxtəlif illərdə ya bütünlüklə, ya qismən etdiyim tərcümələri çap etməmişdim. Beləliklə bu bölümdə gedən (on rus şerindən başqa) bütün qalan tərcümələr ilk dəfə nəşr edilir. Bir çox şerlər, özəlliklə rus şairlərindən edilən tərcümələr orijinallarına çox yaxın, çox dəqiqdirlərsə də (rus dilini bildiyim üçün buna əminəm) hər halda küll halında bünları sərbəst tərcümələr adlandırıram.

Səbəbini izah edim. Oxucu görəcək ki, burda ən qədimlərdən üzü bəri, çağdaş zamana qədər müxtəlif dövrlərin, müxtəlif xalqların şerləri təmsil olunub. "Mətnlər" bölümündə dediklərimi burda da təkrar edirəm: ən fərqli şer mətnlərinin dilimizdə səslənmə imkanlarını öyrənmək yeganə olmasa da məqsədlərimdən biriydi. Başqa bir məqsəd — oxucularımızı dünyanın, tarixin bu söz inciləriylə tanış etməkdi. Nə yazıq ki, rus dilindən başqa bütün çevirmələri (fransız, ingilis, alman, ispan, çin, yapon, hind və s.) orijinaldan yox, rus dilindən etmişəm. Bəzən eyni bir şerin rus dilinə üç-dörd tərcüməsiylə tanış olmuşam, bir-birindən çox fərqləniblər. Hansı orijinala daha yaxındır, bilmirəm. Odur ki, tərcümədə şerin əsas məğzini saxlamaqla müəyyən sərbəstliyə də yol verirəm.

Ümumiyyətlə şer tərcümələrim üç mərhələdə olur. Birinci mərhələdə şeri sətri tərcümə edirəm, mənasını, məzmununu, ritmini, ahəngini saxlamaq istəyirəm. İkinci mərhələdə sərbəst, qafiyəsiz şerlərlə vəznli, qafiyəli şerlərin tərcümələri üzərində iş fərqlidir. Qədim dünyanın şerləri, Çin, Yapon, Koreya, Hind şerləri, XX əsrin bir çox Qərb şeri sərbəstdir, qafiyəsizdir. Vəznli qafiyəli şerlərçün

ikinci mərhələdə qafiyə axtarıram. Amma elə olsun ki, məna, məzmun, ritm, ahəng pozulmasın, qafiyəyə qurban verilməsin.

Bundan sonra həm vəznli, həm sərbəst, həm qafiyəli, həm qafiyəsiz şerlərin tərcüməsində üçüncü və ən çətin mərhələ gəlir. Necə edəsən ki, orijinalın ruhunu. mənasını, məzmununu, ahəngini, ritmini, qafiyə sistemini — məsələn qəzəlin ya sonetin qediyə sistemini qorumaqla bu mətni Azərbaycan şeri edəsən? Ən böyük sərbəstlik bax burda lazım olur. Mənim qənaətimcə (heç kəsi bu qənaəti paylaşmağa çağırmıram) tərcümədə qafiyə xətası da ola bilər, təqribi qulaq qafiyələri də mümkündür, köhnə, çox işlənmiş qafiyələrdən istifadə etmək də məqbuldur, təki şer həm orijinala yaxın, həm də Azərbaycan şeri kimi səslənsin. Çevirmələrimdə əsas məqsəd bu idi. Buna nail olmuşam ya yox — oxucu desin.

29 yanvar 2006

PEŞMANIN ÖZ QƏLBİYLƏ SÖHBƏTLƏRİNDƏN
ixtisarla

(ən əski Qədim Misir mətnlərindəndir, eramızdan əvvəl II ya III minilliklərə aid edilir)

İKINCI ŞIKAYƏT

Kimə açım qəlbimi?
Qardaşlarım namussuz,
Dostlar məndən soyuyub

Kimə açım qəlbimi?
Ürəklər həris
Göz tikib hamı özgə malına

Kimə açım qəlbimi?
Qəddarlar at oynadır
Yaxşı adamlar da yox.

Kimə açım qəlbimi
Başqasının son tikə
Çörəyini qapırlar

Kumə açım qəlbimi?
Yaxşılıq unudulur,
Yamanlığın çağıdı

Kimə açım qəlbimi
Adil insan qalmayıb
Yalançılar vaxtıdır.

Kimə açım qəlbimi?
Dünyada xoşbəxt yoxdu

Dostlar da yoxa çıxıb

Kimə açım qəlbimi
Şər dünyanı tutubdur
Nə səddi var, nə sonu…

ÜÇÜNCÜ ŞIKAYƏT

Bu gün qarşımda
Ölüm dayanıb
Azardan şəfa kimi

Ölüm durub qarşımda
Mişk-ənbər qoxulu,
Bahar günü yelkənin
Sərin kölgəsi kimi

Ölüm durub qarşımda
Tutqun, boz havaların
Axırı, sonu kimi
Bir insanın səfərdən
Evə dönüşü kimi
Qarşımda ölüm durub
Çox illər dustağının
Evini-eşiyini
Görmək arzusu kimi

HESİOD

(Qədim yunan şairi, eramızdan əvvəl VIII əsr)

QADINA MÜNASİBƏT

Evinə gəlin gətir, yaşı gəlib çatanda
Otuzacan tələsmə, ondan sonra yubanma
Otuz yaşda evlənmək — ən böyük savab budur.
Qoy üç dörd il yetişsin, onu beşinci il al
Qıza tərbiyə vermək çox-çox daha asandır
Hər şeyi yaxşı düşün, qonşuların gülməsin
Yaxşı arvaddan yaxşı dünyada nə vardır ki…
Pis arvaddan da ki, pis bir şey tapılmaz heç vaxt
Şəhvət hərisi qadın ən güclü kişini də
Qurudub qaxac edər, vaxtından tez qocaldar.

OVİDİ
(Publi Nazon Ovidi)
(Qədim Roma şairi, eramızdan əvvəl
43-cü il — eradan sonra 18-ci il)

MƏHƏBBƏT ELEGİYALARI

Yaman istiydi o gün, günorta vaxtı idi
Pəndəm olmuşdum mən də, yatağıma uzandım
Bir pəncərə örtülü, o biri açıq idi
Otaq yarıqaranlıq —elə bil meşədəsən
Qürub çağıymış kimi toranlıq işığıydı
Ya da ki, səhər çağı, hava açılmamışdan
Belə alatoranlıq ismətli gənc qızları
Daha çox cəlb eləyir
Zərif bir paltar geymiş Korinna bu vaxt gəldi
Saçları tökülmüşdü bəyaz çiyinlərinə

Deyirlər Semiramis də, birdən bu cür gələrmiş
Çox kişinin eşqini dadmış Landa da boylə.
Yumşaq paltar parçasın
Bir anda sıyırdım mən
Doğrudur, heç bu parça mane olmurdu bizə
Hər halda Korinna da müqavimət göstərdi
Amma əlbəyaxada məğlub olmaq istərdi
Axır ki, təslim olub ağuşuma atıldı
Gördüm çılpaq əndamın kamil gözəlliyini
Nə qəşəng çiyinlərdi, necə gözəl əllərdi
Opüb oxşadıqlarım,
Dolu döşlərini də ovcumda sıxan zaman
Ehtiras aşdı-daşdı
Döşlərindən aşağı yupyumru, yumşaq qarnı
Qaməti dümdüz, hamar, budları cavan, möhkəm
Daha davam etməyim… zövqü-səfa tamamdı
Onun lüt bədənini bədənimə sıxdım mən
Ardını hər kəs bilir — yorulub birgə yatdıq
Ah, kaş hər gün olaydı bax belə günortalar

"VARLIQ KİTABI"NDAN
(Qədim yəhudi mətnləri)

EKKLEZİAST
(parçalar)

Vaiz: — Hədər həvəsdi — dedi — hamsı hədər həvəsdi.
İnsan çox əmək çəkir, amma nəyə gərəkdi?
Nəsil gəlir, nəsil gedir, torpaqsa daim qalır
Gün çıxır, qürub edir, öz yerinə tələsir

Yenidən doğmaq üçün
Külək əsir cənubdan, əsir şimala sarı
Hey hərlənir, fırlanır
Yenə öz çevrəsinə
Qayıdıb gəlir külək
Çaylar dənizə axır
Amma dənizlər dolmur
Çaylar hey axır, axır
Hamsı hədər həvəsdi,
Baxırsan, gözün doymur,
Nə olubsa, olacaq,
Günəşin altında da
Yeni heç bir şey yoxdur
Bəzən gördün bir şeyə
Dedilər ki, təzədir.
Amma o da olubdu
Əvvəlki əsrlərdə.
Olmuşlar unudulur,
Olacaqlar bilinmir,
Bu gün olanları da
Bizdən sonra gələnlər
Unudacaqlar bir gün,
İsrayılın və Qüdsün
Ulu hökmdarıydım
Ürəyimi idraka, müdrikliyə bağladım,
Hər şeyi bilim deyə, hər şeyi dadım deyə,

Nə ağır iş tapşırıb Yaradan insanlara
Gün altında nə varsa
Hamsını gördüm, bildim,

Bunların hamısı hədər, boş həvəs imiş demə
Küləyi tutmaq kimi əbəsmiş, əbəs, demə
Mən zəkamı hamıdan parlaq etdim, nə olsun
Mənə qədər Qüdsdə belə müdrik olmamış
Tək bir ağlı, idrakı, zəkanı deyil ancaq
Axmaqlığı da gördüm, dəliliyi də bildim.
Axırda anladım ki, bunların da hamısı
Ruhun sozalmasıdır, hamsı hədər həvəsdi
Müdrüklüyün çoxluğu kədərin çoxluğudur
Biliyini artıran — qəm-qüssəsin artırır.

Hər şeyin öz vaxtı var
Doğulmaq vaxtı da var,
Ölmək zamanı da var
Öldürmək məqamı var,
Diriltmək məqamı var.
Dağıtmaq zamanı var,
Yaratmaq zamanı var.
Ağlamaq zamanı var
Şadlanmaq zamanı var
Hönkürmək məqamı var
Rəqs etmək məqamı var
Axtarmaq zamanı var
İtirmək zamanı var
Sevginin öz vaxtı var
Nifrətin öz vaxtı var
Müharibə vaxtı var,
Sülh, barış vaxtı da var
Nə olubsa — indi var,
Nə olacaqsa — olub
Heç nə artırmaq olmaz,
Heç nə əksiltmək olmaz
İnsan da, hər heyvan da
Eyni cürə ölümlü,

O da, bu da öləcək.
Hamsı torpaqdan gəlib
Torpağa da dönəcək.
Kim deyir insan ruhu səmalara ucalır
Heyvanın ruhu isə yerin altına enir?
Bircə şeyi anladım
İnsançün böyük sevinc
İşinin bəhrəsini öz gözüylə görməkdir
Axı gedəndən sonra
Kim onu qaytaracaq
Bü bəhrəni görməyə?
Hər şey uçub gedəcək
Hər şey hədər həvəsdir.

SÜLEYMAN PEYĞƏMBƏRİN "NƏĞMƏLƏR NƏĞMƏSİ" KİTABINDAN

Qoy dodaqları məni öpsün
Sənin nəvazişlərin
Hər şərabdan gözəldir
Adın baldır, onunçün,
Qızlar səni sevirlər.
Qarabənizəm, amma

Gözələm, Qüds qızları
Baxmayın ki, siyaham
Günəş məni yandırıb
Qardaşlarım tapşırıb
Üzümlüyü qoruyum
Amma öz üzümümü
Qoruya bilmədim mən.

Nə gözəlsən, əzizim
Nə gözəl göyərçinsən
Nə gözəlsən əzizim
Yatağımız çəmənlik
Tavanımız yarpaqlar
Divarımız sərvlər.
Çöllərin nərgiziyəm
Vadilərin zambağı
Rəfiqələr içində —
Tikanların içində
Zambaq kimidir yarım.

Meyvə verin sağalım
Axı mən də xəstəyəm, məhəbbət xəstəsiyəm.

Sol əlin başım altda
Sağ əlin qucur məni
Qüdsün gözəl qızları
And verirəm mən sizə.

Məhəbbət oyanmamış, siz onu oyatmayın.

Gecələr yatağımda
Sevgilimi axtardım
Axtardım tapammadım
Durub şəhəri gəzdim
Küçəni, dalanları
Ürəyimdə axtardım,
Axtardım, tapammadım,
Keşikçiləri gördüm
Soruşdum mən onlardan
Sevgilimi gördüzmü:
Onlardan sonra dərhal
Sevgilimi gördüm mən,
Qollarından yapışıb,
Buraxmadım bir daha.
Anasının evinə yola saldım onu mən.
And verirəm mən sizə
Qüdsün gözəl qızları
Məhəbbət oyanmamış, onu oyatmayın siz
Bayraqlı alay kimi qorxuncdur eşq, məhəbbət
Ölüm kimi güclüdür
Ölüm tək güclüdür eşq

Nə gözəlsən, qəşəngsən
Sevgi — ləzzətin qızı
Qamətin palma təki
Döşün üzüm giləsi
Palmaya çıxım — dedim
Salxımları üzüm mən
Nəfəsin — alma ətri
Damağın şərab kimi.

Göbəyin — şərbət qabı,
Boynun — fil dişi — qüllə.
Çiynin, belin, ağ sinən
Qalanın divarıdır
Dırmaşmaq olmur axı.

Səndəldə ayaqların
Necə gözəldir, xanım
Uyuyuram, amma ki,
Ürəyim yatmır mənim
Qapım döyüldü, açdım
Elə bildim yarımdır
Qapıda heç kəs yoxdu,
Çox axtardım, aradım,
Çağırdım, hay vermədi.
Sizə and verirəm mən
Qüdsün gözəl qızları
Sevgilimi görsəniz
Deyin, yaman xəstəyəm
Məhəbbət xəstəsiyəm.

Lİ BO
(701-762, Çin şairi)

SAKİT GECƏDƏ DÜŞÜNCƏLƏR

Çarpayımın yanında
Ay işığı çığırtək

Ya bəlkə bu qırovdu
Mən də yaxşı bilmirəm

Başımı qaldırıram
Pəncərəmdə aydır bax

Başımı endirirəm
Vətən yadıma düşür.

DAĞLARDA TƏK-TƏNHA OTURMUŞAM

Buludlar uçur
Bürkü gündən sonra
Dincəlmək üçün

İti qanad quşların
Son qatarı da uçdu.

Dağlara baxıram,
Dağlar da mənə baxır.

Beləcə baxışırıq
Nə onlardan bıkıram,
Nə onlar məndən bıkır.

ÇAĞLAYAN SULAR

Çağlayan sularda
Payız hilalı

Cənub gölündə
Dinclik, sakitlik

Lotos da mənə
Qəmli hekayət
söyləmək istər
Mənim də könlüm
Kədərlə dolsun deyə.

ŞƏRQ DAĞLARINI XATILAYIRAM

Şərq dağlarında
Olmamışam çoxdandır
Orda çəhrayı çiçəklər açıb
Ay da uzaqlarda
Buludlar üstə üzür beləcə
Görən kimin pəncərəsinə
Enəcəkdi ay?

(Rəvayətə görə Li Bo qayıqla çayda üzərkən əyilib ayın sulardakı əksini tutmaq istəyib, bu zaman çaya yıxılıb, boğulub ölüb)

DU FU
(712-770, Çin şairi)

YAZ GÜNÜ LI BONU XATIRLAYIRAM

Ey Li Bo!
Şerin necə də kamil
Fikrin necə azaddır
Üslubun nə gözəldir!
Mən paytaxta baxıram
Yaz necə çiçəkləyir
Sən cənubda qalmısan
Həsrət çəkirsən yaman.
Görəsən bir də haçan
Əldə şərab kuzəsi
Şerdən danışacayıq?

YIRTICI PƏLƏNG

Ancaq zəifləri qorxutmur axı
Amma o da
Tora düşür axırda.
Pəncələri bağlanmış
Ha bağırsın, çığırsın.
Sonra ölü dərisi
Yatağa səriləcək.
Gözləri şüşə kimi
Hərəkətsiz qalacaq,
İnsanlar da bu cürdür,
Qoy bütün müstəbidlər
Bunu unutmasın heç.

AĞ AT

Şimal-Şərqdən çapıb gəldi at
Yəhəri oxlardan dəlik-deşikdi.
Süvarisi hanı, qanlı döyüşdə

Yenilən, yıxılan kim bilir kimdi?
Ölüm indi hər yanda, hər çığırda gəzişir.
Hələ çox göz yaşı
Axıdacayıq yəqin.

RUDƏKİ
(860-941, tacik şairi)

QİTƏ

Zəmanə söylədi ki, Zamana yaxşı baxsan
Onda neçə məsləhət, onda neçə öyüd var
Başqası xoşbəxtdirsə — özünə dərd eyləmə
Çoxları sənin kimi yaşamağı arzular
Zəmanə söylədi ki, hirsini gizlət sən də
Dilinə bənd vurmasan, ayağın düşər bəndə

RÜBAİLƏR

Kim gəldi? Yar. Nə vaxt? Səhər
Atasından qorxmur məgər?
Öpdüm onun tər ləbindən
Dodaq deyil — şəhdu şəkər

Eşqə düşməyəydim gərək
Sənsiz qaldım, yalqızam, tək
Qaf dağıdır məndə dərdlər
Daş, qayadır səndə ürək

HAFİZ ŞİRAZİ
(1323-1380, İran şairi)

QƏZƏL

Dün səhər qəm-qüssədən o yar mənə nicat verdi
Gecənin zülmət çağında mənə abı-həyat verdi

Nurunun parlaqlığında bayıldım, qəşş eylədim
Badəsin nuş eylədim mən, ruhuma yeni dad verdi

Nə mübarək səhər idi, nə uğurlu, xoş gecə
O Qədir gecəsində mənə kağız barat verdi

Göylərdən gələn səs səadət müjdələdi
Cövrü-cəfalar çəkməyə mənə səbrü-səbat verdi

Aynada gördüm çöhrəmi, işığın nişanəsi
Mənə gözəlliklə dolu işıqlı kainat verdi

Murada yetib sevindim, sədəqə uman kimiydim
Könlüm rahət olsun deyə, əta etdi, zəkat verdi

Sözümdən axıb süzülən həm şəkərdi, həm nabatdı
Mənə şəkəri, nabatı sevgilim Şahnabat verdi

O gün bildim və dərk etdim, axır zəfər çalacağam
Düşməni yenməkçün mənə Tanrı səbr, dəyanət verdi

Bu təbinçün, bu vəhyinçün Yaradana şükr et Hafiz
Şer, qəzəl yazmaq üçün sənə də istedad verdi.

(Rudəkinin və Hafizin şerləri professor Rafael Hüseynovun farscadan sətri tərcümələri əsasında çevrilmişdir)

FRANÇESKO PETRARKA
(1301-1374, italyan şairi)

SONET

Sevirdim, qəlbimlə sevirəm indi
Hər gün daha artıq, güclü sevirəm
Göz yaşı tökməyin yerin bilirəm
Həsrətə, kədərə eşqim bələndi

O ana, o dəmə heyran qalıram
Unudub dünyanın qeylü-qalını
Sevdiyim gözəlin duyub halını
Yanında özüm də gözəl oluram

Hardan biləydim ki, riyakar düşman
Dost kimi qəlbimi alacaq yaman
İstərəm köksümə, bağrıma basam

Sevgi, sən də məni eyləmisən ram
Əgər ümidimə arxalanmasam
Bircə yolum qalır — özümü asam.

İNKVİZİSİYA QURBANI NAMƏLUM
(XV əsr ispan şairi)

MƏHBUSUN NƏĞMƏSİ

Mayıs ayında idi, günlər isti ötürdü
Bülbüllər cəh-cəh vurur, torağaylar ötürdü
Aşıq-məşuqlar da ki, eşqin gizli sirrinə
Agah olurdu birgə
Bircə mən əzab çəkir, dar məhbəsdə yatırdım
Gecə-gündüz bilmədən günü günə qatırdım.

Bir quşcuğaz oxurdu mənə axşam və sabah
Oxçu oxladı onu, cəzasın versin Allah.

FRANSUA VİYON
(XV əsr fransız şairi)

Şahzadə əlbəttə mat qalmayacaq
Xəbər tutanda ki, ölüm badəsin
Viyon dibinəcən ləzzətlə içib
Sonra bu dünyadan arxayın köçüb.

Bilirəm milçəklər qonur şirniyə
Ölüm də axtarır, adam girriyə
Kitab oxumuşam, hər şeyi billəm
Bircə mən özümü bilmirəm niyə?

Hər şey tərsinədir, hər şey tərsinə
Müdriklər axmaqdır, axmaq əksinə
Ahıllar dərs alır qoca yaşında
Bircə aşiqlərdir ağlı başında

İlahi aç cənnət qapısın bizə
Burda cəhənnəmdə yaşamışıq biz
Durmuşuq ölümlə indi üz-üzə
Bizimçün dualar etməzmisiniz?

Başıma sözlərim gəldi çox baha.
Edam edilənə gülməzlər daha.

CON DONN
(1571-1631, ingilis şairi)

ÇAN KİMİNÇÜN ÇALINIR

Ada kimi tək olan
İnsan yoxdu dünyada
Bir qitənin, qurunun parçasıdır hər adam
Sahildə bir qayanı tufan yıxarsa ya da
Avropa bir qayacan kiçik olacaq müdam
Dostunun ya özünün uçarsa bir gün damı
Dünya bir ev azalar
Dünya bir ev az olar
Mən də ölürəm hər gün
Öləndə hər bir insan
Bəşəriyyətlə birəm
İnsanlıqdır azalan
Odurki ölənlərə çanlar çalınan zaman
Heç vədə soruşma ki, çan kiminçün çalınır
Bunu bil ki, sən hər an
Çan sənincün çalınır
Çan sənincün çalınır.

BASÖ
(1644-1698, yapon şairi)

HOKKULAR

Yalın budağa
Qarğa qonubdu
Payız axşamı

Yağışdan bıkan ağaclar
Gecə qovdular yağışı
Budaqlar qar içində indi

Söyüd salxımların sallayıb
Evə gedə bilmirəm
Ayaqlarım dolaşır

Dağın ətəyində meşə
Elə bil qılınc üçün
Dağ toqqa bağlayıbdır

Qapının ağzında şam budaqları
Sanki qısa gecənin yuxusudur
Otuz ildə olmuşlar

Torpağa düşür
Köhnə köklərinə qayıdır güllər
Güllərin ayrılığı.

Yay otları
Qəhrəmanlar ölən yerdə
Onların yuxusudur

SON SAM MUN

Əgər soruşsan məndən
Kim olacam öləndən
Sonra, deyərəm sənə:
Pınlay dağın başında
Şam ağacı olacam,
Dünyanı qar basanda
Mən yamyaşıl qalacam.

ÇON ÇHOL

Sözlərimə inan gəl
Sənsiz mən yaşayamam
Sənlə olan zaman
Hər dərdi unuduram.
Bəs beləysə niyə
Səni tərk etməliyəm.

İKI BUDDA

İki daş Budda — heykəl
Durub yol kənarında
Külək onları döyür
Yağışlar döyəcləyir
Amma həsəd çəkirəm,
Heykəllərə, inanın
axı insan deyillər
Deməli heç bir zaman
Ayrılmayacaq onlar.

Durna qovaq ağacın
Tərk edib uçdu getdi
Uzaq yerə gedərkən

Geri dönəcəyəmmi?
Kim bilir? Gediş-gəliş
Bunların nə fərqi var?
Ondansa, içək, dostlar!

Şam ağacı nədən sən
Yol üstündə durmusan?
Mən səni insanlardan
Gizləmək istəyirəm
Axı əli baltalı
Sənə sarı gəlirlər.

SİN XIM

Dağ kəndinə qar yağdı
Yol, irizlər bağlandı
Qapını heç açma gəl
Nə bilirsən kim gəlir
Evimdə yalnız Aydır
Gecələr qonaq gələn.

ÇON TXE HVA

Bir badədən dəm oldum
Sərxoş olub oturdum
Kürül-kürül dərdlərim

Elə bil uçdu getdi
Oğlan, bir badə də süz
Qalan dərdim-məlalım
Uçub getsinlər daha.

Lİ KVAN UK

Şöhrəti, izzəti unutdum daha
Sərvəti, ad-sanı yada salmıram.
Kədəri, qüssəni unutdum daha,
Həyat qayğıların yada salmıram

Özümü, özümü unutdum daha
Siz də məni daha yada salmayın.

XVAN ÇİN İ

Dağ elə həmin dağdır
Çay həmişə dəyişir
Hey axıb gedir, gedir
Geriyə dönə bilməz
İnsan da çay kimidir
Axıb gedir, qayıtmır.

KİM SU CAN

Həyatım sadələşir
Mənimçün qaldı axır
Beş-on üzüm meynəsi
Sevimli şerlərim
Heç vaxt məni tərk etmir

Deməli sevir məni:
Küləklər, bir də ki Ay.

AK MUN YEN

Göy üzündə bu ayı
Bildir də görmüşdüm mən
İl keçdi bu il yenə
Ona baxıram yerdən.
Bir şeyi anladım ki,
illər ötüşür, keçir,
Ay yerindədir müdam.

NAMƏLUM ŞAİRLƏR

Sən görən ayı
Görmək istərəm.
Pəncərə açdım

Gözlədim onu
Gözüm yaşardı
Ay dumanlandı.

Oyandım gördüm ki,
Yardandır məktub
Yüz dəfə oxuyub sinəmə qoydum
Kağız belə yüngüldü, bəs niyə
Ürəyimdə hər şey ağırdır belə.

Önunla görüşmək,
Sonra soyumaq
Bəlkə olmasaydı daha yaxşıydı
Ya da bəlkə onu
Tanımasaydım.
İstədiyim nədir?
Yaxşıdır ölüm
Qoy bundan sonra o iztirab çəksin.

CORC QORDON BAYRON
(1788-1824, ingilis şairi)

MİSS ÇAVORT ƏRƏ GEDƏNDƏN SONRA YAZILMIŞ PARÇA

Çılpaq, yalın yerlərdi — burda qəlbim gənc idi
Ah Ansley təpələri.
Pırpız kölgələriylə bizi yaman incitdi
Soyuq qış gecələri.

Ey sevdalı qəlbimin ışıqlı xoş yerləri
Necə gəncdim burda mən
Necə dincdim burda mən
Gülüşü parlatmayır daha uzaq göyləri
Ayrı düşdüm Meridən.

XATİRƏ

Bu sondur. Hamısı bir yuxu imiş
Bir işın görünmür istiqbalı da
Səadətim hanı, gözəllik hanı
Titrədir sərt rüzcar soyuq havada
Buludlar altında itdi şəfəqlər
Getdi məhəbbət də, ümid də söndü.

Ah beləcə itib gedəydi kaş ki,
Qalmayaydı daha bu xatirələr.

RUS ŞAİRLƏRİNDƏN PARÇALAR

ALEKSANDR PUŞKİN
(1799-1837)

Bilirəm qismətim bəllidir artıq
Amma ömrüm mənim uzansın deyə
Səhərlər mən qəti bilməliyəm ki,
Gündüzlər gələcəm sizi görməyə.

FYODOR TÜTÇEV
(1805-1873)

Ağılla Rusiyanı anlamaq olmaz
Bir başqadır onun qəddi-qaməti
Onu hər arşınla heç ölçmək olar?
Rusyaya gərəkdir olsun etibar.
Rusyaya ancaq
Gərək inanaq.

MİXAİL LERMONTOV
(1814-1841)

Əlvida Rusiya, çimməmiş diyar
Ağalar ölkəsi, qullar ölkəsi
Mən keçib gedirəm Qafqaz ötəsi
Bəlkə də qurtuldum cəlladlarından
Onların hər şeyi görən gözündən
Hər şeyi dənləyən qulaqlarından

NİKOLAY NEKRASOV
(1821-1878)

Böyük rus çayına — Volqaya yanaş
Hər yerdən inilti eşidəcəksən

İnilti bizlərdə mahnı adlanır
Burlaklar oxuyur gəmi çəkərkən.

APALLON MAYKOV
(1821-1897)

Bizim nəğmələri oxu ona sən
Nəğməyə heç məhəl qoymayır görsən
Bir çəngə yovşanı uzat burnuna
Burnuna dəyəndə yovşanın ətri
Hər şeyi buraxıb dönəcək geri.

UOLT UİTMEN
(1819-1892, amerikan şairi)

"OT YARPAQLARI" kitabından

TƏRƏNNÜM EDİRƏM

Hər bir ayrı sadə fərdi mən tərənnüm edirəm
Təpədən dırnağa tam cismini mən
Tərənnüm eyləyirəm.
Yalnız sifəti deyil, yalnız şüuru deyil, bütün bədəni belə
İlham gətirir mənə,
Həm qadın bədənini, həm kişi bədənini
Tərənnüm eyləyirəm.
Ehtirasda, qüvvətdə, çırpınmada ölçüsüz
Həyatı alqışlayır, tərənnüm eyləyirəm.
Azad əməllər üçün sevinc içrə yaranmış
Yeni dövrün insanı
Mən səni
Tərənnüm eyləyirəm.

GƏLƏCƏK ŞAİRLƏRƏ

Ey gələcək şairlər! Müğənnilər, bəstəkarlar, natiqlər!
Nə və kim olduğumu bü gün kim təyin edər?.

Yox, yox, yeni nəsillər — güclü, sağlam insanlar
Sələflərindən böyük, şaqqalı mərd igidlər
Gəlin çıxın, ancaq siz
Məni anlayacaqsız
Mən özüm gələcəkçün bir-iki işarəylə mətləbi anladacam
Ancaq bir-iki anlıq.
Sonra yenə — qaranlıq
Udacaq məni.
Mən oyam ki, kütlənin içində gözləriylə sizləri axtaracaq
Sonra da ki, üzünü o yana çevirəcək.
Sizlərə qalır ancaq
Onun sirrlərin açmaq
Dəqiq surətini də sizlər yaradacaqsız
Bunu sizdən gözləyir, bunları umuram mən.

OXUCU, SƏNƏ

Oxucum sənin ürəyində də əlbət
Qaynayır həyat eşqi, qürur, sevgi, məhəbbət
Onünçün nəğmələrim
Sənindir, sənin…

ŞARL BODLER
(1821-1867, fransız şairi)

"ŞƏR ÇİÇƏKLƏRİ" KİTABINDAN

DÜŞMƏN

Gəncliyim — qaranlıq, fırtına, tufan
Hərdən bir arada günəşdi doğan
Yağmurlar, küləklər elə dağıtdı
Tək-tük meyvə qaldı gözəl bağçamdan

Şüur payızına çatdım nagahan
Sular məzarlar tək cığırlar açdı

Dırmıqla torpağı eşdiyim zaman
Çiçəklərim bir də heç açacaqdı?

Qumsala çevrilmiş ulu torpaqdan
Güllər boy atarmı görən bir zaman…

Ah, günlər ötüşür, acı qismətim
Qanıma susayan qarı düşmənim
Böyüyür qanımı içdikcə mənim.

POL VERLEN
(1844-1896, fransız şairi)

PAYIZ NƏĞMƏSİ

Çox uzaqlardan
Gəlir bir hənir
Yenə səslənir
Həsrət nəğməsi

Payız kamanı
yetirir səsi

Buz bağlayır qəlb
Belə havada
Gözlərim dolur
Bahar günləri
Düşəndə yada.

Külək hey əsir,
Hey uğuldayır
Günün hər çağı
Məni də alıb
Fırladır külək
Sanki bir xəzəl —
Xəzan yarpağı.

ARTÜR REMBO
(1854-1891, fransız şairi)

QIŞ YUXUSU
Ona

Qış vaxtı gedərik sadə vaqonda
Çəhrayı vaqonda mavi balışlar
Xudmani bir yerdə əyləşərik biz
Kupedə tək qalıb əylənərik biz
Hər növ şeytanları görməmək üçün
Axşam saatında gəl yum gözünü
Öpərəm həyadan pörtmüş üzünü.
Əvvəl yanağını, sonra boynunu
Öpüşüm arı tək səni sancacaq.

Başını əyərək söylərsən ancaq:
Bir yerdə arayaq sancan arını.
Gəl birgə arayaq, nə deyirəm ki,
Belə məharətlə sancıbdır axı
Dünyada ən gözəl, şirin yanağı.

RAYNER MARİYA RİLKE
(1875-1926, alman şairi)

AXŞAM

Alovlu al qığılcımın
Günəş gizlədi tutqun havada
Çox gür səslənən o oktavada
Qırıldı səsi həzin axşamın

Şüa tavanlarda dolaşır gizlin
Hələ də almaz tək parıldayaraq
Ora-bura girir bir oğru sayaq
Sonra tüstüsündə itir göylərin.

1895

GECƏ SƏMASI VƏ ULDUZ UÇUŞU

Gecələr göy səma gümüşə çalır
Dünyayi aləmə möhür vurubdur
Ulduzlar bizlərdən çox uzaq qalır
Həm də ki, bizlərə yaxın durubdur.

Ulduz uçdu, baxışın ora tələsdi bu an
Nəyi arzuladın, istəyin nədir?
Dünyada olanlar olursa əgər, kimdir müqəssir?
Nə tutdun qəlbində, söylə bu zaman?

1924

Ulduzdan ulduz tək ayrılaq ancaq
Ayrılaq, qoy bizi ayırsın axşam
Yaxınlıq —uzaqlıq olacaq müdam
Ölüm bizi yenə qovuşduracaq.

1925

ALEKSANDR BLOK
(1880-1922, rus şairi)

Gecə, küçə, aptek, fənər
Mənasızdı tutqun işıq
Yüz il də yaşasam əgər
Çıxış yox, hər şey qarışıq

Ölüncə dəyişməz bunlar
Yenə də belə gecələr
Yenə buz bağlamış sular
Gecə, küçə, aptek, fənər…

ŞAİRLƏR

Bataqlıq yer vardı şəhərdən kənar
Şairlər yaşardı burda bir zaman
Görüşəndə zorla gülümsərdilər
Etinasız süzüb bir-birin yaman.

İşıqlı gün bura əbəs doğurdu —
Bu qəmli, kədərli bataqlıq üstə.
Şairlər hey içər, hey işlərdilər
Səhərlər erkən də, gecə-gündüz də.

İçəndə yamanca dostlaşardılar,
Çərənləyirdilər atıb ədəbi
Halları pozulub səhərə yaxın
Yenə işlərdilər — küt və əsəbi.

Sonra çıxardılar komalarından
Qürub yanğınına baxmaq adına.
Qızıl hörüyünü təriflərdilər
Sərraf tək göz qoyub, keçən qadına.

Kövrəlib xoş dövran arzulardılar
Şairlərin hamsın bir-bir söyərək
Sonra tökərdilər acı göz yaşı
Göydə bulud görüb, yerdə tər çiçək

Beləcə yaşardı, şairlər, dostum,
Oxucum, yəqin ki, fikirləşirsən:
Sənin baş girrəyib gün keçirməyin
Min kərə yaxşıdır şair ömründən.

Yox, əziz oxucum, ey kor tənqidçim
Şairin dünyada var nəyi desən —
Buludu, hörüyü, xoşbəxt dövranı…
Amma sən bunları hardan biləsən.

Arvadından razı, özündən razı,
Qanunundan razı, günün keçir xoş.
Ancaq qanun-filan azdır şairə
O, dünya qəmindən olanda sərxoş.

Divarlar dibində ölsəm köpək tək
Həyat gömsə məni torpağa əgər
Biləcəm: üstümə Tanrı qar səpir
Alnımdan öpürlər dəli küləklər.

VELEMİR XLEBNİKOV
(1885-1922, rus şairi)

Axı mənə nə gərəkdi
İstədiyim bir çörəkdi
Bir azacıq süd də olar
Bir də ki, səma
Bir də — buludlar.

1922

İllər, adamlar, xalqlar
Su kimi axar
Gedər əbədi
Təbiətin aynasında
Ulduzlar — tor, bizsə — balıqlar
Allahlar da — kabuslar.

NİKOLAY QUMİLYOV
(1886-1921, rus şairi)

MƏN VƏ SİZ

Bilirəm sizlərə tay deyiləm mən
Başqa bir diyardan gəlmişəm bura
Xoşum gəlir qara zurna səsindən

Nəyimə gərəkdir mənim gitara
Salonlarda, məclislərdə heç olmaram
Əjdahaya, şəlaləyə, buludlara şer oxuram
Şəkillərdə ulduzları seyr eləyən, hey gözləyən
Cəngavər tək sevməyirəm
Səhralarda suya təşnə ərəb kimi sevirəm mən.

Yatağımda ölməyəcəm — başım üstə keşiş, həkim
Ayaq dəyməz çəngəllikdə ölüm təki.

Xaçpərəstlər cənnəti yəqin ki, təmiz olar
Amma mənim ora yox,
quldur cəhənnəminə
daha artıq meylim var.

HOKKU

Ceyran gözlü qız
Amerkana ərə gedib
Kolumb niyə kəşf etdi Amerikanı?

ALEKSEY KRUÇONIX
(1886-1968, rus şairi)

Dır bul şil
ubeşur
skum
vı so bu
r l ez

(*Çevrilməsi imkansız bu Tşeri T olduğu kimi verirəm ki, ədəbiyyatda bu sayaq "eksperimentlərdən" də xəbərimiz olsun — Tərcüməçinin qeydi)*

ANNA AXMATOVA
(1889-1966 rus şairəsi)

İLHAM PƏRİSİ
Gecələr gəlişin gözləyən zaman
Bir tükdən asılır sanki həyatım
Nə şöhrət, nə gənclik, azadlıq, flian
Ondan asılıdır taleyim, adım
Gəldi, örtüyünü qaldırdı əli
Zillədi gözünü mənim üzümə
Dedim: "Cəhənnəm"i böyük Danteyə
Sənmi diqtə etdin, söylədi: bəli.

1924

İnsan öləndə portretlərində
dəyişir şəkli
Gözləri baxır tamam ayrı cür,
Dodağında gülüş tamam başqadır
Bir şair dəfnindən dönəndə evə
Mən o gün bu işin fərqinə vardım
Sonra neçə dəfə sınadım bunu
Bu fikrim hər dəfə təsdiq olundu.

1940

BORİS PASTERNAK
(1890-1960 rus şairi)

HAMLET

Uğultu kəsildi. Səhnəyə çıxdım
Yapışıb qapının çərçivəsindən
Eşitmək istərəm aqibətimi
Kiminsə uzaqdan gələn səsindən.

Min dürbin gözüylə zillənib mənə
Gecənin zülməti, zil qaranlığı

Əgər iqtidarın varsa, İlahi
Məndən uzaq elə bu yamanlığı.

Sənin tərs niyyətin xoşuma gəlir
Rolu da oynardım böyük həvəslə
Lakin indi başqa tamaşa gedir
Məni əvəz elə ayrı bir kəslə.

Yaxşı düşünüblər amma oyunu
Təkəm riyakarlıq dənizində mən
Labüddür yolun da qaçılmaz sonu
Həyat çöl deyil ki, keçib gedəsən.

1946

Başladığım zaman bilirdim məgər
Bu işin axırı belə olacaq?
Adamın qanını tökür sətirlər
Boğazın tutulub qanla dolacaq.

Mən belə peşədən olardım iraq
Bu cür zarafatı neynirdim axı?
Amma nə kövrəkdi, xoşdu ilk maraq
Ömrümün o erkən, o uzaq çağı.

Roma sayağıdır fəqət qocalıq
Nə nitq tələb edir, nə fənd, nə kələk
Bədii qiraət istəmir artıq
Doğrudan doğruya öləsən gərək.

Misra duyğulardan doğulan zaman
Qula əmr eləyir — bu şər, bu meydan
Və burda kəsilir sənətin səsi
Torpağın, taleyin gəlir nəfəsi.

1938

QIŞ GECƏSİ

Bütün yer üzündə
Hər bir tərəfdə
Külək sovururdu
Qarı bu axşam
Masanın üstündə bir şam yanırdı
Yanırdı bir şam.

Yay vaxtı mığmığalar alova uçan təkin
Qarlar uçub gəlirdi üstünə pəncərənin.

Çovğun şüşənin üstə
Bəzək vururdu müdam
Amma bir şam yanırdı,
Amma yanırdı bir şam.

Şölələnən tavanda
Kölgələr dolaşırdı.
Qollar çarpazlaşırdı,
Qıçlar çarpazlaşırdı
Tale çarpazlaşırdı
Çəkmələr də düşürdü
Taqqatan yerə
Elə bu zaman
Çıraqdan da mum idi
Göz yaşı kimi
Paltara daman.

Yox olurdu hər şey
Bu ağ zülmətdə
Bu çal zülmətdə
Bu qarlı axşam
Masanın üstündə bir şam yanırdı,
Yanırdı bir şam.

Otağın küncündən düz şama sarı
Vururdu külək
Ehtiras odu
Xaç tək gərirdi
İki qanadın
Sanki bir mələk.

Bütün fevral da
Çovğunlu keçdi
Amma elə hey
Hər qarlı axşam
Masanın üstündə bir şam yanırdı,
Yanırdı bir şam.

1946

Yaxşı deyil məşhur olmaq, tanınmaq
Yüksəklərə bu qaldırmır adamı
Nə lazımdır arxiv yığmaq, toplamaq
Matah bilib hər bir cızma-qaranı.

Yaratmaqda məqsəd — fədakarlıqdır
Haray-həşir deyil, deyil şöhrət də.
Ayıbdır heç nəyə qadir olmadan
Hey adın çəkilə sözdə, söhbətdə.

Özündən müştəbeh yaşamaq olmaz
Ayrı cür dolanıb durasan gərək.
Elə cür ki, səni məkan bəyənsin,
Elə ki, səsləsin səni gələcək.

Yazısız boş yeri kağızda deyil
Taledə, ömürdə saxlamaq olar
Ömrün fəsilləri, parçalarıyla
Bir gün bu boş yerlər yazılar, dolar.

Atıb gizli-gizli addımlarını
Mübhəmliyə qərq olasan sən gərək

Göz-gözü görməyən dumanda bəzən
Hər tərəf gizlənib birdən itən tək.

Canlı izlərinlə bir-bir gedərək
Özgələr keçəcək çənin yolundan
Amma qələbəni məğlubiyyətdən
Ayırmamalısan özün heç zaman.

Gərək sifətini dəyişməyəsən
Bircə dilim belə, heç vaxt, heç səfər
Ancaq diri qalmaq, ancaq — yaşamaq,
Ancaq diri qalmaq ta sona qədər.

1956

OSİP MANDELŞTAM
(1891-1938, rus şairi)

Şəhərimə döndüm bəlkə son kərə
Hər vəzi, damarı, uşaq səsiylə
Gözümün yaşı tək tanış şəhərə.

Leninqrada döndün tez tələs, iç sən
Gecə fənərinin çaylarda üzən
Balıq yağı təkin sarı işığın.

Dekabr gününü tez tanı barı
Müdhiş qara rəngə qarışıb sarı.

Ölmək istəmirəm Peterburq belə
Telefon nömrələrin məndədir hələ
Hələ ünvanların yaddaşımdadır
Ölüb itənlərin səsin andırır.

Zülmət pilləkəndə yaşayıram mən
Gicgahıma vurur qoparılmış zəng.

Hər gecə, hər gecə səhərə qədər

Qapı zəncirini qandal tək tutub
"Əziz qonaqları" gözləyəcəyəm
Ta mənm qapım da döyülənəcən.

Dekabr 1930

MARİNA SVETAYEVA
(1892-1941, rus şairəsi)

Yaxşı ki, dərdimdən dəli deyilsiniz siz
Yaxşı ki, dərdinizdən dəli deyiləm mən də
Ayaqlarımız altda torpaq heç vaxt qaçmayır
Qürub çağı qəflətən hardasa görüşəndə
Sizinlə oluram ərköyün, şıltaq
Sözlə oynamaqdan qorxmuram heç vaxt
Əlim əlinizə toxunan zaman
Titrəyib əsmirəm heç həyəcandan
Özünüz bilmədən məni sevirsiz
Yoxsa belə rahat yata bilərdim?
Aylı gecələrdə gəzmədiyimiz
Anlar, saatlarçün — sizə təşəkkür
Günəşin altında birgə deyilik
Buna da təşəkkür, buna da şükur.
Bir daha sağ olun, neyləyək, nə qəm
Əfsus ki, mənimçün dəli deyilsiz
Əfsus ki, sizinçün dəli deyiləm.

3 may 1915

VLADİMİR MAYAKOVSKİ
(1893-1930, rus şairi)

LİLİÇKAYA
(məktub yerinə)

Tütün, papiros tüstusü
Havanı yeyib, udub

Şair Kruçenıx yazan
Gəhənnəm — bu otaqdı.

Yadına sal — burada,
Bu pəncərə ardında
Əlini dəli kimi
Oxşadığım o vaxtı.
İndi oturmusan
Ürəyin — dəmir
Sabah bəlkə hələ
Məni qovdun da.
Qaranlıq dəhlizdə düşə bilmədi
Paltomun qoluna
Bəlkə qolum da
Gedərəm, küçəyə atıb cismimi,
Doğranar həsrətdən qəlbim, baxışım…
Bu nəyə lazım ki…
Ondansa indi
Sakitcə ayrılaq
Əzizim, yaxşım.
Onsuz da bu eşqin
Ağır bir yükdür
Boynumdan asılıb, hara getsəm də.
Qoy bu son fəryadla,
Son hıçqırıqla
Şikayət eləyim özünə səndən.
Öküzü ölüncə işlətsən əgər
Gedib su yanında
Uzanar, qalar
Dəniz yoxdu mənə
Eşqindən qeyri
Eşqin dinclik verməz
Ha yalvar, yaxar.

Dincəlmək istəsə
Yorulmuş bir fil
Şahanə uzanar
qızmar qumlarda

Günəş yoxdur mənə eşqindən başqa
Amma heç bilmirəm
Kimləsən, harda?
Şairə bu qədər zülm edilərsə
Dəyişər sevgisin dövlətə, ada.
Eşidərkən sənin əziz adını
Başqa bir söz, fikir, düşərmi yada?
Sabah unudacaqsan səni şah saydığımı
Unudacaqsan ki, eşqin
Qəlbimi kösöy etdi,
Qaraldıb yandıraraq
Səsli-küylü günlərin
Bəzəkli karnavalı
Kitablarımı mənim
Səpələyib dünyaya
Dağıdar varaq-varaq
Sözlərimin quru yarpaqları
Qadirdirmi səni saxlasın,
Qaytarsın geri?
Barı son nəvazişlə qoy ki, döşəyim
Sənin uzaqlaşan addımlarla
Keçdiyin yeri...

***

İkidir, Yəqin ki, yatmısan artıq
Səmada Süd yolu — gümüş Oka tək
Tələsik bir işim yoxdur ki, səni
Tel vurub oyadım, diksindirərək.

Mətləb hasil oldu,
necə deyərlər
Eşq qayığı məişətdən dağılar
Hesabımız bitdi
və nəyə lazım
siyahı yazım:
Çəkdiyimiz dərdlər, qəmlər, ağrılar…

Görürsən nə dincdir dünya bu gecə
Göylərə xərac tək ulduz düzüblər
Bax belə anlarda insan danışır
Aləmlə, tarixlə, özü özüylə

***

İstərdim vətənim anlasın məni
Əgər anlamasa neyləmək, nə qəm
Çəp yağan köndələn yağışlar təkin
Ölkəmin yanından keçib gedərəm.

SERGEY YESENİN
(1895-1925 rus şairi)

Nə təəssüf, nə göz yaşı, nə fəryad…
Hər şey keçdi, ağ budaqdan duman tək
Qızıl rəngli payızlaşan həyatım
Bir də cavan olmaz, geri dönərək.

Sən də döyünməzsən daha o sayaq
Sən də soyumusan ey ürək, bəlkə?
Piyada gəzməyə tovlamaz daha
Ağcaqayın donlu mehriban ölkə.

Sərgərdanlıq ruhu, sən daha az-az
Yandırırsan dodağımı, dilimi,
İtirdim gəncliyin təravətini,
Odlu baxışımı, duyğu selimi

İstəklər azaldı, lap kasıbladı
Yuxudamı gördüm həyatım, səni?
Sanki çapıb getdim bir yaz səhəri
Çəhrayıya çalan kəhər ürkəmi.

Hamımız faniyik bu dünyada biz
Tunc yarpaq tökülür ağcaqayından.
Ey həyat, sağ ol ki, bəxtimə düşdü

Çiçəklənmək, solub ölmək payından…

1921

Əlvida, ey dostum, bir də əlvida
Əzizim, sən mənim ürəyimdəsən.
Müəyyən olunmuş ayrılıq günü
Vəd verir gələcək görüşümüzdən

Əlvida, nə gərək əl vermək, ya söz
Çatma qaşlarını, eyləmə kədər
Ölmək bu dünyada təzə şey deyil,
Amma təzə şeydir yaşamaq məgər?

ROBERT FROST
(1874-1963, amerikan şairi)

HAÇANSA NƏ İSƏ OLUB

Adamlar gülür ki, mən diz çökürəm
Quyu kənarında dibinə baxıb
Orda su üzündə səma fonunda
Tanrıya bənzəyən sifətim mənim
Görünür. Bir dəfə quyu başında
Əyilib baxarkən suyun üzünə
Mənə elə gəldi orada gördüm
Başımın üstündə ağappaq halə
Dərhal da yox oldu. Bir damla düşdü
Quyunun dibində suyu titrətdi
Hər şey də qeyb oldu. Orda nə vardı?
Həqiqət? Xəyalmı? Nəsə var idi.

GİYOM APOLLİNER
(1880-1918, fransız şairi)

MİRABO KÖRPÜSÜ

Mirabo körpüsünün altından Sena axır
Aramla axır, axır
Sevgimizi aparır
Gərək heç unutmayım: kədər keçib gedəndə
Sevinc gələr yenə də.

Mən qaldım, günəş batdı
Gecədi, gec saatdı.

Əllərimiz körpü tək.
Burda əl-ələ duraq
Bu körpünün altından
Baxışlardan usanmış
Çay axsın sayrışaraq.

Mən qaldım, günəş batdı
Gecədi, gec saatdı.

Məhəbbət çay kimidi
Hey axır, axır, axır
Yox olur əvvəl-axır.
Həyat ləng gedir yaman
Ümid bizi atandan.

Mən qaldım, günəş batdı
Gecədi. Gec saatdı.

Gün keçir, ay keçir, illər də ötür
Geri dönməyəcək bir daha ömür
Eşq də qayıtmaz bir daha axı…
Çay körpü altından daima axır.

Mən qaldım, günəş batdı
Gecədi. Gec saatdı.

Mirabo körpüsünün
Altından Sena axır

Aramla axır-axır
Sevgimizi aparır.

İSİKAVA TAKUBOKU
(1885-1912, yapon şairi)

"BİR OVUC QUM" kitabından

Axan göz yaşımı saxlaya bilməyəcəm
Sevgilimi unuda bilməyəcəm
Axı o göstərdi mənə
Bir ovuc qumun necə tez töküldüyünü.

Doğrudanmı bütün ömrümü
Bu hisslə yaşayacam
Guya hardansa, yox yüksəklikdən
Yerə uçuram.

Hər insanın qəlbində
—Əgər o insandırsa—
Bir məhbus inildəyir—
ürəyinin həsrəti.

Soruşsalar: kədər nədir
Deyərəm: Şeylərin dadı
Çox erkən bildim
Bunu mən.

Payız səması
Bom-boşdur tamam
Bir kölgə də yox.
Sən necə də tənhasan, səma!
Barı bir qarğa uçaydı.

Elə bil çoxdan görmədiyim
Unutduğum dostumla görüşdüm
Su səsi eşitmək necə də xoşdu

"UNUDAMAYACAQLARIM" kitabından

Gecə dumanında
Dalğalar sahilə çırpılan yerdə
Bir qadın durmuşdu uzun zaman
Papirosunun odu işarırdı

Uzaq bir yerdə
Şərab içirdim
Elə bil kədərimin xıltıydı bu.

Qırmızı rəngli
Əski cib dəftərimdə
Bircə qeyd qalıb
Görüş saatı, yeri.

Yatağımı eyvana çıxartdılar
Uzun ayrılıqdan sonra yenə görüşdük
Axşam səması.

POL ELYUAR
(1985-1952 fransız şairi)

AZADLIQ

Məktəbli dəftərimdə
Masamın üstündə, hər bir ağacda
Torpağın, qumların, qarların üstə
Adını yazıram sənin — Azadlıq.

Hər kitab, hər dəftər, hər səhifədə
Ağ kağız üstündə, ağ vərəqlərdə
Daş, ya kül, ya qan üstündə
Adını yazıram sənin — Azadlıq.

Gecələrin sirli möcüzəsində

Bir tikə çörəyin, loğmanın üstdə
İlin hər vaxtında, hər bir fəslində
Adını yazıram sənin — Azadlıq.

Ay düşmüş göllərin parıltısında
Çöllərdə, dağlarda, uzaq üfüqdə
Dənizdə, gəmidə, yelkənlər üstdə
Adını yazıram sənin — Azadlıq.

Sübh çağı oyanan cığırlarda da
Yollarda, yolların ayrıcında da
Şəhərin hay-küylü küçəsində də
Adını yazıram sənin —Azadlıq.

Hər yanan çıraqda, sönən çıraqda
Haçansa qaldığım köhnə evlərdə
Yağışlı, çiskinli pis havalarda
Adını yazıram sənin — Azadlıq.

Ağuşa aldığım gözəl bədəndə
Əziz dostlarımın sifətlərində
Əlimə uzanan bütün əllərdə
Adını yazıram sənin — Azadlıq.

Darmadağın olmuş viranələrdə
Uçuq mayakların əski yerində
Həsrətli, kədərli sal divarlarda
Adını yazıram sənin — Azadlıq.

Görüşə ümidsiz ayrılıqlarda
Tənhalığın acı saatlarında
Ölümə aparan pillələr üstdə
Adını yazıram sənin — Azadlıq.

Bir sözün gücüylə dönüb həyata
Səni tanımaqçün gəldim dünyaya
Ümidlər, arzular, anılar üstə
Adını yazıram sənin — Azadlıq.

***

Sənin hər düşüncən, fikrin naminə
Sevdiyim o gözəl gözlər naminə
Dünən, bu gün, sabah, həmişə, daim
öpdüyüm dodaqlar, ləblər naminə.

Öldürülən ümidlər, zülmətdə göz yaşları
Boşluqda giley-güzar, ölümqabağı gülüş.

Məhbəsə atılmış kişilərimiz,
Sürgünlərə gedən qadınlarımız
Əqidə uğrunda qətl olunanlar
Bunların naminə, bütün bunların
Gərək qəzəbi biz cilovlamayaq
Silah qaldıraraq düşmənə qarşı
Qurban gedənlərin qisasın alaq.

SEN-CON PERS
(1887-1975, fransız şairi)

Kruzo üçün şəkillər

ÇANLAR

Yalın əlli qoca adam-insanlara qayıdan Kruzo!
Yəqin ağlayırsanmış şəhərə qabarma tək çan səsləri gələndə
Ağlamısan anaraq adanı — mehtablı gecələrdə
Dənizin uğultusun
Gecə qanadlarında səslənən musiqini — dalğaların səsini
Dəryaların dibindən gələn uğultuları.

DİVAR

Qarşındakı divarlar — qadağa kimidir arzularına
Kürsündə oturub dodaqlarını yalayırsan —
yağlı yeməklərin dadı damağını təhqir edir.
Və bu an yenə Adanı xatırlayırsan.

Təmiz bəyaz buludun yaşıl şəfəq çağında sulardakı əksini
Adada ormanlarda meyvələrin dadı düşür yada
Süd kimi şirin hava küləklərin duzuyla duzlanıb
Göylərə sevinc yayılıb
Meşələr yaşıl hörüklərini bir əsr hörür — bircə uzun gün…
Sən ordasan Kruzo!
Sifətin gecələrin sirrlərinə açıqdır — sanki əl uzatmısan.

CÜMƏ

Günəş işığında gülüş — ağaran fil dişi.
Cümə! Yarpaqlar nə yaşıldı, gölgən necə təzədi.
Qara-dinməz insanın qarşısında maviyə çalan bədəni əyəndə
qolların yerə çatırdı.
İndi hədiyyə olunmuş nimdaş şeylər geyirsən.
Qablardan süd içirsən.
Ambardan şey oğurlayırsan,
Balıq iyi verən ətli-qanlı aşbaz qadının tumanı cəlb edir səni
Parıltılı düymələrində sifətin əks olunur — yalançı
gülüşün, saxta təbəssümün.

KİTAB

Şəhərə yağan bitməz-tükənməz yağışlardan şikayətçisən,
İllərin sükutundan, tənhalığından sonra sənə qalan bumudur?
Kitabı açıb oxumağa başladın.
Orda adada dənizin uzaqlarına gözlərini zillədin
Güclü külək gözlədin.
Tufan kimi səni qaldıracaq, aparacaq küləyi
Gözlərin qarşısında zülməti parçalayacaq küləyi…

TOMAS STERNZ ELİOT
(1888-1965, ingilis şairi)

Duman içində kimi
Göz yaşı içində gördüyüm gözlər
Burada, bu ölüm səltənətində
Bir də dayandılar

Mənim qarşımda.
Amma bu yanda
Gözlərdə heç
Yaş görmədim mən
Bu da mənim cəzam olması gərək.

Bu mənim cəzamdır
Bir daha heç vaxt
Ölüm dünyasına düşənəcən mən
Bir də görməyəcəm o gözləri heç
Orda da bircə an, yalnız bircə an.
Gözündə göz yaşı parlayar yəqin
Sonra bizə gülüb yox olacaqdır.

***

Saat dörddə külək qopdu
Çanları yellədi, zəngləri çaldı
Ölümlə həyat arasında qaldı
Ölümün xəyali səltənətində
Anlamsız savaşın səsləri gəlir
Bu nədir yuxumu ya ayrı bir şey
Bəlkə də qaranlıq sular içində
Ağlayan sifəti gördüyümüzdür?

Və qaranlıq çayın o tərəfində
Yağılar dayanıb əli qılınclı.
Bu ölüm çayının o sahilində
Yaraqlı, silahlı durub gözləyir
Cəhənnəm atları və atlıları…

FEDERİKO QARSİA LORKA
(1898-1936, ispan şairi)

ETİBARSIZ ARVAD

Gecə yarısı dərənin lap qırağına
Özgənin arvadın aparanda mən

Elə bildim məsumdu

Sant Yaqo gecəsiydi
Sanki dilbir olaraq
Söndü bütün işıqlar
Susdu cırcıramalar.
Yuxulu döşlərə toxunanda mən
Yasəmən sayağı açıldı onlar
Uzun paltarının ətəkləriylə
İpək pərdələr tək xışıldayaraq
Oxşadı səslərlə qulaqlarımı
Bu aysız gecənin qaranlığında
Ağaclar elə hey pıçıldaşırdı
İtlər də uzaqdan, lap uzaqlardan
Elə hey hürüşür, hürüşürdülər.

Zil qara hörüyün torpağa basdım
İpək qalstukumu çıxardım bu dəm
O da paltarların çıxardı bir-bir.

Koburlu kəməri açdım tələsik
Dörd ətək korsajın çıxardı o da.
Yasəmən dərisi ay işığı tək
Par-par parlayırdı — inci, yaqutdu
Budları balıq tək çabalayırdı
Gah sakit olurdu, gah alışırdı.
Dünyanın ən gözəl, sonsuz yoluyla
Çapdım səhərəcən atlas madyanı.

Özünü kişi sayan heç ağzını boş qoymaz
Mənə dediklərini təkrar edə bilmərəm
Dan sökülən zaman o
Üstü qumlar, öpüşlər
Ayrıldı, çıxıb getdi.

Mən özümü apardım
Qaraçı cəngavər tək
Ona xatirə üçün

bir mücrü verdim, amma
o gecənin yalanın
yaddaşlarda saxlayıb
bir daha görüşmədik
Axı ərli arvaddı
Ancaq mənə demişdi,
and içmişdi — "məsumam".

ROBER DESNOS
(1900-1945, fransız şairi)

YAY KÜÇƏSİ HAQQINDA MAHNI

Gəl küçədə uzanaq
Günəşin isitdiyi səkilərin üstündə
Toz-tozanaq içində
Gündüzün səs-küyündən
Xilas olmuş küçədə.
Yerə duman enməmiş
Gecə fənərləri yandırılmamış
Gəl baxaq gölməçədə
Qürub çağı nə sayaq
Əks olunur, bir də ki,
Bulud keçir göylərdən
Sonra axır nəhayət
Damların üstündən
ulduzlar çıxır.

***

O qədər səni mən arzulamışam
O qədər içimdə sənin kölgəni
özümlə daşıyıb elə sevmişəm
Özümə heç bir şey, heç nə qalmayıb

Mən indi
Kölgələr içində kölgəyəm yalnız
Kölgənin kölgəsi, amma hərdən bir
Bol-bol günəş dolu ömrünə sənin
Kölcə salacam.

SESAR VALYEXO
(1892-1938, Peru şairi)

QARA DAŞ, AĞ DAŞ HAQQINDA

Parisdə öləcəyəm
Yağmurlar yağan zaman
Xatirəsin indidən yaşadığım bir gündə
Parisdə öləcəyəm bəlkə də bu gün kimi
Payız çərşənbəsində

Bir çərşənbə olacaq, çünki bu gün çərşənbə
Bunları yazan zaman qolum yaman sızlayır
Ömrüm boyu heç bir vaxt
Yalnızlığı içimdə bu gün kimi duymadım.

Sesar Valyexo öldü, zərbə alıb hər kəsdən
Kimsəni zərrə qədər heç vaxt incitməsə də
Kötəkləyib döydülər.
Şahidi — çərşənbələr
qollarında sümüklər
Yalnızlıq, yağmur, yollar…

PABLO NERUDA
(1904-1973, Çili şairi)

PARİSLƏ VİDALAŞMA

Dolğun sularıyla gözəldir Sena—
Ağaclar boyanmış boz kül rənginə
Hər yerdə çiçəklər, hər yerdə güllər
Hər yerdə qəsrlər, sivri qüllələr.

Vətənə dönürəm gözəl Parisdən
Çilidə görməli işlərim çoxdu
Hamıya borcluyam vətənimdə mən

Bu saat hər evdə süfrə açılıb
Məni gözləyirlər salamlamağa
Amma orda elə gözləyənlər var
Gözləyirlər gəlim, yaralasınlar.

Əlvida Paris, payız çağında
Sarı yarpaq düşür sahil bağında
Paris mavi rəngli gəmim, sevgilim
Əlvida çaylarım və körpülərim
Əlvida, sevdalı böyük ürəyin
Ətirli şərabın, dadlı çörəyin
Əlvida, əlvida, dostlar əlvida.
Nəğməylə dönürəm okeana mən
Mənəm köklərimə yenidən dönən
Dənizdir, torpaqdır — mənim vətənim
Bütün yer kürəsi şəhərim mənim
Küçəmin adıdır. "getdim daha mən"
Otağımın adı: "Bir də dönmərəm".

SONDA

Matilda, günlərimi, illərimi
Yuxudamı, qızdırmalar içindəmi
Beli qırılmış, qanına qəltan olmuş,
Gah huşum itirərək, gah da ki ayılaraq
Yatdım xəstəxananın yad çarpayısında
Gördüyüm ağ xalatlar, ayaqlarım qandallı.

Sonra bu uzun səfər…
Yenə dənizi gördüm.
Bir də əziz mehriban
Sifətin başım üstə.

Əllərin — quş qanadı
Mənim işığımda
Yurdum üstündə.

Nə gözəl iş idi yaşamaq bir vaxt
Yaşaya bildiyim gözəl zamanlar

İndi yalnız yuxularımda
Dünya dönüb olur mavi, lacivərd.
Ya da barmağına taxdığın incə
Zərif üzük tək.

LEOPOLD SEDAR SENQOR
(Seneqal şairi)

NYU-YORK

(jaz orkestr və solo truba üçün)
Nyu-York. Əvvəl məni gözəlliyin çaşdırdı
Qızıl saçlı, uzun qıçlı qızların.
Əvvəl-əvvəl qorxdum mən
Göydələnlər ətəyində dərin dərə küçələrdən
Ölü rəngli şüalar səmanın boğazından tuturdu
Əvvəl-əvvəl qorxmuşdum
Manhattenin çılpaq asfaltında
İki həftə dolaşdım
Üçüncü həftə başı birdən-birə ansızın
Pələng sıçrayışıyla
Üstümə cumdu həsrət
İki həftə səhrada, nə bir su, nə bir yarpaq
Boz damların üstündən quşlar yerə düşürdü
Daş kimi, qəmbər kimi.
Bir həssas söz, xoş baxış, görmədim iki həftə
Sinələrdə döyünən mexaniki ürəkdi

Sonra Harlemi gördüm,
Harlem hazırlaşırdı
Gecənin bayramına
Gün gecənin qabağından qaçırdı,
Çünki gecə gündüzdən

Daha kerçəkdi burda
Dinlə Nyu-York, dinlə Harlemin səsin.

Sənin öz səsindir
Qaboyun mis boğazında inləyən
Dinlə Nyu-York, bu sənin ürəyindir
Tam-tam ritmlərində uzaqlarda döyünən.

Dinlə Nyu-York
Qoy Harlemin qara qanı damarlarına axsın.
Qoy sənə ormanların
Qüvvətini qaytarsın
Bax elə bir zaman gəlib ki,
Ağ-qara insanlar qardaşlaşırlar.
Qulaqlarını tutma artıq
Allahın səsini eşidəcəksən
Saksofon sədaları altında Allah
Yaratdı altı gündə yerləri və göyləri.
Yeddnci gün gərnəşdi və uzanıb dincəldi
Qoca yorğun zəncinin sağlam yuxusun aldı.

MASQALARA DUA

Masqalar, ah, masqalar
Qara, qırmızı, bəyaz
Sifətin dörd nöqtəsi
Ordan Ruhu görürəm
Masqalar, sükut içrə sizi salamlayıram
Pələng sifətli babam —
Pələng sifətli masqa.
Əbədi bir həyatın saf-sağlam havasında
Sizinlə nəfəs alır,
Sizə tapınıram mən

Qırışları üzündən silmiş əziz masqalar
Məni də siz yaratdız
Bu gün köhnə Afrika əbədi gedən zaman
Süngülərlə deşilmiş ümidimiz oyansın

Bizə pambıq və qəhvə
Adamları deyirlər.
Bizi ölümə müti insanlar sayır onlar
Bizsə odlu, şux, oynaq rəqslərin adamıyıq.
Torpağa dəyən zaman qıçlarımız güc alır.

OKTAVİO PAS
(1914, Meksika şairi)

İKİ BƏDƏN

İki bədən görüşər
Gecə okeanında dalğalar təki
İki bədən görüşər
Torpaqların altında
Qovuşan köklər təki

Amma bəzən
İki bədən —
İki soyuq daş kimi
Gecə də səhra təkin
Bəzən də iki bədən
İki soyuq bıçaqdır
Gecədə parıldayan.

Bəzənsə iki bədən
İki üçan ulduzdur
Boşalmış səmalarda.

TADEUŞ RUCEVİÇ
(1921, polyak şairi)

NƏ YAXŞI

Nə yaxşı-meşədə moruq dərirəm
Elə bilirdim
Nə meşə qalıb,
Nə moruq qalıb.

Nə yaxşı
Ağac kölgəsində uzanıb dincəlirəm
Elə bilirdim
Nə ağac qalıb, nə kölgələri

Nə yaxşı
Səninləyəm
Ürəklər də döyünür
Elə bilirdim
Daha ürək qalmayıb.

UŞAQLARIN MƏHV EDİLMƏSİ

Uşaqlar qışqırırdı: Ana! Ana!
Axı mən sözə baxandım.
Bura nə qaranlıqdır, ana!

Görürsünüzmü, ölümə gedənləri
Balaca ayaqların balaca ləpirlərin?
Ciblərində kiçik oyuncaqları
Böyük və məşum bina
Burdan qalxan qara tüstü
Şaquli ağac kimi
Ölüm ağacı kimi.

Osvensim, 1944

MƏHƏBBƏT

Silahsızdıq
Durub dodaq dodağa
Gözümüzü geniş açıb
Üzdük keçdik
Göz yaşları və qanlar dəryasından

QAYIDIŞ

Elə şerlərim var
Onları bəyənmirəm
İllər keçir
Onlarla heç cürə barışmıram.
Ancaq onları nəsə ata da bilmirəm
Pis şerlərdir — amma, mənim şerlərimdir.
Onları mən doğmuşam.
Məndən aralı qalıb, uzaqda yaşayırlar.
Lakin bir gün gələcək
Gələcəklər yanıma
Uğurlu, uğursuzlar,
Şikəstlər və sağlamlar,
Rədd olunmuş şerlər,
Əzizlənmiş şerlər.
Hamısı bircə-bircə
dolacaqlar içimə
Təklikdə ölməyim deyə.

ALEKSEY SURKOV
(1899-1983, rus şairi)

Dar sobada odunlar
Yanır, alışır
Qazmada qarmon çalır
Səndən danışır.

Baxışın, gülüşündən

Söz açır çöllər
Mənim də həsrətimi
sənə yetirər.

Sən indi çox uzaqsan
Arada qarlar, qarlar
Sənə çatmaq çətindi
Ölümə dörd addım var.

Çal qarmon
Çovğunun acığına çal
Eşqimin istisi, alovu yenə
Bu soyuq qazmada güc verər mənə.

ALEKSANDR TVARDOVSKİ
(1910-1971, rus şairi)

Qayıqçı-avarçı
Ey cavan oğlan
Çəksənə avar
Tez məni o taya
Evimə apar.

—Qoca vaxtı bu mahnı hardan çıxdı, ay ana
—Anamdan eşitmişdim, indi düşdü yadıma
Kəndimizdə qaydaydı, qız köçəndə o taya
Elə bilirdik gedir tamam ayrı dünyaya
Qayıqçı-avarçı
Ay cavan oğlan
Çəksənə avar
Gəl məni o taya
Evimə apar.

O tayda meşələr daha qalındır
Daha sərt, soyuqdur qış oralarda
O taydan bu taya gəlib bu mahnı
O tayda başqadır yağış da, qar da
Qayıqçı-avarçı, ey cavan oğlan

Çəksənə avar
Tez məni o taya, evimə apar
Keçən keçdi, olan oldu
İndi neyləyək,
Son səfərə az qalıb
Gəlin gözləyək

Qayıqçı-avarçı
Ağ saçlı qoca
Çəksənə avar
Məni o sahilə,
evimə apar.

1965

KONSTANTİN SİMONOV
(1915-1979, rus şairi)
V. S. — ə

Gözlə məni, dönəcəm, amma lap çox gözlə sən
Mən mütləq qayıdacam, əgər belə gözləsən
Gözlə sarı yağışlar ürəyini sıxanda
Gözlə külək əsəndə, çovğunda, qar yağanda
Başqası unudulub yaddan çıxanda çoxdan
Məni gözlə qış, bahar, istilər düşən zaman
Yoxluğuma qoy mənim anam, oğlum inansın
Mənə rəhmət diləsin
Qoy dostlarım yığışıb ehsan yeməyi yesin
Sən onlara qoşulub, onlarla tikə kəsmə
Ölümümə inanıb yas tutmağa tələsmə
Ölümün acığına, dönnəm gələndə vaxtı
Gözləməyənlər desin: baxtı var imiş, baxtı
Gözləməyən nə bilsin od-alovun içindən
Belə gözləməyinlə məni xilas etdin sən

1941

BORİS SLUTSKİ
(1919-1986, rus şairi)

ALLAH

Allahın altında qaldıq bir vaxtı
Göylərdə deyildi Allahın taxtı
Mavzoley üstünə çıxardı hərdən
Ona canlı kimi baxardıq bəzən
Bir dəfə Arbatda gördüm onu mən
Gözləri yanırdı hirsdən, qəzəbdən
Allah beş maşında keçib gedirdi
Keşikçilər orda tir-tir əsirdi
Həm gecdi, həm tezdi, səhər çağıydı
Baxışı deşirdi, biz sayağıydı.
Hər şeyi görürdü ayıq gözləri
Qanundu, fərmandı bütün sözləri
Onun yanında yox, altındaydıq biz
Onun əlindəydi talelərimiz.

DAVİD SAMOYLOV
(1920-1990, rus şairi)

Qırxıncı ilər, əsrin qırxları
Barıt qoxuları, hərb qoxuları
Dava gəzir Rusiyanı başı başına
Təzə qədəm qoymuşduq gənclik yaşına.

VLADİMİR SOKOLOV
(rus şairi)

İyirminci əsr — səndən nə yazım
Usandım o qanlı dənizlərindən
İnsan hüquqları nəyimə lazım
Axı çoxdan insan deyiləm ki, mən.

***

Dumanlar içində Maşuk qeyb oldu
Sətirlər soyudu, susdu dinmədən
Ürəyim bir anda qorxuyla doldu
Yamanca qorxmuşdum sakitliyimdən.

Ehtiras şerimi daha didmirdi
Düşündüm: gəlibdi, bax, qocalığım
Amma heç özüm də bunu bilmirdim
Qocalıq deyil bu — yetkinlik çağım.

Zehnim ilhamımı eyləmişdi ram
Elə bilirdim ki, ilhamım solub
Amma əvvəlki tək güclüydü ilham
İlhama ustalıq əlavə olub.

YUZ ALEŞKOVSKİ
(rus şairi)

STALİN HAQQINDA MAHNI

Yoldaş Stalin siz böyük alimsiniz
Dilçilik elmindən başınız çıxar
Sovetin adicə məhbusuyuq biz
Dostumuz — meşədə gəzən canavar.

Niyə tutulmuşam, bilmirəm özüm
Prokurorun sözü yəqin haqdır haqq
Turuxan diyarı yerimiz bizim
Siz də sürgündünüz burada bir vaxt.

Burda keşikçilər quduzdu yaman
Mən əlbəttə bunu düşürəm başa
Sinfi mübarizə güclənən zaman
Hər kəs girişibdir bu cür yarışa.

İki marksisti gömdük torpağa
Şaxtalı, boranlı fevral sabahı
Biri müqəssirdi, meyl edib sağa

O biri yazığın yoxmuş günahı.

Başımız üstündə gah yağış, gah qar
Göz açmağa qoymur heç mığmığalar
Burda qığılcımdan alışdı odlar
Sağ olun, sağ olun, yoldaş Stalin
Bizi isidirlər sizin tonqallar.

YEVGENİ YEVTUŞENKO
(1933, rus şairi)

Ağappar qarlar yağar—
Sapa düzülmüş muncuq
Hey yaşardım, hey yaşar
Mümkün deyil, nə yazıq.

Yağar, əriyər qarlar
Kim əcələ yalvarar?
Mən də bir gün gedəcəm
Ölümsüzlük istəməm.

"Baş tutacaq möcüzə
Dünyaya dönəcəksən
Yenidən, lap təp-təzə
Ulduz kimi, qar kimi"
İnanmıram bu vədə
Heç bir vaxt olmayacam
Heç vədə, heç bir vədə.

Günahkar adamlar tək
Bir-bir salıram yada
Nə etdim, nə etmədim
Mən bu fani dünyada.

Həyatımdan da artıq
Rusiyanı sevdim yaman
Güləndə, ağlayanda,

Çayları daşan zaman,
Ya da buz bağlayanda.

Rusiyanı sevirəm
Zirvə, ucalarını
Puşkinini, Razini,
Bir də qocalarını.

Çox dolaşdım, dalaşdım
Ağır günlərim oldu
Amma hər saat, hər gün
Yaşadım Rusiya üçün.

Bilmirəm ki, çoxmudur,
ya azmıdır əməyim
Bir ümid bəsləyirəm
Rusiyaya azacıq
Bəlkə dəyib köməyim

Qoy məni unutsunlar
Yəqin qismət belədi.
Təki Rusiya yaşasın,
qoy yaşasın əbədi.

Ağappaq qarlar yağar
Hər zaman yağdığı tək
Puşkinin, Razinin dövründəki qar
Beləcə yağardı, yağacaq bura
Mən də bu dünyadan gedəndən sonra.

Ağ qarlar necə bərraq və parlaq
Ləpirləri nə tez itirir ancaq
Ölümsüz olmağı bacarmasam da
Bunu bilirəm ki, bir gün öləndə
Rusiya durunca olacam mən də.

ANDREY VOZNESENSKİ
(1933, rus şairi)

SİQULDADA PAYIZ

Vaqonun pilləsindən
Sallanmışam mən
Payızdı dünyada
Əlvida
Bu yay da ötdü
Vaxtdı, gedirəm
Göylərdə üzürlər qara buludlar
Necə tutulubdu indi havalar
Evin qapısını mismarlayırlar
Ağaclardan qopub düşür yarpaqlar
Elə bil musiqi uçandan sonra
Akkardeonun
Kənara atılmış boş qutusudur.
Bir vaxt çimdiyimiz ilıq dəniz də
İndi tənha qalmış sopsoyuq sudur.
Gedəri insanıq, bir gün gedirik
Atıb tərk edirik
Divarları, evləri,
Anaları, qızları.
Həyatın qanunudur
İnsan hamısın unudur.
Payızdır,
Əlvida, əlvida ey yay
Əlvida ey dostlar, düşmənlər,
Qud bay
Əlvida həyatım, sən də bir yoldun
Sağ ol ki, baş tutdun, sağ ol ki, oldun.
Səni də meşədə gördüyüm o gün
Məndən nəyi isə sorduğun üçün
İtinin ipini çəkdiyin üçün
Rastlaşdığımızçün o gün dünyada
Çox sağ ol, çox sağ ol
Həm də əlvida

Dirçəldim payızda, bununçün sağ ol
Məni öz-özümə izah etdin sən
Evin sahibəsi saat səkkizdən
Bizi oyadırdı, hər gün, hər səhər
Bayram günlərində səslənirdilər
Çox köhnə vallardan köhnə nəğmələr

Evdən ayrı-ayrı gedirik axır
İndi həm yaxınsan, həm də çox uzaq
Bilirəm hər bir şey təkrar olacaq
İnsan hər bir şeyi bir gün unudur
Birinin yerini başqası tutur
Təbiət boşluğu xoşlamır axı
Amma o da buna oxşamır axı
Təpələr üstündən bir qadın qaçar
Xəzəli ardınca aparır qatar
Son bahar — payızdır bax Siquldada
Bizi xilas edin, bizi.
Əlvida.

VLADİMİR VISOTSKİ
(1938-1980, rus şairi)

Gəmilər üzürlər, uzaqlaşırlar
Yenə bu limana yaxınlaşırlar
Yarım il keçməmiş mən də dönərəm
Sonra yarım ilə yenə gedərəm.

Amma nə yazıq ki, hamı qayıdar
Yaxşı yoldaşlardan, dostlardan başqa
Bir də ki dönmürlər ən etibarlı
Sevib oxşadığın gözəl qadınlar

Taleyə, özümə mən inanmıram
İnandım, inanmadım
Taleyi də danmıram.
İnanmaq istərəm — hər şey dəyişər

Gəmilər yandırmaq dəbdən tez düşər
Mən əlbəttə dönəcəm
Dostlarım, işlərimlə
Yarım ildən az çəkən gediş gəlişlərimlə
Sizlərçün təşnəyəm, sizlərçün acam
Sizinçün nəğmələr mən oxuyacam
Yarım il də keçməz inanın mənə
Yenə də buraya mən qayıdacam.

İOSİF BRODSKİ
(1940-1996, rus şairi)

ZƏVVARLAR

Arzular, duyğularım
Sənə tərəf gəlirlər
Yoluyla zəvvarların
V.Şekspir

Yollara çıxıblar yenə zəvvarlar
Arxada qalırlar meydanlar, tapınaqlar
Arxada qalırlar böyük bazarlar
Kədərlər, şəhərlər, Məkkə, Romalar
Qızmar günəş altında hər gün qaralar
Yorulmaz zəvvarlar, yazıq zəvvarlar
Şikəstlər, topallar, korlar, donqarlar
Ayağı yalınlar, aclar, çılpaqlar
Gözlərində sönər qəmli qürublar
Qəlblərində şəfəq hər gün oyanar
Yollara düşübdü yenə zəvvarlar

Arxada qalırlar çöllər, səhralar
Başları üstündə ulduzlar yanar
Hardasa oxuyur onlarçün quşlar
Bir gün boşalacaq, bir gün dolacaq
Dünya bax belədir, belə qalacaq.
Dünyada əbədi budur qalanlar:
Ümidlər, vədlər, sözlər, yalanlar

Dünyanı dərk edən bəlkə olacaq
Amma dünya — sonsuz, sonsuz qalacaq.

Odur ki, mənası yoxdur ey İnsan
Özünə, Allaha ya da inansan.
Onu bil insana sonunda qalar
Yalnız aldanışlar, bir də ki yollar.
Günəş tülu edib, qürüb edəcək
Zəvvarlar yenə bu yolu gedəcək.

Şair tək dünyanı tərənnüm edək
Əsgər tək torpağın altına gedək.

***

Bu yeni il də belə ötüşər, gedər
Ötən ildə qalsın qəm-qüssə, kədər
Qarşıdan gələn il ümid sənədir
Bol-bol işıq gətir, şan-şöhrət gətir
Kaş xoş günlər ola, çörək bol ola
Sağa ləngər vuran həyat da bəlkə
Yırğalanıb ləngər vuracaq sola.

***

Torpağa gömülməkçün, getmərəm bir ölkəyə
Vasilyev adasına gələcəyəm ölməyə
Biganə vətənimə üzümü söykəyərək
Yaşanmamış həyatı xatırlayan adam tək
Bir-bir salacam yada
Bu küçə, bu döngə, bu ev, bu ada.
Qulağıma bir səs birdən gələcək
Əlvida, ey dostum, sağ ol, əlvida.

BƏDİİ FİLMLƏRİN SSENARİLƏRİ:
Torpaq. Dəniz. Od. Səma.....3
Dədə Qorqud.....54
Qəm pəncərəsi.....131
Üzeyir ömrü.....171
Cavid ömrü.....223
Gecə işıqları.....289
SƏNƏDLİ FİLMLƏRİN SSENARİLƏRİ:
Daş saatın səsi.....303
Dədə Qorqud dühası.....307
Nəsimi.....314
Aşıq gördüyünü çağırar.....325
TELEVİZİYA FİLMLƏRİNİN SSENARİLƏRİ:
Bu — Səttar Bəhlulzadədir.....332
Bu — Cavaddır.....339
Anarla üz-üzə televiziya filmində yazıçının danışdıqları 348
Filmlər haqqında məlumatlar..... 378

TƏRCÜMƏLƏR

Qədim Şumer—Akkad mətni. Həyatın mənası haqda sahibiylə qulun söhbəti.....390
Platon (Əflatun).....393
Dhammapada (Fəzilət yolu).....397
Hind mətnləri.....402
Svami Vivekanandanın nitqi.....404
Sufiz.....406
Sənai. 1131-ci ildə yazdığı "Divarla əhatə olunmuş həqiqət bağı" kitabından.....412
Əl Qəzali.....414
İbn Həzm.....416
Zen buddizm mətnləri.....420
Qədim Çin fəlsəfəsi mətnlərindən..... 422
Sey Sonaqon.....424

İhara Saykaku.....426
Covanni Bokkaççço.....429
Mişel Monten.....431
Stendal.....436
Henrix Hayne.....441
Fridrix Nitsşe 446
Mark Tven..... 450
Anton Çexov.....455
Rabindranat Taqor.....457
Ziqmund Freyd.....461
Marsel Prust.....466
Ceyms Coys.....468
Frans Kafka.....470
Akutaqava Ryunoske.....473
Mixail Zoşşenko.....477
Ernest Heminquey.....483
Horxe Lüis Borhes.....488
Can Pol Sartr.....490
Alber Kamyu.....495
Anna Mariya Matute.....500
Şeirlər (sərbəst tərcümələr)
Şeir tərcümələrim haqqında bir neçə söz.....505
Peşmanın öz qəlbiylə söhbətlərindən.....507
Hesiod.....509
Ovidi.....510
"Varlıq kitabı"ndan
Ekkleziast.....512
Süleyman peyğəmbərin "Nəğmələr nəğməsi" kitabından ...515
Li Bo.....518
Du Fu.....520
Rudəki..... 522
Hafiz Şirazi.....523
Françesko Petrarka.....524
İnkvizisiya Qurbanı Naməlum.....525
Fransua Viyon.....525
Con Donn.....526
Basö.....527
Klassik Koreya şeirindən 528

Corc Qordon Bayron 532
Aleksandr Puşkin.....533
Fyodor Tütçev.....533
Mixail Lermontov 533
Nikolay Nekrasov 533
Apallon Maykov 534
Uolt Uitmen.....534
Şarl Bodler.....535
Rol Verlen.....536
Artür Rembo 537
Rayner Mariya Rilke 537
Aleksandr Blok 538
Velemir Xlebnikov 540
Nikolay Qumilyov 540
Aleksey Kruçenıx 541
Anna Axmatova 542
Boris Pasternak 542
Osip Mandelştam 546
Marina Svetayeva 547
Vladimir Mayakovski 547
Sergey Yesenin 550
Robert Frost 551
Giyom Apolliner 551
İsikava Takuboku 553
Pol Elyuar.....554
Sen Jon Pers.....556
Tomas Sternz Eliot 557
Federiko Qarsia Lorka 558
Rober Desnos 560
Sesar Valyexo 562
Pablo Neruda 562
Leopold Sedar Senqor.....564

Oktavio Pas 566
Tadeuş Rujeviç 567
Aleksey Surkov 568
Aleksandr Tvardovski 569
Konstantin Simonov 570

Boris Slutski 571
David Samoylov 571
Vladimir Sokolov 571
Yuz Aleşkovski 572
Yevgeni Yevtuşenko 573
Andrey Voznesenski 575
Vladimir Vısotski 576
İosif Brodski.....577

ANAR. Əsərlər. VI cild
Bakı, Nurlan, 2006, 690 səh.

Nəşriyyat redaktoru:
MƏLAHƏT QƏMBƏROVA

Bilgisayar tərtibi:
SEVİNC HÜSEYNOVA

Yığıcı:
ARZU MAHMUDOVA,
SEVİNC HÜSEYNOVA

Yığılmağa verilib: 17.02.2006.
Çapa imzalanıb: 05.04.2006.
Həcmi: 43 ç.v. Format:60x88 1/2
Ofset çap üsulu
Sayı: 500.
Qiyməti müqavilə yolu ilə

Nurlan Nəşriyyat Poliqrafiya Birliyi